# Şərq xalqları ədəbiyyatı
## *(müntəxəbat)*

**2 cilddə**

# I cild

*Azərbaycan Respublikası*
*Təhsil Nazirinin 28.04.2011-ci il*
*676 saylı əmri ilə dərs vəsaiti*
*kimi təsdiq edilmişdir.*

**"CONSTANT EMPIRE"**
**BAKI – 2011**

Kitabın çapına göstərdiyi köməyə görə Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyinə minnətdarlığımızı bildiririk.

**Elmi redaktor:** **HİMALAY QASIMOV**
*filologiya elmləri doktoru, professor*

**Rəyçilər:** **NİZAMİ CƏFƏROV**
*AMEA-nın müxbir üzvü, professor*
**TEYMUR KƏRİMLİ**
*AMEA-nın müxbir üzvü, professor*
**GÖVHƏR BAXŞƏLİYEVA**
*filologiya elmləri doktoru, professor*
**QƏZƏNFƏR PAŞAYEV**
*filologiya elmləri doktoru, professor*
**VÜQAR ƏHMƏD**
*filologiya elmləri doktoru, professor*
**TƏRANƏ RƏHİMLİ**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Naşir
**AKİF DƏNZİZADƏ**

**Kompyuter tərtibatı və korrektor işi:**
*Aytən Abbasova* *Günel Bağırova*
*Leyla Kərimova* *Elnurə Paşayeva*
*Ofelya Babayeva* *Validə Şıxəliyeva*

**Quliyev Elman**
**Q95** **Şərq xalqları ədəbiyyatı (müntəxəbat),** ***2 cilddə, 1-ci cild.***
Bakı, **"CONSTANT EMPIRE",** 2011, 760 səh.

Müntəxəbat İran, ərəb, hind, əfqan, tacik və Pakistan xalqlarının ədəbiyyat nümunələri əsasında tərtib edilmiş, Şərq ədəbiyyatının ayrı-ayrı görkəmli sənətkarlarının həyat və yaradıcılıqları haqqında məlumatlar verilmişdir. Kitab tələbə, mütəxəssis və ədəbiyyat həvəskarları üçün nəzərdə tutulur.

**ISBN: 978995244703**

***Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.***

**© Elman Quliyev, 2011**

## BİR NEÇƏ SÖZ

*Şərq tarixin başlanğıcı və insanlığın ilk vətənidir. Şərqin xoşbəxtliyi ondadır ki, insanlıq ilkin yaddaş, mənəviyyat və mədəniyyət laylasını Şərq beşiyində, onun isti qucağında dinləyib. Günəşin Şərqdə doğması da, peyğəmbərlərin, müqəddəs kitabların bu torpaqlara göndərilməsi də Allahın Şərqə hədiyyəsi və məhəbbətinin təzahürüdür. Şərqi Tarix deyil, Tarixi Şərq yaradıb. Bir mənada Tarix Şərqlidir desək, yəqin ki, səhv etmərik. Ona görə insan və cəmiyyətlə bağlı bir çox məsələlərin təməlində Şərq mahiyyətinin dayanması ideyasının üstündən sükutla keçmək qeyri-mümkündür. Tarixin sonrakı inkişaf dövrlərində formalaşmış Qərb mədəniyyət qütbü bir sistem kimi təsdiqini tapsa da, mahiyyətindəki Şərq ilkinliyini, Şərq ruhunu, bütövdən (Şərqdən) ayrılma xüsusiyyətini gizlədə bilməmiş, zaman-zaman ona rəğbət və mənəvi ehtiyac meyllərini nümayiş etdirmişdir. Balzak, Gete, Volter, Russo, Monteskyö, Tolstoy, Puşkin, Yesenin və s. Qərb mənəviyyat nəhənglərinin yaradıcılığındakı Şərq sevgi elementləri əslində Şərqlə bağlılığın əlamət göstəricisidir. Görünür, insan yaddaşında min illər qorunan, inkişafın hansı formasından asılı olmayaraq sonrakı mənəviyyat mərhələsinin mahiyyətində gizlənən ilkinliyin (Şərq ruhunun) təsiri hansısa formada (genetik bağlılıq və ya yaddaş*

*funksiyasında) özünü göstərə bilir. «Şölələnən ruhu ilə tarixin başlanğıcına təkan verən Şərq» **(Hegel)** ənənəviliyinin yeni dövr dünya modelinin (siyasi-iqtisadi və mədəni) təməl daşıyıcı olduğunu inkar etmək mümkün deyil. Amma Şərq mahiyyəti daha çox mənəvi-əxlaqi keyfiyyət göstəricisidir və bu göstərici ədəbi-bədii düşüncə müstəvisində insana təsiri ilə (kamilləşmə aspektində) seçilir, xüsusi əhəmiyyət kəsb edir.*

*Bəşər mədəniyyəti tarixində Şərq ədəbi-mədəni nümunələri xüsusi yer tutmuş və silinməz izlər buraxmışdır. Demək lazımdır ki, dünya ədəbiyyatı xəzinəsinin genişlənib zənginləşməsində Şərq ədəbiyyatının rolu əvəzolunmazdır. Qoca Şərqin müdrik əhvalat və nağılları, ibrətamiz hekayə və dastanları min illər ərzində nəinki Şərqin, eyni zamanda Qərbin də bədii təfəkkürünün sonrakı yazılı ədəbi inkişafına təsir göstərmişdir. Bu mənada qədim Babilistanda, Azərbaycanda, İranda, Misirdə, Hindistanda, Ərəbistanda və s. yerlərdə yaranan, formalaşan bədii materiallarda təbii olaraq fərqli zövq və dəyişmələrdən çox, ümumi təsəvvür və dünyagörüşlərin mövcudluğu şəksizdir və yüksək formada ortaya çıxmışdır. Daha doğrusu, Şərq ədəbi məktəbinə daxil olan qüdrətli qələm sahibləri ayrı-ayrı xalqları təmsil etsələr də, eyni məktəbin davamçılarından birinə çevrilmişlər. Ona görə də zəngin ədəbi irs qoyub getmiş türk, ərəb, hind, fars, əfqan, tacik və s. xalqların sənətkarları bütövlükdə Şərq ədəbiyyatının qızıl fondunu zənginləşdirmiş və yeni bir ədəbi aləm formalaşdırmışlar.*

*Şərq ədəbiyyatı ecazkar sənətkarlığına, alternativi olmayan şeir təbinə, dil baxımdan rəvan və axıcılığa görə seçilən sənətdir.*

*Şərq ədəbiyyatı mərhələsi bədii nümunələri baxımdan fərqli olduğu kimi, ictimai-siyasi, tarixi və s. keyfiyyətinə görə də zəngindir, əvəzolunmazdır. Bunun üçün də Şərq xalqlarının ədəbiyyatının bir fənn kimi tədrisinə, həmin xalqların bütövlükdə mədəniyyətinin, mədəni tarixinin, başqa xalqlarla mədəni-elmi qarşılıqlı əlaqəsinin öyrənilməsinə bu gün vacib şəkildə ehtiyac duyulur. Universitetlərin filologiya fakültələrində «Şərq xalqları ədəbiyyatı» adlı fənnin tədrisi bilavasitə bu zərurətdən doğur. İnkaredilməz həqiqətdir ki, Azərbaycan ədəbiyyatı Şərq ədəbiyyatının bir qoludur və o, daha çox Şərq mədəniyyəti və bədii təfəkküründən qidalanmışdır. Məhz Azərbaycan ədəbiyyatının tədrisi prosesində, tələbələrin mənimsəmə qabiliyyətlərinin yüksəlməsində, qarşıya çıxan bəzi çətinliklərin aradan qaldırılmasında və müəyyən ədəbi-bədii, tarixi əlaqələrin yaradılmasında Şərq ədəbiyyatının tədrisinə ehtiyac vardır. Hesab edirəm ki, Şərq ədəbiyyatından təcriddə tam şəkildə nə Azərbaycan ədəbiyyatını öyrənmək, nə də öyrətmək mümkündür. Ona görə də günümüzə qədər Şərqin keçdiyi çoxəsrlik ədəbi-mədəni tarixi yol, bu yolun ayrı-ayrı tanınmış, populyar sənətkarları, nadir sənət nümunələri və s. haqqında məlumatların verilməsi böyük əhəmiyyət daşıyır. Şübhəsiz, Şərq ədəbiyyatı geniş əhatə dairəsinə malik olsa da, tədris prosesində proqrama uyğun nəzərdə tutulan xalqların (fars, hind, ərəb, tacik və s.)*

*ədəbiyyatının əsasən klassik və müasir mərhələlərinə diqqət yetirilmişdir. Ona görə də hazırladığımız 2 cildlik «Şərq xalqları ədəbiyyatı müntəxəbatı»na həmin xalqların tanınmış sənətkarlarının əsərlərindən seçmə bədii nümunələr daxil edilmiş (buradakı izahlar əsasən tərcüməçilərə məxsusdur), kitabda sənətkarların həyat və yaradıcılıqları haqqında qısa məlumat verilmişdir. Türk xalqları ədəbiyyatı ayrıca bədii istiqamət olduğundan biz bu ədəbiyyat nümunələrini (Şumer və İraq-türkman ədəbiyyatları istisna olmaqla) müntəxəbata daxil etmədik. Güman edirik ki, ilk dəfə oxucu görüşünə gələn «Şərq xalqları ədəbiyyatı müntəxəbatı»nda yer alan bədii nümunələr və tərcümeyi-hal xarakterli yazılar tədris prosesinə kömək etməklə yanaşı, hər bir ədəbiyyatsevərdə həm sənətkarlar, həm də ayrı-ayrı milli ədəbiyyatlar haqqında müəyyən təsəvvür yaratmağa kömək göstərəcəkdir.*

# QƏDİM ŞUMER ƏDƏBİYYATI

## 𒄑 «BİLQAMIS» dastanı



## «BİLQAMIS» DASTANI



Şumerlər qədim Şərqdə zəngin mədəni irsə sahib olan xalqlardan biridir. Şumerlərin etnik mənsubiyyəti, Dəclə və Fərat çayları arasında yaşayana qədər bu ərazilərə haralardan gəlmələri, dili, mədəniyyəti, məişəti, idarəçilik sistemləri və s. haqqında elmi mənbələrdə müxtəlif fikirlər mövcuddur. Şumerlər təkcə qədim Şərqdə yox, o cümlədən Qərbdə də elm və mədəniyyətin, əkinçilik, şəhərsalma, siyasi idarəçilik və başqa sahələrin inkişafında mühüm rol oynamışlar. İngilis alimi L.Bullinin dediyi kimi, «Qərb mədəniyyəti də Şumerdəki ana ocaqdan şölələndi. Misir, Babil, Assuriya, Finikiya, qədim yəhudi və nəhayət, Yunan mədəniyyətlərinin mənbəyini də Şumerdə axtarmaq lazımdır.» Şumer tarixi və mədəniyyətinin görkəmli tədqiqatçısı Kramerin «tarix Şumerdən başlayır» fikri təsadüfi səslənmir, tarixə, fakta söykənməklə böyük həqiqətləri təsdiqləyir. Şumer dili Şərqin ən əhəmiyyətli mədəniyyət və siyasi dili olmuşdur. Təxmini hesablamalara görə daş və gil lövhələr üzərinə bu

dildə 150-dən çox mətn yazılmışdır. Şumer dili eyni zamanda dövlət dili kimi qədim Şərqin aparıcı dillər sırasında yerini mühafizə edə bilmişdir. Əldə olunan mətnlərin, maddi sübutların və s. təhlili onu göstərir ki, Şumerlər etnik baxımdan türklərə daha yaxın olmuşlar. Şumer dili ilə türk dillərinin söz köklərindəki oxşarlıq, bir sıra digər dil xüsusiyyətləri eyniliyi, əski Şumer mifoloji mətn, dastan və nəğmələri ilə türk folklorundakı süjet, düşüncə və s. sistemləri arasında yaxınlığın olması genetik baxımdan Şumer-Türk bağlılığını təsdiqləməyə imkan verir. «Bilqamıs» da daxil olmaqla Şumerlərin digər yaradıcılıq nümunələri ilə türkün təxminən XVII-XVIII əsrlərə qədər yaranan mifoloji və dastan tipləri arasında müəyyən əlaqələr mövcud olmuşdur.

«Bilqamıs» (bəzi mənbələrdə «Gilqamış», «Bilqəmes», «Bilqamış») Şumer ədəbiyyatının ən möhtəşəm abidəsidir. Əsər təxminən 5 min il bundan əvvəl Dəclə və Fərat çayı hövzələrində yaşayan Şumerlər tərəfindən şifahi şəkildə yaradılmış, e.ə II minillikdə Akkad dilinə tərcümə edilərək 12 gil lövhə üzərinə köçürülmüşdür. Əsərin müxtəlif variantları olsa da, bütün variantlarda Bilqamıs (hər şeyi bilən adam mənasında) mərd və igid insan kimi təqdim olunmuşdur. O, e.ə. təxminən 2800-2700-cü illərdə yaşamış, Şumer şəhəri Urukun əsasını qoymuş və ona rəhbərlik etmiş (kahin və sərkərdə kimi) tarixi şəxsiyyətdir. Dastanın I lövhəsində Bilqamıs haqqında belə məlumat verilir:

*O, hər sirri bilərdi, o hər şeyi görərdi,*
*Yeri su basmasından bizə xəbər verərdi.*
*Uzun yollar dolaşıb, yorulub əldən düşdü.*
*Başına gələnləri sal bir qayaya döydü.*
*Sonra hasara alıb adını Uruk qoydu.*

*O, bütün insanlardan əzəmətli, ucadır,*
*O, insandır, yarıdan çoxu tanrıdır ancaq.*
*Heç kəs ona tay olmaz – onun görkəminə bax!*

*Urukun divarını odur ucaldan belə,*
*Çılğınlıqda, qüvvədə oxşayır qızmış kələ.*
*Döyüşdə yarağının yox tayı-bərabəri*

*Uruk oğullarının kahini tək birdir o,*
*Əzəmətli, şöhrətli, hər şeyə qadirdir o.*
*Qoymaz ki, anaların gəlinləri dul qalsın,*
*Oğulları dalınca uzanan boş yol qalsın.*

Bilqamıs şər qüvvələrə qarşı vuruşan, ağlı və gücü birləşdirən, dünyada harmoniya yaratmaq istəyən, qorxu bilməyən qəhrəman tipidir. Dastanda məzmun lövhələr şəklində təqdim olunur. Bu hissələrdə Bilqamısın Urukun əsasını qoyması, Enkidu ilə dostluğu, Sidr meşələrinə səyahəti, orada Humbabanı öldürmələri, Humbabanı öldürdüyünə görə Enkidunun Allahın qəzəbinə gəlməsi və Enkidunun ölməsi, sonda Bilqamısın əbədi həyat ardınca uzaq ellərə getməsi, orada dirilik çiçəyini tapıb elinə gətirərkən ilanın yolda həmin çiçəyi oğurlaması və s. ilə bağlı mətnlər diqqəti cəlb edir.

«Bilqamıs» dastanında özünə yer tapmış yerüstü və yeraltı aləm, ölümə qarşı mübarizə, əbədi həyat axtarışı, yuxu yozumu, türk düşüncəsində el ağsaqqalı və el qəhrəmanının xalqa münasibəti və s. məsələlərə bu və ya digər formada əski türk abidələri və yazılı ədəbiyyat nümunələrində də rast gəlmək mümkündür.

# «BİLQAMIS» DASTANI

**(ixtisarla)**

## CADUGƏR
## SİN-LİKE-UNNİNİNİN DİLİNDƏN
## BİLQAMIS HAQQINDA DASTAN

### *I LÖVHƏ*

Dünyanın bu başından, o başına dolaşmış,
Dənizləri adlamış, uca dağları aşmış.
Dostu ilə birlikdə düşmənləri haqlamış,
Müdrikliyə yetişmiş, dünyanı dərk eləmiş
Bir insan haqqındadır bizim bu dastanımız.

O hər sirri bilərdi, o hər şeyi görərdi,
Yeri su basmasından bizə xəbər verərdi.
Uzun yollar dolaşıb, yorulub əldən düşdü,
Başına gələnləri sal bir qayaya döydü,
Sonra hasara alıb, adını Uruk qoydu,

Müqəddəs Eananın qalası oldu Uruk.
Divarlara nəzər sal, bürcləri düzüm-düzüm,
Bu cür səddə bərabər sədd görməz əsla gözün.
Keçmişin yadigarı, bu qədim divara bax,
İştarın mənzilinə – Eanaya gəl çıxaq.

Heç gələcək şahlar da tikə bilməz bu sayaq.
Çıx Uruk qalasının divarı üstə yeri,
Gör özülü necədir, necədir kərpicləri.
Divar bişmiş kərpicdən bərk hörülüb başa-baş,
Yeddi müdrikmi qoyub qalanın himinə daş?

---

O bütün insanlardan əzəmətli, ucadır.
O insandır, yarıdan çoxu tanrıdır ancaq,
Heç kəs ona tay olmaz – onun görkəminə bax!

Urukun divarını odur ucaldan belə
Çılğınlıqda, qüvvədə oxşayır qızmış kələ,
Döyüşdə yarağının yox tayı-bərabəri,

Təbil səslənən kimi oyanır igidləri –
Sıçrayır yatağından Urukun ərənləri:
«Ataların yurdunda oğul qoymaz Bilqamıs
Özü öz başına o gecə-gündüz açar iş.
O hasarlı Urukun kahinimi Bilqamıs?

Uruk oğullarının kahini tək birdi o,
Əzəmətli, şöhrətli hər şeyə qadirdi o.
Qoymaz ki, anaların gəlinləri dul qalsın
Oğulları dalınca uzanan boş yol qalsın».
Onların gileyini eşidirdi tanrılar.
Göylərdən deyirdilər, ey ulu hökmdar,

«Sən igid yaratmışsan, oxşayır qızmış kələ,
Döyüşdə silahının yox tayı-bərabəri,

Təbil səslənən kimi oyanır igidləri!
Sıçrayır yatağından Urukun ərənləri
«Ataların yurdunda oğul qoymaz Bilqamıs
Özü öz başına o gecə-gündüz açar iş.
O hasarlı Urukun kahinimi Bilqamıs?

Uruk oğullarının kahini tək birdi o,
Əzəmətli, şöhrətli, hər şeyə qadirdi o.
Qoymaz ki, analarin gəlinləri dul qalsın
Oğulları dalınca uzanan boş yol qalsın».
Çox zaman bu gileyi Anu da eşidərdi.

Ararunu pənaha çağırardılar onlar,
«Aruru, Bilqamısı bu cür yaratmısan sən.
Bir igid də yarat ki, gücdə olsun ona tən.
Bir-biriylə qoy onlar həmişə yarışsınlar
Uruk da tamaşa edib, bir az eyni açılsın».
Aruru eşidərək onların sözlərini
Öz qəlbində yaratdı Anunun bənzərini
O yuyub əllərini...
Gildən bir şey yoğurub, göylərdən yerə atdı,
Qüvvətli bir qəhrəman – Enkidunu yaratdı.
Gecəyarı törəyən Ninurta döyüşçüsü
Yun kimi qalın tüklə bədəni örtülmüşdü
Qadın kimi başında uzun saçları vardı.
Saçının hər çəngəsi sünbül kimi sıx idi,
Adamlardan uzaqdı, xəbərsizdi dünyadan.
Şöhrətli Sumukantək geyimi vardı onun,
Cüyürlərə qoşulub çöllərdə ot yeyirdi.

Vəhşilərlə birlikdə o da su üstə gəlir,
O da yırtıcılarla su içib şənlənirdi.
İnsandı: balıqçıydı, həm də mahir ovçuydu.
Suvatların məskəni məskəni idi onun.
Birinci, həm ikinci, həm də üçüncü günü.
Suvatların məskəni məskəni idi onun.

Bir ovçu gördü onu, tamam rəngi dəyişdi.
Yığıb mal-qarasını evinə yola düşdü.
Dəhşətə gəldi, susdu, dili tutuldu onun
Ürəyini qəm üzdü, qəlbini örtdü bulud.
Bu kədər lap işlədi iliyinəcən onun.
Yol gəlib yorğun düşmüş yolçuya bənzədi o,

---

Ovçu xəbər gətirib, atasına söylədi:
«Ata, dağlardan enmiş, bir igid kişi gəlmiş,
Bütün eldə o ərin əllərinə tay olmaz
Göydən düşmüş daş kimi çox ağırdı əlləri
Bütün dağları gəzir, veyillənir, dolaşır,

Həmişə vəhşilərlə suvatlara yanaşır.
O həmişə yolunu suların üstə salır.
Qorxuram yaxınlaşam, cürətim çatmır mənim!
Mən quyular qazıram, o doldurur onları,

Mən tələlər qururam, o dağıdır onları,
Çölün vəhşilərini çıxarır o əlimdən,
İmkan vermir ov tutam dünyanın çöllərindən».

---

Atası da üz tutub ona belə söylədi:
«Oğul balam, Bilqamıs yaşayır o Urukda.

Ondan güclü, qüdrətli adam yoxdur dünyada.
Bütün eldə tanınır, qüdrətlidir əlləri,
Göydən düşmüş daş kimi çox ağırdır əlləri!
Get ona üz tutgunan,
Danış həmin adamın qüdrətindən, gücündən,
O sənə şəhvət dolu gözəl qadın verəcək.

Yensə həmin adamı yalnız qadın yenəcək.
Vəhşiləri su üstə o aparan zamanda
Qoy o qadın soyunsun o ərin qabağında.
O, qadını görəntək ona yaxınlaşacaq.
Bunu görən vəhşilər ondan uzaqlaşacaq».

Ovçu öz atasının sözlərini eşitdi,
Yollandı, Bilqamısla görüşmək üçün getdi.
Yol aldı addım atdı birbaş Uruka sarı.
Bilqamısın önündə durub sözə başladı:
«Uca dağlardan enib, bir igid kişi gəlmiş,

Bütün eldə o ərin əllərinə tay olmaz.
Göydən düşmüş daş kimi çox ağırdır əlləri
Bütün dağları gəzir, veyillənir, dolaşır,
Həmişə vəhşilərlə suvatlara yanaşır.
O həmişə yolunu suların üstə salır.

Qorxuram yaxınlaşam, cürətim çatmır mənim,
Mən quyular qazıram, o doldurur onları,
Mən tələlər qururam o dağıdır onları.

Çölün vəhşilərini çıxarır o əlimdən
İmkan vermir ov tutam dünyanın çöllərindən.»

Bilqamıs qulaq asıb sonra dedi ovçuya.
«Get, şəhvətli Şamxatı götür özünlə apar.
Vəhşiləri su üstə o suvaran zamanda,
O qadını görəntək, ona yaxınlaşacaq,

Bunu görən vəhşilər ondan uzaqlaşacaq».
Ovçu gedib Şamxatı özü ilə apardı,
Yola çıxıb bir başa doğma yerlərə vardı.
Üç gündən sonra onlar həmin yerə gəldilər.
Ovçuyla həmin qadın ordaca gizləndilər.
Bir-iki gün səbrlə dayanıb gözlədilər.
Vəhşilər su üstünə budur enib gəlirlər,

Yırtıcılar oynayıb su ilə şənlənirlər,
Vətəni dağlar olan Enkidu da onlarla,
Bir gəzir ahularla, qidalanır otlarla
Vəhşilərlə birlikdə o da su üstə gəlir,

O da yırtıcılarla su içərək şənlənir.
Şamxat burada gördü insanla vəhşiləri
Qalın çöllərdən çıxıb gəlmiş o qorxunc əri.
Ovçu dedi ki, «Şamxat! Tez ol aç öz qoynunu,
Ağ bədənini göstər, sehrlə tezcə onu.
O səni görən kimi yanına gələsidir.

Çəkinmə, qorxma ondan nəfsini qəbul elə.
Soyun paltarlarını, qoy girsin ağuşuna!
Onu əyləndir, zövq ver, sən bu işdə mahirsən.
Onunla bir boy atan vəhşilər yadlaşacaq,

Güclü bir ehtirasla o sənə sarmaşacaq».
Şamxat döşünü açdı, bədənini göstərdi,
Nəfsini qəbul edib, onun qoynuna girdi –
Soyundu paltarını, o girdi ağuşuna.
Qadın ona zövq verdi, o bu işdə mahirdi.

Ər igid ehtirasla ona bərk-bərk sarıldı
Altı, yeddi gün keçdi, həmin yava qadından
Enkidu əl çəkmədən, aramsız ləzzət aldı.
Nəvazişdən doyaraq
O vəhşilər səmtə üz tutub gedən zaman
Enkidunu görəntək üz döndərdi vəhşilər.

Çöl heyvanları onun cismindən yan qaçdılar.
Enkidu cəld sıçradı, canı zəifləmişdi,
Ayağı yerimirdi, vəhşilərsə getmişdi.
Bildi əvvəlki kimi, qaça bilməz yerindən.
Ağlı gəldi başına, fikirləşdi dərindən –

Gəlib yava qadının qarşısında diz çökdü,
O şəhvətli qadının sifətinə göz dikdi.
Görsün nə söyləyəcək, qulaqları səsdədir.
Qadın sözə başlayıb Enkiduyə söylədi:
«Sən qəşəngsən, Enkidu, tanrıya bərabərsən

Niyə vəhşilər ilə bu çöllərdə gəzirsən?
Gəl səni aparım mən, o hasarlı Uruka –
O yaraşıqlı evə, Anunun məskəninə.
Bilqamısın hünərlə, qoç kimi igidlərə
Qüdrətini göstərib məskən saldığı yerə».

Söylədi ki, bu xəbər onun yatır qəlbinə,
Onun müdrik ürəyi dost axtarır özünə.
Enkidu o şəhvətli qadına belə dedi:
«Gəl, Şamxat, məni apar, apar məni oraya
O müqəddəs mənzilə, Anunun məskəninə

Bilqamısın hünərlə, qoç kimi igidlərə
Qüdrətini göstərib məskən saldığı yerə.

Urukda haray sallam, mənim güc, qüdrətim var
Çöldə doğulanların qüvvəsi də çox olar!»
«Gedək, Enkidu, gedək, Uruka tut üzünü,

Bilqamıs olan yerin mən bilirəm yolunu.
Gedək, Enkidu, gedək, o hasarlı Uruka –
O yerə ki, adamlar şux geyimlə öyünür.
O yerə ki, hər günü, toya, bayrama dönür.
O yerə ki, ucalar arfanın, sincin səsi,

Şəhvətli qadınların sonsuzdur əyləncəsi.
Şirin ehtirasları, min bir sevinc vəd edir.
Böyük adamları da gecə yerindən edir.
Enkidu, görməmisən sən həyatın dadını,
Əzabkeş Bilqamısın sonsuz istedadını.

Sən bir ona nəzər sal, üzünə diqqət yetir,
O mərddir, ər gücüylə gözəldir, qüdrətlidir.
Onun var gövdəsindən yalnız ehtiras yağır.
O səndən heybətlidir, həm güclüdür, həm ağır.
Gecə-gündüz bilmir o, dinclik, oturmaq nədir!

Sən öz çılğınlığını gəl, Enkidu, ələ, al,
Onu Şamaş da sevir, Anu, Ellil, Eya da,
Ona ağıl bəxş edib Allahlar dərya boyda.
Sən dağdan enməmişdən, gəlməmişdən buraya
O Urukda Bilqamıs, səni yuxuda görmüş.

Oyanaraq Bilqamıs, yuxusunu yozmuşdu.
Anasına demişdi:
«Mənim anam, bu gecə yuxu gördüm yatanda
Gördüm ulduzlar dəyir gözümə asimanda.
Elə bil daş düşdü göydən mənim başıma,
Onu yerdən götürdüm, gördüm ağırdı məndən.

Silkələmək istədim, tərpənmədi yerindən.
Qalxdı onun üstünə bütün Uruk diyarı
Camaat ellik ilə yeridi ona sarı.
Dövrəyə aldı onu ər igidlər hər yandan

Yoldaşlarım öpdülər onun ayaqlarından.
Sevgilim kimi sevib onu basdım bağrıma
Sonra onu gətirdim ayağına mən sənin,
Onu mənə tay tutdun, mənə bərabər dedin.»

Bilqamısın anası – müdrik qadın söylədi:
«Göylərdə ulduz kimi gözlərinə sataşan,
Bir daş kimi göylərdən sənin üstünə düşən
Sən yerdən qaldırdığın, səndən də ağır olan,
Silkələmək istəyib, tərpədə bilmədiyin,

Sevgili qadın kimi öz bağrına basdığın,
Sonra da ayağıma gətirdiyin o insan,
Sənə bərabər bilib, tay bildiyim o insan

Güclü bir həmkarındır, dostun, xilaskarındır,
Bütün eldə o ərin əllərinə tay olmaz.
Göydən düşmüş daş kimi çox ağırdı əlləri,
Sevgilin kimi onu bağrına basacaqsan,
Ürəkdən sevəcəksən.

O sənlə dost olub, səni tərk etməyəcək –
Gördüyün o yuxunun bax belədir yozumu».
Öz doğma anasına Bilqamıs belə dedi:
«Mənim anam, mən yenə yatanda yuxu gördüm.
Gördüm Urukda yerə bir balta düşüb, hamı
dövrəsinə yığılıb:
Qalxıb ayağa durmuş, bütün Uruk diyarı
Camaat ellik ilə yeriyir ona sarı.
Dəstə-dəstə axışır, hamı gəlib yığılır.
Sevgilim kimi sevib onu basdım bağrıma,
Sonra onu gətirdim ayağına mən sənin

Onu mənə tay tutub, mənə bərabər dedin».
Bilqamısın anası – Ninsun beləcə dedi:

«Bax, o balta yerinə sən bir adam görmüsən,
Sevgilin kimi onu basacaqsan bağrına.
Onu sənə tay bilib bərabər tutacağam,
Dedim ki, o olacaq dostun və xilaskarın.
Bütün eldə o ərin əllərinə tay olmaz.
Göydən düşmüş daş kimi çox ağırdı əlləri».
Bilqamıs anasına dedi:

«Ellil buyurubdusa – gərək öyüdçüm olsun,
Qoy elə yaxın dostum olsun mənim öyüdçüm.

Mən də ki, öz dostumun öyüdçüsü olaram».
Belə yozdu o özü özünün yuxusunu».
Enkiduya danışdı Şamxat bu hadisəni,
Sonrasa başladılar sevişməyə.

## *III LÖVHƏ*

El ağsaqqalları ona xeyir-dua verdilər,
Bilqamısa yol üçün nəsihət elədilər:
«Bilqamıs, öz gücünə çox da arxayın olma,
Üzdən laqeyd ol sən, güclü zərbə vur amma.
Həmişə öndə gedən yoldaşını qoruyar,

Birinci cığır açan öz dostuna yol açar.
Səndən qabaqda getsin qoy Enkidu gedəndə,
Sidrə gedən yolu o səndən yaxşı bilir.
O döyüşdə çox olub, vuruşmada mahirdi,
Enkidu, qoru onu, qoru öz dostunu sən

Sən onu qucağında xəndəklərdən keç apar,
Biz sənə tapşırırıq şahı – belədir qərar
Qayıdanda sən bizə sağ-salamat ver onu».
Bilqamıs söhbət açıb Enkiduya söylədi:

«Dostum, gəl Egalmaxdan yolumuzu salaq biz,
Şah anası Ninsunun hüzuruna buyuraq
Böyük Ninsun müdrikdir, hər şeydən xəbərdardı,
Bizə məsləhət verər, doğru yol göstərər o»
Əl-ələ tutub dostlar – Bilqamısla Enkidu

Egalmaxa getdilər.
Bilqamıs daxil oldu şah anası mülkünə:
«Ninsun, çıxacağam mən çətin, uzaq yürüşə –
Humbaba olan yerə.

Heç bələd olmadığım bir savaşa gedirəm
Heç bələd olmadığım bir yola çıxıram mən.
«Neçə ki, mən gedirəm, geriyə dönməmişəm,
Neçə ki, mən çatmamışam Sidr meşələrinə,
O zalım Humbabanı neçə ki, əzməmişəm,

Neçə ki, şər işləri dünyadan silməmişəm
Sən qamətinə layiq gözəl paltarlardan gey,
Şamaşın şərəfinə qarşına buxurdan qoy!»
Bilqamısın yanıqlı nitqinə qulaq asan
Şah anası Ninsunun qəlbini qubar aldı.

Ninsun dönüb özünü aramxanaya saldı.
Sabunlu köklər ilə bədənini yudu o.
Öz qamətinə layiq gözəl paltar geydi o.
Sinəsinə yaraşan boyunbağı da saldı
Belinə qurşaq vurub, başına tac qoydu o.

İgidlərin ardınca bir cam təmiz su atdı.
Pillələrlə çıxıb o evin damına qalxdı,
Qalxıb tərif dedi o
Şamaşın şərəfinə,
Əlini göyə tutdu, un qurbanı qoydu o,
Şamaşın şərəfinə.

«Niyə bir oğul verdin mənə sən Bilqamıs tək,
Niyə onun köksünə qoydun narahat ürək.
Oyatmasın yerindən, o, yoldan qalmayacaq,
Humbabanın dalınca çətin yola gedəcək.
Heç bələd olmadığı bir savaşa girəcək
Heç bələd olmadığı bir yol ilə gedəcək.

Nə qədər ki, gedəcək, geriyə dönməyəcək,
Neçə ki, o çatmayıb Sidr meşələrinə,
O zalım Humbabanı neçə ki, məhv etməyib,
Yer üzündən neçə ki, şər qüvvəni silməyib,
Vaxtın yetişdiyini agah etdiyin zaman

Sənin yadına salsın qorxmadan Aya-gəlin
Axşamlar dinclik üçün evinə çəkilərkən
Gecə keşikçilərə tapşırarsan onu sən».

Buxurdanı söndürdü, qurtardı ibadəti,
Enkidunu çağırıb ona belə söylədi:
«Enkidu, ey qüdrətli, ey mənim doğmadığım!

Tanrı üçün qurbanlıq kahinlər, qızlar ilə

Mən səni Bilqamısa sirdaş elan etmişəm».
Çıxarıb Enkidunun boynuna tilsim asdı.
Tanrının arvadları ona əl uzatdılar,
Qızlar da ürəkdən ona dua etdilər.
«Enkiduyam! Bilqamıs məni də özü ilə
yürüşlərə apardı!» –
«Bilqamıs Enkiduyla ağır yürüşə vardı».

Nə qədər ki, o gedir, geriyə qayıtmayıb,
Nə qədər ki, o hələ sidr çölünə çatmayıb
Ay ötsə də onunla birlikdə olacağam.

İl ötsə də onunla birlikdə qalacağam!

## *V LÖVHƏ*

Onlar gəlib durdular meşənin qırağında,
Gördülər ağacların upuca qamətini,
Gördülər sidr dağının, tanrılar məskənini
Humbaba gəzən yerdən ayaq səsləri gəlmir:

Cığırlar var burada; yollar, keçidlər rahat
Gördülər sidr dağının tanrılar məskənini
İrnişninin taxt-tacını.
Dağların ətəyində güclü çətir bağlamış
ağacları gördülər
Ağacların kölgəsi rahatdır, göz oxşayır,
Göyəmlər pöhrələyib, oranın kol-kosu var,

Sidrlər boy atdıqca, boy atır oleandrlar.
Meşənin hər tərəfi xəndəklə dövrələnib,
Onun üçdə ikisi xəndəklərə bülünüb.
Enkidu söhbət açıb Bilqamısa söyləyir:
«Humbaba

Təklikdə inan, bizə o heç nə edə bilməz,
Ayrılıqda bizim də əlimizdən iş gəlməz.
Sıldırım tək keçilməz, ikilikdə keçilər.

Üçqat hörülmüş kəndur asanlıqla qırılmaz,
Bir cüt şir balasının gücü şirdən az olmaz!»

Bilqamıs söhbəti açıb Enkiduya söyləyir:
«Humbabanı birlikdə öldürməyə gedəndə
Saçılan o şüalar karıxıb yox olacaq.
Şüalar itən zaman dünya da qaralacaq!»
Enkidu cavabında Bilqamısa söyləyir:
«Dostum», cücələr qaçmaz anası tutulanda!
İşıq şüalarını sonra da tapmaq olar,
Onlar otun içində cücə kimi qaçışar,
Əvvəl özünü öldür, sonra o biriləri».
Bilqamıs eşidəndə silahdaşın sözünü.

Öz döyüş baltasını əzəmətlə qaldırdı,
Qurşağından qılıncını sıyırdı,

Düşmənin peysərinə var qüvvə ilə vurdu.
Bu an dostu Enkidu zərbə vurdu sinədən,
Düşmən yerə yıxıldı üç qüvvətli zərbədən.
Əzaları sustaldı, qüvvədən düşdü bədən.

Keşikçi Humbabanı vurub yerə sərdilər.
İki mənzilə qədər inildədi meşəlik,
İki dost məhv etdilər ağacları-tirləri,
Onlar qırıb-tökdülər sidr ağaclarını.
Livanda, Sariada[1] – adı saya salınan

[1] *Saria – Suriya və Fələstin arasındakı Hermon dağının qədim adıdır.*

Meşə gözətçisini Enkidu məhv elədi.

---

Bir rahatlıq bürüdü uca-uca dağları.
Meşəli zirvələri, yaşıllıqları.
O məhv etdi meşədə bütün keşikçiləri –
Məhv etdi Humbabanın bütün şüalarını,
Yeddisini də tamam məhv eləyəndən sonra
Açdı döyüş torunu,
Bir də yeddi talantlıq sanballı xəncərini

Açdı səkkiz talantlıq yükü də bədənindən,
Annunakların gizli məskənin o tapdı.
Bilqamıs doğrayırdı bircə-bircə sidrləri,
Enkidu çıxarırdı torpaqdan kötükləri.
Söz açaraq Enkidu söylədi Bilqamısa:
«Mənim dostum Bilqamıs, biz öldürdük sidrləri
Götür döyüş baltanı keçir daha belinə,
Şamaşın qarşısında dil tök, təşəkkür elə
Sidrləri aparırıq Fəratın sahilinə».

## *IX LÖVHƏ*

Bilqamıs əziz dostu Enkidudan ötrü
Acı-acı ağlayıb, gəzir çölü-düzəni:
«Mən də öləcəyəmmi bir gün Enkidu kimi,
Qorxu canımı alır, qüssə yeyir içimi.

Ölümün qorxusundan qaçıram səhralara
Ubar Tutunun oğlu Untapiştim hardadır,

Onun hökmü altına keçmək üçün tələsib
İndi gedirəm ora.
Bələnləri adlayıb dağlara qalxdım gecə,
Orda şirləri görüb qorxudan əsdim necə,

Üz tutub, ağız açıb Sinaya yalvarıram
Mən bütün tanrılara duaçı minnətdaram.
Məni əvvəlki kimi qoruyun, hifz eləyin!»
O gecə yatdı, sonra yuxu görüb oyandı,
Gördü şirlər oynaşır, sonsuz sevinc içində.

O döyüş baltasını qaldırdı çox cəld, zirək,
Kəmərindən qılıncı çıxartdı siyirərək,
Nizə kimi onların arasına düşdü o,
vurdu, yıxdı, öldürdü, hər şeyi alt-üst etdi...

## *X LÖVHƏ*

Utnapişti söz açıb, Bilqamısa söyləyir:
«Niyə yanağın batıb, başın enib sinənə,
Qəlbini qəmlər alıb, üzün niyə saralıb?

Niyə sənin içində sonsuz bir nisgil yaşar,
Görkəmin yollar basmış yorğun adama oxşar?
Bürkü, sazaq qarsıyıb niyə sənin üzünü,
İlğımmı axtarırsan, gəzib çölün düzünü?»
Utnapiştiyə ordan belə deyir Bilqamıs:

«Yanaq necə batmasın, baş necə əyilməsin.

Qəlb necə qəmlənməsin, rəng necə dəyişməsin?
Qəmlər mənim içimə bəs necə yol salmasın,
Yolların yorğununa can necə tay olmasın?
Necə qarsılamasın bürkü, sazaq üzümü,
Necə dolanmayım mən, axı çölün düzünü?

Səhrada heyvanları, o vəhşi eşşəkləri
qovan qardaşım mənim
Səhraları dolaşan Enkiduya-dostuma,
kiçik qardaşıma mən –
Birlikdə uca-uca dağları çıxdığımız,
Buğanı ikilikdə məhv edib yıxdığımız,

Sidrdə Humbabanı birgə öldürdüyümüz,
Dağın gədiklərində şirləri qırdığımız,
Bütün zəhmətlərimə tən olan qardaşıma –
Enkidu sirdaşıma ürəkdən bağlanmışdım.
Əziz dostum, istəklim, sirdaşım Enkiduya –
Bütün zəhmətlərimə tən olan qardaşıma:
Axırda qismət oldu adi insan taleyi?
Qəbrə qoymazdan əvvəl.

Qurdlar onun burnuna yol salmamışdan əvvəl
Gecə-gündüz göz yaşı tökdüm onun üstündə.
Ölüm məni qorxudur, səhralara qaçıram,
Qəhrəmanı düşünüb ola bilmirəm aram,
Səhraları gəzirəm, uzaq yollar məskənim,
Enkidu yada düşür, dincliyim yoxdur mənim

Axı necə susum mən, necə sakitləşim mən?
Mənim əziz dostumun artıq həyatı sönmüş,

Əziz dostum Enkidu artıq torpağa dönmüş,
Məndəmi onun kimi əbədi yatacağam?!»
Bilqamıs uzaqdakı Utnapiştiyə deyir:
«Mən gedib çatmaq üçün uzaqda məskən salmış,

Haqqında söz söyləmiş, əfsanələr qoşulmuş
məşhur Utnapiştiyə
Nə qədər yollar gəzib, ölkələri dolaşdım,
Uca dağları aşdım,
Çoxlu dənizlər keçdim,
Gözümü həsrət qoydum bal kimi yuxulara:
Canımı üzə-üzə
Dərd qazana-qazana, ağrı, qəm yığa-yığa,
Tanrılar xanımının yanına çatanacan
cırıldı paltarlarım,
Ayı, kaftar ovladım, vurdum neçə-neçə şir.
Ovun ətini yedim, büründüm dərisinə
Xanım qorxdu görəndə, qapı açmadı mənə
Şüvülə qatran sürtdüm,
Qayıqla üzüb gəldim, sulara əl vurmadım.

Mənə əbədi həyat qismət olacaqdımı?»
Utnapişti söz açıb, Bilqamısa söyləyir:
«Niyə, Bilqamıs, bütün kədərə qərq olmusan?
Ona görəmi sənin bədənində həm tanrı,
həm də insan canı var?
Ona görəmi səni öz doğma ata-anan
ölümlü yaradıblar?

Öyrənməmisənmi bəs, öləri Bilqamısçün
Tanrıların yanında taxt qoyulubdumu?

Bilmirsənmi bəs sənə həyat həddi qoyulub?
İnsan ayran kimidir, tanrılarsa yağ kimi,
Adam saman kimidir, tanrılar buğda kimi.
Dəriyə bürünməkdən, Bilqamıs, tələsmisən,

Onu şah qurşağı tək bədənindən asmısan.
Heç bir cavabım yoxdur onunçün mənim sana.
Bilqamıs, sən üzünü çevir adamlarına

---

Niyə onların şahı cırıq-cındır geyinir?

Qəzəbli, qəddar əcəl adama verməz aman,
Əbədimi tikirik evləri tikən zaman?
Əbədilikmi vurur məgər möhür vuranlar?
Əbədimi ayrılır qardaşlar qardaşından?
Əbədidirmi məgər nifrət hissi insanda?
Əbədi axır məgər çayda sular daşanda?

Mütləqdimi cücünün cırcırama olmağı?
Ayna əvəz edərmi əbədilik günəşi?
Dünya bina olandan belə şey görünməmiş.
Ölüyə bənzəmirmi, söylə, əsir olanlar,
Ölümün sifətini məgər göstərmir onlar?

Hökm edən insandırmı? Böyük Ellil onlara
xeyir-dua verəndə
Bəs niyə toplaşırlar bir yerdə Annunaklar,
Mamet, ulu tanrılar?
Talelər yaradanı məgər sorğu-suala tuturmu taleləri?
Onlar təyin eləmiş ölümü və həyatı,

Ölüm saatınısa söyləməmişlər qəti
Beləcə buyurmuşlar: «Qoy yaşayan yaşasın!»

## *XI LÖVHƏ*

Bilqamıs uzaqdakı Utnapiştiyə deyir:
«Utnapişti, mən burdan baxıb görürəm ki, sən
Boydan çox seçilmirsən, elə mənim kimisən,
Görünüşdə, duruşda fərqimiz yoxdur elə.
Səninlə vuruşmağa, düzü qorxmuram heç mən.
Dincələndə mənimtək uzanıb dincələrsən.
Tanrı yığıncağına necə qəbul olundun,
De, sən necə sağ qalıb, əbədi həyat buldun?»

---

Utnapişti söz açıb Bilqamısa söyləyir:
«Bilqamıs, eşit, sənə sehrli söz deyəcəm.
Tanrıların sirrini sənə agah edəcəm.
Fəratın sahilində əbədi məskən salan,
Şuruppak şəhərini sən yaxşı tanıyırsan.
Həmin qədim şəhərə tanrılar yaxındırlar,
Tufan istədi könlü, ürəkləri onların
İstədilər ki, qopsun tufanı tanrıların

Onların ataları Anu da ora gəlib,
O qəhrəman Ellil də onlara məsləhətçi.
Çaparları Ninurta, mirabları Ennugi
Gəlib yığışmışdılar, məşvərət etmişdilər,
Səma gözlü Eya da onlarla and içmişdi.

Lakin Eya sirləri danışmışdı daxmaya,
«Ey daxma, daxma, daxma! Eh divar, divar, divar!
Eşit, a daxma! Divar, yadda saxla nə ki var.
Şuruppak şəhərində, Ubar-Tutunun oğlu!»
Sökərək mülklərini, onlardan gəmi düzəlt

Bu var-dövləti tərk et, həyat barədə düşün!
Zənginliyə nifrət et, ruhunu xilas elə.
Sən bütün canlıları yığıb gəminə yüklə.
Qoy dördkünc olsun sənin düzəldəcəyin gəmi.

Eni də uzununa qoy tən olsun, düz gəlsin,
Taxtapuş vurdur ona, örtük çəkdir üstündən!»
Mən bunları anladım,
Hökmdar Eyaya sonra da belə dedim:
«O söz ki, sən söylədin, hökmdar, mənə dedin.
Borcumdur, lazımınca gərək bu işi görüm.

Bəs mən ağsaqqallara, xalqa nə cavab verim?»
Eya cavab verərək aramla mənə deyir,
İtaətkar quluna – o bu cürə söyləyir:
«Sən onların önündə belə nitq irad elə.
De, bilirəm ki, Ellil mənə nifrət bəsləyir.
Onunçun bu şəhəri biryolluq tərk edirəm,

Ellilin torpağından birdəfəlik gedirəm,
Mən hökmdar Eyanın yanına enəcəyəm,
ümmana gedəcəyəm.
Sizin üstünüzəsə leysan yağış yağacaq
Siz xəbər tutacaqsız balıqların yurdundan.
O vaxt quş sehirindən başınız da çıxacaq,

Dünyanın hər yerində bol məhsul yetişəcək
Səhərdən axşamacan gurşad leysan yağacaq,
Gecə buğda yağışı yağacaq yerə göydən.
Dan yeri yenicə ağarışanda
Səslədim, bir yerə yığışdı hamı.

Mən biyara çağırdım elin ərənlərini
Evlərimi sökdülər, hasarı dağıtdılar,
Uşaqlar da işləyir, qatran daşıyırdılar,

Güclülər ağır yükü çəkib aparırdılar,
Beşin günün içində mən banı düzəltdirdim
Sahəsi bir hektarın üçdə biri olardı.
Yanların hündürlüyü düz iyirmi dirsək,
Üst yanların hərəsi, ayrılıqdaca tək-tək,
Olardı nə az-nə çox, düz yüz iyirmi dirsək.
Naxışlar da düzəltdim, cızdım quruluşunu.

Göyərtəyə əməlli dar ağacı bərkitdim,
Beləliklə, mən onu yeddi hissəyə böldüm,
Onun dibini isə doqquz yerə ayırdım.
Dibinə lazımınca su mıxçaları çaldım.
Sükan seçdim, hər şeyi sonra yerbəyer etdim,

Sonra da mən düz üç qab yaxşıca qır əritdim.
Düz üç qab qatranı da qarışdırdım onunla.
Hamballar gətirdilər üç qab da zeytun yağı
Yağlamaqçün gəmidə bir qab yağdan savayı,
Sükançı da iki qab zeytun yağı gizlətdi,

Şəhər sakinlərinə yaxşı bir öküz kəsdim,
Hər gün adətim idi, mütləq qoyun kəsərdim,
Çay suyu qədər xalqa doyunca şərab verərdim –

Meyvə şirəsi, şərbət-sikera, ağ, al şərab
içirdilər o ki var.
Yeni il şənliyi tək kef çəkirdi adamlar.

Əlimə ətir yaxdım
Günün batan çağında gəmi tam hazır oldu.
Onu biz yavaş-yavaş tərpətməyə başladıq,
Həm altdan, həm də üstdən payalarla qısnadıq,
Çox ağır zəhmət ilə axır ki, suya çatdıq.
Tam üçdən iki payı gəminin suya batdı.

---

Mənim nəyim vardısa o gəmiyə yüklədim,
Nə gümüşüm vardısa o gəmiyə yüklədim,
Nə qızılım vardısa o gəmiyə yüklədim,
Nə heyvanım vardısa o gəmiyə yüklədim.
Külfətimi, nəslimi yığışdırdım gəmiyə.

Çöl heyvanlarını da yerləşdirdim gəmiyə,
Mənə qəhrəman Şamaş vaxt da təyin elədi:
«Səhər gurşad yağacaq, leysan tökəcək, – dedi –
Taxıl yağışını da hamı aydın görəcək,
Gəmi qapılarını bağlatdırıb qatran çək!»
Şamaşın dediyi vaxt gözlədim, gəlib çıxdı,

Göydən heç görünməmiş güclü bir leysan yağdı,
Taxıl yağışını da gördüm öz gözümlə mən.

Mən havaya boylandım, gördüm göyün üzündən
Sanki dəhşət tökülür çətindir görmək onu,
Gəmiyə mindim, sonra qatranladım qapını.
Gəmiyə qatran çəkən o Puzur-Amurriyə,

Bir qəsr bağışladım içinin sərvətiylə.
Sübhün gözü açılıb, üfüqə düşəndə dən,
Qara bir bulud qalxdı, göylərin təməlindən
Buludun ortasında Əddu guruldayırdı,
Önündə Şullat ilə Haniş addımlayırdı.

Çaparlar çapırdılar düzənlərə, dağlara,
Ereqal işləyirdi bənddə tir qıra-qıra
Ninurta çör-çöpləri süpürüb aparırdı.
Annunaklar işıqlı mayakı yandırırdı,
Onların parıltısı yerə işıq saçırdı.

Uddunun əməlindən göylər nura büründü,
İşıqlı nə vardısa tamam qaralıb söndü,
Yer üzü çat-çat olub sınıq küpəyə döndü.
Birinci gün cənubdan dəli küləklər əsdi,
Dağları qərq elədi, zirvələrə tələsdi.

Elə bil qovğalara bürünmüşdü Yer üzü
Hər yan qaranlıq idi, göz-gözü seçmirdi heç,
Göydən boylananda da gözə dəymirdi heç kəs
Tanrılar özləri də vahiməyə düşdülər,
Qalxıb göyə, Anunun səmasına köçdülər,

Ev iti kimi onlar Anuya qısıldılar.
O tanrılar xanımı, o gözəl səsli İştar,

Ağrı çəkən qadın tək, haray salıb qışqırdı:
«Kaş ki, həmin o günə daş yağaydı göylərdən
Tanrı məşvərətində bu cür qərarım nəydi?

Mən ilk dəfə yamanlıq etmək fikrinə düşdüm,
İnsanlarıma ölüm davasını mən seçdim.
Onunçunmü törəyib, çoxaldıram ki, onlar
Balıq kimi sulara, dənizlərə dolsunlar?!»
Annunak tanrıları ağlayıb için-için;

Tanrılar ram olublar, ağı deyirlər hər gün.
Bir-birinə sığınıb quruyub dodaqları,
Altı gün yeddi gecə dəli küləklər əsir,
Tufanlar yer üzünü daşqınlara bürüyür.

Bu cürə qovğa ilə gəlib yeddi gün oldu,
Daşqın tamam dayandı, qasırğalar sovuşdu,
Mən nəfəsliyi açdım, üzümə işıq düşdü.
Baxdım sakit dənizə, gördüm qəzəbi sönüb,
Bütün bəşəriyyətsə tamam torpağa dönüb.
Yerlə yeksan olmuşdu, dünya dümdüz dam kimi.

Mən dizi üstə çökdüm, yaş tutdu gözlərimi,
Ağladım hönkür-hönkür.
Baxırdım sahillərə, görüm nə var orada,
On iki mənzillikdə görünürdü bir ada.

Həmin Nisir dağında dayandı bizim gəmi.
Dağ gəmini saxlayıb tutmuşdu dayaq kimi,
Düz iki gün qoymadı gəmini tərpənməyə.
Üç-dörd gün də qoymadı, dağ gəmini saxladı,
Beş-altı gün də keçdi gəmini buraxmadı.

Yeddinci gün gələndə
Mən göyərçin çıxarıb onu buraxdım göyə,
Göyərçin uçdu, uçdu, gedib döndü geriyə,
Qonmağa yer tapmadı bir də geri qayıtdı.
Qaranquşu çıxarıb, onu buraxdım göyə,

Qaranquş uçdu, gedib döndü geriyə
Qonmağa yer tapmadı, bir də geri qayıtdı,
Mən quzğunu çıxarıb, onu buraxdım göyə,
Quzğun yol gedib tapdı suyu çəkilmiş yeri,

Mən çıxıb dörd tərəfin dördünə qurban verdim,
Qalxıb dağın başına göylərə tərif dedim.
Mən orda yeddi dəfə, yeddi buxurdan düzdüm,
Buxurdana tökməkçün mərsin, sidr, qamış, əzdim.
Tanrılar buxurdanın buxarını duydular,

Xoş ətri tanıdılar, ora qədəm qoydular.
Tanrılar qurbanların başına yığışdılar
İlahələr anası Anu da gəlib çıxdı,

Taxmışdı altun qaşlı gözəl boyunbağını:
«Ey tanrılar! Boynumda əvəzsiz daş olacaq
O mənim əbədilik yaddaşımda qalacaq,

Bu tarixi günlər də xatirimdə olacaq,
Onları ömrüm boyu unudan deyiləm mən!
Ey tanrılar, yığışın, yaxın gəlin, qurbana,
Tək Ellili qoymayın, bu qismət deyil ona

Çünki o düşünmədən belə daşqın törətdi,
Mənim adamlarımı ölümə düçar etdi!»

Ellil oraya gəlib artdı qəzəbi, kini;
İqiq tanrılarına artdı qəzəbi, kini;
«Bu necə ruhdur, görən, salamat qalıb hələ.
Gərək sağ çıxmayaydı tufandan bir kəs belə»
Ninurta söz söyləyib belə söylədi ona
Sonra dedi Ellilə – o güclü qəhrəmana:

«İstəkləri Eyadan daha yaxşı kim görür,
Eya idarə edir, Eya məsləhət verir!»
Eya da söhbət açıb Ellilə belə dedi:
«Sən müdrik qəhrəmansan, tanrıların içində.
Niyə daşqın yaratmaq fikri yarandı səndə?

Günahların üstünə bir günah daha gəldi.
Sən təqsiri olanın üstünə yüklə təqsir,
Gözlə ki, məhv olmasın, hifz elə dağılmasın.
Bu cür tufan qoparıb, daşqın törətməkdənsə,
Şir gəlib adamları dişə çəksə yaxşıydı.
Bu cür tufan qoparıb, daşqın törətməkdənsə,
Canavar adamları bir-bir yesə yaxşıydı!
Bu cür tufan qaldırıb daşqın törətməkdənsə,
Aclıq düşüb onları tamam qırsa yaxşıydı.

Mən isə tanrıların sirrini verməmişəm,
Ən çox müdrik olana vaqiə göndərmişəm,
O da vaqif olubdur tanrıların sirrinə.
İndisə məsləhət ver, qoy qulaq assın sənə!»
Qəhrəman Ellil durdu, qalxıb gəmiyə girdi.

Mənim əlimdən tutub göyərtəyə gətirdi,
Yanımda dizi üstə oturtdu arvadımı,
Alnımıza əl qoyub, aramızda oturdu,
Bizə böyük qəlbiylə xeyir-dua verdi o:
«Utnapişti adam idi.
İndən belə tanrılara tay olacaq!

O əbədi sağ qalacaq,
ulu-ulu çaylar üstdə yurd salacaq!»
Sonra məni uzaqlara apardılar,
Çay ağzında yurd saldılar,
De, sənincün kim yığardı
tanrıları bir məclisə?
Sən də arzuna çatasan,
Əbədi həyat tapasan?

İndi buyur, altı gündüz,
yeddi gecə yatma görüm»

Ayağını uzadaraq bir anlıq oturan kimi,
Onu basdı zülmət yuxu, səhradakı toran kimi.
Utnapişti istehzayla arvadına söylədi:
«Həyat gəzən igidə bax, göz yumdu oturan kimi,
Bircə anda yuxu basdı, səhradakı toran kimi».

Arvadı da bəyan edib Utnapiştiyə söylədi:
«Onu tərpət, ona toxun, o adamı qoyma yatsın,
Qoy gəldiyi yolla keçib öz torpağına qayıtsın,
Qoy gəldiyi qapılardan keçib
getsin öz yurduna!»
Utnapişti cavabında belə dedi arvadına:

«Adamlar yalançı olub! O da səni aldadacaq.
Gəl ona sən çörək bişir,
balışının yanına qoy,
Neçə gün yatacaqdırsa,
Hər gün divara bir xətt oy!»
O çörəkləri bişirdi, qoydu balışın yanına,
Yatdığı günləri sayıb, cızdı evin divarına,
Onun birinci çörəyi dağılıb yerə ələndi

İkinci çörəyi çatladı, üçüncüsü də kifləndi,
Dördüncüsünün rəngi döndü,
Çörək bomboz bozardı,
Beşincisi boyat oldu, altıncısı təzə qaldı,
Yeddincinin ətri isə onu oyatdı yuxudan.

---

Bilqamıs söhbət açaraq Utnapiştiyə söyləyir:

«Necə oldu heç bilmirəm, yuxu məni üstələdi
Sonra qəfildən oyandım,
Deyən kimsə mənə dəydi».
Utnapişti söz açaraq, Bilqamısa söylədi:
«Bilqamıs, bir dur ayağa,
Say ordakı çörəkləri
Hər gün bir çörək bişirdik,

Sən yatdığın gündən bəri
Sənə bişən ilkin çörək, dağılıb yerə ələndi,
İkinci çörək çatladı, üçüncüsü də kifləndi.
Dördüncü çörəyin rəngi dəyişdi,
bomboz bozardı,

Beşincisi boyat oldu, altıncısı təzə qaldı,
Yeddincisi bişən zaman,
sən birdən-birə ayıldın».
Bilqamıs bəyan edərək Utnapiştiyə söyləyir:

«Neyləyim, Utnapişti, mən, bir də,
İndi hara gedim?

Canıma oğru göz dikib, söylə axı mən nə edim?
Yatağıma əcəl girir aman vermir mənə bir an.
Hara baxıram ölümdür, ölümlə doludur hər yan!»

---

Utnapişti bəyan edir, gəmiçi Urşanabiyə:

«Bərə səni gözləməsin, bərə səni qoy unutsun,
Sahilə kimsə gələrsə, o da bərəyə can atsın!
Sən gətirən bu adamın cırıq-cındırdı hər şeyi
Dərilər məhv edib onun bədənində gözəlliyi.
Urşanabi, onu apar, təmiz sularda yuyunsun,

Suya çəksin paltarını, qoy ağartsın, təmiz olsun.
Dəriləri dənizə at, su batırsın köhnə şeyi,
Geri dönüb həm də artsın qəhrəmanın gözəlliyi.

Təzə çalma dolasın qoy, onda daha yaxşı olar,
İbadət paltarı geysin,
bədənini örtsün paltar.
Bu yolları keçənəcən, şəhərinə gedənəcən,

Dənizləri aşanacan, torpağına yetənəcən,
Geyimi yırtılmayacaq, hamısı təzə qalacaq!»
Gəmiçi yuyunmaq üçün, götürüb onu apardı,
O yuyundu, yuduqca da kirli paltarı ağardı.
Dəriləri suya atdı, götürüb apardı sular.

Gözəlləşdi, qəşəngləşdi,
Gör necə xoş görkəmi vardı.
Təzə qurşaq doladı o, qoydu başına çalmanı,
Əyninə paltar geyindi,
paltarlar şax tutdu onu.
Bu yolları keçənəcən, şəhərinə gedənəcən,
Dənizləri aşanacan, torpağına yetənəcən.

Geyimi yırtılmayacaq,
hamısı təzə qalacaq.
Bilqamıs Urşanabiylə,
qayığa addımladılar.
Qayığı tərpədib onlar,
coşqun sulara saldılar.

---

Arvadı bəyan eləyib, söyləyir Utnapiştiyə:
«Bilqamıs, çox yollar keçib,
od götürüb gözü ilə,

Sən ona nə verəcəksən, o aparsın özü ilə? –
Bilqamıs artıq sahildən açıb,
çəkmişdi bağını,
Sahillərə yönəltmişdi, artıq o öz qayığını,

Utnapişti bəyan edib, belə deyir Bilqamısa.
«Bilqamıs, çox yollar keçib,
od götürdün gözün ilə,

Axı sənə nə verim ki, aparasan özün ilə?
Bilqamıs, onda qulaq as,
sənə bir sirr açacağam,
Çiçəyin gizli sirrini sənə mən danışacağam.
bu çiçək dəniz dibində,
göyəmtək bitib boy atır,
Qızılgül tək tikanlıdır,
tikanları ələ batır.
Çiçək sənə qismət olsa,
əgər gedib ona varsan.
Bax, o gənclik çiçəyidir,
gəncliyinə qayıdarsan».

Bilqamıs eşidən kimi, quyunun ağzını açdı.
Ayağına daş bağlayıb, cumdu dəryanın dibinə.
Əlini tikan didsə də.
O çiçəkdən bərk-bərk tutdu,
Ayağından daşı açıb, Dəryanın dibinə atdı.
Sular onu qaldıraraq, sahilə üzə çıxartdı.

---

Bilqamıs bəyan edib gəmiçiyə söyləyir:
«Urşanabi, bil, o çiçək çox məşhurdur, sehrlidir,
Çünki adamlar onunla sonsuz həyat əldə edir.

Onu mütləq mən hasarlı Uruka çatdırmalıyam.
Onu xalqıma yetirib, camaata verməliyəm.

Görsəm qoca cavanlaşır, mən də o cür edəcəyəm,
Gəncliyimə qayıdaraq məqsədimə yetəcəyəm».

İyirmi mənzil yol gedib,
tək bir yol avar çaldılar,
Otuz mənzil qət eləyib,
bir yol düşərgə saldılar,

Bilqamıs suyu səpsərin,
tərtəmiz bir dəryaça gördü,
Könlünə sərinlik düşdü,
qalxıb o suya baş vurdu,
İlan çiçək ətri duyub,
yuvasından baş çıxardı,
O çiçəyi oğurlayıb sakitcə çəkib apardı.
Cavanlaşdı, təzələşdi yuvasına dönən kimi,
Köhnə qabığından çıxıb,
o dəyişdi qabığını

Yaman sarsıldı Bilqamıs,
oturub qan ağlayırdı,
Onun yanaqları ilə sellər kimi yaş axırdı.
Gəmiçi Urşanabiyə üz tutub belə söylədi:
«Bu əllər kimin yolunda, dəridən,
Nədən ötrü qabıqdan çıxdı?
Özünü odlara yaxdı?

Öz xeyrimə çalışmadım,
özüm də dadmadım onu,
Yer şirinə qismət oldu.
Çiçək tapdığım yer

qalıb iyirmi mənzil uzaqda,
Yarağım da orda itdi, quyunu açdığım çağda.
Nə qazandım, nə tapdım ki,
şöhrətimə layiq ola?

Qayığım qalıb sahildə».
İyirmi mənzil yol gedib,
tək bir yol avar çaldılar,
Otuz mənzil qət eləyib,
bir yol düşərgə saldılar,
Beləliklə onlar gəlib doğma Uruka çatdılar...

# İRAN ƏDƏBİYYATI

- RUDƏKİ
- ƏBÜLQASIM FİRDOVSİ
- QABUSNAMƏ
- NASİR XOSROV
- FƏXRİ GÜRGANİ
- SƏNAİ QƏZNƏVİ
- İMADİ
- ƏNVƏRİ ƏBİVƏRDİ
- ÖMƏR XƏYYAM
- SƏDİ ŞİRAZİ
- HAFİZ ŞİRAZİ
- ƏBDÜRRƏHMAN CAMİ
- NİMA YUŞİC
- NADİR NADİRPUR
- FÜRUĞ FƏRRUXZAD
- RZA BƏRAHƏNİ
- SÖHRAB SİPEHRİ



## RUDƏKİ



Əbu Əbdullah Cəfər ibn Məhəmməd Rudəki 855/860-cı illər arasında Tacikistanın Pəncrud yaşayış məskənində anadan olmuşdur. Rudəki şairin təxəllüsüdür. Mənbələrdə bu təxəllüs onun rud musiqi alətində çalması və ya Rudək kəndində anadan olması ilə əlaqələndirilir. «Əcəm şeirinin atası» adlandırılan, qoca şərqin Homeri sayılan Rudəki zəngin yaradıcılıq irsinə sahib olmuşdur. Onun 7 poema, «Kəlilə və Dimnə» və «Sundubadnamə» və s. adlı əsərlər yazdığı təsdiqlənir. Bəzi mənbələrdə onun ərəbcə-farsca lüğət yazması haqqında da məlumatlar verilir. Rudəki yaradıcılığı Şərq ədəbiyyatında xüsusi bir mərhələ hesab olunur. Onun «Qocalıq» qəsidəsinə dahi Nizaminin nəzirə yazması təsadüfi deyildir. Ümumiyyətlə Rudəki ədəbi irsinin 99 min beyt olduğu (Səid Nəfisi) tərəfindən təsdiqlənsə də, bunlardan 804 beyti zəmanəmizə gəlib çatmışdır. Bu nümunələr qəsidə, qitə, rübai, məsnəvi, ayrı-ayrı lirik şeir parçalarından ibarətdir. Onun ömrünün müəyyən tarixləri Samani sarayı ilə bağlanır. O, bu sarayda məliküşşüəra rütbəsinə qədər yüksəlsə də, saray ziddiyyətləri onun həyatına təsirsiz ötüşməmişdir. Belə ki, Rudəkinin yaxın dostu olan Samini vəziri Übeydullah Bələmi hökmdar Əmir Nəsr ibn Əhmədin qəzəbinə tuş gəlmiş və bütün dostları ilə birlikdə cəzalandırılaraq saraydan qovulmuşdur. Rəvayətə görə təxminən 937-ci ildə hökmdar Rudəkinin

gözlərinə mil çəkdirərək onu kor etmişdir. Onu da qeyd edək ki, Rudəkinin kor olması ilə bağlı iki fikir mövcuddur. Bir fikrə görə Rudəkinin korluğu anadan gəlmədir, başqa fikrə görə isə şair ona verilən cəza nəticəsində kor olmuşdur. Lakin şairin həyatı ilə bağlı bəzi faktlar – onun şah səfərə çıxarkən şahı müğənni və şair kimi müşayət etməsi, hökmdara mədhiyyələr yazması, yaşadığı doğma yerlərin təbiət gözəlliklərini əks etdirən tablolar yaratması və s. hallar deməyə əsas verir ki, Rudəki anadan gəlmə kor olmamışdur.

Rudəki fars şeirində ilk rübai yazan şair kimi dəyərləndirilir. Şəmsəddin Qeys ər-Razinin «Əl-Möcəm» əsərində rübai şeir şəklinin Əbülqasim Rüdəki tərəfindən yaradıldığı söylənilir. Şübhəsiz, bu barədə bir sıra mübahisələr də mövcuddur. Rudəki yaradıcılığının ilk dövründə daha çox nikbin olmuşdur. Onun sənətində insanın kamilliyə çağırışı əsas yerlərdən birini tutur. Şair elmi, əxlaqı, sağlam ruhu və s. dəyərləri insan üçün vacib hesab edir.

*Dörd şey azad edər insanı qəmdən:*
*Yaxşı ad, elm, əxlaq, salamat bədən.*
*İlahi bəxş edən bu dörd neməti*
*Xoşbəxtdir, hər kimin olsa qisməti*

(Tərcüməçi – İsmayıl Cəfərpur)

Rudəkinin Orta Asiyada yaranan, Yaxın və Orta Şərqdə geniş yayılan anti-feodal hərəkat kimi xarakterizə olunan kərmətizminə rəğbəti olmuşdur. Bu da özlüyündə Rudəki şeirinin ictimai məzmununa təsir göstərmiş, əsərlərindəki mübarizə və etiraz motivini gücləndirmişdir.

Rudəki 941-ci ildə vəfat etmişdir.

## QOCALIĞIM, GƏNCLİYİM

Qırıldı, töküldü bütün dişlərim,
Diş demə, hər biri yanar çıraqdı.

Bir düzüm dürr idi, bir düzüm mərcan,
Gümüş zəncir kimi parlaqdı, ağdı.

Bir yağış damlası, bir dan ulduzu
Gənclik töhfəsi tək bəxtimə çıxdı.

Hanı? Bircəsi də qalmayıb indi,
Sellərim qurudu, ulduzum axdı.

Dişlərim, işlərim nəhs imiş, ey dost,
Bu kəc fələk kimi kəc imiş bəxtim.

Bir cüt gözə bənzər bu səma, bu yer,
Səma intəhasız, Yer yuvarlaqdı.

Bir vaxt biyabandı, bu barlı bağlar.
Yaddamı abadın xaraba vaxtı?

Ay üzlüm, qocalıb bu gün, Rudəki
Görmədin, gəncliyi qızıl mayakdı

Səpərdi aləmə nə qədər gövhər
Yanında Türk qızı-tac ilə taxtı.

Alma yanaqlılar, nar məməlilər
Onu cənnətdəmi divara sıxdı?

İndi zaman başqa, mən də başqayam
Ərzə yox, qar mənim başıma yağdı.

Gülüm, çəlik gətir, bir də dağarcıq,
Qocalıq yolumda aşılmaz dağdı.

## BAHAR

Bahar gəlib güllərilə gözəl ətir yaya-yaya,
Gözəlliyi min yaraşıq, rövnəq verir bu dünyaya.
Cavanlaşıb qocalar da, demək olmaz ixtiyardır,
Cavanlaşıb qoca dünya, gülür, ömrü bəxtiyardır.
Əngin göylər ordusuyla hücum çəkib tutub eli,
Alayları – qara bulud, sərkərdəsi – səba yeli.
Məşəlçisi – şimşəklərdir, təbilçisi –
ildırımlar,
Bu hücumdan zağ-zağ əsir uca dağlar, sıldırımlar.
Buluda bax, yaslı kimi, qara geyib ağlamaqda,
Şimşəyə bax, aşiq təki, sinəsini dağlamaqda.
Günəş tutqun buludları yara-yara boylananda, –
Elə bil ki, keşikçidir qalasından boylanan da.
Bəd rüzgardan qüssəliydi yer üzünün çöl-çəməni,
Məlhəm gəldi bir təbibin xoş ətirli yasəməni,
Yağan yağış ənbərini, öz müşkünü səpib hara,
Ora qardan örpək örtüb, geyib qumaş, geyib xara,
Gül-çiçəyə bürünübdür qar ərimiş talalar da,

Seldən-sudan sirab olub çaylaqlar da, çalalar da,
Qılınc kimi sıyrılaraq şimşək yarır buludları,
Gurultusu titrəşdirir, ürpəşdirir göy otları.
Lalələrin şölələri – düzənləri yandırmada,
Gəlinlərin xınalanmış əllərini andırmada,
İydələrin budağında bülbül nəğmə qoşmadadır,
Sığırçınlar sərvə qonub, vəcdə gəlib coşmadadır.
Qumrular da başlayıbdır əfsanəli nağılları,
Gül şaxında bülbül gülə yalvarmada zarı-zarı.
Mey içərək şadlanın siz, kef-nəşənin öz dəmidir,-
Yar da yara qovuşubdur, şirin vüsal həmdəmidir.
Fəğan salıb bülbül – bağda, sığırçınlar –
zəmilərdə,
Saqi gəlsin, şərab versin, nəğmə qalxsın pərdə-pərdə.

* * *

## DÜNYA – MEHMANXANA, SƏNSƏ BİR QONAQ

Dünya – mehmanxana, sənsə bir qonaq, –
Əbədi deyil ki, şadsan da indi.
Bir gün torpaq altda uyuyacaqsan
Zər-xara üstündə yatsan da indi.

İsa yol üstündə bir ölü gördü,
Heyrətdən ağzında qaldı barmağı.
Dedi: «Kimə qıydın, öldürdü səni?
Onu da öldürər yəqin bir yağı!»
Özgə qapısını döymə heç zaman,
Sənin də qapını döyərlər axı.

Ayrılıq yelləri, ey uca sərvim,
Ömür ağacını torpağa sərdi.
Kəmənd deyilsə də qoşa hörüyün,
Niyə əsir oldum, bilim bu dərdi.
Yaqut dodaqların min cana dəyər,
Bir cana güvənən ər oğlu ərdi?
Camalın qəlbimi yaxdı atəşə,
Sinəm həsrətindən yandı, közərdi.

* * *

## GÖZƏL YARIM, YUSİFƏ ZİLLƏTDƏ, AZADLIQDA

Gözəl yarım, Yusifə zillətdə, azadlıqda
Üç köynək nəsib olub bütün ömrü boyunca.
Birini hiylə yırtıb, birini böhtan cırıb,
Biri gözə nur verib – Yaqub gözə qoyunca.
Bir köynək – üzüm mənim, bir köynək – qəlbim mənim,
Son köynək nəsib ola mən vüsaldan doyunca.

* * *

## SƏNSİZ İSTƏMİRƏM GÜNƏŞ GÖRÜNSÜN,

Sənsiz istəmirəm günəş görünsün,
Sənsiz qoy dünyanın çırağı sönsün.
Mənimtək dözümsüz aşiqin olmaz.
Sənsiz keçən günüm gecəyə dönsün.

* * *

## QƏZA TƏK DADIMA BİR ÇATANIM YOX!

Qəza tək dadıma bir çatanım yox!
Yanğıntək yanğıma can atanım yox.
Can versəm, gözümün yaşından başqa
Təşnə dodağımı isladanım yox.

* * *

## EY ÜRƏK, HƏYATIN DÖYÜNMƏKDƏDİR,

Ey ürək, həyatın döyünməkdədir,
Qartal pəncəsində deyilsən, bəyəm?
Varlığım, həyatım sənə bağlıdır,
Sən odlu günəşsən, mən bir zərrəyəm.

## ƏBÜLQASIM FİRDOVSİ

Əbdülqasım Firdovsi (Həsən ibn Əli və ya Həsən ibn İshaq Şərəfşah) təxminən 934-cü ildə İranın müqəddəs Məşhəd şəhərindən 15 km şimalda yerləşən Tus şəhərinin Baj (Paj) kəndində mülkədar ailəsində (İran və Mavəraünnəhrdə o vaxtki termində dehqan) anadan olmuş və 1024-cü ildə doğma Tus şəhərində vəfat etmişdir.

O, böyük ensiklopedik şəxsiyyətlər olan Əbu Nəsr Fərabi (870-950), Əbu Əli ibn Sina (980-1037), Əbu Reyhan Biruni (973-1048) ilə eyni dövrdə yaşamışdır. Firdovsi Şərq fəlsəfəsi və İslami elmlərə dərindən yiyələnmişdir. O, ana dilinin incəliklərinə bələd olmaqla yanaşı, ərəb dilini və «Avesta»nın yazıldığı dili də bilmişdir. Bu mənada onun ərəb və fars dilli mənbələrlə tanışlığı şübhəsizdir. Ədəbiyyat tarixində «Şahnamə», «Yusif və Züleyxa», Sultan Mahmudu həcv edən əsərlərin müəllifi kimi məşhurdur. Onun həm həyatı, həm də yaradıcılığı haqqında çoxlu rəvayətlər mövcuddur. Bu rəvayətlərin bir çoxundan şairin həyat və yaradıcılığının öyrənilməsində ilkin və etibarlı mənbə kimi istifadə olunmuşdur. Tədqiqatçıların bir qismi həmin rəvayətləri uydurma hesab etmiş, hətta bu rəvayətlərin şairin həyat və yaradıcılığı haqqında yanlışlıq yaratdığını (Bertels) qeyd etmişlər. Amma hər

halda, bunların həqiqət və ya uydurma olmasından asılı olmayaraq, Firdovsi haqqında formalaşan fikirlərin əsasında bu cür rəvayətlərin dayanmasını danmaq qeyri-mümkündür. Dövriyyədə olan rəvayətlərin ən məşhuru Firdovsi ilə Sultan Mahmud arasında yaranmış ziddiyyətlə əlaqədardır. Sultan Mahmudun Firdovsiyə «Şahnamə»nin hər beytinə vəd etdiyi qızıl pulu verməməsi ilə bağlı yaranmış rəvayətlər böyük üstünlük təşkil edir. Həmin rəvayətlərdən biri belədir ki, Sultan Mahmud Firdovsiyə İran tarixini nəzmə çəkmək üçün hər beytinə bir qızıl pul ödəmək şərti ilə «Şahnamə» yazmağı sifariş verir. Firdovsi əsəri tamamlayandan sonra Sultan Mahmud vədinə əməl etmir, qızıl pul əvəzinə şairə gümüş pul göndərir. Bundan hiddətlənən Firdovsi hökmdara həcv yazır və doğma şəhərini tərk edir. Əməlindən peşman olan Sultan Mahmud sonralar vəd etdiyi qızıl pulu Firdovsiyə göndərir. Guya qızıl pulu gətirən karvan şəhərin bir darvazasından içəri girərkən, digər darvazadan Firdovsinin cənazəsini çıxarırmışlar. Və Firdovsinin qızı bu pulları qəbul etməyib, geri qaytarmışdır. Başqa bir rəvayətdə isə deyilir ki, Firdovsi qızına cehiz almaq məqsədi ilə Sultan Mahmuddan pul istəmiş və Sultan Mahmud bu pulu yalnız onun «Şahnamə» yazacağı təqdirdə verəcəyini vəd etmişdir. Sonluq isə yuxarıda qeyd etdiyimiz şəkildə başa çatmışdır. Başqa bir variantda isə Sultan Mahmud və Firdovsi ixtilafının əsas səbəbi Əli Nazimin göstərdiyi kimi, Firdovsinin təmsil etdiyi dehqan (mülkədar) sinfi ilə Sultan Mahmud hakim təbəqəsi arasında yaranan ictimai-siyasi, dini antoqonizmin olması idi. Qeyd edək ki, Firdovsinin ölümündən təxminən bir əsr sonra (XII əsrdə) formalaşmağa başlayan bu cür rəvayətlərin onun real həyatı ilə heç bir əlaqəsi yoxdur. Əslində isə bir sıra mənbələrdə qeyd olunduğu kimi,

Sultan Mahmudun Firdovsiyə olan münasibəti şairin millətçi düşüncəsi və türkə ögey yanaşmasından irəli gəlmişdir.

Firdovsinin «Şahnamə» epopeyası dünya ədəbiyyatının şah əsərlərindən biridir. Uzun illərin gərgin zəhmətinin məhsulu olan «şərti olaraq «əsatiri», «qəhrəmanlıq» və «tarixi» dastanlar adlandırılmış «Şahnamə»nin mündərəcəsi ibtidai insanların yer üzündə ilkin təşəkkül dövründən başlamış eramızın VII əsrinə qədər, əsasən, Asiya qitəsində baş vermiş hadisələrin poetik təsvirini əhatə edir» (M.Əlizadə). Əlli hissə, 120 min misralıq «Şahnamə» Samanilər sülaləsinin hakimiyyəti dövründə bəzi mənbələrdə 15 il (975-990), bəzi mənbələrə əsasən isə 30 ilə yazılıb tamamlanmışdır.

Firdovsiyədək fars ədəbiyyatında tarixi əks etdirən bir sıra əsərlər, əfsanə və rəvayətlər mövcud olmuşdur ki, bunlar da özlüyündə «Şahnamə»nin ideya qaynağı və istifadə mənbəyinə çevrilmişdir. Təbii ki, Firdovsinin «Şahnamə»si orijinalığı ilə bütün hallarda onlardan üstün mövqedə dayanmışdır. Firdovsi «Şahnamə»ni yazarkən Dəqiqinin min beytlik dastanını öz əsərinə daxil etmiş və bu barədə «Şair Dəqiqinin dastanı» hissəsində bəhs açmışdır. Bundan başqa pəhləvi dilində yazılmış «Xvataynamak», Əbu Mansur əl-Müəmmərinin nəsr ilə yazdığı «Şahnameyl-Əbu Mənsuri», (957) və s. kimi əsərlər, əfsanə və rəvayətlər, ahıl insanların söylədiyi tarixi bilgilər və s. «Şahnamə» üçün qaynaq olmuşdur. Firdovsinin Sultan Mahmud sarayına yol tapması ilə bağlı müxtəlif rəvayətlər formalaşmışdır. Deyilənə görə Qəznəvi sarayına buraxılmayan Firdovsi güllü-çiçəkli bir bağda məclis qurmuş saray şairləri – Ünsüri (970/980 – 1040/1050), Fərruxi (... – 1078), Əscudi (... – 1040) ilə rastlaşır. Firdovsi onlara şeir həvəskarı olduğunu

bildirəndə saray şairləri onu məclislərinə dəvət etmiş və deyəcəkləri rübaini tamamlamağı ondan tələb etmişlər:

*Ünsüri! Ay nurlu üzün qədər deyildi rövşən*
*Fərruxi: Açmaz yanağın misli-qızılgül gülşən*
*Əscudi: Kirpiklərin ilə deşilər hər çövşən*
*Firdovsi: Eynən elə bil Givin oxu ilə Peşən*

Firdovsinin bu cür uğurlu çıxışı hamını heyrətə gətirmiş, ona diqqəti artırmışdır. Görkəmli şərqşünas alim prof. Mübariz Əlizadənin fikrincə, Firdovsinin saraya gəlməsində və «Şahnamə»ni hökmdara təqdim etməsində həmin şairlərin böyük təsiri olmuşdur. (Başqa mənbələrdə Firdovsi ilə adları çəkilən saray şairləri arasında kəskin ziddiyyətlərin olduğu deyilir.)

«Şahnamə» əsatiri, qəhrəmanlıq, tarixi əsər kimi insani duyğuların, bəşəri ideyaların tərənnüm edilməsində müstəsna təsir gücünə malikdir. Firdovsi müharibələri insanlığın və bəşəriyyətin faciəsi kimi dəyərləndir. Buna görə şair əsərdə müharibələrə daha çox yer ayırır ki, insanlar onun yalnız fəlakət olduğunu anlaya bilsinlər. Əsər ənənəvi Şərq bədii düşüncəsində sistemləşdirilmişdir. Bu mənada Allahın, Peyğmbərin və onun 4 əshabəsinin (Əbubəkr, Ömər, Osman, Əli), dövrün hökmdarının (Sultan Mahmudun), ağlın tərifi ilə yanaşı, dünyanın, insanın, günəşin, ayın yaranması haqqında fikirlərin yer tapması özünəməxsus ifadə üstünlüyünü təmin edir. Kəyumərs, Huşəng, Təhmurəs, Cəmşid, Zöhhak, Fəridun, Mənuçehr, Keyqubad, Keykavus, Söhrab, Rüstəm, Siyavuş, Firəngiz və s. obrazlar vasitəsilə proseslərə yanaşma və münasibətin əfsanəvi-tarixi konteksti müəyyənləşir, böyük bir tarixi epoxa misli-bərabəri olmayan poetik ifadə tərzində nəzərə çatdırılır.

Bu səbəbdən oxucu «Şahnamə»də min illər boyu ədalətsiz hökmdarların idarəçiliyindən cana doymuş xalqın mübarizə ruhunu, insanların alicənablıq, insanpərvərlik, sülhsevərlik duyğularını, hamıya məxsus dünyada hamının bərabər, rahat, müharibəsiz yaşamaq arzularını və s. cəhətləri tarixi proseslərin son nəticəsi və şair idealı kimi görür, onu təsdiqləyir.

«Şahnamə»dən müəyyən parçalar Azərbaycan dilinə müxtəlif illərdə Rəşid bəy Əfəndiyev, Abbas ağa Qaibov, M.Ə.Sabir, Əli Nəzmi, Abdulla Şaiq, Mikayıl Müşfiq, Mir Mehdi Seyidzadə tərəfindən tərcümə edilmişdir. Lakin əsəri bütöv halda dilimizə görkəmli şərqşünas alim prof. Mübariz Əlizadə tərcümə etmişdir. O, 30 il müddətində tərcümə etdiyi bu əsərin yazıldığı vəzni (mütəqarib) eynilə saxlamış, Firdovsiyə məxsus üslubu qorumuş və əsərdəki mənanı oxucuya çatdıra bilmişdir.

# ŞAHNAMƏ
**(ixtisarla)**

**Yaradanın adı ilə**

O Xaliq ki, vermiş bizə əqlü can,
Onun qüdrəti vəsfə sığmaz, inan.
Odur xalqa şöhrət, şərəf, şan verən,
O, ruzi verəndir, o, yol göstərən.
Yeri, göyləri xəlq edən də odur,
Onun varlığından günəş aldı nur.
Zamanda, məkanda onu gəzmə, sən!
Zamanı, məkanı odur, cəm edən.
Görən olmayıb Xaliqi bir nəfər,
Onu görməyə cəhd qılma hədər,
Onu dərk qılmaz təfəkkür, xəyal,
Xəyala sığarmı məgər bu cəlal?
Söz ilə onu vəsfə versən qərar,
Nə ağlın çatar, nə dilin söz tapar.
Ağıl, dərkinə cəhd qılsa əgər,
Onu gördüyü bir şeyə bənzədər.
Necə olduğun kimsə etməz bəyan.
Müti bir qul ol, xidmətində dayan!
O, ruhla, ağılla olunmaz qiyas,
Onu dərk üçün yox əldə əsas.
Bu fikrin, düşüncənlə sən, söylə bir,
Necə dərk edərsən ki, Xaliq nədir?

Deyirlər: «O vardır!» Qəbul et, inan!
Soruşma «Nədir, hardadır» heç zaman!
İnamla əvəz et sual-sorğunu,
Bilik əldə etsən, taparsan onu.
Kimin elmi olsa o, güclü olar,
Qoca qəlbə elm ilə gənclik dolar.
Bilikdən böyük sərvət olmaz, yəqin,
Vara «yox» demək, bil, çətindir, çətin!

**Ağlın tərifi**

Çatıb ağlı vəsf etməyin növbəsi,
Ağıl hörmətə çatdırar hər kəsi.
Nə bilsən ağıl barədə, söylə sən!
Sözündən bəhərlənsin hər dinləyən.
Bizə hər nə bəxş eyləmişsə Xuda,
Ağıldan əzizi nədir dünyada?
Ağıl nur saçar qəlbə, zinət verər,
Çətin gündə iqbala yol göstərər.
Ağıl ağladandır, ağıl güldürən,
Ağıl qaldırandır, ağıl endirən,
Ağıldan bəhər görməsə bir kişi,
Keçər ahü fəryad ilə hər işi...
Ağıldan bir arif danışmış gözəl,
Olub sözləri el dilində məsəl.
Deyirlər: kimin yox ağıldan payı,
Kəsilməz cahanda onun ah-vayı.
Onu xalq «divanə» adlandırar,
Qohum, qardaş ondan belə yan durar,
Səadət ağılda, nicat ondadır,
Ağılsız olan şəxs zindandadır.

Ağıldır hər insan üçün can gözü,
Gözü yox görərmi səadət üzü?
Ağıl əsl mənasıdır xilqətin,
Bilin qədrini bu əziz nemətin!
Ağıl hər xətərdən canı hifz edər,
Sənə hər səadət ağıldan yetər.
Bu üç nemətin qədrini bil hər an
Ki, onlardadır həm xeyir, həm ziyan.
Bilik öyrənərsə bir insan əgər,
Bununla başı göylərə yüksələr.
Ağılla canı kimdi vəsf eyləyən,
Əgər mən desəm, varmı bir dinləyən?
Səni dinləyən yoxsa, sus, ey həkim!
Danış xilqət haqqında, mən dinləyim!..

**Peyğəmbərin vəsfi**

Bilik, din sənə doğru yol göstərər,
Tapar bu yol ilə nicatı bəşər.
Əgər dərdinə axtarırsan əlac
Səni zillətə salmasın ehtiyac,
İtaət qıl hər işdə peyğəmbərə,
Yaman fikri qəlbindən at bir kərə!
Demiş vəhyü tənzilləri göndərən,
Bizə əmr ilə nəhyə yol göstərən:[1]
O mürsəl nəbidən bəzi mötəbər,
Əbubəkrə tay olmamış bir nəfər.

---

[1] *Vəhy – İlahi tərəfindən Peyğəmbərin ürəyinə deyilən fikirlər.*
*Tənzil – Allah tərəfindən ona göndərilən əmrlər.*
*Əmr - xeyir, savab işləri görməyə təşviq etmək.*
*Nəhy - pis işlərdən çəkinmək.*

Ömər dini-islama verdi rəvac,
Müsəlmanlığın başına qoydu tac,
Çatıb vəsf üçün Osmanın növbəti,
Həmi izzəti vardı, həm isməti,
Xəlifə olub növbət ilə Əli,
Məhəmməd onu vəsf edibdir, bəli!
Demiş ki: «Əli olmasaydı əgər,
Qazanmazdı islam bunca zəfər.
Mənəm elmi şəhri, Əlidir qapım».
Necə mən bu sözlərdə nöqsan tapım?
Bu sözlərdə məna dərindir, dərin,
Dilindən çıxıbdır o, peyğəmbərin.
Məhəmməd – günəş, dostları aydılar,
Onun dinini doğru yol saydılar.
Mənəm əhli-beytin qulu hər zaman,[1]
Onun vəsfidir hər qula imtahan.
Bu dünya geniş bir dənizdir ki, var,
Gecə-gündüz onda coşar dalğalar.
Dəniz içrə yetmiş gəmi seyr edər,[2]

Hamı yelkən açmış, üzər, hey gedər.
Bəzənmiş gəlintək böyük bir gəmi,
Edib hüsnünə valeh o, aləmi.
Onun sərnişini Nəbidir, Vəli,[3]
Məhəmməddir övladı, bir də Əli.
Bu dəryaya salsan ağıllı nəzər,
Nə sahil görərsən, nə dibdən əsər.

---

*[1] Əhli-beyt - Məhəmməd peyğəmbərin ailə üzvlərinə işarədir.*
*[2] Yetmiş gəmi - Yer üzündə yaşayan yetmiş xalq.*
*[3] Nəbi - Məhəmmədin, Vəli - onun əmisi oğlu Əlinin ləqəbləridir.*

Coşur hər zaman, susmayır dalğalar,
Belə bir dənizdə hamı qərq olar.
Əgər mən boğulsam, Nəbi var, Vəli,
Yetər dadıma hər iki dost əli,
Əlimdən tutar tacü təxt sahibi,
Zəfər bayrağı, nurlu bəxt sahibi...

**Şair Dəqiqinin dastanı**

Kitabdan bu dastanları bir zaman
Seçib, sevdi söz qədrini anlayan.
Ağıllı, bilikli adamlar ki, var,
Bu dastanların aşiqi oldular.
Yetişdi, nəhayət, igid bir cavan,
Gözəl söz deyən, təbi, şeiri rəvan.
Dedi: – Bu kitabı çəkim nəzmə mən, -
Ona «afərin» söylədi hər görən.
Bilinməzdi əvvəllər əsli, soyu,
Yamanlıqla çarpışdı ömrü boyu.
Əcəl həmlə etdi ona nagəhan,
Qara tac qoyub başına, verdi can.
Verib canını adətinə fəda,
Üzü gülmədi bircə gün dünyada.
Dönüb taleyi, bəxti azdı yolun,
Əlində həlak oldu o bir qulun.
Qara bəxt əlindən alıb içdi cam,
Ölüb getdi əsər qaldı natəmam.
İlahi, bağışla onu sən özün,
Qiyamətdə üstündə olsun gözün...

**Kitabın əsasının qoyulması**

Dedim onda mən: bəxtim olsa kömək,
Yazıb bu kitabı bitirmək gərək...
Zəmanə salırdı məni qorxuya,
Tutub dostları hey sual-sorğuya,
Deyirdim bu işdə geciksəm əgər,
Girər ortaya başqa bir bəxtəvər.
Deyildi mənə taleyim yar o gün,
Kasaddı bazarı sözün büsbütün.
Tərəddüd edirdim uzun bir zaman,
Nə yazdımsa, qaldı özümdə haman.
Bütün ölkəni çulğamışdı savaş,
Darısqaldı yol, iş gedirdi yavaş.
Cahanda gözəl sözdən özgə nə var?
Sözün qədrini söz qanan artırar.
Söz olmazsa Allahım öz məzhəri,
Bizə rəhbər etməzdi peyğəmbəri.
Şəhərdə mənə dost idi bir nəfər,
Yanımda əzizdi o canım qədər.
Mənə söylədi: – Fikrinə afərin,
Sənin tutduğun doğru yoldur, yəqin.
Tapıb pəhləvicə bu dastanı mən,
Gətirrəm, yolundan geri dönmə sən!
Cavansan, rəvandır, şirindir dilin,
Qələmlə olar həll hər müşkülün.
Cəsarətlə çək nəzmə «Şahnamə»ni,
Böyüklər böyük işlə sevsin səni.
Yazıb mətni dostum gətirdi mənə,
Yeni canla ilham yetirdi mənə.

Mən o mətnə baxdım, alınca ələ
Nə gördüm ki: məndən çox əvvəl hələ
Var imiş ağıllı, sayıq bir cavan,
Neçə nəsli dünyada şöhrət tapan.
İradə, həya sahibi bir nəfər,
O, sözdən düzübdür gözəl incilər.
Mənə söylədi: – Gəl, əlimdə nə var,
Nə söz, can belə istəyirsən, apar.
Sənindir, çatarsa əlim hər nəyə,
Ağız açma heç başqa bir kimsəyə!
Məni saxladı əldə bir alma tək,
Nə daş qoydu dəysin mənə, nə külək.
O xoştinətin sayəsində haman
Ucaldı başım ərşə yerdən, inan!
Gözündə qızıl sanki torpaq idi,
Səxavətdə Hatəmlə ortaq idi.
Tutardı bu dünyanı olduqca xar,
Vəfalı cavanmərd idi, namdar.
Onun tək bir insan bizi tərk edib,
Solubdur çəmən, sərv bağdan gedib.
Ölübmü, yaşarmı? Yoxumdur xəbər,
Ölübsə, böyük itki vermiş bəşər.
Təəssüf o ağla, kamala heyif!
Uca qamətə, gül camala heyif!
Ümid qalmamışdır onu tapmağa,
Dönübdür ürək bir əsən yarpağa.
Düşür yadıma mehriban sözləri,
Özü yoxsa da, var könüldə yeri.
Deyirdi: – Yazarsansa «Şahnamə» ni,
Çalış şahlara çatdır o töhfəni.

Mən indi bir ölməz əsər başlaram,
Ürəkdən böyük şahı alqışlaram.

**Sultan Mahmudun vəsfi**

O gündən ki, yoxdan var olmuş, cahan,
Hələ gəlməmişdir belə hökmran.
Günəşdən başa tac qoyanda fələk
Cahan parladı nurla şirmayıtək.
Bütün yer üzü geydi nurdan geyim,
O nur mənbəyi kimdir? Qoy mən deyim.
Əbülqasim! O bəxti ağ hökmdar,
Günəş təxtü tacının üstə durar.
Bəzək verdi dünyaya başdan-başa,
Dönər altuna əl vurarsa daşa.
Oyandı mənim taleyim bir zaman,
Düşündüm başımdan çəkilmiş duman,
Dedim: – İndi artıq olar söz demək,
Keçən əsrlər olsun aşkar gərək.
Dilimdə gecə vaxtı şahın adı,
Yumuldu gözüm, qəlb evim parladı.
Yuxumda nə gördüm ki, bir çeşmə var,
Suyunda onun nurlu bir şam yanar.
Gecə zülmətində bütün yer üzü
Batıb nura xatırladır gündüzü.
İpək don geyinmiş dərə, dağ, çəmən,
Qoyulmuş uca taxt firuzədən.
Oturmuş o taxt üstə bir hökmdar,
Başında cəvahir dolu tacı var.
Sağında qoşun səf çəkib üzbəüz,
Solunda döyüş filləri yeddi yüz.

Durub qarşısında ağıllı vəzir,
Xeyir işlərə şahı təşviq edir.
Məni qoydu heyran şahın qüdrəti,
O saysız qoşun, fillərin heybəti.
Bu cahü cəlalı görən anda mən
Soruşdum təəccüblə sərkərdədən:
– Şahın tacı aydırmı, təxti fələk?
Sizə ordu, ya saysız ulduz deyək?
Cavab verdi sərkərdə: – Ey bixəbər,
Məgər yatmısan, dur açılmış səhər!
Bu, Hindistanın şanlı sultanıdır,
Bu Rumun qızıl taclı xaqanıdır.
Ədalətlə vermiş cahana bəzək,
Günəşdir onun tacı, təxti-fələk,
Bu gün sayəsində o şah Mahmudun
Olub mehriban, dost qurdla qoyun.
Çinə, Kəşmirə, Hində bir sal nəzər,
Bütün padşahlar ona baş əyər.
Beşikdə ikən dil açan bir uşaq
Çəkər Mahmud adın hər addan qabaq.
Böyük şahlara versə fərman əgər,
Sözündən qaçırmaz boyun bir nəfər,
Onun vəsfini sən də qıl ixtiyar,
Olar, bil, cahanda adın bərqərar.
Oyandım, atıldım yerimdən necə,
Deyən gündüz oldu qaranlıq gecə?
Oturdum, şahın vəsfini başladım,
Sözümlə o sultanı alqışladım.
Yuxum qalmasın qoy cavabsız dedim,
Cahanda onunla murada yetim.

Onun vəsfi vacibdir hər şairə,
Odur xalqı çatdıran yüksəklərə.
Cahan sayəsində gülüstan olub,
Buludla fəza, yer çiçəklə dolub,
Yağış yağdı vaxtında, yer oldu nəm,
Bu dünya üzü oldu bağı-İrəm.
Ədalətlə İranı abad edib,
Çatıb şöhrətə, elləri şad edib.
Səxavətlə məclisləri şənlədər,
Qılıncı döyüşlərdə min qan edər.
Gücü fil gücü, ruhca-incə mələk.
Buludtək əl onda, dəniztək ürək.
Ala bilməmiş düşmən ondan xərac,
Eli, yurdu bilməz nədir ehtiyac.
Hamı hökmdarı sevər can qədər,
Şaha, min canı olsa, qurban edər,
Birinci: onun öz kiçik qardaşı,
Tapılmaz tayı, az da olsa yaşı,
Şahın sayəsində yaşar şadiman,
Hünər meydanında odur qəhrəman.
Ata şəxsə ki, Nəsirəddin olar,
Onun təxti Ay, tacı Pərvin olar.
O Tus qəhrəmanı, iti pəncə şir
Döyüşdə əjdahanı eylər əsir.
Pula pul deməz paylayar yoxsula,
El istər həmişə o xoşbəxt ola.
O istər görə xalqı allahpərəst,
Çün allahpərəstlər olar şahpərəst.
Başından şahın olmasın tacı kəm,
Onun könlünə salmasın kölgə qəm.

Sağ olsun canı tac ilə, təxt ilə,
Kədərsiz, ələmsiz, işıq bəxt ilə.
İşə başlayım, bəxt əgər olsa yar,
Cahanda əsərdir qalan yadigar.

**Kəyumərs**

Ata söyləmiş oğluna bir xəbər,
Gəzər dilləri, keçsə də əsrlər.
Cahanda kim ilkin olub hökmdar,
Böyüklər ona göstərib etibar?
Qədim dövr tarixini izləyən,
Böyük şahlar haqqında dastan deyən
Demiş: Şah birinci Kəyumərs idi,
Başa tac qoyub «padişaham» dedi.
Həməl bürcünə varid olcaq Günəş[1]
Yerin çöhrəsi yazdan oldu güləş.
Quzu bürcü nur saçdı, güldü cahan,
Cahanı bahar fəsli etdi cavan,
Kəyumərs olunca cahanda ağa,
Köçürtdü büsatını yüksək dağa.
Qoyub təxtinə dağ başında əsas,
Düşündü: Gərək el geyinsin libas.
Pələng ovladı, əldə etdi dəri,
Geyindi zəri şah o gündən bəri.
Adamlar həvəs göstərib paltara,
Qənim oldular vəhşi heyvanlara.
Tapıldı geyim, sonra da el tamam
Şikarın ətindən bişirdi təam.

[1] *Həməl - Quzu bürcü - İran təqvimi ilə mart ayının 21-dən başlanan ilin (yazın) birinci ayında Günəşin yerləşdiyi bürcün adıdır.*

Otuz il cahanda olub hökmdar,
Sanardın Günəş təxtdən nur saçar,
Boyu sərv idi, qolları yay kimi,
Camalı iki həftəlik Ay kimi.
Onu şah yaratmışdı Pərvərdigar,
Var idi üzündə şaha xas vüqar.
Çöl heyvanları hər tərəfdən gəlib,
Onun dövrəsində gəzib, dincəlib,
Önündə ikiqat olub durdular,
Belə oldu şahənşaha bəxti yar.
Böyüklər hamı baş əyərdi ona,
İtaət edib «şah» deyərdi ona.
Bir oğlu var idi gözəl – sanki ay,
İgiddi, hünərdə atasına tay.
Səyamək, – ona şah qoymuşdu ad,
Onun varlığıyla şahın könlü şad.
Sevərdi onu can qədər hökmdar,
Yanardı gözündən olanda kənar.
Belə keçdi dövran da xeyli zaman,
Şahın şöhrəti, şanı artdı hər an,
Əgər saymasaq təkcə Əhriməni,
Yox idi şahın dünyada düşməni.
Nəzər saldı Əhrimən hər yanına,
Paxıllıq od oldu onun canına.
Onun qurd kimi oğlu da var idi,
Böyük bir qoşunda o sərdar idi.
Səyaməkdəki bəxt, qüdrət, cəlal
Paxıl qəlbinə yükləmişdi məlal.
Keçirmək üçün təxtü tacı ələ,
Çalışdı sala aləmə vələlə.

Dedi fikrini hər kəsə qorxmadan,
Xəbərdar idi məqsədindən cahan.
Xəbərsizdi ancaq Kəyumərs özü,
Sanardı onundur bütün yer üzü.
Nəhayət gəlib tapdı o şahı tək,
Pələng paltarında nəcib bir mələk.
Ədəblə şahın oğluna əydi baş,
Ona düşmənin qəsdini etdi faş.
Səyamək bilib düşmənin qəsdini,
O murdar divə qarşı coşdu kini.
Qoşun topladı hər tərəfdən dağa,
Hazırlaşdı o divlə çarpışmağa.
Nədir hərb, – bilməzdi onda bəşər,
Yox idi zirehli geyimdən əsər.
Pələng cildini taxdı şah əyninə,
Yürüş əmri verdi qoşun əhlinə.
Gəlib çatdılar üz-üzə ordular,
Səyamək dayandı üzündə vüqar.
Divin gördü şahzadə yal-yappalın,
Onun üstünə cumdu əyni yalın.
Qara div keçirdi onu çənginə,
Ölüm çökdü şahzadənin rənginə.
Göyə qaldırıb, tulladı torpağa,
Zərif sinə keçdi dəmir caynağa.
Səyamək olub div əlində tələf,
Köçüb getdi şah məclisindən şərəf.
Kəyumərsə çatdı uğursuz xəbər,
Oğul dərdi düşsə dağa, dağ çökər.
Edib tərk təxti, töküb göz yaşı,
Vurub başına öz əliylə daşı.

Yanaqları qan, bağrı da qan idi,
Hər iki gözü qanlı ümman idi.
Qoşun əhli batdı yasa, ağladı,
Elin göz yaşı sel kimi çağladı.
Deyərdin bu dünya geyinmiş qara,
Dəyib hər kəsin qəlbinə min yara.
Nə insan, nə heyvan – bütün canlılar
Dağa üz tutub etdilər ahü zar.
Gedib çatdılar şah dərgahına,
Şərik oldular dərdinə, ahına.
Bir il yas tutub ağladı hökmran,
Sifariş yetişdi ona Tanrıdan.
Ona Həqq adından dedi bir mələk:
– Sənə göz yaşı əsla etməz kömək.
Qoşun topla Həqq əmrini et qəbul,
Divin başını əzməyə hazır ol!
Çalış qanlı düşməndən al intiqam,
Divi yer üzündən çıxart, qov tamam!
Kəyumərs də göy səmtinə açdı əl,
Dedi: – Qoy zəlil olsun o bədəməl.
Şahın əzbəri oldu Haqqın adı,
Gözündən axan yaşları saxladı.
Qara divdən alsın deyə intiqam,
Yeyib yatmağı şah bilirdi haram.

Səyaməkdən oğluydu tək yadigar,
Qazandı vəzirlər qədər etibar.
Ona verdi Huşəng adı şah özü,
Ağıllı cavandı, açıqdı gözü.
Canından, gözündən tutardı əziz,

Həyatı o sevməzdi Huşəngsiz.
Susayanda şah düşmənin qanına,
Tələb etdi Huşəngi öz yanına,
Ona söylədi fikrini birbəbir,
Daha qalmadı şah könlündə sirr.
Dedi: – Bir qoşun toplayım mən gərək
Ki, nərə çəkərkən kar olsun fələk.
Sən ol ordunun başçısı, ey cavan,
Mənəm getməli, sən yeni pəhləvan.
Yığıb başına qurd, pələnglə bəbir,
Dayandı pərilərlə bir səfdə şir.
Qoşun quş, pəri, vəhşilər dəstəsi,
Qəzəbliydi, qorxmazdı sərkərdəsi.
Önündə gedirdi nəvə ordunun,
Kəyumərs özü arxasınca onun.
Qara div qoşunla yetişdi haman,
Göyə qaldırıb qorxudan toz, duman.
O heyvanlara baxdı, mat qaldı div,
Qəzəbli şahı gördü, sustaldı div.
Qara divlərin ki yolun kəsdilər,
Cumub basdılar, çeynəyib əzdilər.
Atıb pəncə Hüşəng bir aslan kimi,
Divi üzdü yerdən burulğan kimi.
Yerə vurdu, aldı çölün daşını,
Bədəndən ayırdı onun başını.
Zəlil eylədi qan içən düşməni,
Qoyuntək yıxıb soydu Əhriməni.
Səyamək üçün intiqam aldı şah,
Kəyumərsin ömrü sona çatdı, ah!
O getdi, qalır işləri yadigar,

Hər insandan aləmdə bir ad alar.
Bu fani cahanda gəzib bir zaman,
Qazanca yol açdıqda çəkdi ziyan.
Bu dünya bir əfsanədir, ol tanış,
Yaxşı-yaman heç bir kəsə qalmamış.

**Huşəng**

Ədalətli Huşəng, o gənc hökmdar
Kəyumərs yerində tutarkən qərar
Cavandı hələ qırx yaşı var idi,
Ağıllı, fərasətli huşyar idi.
O, gün ki, qədəm qoydu şah təxtinə,
Dedi: – Mən şaham, siz rəiyyət mənə.
Mənə yeddi ölkə gətirmiş pənah,
Mənəm aləmə hökm edən padişah.
Böyük Tanrı yar oldu, çaldım zəfər,
Cahan xalqı məndən ədalət görər.
Ədalətlə dünyanı qıldı abad,
Onun sayəsində hamı oldu şad.
Birinci odu kəşf edib hökmdar,
Qırılmaz daşı odda yandırdılar.
Daşı od əritdi, dəmir etdi saf,
Bəşər başladı etməyə inkişaf.

Dağa bir gün Huşəng etdi səfər,
Yanında adam vardı beş-on nəfər.
Uzaqdan uzun bir şey oldu əyan,
Qara ildırım sürətiylə qaçan.
İki qan bulağıydı sanki gözü,
Saçır ağzı tüstü, yanır yer üzü.

Tamaşa qıldı ona təmkinlə şah,
Böyük bir daş aldı ələ kinlə şah,
Atanda güc ilə daşı hökmran,
Şahın zərbəsindən yayındı ilan.
O daş getdi dəydi qaya bağrına,
Qırıldı, səpildi qaya dörd yana.
Ağır zərbə aldı, qaya partladı,
Toxunduqda daşa daş od parladı,
İlan ölmədi, oldu bu sirr faş
Ki, od mənbəyidir təbiətdə daş.
Çöküb diz, göyə açdı əl hökmdar,
Dedi: – Afərin, şükür, Pərvərdigar.
Hədiyyə mənə vermisən böylə nur,
Bu gündən belə xalqa qiblə odur.
Dedi: – Xaliqin nurudur od yəqin,
Cahanda pərəstiş oda eyləyin!
Gecə od qalandı uca dağ qədər,
Gəlib şahla əyanlar əyləşdilər.
Şərab içdi, bayram edib, oldu şad,
Əziz bayrama şah «Sədə» qoydu ad.
«Sədə» qaldı Huşəngdən yadigar,
Cahanda çox olsun belə hökmdar,
O, dünyanı abad edib, xalqı şad,
Edər xalq Huşəngi rəhmətlə yad.

Birinci dəmirçi olub hökmdar,
Dəmirdən hazırlardı balta, mişar.
Suvarma üçün sonra gəzdi çara,
O üz tutdu dəryalara, çaylara.
Yol açdı çölə axdı arxla sular,

Adamlar əzabdan xilas oldular.
Bütün xalqa azuqə çatsın deyə,
Özü başladı əkməyə, biçməyə.
Çalışdı əldə hamı etsin çörək,
Öz haqqında hər kəs düşünsün gərək.
Kömək etdi Huşəngə Pərvərdigar,
Cüyür, ceyranı, guru etdi şikar.
Dedi: – Bəslənib fayda versin gərək,
Qoyunla ulaq bir də südlü inək.
Ayırdı tükü yumşaq heyvanları,
Kəsib başını, soydurub onları,
Tükü isti sincab, tülkü, dələ,
Səmurdan o xəzlər düzəltdi belə...
Bu minval ilə soydu heyvanları,
Geyindirdi xəzlərlə insanları.
Çalışdı, yaratdı, yedi, payladı,
Köçüb getdi tarixdə qaldı adı.
Olunca onun ömrü, dövranı xoş,
Apardı əcəl, təxtını qoydu boş.
Ölüm vermədi bircə an da aman,
Nə huş qaldı Huşəngdə, nə təvan.
Vəfa gözləmə, bu cahandan əl üz,
Sənə mehribanlıqla göstərməz üz.

**Təhmurəs**

Var idi şahın bir zirək övladı
Ki, Təhmurəsi-divbənd idi adı.
Ata təxtinə əyləşəndə cavan
Bütün ölkəyə hökmü oldu rəvan.
Qoşundan o möbidləri birbəbir.

Çağırdı, başa saldı mətləb nədir.
Dedi: – Təxt ilə tac mənimdir bu gün,
Xəzinə, qoşun, hər nə varsa bütün.
Gərək pisliyi məhv edəm dünyada,
Salam zalımı öz əlimlə oda.
Verəm aləmə Əhriməndən nicat,
Mənə tabe olsun gərək kainat.
Gəzib axtaram faydalı hər nə var,
Edəm xalqımın xeyrinə aşikar.
Dedi: – Qırxın hər yerdə vardır qoyun,
Qoyunlar ki, qırxıldı, ayrıldı yun,
O yundan hazırlatdı xalqa libas,
Döşətdi yerə çoxlu xalça, palaz,
Atı, eşşəyi tutdu, ram eylədi,
Ot, arpa, saman topladı, yemlədi,
Seçib vəhşi heyvanları birbəbir,
Tazıdan, tuladan götürdü xeyir.
Tutub onları dağda tədbir ilə,
Gətirdi o, ram etdi zəncir ilə,
Uçuşda baxıb yolladı hər quşu.
Edib qırğını, şahini əl quşu.
Tutub verdi təlim, ova başladı,
Bu tədbirini aləm alqışladı.
Toyuqla xoruzdan tutunca xəbər
Ki, xoş banlayırlar açılcaq səhər,
Gətirdi, dedi: – Saxlayın bunları,
Toyuq saxlayan xalqın artar varı.
Mənim əmrimə siz itaət edin,
Böyük Tanrıya  hey ibadət edin!
O doğru yola salmış insanları,

Bizə ram qılmışdır heyvanları.
Şahın bir vəziri var idi təmiz,
Xeyirxahdı, xalqın yanında əziz.
Ağıllı, fərasətli Şəhrəsb adı,
Cahanda onun şöhrəti parladı.
Sevərdi şahın dadına çatmağı,
Unutmuşdu sanki yeyib, yatmağı.
O bəxt ulduzuydu böyük padşahın,
Salıb qorxuya canını bədxahın,
Şahı dəvət eylərdi düzgün yola,
O istərdi hər işdə düzlük ola.
Elə xeyirxah oldu ki, hökmdar,
Büründü Xuda nuruna aşikar.
Gedib tutdu əfsunla Əhriməni,
Minib at kimi hiyləgər düşməni,
Belinə yəhər qoydu o hər zaman,
Çapıb dördnala aləmi hökmran.
Salıb divləri qorxuya bu hünər,
Xəyanət yolunu tutub getdilər.
Qəbul etdi divlər belə bir qərar:
– Salınsın gərək təxtdən hökmdar.
Xəbər çatdı Təhmurəsə nagəhan,
Qəzəbdən gözündə qaraldı cahan.
Döyüşmək qərarı verib əzm ilə,
Acıqla ağır gürzü aldı ələ.
Yığıldı bütün divlər, əfsunçular,
Ürəklərdə kin, sel kimi cumdular.
Qara div idi ordu sərkərdəsi,
Göyə yüksəlirdi onun nərəsi,
Cahan şahı Təhmurəs o meydana

Qədəm qoydu təkcə özü mərdana.
Döyüş başladı təkbətək div ilə,
Aman vermədi divə bir an belə.
Çoxun vurdu gürz ilə sərdi yerə,
Tutub çəkdi bir qismini zəncirə.
Əsir etdi çün divləri hökmdar,
Aman istəyib, şaha yalvardılar.
Dedilər: – Gəl, öldürmə, biz əhd edək,
Sənə faydalı bir hünər öyrədək.
Aman verdi o divlərə hökmdar,
Dedi: – Sirri tez eyləyin aşikar!
Azad etdi şah divləri, müxtəsər,
Ona açdılar ki, nədir bu hünər.
Şaha yazmaq öyrətdi divlər, odur,
Biliklər onun qəlbinə saçdı nur.
Müəllim olub div şahın oğluna,
Həvəslə otuz dil oxutdu ona.
Ərəb, pəhləvi, soğd, çin, rum, dəri,
Bütün dillər oldu şahın əzbəri.
Biri şah olarsa otuz il əgər,
Necə göstərər bundan artıq hünər?
Çatınca əcəl, köçdü, getdi o da,
Yaşar zəhmətinin barı dünyada.

**Zəv Təhmasibin padşahlığı**

Yığıb Zal əyanları bir gecə,
Danışdı ki, Əfrasiyabla necə
Vuruşmuş onun pəhləvan dostları,
Döyüş dostları, qəhrəman dostları.
Deyirdi ki, bu, doğrudur, pəhləvan

Olar bəxt ilə, güclə xalqa həyan.
Bizə bir nəfəs şahnəsəb şah gərək,
Ötən sözlərə yaxşı məna verək.
Deyərlər: – Gəmiysə əgər ordular,
Onun yelkəni şah təxti olar.
Şah övladı Göstəhm ilə Tus əgər
Qoçaqdırsalar da, yox onlarda fər.
Yaraşmaz heyif, onlara tacü təxt,
Gərək padşahda ola nurlu bəxt.
Gərək Tanrı fərri ona yar ola,
Bütün aləmə təxti də nur sala.
Fəridun soyundan çox axtardılar
Uca təxtə layiq olan hökmdar,
O, Təhmasibin balası Zəv fəqət,
Başında ağıl vardı, həm mərifət.
Qoşunla Qaren, möbid həm mərzban,
Bamin, Gərzbandan keçib durmadan[2]
Apardı Zəvə bir belə müjdəni
Ki, gözlər İran tacü təxti səni.
Bütün ordu başda sipəhdar Zal
Sənə təxtü tacı biliblər halal.
Qaren söylədi, Zəv onu dinlədi.
Nə lazımdı, möbidlər açdı dedi.
Qarenlə Zalın yanına gəldi Zəv,
Kəyan tacını qoydu, yüksəldi Zəv,
Yeni şahı təbrikə Zal açdı dil,
Çıxıb təxtə Zəv, şahlıq etdi beş il,

---

[1] *Bamin və Gərzban - Herat şəhəri ətrafında iki qəsəbənin adı*

## Söhrab

Günəş boylanıb, çərxə atdı kəmənd,
Yerin köksünə çöləsi oldu bənd.
Alıb geydi Söhrab tez xoftanı,
Yəhər qoydu, mindi qonur madyanı.
Əlində bir hindi qılınc abidar,
Başında dəbilqə, üzündə vüqar,
Edib həlqə-həlqə ağır bir kəmənd,
Kəməndi atın tərkinə etdi bənd.
Görünsün deyə aydın iranlılar
Uca bürcün üstündə tutdu qərar.
Həciri çağırdı, dilə tutdu çox:
– Gərəkməz – dedi bir işə əyri ox,
Ox əyri olarsa, alar kəc nişan,
Hədəf əyri oxdan görər az ziyan.
Hər işdə əsas tut, qoru düzlüyü,
Çəkərsən zərər, at ikiüzlüyü!
Cavab ver suallarıma doğru, düz,
Bu düz yoldan heç vaxt döndərmə üz!
Əlimdən xilas olmağı istəsən
Yanımda əziz olmağı istəsən
İran barəsində nə etsəm sual,
Mənə düz cavab ver, məni razı sal!
Əgər düz danışsan, alarsan ənam,
Xəzinəmdə nə var, sənindir tamam!
Yalan söyləsən bil, işin zay olar,
Nəsibin o zindanda ah-vay olar!
Həcir söylədi: – İstəyir şah əgər,
İran ordusu haqda tutsun xəbər,
Nə bilsəm cavab verməyə hazıram,

Yalan sözlə, söhbətlə yoxdur aram!
Dedi: -Var sualım sənə, söylə sən,
Qoşun, pəhləvan, şah, sərkərdədən!
Mənə söylə sən Şah Kavusdan,
Söz aç Giv, Gudərzdən, Tusdan.
Qulaq as, mənə Bəhramı ver nişan,
Hanı, söylə, o Rüstəmi-dasitan?
Odur bir sərapərdə var, yeddi rəng,
Yanında çadırlar, içində pələng,
Önündə onun yüz iri fil durar,
Fil üstündə firuzədən təxt var.
Günəşdir, deyən, bayrağı yüksələr,
Qılafı bənövşə, başı aydı – zər!
Tutub mərkəzində məkan ordunun,
De, kimdir, nədir, söylə adı onun?
Həcir söylədi: – O, İran şahıdır,
Fil, aslan yeri şah dərgahıdır.
Dedi: – Sağ cinahda durur atlılar,
O yerdə ki, fillər də, sürsat da var.
Vurulmuş sərapərdə, rəngi qara,
Çəkib səf qoşun, bax bir, hardan hara!
Bütün dövrəsi ağ çadırdır niyə?
Verib arxa fillər sərapərdəyə.
Vurar dalğa filgövdəli bayrağı,
Qızıldır bütün qulların başmağı,
Dedi: – Tusi-Nuzərdir o namdar,
O, fil şəklini bayraq üstə vurar.
Dedi: – Bir sərapərdə var: qırmızı,
Alıb dövrəyə atlılardan yüzü.
Qızıl bayrağı üstə şir şəkli var.,

O gövhər nədir gün kimi parlayar?
Dedi: -Onda Gudərz tutmuş məkan,
O azadələr başçısı pəhləvan.
Döyüşdə edər ərsəni filə təng,
Önündə nə aslan durar nə pələng.
Soruşdu: – Kimindir o yaşıl çadır,
Gözü bu böyük ordunun ondadır?
İçində cəvahirnişan təxt var,
Odur, Kaviyan ulduzu parlayar!
Sərapərdədə əyləşən pəhləvan
Vüqarlı, şücaətli, şiri-jəyan!
Boyu, cüssəsi bir nəhəngdir elə,
Qoşunda o boyda adam yox hələ.
Oturmuş, qalanlar ayaq üstədir,
Başı sanki bir qəlbi dağ üstədir.
Bir at var önündə – uzun bir kəmənd
Yəhərdən olubdur ayağında bənd.
Elə kişnəyir, sanki göy gürlayır,
Coşur şahə qalxır, yəhər parlayır.
Döyüş filləri üstə bərgüstəvan,
Yerindən gəlir cuşa o pəhləvan!
Əsər bayrağı, əjdəhadır deyən,
Qızıl şir başı yüksəlir nizədən.
Özü təkdir, İranda təkdir atı,
Nədir, söylə o qəhrəmanın adı?
Cavab verdi: – Çindən o gəlmiş bizə,
Şaha xidmətə başlamışdır təzə.
Soruşdu: – Adın bilməyirsən məgər?
Dedi: – Xatirimdən çıxıb, müxtəsər!
O günlərdə ki, gəlmiş o pəhləvan,

Mənim məskənim Ağ qalaydı, inan!
Əzirdi kədər Söhrabı, sanki dağ,
O, Rüstəmdən heç tutmamışdır soraq.
Anası ona söyləmiş birbəbir
Ki, Rüstəmdəki xas nişanlar nədir?
Ürəkdə duyurdu, görürdü gözü,
İnanmırdı ancaq gözünə özü.
Şirin sözlə tutdu Həciri dilə,
Çalışdı gətirsin əsiri dilə.
Desin hansıdır Rüstəmi-namdar,
Sərapərdəsini hayanda qurar?
Fəqət başqa cür istəyirdi fələk,
Qəza hər nə yazmışsa, olsun gərək!
Soruşdu ki, sərkərdələrdən biri
Kənarda qurub bir çadır, çox iri,
Qabağında fillər, durur, atlılar,
Sərapərdədə kərrənay gurlayar.
Odur qurdnişan bayrağı yüksəlir,
Qızıl toppuzu pərdədən görsənir.
Dedi: – Əyləşir orda sərkərdə Div,
Ona pəhləvanlar deyir: Givi-Niv.
Böyük oğlu Gudərzin o pəhləvan,
İran ordusuna dayaqdır, inan!
Dedi: – Günçıxan səmtə bir sal nəzər,
Sərapərdə var – rəngi ağ, üstü zər,
Önündə onun mindən artıq səvar,
Çəkib səf igidlər keşikdə durar.
Piyada ələ nizə, qalxan alıb,
Çölü ağzına sanki ümman alıb.
Süpəhdarın altında təxt – şirmayi,

Uca təxtdə gövhərin yox sayı.
Asıb hər tərəfdən ipək parçalar,
Neçə cərgə qul xidmətində durar.
Sərapərdəyə var yaxın bir çadır,
Piyada qoşunlar önündə hazır.
De, kimdir sərapərdədə əyləşən?
Onun barəsində mənə söylə sən!
Dedi: – O, Fəribürz şahzadədir,
İgidlər tacı, qorxmaz, azadədir.
Dedi: – Qırmızı bir sərapərdə var,
Önündə piyada qoşunlar durar.
Qaban şəkli var bayrağında onun,
Başı altun ay, nizəsiysə uzun...
– Qorazdır – dedi – ordakı namdar,
Döyüşdə tutub şirləri parçalar.
Ağılda, hünərdə çəkib givlərə,
Gərər döş həmişə çətinliklərə.
Atasından o bir soraq almadı,
Həcirə, deyən yaddı Rüstəm adı.
Nə istərsən, istə, fəqət ruzigar
Özü hər nə istər, edər aşikar.
Zəmanə nə yazmışsa, o, olmalı,
Axar su gəlib arxına dolmalı,
Ata həsrətiylə yenə o cavan
Yaşıl çadırı bir də verdi nişan.
Dedi: – Gəl onun da adından danış,
O qat-qat kəmənddən atından danış!
Cavab verdi ki, nə bilirdim, dedim,
Nə söz gizlədib, nə yalan söylədim.
Adın bilmədim təkcə o çinlinin,

Deyiləm onunla tanış, əfv edin!
Dedi Söhrab: -İnsafmıdır, ey əmi,
Yarım sözlə yad etmədin Rüstəmi.
Cavanpəhləvan adlanan bir nəfər.
Bu ordu içində necə gizlənər?
Deyirdin: odur ordunun aslanı,
Elin, ölkənin bəs pənahı hanı?
Həcir söylədi: – O igid qəhrəman,
O, aslanları pəncəsiylə tutan.
Gedib dincələ, Zabilistandadır!
Əlində qədəh bir gülüstandadır!
Dedi: – Boş danışma, çətindir zaman,
Gör, hərbə gəlibsə böyük hökmran,
Cavanpəhləvan heç içib – əylənər?
Elə qəhrəmana bütün el gülər!
Uzun söhbətə yox bu gün vaxtımız,
Sənlə bu olsun bizim əhdimiz,
Mənə Rüstəmi sən tanıtsan əgər,
Başın, harda olsan, göyə yüksələr!
Sənə söylərəm, xəznəmi, gəl, apar,
Sənindir, varım, dövlətim, hər nə var!
Əgər saxlasan gizli bu sirri sən,
Mənə bircə kəlmə yalan söyləsən,
Yəqin bil, bədəndən başın ayrılar,
Fikirləş özün, səndədir ixtiyar!
Bilirsənmi, möbid şaha söyləmiş,
O dəmdə ki, bu sirri faş eyləmiş
Ürəkdə qalıb, düşmədən dillərə,
Söz oxşar daş içrə olan gövhərə.
Daşı sındırıb, gövhəri yonsalar,

Minər qiymətə, gün kimi parlayar.
Həcir söylədi: – Hansı bir hökmdar
Olarsa əgər təxtü tacdan bezar,
Atar can elə bir kəsin cənginə
Ki, fil tab gətirməz onun çənginə.
Fələk dursa Rüstəmlə çarpışmağa
Başı asimandan düşər torpağa.
Çinardan uca bir başı gəzdirən,
Var onda yüz aslan gücündə bədən.
Döyüş meydanında qəzəblənsə, bil,
Nə insan durar qarşısında, nə fil!
Elə fil tapılmaz bütün dünyada!
Ona qarşı olsun çətin davada!
Onun Rəxşinin dırnağından qopan
Toza tutiya tay deyildir, inan!
Cavab verdi Söhrab ki, bədbəxt atan,
O azadə Gudərz, Kəşvadəqan
Bu güc, bu bilik, bu hünərlə, Həcir,
Nə üzlə sənə doğma oğlum deyir!
Nə ömründə bir pəhləvan görmüsən,
Nə qovğalı meydanda at sürmüsən.
Odur ki, öyürsən belə Rüstəmi,
Basılmaz bilirsən hələ Rüstəmi.
Coşub daşmayırsa dəniz, müxtəsər,
Odun şöləsi qorxulu görsənər.
Yerindən əgər oynasa göy dəniz,
O müdhiş alovdan yəqin qalmaz iz.
Qılıncı çəkərsə günəş bircə an
Qaranlıqdan aləmdə qalmaz nişan.
Özü-özlüyündə düşündü Həcir,

Desəm Təhəmtən ordu qəlbindədir,
Bu boylu-buxunlu, yenilməz cavan,
İti pəncəli, güclü türk pəhləvan,
O fil cüssəli köhləni oynadar,
Təhəmtənlə üzləşməyə can atar.
Bu qol, bu kürək, bu güc ilə, yəqin,
Salar cismini torpağa Rüstəmin!
Onun sonra bəs qarşısın kim alar?
Gedib Şah Kavusu təxtdən salar.
Kişi düşmənə göstərincə kömək
Şərəflə, rəşadətlə ölsün gərək!
Məni öz əliylə o çəksə dara,
Yəqin ki, bu dünya geyinməz qara,
Atam yetmiş oğluyla sağdır hələ,
Düşüb adları pəhləvantək dilə.
O möbid demişkən, budur son sözüm:
İran yoxsa, qoy məhv olum mən özüm!
Çəməndə qopub sərv düşsə əgər,
Turac ətri otdan alarmı məgər?
Dedi Söhraba: – Nə yorursan özün,
Niyə Rüstəm haqqındadır hər sözün?
Onunla çalış gəlmə sən üz-üzə!
Səni toz edib, bil, səpər bu düzə!
Təhəmtən asanlıqla keçməz ələ,
Ona zor gələn olmamışdır hələ!

Həcirin sözü bərk toxundu ona,
Vurub yumruq ilə onun boynuna,
Yerə sərdi qəhr ilə döndərdi üz,
Qərargahına doğru yollandı düz.

Geyindi zireh əyninə durmadan,
Dəbilqə qoyub başına pəhləvan,
Damarda qanı coşdu, döndü oda,
Oturdu qaçışda iti bir ata,
Ələ aldı nizə coşub Nil kimi,
Sürüb getdi meydana bir fil kimi!
Hərif istədi, susdu iranlılar,
Döyüşmək deyil, baxmağa qorxdular.
Üzəngi ayaqda, əlində cilov,
Qolu, nizəsi püskürürdü alov!
Bütün pəhləvanlar düşündü bir an
Ki, qızmış filə oxşayır bu cavan!
Onun şəstinə baxmaq asan deyil!
Ona tay – bərabər bir insan deyil!
Çəkib nərə Söhrab, gəzib meydanı,
Dedi: – Göstərin, Şah Kavus hanı?
Tutub şaha üz, söylədi pəhləvan:
– De, yaxşı gedir işlərin, hökmran?
Neçin söylənir Şah Kavus adın?
De harda qalıb şahlıq istedadın?
Bu nizə gərək sinəni dağlasın,
Fələklər sənin halına ağlasın.
Yetəndə gecə qətlə, bil, Jəndərəzm,
Qəzəblə müqəddəs bir and içmişəm.
İranda nə qədər qoşun var, qıram,
Salıb şahı təxtdən, dara qaldıram.
Varınsa ləyaqətli bir pəhləvan,
Vuruşmaq üçün qarşıma qıl rəvan!
Dedikcə dedi, coşdu o namdar,
Cavab verməyə qorxdu iranlılar.

Çapıb gəldi, çatdı sərapərdəyə,
Vurub nizəni şah olan qübbəyə,
Qolunda onun fil gücü var axı,
Sərapərdənin çıxdı yetmiş mıxı.
Uçuldu tamam şah sərapərdəsi,
Ucaldı qoşundan həyahuy səsi.
Düşüb qorxuya ordu qaçdı, budur,
Necə şir görəngə qaçar çöldə gur.
Qəmə batdı Kavus, dedi: – Əlaman,
Tapılmazmı sizdən elə qəhrəman,
Gedib Rüstəmi-zala versin xəbər?
Bu türk etdi aslanları dərbədər.
Yoxumdur mənim bir elə pəhləvan,
Cəsarətlə meydana olsun rəvan.
Şahın elçisi Rüstəmə oldu Tus,
Gedib söylədi, nə demiş Key-Kavus.
Dedi Rüstəm: – Əvvəllər hər hökmdar
Verərkən mənim dəvətimə qərar,
Gah ənam bağışlardı, gah da şərab,
Bu Kavusdan ancaq ki, görüm əzab.
Buyurdu ki, Rəxşə qoyulsun yəhər,
Yağırdı igidlər üzündən zəhər.
Çadırdan nəzər saldı Rüstəm çölə,
Nə gördü: Ötər Giv təşviş ilə.
Qoyub Rəxşə Qorgin parlaq yəhər,
– Gecikmə,– dedi – atlan, ey şiri-nər!
Çəkib tərki Röhham kimi pəhləvan,
Ata bağladı Tus, bərgüstəvan.
Hamı bir ağızdan deyirdi: -Tələs!
Doğurmuşdu Rüstəmdə heyrət bu səs!

Dedi: – Əhrimən qol qoyubdur işə,
Deyil bais o bir nəfər təşvişə!
Geyindi tez əyninə bəbri-bəyan
Kəyani kəmər bağladı pəhləvan.
Minib Rəxşə Rüstəm, düzəldi yola,
Buyurdu Zəvarə keşikdə qala.
Yanınca onun bayrağın çəkdilər,
Qəzəbdən üzündən yağırdı zəhər.
Baxıb gördü Söhrabdakı əndamı,
O, görkəmdə xatırladırdı Samı.
Dedi: – Gəl sənlə keçək bir yana,
Sürüb at, gələk üz-üzə meydana.
Coşub əl-ələ sürtdü Söhrab o dəm,
Cəsarətlə meydana qoydu qədəm,
Dedi Rüstəmə: – Bəllidir keçmişin,
Döyüşlə, savaşla olubdur işin.
İrandan neçin istəməzsən kömək?
Gəlibsən mənim qarşıma indi tək!
Deyilsən bu meydanda sən tay mənə,
Aşarsan bu yumruqla vursam sənə.
Sinən enlidir, qamətinsə uca,
Yaş ötmüş, bükülmüş belin, ay qoca!
Nəzər saldı Rüstəm ona bir kərə,
O gövdə, o qamət, o sərt əllərə
Dedi: – Baş aparma belə, ey cavan!
Qızışma bir az yumşal, həddini qan!
Quru torpağın, bil, soyuqdur üzü.
Çalış, söylə yumşaqlıqla ilə sözü!
Qocalsam da, meydanda döş gərmişəm,
Qoşunlar qırıb, torpağa sərmişəm.

Əlimlə zəlil etmişəm divləri,
Üzüm dönməmişdir döyüşdən geri.
Mənə bax əlimdə əgər ölməsən,
Nəhəng üstünə gəlsə də, qorxma sən!
Dəniz, dağ döyüşdə görübdür məni,
Turandan gələn bir neçə düşməni
Necə əzmişəm, yer bilir, asiman,
Hunərdə mənə diz çökübdür cahan!
Dedi: – Bir sualım var indi sənə,
Budur xahişim, doğru söylə mənə!
Məgər sən, o Rüstəmsən, ey namdar?
Baban sami-Neyrəmdir, o şahsuvar?
Dedi: -Məndə oxşar nə var Rüstəmə?
Nə var nisbətim nə Sama, nə Neyrəmə?
Mənəm sadə qul, o böyük pəhləvan,
Mənim təxtü tacım hanı, ey cavan?
Toxundu ümid şişəsi daşlara,
İşıqlı gün oldu gözündə qara!

Gedib nizə çiynində o meydana,
Düşündü: Hanı sözlərin bəs, ana?
Döyüş meydanı oldu dar bir guşə,
İki nizə düşdü yaxından işə.
Polad nizələrdən əsər qalmadı,
Çevirdi sola pəhləvanlar atı.
Qılınca sarıldı iki pəhləvan,
Dəmirdən yerə od yağırdı, inan!
Elə zərbələr vurdular bir kərə
Ovuldu qılınclar, töküldü yerə.
Bu dəmdə ağır gürzə əl atdılar,

Tükənmişdi taqətləri aşikar.
Əmudlar əyildi ağır zərbədən,
İgidlər də, atlar da sarsıldı tən.
Dəyəndə əmud atlara bir kərə
Tökülmüşdü bərqüstəvanlar yerə.
İki pəhləvanın bu çarpışmadan
Belində zireh parçalandı haman!
Atın, atlının halı oldu xarab,
Nə əldə tutar qaldı, nə qolda tab.
Axıb torpağa qanlı tər sanki sel,
Susuzdan ağızda cadarlandı dil.
Ata dərdü qəmli, oğul xarü zar,
Bir az bir-birindən uzaqlaşdılar.
Qəribə işin var sənin, ey cahan!
Özünsən sağaldan, özünsən qıran!
Görüşdə, döyüşdə iki qəlbdən
Biri duymadı mehribanlıq nədən?
Ədavət ki, gəldi, ağıl sarsılar,
Məhəbbət yerini qəzəb, kin alar.
Dənizdə balıq, çöldə ceyran, cüyür
Duyur körpəsini, haçan ki, görür.
Tamah gözlərin kor etmiş bəşər,
Öz övladının da gözünü deşər.
Fikirləşdi Rüstəm, mənimlə hələ
Hərif olmamışdır nəhəng, bax, belə!
Əlimdə mənim oldu Ağ div də xar,
Bu gün naümidlik məni sarsıdar.
Belə bir cavan görməmişdir cahan,
Bu qüvvət, bu cürətdə yox pəhləvan!
Zəmanə əlindən yetişdim cana,

Dikibdir iki ordu göz meydana!
Döyüşdən, tutuşdan, qaçışdan sarı,
Nəfəs dərdi, dincəldi çün atları,
Cavanla qoca üz-üzə durdular,
Bu ona, o buna hey ox vurdular.
Dəbilqə zireh, halqa oldu həyan
Aman vermədi ox yetirsin ziyan.
Qəzəbdən çəkib ah, qan uddular,
Biri digəriylə kəmər tutdular.
Əgər pəncə atsaydı Rüstəm dağa,
Qopardıb atardı dağı torpağa.
Tutub qurşağın Söhrabın bir ara,
Çalışdı yəhərdən onu qaldıra.
Yox idi qolunda onun bu hünər,
Cavan tutmadı sanki bundan xəbər.
Döyüşdən bezib hər iki pəhləvan,
Əzik, yorğun ayrıldılar bircə an .
Yəhərdən alıb gürzü Söhrab ələ,
Atı şahə qaldırdı tez qəhr ilə,
Vurub əzdi bir zərbədə çiynini,
Göyə ağrıdan qalxdı Rüstəm ünü.
Gülüb söylədi Söhrab: – Ey pəhləvan!
Bu bir zərbəyə səndə yoxmuş tavan.
Döyüşdə dönüb Rəxşin olmuş ulaq,
İki qolla şöhrət tapar hər qoçaq!
Boyun varsa da sərvtək çox uca,
Cavanlıq edirsən, ağılsız qoca!
Bu ondan, o bundan olunca bezar,
İki pəhləvana cahan gəldi dar,
Biri digərindən çevirdikdə üz,

Kədər canlarını üzürdü təmiz,
Sürüb Rəxşi turanlılar üsünə,
Pələng cumdu sanki şikar üstünə
Bir ac qurd kimi girdi çün orduya,
Dağıldı qoşunlar düşüb qorxuya.
Atın başını çəkdi Söhrab o dəm,
İran ordugahına basdı qədəm.
İşə saldı gürzü, çatıb ləşkərə,
Neçə pəhləvanı uzatdı yerə.
Fikirləşdi Rüstəm, mənimlə hələ
Yetər şah Kavusa bundan ziyan!
Bu qamət, bu qol, bu zireh, bu kəmər,
Cavan türkdə vardır tükənməz hünər.
Bu fikr ilə halı dəyişdi təmiz,
İran ordugahına üz qoydu tez .
Gəlib gördü Söhrab tüğyan edər,
Axar çayları qanla əlvan edər.
Əlində olan nizədən qan damar,
Deyən aslanı məst qılmış şikar.
Təhəmtən onu gördü artdı qəmi,
Ürəkdən çəkib nərə aslan kimi,
Dedi: – Qan içən türk, ey nakişi!
Qoşun əhlinin sənlə varmı işi?
Günahı nədir bunların, söylə, sən,
Quduz qurd kimi həmləyə keçmisən?
Cavab verdi Söhrab ki: -Turanlılar
Bu dava-dalaşda günahsızdılar.
Sənə yetmiş onlardan hansı yara?
Sən, əvvəl hücum eylədin onlara.
Dedi Rüstəm: – Artıq qaranlıq çökər,

Haçan ki, fəzadan günəş nur tökər,
Bu çöldə ki, mənbər də var, dar da var,[1]
Qılınclar günəşdə yenə parlayar.
Süd ətri qılıncla olub aşina,
Mənəmlik elə işləmiş başına,
Elə zənn edirsən, ölüm yox sənə?
Uşaqkən qılınc oynadırsan mənə?
Get indi, görək Tanrı nə istəyir?
Bizi sübh açılcaq qılınc gözləyir!
Çıxıb getdi onlar, qaraldı hava,
Fələk də baxıb qaldı mat Söhraba.
Döyüşçün yaratmış, deyən asiman,
Yerində qərar tutmayır bircə an.
Dəmirdənmi altındakı at məgər?
Polad cismi var, ruhu ondan betər.
Gecə vaxtı gəldi, çatıb ləşkərə,
Belindən silahları tökdü yerə.
Humana dedi: – Çıxcağın bu səhər,
Günəş saldı dünyaya bir şurü şər.
Nə etdi sizə, söylə, o pəhləvan,
O fil gövdəli, şir ürək qəhrəman?
Human dedi: – Vardı əmrin sənin,
Yerindən bizim ordu tərpənməsin!
Hələ salmamışdıq işi səhmana,
Münasib deyildi girək meydana.
Çatıb at, bizə sarı o qoydu üz,
Böyük ordunun üstünə gəldi düz.

---

[1] *Mənbər – (minbər) – söz söylənilən yer. Misranın mənası belədir: bu çöldə danışmaq imkanı da var, vuruşub ölmək imkanı da*

Sanardın ki, sərxoşdur, az şey qanır,
Böyük ordu tək bir nəfərdir, sanır.
O heç bir kəsə lakin əl açmadı,
Elə pəhləvan yoxdu ki, qaçmadı.
Dedi Söhrab: – O pəhləvan mərd imiş,
Bir insan belə sizdən öldürməmiş.
Mən iranlılardan qırıb çatmışam,
Daşı, torpağı qanla islatmışam.
Acam, indi süfrə açaq biz gərək,
Şərabla ürəkdə qəmi öldürək.
Çatıb orduya Rüstəmi – namdar,
Dedi Givə könlündəki, hər nə var –
Necə üzləşib Söhrab ilə bu gün,
Necə çarpışıb, sarsılıbdır bütün.
Dedi Rüstəmə Giv: – İndi eşit!
Hələ görməmişdik belə bir igid!
Gəlib ordunun mərkəzinə qədər,
Tusun üstünə cumdu o şiri – nər!
At üstə tutub nizə durmuşdu Tus.
Düşüb Qorgin atdan, oturmuşdu Tus.
Çatıb nizə əldə onu görcəyin,
Çəkib nərə, coşdu bir aslan təkin.
Döşündən elə vurdu ki, bir kərə.
Dəbilqə başından atıldı yerə.
Ona etmədi cürət əl açmağa,
Əlacı onun qaldı tez qaçmağa.
Qırıb tökdü bir çox dilavərləri,
Qaçanlar dönüb baxmayırdı geri.
Ona qarşı yoxdur çıxan bir nəfər,
Çatar bu işə təkcə səndə hünər.

Hücum eyləyib girmədik meydana,
Qoşun sadəcə oldu təslim ona.
O gah mərkəzə, gah sağa çapdı at,
Qoşun cürətinə baxıb, qaldı mat.
Bu söz saldı od Rüstəmin canına,
Dönüb getdi Kavus şahın yanına.
Baxıb gördü Kavus: Rüstəm gəlir,
Sevindi, yanında ona verdi yer.
Təhəmtən açıb söylədi şah üçün
Ki, Söhrabda nə qüvvə görmüş o gün.
Dedi: – Bu cahanda hələ bir uşaq
Görən olmamışdır bununtək qoçaq.
Uca qaməti ulduzu haqlayar,
Ağır gövdəsin güclə yer saxlayar.
Onun hər qoludur bir at sağrısı,
Toxunsa kimə, sarsıdar ağrısı.
Qılınc, nizə, gürzü kəmənd ilə ox
Bugünkü döyüşlərdə işləndi çox.
Nəhayət düşündüm: nə çox qəhrəman
Yəhərdən yerə atmışam bir zaman .
Əl atdım kəmərbəndinə nagəhan,
Sıxıb möhkəm ovcumda, verdim təkan.
Onu istəyirdim yəhərdən alam,
Qara torpağa əjdahatək salam.
Küləkdən dəbərməz uca dağ necə,
Yəhərdə o tərpənmədi zərrəcə!
Sabah mən gərək tez gedim meydana
Güləşdə gəlim bəlkə qalib ona.
Qərarım budur, Tanrı yaxşı bilər,
Kimi istəsə Həqq, o qalib gələr.

Şücaət, zəfər, güc verən də odur.
Günəşlə ayı gəzdirən də odur.
Dedi şah ki: – Hifz etsin Allah səni,
Həmişə zəlil eyləsin düşməni!
Gecə sübhədək sürtüb üz torpağa,
Özüm başlaram həqqə yalvarmağa,
Odur qalibiyyət yolu göstərən,
Odur həm fələkdə aya nur verən.
Sənə qoy bu işdə Xuda yar ola,
Adın yüksələ, düşmənin xar ola!
Təhəmtən dedi: – Bəxtin, ey padişah,
Yar olsa, çatar kamına xeyrxah!
Başı fikr ilə, qəlbi kinlə dolu.
O öz ordugahına tutdu yolu.
Zəvarə, ürəkdə yarası dərin,
Dedi: – Söylə, keçdi necə işlərin?
Yemək istədi Rüstəm ondan bu dəm,
Çalışdı, unutsun, nədir dərdü qəm.
Dedi: – Çəksə hər cür bəlalar başım,
Səbirli, mətanətli ol, qardaşım!
Gərək sübh tezdən gedəm meydana,
Belə vermişəm söz o türk oğluna.
Özünlə götür ordu bayrağını,
Qızıl təxtimi, zərli başmağımı,
Günəş dağ başında olarkən əyan
Sərapərdənin qarşısında dayan!
Əgər mən qazansam döyüşdə zəfər
Dönüb tez gətirrəm sənə xoş xəbər.
Əgər başqa cür olsa sən heç zaman
Qızışma, qorun, etmə ahü fəğan!

Bu meydana siz təkbətək getməyin,
Vuruşmaq üçün heç tələş etməyin!
Tutub Zabilistana üz, tez gedin,
Zalı bu müsibətdən agah edin!
Anam ağlasa könlünü al ələ,
De: Tanrı özü istəmişdir belə.
Məni qoy unutsun o, el qaydası: -
Nədir gözyaşı tökməyin faydası?
Qalan olmamış daimi dünyada,
Hədər getməmiş heç də ömrüm bada.
Əlimdə nə çox divlə aslan, pələng,
Həlak oldu onlarla etdikdə cəng.
Neçə bürc, qala fəth edibdir əlim,
Cahan alçalırdı ki, mən yüksəlim.
Döyüşmək üçün atlanan hər adam
Deyər: – Gəl, əcəl, gəlməyindən şadam!
Tutaq ki, mini adlamışdır yaşım,
Budur axırım, yorma nahaq başın!
Zala söylə, görsən onu şadiman
Ki, şahdan üzü dönməsin heç zaman.
Əgər hərbə getsən, qabaq səfdə get,
Nə fərman verərsə, onu sən eşit!
Ölümçün yaranmış qoca, həm cavan,
Bizə daima ev deyil bu cahan.
Gecə keçdi, Söhrabdan idi sözü,
Yoruldu, uzandı, qapandı gözü.
Qanadlandı parlaq günəş, saçdı nur,
Qara qarğa gizləndi gözdən, budur.
Təhəmtən alıb geydi bəbrü-bəyan,
Minib Rəxşinə sanki şiri-jəyan,

Atın tərkinə bağladı bir kəmənd,
Qılınc dəstəsində əli oldu bənd,
Başında dəbilqə gəlib meydana,
O çöldə gətirdi atı cövlana.
Hamı qəm udur ki, çox olsun payı,
Hərislikdə insanların yox tayı.
O yandansa Söhrab qurmuş büsat,
Saz-avaz ilə mey içirdi rahat.
Tutub Humana üz, dedi ki: – Dünən
Mənimlə bir aslan kimi döşləşən,
Döyüşdə nə qorxar, nə də sarsılar,
Mənimtək onun da uca qəddi var.
Mənəm sanki qol, döş, boyun, sinədən,
Bizi bir qəliblə töküblər, deyən.
Anam söyləyən o nişanlar ki, var,
Hamı onda cəmdir, açıq-aşikar!
Baxıb həsrət ilə ona, durmuşam,
Nə göz çəkmişəm, nə üzə vurmuşam,
Odur, mən bilən, Rüstəmi-namdar,
Cahanda belə pəhləvan az olar.
Atamla döyüşsəm əgər üz-üzə,
Necə görsənim sonra bəs mən gözə?
Human dedi: – Rüstəmlə meydanda mən
Neçə dəfə rastlaşmışam bilmədən.
Görüb duymuşam qüdrətin, qüvvətin,
Ona sən müqabil durarsan çətin.
Bilirsənmi, Mazəndaranda o şir
Nələr eyləmiş, indi də söylənir?
Onun Rəxşinə oxşayırsa bu at,
Hanı bunda bəs ondakı qol-qanad?

Səhər oldu, çıxdı günəş pusqudan,
Göz açdı igidlər, oyandı haman.
Durub geydi Söhrab döyüş paltarı,
Xumartək o yollandı meydan sarı.
Ağır gürz əlində girib meydana,
Çəkib nərə saldı atın cövlana.
Gülər üzlə o Rüstəmə atdı söz.
Sanardın mey içmiş gecə üzbəüz.
Soruşdu: – Necə yatmısan, durmusan?
Niyə qəlbini kinlə doldurmusan?
Əlində o gürzü, qılıncı, gəl, at,
Yerə vur bu qovğanı, dostluq yarat!
Gəl atdan düşək, üzbəüz əyləşək,
Doyunca bu köhnə şərabdan içək!
Edək əhdü peymanı Xaliqlə biz,
Bezibdir deyək hərbdən qəlbimiz!
Əgər başqası girsə də meydana,
Bir işrətlə sadiq qalaq peymana!
Səni mən sevmişəm ürəkdən özüm,
Necə gör qızarmış həyadan üzüm?
Yəqin ki, böyük nəsildənsən özün,
Danış, qalmasın qoy ürəkdə sözün!
Dedi Rüstəm: – Ey pəhləvan, az danış!
Mənəm, bil, bu sözlərlə çoxdan tanış!
Güləşmək qərarına gəldik dünən,
Məni, gəl, bu sözlərlə aldatma sən!
Cavansan, məni zənn qılma uşaq,
Kəmər tumağa hazır ol, ey qoçaq!
Mən ömrümdə çox gəzmişəm dağ, dərə,
Qulaq asmaram hiyləgər sözlərə!

Dedi Söhrab: – Ey pəhləvan, yaxşı bil,
Bu sözlər qoca mərdə layiq deyil!
Mən arzu edərdim çatanda əcəl
Yataqda öləydin, barı, ey əfəl!
Öyünsə sənin kimi hər bir adam,
Ya əldə ölər, ya ki darda müdam!!
Deyirsən, yenə çarpışaq biz gərək,
Mən hazır: kimə yar olar Həqq, görək!
Döyüş atlarından yerə endilər,
Başında dəbilqə, belində kəmər,
Piyada, daşa bağlayıb atları,
Toz içrə gedib bir-birinə sarı,
Gah əlləşdilər, gah da diz çökdülər,
Bədəndən yerə qanlı tər tökdülər.
Qızan fil kimi əl atıb bir kərə
Alıb Rüstəmi, qoydu Söhrab yerə!
Bir aslan necə guru yerdən alar,
İti pəncəsində üz üstə salar,
Üzü, ağzı torpaq dolu Rüstəmin
Çıxıb sinəsində oturdu həmin!
Belindən çıxardı iti xəncəri
Ki, başsız qoya o nəhəng peykəri!
Dedi Rüstəm: – Ey şir tutan qəhrəman,
Əli gah kəmənd, gah qılıncdan tutan!
Bu rəftar bizlərdə adət deyil,
Bizim rəsmimiz başqadır, başqa, bil!
Özündən böyüklə əgər bir nəfər
Döyüşdə güləşsə, qazansa zəfər,
Gələrsə yerə yaşlının arxası,
Kəsilməz başı, bax, budur qaydası!

İkinci kərə yıxsa tez öldürər,
Ona şir kimi öz gücün bildirər!
O, çün istəmirdi tuta xalq yas,
Bu fənd ilə oldu ölümdən xilas!
Qoca pəhləvana cavan pəhləvan
İnandı, sədaqətlə verdi aman!
Birinə ürək, yaş böyük dərd idi,
Biri sadəlövhdü, cavanmərd idi.
Bir ahu görüb yan keçən şir kimi
Çölə qoydu üz, boşladı Rüstəmi.
Kiminlə vuruşmuş, yada salmadan
Şikar eyləyirdi o gənc qəhrəman.
Gecikdi o, Human gəlib çatdı tez,
Soruşdu: – Niyə ondan əl çəkdiniz?
Ona Rüstəm hər nə demişdi o gün,
O da Humana şərh qıldı bütün.
Human söylədi: – Hiyləyə uymusan,
Canından niyə gənc ikən doymusan?
Bu qoldan, bu boydan-buxundan heyif!
Bu pəncə, kəmər, döş, boyundan heyif!
Keçirdin igidliklə şiri girə,
Aman verdin öz xamlığından şirə!
Onunla tutaşsan əgər bir də sən,
Görərsən, qalarsan necə girdə sən!
Bu sözlər salıb Söhrabı heyrətə,
Canı çulğalandı qəmə, möhnətə,
Qərargahına qoydu üz durmadan,
Qəzəbdən onun beyninə vurdu qan!
Nə xoş söyləmiş bu sözü şəhriyar:
Kiçik olsa da düşməni tutma xar!

Əlindən onun oldu Rüstəm xilas,
Polad bir qılıncdan deyən, getdi pas.
İtən bir həyatı tapıbdır deyə,
Yetirdi özün bir axar çeşməyə!
Su içdi bulaqdan, yuyundu təmiz!
Ulu Tanrı dərgahına tutdu üz.
O, Xaliqdən istərdi qüvvət, zəfər,
Xəbərsizdi tale necə tor sərər.
Fələk dövr edər, bəxt yoldan sapar,
Başından papağın dövran qapar!
Yol aldı bulaqdan meydana sarı,
Fikirdən, xəyaldan üzü sapsarı,
Qolunda kəməndi, əlində kaman
Çapıb gəldi Söhrab elə bu zaman!
Salıb nərəsi aləmi lərzəyə
Atın sıçradıb, başladı həmləyə!
Onun cürəti, qüdrəti, görkəmi
Düşündürdü heyran qalan Rüstəmi.
Görüb Rüstəmi şir ürəkli cavan.
Cavanlıq qürurundan aldı təkan.
Dedi: – Ey olan şir əlindən azad!
Məgər etmədin zərbi-şəstimi yad.
Yenə sən mənim qarşıma çıxmısan?
Özün öz evini demək yıxmısan!
Yenə atları bağladılar daşa,
Bəla açdı bədxah tale başa!
Güləş başlayanda iki şiri-nər,
Yapışdı kəmərdən polad pəncələr.
Kimə öz dönük bəxti etsə hücum,
Daş olsa belə yumşalar sanki mum!

Olan Söhrabın qüvvəsiylə tanış.
Deyərdi: fələk əl-qolun bağlamış!
O qorxmaz pələng qəmli idi yenə,
Atıb pəncə Rüstəm onun çiyninə,
Cavan pəhləvanın əyildi beli,
Əcəl çatdı taqətsiz oldu əli.
Onu şir kimi vurdu Rüstəm yerə,
Bilirdi o tez qalxacaqdır yenə,
Belindən qılıncı çıxardı haman,
Vurub sinəsindən axıtdıqda qan,
Ürəkdən bir ah çəkdi, qıvrıldı bərk,
Yaman-yaxşı, hər arzunu qıldı tərk,
Dedi: – Mən bəla açdım öz başıma,
Zəmanə çıxartdı səni qarşıma,
Günahkar bu işdə fələkdir yenə,
Məni çəkdi, saldı ölüm cənginə!
Yaşıdlarım oynar uşaqtək hələ!
Məni torpağa saldı dövran belə!
Atamdan anam söhbət açdı hər an,
Məhəbbətlə coşdu vücudumda qan!
Onu axtarırdım, heyif, görmədim!
Bu dünyada mən çox ömür sürmədim!
Necə qıydın, ey qaniçən, canıma?
Boyandı iti xəncərin qanıma!
Zəmanə olar təşnə, bil qanına!
Batar dəşnətək tüklər əndamına.
Balıqtək su altında tapsan məkan,
Gecə kimi zülmətdə olsan nəhan,
Uçub yer üzündən əgər bir kərə,
Ucalsan bir ulduz kimi göylərə.

Atam yerdə qoymaz mənim qanımı,
Quru yerdə görsə cavan canımı,
Bu ordu içindən gedər bir nəfər,
Verər Rüstəmi-Zala mütləq xəbər
Ki, Söhrab səni axtarıb hər zaman
O namərd əlində ölüb, verdi can!
Eşitdikdə Rüstəm bu müdhiş sözü,
Dumanlandı başı, qaraldı gözü,
– Mənəm Rüstəm, ey kaş batsın adım,
Gözü yaşlı qalsın elim, övladım!
Çəkib nərə, qəlbində qan etdi cuş,
Yıxıldı, başından onun uçdu huş!
Gəlincə huşa ahü fəryad ilə,
Suallarla Söhrabı tutdu dilə,
Varındırmı Rüstəmdən heç yadigar?
Ona pəhləvanlıq adı olsun ar!
Dedi: – Söylə sən, barı, Rüstəmmisən,
Xəyanətlə öz oğlun öldürmüsən?!
Bacardıqca verdim işarə sənə,
Məhəbbət izi düşmədi qəlbinə!
O gün ki, qapımda vuruldu təbil,
Anam gəldi ağlar, mənə açdı dil,
Fəraqımda öz canını dağladı,
Qoluma bu qolbağı o bağladı.
Dedi: Yadigardır atandan, apar,
Elə gün gələr ki, dadına çatar!
Budur, gəldi, çatdı elə bir zaman,
Ata qarşısında oğul verdi can!
Anam ayrılıq dəmlərinə yenə
Tanış bir igid tapdı, qoşdu mənə.

Müsahib ola, məsləhətlər verə,
Atamı görəndə mənə göstərə.
Heyif, öldürüldü cavan pəhləvan,
Dönüb taleyim, halım oldu yaman!
Sənindi, gəl, aç cövşənimdən bağı,
Bu çılpaq qolumda gör o qolbağı!
Açıb gördü qolbağ tanışdır ona,
Sovurdu tozu, torpağı başına!
Dedi: – Ey əlimdə mənim xar ölən,
Hər eldə adı fəxr ilə söylənən!
Qırıldı belim, bir də gülməz üzüm,
Qıyınca sənə, kaş öləydim özüm!
Saçın yoldu, gözdən töküb qanlı yaş,
Üzü qanla örtüldü, torpaqla baş.
Dedi Söhrab: – Az eylə ahü fəğan!
Sağalmaz yaram, yüz ömür ağlasan.
Özün öldürürsən, nədir faydası?
Belə olmalıymış, budur qaydası!
İkindiydi, Rüstəm hələ orduya
Gəlib çıxmadı düşdülər qorxuya.
Qoşundan seçildi iyirmi nəfər,
Döyüş meydanından gətirsin xəbər.
İki at o çöldə dayanmış, budur,
O yanda toza qərq Rüstəm durur,
Gəlib atları gördü iranlılar,
Yox idi fəqət Rüstəmi-namdar!
Onu öldürülmüş güman etdilər,
Çəkib ah igidlər fəğan etdilər!
Xəbər tutdu dərhal Kavus şah
Ki, Rüstəm ölüb, qaldı boş barigah!

Qoşun əhlinə düşdü fəryad, şur,
Hamı ağladı, sanki dünya qopur!
Çalındı şah əmriylə şeypur, kuş,
O dəm hazır oldu sipəhdar Tus.
Dedi Tusa Kavus: – Ey pəhləvan!
Götür atlı, meydana ol tez rəvan!
O Söhrab nələr eyləmişdir, görək!
İran halına ağlayaq biz gərək!
Əgər Rüstəmi öldürübsə o, xar,
İrandan ona qarşı bəs kim çıxar?
Gərək onda köç təbilini döydürək,
Bu meydanı tərk eyləyək tez gərək.
Qoşundan ucaldıqda bu həmhəmə,
Dilə gəldi Söhrab, dedi Rüstəmə:
– Mənim ki, belə çatdı ömrüm başa,
Oxu türklərin də toxundu daşa!
Çalış onlara qarşı ol xeyrxah,
Qoşun çəkməsin Turana padişah!
Mənəm İrana sövq edən onları,
Rəva görmə axsın nahaq qanları!
Ümidlə verib çox şirin vədələr,
Mənəm, etmişəm onları dərbədər!
Ata, onlara yaxşılıq arzula,
Çalış, onları sal səlamət yola!
Dodağından ahlar, üzü qanlı yaş
Minib Rəxşi Rüstəm, çölə aldı baş!
Çatıb ordugaha, qopardı fəğan,
Özü öz işindən olub bağrı qan,
Ona gəldi iralılar dikdi göz,
Önündə torpağa hamı qoydu üz.

Döyüşdən o salim qayıtmış – deyə,
Təşəkkürlə əllər açıldı göyə.
Görüncə, səpib başına torpağı,
Üzünə, gözünə salıb cırmağı,
Sual verdilər ki, nə olmuş məğər?
Kimi dərdi qılmış səni xuncigər?
Açıb söylədi ki, o, nə iş görüb,
Özü öz əziz oğlunu öldürüb!
Onunla bərabər hamı ağladı,
Fəğan yüksəlib, yer-göyü dağladı.
Dedi Rüstəm: – Ey şanlı sərkərdələr,
Daha qalmamış məndə candan əsər.
Hücum etməyin bir daha türklərə,
Nə lazımdı mən etmişəm bir kərə.
Dönüb, tez qayıtdı yenə meydana,
Yetirdi özün can verən oğluna,
Böyüklər də getdi onunla bahəm,
Qoca Tus, Gudərz ilə Gostəhəm,
Dil açdı qoşun, qoydu üz torpağa,
O nakam ölən gəncə etdi dua.
Özü Tanrı bu dərdə dərman edə,
Çətin işləri bəlkə asan edə!
O qəsd ilə ki, kəssin öz başını,
Çəkib xəncəri, tökdü göz yaşını
Böyüklər qolundan onun tutdular,
Töküb göz yaşı, etdilər ahü zar!
Sual verdi Gudərz: – Ey qəhrəman!
Nə xeyri yerə çöksə də asiman?
Özünə yüz işkəncə versən belə,
Sağalmaz əzizin bu dərman ilə!

Əgər ömrü qalmışsa, ölməz yəqin,
Onunla yaşa, gör oğul ləzzətin!
Əgər getməli olsa bu novcavan,
De, kimdir cahanda həmişə qalan?
Başında dəbilqə və ya tac da var,
Ölüm ovçudur biz hamımız şikar!
Xitab etdi Gudərzə o pəhləvan:
– Dayanma, qərargaha tez ol rəvan!
Yetir Şah Kavusa məndən salam!
De, çan üstədir, göz önümdə balam!
İgid oğlumun köksünə dəşnəni
Özüm vurmuşam, yer uda kaş məni!
Yadından əgər çıxmamış xidmətim,
Bir iş gör, azalsın qəmim, möhnətim!
Xəzinədə var nuşdaru sənin,
Odur dərmanı hər ağır xəstənin,
Bir az nuşdaru və bir cam şərab,
Mənə göndər, işlə böyük bir səvab!
O bəlkə sağalsın sənin bəxtinə,
Mənim kimi xidmət edər təxtinə!
Çapar gəldi Gudərz, şahın yanına,
Dedi Rüstəmin xahişini ona!
Cavab verdi Kavus: – Gudərz, inan!
Sağalsa o fil cüssəli pəhləvan,
Olar Rüstəmə arxa, Rüstəm ki, var,
Məni şübhəsiz ortadan qaldırar!
O boy, o kürək, o ağıl, o hünər.
Geniş bu cahan Rüstəmə dar gələr!
Eşitdinmi Rüstəm nələr söylədi?
Məni bu qoşun içrə xar eylədi!

Dedi: – Saymaram Şah Kavus nədir,
Odur Şəhriyar, onda bəs Tus nədir?!
O görsə ki, Söhrab kimi oğlu var,
Gəlib qul kimi xidmətimdə durar?
Eşitdikdə Gudərz bu sözləri,
Başından duman qalxdı, döndü geri!
Dedi Rüstəmə: – Nanəcib şəhriyar
Tikanlı ağacdır, barı zəhrimar.
Özün get, o dilbilməzi sal başa,
Əsər et sözünlə o qəlbidaşa!

Təhəmtən buyurdu ki, xidmətkarı
Sərə arx içində yerə paltarı.
Onun üstünə qoydu Söhrabı tez
Yönəldi şahın yanına səbrsiz,
Hələ yolda ikən cahanpəhləvan
Xəbər gəldi, çatdı ona arxadan
Ki, Söhrab qıldı bu dünyanı tərk!
Ona qəsr yox, indi tabut gərək.
«Atam harda?» – oldu onun son sözü,
Dərin ah çəkdi qapandı gözü!
Atından Təmtəhən atıldı yerə,
Elə inlədi, düşdü səs göylərə,
Bilirdi, daha dərdinə yox əlac,
Çölün torpağından başa qoydu tac!
Çəkib ün, dedi: – Ey yenilməz cavan!
Sən idin nəsilbənəsil pəhləvan!
Tayın görməyibdir nə günəş, nə ay,
Nə cövşən, nə də təxt, nə tac, nə saray!
Cahanda kimin dərdi var mən qədər,

Cavan oğlun hansı qoca öldürər?
Baban Sam idi aləmi fəth edən,
Doğuldun o şahzadə Təhminədən!
Rəvadır kəsilsə mənim əllərim,
Qara torparın altı olsun yerim!
Belə bir işi görmüş hansı ata?
Yeri var, üzüm çoxlu danlansa da!
Kim öldürmüş öz novcavan oğlunu?
Ağıllı, igid qəhrəman oğlunu?
Eşitsə, məni Zali-zər danlayar,
Bu matəmdə Rudabə qan ağlayar.
Nə üzlə açıb söyləyim onlara?
Belə bir cinayət hara, üz hara?
Hələ pəhləvanlarla sərkərdələr,
Məni hər biri bilsə rüsvay edər!
Anası xəbər tutsa, nə söyləyim?
Kimi göndərib, iltimas eyləyim?
Desəm: öz çırağım söndürmüşəm,
Günahsız o gənci mən öldürmüşəm,
Soruşmazmı ondan atası: niyə?
Nələr söylər, ah, o, Təhminəyə?
Yəqin ki, məni dinsiz adlandırar,
Bunu kim bilirdi, bu yaşda uşaq
Atıb sərvtək boy, olar bir qoçaq!
Döyüş əzmi ilə qoşun toplayar,
Məni eyləyər pəncəsində şikar.
Buyurdu ki, şahanə tirmə alın,
Cavan oğlumun üstünə siz salın!
O arzu edərdi tapa tacü təxt,
Tabut qismət oldu ona, döndü bəxt!

Təhəmtən o tabutu qaldırdı, düz
Sərapərdəsinə tərəf qoydu üz!
Gəlib çatdılar orduya birbaşa,
Qoşun əhli topraq sovurdu başa!
Töküb qanlı yaş, səf çəkib durdular,
Sərapərdəsində tez od vurdular!
O xeymə, o təxt, yeddi rəng tirmələr,
Qızıl çarpayı, dövrəsi zər, gühər.
Tutaşdı oda, qalxdı ərşə duman,
Dedi Rüstəm: – Ey novcavan pəhləvan!
Heyif səndəki boy-buxun, surətə!
Heyif səndəki mərdliyə, cürətə!
Heyif çəkdiyin zəhmətindən, heyif!
Könüldə qalan həsrətindən, heyif!
Anan ayrılıq dərdinə ağladı,
Atan qəm dolu bağrını dağladı!
Səpib çəngə-çəngə başa torpağı,
Cırıb tökdü paltarını dırnağı!
Bütün pəhləvanlar, necə bir nəfər
Quru torpaq üstündə əyləşdilər.
Ağı çağlayırdı o öz oğluna,
Böyüklər təsəlli verirdi ona.
Əzəldən fələk işləmişdir belə.
Alar bir ələ tac, kəmənd bir ələ,
Biri tac qoyub dünyadan kam alar,
Birini kəmənd ilə təxtdən salar.
Bu dünyanı sevmək hədərdir, hədər!
Gedənlər qayıtmaz, gələnlər gedər!
Fikirləşmə, can atma varlanmağa!
Xəzinə qayıtsın gərək torpağa!

Bu qanundan agah deyilsə fələk,
Onun da başında beyin yox, demək!
Yəqin, gərdişindədir o bixəbər,
Ona min sual vermə, etməz əsər!
Əlindən nə getsə bu gün, çəkmə qəm,
Nədir işlərin axırı bilmirəm!
Dedi Rüstəmə şah: – Əlborz dağı
Və ya sadəcə bir qamış yarpağı,
Nə varsa cahanda udar, bil, fələk!
Bu dünyaya bağlanmayaq biz gərək!
Biri tez, biri gec gedər bir qədər!
Ölümdür həyatın sonu, müxtəsər!
Bu dərdi, qəmi, Rüstəm, artıq burax!
Ağıllı deyən sözlərə ver qulaq!
Göyü, yer üzünü uçursan belə,
Bütün aləmə od da vursan belə,
Əlindən gedən bir də dönməz geri,
Tapıb ruhu başqa cahanda yeri!
Uzaqdan tamaşa mən etdim ona,
Qolu, sinəsi, qəddi, əndamına,
Əcəl çəkdi, saldı onu bu yola!
Gərəkdi, əlində sənin məhv ola!
Bu dərdə nədir çarə, söylə, tapaq!
Gedən getdi, yetməzmi qan ağlamaq?
Dedi Rüstəm: – Söhrab, ölüb, doğrudur,
Bu çöldə qoşunlarla Human durur!
Neçə çinli, turanlı sərkərdə var,
Ürəkdən çıxart kini, ey hökmdar!
Şah əmr eyləsin, Həqq bizə yar ola,
Zəvarə qoşunla düzəlsin yola!

Dedi Rüstəmə şah: – Ey namivər!
Döyüşdən qəmin qövr edirsə əgər,
Mənə pislik etmişsələr də, inan!
Bu İranı qoymuşsalar da viran,
Mənim bağrımı yaxdı dərdü qəmin,
Yada salmaram onları, ol əmin!

Qoşunla şah İrana oldu rəvan,
Qalıb gözləyirdi cahanpəhləvan,
Zəvarə qayıtsın, gətirsin xəbər
Ki, turanlılar əylənər, ya gedər?
Haman gün gəlib çatdi  yoldan Həcir,
Dedi: – O qoşun meydanı tərk edir.
Zəvarə qayıtdı açılcaq səhər,
Təhəmtən dəxi qıldı əzmi-səfər,
Qoşunla o, yollandılar Sistana,
Çatınca bu qəmli xəbər Dəstana,
Bütün sistan əhli qan ağladı,
Axıb sel kimi yolları bağladı.
Gözü yaşda, tabuta salcaq nəzər,
Atıldı atından yerə Zali-zər!
Qabaqda piyada gedirdi ata,
Libası cırıq, bağrı yanmış oda!
O tabut önündə açıb, qurşağı,
İgidlər başa səpdilər torpağı!
Dedi Zal: – İnanmazdım əsla buna
Ki, Söhrab gələ gürz ilə meydana!

Böyüklər bilir, dünyada heç zaman
Elə bir oğul olmamışdır doğan!

Bu sözlərlə nisgillə qan ağladı,
Dili əzbəri oldu Söhrab adı!
Gəlib qəsrinə çatdı Rüstəm haman,
O tabut önündə qopardı fəğan.
Mıxı çəkdi, tabutu açdı o dəm,
Ayırdı kəfəndən o gül cismi həm.
Bütün varlığı sanki düşdü oda,
Zala üz tutub söylədi: – Bax, ata!
Hamı baxdı o nazənin peykərə.
Fəğan yüksəlib, saldı od göylərə!
Cırıb paltarı, tökdü sərkərdələr,
Tozu, torpağı başlara səpdilər.
Tabut qəsri tutmuşdu çün sərbəsər,
Gömülmüşdü sandığa bir şiri-nər!
Sanardın ki, Samdır, belə boy atıb,
Döyüşdən çıxıbdır, yorulmuş, yatıb!
Sarı tirmə çəkdi onun üstünə,
O tabuta mıx vurdu möhkəm yenə!
– Qızıldan – dedi – tikdirin məqbərə,
Qara müşk, ənbər səpin hər yerə!
Bu arzumdu, lakin ölərsəm əgər,
Qoyarlarmı o qəbrdən bir əsər?
Daş aldı, o tikdirdi bir sərdaba,
Cahan əhli yas saxladı Söhraba.
Demişdir belə Bəhram, o xoşkəlam:
– Ölənlərlə dost olmağı bil həram!
Deyil daimi ömr, bel bağlama!
Gecikmə, hazırlaş, ayaq saxlama!
Tutaq ki, atan verdi möhlət sənə,
Çatar, bil ki, tezliklə növbət sənə!

Həyatın belə gizli bir sirri var.
Əbəs gəzmə bu gizli sirrə açar!
Bu bağlı qapını açan yox hələ,
Bu yolda, çalış, ömrü vermə yelə!
Bu dastandı, başdan-başa göz yaşı,
Rəvadır, əgər ağlada dağ-daşı!
Kimin qəlbi həssasdır bir qədər,
Yəqin ki, Rüstəmi-Zala nifrin edər!
Sona yetdi dastan, sözü boşladım,
Səyavuş dastanını başladım!

**On iki mərhələli İran – Turan müharibəsi**

Yol üstündə turanlı görcək haman,
Tutub öldürür Tus, vermir haman.
Bütün yurdları çapdı, yaxdı oda,
Gəlib toxdadı ordu Kasəruda.
Qoşun etdi mənzil böyük bir düzü,
Çadırlarla doldu, deyən, yer üzü.
Xəbər tutdu türklər ki, iranlılar,
Gəlib Kasəruda qədər çatdılar.
Turan ordusundan sayıq bir cavan,
Pəlaşan adlı qoçaq bir pəhləvan.
Gəlirdi yaxından baxa orduya,
Neçə bayrağı vardır, alsın saya.
Düşərgə olan yerdən azca kənar,
Uca bir təpə vardı, üstü hamar.
Çəkilmişdi Bijənlə Giv xəlvətə,
Qızışmışdı onlar şirin söhbətə.
Baxıb gördülər, yolda toz yüksəlir,
Turan ordusundan Pəlaşan gəlir.

Onu Giv görcək uzaqdan haman,
Belindən qılıncı çəkib durmadan
Dedi: – Adlı sanlı Pəlaşan gəlir,
Döyüşdə yenilməz bir aslan gəlir.
Ayırram onun başını gövdədən,
Gətirrəm onu ya qolubağlı mən.
Dedi Bijən: – Əl saxla, ey namdar!
Xələt bəxşiş etmiş mənə hökmdar.
Gərək əmrinə mən itaət edəm,
Pəlaşanla çarpışmağa mən gedəm.
Belə söylədi Bijənə Giv: – Sən
Tələsmə, bu aslan deyil sən deyən!
Onunla döyüşdə basılsan əgər,
Qəmində bu dünya mənə dar gələr.
Pəlaşan bir aslan kimi çarpışar,
Neçə pəhləvanlar edibdir şikar.
Dedi Bijən: – Artıq bu sözdən çək əl!
Məni şah yanında utandırma, gəl!
Siyavuş geyən cövşəni ver mənə,
Pələng ovlamaq göstərim mən sənə.
Ona Giv verdi zirehli donu,
Alıb əyninə geydi Bijən onu.
Oturdu ata, nizə aldı ələ,
Çapıb getdi dağdan düzənlik çölə.
Pəlaşan oturmuş, qolunda kaman,
Buraxmış atı otlağa qəhrəman.
Qızartmış od üstündə bir ceyranı,
Yeyirdi bir ac qurd kimi büryanı.
Bu anda o gördü bir atlı gəlir,
Döyüş paltarında büsatlı gəlir,

Bağırdı, dedi Bijənə: – Ey cavan,
Mənəm şir şikar eyləyən, div tutan,
De, kimsən, mənə doğru söylə adın,
Bu anda göyə yüksələr fəryadın!
Dilavər ona söylədi: – Bijənəm,
Döyüşdə polad cüssəli fil mənəm!
Babam pəhləvandır, atam Giv-şir,
Tanı indi, gör üstünə kim gəlir?
Bəla başının üstün almış deyə,
Daraşdın belə qurd kimi cəmdəyə?!
Kifayət edər tüstü, kül, qan yedin,
Bu meydan, yetər, hərzə-hədyan dedin.
Pəlaşan cavab vermədən, yel kimi,
Atın üstünə qalxdı bir fil kimi.
Həriflər salıb atları cövlana,
Əli nizəli girdilər meydana .
Pəlaşanı Bijən, o da Bijəni,
Tuş aldı, işə saldılar nizəni.
Yeri şumladı atların dırnağı,
Bulud kimi qaldırdı toz torpağı.
Qırıldı iki nizə toqquşmadan.
Əl atdı qılınca iki qəhrəman.
Ovuldu qılınclar dəyib bir-birə,
Xəzan yarpağı tək töküldü yerə.
Görüncə tərə qərq olub atları,
Kədərləndilər yorğun atdan sarı.
İki məğrur aslan, iki pəhləvan,
Ağır gürzə əl atdılar bu zaman.
Çəkib nərə Bijən, dönüb aslana,
Polad gürz əlində çapıb meydana,

Belindən hərifin elə vurdu ki,
Onun bel sütunu bölündü iki.
Pəlaşan tərpənmədi bir daha,
Atından yıxıldı qara torpağa.
Yəhərdən igid Bijən endi yerə,
Onun başını kəsdi bir xəncərə.
Soyundurdu əynindəki cövşəni,
Qara yerdə başsız qoyub düşməni,
Başı, cövşəni, həm atı aldı tez,
Atası olan səmtə döndərdi üz.
Givin bağrı olmuşdu qan qüssədən,
Deyirdi: – Kimin bəxti dönmüş, görən,
Çəkirdi yol göz tikib intizar.
Ki, Bijən yolundan nə vaxt toz qopar.
Cavan oğlu yoldan yetişdi, budur!
Qürurla əlində kəsik baş tutur!
Döyüşdə əzib, xar edib düşməni,
Qənimət gətirmiş atı, cövşəni.
Başı qoydu Givin önündə cavan,
Ata söylədi: – Əhsən, ey pəhləvan!
Təpə üstünü şad tərk etdilər,
Sərapərdəyə yollanıb getdilər.
Gəlib haqladıqa sərapərdəyə,
Başı ərməğan etdi sərkərdəyə,
Dedi Tusa: – Öldürmüşəm düşməni,
Bu baş, bu atı, bu onun cövşəni!
Sevindirdi sərkərdəni bu xəbər,
Sanardın, onun ruhu pərvaz edər.
Atandır, dedi, ordumuzçün pənah,
Onun sayəsində tapıb tacı şah.

Sən o qəhrəmanın qoçaq oğlusan,
Zəfər çalmısan, bəxtiyar olmusan.
Həmişə ucal, ad qazan, sən yaşa!
Sənə düşmən ox atsa, dəysin daşa!

Gəlib çatdı Əfrasiyaba xəbər,
Ki, Turan hüdudunda olmuş nələr.
Qoşun Kasəruda gəlib haqladı,
Gəzir dil-ağızda Siyavuş adı.
Turan padşahı dedi Pirana:
– Qoyub Xosrov öz fikrini meydana!
Gərək biz də bayraqları qaldıraq,
Onun qarşısında təbil çaldıraq,
İran ordusu çatsa bu yerlərə,
Günəş, ay qara görsənər gözlərə.
Dayanma, sözə, söhbətə son qoyaq,
Gərək hər tərəfdən qoşun toplayaq.
Bu yandan tufan qopdu, başlandı qar,
Döyüşməkdən əl üzdü iranlılar,
Səmanı qara bir bulud çulğadı,
Kilidləndi dişlər, dodaq çatladı.
Çadırlar, sərapərdələr dondular,
Dağ hündürlüyündə çölə yağdı qar.
Qar altında gizləndi səhra düzü,
Bir həftə görən olmadı çöl üzü.
Sanardın, daşa döndü dünya tamam,
Yeyib yatmaq, əylənmək oldu haram.
Qoşun qaldı ac, bitdi sursatları,
Kəsildi, yeyildi döyüş atları.
Tələf oldu çoxlu adam, at, qatır.

Qalanlarda nə əl, nə də qol çatır.
Günəş çıxdı, həftə yetincə başa,
Götürdü su dünyanı başdan başa.
Qoşun əhlini Tus tez topladı,
Döyüşdən söz açdı, bir az gopladı:
– Soyuq, dedi, orduya vurmuş zərər,
Pis olmaz bu yoldan qayıtsaq əgər.
Bəla versin Allah belə çöllərə,
Səpədkuh, Kəlad, Kasərud – hər yerə.
Dilə gəldi Bəhram, dedi: – Biz gərək,
Günah kimdədir, ya nədə, göstərək!
Bizi susudurub, öz sözün söylədin,
Siyavuşun oğluyla gör neylədin!
Əməl etmədin şah verən fərmana,
İnandın səbəb oldu nahaq qana.
Atıb xeyri sən, düşmüsən pis yola,
Bizi gözləyir qarşıda yüz bəla.
Bununla silinməz əlindən o qan,
Qılıncı hələ çəkməmişdir zaman.
Dedi Tus Givə ki, səncə, Zərəsp,
Deyildir qoçaqlıqda, Azərkeşəsb?
Hanı orduda Rivnizin tayı?
Canımdan, gözümdən əzizin tayı?
Günahsız məgər öldürüldü Forud?
Olan oldu keçdi, onu gəl unut!
Mən hazırlamışdım ona süd, şərab,
O dağdan mənə oxla verdi cavab.
Olub keçmişi salmayaq gəl yada.
O haqq getdimi, yoxsa nahaq bada,
Gəl indi qoçaq Givə biz tapşıraq,

Odun yığdırıb yolda vursun qalaq.
Yığılsa odun yol boyu dağ qədər,
Yəqin şahımız Givə xələt verər.
Elə vaxt çatıbdır ki, od yandıraq,
Odun şöləsini qanadlandıraq.
Od ilə açılsın yolu ordunun,
İsinsin bir az əl-qolu ordunun.
Dedi Giv: – Xoşdur mənə bu qərar!
Ağır olsa da zəhmətim, xeyri var!
Eşitdi, toxundu bu söz Bijənə,
İcazə, – dedi, -vermərəm mən sənə.
Kimin ki, mənimtək cavan oğlu var,
Girişmək belə bir işə ar olar.
Məni bəsləmişsən nə zəhmətlə sən,
Deyib, dindiribsən məhəbbətlə sən.
Bu gün mən gərək bu işə əl qatam,
Necə mən baxım, qar əritsin atam?!
Dedi Giv: – Mən razılıq vermişəm,
Bu işdə şərəf, iftixar görmüşəm.
Gərək biz aman verməyək düşmənə,
Qocalsam da, dinclik yaraşmaz mənə.
Mənim getməyimdən kədərlənmə sən,
Nəfəs salsam, atəş saçar dağ həmən.
Bütün yolları bağlamışdı su, qar,
Çölə Kəsaruddan çətin çıxdılar.
Qılınclar, təbərlər salındı işə,
Qırıldı, çatıldı böyük bir meşə.
Qalandı odun dağ kimi yollara,
Bu dağ çölləri tutdu hardan-hara.
Oxu uc-uca çatdı, od aldı Giv,

Odun dağına atdı, od saldı Giv.
Küləkdən alov, tüstü qalxdı göyə,
Yolu bağladı, şölə üç həftəyə.
Ayın çatdı dördüncü gün həftəsi,
Sular axdı, söndü odun şöləsi.
Qoşun əhlini topladı pəhləvan,
Od üstən Gərugerdə oldu rəvan.
Gəlib çatdı ordu rahat mənzilə,
Çadırlar düzüldü dağa, həm çölə,
Bütün işləri saldılar sahmana,
Keşik çəkməyə çıxdılar hər yana.
Təjavdı Gərugərdidə hökmran,
Döyüşlərdə aslan beli sındıran.
Sürü, ilxısı vardı saysız onun,
Bütün çöl düzü at, qatırdı, qoyun.
Bir atlı Təjavə gətirdi xəbər,
Ki, İran tərəfdən bir ordu gələr.
Təjav söylədi: – İlxını qaçdırın,
Tez ordu gözündən uzaqlaşdırın.
Var idi ağıllı, zirək bir çoban,
Ləyaqətli, hər işdə qadir çoban.
Kəbudəydi o pəhləvanın adı,
Şahın ilxısında çobanın adı.
Çağırdı onu, söylədi: – İndi sən,
Hazırlaş yola, el-oba bilmədən.
Qaranlıq çökəndə girib pusquya,
Nəzər sal İrandan gələn orduya.
Sayından, çalış, ordunun tut xəbər,
Ona başçıdır hansı sərkərdələr?
Gərək onlara yaxşı şəbxun vuraq,

Qıraq, leşlə bu çölləri dolduraq.
Kəbudə qara toz kimi, gizlicə,
İran ordugahına getdi gecə.
Keşikçiydi Bəhram gecə yollara,
Kəmənd atsa, fillər salardı tora.
Kəbudə minən at bu dəm kişnədi,
At üstündə Bəhram onu dinlədi.
Oxu çilləyə qoydu çəkdi kaman,
Çapıb, ordudan çıxdı o qəhrəman,
Kəbudə qaranlıqda çıxdı yoxa,
Təkan verdi Bəhram kamanda oxa.
Alıb şah çobanı belindən yara,
Dönüb rəngi oldu kömürdən qara.
Atından yıxıldı qara torpağa,
Bu halətdə dil açdı yalvarmağa.
Yaxınlaşdı Bəhram, ona söylədi:
– Burax, hiyləni, sən mənə doğru de!
Gecə vaxtı kim göndəribdir səni?
Şikar etməyə hansı sərkərdəni?
Kəbudə dedi: – Gəl mənə ver aman,
Deyim, hər nə istərsən, ey qəhrəman!
Məni padişahım Təjav göndərib,
Yanında məni bir qula döndərib.
Bələdçi götür öz yanınca məni,
Onun qəsrinə çatdırım tez səni.
Cavab verdi Bəhram ki, sus, az danış!
Təjavı mənimlə edirsən tanış?
Mənəm qızmış aslan, o isə öküz,
Bələdçi nə lazım, canından əl üz!
Kəsib başını, qan yudu xəncəri,

Atın tərkinə asdı, döndü geri.
Başı ordugahda yerə tulladı
Ki, nə şöhrəti var idi, nə adı.

Günəş bayrağıyla bəzəndi fələk,
Gecə uçdu, gizləndi bir qarğa tək.
Xoruz banlayıb susdu, oldu səhər,
Yox idi Kəbudə tərəfdən xəbər.
Təjav bildi casusu dönməz geri,
Kədər saldı əldən o cəngavəri.
Yanında qoşun var idi bir qədər,
Çağırdı, hamı gəldi tutcaq xəbər.
Düşərgə sarı oldu ordu rəvan,
Bunu gördü iranlılar pusqudan.
Xəbər çatdı, Turandan ordu gəlir,
Pələng bayraq altında sərkərdə şir.
Götürdü qoşundan neçə pəhləvan,
İgid Giv ona sarı oldu rəvan.
Dayandı önündə, bağırdı ona:
– Kişi, söylə, kimsən, doyubsan cana?
Budurmu sənin ordun, ey qəhrəman!
Atıldın nəhəng ağzına qorxmadan!
Təjav söylədi Givə ki, az danış!
Gücümlə döyüşdə olarsan tanış!
Təjavam, cahanı tutub şöhrətim,
Bütün ölkəyə bəllidir qüdrətim.
İranlı olubdur yenilməz babam,
Onun şirürəkli bir övladıyam.
Böyüklər içində adım var bu gün,
Mənə tapşırılmış bu sərhəd bütün.

Mənə qız verib şah, damad edib.
Məni bəxtiyar, könlümü şad edib.
Dedi Giv: – Artıq danışma hədər,
Səni öz sözün, bil ki, rüsvay edər.
Bir iranlı Turanda salsa məkan,
Zəhərdir onun içdiyi, bir də qan!
Əgər şah damadı, sərkərdəsən,
Başında böyük ordu yoxdur, nədən?
Bu az qüvvən ilə qızışma, saqın,
Dilavərlərə qarşı getmə yaxın.
Unutma yenilməz bu sərkərdəni,
Salar torpağa kəllən üstə səni.
Mənim əmrimə tabe ol, istəsən,
Qoşun başçısı Tus ilə get, danış,
Deyib, dinlə, ol mətləb ilə tanış.
Xələt istəyirsən, birə beş alım.
Belində yəhər, at da peşkəş alım.
Təjav söylədi Givə: – Ey pəhləvan,
Mənim bayrağım endirilməz, inan!
Mənim indi təxtim də, tacım da var,
Qulum, xəznəm, ordum, xəracım da var.
Belə ölkə, Əfrasiyab kimi şah,
Görən varmı İranda, ey xeyrxah!
Demə ordum azdır, məni az qına,
Yəhərdə məni gürzüm ilə sına!
Bu azca qoşunla elə qan edim,
Sizi gəlmənizdən peşiman edim.
Dedi Givə Bijən: – Əzizim ata!
İgidlər içində tayın yoxsa da,
Qocalmısan artıq, deyilsən cavan,

Yenilməz, genişqəlbli pəhləvan!
Təjav anlamaz ki, nəsihət nədir?
Bu alicənablıq, məhəbbət nədir?
Qılınca əmuda gərək əl ataq,
Yaraq bağrını, beynini partladaq.
Atı cövlana saldı, qopdu havar,
Qılınc çəkdilər, gürz qaldırdılar.
O meydanda qalxdı elə toz, duman,
Sanardın Günəş gözdən itdi haman.
Qara bir bulud sanki çökdü düzə,
Nə ulduz, nə də ay göründü gözə.
Qoşun mərkəzindəydi Giv pəhləvan,
Qaraldı onun zərbəsindən cahan.
Durub öndə Bijən, coşur sanki şir,
O meydanı işrət büsatı bilir.
Başında tacı, çarpışırdı Təjav,
Onun gürzünə fil gətirməzdi tab.
Dilavərləri yaxşı insan kimi,
Döyüş təşnəsi, dönməz aslan kimi,
Ölür, dönməyirdi döyüşdən geri,
O meydan boyu qan suvardı yeri.
Bu qızğın vuruşma uzun sürmədi,
Təjavın qılıncı bir iş görmədi.
Turan ordusundan az oldu qalan.
İgid türklərin bəxti döndü yaman.
Təjav qaçdı tapsın ölümdən nicat,
Səyirtdi onun üstünə Bijən at.
Çəkib nərə, aldı ələ nizəni,
Bir aslan sanardı görən Bijəni.
Vurub nizə ilə belindən həmən,

Təjav əsdi, sarsıldı bu zərbədən.
Zireh nizəni saxlamışdı bir az,
Açıb bəndi oldu zirehdən xilas.
Atıb Bijən o nizəni, açdı çəng,
Təjav san ahu idi, Bijən pələng.
Necə laçını şahin eylər şikar,
Təjav tacını qapdı o namdar.
Tacı başına qoymuş Əfrasiyab,
Həmişə o tacla gəzərdi Təjav.
O tacsız başa bəlkə versin nicat,
Qala səmtinə bir başa çapdı at.
Təjavı vurub salsın atdan deyə,
Dönüb ardınca Bijən bir şimşəyə.
Təjav önləmişdi, yaxında qala,
Sayırdı ki, ondan sovuşmuş bəla.
Onunla gəlib İspinuy üz-üzə,
Qızıl qan axıtdı gözündən üzə.
Dedi: – Arxa döndərmisən düşmənə,
Qoyub kimsəsiz getmə, rəhm et mənə!
Dayanma, məni al atın tərkinə,
Çalış, düşməyim düşmənin çənginə.
Təjav canına saldı od bu sözü,
Kədərdən gözərdi, qızardı üzü.
Əyildi Təjav, birləşib əlləri,
Atın tərkinə aldı o dilbəri.
Çün ayüzlü tutdu dalında qərar,
Ata çəkdi məhmiz, getdi çapar,
Gözəl İspinuy ilə o pəhləvan,
Toza döndü, Turana oldu rəvan.
Yarı olmadan yol, Təjavın atı,

Yoruldu daha, taqəti qalmadı.
Təjav İspinuya dedi: – Ey nigar!
Çətindir işi, olmadı bəxt yar.
At əldən düşüb taqəti yox daha,
Gəlir düşmən arxamca, öndə kaha.
Əgər arxadan çatsa Bijən mənə,
Əlacım budur, ram olam düşmənə,
Yoxundur cahanda sənin düşmənin,
Düş atdan, gedim tək mən, ey nazənin!
Atın tərkini İspinuy etdi tərk,
Təjav tökdü göz yaşını jalə tək.
Azaldı yükü, çapdı at dördnala,
Uzun çəkmədi, qaldı Bijən dala.
O bildi qaçan düşmənə çatmaz əl,
Yol üstündə gördü durur bir gözəl,
Yanaqlarını sandı ki, lalədir,
Üzü ay, qara saç ona halədir.
Onu tez alıb tərkinə pəhləvan,
Qayıtdı geri, orduya durmadan.
Gəlib Tus dərgahına toxdadı,
Təbil səsləri hər yanı çulğadı,
Hamı Bijən ilə edib iftixar,
Deyirdi: – Edib şir Ceyran şikar.
Neçə pəhləvan Tus ilə getdilər,
Cadugərdi viranəzər etdilər.
Şəhərdə nə vardı, alıb çapdılar,
Dönüb ilxıya sonra əl qatdılar.
İgidlər hərə döndü bir aslana,
Kəmənd əldə saldı atı cövlana,
Tutub hər biri bir at, aldı yedək

Bütün orduya atlar verdi bəzək.
Acıqlı, yenilməz o sərkərdələr,
Təjavın sarayında əyləşdilər,

Təjavın kədər saldı od canına,
Gəlib çatdı Turanşahın yanına.
Xəbər verdi ki, gəldi sərkərdə Tus,
Böyük bir qoşun, fillər üstündə kus.
Tələşan ilə bir neçə pəhləvan,
Salındı qara torpağa, verdi can.
Bütün ölkəyə od vurub yaxdılar,
Süründə nə vardı şişə taxdılar.
Bu sözlərdən əhvalı oldu xarab,
Düşündü, əlac tapsın Əfrasiyab.
Dedi Pirana: – Əmr verdim sənə,
Qoşun topla, vermə aman düşmənə!
Gecikdin yaman, tutdu tənbəlliyin,
Qocaldıqda, insan olur kütbeyin.
Nə at qaldı, nə pəhləvan, nə qala,
Başım üstünü yaxşı aldı bəla.
Qul oldu qohum-əqrəbanın çoxu,
Talanmışdır əyanların var-yoxu.
Dayanmaq, gecikmək haramdır bu gün,
Bizə dar qəfəsdir bu dünya bütün.
Edib tərk Əfrasiyab qəsrini,
Çölə çıxdı Piran, coşdu kini.
Böyük bir qoşun topladı ölkədən,
Silah verdi, pul payladı xəznədən.
Şəhərdən çıxıb gəldi o pəhləvan
Ki, sərkərdələr seçsin o ordudan.

Dedi Armanla Təjada: – Tez gedin,
İkiz, sağ cinahı idarə edin!
Sola seçdi sərkərdə Nəstihəni,
O aslan ürəkli, polad pəncəni.
Döyüldü təbil, gurladı kərrənay,
Bütün aləmə saldı şeypur haray.
Əsir nizədə cıqqalar rəngbərəng,
Sarı, qırmızı don geyindi fələk.
Qoşunda igid vardı yüz min nəfər.
Yürüş etdi meydanda, çalsın zəfər.
Dəvə, at, qatır, fil dönüb bir selə,
Deyərdin: bu ordu sığışmaz çölə.
Alıb yol alaylar, gedir iz-izə,
Dəniz, dağ, dərə, çöl görünməz gözə.
Piran verdi fərman ki, yoldan çıxın,
Kəsə yol gedin mənzil olsun yaxın.
Gərək tutmasın kimsə bundan xəbər,
Hücum eyləyir şanlı sərkərdələr.
Budur məqsədim, dağ tək ordumla mən,
Alım düşmənin üstünü qəflətən.
Neçə pəhləvan çəkdi məhmiz ata,
Çapıb getdi ön səfdə kəşfiyyata.
Gərugərdə sarı yönəldi qoşun,
Cilovtökmə Bavərdə gəldi qoşun.
Sərəxsi keçib Tusa yan aldılar,
Təbillərlə Bavərdə səs saldılar.
Gedənlər dönüb orduya gəldilər,
Çatıb verdi Pirana onlar xəbər,
Dedilər: – İran ordusu mey içir,
Bütün vaxtları işrət ilə keçir.

Keşiksiz qoyublar bütün yolları,
Hücum gözləmirlər Turandan sarı.
Sevindirdi Piranı bu xoş xəbər,
Onu dövrəyə aldı sərkərdələr.
Danışdı qoşun başçısı ordudan,
Dedi: – Bəxtimiz yar olubdur yaman!
Biz, iranlılarla vuruşdu hələ,
Belə fürsəti almamışdıq ələ.

Gəlib seçdi sel tək axan ordudan,
Otuz min qılıncoynadan pəhləvan.
Təbil çalmadan, səs-səmirsiz gecə,
Qoşun həmləylə başladı gizlicə.
Çapıb getdilər, başda Piran ilə,
Yaranmışdı yeddi ağac fasilə.
Çatıb bir yerə, gördülər ilxılar,
Yayılmış, geniş tarlada otlayar.
Çox at tutdular, çox da öldürdülər.
Nə əldən gələr, bəxt yatsa əgər?!
Çoban qalmadı, ilxıçı qalmadı,
Bir iranlıya bəxt yar olmadı.
Qara toz kimi o qoşunla Piran,
İran ordugahına oldu rəvan.
İçib, sərxoş olmuşdu iranlılar,
Silahsız, soyuncaq oturmuşdular.
Çadırda bu dəm Giv huşyar idi.
O, Gudərzin oğlu süpəhdar idi.
Eşitdi bayırda qopub çaqqaçaq,
Qopub, sanki şimşək, yerindən qoçaq,
Çadırdan çıxanda nə gördü: budur

Zireh sinəbənd ilə bir at durur.
Yalındı ayağı onun bu zaman,
Bu vəziyyətdən utandı o yaman.
Atın üstünə qalxdı o şiri-nər,
Çapıb getdi, sanki küləkdir əsər.
Sipəhbod olan çadıra aldı yan,
Nə gördü: toz içrə itib asiman.
Dedi: – Qalx ki, düşmən alıb üstünü,
Odur qaldıran bu tozu, tüstünü.
Əlində öküzbaşlı bir gürz ilə,
Yönəldi atası olan mənzilə.
Düşərgə boyu çapdı at hər yana,
Ayıqlar – dedi – çıxmalı meydana.
Gəzib axtarırdı o öz oğlunu,
Görüb məst, acıqlandı, söydü onu.
Dedi Bijənə: – Bu məzə, mey nədir?
Döyüş meydanı, yoxsa meyxanədir?!
Çevirdin atın başını meydana,
Neçə pəhləvan da qoşuldu ona.
Çəyirtkə kimi axdı turanlılar,
Kiçik dəstəni dövrəyə aldılar.
Nəzər saldı Gudərz dörd bir yana,
Turan ordusu, gördü, gəlməz sana.
Deyərdin, bulud göydən ox yağdırır,
Yataqda o sərxoşları hey qırır.
Ağardı üfüq, Şərqdə sökdü dan,
Dönüb meydana baxdı Giv pəhləvan.
Nə gördü, qırılmışdır iranlılar,
Yatıb bəxti, olmuş qoşun tarimar.
Cırılmış, atılmış döyüş bayrağı,

Olub təbil atlarının tapdağı.
Qaçır sağ qalanlar uca dağlara,
Əsir əlləri, üzləri qapqara.
O sərkərdə ətrafa saldı nəzər,
Yox idi igid dostlarından əsər.
Ata matəmində oğul ağlayır,
Oğulsuz ata ney kimi çağlayır.
Əlacsız o meydanı tərk etdilər,
Çadırsız, sərapərdəsiz getdilər.
Yox idi daha sağ cinah, sol cinah,
Yada düşməyirdi təbil, at, silah.
Pozulmuş bütün ordunun səfləri,
Çəkildi hamı Kasəruda geri.
Fələk adətincə belə hərlənər,
Bizə gah fərəh bəxş edər, gah kədər.
Düşüb Tusun ardınca turanlılar,
Ürəklərdə kin, başlarında qübar.
Yağış tək yağır gürzlər başlara,
Dəbilqə enir zərbədən qaşlara.
Ayaq saxlamır kimsə çarpışmağa,
Baş almış, qaçır pəhləvanlar dala.
Tükənmiş atın, atlının taqəti,
İgidlər unutmuş arı, qeyrəti.
Uzaq yol boyunca dala baxmadan,
Hərə at çapır, tez çıxa ortadan.
Atıb meydanı Tus çatdı dağa,
Onu qovdu türklər, ucaltdı dağa.
Qırılmış, çatılmışdı iranlılar,
Qoşundan ucaldı göyə ahüzar.
Ölənlər müsibətdən olmuş xilas,

Qalanlar öz əhvalına tutdu yas.
Çadır, təxtü tac, xəznə getmiş bada,
İgidlər qana qərq olub səhrada.
Nə abad şəhər qaldı, nə baş bilən,
Nə də ağlayan , göz yaşını silən.
«Oğul vay» deyib ağlayır hər ata,
Neçə-neçə canlar yaxılmış oda.
Əzəldən cahanın budur adəti,
Görər öz işini yavaş, xəlvəti.
Gülər üzlə, istər səni aldada,
Kələklər açar başına daldada.
Küləklər gələn tozla getsin gərək,
Fələk öz şikarını etsin gərək.
Tamah, arzu çəngində qaldıq əsir,
Bilən yox ki, aşkar nədir, sirr nədir?
Qoşundan yarı hissəsi verdi can,
Qalanlarsa qaçdı, dala baxmadan.
Başında ağıl yoxdu sərkərdənin,
Nə anlar dəli qəsdini düşmənin?
Qoşun girmədi şir kimi meydana,
Düşərgə gəlib oldu bir meyxana.
Qəmə batdı Gudərz – qoca pəhləvan,
Oğulla nəvə sarıdan bağrı qan.
Həkimsiz, yeməksiz qalıb xəstələr,
Çəkər ah, gözdən üzər, qan ələr.
Yığıldı onun başına dostları,
Dedilər: – Düşün bir əlac tap, barı!
Gözətçi qoyub qülləyə bir nəfər:
Dedi: – Ordu gəlsə, bizə ver xəbər!
Keşikçi, dedi, göndərin hər yana

Ki, bəlkə çata dərdimiz dərmana.
Qoşundan seçib bir qoçaq pəhləvan
Dedi: Çap atı dördnala durmadan,
Çatınca şaha, mətləbi aç təmiz,
Nə rüsvaçılıq etdi sərkərdəmiz.
Necə pis günə qaldı iranlılar,
Bütün başçılar ah çəkib, qan udar.

Apardı şaha elçi bir bəd xəbər.
Dedi: – Şahlığa son qoyubdur kədər.
Qulaq asdı bu sözlərə hökmran,
Coşub dərd əlindən, olub bağrı qan,
Əza saxlayarkən cavan qardaşa,
Hədəf oldu bağrı yeni bir daşa.
Bu dərdə dözərmi məgər hökmdar?
Olubdur bütün ordusu tarümar.
Dilində tənəffürlə Tusun adı,
Qaranlıq gecə sübhədək yatmadı.
Dəlirdi onun bağrını qəm, kədər,
Ağıllı dəbiri çağırdı səhər.
Dedi: – Namə yaz! Durmadı göz yaşı,
Yada düşdü nakam ölən qardaşı.
Birisi Fəriborzun ünvanına,
Biri ordunun pəhləvanlarına.
Yazıldı, necə rəsm bilmişdi din,
Salam oldu ilkin sözü namənin.
Günəşlə ayın Xaliqi naminə,
Cahanı edib yaxşılıqla bina.
Məkanla zaman mümkün onsuz deyil,
Qarışqa yaratmışdır o, həm də fil.

Odur səbrü, möhnət, zəfərlər verən,
Yamanlıq nə, yaxşı nədir, göstərən.
Ağıl verdi, can verdi qüvvət dizə,
Uca təxtü tac, hakimiyyət bizə,
Pozulmaz onun verdiyi bir qərar,
Biri hər cəhətdən olar bəxtiyar,
Qara bəxt olar digəri dünyada.
Yanar ehtiyac, dərdü qəmlə oda.
Günəş ya qara torpaq olsun, bu gün
Onun qüdrətiylə yaranmış bütün.
Geyib qırx igidlə qızıl başmağı,
Ələ aldı Tus Kaviyan bayrağı,
Dedim: – Get, Turanda ucalt başımı,
Birinci həlak etdi qardaşımı.
İrana nə lazım belə pəhləvan?
Belə bir qoşun başçısından aman!
Forud, o cavan qardaşımdan heyif!
O arxam, igid sirdaşımdan heyif!
Göz açdım, ata görmədim, ağladım,
O dərd ilə mən bağrımı dağladım.
Çöküb indi qardaş qəmi qəlbimə,
Kimə, söylə, düşmən deyim, dost kimə?!
Demişdim, Çərəmdən keçib getməsin,
Saqınsın, Səpədkuha meyl etməsin.
O yolda Forud ordusuyla durar,
Yenilməz igiddir, üzündə vüqar.
O bilməz ki, bu ordu hardan gəlir,
İrandan, ya hansı diyardan gəlir?
O dağdan ki, başlayar savaş,
Düşər torpağa çolu qiymətli baş.

Heyif! O polad qol, boyu şümşada!
Rəzil Tus onu verdi haqsız bada!
Olubdursa əvvəldə sərkərdə Tus,
Nə bədbəxt imiş onda Şah Keykavus!
Döyüş meydanında öküz tək yatır,
Oturcaq, şərab camına əl atır.
Yeyib-yatmağı o bilir bir hünər.
Yox olsun hünər!Bu hünərsə əgər!
Fəriborza, bu naməni tez oxu,
Yeyib içmə, bilmə rahatlıq, yuxu!
Dayanmadan tez Tusu göndər geri,
Bu fərmanda yoxdur tərəddüd yeri.
Süpəhdarım ol! Gey qızıl başmağı!
Başın üstə vur Kaviyan bayrağı!
Yenilməz o Gudərz ilə hər zaman,
Otur, məsləhətləş, sözünə inan!
Tələsmə məqamsız döyüş açmağa,
Çalış, atma can mey içib yatmağa!
Döyüşdə, birinci çox etmə tələş!
Yorub düşməni, sonra qızğın dalaş!
Həmişə qabaq səfdə Givi apar!
O sərkərdədə, bil, pələng əzmi var!
Qırıb çatmağa düşməni hazır ol!
Qədəh əldə, əylənməyə vermə yol!
Möhür vurdu o naməyə şəhriyar,
Dedi elçiyə: – Yaxşı yol! Al, apar!
Rahatlanma, gündüz gecə olsa da,
Dəyiş atı hər gün yeni bir ata!
Əyib elçi baş şah fərmanına,
Çatınca İran pəhləvanlarına,

Fəriborzu tapdı, o şahzadəni,
Ona verdi şah göndərən naməni.
Dedi: – Tusla sərkərdələr gəldilər,
Müfəssəl danışdı ki, olmuş nələr,
İndi Giv, Gudərz, o namdar,
İran ordusundan olan başçılar,
Hüzurunda namə oxundu bütün.
Yeni bir ağac bar gətirdi o gün.
İrandan olan şirürək başçılar,
Yeni bir səs ilə: – Yaşa, hökmdar!
Alıb Tus, gətirdi əziz bayrağı,
O fil təbilini, həm qızıl başmağı,
Fəriborza verdi, dedi: – Al görək,
Kimə hər nə layiqsə, çatsın gərək!
Uğur yarın olsun, zəfər həmdəmin!
Birər bayram olsun ömür günlərin!
Yığıb Nuzər övladını qəhrəman,
Yola o igidlərlə oldu rəvan!
Rahatlanmadan yolda bir an belə,
Yetirdi özün şaha təcil ilə.
Çatıb dərbara, qoydu üz torpağa,
Nəzər salmadı şah o sarsağa.
Qəzəblə onu danladı şəhriyar,
Ağır sözlər ilə onu etdi xar.
Dedi: – Sən bütün işləri korladın,
İgid adlanan yerdə batsın adın!
Məgər qorxmayırsan ulu Tanrıdan?
Barı pəhləvanlar üzündən utan!
Çərəmdən dedim, getmə, getdin də sən,
Məni sinəsi dağlı etdin də sən!

Birinci mənə qarşı coşdu kinin,
Siyavuşun oğlun həlak eylədin!
Elə bir igid öldürübsən ki, sən,
Deyildi döyüşdə ona ordu tən.
Gedib sonra meydanda tutdun qərar,
Səni məst gördü qoşun, ya xumar.
Yaraşmaz bu məclis, o meydan sənə,
Dəlixana lazımdır, zindan sənə!
Sən azadələrdən uzaqlaş təmiz,
Yoxundur başında ağıldan bir iz.
Daha təxtü tac fikrini başdan at!
Qolubağlı, zəncirli zindanda yat!
O ağ saqqalınla Mənuçehr adı,
Səni bu cahanda diri saxladı.
Bu gün əmr edərdim, inan, cəllada,
Başını edərdi bədəndən cüda!
Buyur, indi, zindandadır məskənin,
Xəbis tiynətindir gözətçin sənin!
Saraydan qovub yolladı zindana,
Onun şad olan qəlbi döndü qana.

* * *

Fəriborz olub orduya hökmran,
Şah oğluydu o, həm böyük pəhləvan.
Görüşdü, oturdu o, Röhham ilə,
Tər inci kimi söz gətirdi dilə.
Dedi: – Durma, get Piranın yanına!
Dilimdən bu peyqamı çatdır ona!
Ona söylə ki, adətincə fələk,
Bizi şad, ya qəmgin etsin gərək.

Birini alıb, göylərə qaldırar,
Birini edər yüz bəlaya düçar.
İgiddir bəla axtaran hər kişi,
Deyildir qəfildən hücum mərd işi.
Əlində ağır gürz ilə fəxr edən,
Çəkinmiş həmişə qəfil həmlədən.
Sən əl saxlasan, biz də əl saxlarıq,
Döyüş başlasan, biz dəxi başlarıq!
Fəriborzdan ayrıldı Röhham o dəm,
Apardı o peyqam ilə namə həm.
Keşikçi onu gördü, verdi sual:
– De, kimsən? Danış düz, mənə gəlmə al!
Cavab verdi: – Röhham, cəngavərəm,
Hünərlə, sayıqlıqla fəxr eylərəm!
Pirana Fəriborz şahzadədən
Gərək çatdıram namə, peyqam mən!
Keşikdən bit atlı səyirtdi atı,
Qərargahda Piranı tez haqladı.
Dedi: – Röhham söyləyən bir nəfər,
İcazə olarsa, hüzura gələr.
Buyurdu: – Ona yaxşı üz göstərin!
Ədəb-ehtiramla bura göndərin!
Ağır qorxu yüklənsə də bağrına,
Gəlib əydi Röhham baş Pirana.
Onu gördü Piran, edib ehtiram,
Uca təxtin üstündə verdi məqam.
Ürək sirrini elçi faş eylədi,
Fəriborza peyqamını söylədi.
Dedi Röhhama Piran: – Ey qəhrəman!
Bu dava kiçik iş deyildir, inan!

Təşəbbüsçü bu hərbə siz oldunuz,
Nə söz dinlədi, nə fikirləşdi Tus!
Soxuldu quduz qurd kimi ölkəyə,
Gətirdi ölüm yaşlıya, körpəyə.
Qırıb tökdü, qarətdən heç doymadı,
Pisə, yaxşıya zərrə fərq qoymadı.
Sarıldı o bir odlu kinlə bizə,
Cəzası onun indi çıxmış düzə.
Bu gün sənindir orduya ixtiyar,
Mənə söylə öz arzunu aşikar.
Desən, qoy döyüşlər bir ay saxlana,
Bir atlı belə girməsin meydana.
Əgər istəsən hərb etsin davam,
Hazırlaş, bu meydan, bu sən, mən varam!
Bir ay möhlət öz arzunuzdur, deyə,
Turan torpağından çıxıb getməyə.
Qənimət bilin, istifadə edin,
Çıxıb ölkəmizdən, İrana gedin!
Bu olmazsa, onda döyüş başlanar,
Bu hörmət də möhlət də odda yanar.
Hazırlatdı Röhhama yaxşı xələt,
Verin naməni, söylədi, indi get!
Fəriborza Röhham gətirdi cavab,
Onu arzusuna yetirdi cavab.
O möhlətlə fürsət keçirdi girə,
Atıb pəncə aslan kimi hər yerə.
Açıb torbalar ağzını aşikar,
Qoşun əhlinə payladı hər nə var.
Bütün ordunu hərbə hazırladı,
Gətirdi ələ çatmayan hər zadı.

* * *

Bir ay ötdü, möhlət yetişdi sona,
Dönük çıxdı iranlılar peymana,
İki ordu sel tək axışdı düzə,
Dayandı, döyüşmək üçün üz-üzə.
Təbil, sinc, şeypur səsindən aman!
Deyərdin, yerindən qopur asiman!
Çatışdı qılınc, nizələr gürz ilə,
Yox idi yol, uçsun çibinlər belə!
Verildi Givə orduda sağ cinah,
Yenilməzdi, müdrikdi yurda pənah!
Sola başçı Əşkeşdi, o pəhləvan,
Döyüşdə edər sel kimi qan rəvan.
Neçə pəhləvanla Fəriborz özü,
Dayandı idarə edə mərkəzi.
Fəriborz qoşun əhlinə söylədi:
– Döyüşdə bizə tale üz vermədi,
Bu gün biz gərək şir kimi çarpışaq,
Salaq düşməni zərbəmizlə qaçaq.
Elə toy tutaq biz gərək onlara,
Dəbilqə sayılsın ləçək onlara!
Birinci salındı işə ox, kaman,
Görən olsa idi, edərdi güman,
Bağı şaxta vurmuş, gəlib son bahar,
Əsəl yel, ağacdan xəzəl yağdırar.
Çəkib pərdə quzğun fəzaya bütün,
Yerə fil ayağı vurubdur düyün.
Fəzanı tutub gürz, ox, toz-duman,
Uçan bir quşa dar gəlir asiman.

Qılınclar ki, almas kimi parlayır,
Sanarsan, toz içrə alov nur yayır.
Dönüb yer üzü bir qara zənciyə,
Hər ulduz döyüşkən fil olmuş deyə.
Qılınc, gürzdən, nizədən qan damar,
Qiyamətdir, aləm olub tarümar.
Qoşun mərkəzindən önə çıxdı Giv,
Dodaqda köpük, görkəmi sanki div.
Yanındaydı şöhrətli Gudərzlilər,
Zəfər onların, onlarındı zəfər.
Qılınc nizə düşdü işə nagahan,
Polad şölə saçdı, yerə axdı qan.
Dayanmışdı piranlılar üz-üzə.
Ölənlər sayca çatdı doqquz yüzə.
Bunu gördü Ləhhak, Fərşidvərd,
Deyən, onların bağrına çökdü dərd,
Givə qarşı əlbir hücum etdilər,
O nər aslanın üstünə getdilər.
Sanardın, fəzanı bulud çulğamış,
Buluddan yağır başlara ox yağış.
Elə toz qopub, görməyir göz-gözü,
Leş ilə bütün örtülüb yer üzü.
Hərifə hərif arxa döndərməyir,
O yerdə ki, durmuş, geri dönməyir.
Human Fərşivərdə dedi: – İndi sən,
Çalış mərkəzə həmlə et qəflətən,
Fəriborz mərkəzdən etsə fərar.
Alar zərbə dal xətdən iranlılar.
Asanlıqla məğlub olar sol cinah,
Qənimət qalar çoxlu sürsat, silah.

Hücum etdi turanlılar mərkəzə,
Fəriborz ilə durdular üz-üzə,
Görüncə Fəriborz, gəlmiş Human,
Atıb ordunu, qaçdı tez qorxudan.
İgidlər qaçan gördü sərkərdəni,
Dayandırdılar düşmənə həmləni,
Nə qaldı iradə, nə qaldı səbat,
Hərə canına axtarırdı nicat.
Qılıb tərk meydanı iranlılar,
Fəriborz gedən yolda at çapdılar.
Düşüb qaldı meydanda bayraq, təbil,
Nə bayraq-təbil, həm də onlarca fil.
Qaçırdı döyüşdən neçə pəhləvan,
Yox idi deyən onlara: bir utan!
Döyüşdən qaçanlar hamı qaldı sağ,
Rəvadır, belə sağlığa ağlasaq.
Nə Gudərz qaçdı, nə də Giv o gün,
Başında igid pəhləvanlar bütün,
Dönüb mərkəzə saldı Gudərz nəzər,
Fəriborzdan görmədi bir əsər.
Nə sərkərdə vardı, nə də bayrağı,
O da gördü lazım, qoyub qaçmağı.
Bunu sezdi Gudərzlilər nagəhan,
Deyən, gözlərində qaraldı cahan.
Dedi Giv ona: – Ey qoca şir, sən
Nə çox gürz, nizə, qılınc görmüsən!..
Qaçırsan ki, Piran çıxıb qarşına?
Gərək onda mən kül səpəm başıma.
Nə çox adlı-sanlı böyük pəhləvan,
Gəlib-getdi, doldu-boşaldı cahan,

Gərək sən də, mən də ölək mütləqa,
Ölüm çatsa, verməz aman qaçmağa.
Ağır gündə düşmənlərə biz gərək,
Kürəkdənsə, meydanda üz göstərək.
Səyirt meydana dördnala atını,
Utanmdırma Gəşvadın övladını.
Gözəl bir məsəl var, onu sal yada,
Ağıllı deyən söz qalar dünyada.
Əgər qardaşa qardaş arxa durar,
İki əl uca bir dağı qaldırar.
Özün yetmiş oğlunla, ey pəhləvan,
Yanında yenilməz qohum-əqrəban.
Gedək, düşmənin bağrına od vuraq,
Dağ olaq, yerindən onu qaldıraq!
Yaman aldı Gudərzi Givin sözü,
Onun görkəminə dikildi gözü,
Peşiman olub səhvini anladı,
Dayandı haman, öz-özün danladı.
Gəlib Zəngə, Bərtə, Gərazə o dəm,
Oğullar bütün, Qarşıda Güstəhəm!
Ata qarşısından ötüb keçdilər,
Verib əhdi-peyman, and içdilər,
Dedilər: – Su tək axsa da qanımız,
Gərək etməyək tərk meydanı biz!
O yerdən hamı meydana çapdı at,
Budur, başladı vurhavur, çathaçat.
Ölənlər çox oldu iki ordudan,
Uğur döndü iranlılardan yaman.
Bunu gördü Gudərz, dedi Bijənə:
– Çətin anda qalmış ümidim sənə.

Özünü Fəriborzə ox tək yetir,
Mənə Kavə bayrağını al, gətir
Fəriborz o bayraqla gəlsə özü,
Yəqin düşmənin gülməz onda üzü.
Eşitdi bunu Bijən, oynatdı at,
Sanardın ki, bir quşdur, açmış qanad.
Fəriborzə çatdı, dedi: – Söylə sən,
Niyə ordunu belə gizlətmisən?
İgidlər kimi başla çarpışmağa,
Sığınma daha bundan artıq dağa.
Əgər gəlməsən, bayrağı ver mənə,
Qoşun qarşı dursun gərək düşmənə.
Bu sözlər Fəriborzə xoş gəlmədi,
Ağılla götür-qoy edə bilmədi,
Bağırdı, belə söylədi Bijənə:
– Uşaqsan, ağıl öyrədirsən mənə?
Mənə şah verib ordunu, bayrağı,
Bu təxtin-tacın sahibi olmağı.
Nə bayraq nə Bijən, nə Givə çatar.
Nə Gudərzə, Göstəhmə, Nivə çatar.
Qılınc çəkdi Bijən belindən haman,
Vurub bayrağı, böldü tən ortadan.
Kəsilmiş o bayrağı aldı ələ,
Ata dəydi ki, ordugaha gələ,
Onu gördü bayraqla turanlılar,
Hamı Bijənin üstə at saldılar.
Tutub orduya üz, deyirdi Human:
– O bayraqdara verməyin siz aman!
Bu bayraq qalıb Kavədən yadigar,
Onun sayəsində zəfər rəmzi var.

Keçirsək ələ bayrağı biz əgər,
İran şahına yer üzü dar gələr.
Oxu çilləyə qoydu Bijən haman,
Sanardın, polad yağdırır asiman.
O ac qurd kimi at çapır, ox atır,
Qaçan düşməni qatlayır, hey çapır.
Dedi Göstəhəm Givə: – İndi gərək,
Bu az ordumuzla hünər göstərək.
Turan ordusu üstünə at salaq,
Tacı, təxti düşmən əlindən alaq.
Əl atdı hamı nizəyə durmadan,
Qızışdı döyüş, torpağa axdı qan.
Leş üstə leşi tökdü iranlılar,
Gəlib orduya çatdı Bijən səvar.
Qoşun aldı o bayrağı dövrəyə,
Qopan toz qara pərdə çəkdi göyə.
Yerindən hamı bir də tərpəndilər,
Döyüş əmrini verdi sərkərdələr.
Budur öldürüldü cavan Rivniz,
Tutardı onu şah canından əziz.
Kiçik oğlu idi şahın tacidar,
Fəriborzə candı, şaha iftixar.
Salındı başından tacı torpağa,
Əl atdılar igidlər yaxa yırtmağa.
Coşub qüssədən Giv çəkdi fəğan:
– Siz ey pəhləvanlar, bilin, bu cavan
Misilsiz igiddi, bu meydanda tək.
Şah oğluydu, mərdanə, həssas ürək,
Qoca Şah Kavus qan ağlayar.
Görüb üç nəvə dağını şəhriyar,

Forud ilə Xeyrə, bu da Rivniz
Üç övladı, bir-birindən üç əziz.
Belə bir xətər var ölümdən acı,
Əgər bu cavan qəhrəmanın tacı.
Keçərsə bu gün düşmənin çənginə,
Bu rüsvayçılıq bir ölümdür mənə.
Döyüşdən bir anlıq çəkilsəm əgər,
Qoşunlar da meydandan üz döndərər.
O şahanə tac ki, salınmış yerə,
Qənimət gərək olmasın türklərə.
Aparsa əgər tacı turanlılar,
Böyük bir müsibət bizə ar olar.
Yayıldı o meydanda Givin səsi,
Eşitdi Piran – türk sərkərdəsi,
Tacı qapmağa verdi fərman, budur!
O meydanda qopdu yeni vurhavur.
Çox oldu ölən hər iki ordudan,
Tükəndi  qoşunlarda tabü təvan.
Qızıb aldı Bəhram nizə ələ,
Qopardı o meydanda bir vəlvələ.
Tacı qaldıranda göyə nizədə,
Gətirdi iki ordunu heyrətə.
Günəş batdı, aləm qaraldı tamam,
Hələ qan axıtmaq edirdi davam.
Sınıb yüksəlirdi döyüş dalğa tək,
Boşalmırdı, kindən, qəzəbdən ürək.
Böyük itki vermişdi Gudərzlilər,
Salamat qalanlardı səkkiz nəfər.
İyirmi beş oğlu Givin verdi can,
Hələ tacü-təxtə bəzək pəhləvan.

İtirmişdi Kavus yetmiş nəfər.
Birər qızmış aslandı şahzadələr.
Əgər Rivnizlə edilsə qiyas,
Yox idi hesab tutmağa bir əsas.
Ölənlərdən Əfrasiyab övladı,
O çarpışmada üç yüzü haqladı.
Qohumları doqquz yüz o Piranın,
Sərilmişdi torpağına Turanın.
Fəqət Piranın ağlamırdı gözü,
Saçırdı işıq bəxtinin ulduzu.
Savaş vaxtı bitmişdi, iranlılar
Yorulmuş döyüşdən usanmışdılar.
Geri döndülər sinələrdə kədər,
Yaralıları tək edib getdilər.
Atı öldürülmüş igid Göstəhəm,
Görürmüş kimi taleyindən sitəm.
Atı üstə qanadlanmış bir quş kimi,
Gedir, büdrəyir yolda sərxoş kimi.
Geyinmişdi aləm qara bir dona,
Gəlib arxadan çatdı Bijən ona.
Dedi: – Pəhləvan, gəl otur tərkimə,
Belə hörməti etmərəm heç kimə.
Oturdu iki qəhrəman bir ata,
Deyərdin, dönübdür cahan zülmata.
Hamı bəxti dönmüş, hamı bağrı qan,
Dağa sarı oldu pərişan rəvan.
Turanlı igidlər gedərkən azad,
Fərəhlə, zəfərlə hamı könlü şad,
Qərargaha birgə gəlib çatdılar,
Şərab içdilər, şənlənib yatdılar,

Oda döndü iranlılarçın yataq,
Təbil nərəsindən kar oldu qulaq.
Qaçar getdi Bəhram dedi : – Ey ata,
Əlimdən çıxıb bilmədən bir xəta.
Tacı nizədə qaldırarkən, bir an
Özümdə deyildim mən, ey pəhləvan!
Əlimdən düşüb onda qamçım yerə,
Onu bir turanlı keçirsə girə,
Kədər bağrımı tərk qılmaz, inan!
Gözümdə dönər zindana bu cahan.
Yazılmış adım qamçıya aşikar,
Onu görsə Piran, adım alçalar.
Mənə izn ver, meydana at çapım,
Çətin olsa da, qamçını tez tapım.
Adım yerdə qalsa, ağırdır mənə,
Ölümdən betərdir, çata düşmənə.
Cavab verdi Gudərz ona: – Ey oğul!
Sənin seçdiyin yol deyil doğru yol!
Nədir bu çubuq, bir tikə xam dəri,
Sənin bəxtini döndəribdir geri?!
Cavab verdi Bəhram: – Ata yaxşı bil,
Canım bu ölənlərdən artıq deyil!
Zaman çatdımı, mütləq insan ölər,
Buna qarşı bir çarəni kim bilər?!
Dedi giv: – Ey qardaşım, olma xar!
Yanımda mənim bir neçə qamçı var.
Biri var, qızıldan bütün dəstəsi,
Cəvahirnişandır iki təsməsi.
Firəngis açanda dolu xəznəni,
Silah, sərvətə qərq edəndə məni,

Götürdüm qamçını o an, xoşladım,
Bütün sərvətə baxmadan xoşladım.
Birini verib Şah Kavus mənə,
Görən seçməyir, ay nədir, qamçı nə.
Daha məndə beş zərbəzək qamçı var,
Günəşdir, deyən, hər biri parlayar.
Götür yeddisin də, inad etmə, gəl,
Könüllü bu qorxunc yola getmə, gəl.
Dedi Givə Bəhram: – Ey pəhləvan!
Bu təhqirə dözmək deyildir asan!
Sizin fikriniz rəngdə, ziynətdədir,
Mənimsə sözüm adda, qeyrətdədir.
Gərək yerdən o qamçını qaldıram,
Başım getsə də mən bu yolda varam.
Olaydı gərək Tanrının istəyi,
Demək, başqa idi onun taleyi.
Əgər bəxt insandan üz döndərər,
Ağıllı söz etməz ona bir əsər.
Ata dəydi, meydana çatdı, budur!
Saçırdı iki həftəlik aysa nur.
Sataşdı gözü öldürülmüşlərə,
Gözündən çiləndi onun yaş yerə,
Qana, torpağa qərq olub Rivniz,
Zireh parçalanmış, tökülmüş təmiz.
Təəssüflə Bəhram baxdı ona,
O nakam ölən padişah oğluna.
Dedi: – Torpaq üstündə sən xar ikən,
Yatar düşmənin qəsrdə könlü şən.
Deyən, yas tutub öldürülmüşlərə,
Dilikmişdi yaşlı gözü leşlərə.

Yaralı yıxılmışdı bir pəhləvan,
Ölümdən o tapmışdı təkcə aman.
Tanış gördü Bəhramı, gəldi dilə,
Dedi: – Kimsən ey, atlı, imdad elə!
Yaram çox ağır olsa da, mən sağam,
Bu leşlər içində zəlil, tapdağam.
Yeməksiz, susuz, üç gün, ey qəhrəman,
Yuxu görməmiş gözlərim bircə an.
Atı sürdü Bəhram onun yanına,
Canı yandı o xəstənin canına.
Cırıb köynəyin, gözləri ağladı,
Yarasını köynəklə tez bağladı,
Dedi: – Yaxşısan, etmə çox ahü zar,
Açıq hər yara, qaydadır, ağrıyar.
Yaran bağladım, dirçələrsən yəqin,
Özün ordugaha gələrsən yəqin.
Şahın tacını yerdən almaq üçün,
Bu meydanda bir qamçım itmiş bu gün,
Tapıb da onu mən geri döncəyin,
Aparram səni ordugaha yəqin,
Döyüşlər gedən mərkəzə qoydu üz,
İtən qamçını axtarıb tapdı tez.
Leş üstə qalanmışdı leş meydana,
Bulaşmışdı o qamçı da al qana.
Atından enib qamçını alcağın,
Bir at kişnədi arxasında dağın.
O madyan səsiydi, bunu duydu at,
Səsə doğru yollandı, açdı qanad.
Qaçır at, at ardınca Bəhram qaçır.
Kədərdən gözü sanki atəş saçır.

Nəhayət, atı haqladı arxadan,
Axan qan-tərə qərq idi pəhləvan.
Tutunca atı, mindi, məhmizlədi,
Əlində siyirmə qılınc, gözlədi.
At isə yerə mıxlanıbmış, deyən,
Qədəm atmadı durduğu nöqtədən.
Deyən, Bəhramın beyninə vurdu qan,
Qılıncı atı peylədi pəhləvan.
Döyüş meydanından götürdü ayaq.
Piyada uzun bir yolu yortaraq,
Çölün torpağını qızartmışdı qan,
Sanardın, əkilmiş çölə ərkəvan.
Dedilər: – niyə mən atı peylədim?
Bu səhranı atsız necə tərk edim?
Turan ordusu tutdu bundan xəbər,
Sorağınca göndərdilər yüz nəfər.
Dedilər: – Onun qıymayın canına,
Tutun, göndərin Piranın yanına.
Bunu gördü Bəhram, götürdü kaman,
Gələn düşməni oxla aldı nişan.
Hər oxla o bir atlı sərdi yerə,
Yaxın gəlmək oldu mahal türklərə.
Kimi gördü, atdı, aman vermədi,
Yüzə qarşı tək, arxa döndərmədi.
Önündən geri döndülər atlılar,
Çapıb gəldilər, Pirana çatdılar.
Qoşun getdi, Bəhram bir az toxtadı,
Gedib atdığı oxları topladı.
Qayıtdı qoşun Piranın yanına,
Belə söylədi pəhləvanlar ona:

– O təkdi, atı yoxdur, amma yenə
Leşi toplayır oxla leş üstünə.
Soruşdu Piran: – Kimdir o pəhləvan?
Adından, sanından verin bir nişan!
Dedi bir nəfər: – Bəhrama oxşayır,
Onunla İran ordusu parlayır.
Xitab etdi Ruyinə Piran həmən,
Dayanma, yol al indi meydana sən!
Kimi istəyirsən, apar ordudan,
Macal vermə, Bəhram çıxar ortadan.
Külək sürətiylə özünü yetir,
Əsir tut onu, sağ-salamat gətir!
Özündəndi Ruyin yaman bədgüman,
Bu əmr ilə düşdü yola durmadan.
Gələn düşmənə saldı Bəhram nəzər,
Başı üstə çəkdi polad bir sipər,
Yağış kimi Ruyini tutdu oxa,
Qaraldı fəza, ay da çıxdı yoxa.
Bir ox dəydi Ruyinə, can verdi xar,
Bunu gördü, sustaldı turanlılar.
Qoşun əhlinin bağrı döndü qana,
Qaçıb tez, xəbər verdilər Pirana:
– Bu atsız bir aslandır, ya pələng?
Dənizdə tapılmaz onun tək nəhəng!
Piyada dayanmış o bir dağ kimi,
Bizi torpağa tökdü yarpaq kimi.
Bu sözlər salıb dəhşətə Piranı,
Kədərləndi, coşdu, qaraldı qanı.
İki qan çanağı olub gözləri,
Söyüd şaxəsi tək əsib dizləri,

Oturdu qaçışda iti madyana,
Çapıb gəldi bəhram olan meydana.
Dedi: – Ey dilavər, piyada neçün!
Belə çarpışırsan, nədir niyyətin?!
Siyavuşla Turanda sən bir zaman,
Fərəh dostu, qəm yoldaşı olmusan!
Yaxın gəl, iki dost kimi əyləşək,
Səmimiyyət ilə kəsək duz-çörək.
Nə lazım, sənintək nəcib pəhləvan,
Vuruşsun, axıtsın bu meydanda qan?
Qolunda gücün olsa da hər qədər,
Bugünkü inadın hədərdir, hədər.
Heyifsən, əgər öldürülsən cavan,
Olar matəmində anan bağrı qan,
Mənimlə otur, doğru bir yol seçək,
Barış naminə söz verək, and içək.
Qohumluq edək, biz olaq mehriban,
Ürək sözlərimdir bu sözlər, inan!
Bir ordu gəlib indi meydanına,
Düşün halını, qıyma öz canına.
Ona söylədi Bəhram: – Ey pəhləvan!
Ağılda, nəcabətdə şöhrət tapan!
Bir at ver, gedim, tək budur xahişim,
At olmazsa, mütləq gərək çarpışım!
Cavab verdi Piran ki, ey namdar!
Sözündə sənin, söylə, məntiqmi var?
Mənim sözlərimdə ara doğru yol!
Qızışma, inad etmə, təmkinli ol!
Düşün bir, bura toplanan atlılar,
Deməzlərmi, «sərkərdəyə olsun ar!»

Gecə, xəlvəti meydana girmisən ,
Neçə-neçə turanlı öldürmüsən ,
Əlinlə nə çox pəhləvanlar ölüb.
Elin iftixarı olanlar ölüb.
Sənə indi kim yol verər İrana,
Deməzlərmi divanə, maymaq ona?!
Tutanda xəbər bundan Əfrasiyab,
Mənə verməsəydi kobud bir cavab,
Sənə at verərdim, yəqin, ey cavan!
İş öz istəyimcə olardı, inan!
Bu sözlərlə Piran qayıtdı geri,
Ürək kin yeri, beyni şəfqət yeri.
Qoşundan Təjav adlı bir pəhləvan,
Döyüş vaxtı aslanla pəncə vuran,
Sual-sorğuya tutdu tez Piranı,
Piran söylədi: – Bəhrama tay hanı?
Şirin dillə verdim nəsihət ona,
Sözüm mehribanlıqdı, şəfəq ona .
O, dostluq əlini geri qaytarır,
İran ordugahına yol axtarır.
Təjav söylədi Pirana: – Hər zaman
Sənə mehribanlıq yetirmiş ziyan!
Onu mən piyada keçirrəm ələ,
Daş altında başı gərək dincələ!
Bu sözlərlə meydana oldu rəvan,
Qoşunsuzdu Bəhram, tək, bağrı qan!
Görüncə əli nizəli Bəhramı,
Çəkib nərə fil tək əsib, əndamı,
Dedi: – Ey piyada, köməksiz qalan!
Məgər qorxmayırsan böyük ordudan?

Təmənnan budur ki, gedib İrana,
Hücum eyləyəsən yenə Turana!
İgidlər vurub salmısan torpağa,
Budur, gəlmişik biz qisas almağa.
Bağırdı: – İgidlər, keçin həmləyə!
Atın əl əmuda, oxa, nizəyə!
Yığıldı bir ordu onun başına,
Hamı sinə qoydu yəhər qaşına.
Oxu çilləyə qoydu Bəhram tez,
Fəza ox əlindən qaraldı təmiz.
Oxu qurtarınca alıb nizəni,
Vurub qanda qərq eylədi düşməni.
Qırıldıqda nizə, qılınc, gürz ilə,
Biçib kəsdi, döndü qızıl qan selə.
Vuruşma davam etdi xeyli zaman,
Əlində onun öldü çox pəhləvan.
Gücü Bəhramın yetdi axır sona,
Təjav arxadan həmlə etdi ona.
Qılıncı onun çiyninə vurcağın,
Qızardı qan ilə üzü torpağın.
Qılınc oynadan qol atıldı yerə,
İşi Bəhramın bitdi birdən-birə.
Sataşdı ona çün Təjavın gözü,
Utandı işindən, qızardı üzü.
Uzaqlaşdı, üz tutdu başqa yana,
Xəcalət çəkib, bağrı döndü qana.

* * *

Günəş arxa döndərdi axşam çağı,
Givin bağrına qondu qardaş dağı.

Dedi Bijənə: – Bir mənə söylə sən?
Yerində görünməz bu Bəhram nədən?
Gedib də onu axtaraq biz gərək,
Başında onun nə bəla var, görək?
Yola düşdü yel tək iki pəhləvan,
Döyüş meydanında iki bağrı qan,
Baxıb gördü, səhra olub qan gölü,
Üzər onda çoxlu yaralı, ölü.
Kədər əllərindən alıb ixtiyar,
Ümidsiz, o Bəhramı axtardılar.
Dodaqlarda ah-nalə, gözlərdə yaş,
Gəzib Giv, Bijən, edirdi təlaş.
Nəhayət, gəlib tapdılar Bəhramı,
Uçundu, o dəm, onların əndamı.
Yıxılmışdı, qan, torpaq içrə o xar,
Kəsilmiş qolundan hələ qan axar.
Bu halda görüncə iki qardaşı,
Axıtdı üzə sel kimi göz yaşı.
Bir an gəldi Bəhram özünə bir an,
Çəkib kin dolu sinəsindən fəğan,
Dedi Givə: – Ey qəhrəman qardaşım,
Tabutda mənim örtülərkən başım,
Öküzdən necə şir alar intiqam,
Təjavdan mənim qanımı al, tamam!
Özü gəldi Piran mənim yanıma,
Tanışdı mənə, qıymadı canıma.
Bu meydandakı çinli sərkərdələr,
Mənimlə qəzəb, kinlə üzləşdilər.
Təjav etmədən hörmət ünvanıma,
Məni qərq qıldı qızıl qanıma.

Eşitdikdə o, Bəhramdan bu sözü,
Bulud kimi yaş tökdü Givin gözü.
Qəsəm yad qıldı ulu Hürmüzə,
Qaranlıq gecə ilə ağ gündüzə.
İgid Bəhramın qanını almadan,
Döyüşdən mən əl çəkməyim heç zaman.
Əlində bir hindi qılınc parladı,
Yəhər üstə qalxıb səyirtdi atı,
Günəş batdı, qır tək qaraldı cahan,
Təjav atlı çıxdı yola pusqudan.
Uzaqdan onu gördü, atlandı Giv,
Yəhər üstə yel tək qanadlandı Giv.
Yəqin etdi ki, təkdir o pəhləvan,
Qoşundan ona olmaz artıq həyan.
Çatıb arxadan, atdı möhkəm kəmənd,
Təjavın belində kəmənd oldu bənd.
Kəməndi çəkib tez, əl atdı ona,
Yəhərədən götürdü asan ovcuna,
Həqarətlə baxdı, yerə tulladı,
Enib əllərin arxadan bağladı.
Ata mindi, çəkdi, apardı onu,
Görən olsa, huşsuz sanardı onu.
Givə yalvarıb söyləyirdi Təjav:
– Canımda nə taqət qalıbdır, nə tab.
Mənim pisliyimmi yetibdir sənə,
Cahanı cəhənnəm edibsən mənə,
Dilə gəl, mənə rəhm qıl, söylə bir,
Bu saysız qoşunda günahım nədir?
Vurub qamçı ilə başından onun,
Dedi: – Çatmamış vaxtı söz-sorğunun!

Qara bəxt, özün bilməyirsən məgər,
Təzə əkdiyin tingə vermiş bəhər?
Atar bu ağac boy, şişər gövdəsi,
İçər qan kökü, daş olar meyvəsi.
Xəyanətlə Bəhramı qıldın şikar,
Nəhəng ağzına düşmüsən, aşikar!
Bu sözdən dəyişdi Təjavın halı,
Dedi: – Sərçəyəm, sənsə dağ qartalı!
Mənə olma Bəhram üçün bədgüman,
Onu öldürən mən deyiləm, inan!
Gəlib mən çatınca onu çinlilər,
Qara torpaq üstünə sərmişdilər.
Sanardın ki, Bəhram ölübdür yəqin.
Coşubdur, odur, Giv bağrında kin!
Çəkib Giv zorla gətirdi onu,
İgid qardaşına yetirdi onu.
Dedi: – Tutmuşam zalımı, çəkmə qəm!
Gərək öldürüb mən, qana-qan edəm!
Şükür, aləmi xəlq edən Tanrıya,
Çıxardı mənim arzumu qarşıya!
Sənə qəsd edən bu xəbisi yəqin,
Həlak eylərəm, bil, önündə sənin!
Təjav onlara yalvarır, and verir,
Ölüm qorxusundan əsir, titrəyir,
Deyirdi: – Bir işdir, olubdur, məgər
Kəsilsə başım, dərdə dərman edər?!
Mənə qul kimi ver ölümdən aman,
Pərəstiş edim qəbrinə hər zaman.
Dedi Givə Bəhram: – Ey qardaşım!
Adınla sənin yüksəlibdir başım!

Bu namərd sənə pislik etmiş əgər,
Bizə xeyri var öldürülsə məgər?
Bağışla günah işləmiş düşməni,
Utansın üzü yad edincə məni.
Görüb Giv əziz qardaşı can verir,
Qolu bağlı qatil olubdur əsir,
Coşub, saqqalından yapışdı onun,
Bədəndən üzüb sərçə tək boynunu,
Yerə tulladı kos kimi başını,
Dönüb bağrına basdı qardaşını.
Nəzər saldı həm qardaşa, həm yada,
Qalandı Givin bağrı sönməz oda.
Düşündü: birini mən öldürmüşəm,
Birini önümdə ölən görmüşəm.
Biri qardaşımdır, canımdır əgər,
Biri, yad da olsa, bəşərdir, bəşər.
Mənə haqlı lənət edər hər görən,
Günahkardır, hər bir adam öldürən.
Çəkib ah Bəhram, o dəm verdi can,
Əzəldən belə rəhmsizdir cahan.
Hər insan ki, yüksəlməyi arzular,
Özü öz qanında yəqin qərq olar.
Onu öldürərlər, ya o öldürər,
Nədir fərqi, yaxşı düşünsən əgər?!
İgid Bəhrama Giv çox ağladı,
Yedəkdəydi orda Təjavın atı.
Yəhər üstə qaldırdılar Bəhramı,
Qana qərq idi gül kimi əndamı.
Kəmərlə o meydanı tərk etdilər,
İran səmtinə üz tutub getdilər.

Çatınca döyüşdən uzaq bir yerə,
Ona tikdilər qəsr tək məqbərə.
Verib qüsl mişk, ənbər ilə ona,
Boyu çulğalandı ipək boynuna.
Qoyub altına şəh kimi təxti-tac,
Yatırtdı, başı üstünə asdı tac.
Boyandı məzar üstü göy, qırmızı,
Deyirdin ki, Bəhramın itmiş izi.
Bütün ordu matəm tutub ağladı,
Fələk öz işindən geri qalmadı.

* * *

Günəş dağ dalından göründü səhər,
Qoyuldu fələk başına taci-zər,
Yığıldı pərakəndə düşmüş qoşun,
Əzilmiş, qırılmış, döyülmüş qoşun.
Hamı söyləyirdi ki, iranlılar,
Ağır itki verməklə sarsıldılar.
Olub türklərin hər biri əjdaha,
Önündə bir ordu dayanmaz daha.
Şaha biz gərək indi üz döndərək,
Nə hökmü bu ruzigarın, görək?
Savaşda tərəddüd edir şah əgər,
Mənimlə sənin səyimizdir hədər.
Oğullar «ata vay» deyib ağlayır,
Oğulsuz qalanlar qara bağlayır.
Döyüşmək əgər istəsə şəhriyar,
Qoşun toplasın, ondadır ixtiyar.
O fərman verərsə, dönək meydana,

Əzək düşməni, qərq edək al qana.
Ürəklərdə vardı kədər dağ qədər,
Bu məqsədlə meydanı tərk etdilər.
Budur qardaşı qardaşı yad edir,
Ürəkdən çəkir ah, pərişan gedir.
Ölənlər qəmində könüllər məlul,
Qoşun Kasəruda tərəf aldı yol.
Turan ordusundan gələn kəşfiyyat
Görüncə sönüb ordugahda həyat,
Xəbərdar tez etdilər Piranı
Ki, iranlılar tərk edib meydanı.
Gəlib çatdı bu xoş xəbər Pirana,
O göndərdi casusları hər yana.
Xəbər doğru çıxdı, Piran oldu şad,
Təmiz qəlbi qəmdən, kədərdən azad,
Qoşunla o meydana gəldi səhər,
Gəzib ordugaha yetirdi nəzər.
Nə gördü, köçüb ordu, sərvət qalıb,
Sərapərdə, sursat qənimət qalıb.
Nə vardı, qoşun əhlinə payladı,
Düşündü bu dünyanı, nə haydadı?
Bu gün yüksələnlər sabah alçalar,
Bu gün qəm çəkənlər, sabah əl çalar.
Budur məsləhət ki, ələ cam alaq,
Ömür günlərindən birər kam alaq.
Yola saldı Piran gecə bir nəfər,
Gedib versin Əfrasiyaba xəbər.
Eşitcək zəfər müjdəsi şəhriyar,
Sevindi, silindi ürəkdən qübar.
Piran gəldiyi yol ilə ordular,

Çəkib səf, zəfər tağları qurdular.
Payəndazı oldu zərif tirmələr,
Ayaqlarına səpdilər simuzər.
Yaxınlaşdı paytaxta çün pəhləvan,
Ona verdi hörmətlə yer hökmran.
Dedi: – Zərbinə, şəstinə afərin!
Tapılmaz bu aləmdə mislin sənin!
İki həftə dərbarda Əfrasiyab,
Zəfər məclisi qurdu, içdi şərab.
Sona çatdı şənlik, verildi qərar,
İcazə verə Pirana hökmdar,
Gedə öz diyarına, öz yurduna,
Verə ömrünü dincliklə sona,
Ona verdi ənamlar Əfarasiyab,
Rəqəm çatmaz idi edəndə hesab.
Qızıl sikkələr, şaha layiq güvhər,
Cəvahirnişan neçə altın kəmər,
Qızıldan yəhərli ərəb atları,
Qızılqın qılınc, dəstəsi mirvari,
Hazırlatdı bir təxt şirmayıdan,
Kəcavə qızıl, tac cəvahirnişan,
Gözəl çinli qızlarla rumlu qulam,
İçi mişk ənbər dolu ləl cam,
Bütün bunları göndərib Pirana,
Dəyərli nəsihət də verdi ona.
Sayıq ol, dedi möbidə arxalan,
Qoru ordunu düşmənindən hər an!
Rəvan eylə casusları hər yana,
Xəbər topla, sal işləri səhmana!
Unutma, ədalətlə, Keyxosrovun

Cahanda adı hökmrandır bugün.
Böyük nəsli var, təxti var, tacı var,
Nə istər daha bir belə hökmdar?
Unutma ki, sən qatil olsan əgər,
Qaçan düşmən onda geri həm dönər.
Var o yerdə Rüstəm kimi pəhləvan,
Sən asudə yatsan, çəkərsən ziyan.
Qəbul etdi Piran nəsihətləri,
O sərkərdənin şah idi rəhbəri.
Vidalaşdı paytaxt ilə pəhləvan,
Xütən mülkünə doğru oldu rəvan.
Forud dastanı burda oldu tamam,
Gərək indi Kamusdan söz açam.

# «Q A B U S N A M Ə»
## HAQQINDA QISA MƏLUMAT

«Qabusnamə» dərin məzmunlu və yüksək ideyalı fəlsəfi-didaktik əsərdir. «Qabusnamə» cəmiyyətin yaşayış normalarının təbliğinə həsr edilən, məişət qaydalarından tutmuş siyasi idarəçiliyə qədər problemləri özündə əks etdirən nəsihət kitabıdır.

Əsərin müqəddiməsindən aydın olur ki, kitabda olan bütün nəsihətlərin müəllifi Ziyarilər xanədanının son hökmdarı Əmir Ünsürülməali Keykavus İbn İsgəndər İbn Qabus İbn Vəşmgir İbn Ziyardır. O, 1021-ci ildə anadan olmuş, təxminən 1082/83-cü illərdə vəfat etmişdir. Ehtimal edilir ki, vəfat edərkən bu kitabı oğlu Gilanşaha nəsihət (vəsiyyət) olaraq yadigar qoymuşdur:

«Ey oğul, bil və agah ol ki, mən artıq qocalmışam, qocalıq və zəiflik məni əldən salmışdır. Saç-saqqalıma çəkilən xətlərin ölüm fərmanı olduğunu görürəm və heç kəs bu fərmanı pozacaq qüdrətə malik deyildir.

Ey oğul, öz adımı bu dünyadan köçənlər siyahısında gördüm, belə qərara gəldim ki, köç naməsi mənə çatmış, mən sənə bir namə yazım, orda dünyanın yaxşı və pis işlərini, dövranın düz və gəc gərdişini təsvir edim, fürsət əldən getməmiş yaxşı bir ad qoyum. Ata məhəbbəti naminə qoy o sənə yar olsun».

44 fəsildən ibarət olan ənənəvi formada nəsrlə yazılmış «Qabusnamə» nəsihət toplusu olduğuna görə bəzi mənbələrdə «Nəsihətnamə» kimi də adlandırılır. Lakin babası Qabusun şərəfinə Keykavusun öz nəsihətlərini «Qabusnamə» adlandırması ehtimalını qəbul edənlər daha çoxluq təşkil edir.

«Qabusnamə»də müəllifin öz nəsli haqqında məlumat verməsi təsadüfi deyildir. Oğluna müraciətlə yazılmış bu hissədə müəllif əsilzadəliyini təsdiqləyir və oğlunu bundan sonrakı həyatını əslinə, əcdadlarının adına layiq yaşamağa, eyni zamanda məsuliyyətə səsləyir, estafeti oğluna təqdim etməklə rahatlıq tapır: «Ey oğul bilməlisən ki, sənin valideynlərinin tayfası böyük və əsil-nəcabətli hökmdarlardır. Baban Şəmsülməali Qabus İbn Vəşmgirdir. Nəslin Gilan şahlarından olan Keyxosrov və Əbul-Müəyyəd övladlarının xanədanındandır. Firdovsi onların tərcümeyi-halını öz «Şahnamə»sində təsvir etmişdir... Ey oğul, ağıllı ol, öz əcdadının qədrini bil, nanəcibliyə yol vermə».

«Qabusnamə» insanlıq naminə həyatı əhəmiyyətli elə məsələlərin təbliğindən bəhs edir ki, müəllifin öz sözləri ilə desək, «oxuyana, köçürənə və dinləyənə xoşbəxtlik gətirəcəyi» şübhəsiz görünür. Əsərdə 44 fəslin ikisi istisna olmaqla («Allahı dərk etmək yolu haqqında» və «Peyğəmbərlərin yaranması haqqında») digər 42 fəsildə tərbiyə, əxlaq, elm, istirahət, əyləncə, siyasi, sosial və s. qayda və normalar haqqında insanı düşündürəcək, ona təsir edəcək qiymətli fikirlər verilmişdir. Əsəri oxuyan, faydalanan hər bir oxucu pisliklərdən uzaqlaşır, yaxşı əməlin, xeyirxah işin insan üçün vacibliyini anlayır. Və hər bir insan ilk növbədə Allahı dərk etmək yolunu seçir. Yaşadığımız dünyanı Allahın ədalət və hikmət əsasında qurduğunu anlayan insan «Qabusnamə» işığında nadanlıqdan

uzaqlaşa bilir, zülmü, müharibələri lənətləyir, yaxşı əməl sahibinə çevrilir.

«Qabusnamə» əxlaqi-didaktik məsələləri önə çəkməklə yanaşı, X-XI əsrlər İran feodal həyatını, o dövrün bir sıra sosiyyəvi xüsusiyyətlərini öyrənmək baxımından da əhəmiyyət kəsb edir.

# Q A B U S N A M Ə
**(ixtisarla)**

## MÜQƏDDİMƏ

Bu kitabı tərtib edən əmir Ünsürülməali Keykavus ibn İskəndər ibn Qabus ibn Vəşmgir ibn Ziyar[1], Mövla əmirəlmöminin öz oğlu Gilanşaha belə deyir:

«Ey oğul, bil və agah ol ki, mən artıq qocalmışam. Qocalıq və zəiflik məni əldən salmışdır. Saç-saqqalıma çəkilmiş ağ xətlərin ölüm fərmanı olduğunu görürəm və heç kəs bu fərmanı pozacaq qüdrətə malik deyildir.

Ey oğul, öz adımı bu dünyadan köçənlər siyahısında gördükdə belə qərara gəldim ki, köç naməsi mənə çatmamış, mən sənə bir namə yazım, orada dünyanın yaxşı və pis işlərini, dövranın düz və gəc gərdişini təsvir edim, fürsət əldən getməmiş yaxşı bir ad qoyum. Ata məhəbbəti naminə qoy o sənə yar olsun (atadan oğula yadigar olsun).

Ey oğul, zəmanə səni yumşaltmamış, sən öz ağlının gözləri ilə mənim sözlərimi oxu və ona əməl et, onda sən xoşbəxt olarsan. Hər iki dünyada (həm sağlıqda, həm öldükdən sonra) yaxşı ad qazanarsan. Amandır, sən çalış bu kitabda deyilənlərə qulaq as. O zaman mən atalıq borcumu yerinə yetirmiş olaram. Sən mənim dediklərimdən yaxşı fayda götürə bilməsən də, elə adamlar tapıla bilər ki, onlar dəyərli sözlərə qulaq asıb, ona əməl etməyi qənimət sayarlar.

---

*[1] Əmir Ünsürülməali Keykavus ibn İskəndər ibn Qabus ibn Vəşmgir ibn Ziyar – «Qabusnamə» əsərinin müəllifi 1021-ci ildə anadan olmuşdur. Ölümü haqqında müxtəlif fikirlər vardır. Bəzi məxəzlərə görə 1067/68-ci illərdə, bəzilərinə görə isə 1082/83-cü illərdən sonra vəfat etmişdir.*

Hərçənd zəmanə belə gətirib ki, heç bir övlad öz atasının nəsihətinə qulaq asmır, gənclərin qəlbində elə bir qəflət atəşi var ki, onlar qocalardan daha çox bildiklərini güman edirlər. Mən bunları bilirsəm də, atalıq məhəbbəti məni susmağa qoymur. Odur ki, xoşuma gələn, təbiətimə uyğun olan sözləri toplayaraq fəsillərə ayırdım, daha qısa və layiq olanları bu kitaba köçürdüm. Əgər əməl etsən daha gözəl, etməsən mən atalıq vəzifəsini yerinə yetirmiş olaram. Deyiblər: «Məsləhətçinin vəzifəsi deməkdir, qulaq asmasalar, inciməyinə dəyməz».

Ey oğul, bil, insanların fitrətində elə bir xüsusiyyət vardır ki, onlar dünyada əldə etdiklərinin həmişə ən əziz adamları üçün qoyub getməyə çalışarlar. Bu dünyada mənim əldə etdiyim bu sözlərdir, ən əziz adamım isə sənsən. İndi köçməyə hazırlaşarkən, əldə etdiklərimi sənə yadigar qoymaq istəyirəm. İstəyirəm, sən onları oxuyub xudpəsəndliyə yol verməyəsən, yaramaz işlərdən çəkinəsən, elə yaşayasan ki, o sənin pak əcdadlarının adına layiq olsun.

Ey oğul, bilməlisən ki, sənin valideynlərinin tayfası böyük və əsil-nəcabətli hökmdarlardır. Baban Şəmsülməali Qabus ibn Vəşmgirdir. Nəslin Gilan şahlarından olan Keyxosrov[1] və Əbül-Müəyyəd[2] övladlarının xanədanındandır. Firdovsi onların tərcümeyi-halını öz «Şahnamə»sində təsvir etmişdir. Gilan şahlığı sənin babalarına ondan yadigar qalmışdır. Sənin nənən, mənim anam «Mərzbannamə» əsərinin müəllifi şahzadə Mərzban ibn Rüstəm ibn Şərvinin qızı idi.

---

[1] *Keyxosrov – Kəyan şahlarından birinin adı. Firdovsi öz «Şahnamə» əsərində onun haqqında ətraflı danışmışdır.*

[2] *Əbül-Müəyyəd Bəlxi – X əsr şairi. Kəyan şahları haqqında şeirlər yazmışdır. Əsərlərindən «Əcayibül-əşya»sı daha məşhurdur.*

Onun on üçüncü babası Ənuşirəvan Adil padşahın qardaşı Kavus ibn Qubad idi. Sənin anan Məlik qazı Soltan Mahmud Nasirəddinin qızı idi. Mənim nənəm deyləmilər hökmdarı Firuzanın qızı idi.

Ey oğul, ağıllı ol, öz əcdadının qədrini bil, nanəcibliyə yol vermə. Hərçənd mən səndə yaxşılıq əlamətləri və xoşbəxtlik nişanələri görürəm, lakin bu sözləri təkrar etməyi lazım bilirəm: ey oğul, bil və agah ol, mənim getməyim yaxındır, sənin də mənim dalımca gəlməyin o qədər uzaq deyildir. Ona görə nə qədər ki, sağsan, gərək iş görüb fəaliyyət göstərəsən, bəlkə, beləliklə, əbədilik qazanasan. Əbədilik müvəqqətilikdən üstündür. Əbədiliyi isə yalnız bu dünyada qazanmaq olar. Bu dünya tarla kimi bir şeydir, yaxşıdan-pisdən nə əksən onu da biçəcəksən. Əbədilik sarayının bünövrəsi müvəqqəti olan bu dünyada qoyulmalıdır. Yaxşı adamlar bu dünyada aslan təbiətli olarlar, pis adamlar isə it təbiətli. İt tapdığı şeyi ordaca yeyər, aslan isə ovladığını başqa yerdə. Bu dünya bir ovlaqdır, sən isə ovçu, sənin ovun da – yaxşı əməllərin. Çalış indi yaxşılıq elə ki, sonra xeyrini görəsən…

Ey oğul, onu da bil ki, bu nəsihətnaməni, bu qiymətli kitabı mən qırx dörd fəsildən ibarət yazdım.

Ümid edirəm ki, bu kitab onu yazana, oxuyana, köçürənə və dinləyənə xoşbəxtlik gətirəcəkdir».

## BİRİNCİ FƏSİL

## ALLAHI DƏRK ETMƏK YOLU HAQQINDA

Ey oğul, bil və agah ol ki, dünyada olan, olmayan və ola bilən hər nə varsa, hamısını olduğu kimi adam dərk edə bilər,

yalnız o böyük yaradandan başqa. Onu dərk etməyə yol yoxdur, ondan savay nə varsa, hamısı dərk edilə bilər. Sən yalnız o zaman haqq-taalanı dərk edə bilərsən ki, özün dərketməz olasan.

Dərk edilən naxış, dərk edən isə nəqqaş kimi bir şeydir, əgər maddə naxış qəbul etmirsə, heç bir nəqqaş onun üzərinə naxış vurmağı bacarmaz. Görmürsənmi, mum daşa nisbətən daha tez naxış qəbul edən olduğundan ondan möhrə hazırlayırlar, daşdan isə hazırlamırlar. Deməli, dərk edilmiş hər bir şeydə bir dərkolunma xüsusiyyəti var və o, yaradanın nəyə qabil olduğunu göstərir. Ona görə sən özünə bax, yaradana baxma. Sən yaradılmışa diqqət et ki, yaradanı əql ilə dərk edə biləsən. Ayıq ol, vaxtı əldən verməyəsən, çünki vaxt keçicidir, keçici şeyin isə əvvəli və sonu olar.

Bağlı gördüyün bu dünyanın bağlılığına heyran olma və güman etmə ki, bu bağ həmişə açılmamış qalacaqdır. Sən yaradanın yaxşılıqları və nemətləri haqqında fikirləş, özü barəsində fikirləşmə, çünki yolu o adam daha çox azmış olar ki, yol olmayan yerdə yol axtarsın. Peyğəmbər əleyhissəlam demişkən: «allahın nemətləri haqqında fikirləşin, zatı haqqında fikirləşməyin». «Əgər bizi yaradan allah şəriət sahibləri vasitəsi ilə öz bəndələrinə onun yolunu tapmağa cəsarət etmək ixtiyarını verməsə idi, heç kəsdə o cürət ola bilməzdi ki, allah-taalanın dərk edilməsi haqqında bir söz deyə bilsin, çünki sən haqqı nə adlandırırsan adlandır, ona nə kimi sifət verirsən ver, bu, yaradanın ilahilik və rübubiyyətinə deyil, yalnız sənin acizlik və miskinliyinə dəlalət edər, çünki sən allahı heç vaxt layiq olduğu qədər tərifləyə bilməzsən, belə olan təqdirdə sən onu necə dərk edə bilərsən? Əgər sən tövhidin nə olduğunu bilmək istəyirsənsə, bil ki, sənin üçün mümkün ola bilməyən

hər şey onun üçün mümkündür, məsələn, təklik kimi. Kim təkliyin mahiyyətini anlasa, o, müşriklikdən azad olmuş olar. Təklik yalnız böyük yaradana xasdır, ondan başqa nə varsa, hamısı cütdür.

Xüsusiyyətinə görə ikiləşən hər şey ya tərkibinə görə ikiləşər, cisim kimi, ya parçalanmağına görə ikiləşər, ədəd kimi, ya cəmlənməsinə görə ikiləşər, sifət kimi, ya təzahürə görə ikiləşər, cövhər kimi, ya mənşəyə görə ikiləşər, əsli və fəri kimi, ya məkana görə ikiləşər, fəza və boşluq kimi, ya vəhmə görə ikiləşər, ağıl və nəfs kimi, ya müvazinətə görə ikiləşə bilər, təbiət və surət kimi, ya qarşılaşmaya görə ikiləşə bilər, oxşarlıq və fərqlilik kimi, ya quruluşuna görə ikiləşə bilər, maddə və ünsür kimi, ya hadisənin başlanğıcına görə ikiləşə bilər, məkan və zaman kimi, ya həddinə görə ikiləşə bilər, ehtimal və qətilik kimi, ya qəbul edilmə nöqteyi-nəzərindən iki cür ola bilər, azlıq və çoxluq kimi, ya dərk edilmə nöqteyi-nəzərindən iki ola bilər, varlıq və yoxluq kimi. Bunlar nə qədər ziddiyyətli və əksli olsalar da, yenə ikilik əlamətinə malikdir və həqiqətdə onları tək adlandırmaq olmaz. Təklik yalnız allaha aiddir. İkilik xüsusiyyəti olan nə varsa, onların heç biri allah ola bilməz. Tövhidin mahiyyəti ondan ibarətdir ki, ürəyinə gələn hər şeyin allah olmadığını biləsən, onların şəriki və tayı olmayan bir allah tərəfindən yaradıldığını qəbul edəsən.

## İKİNCİ FƏSİL

## PEYĞƏMBƏRLƏRİN YARANMASI HAQQINDA

Ey oğul, bil ki, böyük yaradan bu dünyanı məqsədlə yaratmış, hədərə yaratmamışdır, onu ədalət və hikmət əsasında

qurmuşdur, çünki o, varlığın yoxluqdan, xeyrin şərdən, bolluğun qıtlıqdan, gözəlliyin eybəcərlikdən daha yaxşı olduğunu bilirdi. O bunların hər ikisini bilir və hər ikisini yaratmağa qadir idi, lakin o, yaxşılarını yaratdı, bildiyinin əksinə etmədi, hər şeyi vaxtında və ədalət əsasında yaratdı, cəhd, fəsad və nadanlıq əsasında yaratmadı. Beləliklə, dünyanın bünövrəsi hikmətlə qoyuldu, hər nə gözəl idisə, onu da yaratdı. O edə bilərdi ki, günəşsiz işıq versin, buludsuz yağış yağdırsın, tərkibsiz maddə yaratsın, ulduzlara ehtiyac olmasın, yaxşı və pis hadisələr cərəyan etsin, lakin dünya qanunauyğunluq əsasında qurulduğundan o, səbəbsiz olaraq heç bir şey yaratmadı və bu səbəbi dünyanı nizama salan bir vasitə etdi. Bu vasitə ortalıqdan qalxsa, işləri nizama salan səbəb də ortalıqdan qalxar, səbəb ortalıqdan qalxdıqda isə bütün nəzm-nizam da pozular. Hər bir işdə nizam olduğu kimi onu yaradan vasitə də lazım olar. Vasitəni ona görə yaratmışdır ki, biri hakim olsun, biri məhkum, biri ruzi verən olsun, biri ruzi yeyən. Bu ikilik isə allahın təkliyinə dəlalət edər. Deməli, sən yalnız vasitəni görə bilərsən. Ona görə diqqətli ol ki, az və çoxluğu vasitədən deyil, vasitəni yaradan allahdan biləsən. Əgər torpaq məhsul vermirsə, onu təqsirkar hesab etmə, əgər ulduz ədalətli gərdiş etmirsə, onu müqəssir sayma. Ulduzların ədalət və zülmdən nə qədər xəbəri var isə, yerin də məhsul yetirməkdən o qədər xəbəri var.

Torpaq şirin meyvə əkilən yerdə zəhər bitirə bilmədiyi kimi, ulduzlar da öz bildiklərini edə bilməzlər, yaxşılığa adət etmiş olan pislik edə bilməz.

Dünya hikmətlə bəzəndirilmiş olduğundan ona zinət də lazım idi. Bu dünyaya diqqətlə bax ki, onun zinətini görə biləsən. Bu zinət nəbatat, heyvanat, yemək, içmək, geyim və

müxtəlif nemətlərdən ibarətdir. Bunlar hamısı hikmət əsasında yaradılmışdır, necə ki, özü bu barədə deyir:
«Biz yeri, göyü və onlar arasında nə varsa, hamısını əyləncə üçün yaratmadıq, onları biz hikmətlə yaratdıq»[1].

İndi ki, sən dünyanın allah tərəfindən hədərə yaradılmadığını bildin, onu da bilməlisən ki, bu yaradılan nemətlər kimə isə ruzi verilməsə idi mənasızlıq olardı. Ruzi ona deyərlər ki, sən çörəyi ehtiyacı olana verəsən ki, o da yeyə. Bax, ədalət buna deyərlər. O, insanları yaratmaq istədi ki, onlara ruzi versin, indi ki, insanlar yaranıbdır, deməli, bütün nemətlər onlarındır.

Lakin insanlara dövlət və qayda-qanun lazımdır, dövlət isə rəhbərsiz keçinə bilməz, çünki ədalət və qayda-qanun olmadıqda ruzi yeyən adam ruzi verənin qədir-qiymətini bilməz. Bu isə ruzi verənin nöqsanı olar ki, o öz nemətini nadana verə. Ruzi verən nöqsansız olduğundan öz ruzi yeyənlərini nadan qoymadı. O özü Quranda belə deyir: «insanların bilmədiklərini onlara öyrətdi».

O, peyğəmbərlər göndərdi ki, onlar bilik, ruzi yemək və ruzi verənə şükür etmək qayda-qanunlarını insanlara öyrətsinlər, beləliklə, dünyanın əsası ədalətlə, ədalətin təkmilliyi hikmətlə, hikmətin tamlığı nemətlə, nemətin bütövlüyü ruzi alanlarla, ruzi alanların kamilliyi yolgöstərici peyğəmbərlə tamamlansın.

Peyğəmbərin ruzi alanlardan üstünlüyü orasındadır ki, onlar ruzi yeyənlərə ruziyə çatmaq yolunu göstərirlər.

Deməli, əgər ağıl gözü ilə baxsan, görərsən ki, ruzi alan aldığı ruzi və nemət müqabilində, arzu və istəklərinin yerinə yetirilməsi xatirinə öz rəhbərinin haqqını etiraf etməyə və ruzi

---

[1] *Quran ayəsi.*

verəninə minnətdar olduğunu bildirməyə borcludur. Demək, peyğəmbərlərin haqq olduğuna inanmalısan, onlardan kömək ummalısan və Adəmdən tutmuş Məhəmmədə qədər (Allah onların hamısına rəhmət eləsin) bütün peyğəmbərlərin düz danışan olduğunu qəbul etməlisən, dinin dediklərinə əməl etməlisən, şükr və niyazda ehmallıq göstərməlisən, haqqın buyruqlarını yerinə yetirməlisən ki, beləliklə, yaxşı ad qazanıb tərifləməsən.

## BEŞİNCİ FƏSİL

## ATA VƏ ANAYA HÖRMƏT HAQQINDA

Ey oğul, bil ki, bizi yaradan dünyanı abad saxlamaq üçün nəslin artıb törəməsini lazım bildi və heyvani şəhvəti buna səbəb etdi. Deməli, sağlam düşüncəyə görə, övlad (öz səbəbinə) hörmət etməli və öz əsil-zatına ehtiram qoymalıdır, onun əsil-zatı isə ata və anadır.

Demə ki: «ata-anamın mənim üzərimdə nə haqqı vardır, onların məqsədi öz şəhvətlərini söndürmək olub, mən olmamışam». Məqsədləri şəhvəti söndürmək olsa da, onlar sənin yolunda ölümə də getməyə hazır olarlar, bu isə şəhvətdən daha üstündür. Ata və anaya ən azı ona görə hörmət etmək lazımdır ki, onların hər ikisi sənin yaradan arasında vasitədir. Deməli, sən özünə və yaradanına hörmət etdiyin qədər, öz vasitələrinə də hörmət etməlisən. Ağlı başında olan hər övlad heç vaxt ata və ana haqqını unutmaz. Allah öz Kitabi-məcidində belə deyir: «İtaət ediniz allaha, itaət ediniz peyğəmbərə və öz amirlərinizə»[1]. Bu ayəni bir neçə cür təfsir etmişlər. Onlardan birində

[1] *Quran ayəsi*

belə oxumuşam ki, «amirlər» ana və atadır, çünki ərəb dilində «əmr» sözünün iki mənası vardır: iş və əmr. Amir ona deyərlər ki, həm ixtiyarı olsun, həm iqtidarı. Ata və anada isə həm iqtidar var, həm ixtiyar. İqtidar – yedirdib bəsləmək, ixtiyar – yaxşı şeylər öyrətməkdir.

Ehtiyatlı ol, ey oğul, ata və ananın qəlbini incitmə, onların ürəyinə toxunma, çünki yaradan ata və ananı incidənə ağır cəza verir. Allah-taala deyir: «Onlara tüfu demə, onları incitmə, onlara xoş sözlər de!».

Əli Əmirəlmömindən (allah ondan razı olsun) soruşdular ki, ata və ananın haqqı nə qədər olar? Dedi: «Onun nə qədər olduğunu allah-taala peyğəmbər əlehissəlamın ata və anasının ölümündə göstərmişdir. Çünki onlar peyğəmbər əlehissəlamın peyğəmbərlik dövrünə qədər yaşasaydılar, peyğəmbər onları hamıdan şərəfli tutmağı vacib bilərdi, bu da onun dediyi: «Mən Adəm övladının ən şərəflisiyəm və bunda qürurum yoxdur»[1] sözü səhv görünərdi.

Deməli, ana və atanın haqqını dini cəhətdən qəbul etməsən, ağıl və insanlıq nöqteyi-nəzərindən qəbul etməlisən. Ata və ana sənin əsl böyüdənin və tərbiyə verənindir, sən onların haqqını ödəməkdə kahıllıq göstərsən, bu ona dəlalət edər ki, sən heç bir yaxşılığa layiq deyilsən. Çünki aşkar xeyirxahlığın qədrini bilməyən adam dolayı xeyirxahlığın qədrini haradan bilər? Qədir bilməyən adama yaxşılıq etmək nadanlıqdır. Sən də nadanlıq adını qazanmağa çalışma. Öz övladının sənə qarşı necə olmalarını arzulayırsansa, sən də öz ata və anana qarşı elə ol! Sən səni doğanla necə rəftar edibsənsə, səndən doğulan da sənlə elə rəftar edəcəkdir. Övlad meyvəyə bən-

[1] *Hədis*

zər, ana-ata isə ağaca. Ağaca nə qədər çox xidmət etsən, o qədər onun meyvəsi yaxşı və gözəl olar, ata-anaya da nə qədər çox hörmət edib onlardan utansan, o qədər də onların sənin haqqındakı duaları tez müstəcab olar, sən həm allah yanında, həm valideynin yanında üzü ağ olarsan.

Amandır, miras xatirinə ana və atanın ölümünü arzulama. Ata-anan ölməsə də, sənin ruzin yetişəcəkdir, çünki hər kəsin qisməti özünə çatacaqdır. Artıq ruzi əldə etmək üçün özünü çox da ora-bura vurma, ora-bura soxulmaqla ruzi artmaz, ona görə deyiblər: «Zəhmət çəkməklə yaşa, özünə əziyyət verməklə yaşama!».

Ruzi haqqında həmişə allahdan razı qalmaq istəyirsənsə, halı sənin kilərdən yaxşı olanlara deyil, pis olanlara bax.

Mal-dövlət cəhətdən yoxsul olsan, çalış ağıl və kamalca dövlətli ol, çünki ağıl-kamal zənginliyi var-mal dövlətliliyindən daha yaxşıdır. Ağıl ilə dövlət əldə etmək olar, dövlətlə ağıl qazanmaq isə olmaz. Cahil adam tez yoxsullaşa bilər, lakin ağlı oğru apara bilməz, su və od məhv edə bilməz.

Beləliklə, əgər ağlın varsa, sənət öyrən, çünki biliksiz ağıl paltarsız bədən, simasız adam kimidir. Yaxşı deyiblər: «bilik ağlın aynasıdır».

## ALTINCI FƏSİL

## TƏVAZÖ VƏ BİLİYİN ARTIRILMASI HAQQINDA

Oğul, bil və agah ol ki, sənəti olmayan adamlar gövdəsi olub kölgəsi olmayan Muğilan ağacı kimi faydasız olarlar, nə özlərinə xeyir verərlər, nə başqalarına. Əsil-nəsəbli adamlar sənət və hünər sahibi olmasalar da, əsil-nəsəblərinə görə baş-

qalarının yanında hörmətdən məhrum olmazlar. Pisi odur ki, nə cövhərin ola, nə hünərin! Lakin əsil-nəsəbli olsan da çalış özünün müəyyən sənət və şöhrətin də olsun, çünki özünün şöhrəti olmaq əsil-nəsəb şöhrətindən daha yaxşıdır. Deyiblər ki, «Ləyaqət əql ilə ədəbdədir, əsil-nəsəbdə deyildir!» Böyüklük mərifət və bilikdədir, haralı və kimlərdən olmaqda deyildir. Bil ki, sən ata və ananın şan-şöhrəti ilə kifayətlənməməlisən, çünki o, xarici bəzəkdir. Əsl ad-san ona deyərlər ki, onu öz istedad və bacarığınla əldə etmiş olasan, bu zaman səni «Zeyd», «Cəfər», «əmi», «dayı» əvəzinə «müəllim», «alim», «fəqih»[1], «həkim» çağırarlar. Əgər əsil-nəsəbi olan adamın öz bacarıq və ləyaqəti yoxsa, o heç kəsin işinə yaramaz. Lakin bir adamda hər iki xüsusiyyət olsa, ondan bərk yapış, əldən buraxma ki, o, hamının işinə yarayar.

Onu da bil ki, bütün sənətlər içində ən gözəl sənət danışmağı bacarmaqdır. Böyük yaradan insanı bütün məxluqatın ən şərəflisi etmiş və onu on xüsusiyyətə görə[2] (beşi bədənin daxilində, beşi xaricində), başqa canlılardan üstün yaratmışdır.

Daxildə olan beş xüsusiyyət: təfəkkür, hafizə, təxəyyül, təsəvvür və danışıqdır, xarici beş xüsusiyyət: eşitmə, görmə, qoxu bilmə, toxunma və dad bilmə xüsusiyyətidir.

Bu xüsusiyyətlərdən heyvanlarda olanları insanlardakı kimi deyil, ayrı cürdür. Buna görə də insan başqa heyvanlara üstün gəlmiş və onların üzərində hökmranlıq əldə etmişdir.

---

*[1] Din hüquqşünası, şəriət qanunlarını bilən ruhani*

*[2] On xüsusiyyət – «Qabusnamə»də xarici və daxili aləmi dərk etmək nöqteyi-nəzərindən insanların on xüsusiyyətə (dərəcəyə) görə heyvanlardan üstün yaradıldığı göstərilir. Y.E.Bertels «dərəcə» sözünü «hiss» kimi tərcümə etmişdir, biz «xüsusiyyət» kimi tərcümə edirik. Buraya həm «hissi» kateqoriyalar, həm də psixoloji və təfəkkür kateqoriyaları daxildir.*

İndi ki, bunu bildin, gərək sən dilini gözəl danışmağa və yaxşı şeylər söyləməyə öyrədəsən, yaxşıdan başqa heç bir şey deməyə adət etdirməyəsən, çünki dilə nə öyrədibsən, nəyə adət etdiribsənsə, həmişə onu da deyəcəkdir. Odur ki, deyiblər: «dili xoş olanın havadarı çox olar».

Nə sənətin sahibi olursan ol, ancaq sözü yerində deməyi bil, çünki yersiz deyilən söz nə qədər gözəl olsa, yenə də çirkin görünər. Faydasız sözlərdən qaç, çünki faydasız sözlərdən həmişə ziyan gələr. Yalan iyi verən və hikmət ətri saçmayan sözlər deyilməsə, daha yaxşıdır. Müdrik adamlar sözü şəraba oxşatmışlar, o həm məst edər, həm məsti ayıldar[1]. Dindirilməmiş danışma, xahiş edilməmiş məsləhət verib nəsihət etmə, xüsusən, nəsihətə qulaq asmayana. Elə adam axırda özü yıxılar. Camaat içində heç kəsə nəsihət etmə. Deyiblər ki: «adamlar içərisində nəsihət məzəmmətə bərabərdir». Çoxdan yolunu azmışları düzəltmək fikrinə düşmə, bacarmazsan. Əyri bitmiş, qol-budaq atmış və yüksəlmiş ağacı kəsib yonmayınca düzəltmək olmaz. Söz deməkdə xəsislik etmədiyin kimi, imkanın olsa, mal verməkdə də xəsislik etmə, çünki adamlar sözə nisbətən mala daha çox şirnikərlər. Pis ad qazanmış yerlərdən uzaq gəz, bədxah dostdan və pis yola çəkən yoldaşdan qıraq qaç, özün haqqında səhvə yol vermə, elə yerə get ki, səni axtarsalar və orada tapsalar rüsvay olmayasan. Malını elə yerə qoy ki, istəyəndə tapa biləsən[2].

Xalqın qəm və kədərinə gülmə ki, xalq da sənin qəm

---

[1] *Çox içdikdən sonra əmələ gələn baş ağrısını aparmaq, sərməstlik və xumarlıqdan ayrılmaq üçün içilən şərab nəzərdə tutulur.*

[2] *«Malını elə yerə qoy ki, istəyəndə tapa biləsən». S.Nəfisi və Rzaqulu Xan Hidayətin nəşr etdirdiyi «Qabusnamə»lərdə fərq var. Y.E.Bertelsin ruscaya etdiyi tərcümədə bu cümlə: «Pulunu qoyduğun yerdə axtar» kimi verilmişdir.*

və kədərinə gülməsin, ədalətli ol ki, ədalət görəsən, xoş de ki, xoş eşidəsən. Şoranlıqda toxum əkmə ki, bar verməz, əməyin hədərə gedər, yəni namərd adama yaxşılıq etmək şoranlığa toxum atmaq kimi bir şeydir. Lakin yaxşılığı layiq olan adamlardan əsirgəmə və yaxşılıq öyrədən ol ki, peyğəmbər əlehissəlam deymişdir: «yaxşılıq yolunu göstərən adam yaxşılıq edən adama bərabərdir». Yaxşılıq et və yaxşılığı öyrət, çünki bunlar bir-birindən ayrılmaz ekiz qardaşdırlar. Yaxşılıq etməkdən peşman olma, çünki yaxşı və pisliyin mükafatı sənə hələ bu dünyada, o dünyaya getməmişdən əvvəl çatacaqdır. Bir adama yaxşılıq edən vaxt o adam nə qədər rahat olursa, sən də o qədər rahat olursan, bir adama pislik etdikdə o nə qədər inciyirsə, sənin də qəlbin bir o qədər ağrı və sıxıntı duyur, buna görə sən heç kəsə pislik etmə. Həqiqət gözü ilə baxsan, görərsən ki, sən özün əzab çəkmədən heç kəsə ziyan vura bilməzsən və sənin öz xoşun olmadan heç kəs səndən yaxşılıq görə bilməz. Deməli, «yaxşı və pisin mükafatı o dünyaya getməmiş hələ bu dünyada yetişəcək» sözləri tamamilə doğrudur. Heç kəs mənim bu dediklərimi inkar edə bilməz. Kim bütün ömrü boyu birinə yaxşılıq ya pislik edibsə, dərindən düşünsə, o mənim haqlı olduğumu anlar və bu dediyim sözləri təsdiq edər. Deməli, nə qədər bacarırsansa, yaxşılığı heç kəsdən əsirgəmə, yaxşılıq axırda bir gün öz bəhrəsini verəcəkdir.

H e k a y ə t. Eşitmişəm, Mütəvəkkilin[1] Fəth adlı çox gözəl camallı, xoşbəxt və savadlı, tərbiyəli bir qulu var imiş. Mütəvəkkil onu oğulluğa götürmüş və doğma uşaqlarından daha çox sevərmiş.

---

[1] *Müvəkkil – Abbasi xəlifələrinin onuncusu, 847-861-ci illərdə hakimiyyət başında olmuşdur.*

Bu Fəth üzməyi öyrənmək arzusuna düşür. Üzgüçülər çağırılır. Dəclədə[1] ona üzməyi öyrətməyə başlayırlar. Fəth uşaq olduğundan üzməyi hələ yaxşı öyrənə bilməmişdi. Lakin bütün uşaqlar kimi, özünü elə göstərirdi ki, guya üzməyi öyrənmişdir. Bir gün müəllimindən gizlin Dəcləyə atıldı, su bərk axdığından Fəthi gicəllətməyə başladı. Fəth suya üstün gələ bilməyəcəyini anladıqda özünü suyun ixtiyarına verdi, suyun axarı üzrə camaatın gözündən itdi. Su bir müddət onu belə apardı. Dəclənin kənarında ovuqlar var idi, Fəth bu cür ovuqlardan birinin yanından keçərkən əl atıb, çox əlləşdikdən sonra özünü onun içinə sala bildi. Orada oturub öz-özünə dedi: «Görək allah dalısın neyləyəcək, hələ ki, özümü bu qaniçici suyun əlindən qurtarmışam». Yeddi gün o bu ovuqda qaldı. Elə birinci gün Mütəvəkkilə xəbər verəndə ki, Fəth suya atılıb boğulmuşdur, o, taxtdan düşüb yerə oturmuş və üzgüçüləri çağıraraq demişdi: «Kim Fəthi ölü ya diri gətirsə, ona min dinar verəcəyəm». Sonra and içdi ki, nə qədər ki, onu necə varsa, elə tapıb gətirməyiblər, yeməyə əl vurmayacaqdır.

Üzgüçülər Dəcləyə gedib suya baş vurdular, ümid gələn hər yeri axtardılar. Nəhayət, yeddinci gün üzgüçülərdən biri haman ovuğa rast gəldi. Fəthi görüb çox sevindi və dedi: «Burada ol, gedim qayıq gətirim».

Oradan qayıdıb Mütəvəkkilin yanına gəldi və dedi: «Ya Əmirəlmöminin, Fəthi diri gətirsəm, mənə nə verərsən?» Dedi: «Beş min dinar nəqd verərəm». Üzgüçü dedi. «Fəthi diri tapmışam».

---

[1] *Dəclə – Bağdaddan keçən çayın adı. Fəratla birləşdikdən sonra Şətt ül-Ərəb adı altında İran körfəzinə tökülür.*

Qayıq gətirib Fəthi apardılar.

Mütəvəkkil əmr etdi üzgüçüyə verdiyi vədə dərhal əməl etsinlər. Sonra vəziri çağırıb dedi: «Get xəzinəmə, orada nə varsa, yarısını payla yoxsullara». Sonra dedi: «Yemək gətiriniz, axı o, yeddi gündür acdır». Fəth dedi: «Ya Əmirəlmöminin, mən toxam». Mütəvəkkil dedi: «Dəclənin suyundanmı toxsan?». Fəth dedi: «Yox mən bu yeddi günü heç ac olmamışam, çünki hər gün üzərində iyirmi çörək olan bir tabaq su üzərində aşağı axırdı, mən əlləşib ondan iki-üç dənəsini ələ gətirir, onlarla dolanırdım. Hər çörəyin üstünə yazılmışdı: «Məhəmməd ibn əl-Hüseyn əl-Əskaf».

Mütəvəkkil əmr etdi şəhərdə car çəksinlər və desinlər ki, Dəcləyə çörək atan kimdirsə, qorxmasın gəlsin, Əmirəlmöminin ona yaxşılıq edəcəkdir. Belə də car çəkdilər. Sabahısı gün bir kişi gəlib dedi: «Mənəm o adam». Mütəvəkkil dedi: «Sübut!». Kişi dedi: «Sübutum odur ki, hər çörəyin üzərində mənim adım yazılmışdır: «Məhəmməd ibn əl-Hüseyn əl-Əskaf». Mütəvəkkil dedi: «Doğrudur, indi de görüm, nə vaxtdan sən Dəcləyə çörək atırsan?» Məhəmməd ibn əl-Hüseyn dedi: «Bir ildir». Mütəvəkkil soruşdu: «Nə üçün belə edirsən?» Kişi dedi: «Eşitmişdim ki, deyirlər: yaxşılıq elə, at suya, bir gün gələr, xeyrini görərsən. Mənim əlimdən başqa yaxşılıq gəlmirdi, elə bunu bacarırdım ki, onu da etdim və öz-özümə dedim: «görək xeyri nə olacaq».

Mütəvəkkil dedi: «Eşitdiyini etdin, gördüyün işdən də xeyir götürdün». Sonra Mütəvəkkil kişiyə Bağdadda bir malikanə və beş parça kənd bağışladı. Kişi haman malikanəyə köçüb, varlı-sanlı oldu. Onun övladından hələ indi də Bağdadda yaşayanı var.

Mən əl-Qaim Bi-əmrillah[1] dövründə həccə getmişdim, yaradan mənə öz evini ziyarət etmək imkanı vermişdi, onun övladını gördüm və bu əhvalatı Bağdadın qocalarından və ağsaqqallarından eşitdim.

Deməli, nə qədər bacarırsansa, yaxşılıq etməkdən əl çəkmə, camaata özünü yaxşılıq edən adam kimi tanıtdır, elə ki, tanıtdırdın, vədə xilaf olma, dildə bir şey deyib, ürəyində başqa şey tutma ki, buğda göstərib arpa satanlara oxşamayasan.

Bütün işlərdə ədalətli ol, çünki özü ədalətli olanın qazıya ehtiyacı olmaz.

Qəm və sevincini yalnız o adama de ki, qəminə qəmlənib, şadlığına şadlansın, qəm və şadlığını adamlar içində büruzə vermə, hər yaxşı və pis şey üçün tez şadlanıb, tez kədərlənmə, belə iş uşaqlara yaraşar. Çalış hər xırda şey üstündə özündən çıxma. Böyük adamlar hər doğru və yalan üstündə öz yerlərindən oynamazlar.

Nəticəsi şadlıq olan qəmi qəm, nəticəsi qəm olan şadlığı şadlıq hesab etmə.

Ümidsizlik baş verdikdə ümidini itirmə, çünki ümidsizlik ümidlə, ümid ümidsizliklə bağlıdır.

Dünyada bütün işlərin dəyişkən olduğunu bil. Nə qədər ki, sağsan, haqqı inkar etmə. Kim sənlə höccətə başlasa susmaqla onu susdur, çünki axmaqların cavabı susmaqdır.

Lakin heç kəsin əməyini itirmə, hər kəsə özünə layiq haqq qazandır, xüsusilə, öz qohum-qardaşının haqqını unutma, bacardıqca onlara yaxşılıq elə, ailə və tayfanızın qocalarının

---

[1] *Əl-Qaim Bi-Əmrillah – Abbasilərin iyirmi altıncı xəlifəsi 1031-1075-ci illərdə hakimiyyət başında olmuşdur.*

hörmətini saxla. Peyğəmbər (allah ona xeyir-dua versin) demişdir: «Peyğəmbər öz ümməti arasında necədirsə, ağsaqqal da öz tayfası arasında elədir». Lakin onlara çox da valeh olma ki, məziyyətlərini görə bildiyin kimi, eyiblərini də görə bilə-sən.

Başqasından təhlükə gözləyirsənsə, tez çalış ki, müvafiq şəkildə öz təhlükəsizliyini təmin edəsən.

Təhlükə gözlədiyin adamdan «heç bir şey edə bilməz» deyə arxayın olma, «heç bir şey olmaz» deyə zəhər içmək ağıllı iş hesab edilə bilməz.

Öz istedadınla qürrələnmə, dolanmaq üçün ağıllı və istedadsız olmaq lazımsa, ağılsız və istedadsız ol, belə olmaq lazım deyilsə, o zaman bir sənət öyrən, öyrənməkdən və yaxşı sözə qulaq asmaqdan ar etmə, beləliklə, sən arsızlıqdan qurtarmış olarsan.

Yaxşı və pisə fikir ver, insanların müsbət və mənfi cəhətlərini öyrən, onların nədən və nə qədər xeyir götürüb, ziyan çəkdiklərinə diqqət yetir və öz xeyrin üçün onlardan istifadə et. Bax gör insanları zərərə yaxınlaşdıran nədir, ondan qaç və ona yaxınlaş ki, o, insanları xeyrə yaxınlaşdırır.

Bədənini elm və sənət kəsb etməyə öyrət. Bilmədiyin şeyi öyrənməyə çalış. Bunun sənə iki faydası olar; ya bildiyin şeyi təcrübədən keçirmiş olarsan, ya bilmədiyin şeyi öyrənərsən.

Sokrat[1] demişdir: «Bilikdən daha zəngin xəzinə, pis xasiyyətdən daha rəzil düşmən ola bilməz, bilikdən daha böyük izzət, həyatdan daha qəşəng zinət ola bilməz».

Deməli, oğlum, sən bilik yollarını tapmalısan, elə etmə-

---

[1] *Sokrat – Qədim yunan filosofu (e.ə. 469-399-cu illər)*

lisən ki, hansı vəziyyətdə olursan ol, bir saatın belə elm öyrənmədən boş keçməsin; axı biliyi nadanlardan da öyrənmək olar.

Əgər sən nadana qəlbinin gözü ilə baxıb, ağlının nəzəri ilə diqqət yetirsən onun xoşagəlməz hərəkətlərini görərsən və bilərsən ki, nələri etmək lazım deyildir. İsgəndər[1] demişdir: «Mən xeyri yalnız dostlardan deyil, düşmənlərdən də götürürəm. Məndən çirkin bir xəta baş verdikdə, dostlar dostluq xatirinə onu ört-basdır edirlər ki, mən bilməyim, düşmənlər isə əksinə, düşmənçilik üzündən açıb deyirlər, mən də ondan xəbərdar olub, haman pis işi bir daha təkrar etmirəm. Deməli, mən bu xeyri dostdan deyil, düşməndən görmüş oluram». Sən də o biliyi alimdən deyil, cahildən öyrənmiş olarsan.

Elm və sənət öyrənmək, istər böyük olsun, istərsə kiçik, hamıya vacibdir, çünki insan öz tay-tuşları arasında üstünlüyü yalnız elm və sənətə görə əldə edə bilər. Tay-tuşlarda olmayan bir istedadı insan özündə gördükdə, həmişə üstünlük hiss edir, camaat da onu bilik və istedadına müvafiq olaraq başqalarından üstün tutur. Ağıllı adamlar bilik və istedadlarına görə tay-tuşlarından daha üstün tutulduqlarını gördükdə çalışırlar ki, öz bilik və istedadlarını daha kamil etsinlər. Deməli, insan belə edərsə, az keçməz ki, o hamıdan böyük olar.

Bilik əldə etmək tay-tuş içərisində irəli getmək deməkdir, elm və sənətdən əl çəkmək isə geriliklə razılaşmaq deməkdir.

Bilik əldə edib sənət öyrənmək, bədəni tənbəllik xəstəliyinə tutmağa qoymamaq çox faydalıdır. Deyiblər ki, tən-

[1] *İsgəndər – İsgəndəri Rumi (Makedoniyalı İsgəndər) nəzərdə tutulur (e.ə. 356-323-cü illər)*

bəllik bədən üçün fəsaddır. Bədən sənin sözünə baxmırsa, ayıq ol, buna yol vermə, bil ki, bədən tənbəllik və rahatlığı sevdiyindən sənin sözünə baxmır. Bədənimizin hərəkəti təbii və özbaşına olmadığından və bədən istədiyi kimi deyil, əmr edildiyi kimi hərəkət etdiyindən, nə qədər ki, sən əmr etməmisən, heç vaxt sənin bədənin işləməyi arzu etməyəcəkdir. Deməli, sən bədənini sözə qulaq asmağa və sənə tabe olmağa zorla məcbur etməlisən, çünki öz bədənini sözə baxmağa vadar edə bilməyənlər başqalarının da bədənini özlərinə tabe edə bilməzlər. Elə ki, öz bədənini sənə tabe olmağa məcbur etdin, sonra sənət öyrənməklə hər iki dünyanın nemətinə sahib olarsan. Hər iki dünyanın neməti sənətdə, bütün sənətlərin açarı elm və tərbiyədədir. Xüsusilə, nəfsi tərbiyə etmək, təvazökarlıq, pəhrizkarlıq, düz danışmaq, təmiz adlı olmaq başqalarına əziyyət verməmək və həyalı olmaq çox yaxşıdır.

Hərçənd həyalılıq haqqında hədisdə deyilibdir ki: «Həya imandan doğur», lakin çox yerdə utanmaq insana ziyan vurur. Elə utancaq olma ki, utancaqlıq üzündən vəzifəndə ehmallıq edib, öz işlərinə zərər vurasan. Çox zaman elə yerlər olur ki, məqsədə çatmaq üçün həyasızlıq etmək lazım gəlir. Lakin həmişə yalan danışmaq, rüsvayçılıq etmək, sırtıq olmaq kimi hərəkətlərdən utan, düz danışmaq, yaxşı işlər görməkdən isə utanma. Çox adam ancaq utancaqlıq üzündən arzusuna çata bilmir.

Əgər utanmaq imandan doğursa, yazıqlıq da utancaqlıqdan doğur, ona görə utanmağın və utanmamağın hər ikisinin yerini bilmək lazımdır, məqsədə hansı uyğundursa, onu etmək lazımdır. Deyiblər ki: «yaxşının müqəddiməsi utancaqlıqsa, pisin də müqəddiməsi utancaqlıqdır».

Nadan adamı adam hesab etmə, əməlsiz alimi isə alim.

Elmsiz pəhrizkarı zahid bilmə, cahil adamla isə dostluq etmə. Xüsusilə, özlərini ağıllı hesab edən və öz avamlığı ilə lovğalanan axmaqlarla oturub durma. Müdrik adamlardan başqa heç kimlə ünsiyyət saxlama, çünki yaxşılarla ünsiyyət saxlayanın adı da yaxşıya çıxar. Görmürsənmi yağı küncüddən alırlar, lakin küncüd yağını bənövşə, ya qızılgüllə qarışdırdıqda və ya bir müddət onlarla bir yerdə saxladıqda, yaxşıların kəraməti sayəsində artıq ona küncüd yağı deyil, qızılgül yağı və ya bənövşə yağı deyirlər?!

Yaxşıların məsləhətlərini və onların yaxşı işlərini unudub naxələf çıxma, sən möhtac olan adama etdiyin yaxşılığı da başına vurma. Yaxşılığı başa vurmaq yaxşılıq etməmək kimi bir şeydir. Xoş xasiyyət və insanpərvər olmağı özünə peşə et, pis adətlərdən qaç və ziyankar olma, ziyankarlığın səmərəsi məhrumiyyət, məhrumiyyətin meyvəsi ehtiyac, ehtiyacın bəhrəsi alçalmaq olar. Cəhd et səni tərifləyən xalq olsun, mədh edən bir neçə cahil olmasın, çünki cahillərin mədh etdiyi, eşitdiyimə görə, alimlər içərisində pislənir.

H e k a y ə t. Deyirlər ki, bir gün Əflatun[1] şəhərin adlısanlı adamları ilə bir yerdə oturub, söhbət edirdi. Birisi onun görüşünə gəlib salam verdi, yanında oturub oradan-buradan danışdıqdan sonra dedi: Ey filosof, bu gün filankəsi gördüm, sənin barəndə danışır və tərifləyərək deyirdi: «Əflatun çox böyük filosofdur, indiyə qədər onun kimisi nə olub, nə də olacaqdır». İstədim onun tərifini sənə çatdıram.

Filosof Əflatun bu sözü eşitcək başını aşağı salıb ağladı, bərk qanı qaraldı, halı pozuldu. O kişi dedi: «Ey filosof, mən sənə nə ağır bir söz dedim ki, halın belə pozuldu?». Filosof

[1] *Əflatun – Qədim yunan filosofu (e.ə. 429-347-ci illər)*

Əflatun dedi: «Ey xacə, şəxsən sən mənə elə bir ağır söz demədin, lakin bundan daha ağır bir müsibət olarmı ki, nadanın biri məni tərifləsin, mənim gördüyüm iş ona xoş gəlsin. Bilsəydim nə nadanlıq etmişəm ki, onun təbiətinə yaxın olmuş, xoşuna gəlmiş və məni tərifləmişdir, tövbə edib o işdən əl çəkərdim. Halımın pozulması ondadır ki, mən hələ də nadanam, çünki nadanların tərifləmələri adamlar yalnız nadanlar olar».

Bu barədə bir hekayət də yadıma düşdü.

H e k a y ə t. Deyirlər ki, Məhəmməd Zəkəriyya ər-Razi[1] bir dəstə şagirdi ilə gəzərkən bir dəliyə rast gəldi. Dəli Zəkəriyyadan başqa heç kəsə baxmadı, onu diqqətlə nəzərdən keçirdikdən sonra üzünə güldü. Məhəmməd Zəkəriyya geri dönüb evinə gəldi, əmr etdi əftimun[2] dəmlədilər, onu içdi. Şagirdləri soruşdular? «Ay müəllim, bu otun dəmini nə üçün indi içdiniz». Dedi: «O dəli güldüyü üçün. Əgər o məndə öz halına oxşar bir şey görməsə idi, üzümə gülməzdi». Deyiblər: «hər quş öz tayı ilə uçar!»

Bundan əlavə, tündxasiyyət olub özündən tez çıxmağı adət etmə, bir az da helmin olsa yaxşıdır, lakin o qədər yumşaq olma ki, səni çox yumşaq və həlim olduğun üçün hop eləyib udsunlar, o qədər də sərt olma ki, sənə salam verməyə də qorxsunlar. Hamı ilə yola getməyi bacar, bu üsulla həm dostdan, həm də düşməndən istifadə edib, arzuna çata bilərsən. Heç kəsə pislik etməyə öyrətmə, pislik öyrətmək pislik etmək kimi bir şeydir. Əgər günahsız olaraq biri səni incitsə, sən çalış

---

[1] *Məhəmməd Zəkəriyya ər-Razi – İranın məşhur həkim və filosofu (240/854-55 – 320/932-33). Tibb elmindən əlavə onun fəlsəfə, ədəbiyyat, kimya, musiqi və başqa sahələrə aid çoxlu əsərləri vardır.*

[2] *Əftimun – Qədimdə dəliləri sağaltmaq üçün çay kimi dəmlənib içilən dərman. Dərman üçün işlənən ot, bitki adı.*

onu incitmə, çünki özgəni incitməmək insanlığın bir hissəsidir. Deyiblər ki, əsl insanlıq camaatı incitməməkdir. Deməli, insan olmaq istəyirsənsə, gərək adam incidən olmayasan, adamlarla yaxşı rəftar edəsən. Gərək insan aynaya baxsın, görünüşü yaxşıdırsa, işi də görünüşü kimi yaxşı olmalıdır, çünki gözələ çirkinlik yaraşmaz, buğdadan arpa, arpadan buğda bitməməlidir. Bu barədə mənim bir dübeytim də vardır:

**Şeir**

*Gözəlim, bizə hey pislik edirsən,*
*Neçin bəs yaxşılıq umursan bizdən?!*
*Get, əzizim, get ki, səhv eyləyirsən –*
*Arpa əkibsənsə, buğda biçməzsən!*

Aynaya baxdıqda özünü kifir görsən, yenə yaxşılıq et, çünki çirkinlik etsən, kifirliyi artırmış olarsan. Bu isə çox pis şeydir. Bir çirkinlik üstünə bir də çirkinlik gəlsən, bir yerdə iki çirkinlik olar.

Səmimi sözə qiymət verən, dünyagörmüş, sınaqdan çıxmış dostların nəsihətinə qulaq as və öz məşvərətçilərinlə həmişə təklikdə məsləhətləş, çünki sənin onlardan ala biləcəyin fayda yalnız təklikdə ola bilər. Sən mənim bu dediklərimi oxuyub öyrənə bilsən və əməl etsən, o zaman nə qədər qabil olduğunu dərk edərsən, lakin bunu anlayandan sonra öz bilik və istedadınla lovğalanma. Hər şeyi öyrənib bildiyin halda, özünü bilməyən hesab et, çünki sən yalnız o zaman alim hesab edilə bilərsən ki, hələ də özünün nadan olduğunu başa düşəsən. Bu barədə belə bir hekayət də vardır.

H e k a y ə t. Eşitmişəm, Xosrovun[1] hakimiyyəti və Büzürcmehrin[2] vəzirliyi dövründə Rumdan çox savadlı bir elçi gəlir. Xosrov o zamankı fars şahlarının adətinə görə taxta oturub elçini qəbul edir. Elçi öz etibarnaməsini təqdim etdikdən sonra şah da özünün Büzürcmehr kimi vəziri olduğunu göstərmək üçün etibarnaməni onun vasitəsilə alır və söhbət zamanı elçinin yanında Büzürcmehrə deyir: «Filankəs, dünyada nə varsa, hamısını sən bilirsən…» və istəyir o desin: «Bəli, bilirəm», lakin Büzürcmehr deyir: «Xeyr, hökmdarım, bilmirəm». Xosrov pərt olur, elçidən utanır və soruşur: «Bəs hər şeyi bilən kimdir?» Büzürcmehr deyir: «Hər şeyi hamı birlikdə bilir, hamı isə hələ anadan olmamışdır».

Ey oğul, sən özünü hamıdan bilikli hesab etmə, elə ki, özünü bilməyən hesab etdin, bilən olarsan, əsl bilən ona deyərlər ki, bilmədiyin bilə.

Sokrat bütün böyüklüyünə baxmayaraq, demişdir: «Mən özümdən sonra gələcək böyük və ağıllı adamların mənə tənə vuracaqlarından və «Sokrat birdəfəlik dünyanın bütün biliklərini öyrənmək iddiasında olmuşdur» – deyəcəklərindən qorxmasaydım, mütləq deyərdim ki, mən heç nə bilmirəm və öyrənməyə də acizəm, lakin bunu deyə bilmirəm, çünki bu mənim tərəfimdən çox böyük iddia olardı». Əbu Şükür Bəlxi[3]

---

[1] *Xosrov – I Xosrov Ənuşirəvan nəzərdə tutulur.*

[2] *Büzürcmehr – Əslində farsca Bozorgmehr. Ənuşirəvanın əfsanəvi, ağıllı və dərin fərasətli vəziri. Ərəb dilində «g» səsi və hərfi olmadığından onu «c» ilə əvəz etmişlər, Bozorgmehr əvəzinə Büzürcmehr alınmışdır. Deyildiyinə görə, o, «Kəlilə və Dimnə»yə bir fəsil də əlavə etmişdir (Təbib Bərzuye fəsli).*

[3] *Əbu Şükür Bəlxi – X əsrin görkəmli şairlərindəndir. Özünün qısa, hikmətli, dərin mənalı şeirləri ilə şöhrət qazanmışdır. Əbu-Şükürün divanı hələlik tapılmamışdır, lakin S.Nəfisi onun «Afərinnamə»sindən 192 beytə qədər toplaya bilmişdir. 303/915-16-cı illərdə anadan olmuş, 336/948-49-cu illərdə «Afərinnamə»sini yazmışdır.*

bir beytdə özünün çox böyük alim olduğunu tərifləyir, o beyt budur:

**B e y t**

*O yerə çatmışdır indi elmim ki,*
*Anlayıb bilmişəm hələ nadanam.*

Ey oğul, nə qədər böyük alim olsan da, öz biliyinlə qürrələnmə, öhdəsindən gələ biləcəyin işlərdə də öz rəyin haqqında böyük fikirdə olma, özləri haqqında böyük fikirdə olanlar həmişə peşmançılıq çəkərlər. Başqaları ilə məsləhətləşməyi özünə əskiklik hesab etmə, ağıllı qocalar və sınanmış dostlarla məsləhətləş. Bütün hikmət və peyğəmbərliyinə, müəlliminin və işlərini sahmana salanın allah-taalanın özü olmasına baxmayaraq, allah yenə də Məhəmmədə bununla kifayətlənməyə razılıq verməmiş və: «işlərində onlarla məsləhət et» demişdir. Demiş ki: «ya Məhəmməd, öz əshabə və dostlarınla məsləhət et, çünki sizdən hərəkət, allah olduğum üçün isə, məndən bərəkətdir».

Bilməlisən ki, bir adamın rəyi iki adamınkı kimi ola bilməz, bir göz iki gözün gördüyünü görə bilməz, görmürsənmi təbib xəstələndikdə və xəstəliyi şiddətləndikdə, nə qədər hazır həkim olur-olsun, yenə də özü ilə kifayətlənməyib, başqa bir həkimi çağırar, onun məsləhəti ilə müalicə olunar.

Yaxın bir adamın sənə işi düşsə, ona kömək etməyə çalış, rəqib və düşmənin olsa belə, yardım əlini və malını ondan müzayiqə etmə. İşi düzəlsə, etdiyin kömək onun sənə qarşı məhəbbətini artırar və ola bilər ki, o düşmən dönüb dost olsun. Görüşünə gələn söz ustadlarına hörmət edib, onlara bəxşiş ver ki, sənin görüşünə həris olsunlar (yəni tez-tez gəlsinlər).

Adamların ən yazığı odur ki, alim olsa da, heç kəs onun görüşünə getməsin.

Camaat ilə mehriban danış və qaşqabağını turşutma. Qaşqabaqlı adam yaxşı sayılmaz. Adam nə qədər hikmət sahibi olsa belə, qaşqabağını tökdükdə onun nə hikmətində hikmətlik qalar, nə sözündə gözəllik. Xülasə, bil ki, danışmağın qaydası necədir və nədir.

## ONUNCU FƏSİL

## ÖZÜNÜ İDARƏ ETMƏK VƏ YEMƏK QAYDALARI HAQQINDA

Ey oğul, bil ki, adi adamların işlərində müəyyən bir qayda-qanun, nizam-intizam olmaz, onlar bir şeyin vaxtı olub olmadığına fikir verməzlər. Ağıllı və böyük adamlarda isə hər işin öz vaxtı olar, gecə gündüzün iyirmi dörd saatını öz işləri arasında bölərlər. İşlər bir-birinə qarışmasın deyə, onların hərəsinə müəyyən vaxt və hədd-hüdud qoyarlar. Onların xidmətçiləri də bilər ki, nə vaxt nə ilə məşğul olmaq lazımdır ki, işlər öz qaydasında getsin. Hər şeydən əvvəl yemək haqqında.

Bil ki, bazar adamlarının adəti gecə çox yeməkdir və onun böyük ziyanı vardır, həmişə mədələri qıcqırır. Hərbi adamların peşəsi elədir ki, onlar vaxta baxmazlar, harada və nə vaxt tapsalar, orada da yeyərlər, bu isə heyvan adətidir, çünki harada ələf tapsalar, orada da yeyərlər. Böyük və əsilnəsəbli adamlar isə gecə-gündüzdə bir dəfə yeyərlər. Bu özünü saxlamaq (pəhriz) qaydasıdır, lakin bu, adamı zəiflədib qüvvətdən salar. Deməli, elə etmək lazımdır ki, böyük və hör-

mətli adam səhər tezdən xəlvətdə bir şey yeyib, sonra dişarı çıxsın və günorta namazına qədər öz işləri ilə məşğul olsun.

Yemək vaxtı çatdıqda kim sənlə bir yerdə çörək yeyəcəksə, de, onları çağırsınlar ki, gəlib sənlə birlikdə yesinlər. Lakin yeyərkən tələsmə, təmkinlə ye və süfrə başında, şəriətdə deyildiyi kimi, adamlara hədis danış, lakin başını aşağı sal, camaatın tikəsinə baxma.

H e k a y ə t. Eşitmişəm, deyirlər ki, bir dəfə Sahib Əbbad[1] öz nədimləri və yaxın adamları ilə birlikdə çörək yeyirmiş. Oradakılardan biri kasadan bir tikə götürür. Onda tük var imiş. Sahib görüb deyir: «Tükü tikəndən götür». O adam tikəsini yerə qoyur, durub gedir. Sahib əmr edir, onu geri qaytarırlar. Sahib soruşur: «Filankəs, nə üçün çörəyi yeməmiş süfrədən qalxdın?» O adam deyir: «Tükü tikəmdə seçən bir adamın çörəyini yeməyi özümə layiq bilmədim». Sahib o sözdən bərk utanır.

Lakin həmişə özünə fikir ver, bir az gözlə, sonra əmr et xörək gətirsinlər. Böyük adamlarda iki adət vardır: bəziləri əvvəlcə özünün, sonra isə başqalarının kasalarının verilməsini əmr edir, bəziləri isə əksinə, əvvəlcə başqalarının, sonra isə öz kasasının verilməsini buyurar. Bu kəramət, o isə siyasət üsuludur.

Əmr et müxtəlif xörəklər hazırlasınlar, həm turşu olsun, həm şirini. Elə et ki, çox yeməyə adət etmişlər də, az yeyənlər də sənin süfrəndən tox qalxsınlar. Əgər sənin qarşında yemək olsa, başqasının qabağında olmasa, öz qarşında olan yeməyi ona göndər. Süfrə başında üzünü turşutma, qaşqabaqlı oturma,

---

[1] *Sahib Əbül-Qasım İsmail ibn Əbbad – İranın məşhur ədiblərindəndir. Albuyə şahlarından Müəyyədüddövlənin və Fəxrədüddövlənin vəziri olmuşdur.*

xörək hazırlayıb mizi sahmana salanlarla dalaşma, demə ki, «nə üçün filan xörək yaxşıdır, filan yemək pis». Belə sözləri başqa zaman, sonra da demək olar.

İndi ki, çörək yemək şərtlərini bildin, şərab içmək üsulunu da bil, çünki onu da nizama salmaq üçün xüsusi qayda-qanun vardır.

## ON YEDDİNCİ FƏSİL

## YUXU VƏ İSTİRAHƏT HAQQINDA

Ey oğul, bil və agah ol ki, Rum alimlərində[1] belə bir adət vardır, onlar hamamdan çıxdıqdan sonra hamamın soyunacaq otağında bir az yatmayınca dişarı çıxmazlar. Belə bir adət başqa heç bir xalqda yoxdur. Müdrik adamlar yuxunu kiçik ölüm adlandırmışlar, çünki istər yatmış olsun, istər ölmüş, heç birinin bu dünyadan xəbəri olmur, fərq ondadır ki, biri nəfəsli ölüdür, biri nəfəssiz. Çox yatmaq tərifləməsi adət deyildir: bədəni süstləşdirər, xasiyyəti yerindən oynadar, insanın sifətini təbii halından çıxarıb, qeyri-təbii hala çalar. Beş şey insana üz verdikdə dərhal onun simasını dəyişdirər: biri gözlənilməz şadlıq, biri qəflətən baş vermiş bədbəxtlik, biri qəzəb, biri yuxu, biri sərxoşluqdur. Altıncısı qocalıqdır, insan qocaldıqda onun siması dəyişilər, amma bu başqa növ dəyişmədir.

Lakin insan yuxuda olarkən nə diri hesab edilə bilər, nə ölü. Ölüyə irad tutmaq mümkün olmadığı kimi, yatmışa da irad tutmaq olmaz. Mən demişəm:

---

[1] *Rum alimləri – Yunan alimləri nəzərdə tutulur.*

**Rübai**

*Hərçənd cəfa edib bükdün belimi,*
*Lakin mən üzmərəm səndən əlimi.*
*Yatmısan, yatanı danlamaq olmaz,*
*İnciyib atmaram mən gözəlimi.*

Çox yatmaq ziyan olduğu kimi, az yatmağın da zərəri vardır. Əgər bir adam yetmiş saat qəsdən yatmasa və ya zorla onu oyaq saxlasalar, ölüm təhlükəsi qarşısında qalmış olar.

Lakin hər işin öz əndazəsi vardır. Alimlər deyiblər ki, gecə-gündüz iyirmi dörd saatdır. Bunun iki hissəsini oyaq olub, bir hissəsini yatmaq lazımdır, bunlardan səkkiz saatını allaha ibadətə və təsərrüfata, səkkiz saatını kef, əyləncə və ruhi ləzzətə, səkkiz saatını isə istirahətə sərf etmək lazımdır ki, on altı saat içərisində yorulmuş bədənin üzvləri rahatlanıb dincələ bilsin. Cahil adamlar bu iyirmi dörd saatın yarısını yatıb, yarısını oyaq qalarlar, tənbəllər iki hissəsini yuxlayıb bir hissəsini məşğul olarlar, ağıllılar isə bir hissəsini istirahət edər, iki hissəsini ayıq olarlar.

Dediyimiz kimi, hər səkkiz saatı başqa cürə keçirmək lazımdır. Bilməlisən ki, haqq-taala gecəni yatmaq üçün, bəndələrin dincəlməsi üçün yaratmışdır. Necə ki, demişdir: «Biz gecəni örtük yaratdıq»[1]. Bu həqiqəti də bil ki, bütün canlılar bədən və candan ibarətdir. Bədən məskəndir, can isə onun sakini. Canın üç xüsusiyyəti vardır: yaşamaq, yüngüllük və hərəkət; bədənin də üç xüsusiyyəti vardır: ölmək, ətalət və ağırlıq. Canla bədən bir yerdə olduqca can öz xüsusiyyətləri ilə bədəni idarə edər, həm işlədər, həm yaşadar, bəzən isə bə-

[1] *Quran ayəsi*

dənin öz xüsusiyyətləri onu işdən qoyar, qəflətə sövq edər. Bədən öz xüsusiyyətini büruzə verdikdə ölüm, ağırlıq, ətalət, yatmağa meyl göstərərlər, yatmaq evin dağılmasına oxşar, ev dağılanda nə varsa, hamısı aşağı töküldüyü kimi, bədən də yatanda insanın bütün ruhunu əhatə etmiş olar, nə qulaq eşidər, nə göz görər, nə burun qoxu bilər, nə damaq ləzzət anlar, nə toxunmaq üzvü ağırlıq, yüngüllük, bərklik və yumşaqlıq hiss edər, nə də dil nitqə gəlib bir şey deyə bilər, hər nə öz yerindədirsə, hamısını əhatə etmiş olar. Hafizə və fikir öz məkanlarından xaricdə olduqlarından onlara təsir edə bilməz. Görmürsənmi, bədən yatdıqdan sonra fikir müxtəlif yuxular görür, hafizə isə onu yadında saxlayır və insan ayıldıqdan sonra nağıl edir ki: «elə görmüşəm, belə görmüşəm». Əgər bunlar da öz yerlərində olsaydılar, onları da əhatə edərdi, beləliklə, nə fikir bir şey deyə bilərdi, nə hafizə bir şey yadda saxlaya bilərdi.

Əgər nitq və yazı da öz yerində olsaydı, o zaman bədən yata bilməzdi, yata bilib danışa bilsəydi, o halda yuxu və istirahət özü ola bilməzdi, çünki bütün canlıların istirahəti yuxudadır. Deməli, haqq-taala heç bir şeyi hikmətsiz yaratmamışdır. Gündüz zorla da olsa, özünü yatmaqdan xilas et, bacarmasan, az yatmağa çalış, gecəni gündüzə çevirmək ağıllı iş deyil. Lakin böyük və dövlətli adamlarda belə adət vardır, onlar yayda günorta vaxtı dincəlməyə gedərlər, ola bilər yatsınlar, ola bilər yox. Lakin dincəlməyin əsl yolu budur ki, adət olduğu üzrə bir saat istirahət edəsən. Bu mümkün deyilsə, vaxtın xoş keçdiyi bir adamla xəlvətə çəkilmək lazımdır ki, günəş keçsin, hərarətin kəsəri azalsın. Sonra dişarı çıxmaq olar. Ümumiyyətlə, çalışmaq lazımdır ki, ömrün çoxu ayıqlıqda keçsin, onsuz da çox yatmaq lazım gələcəkdir.

Lakin istər gecə, istərsə də gündüz yatmaq istərkən, tək yatma, elə adamla yat ki, o sənin ruhunu oxşamış olsun, çünki ölmüş və yatmış müəyyən mənada eyni deməkdir: nə bunun, nə də onun dünyadan xəbəri olmur, biri diri yatır, biri ölü. Bu iki yatmış arasındakı fərq ondan ibarətdir ki, biri çarəsizlik və məcburiyyət üzündən tək yatır, o birisi isə məcburiyyət olmadığından. Nə üçün bu məcburiyyət olmadığı halda o birisi kimi tək yatsın?! Elə buna görədir ki, bu dünyada sənlə yatan adam ruhunu oxşamalıdır, o biri dünyada isə kimin sənlə yatacağının əhəmiyyəti yoxdur. Belə olduqda diri və ölü yatmağın fərqi aşkar olar.

Səhər tezdən durmağı adət etmək lazımdır. Elə etmək lazımdır ki, gün çıxmamışdan qabaq durasan və allahın borcunu vermiş olasan. Gün çıxandan sonra duran adamın ruzisi az olar. Səhər bir işin olmasa ova və ya gəzməyə gedə bilərsən, həm şikar ovlarsan, həm kef çəkərsən. Allah qoysa edərsən.

## ON DOQQUZUNCU FƏSİL

## ÇÖVKAN OYUNU HAQQINDA

Ey oğul, bil, əgər çövkan oynamaqdan həzz alsan, çox oynamağı özünə adət etmə, çox adamlar çövkan oynamaqdan zərər görüblər.

H e k a y ə t. Belə deyirlər ki, Əmr Leysin[1] bir gözü kor imiş. Xorasan əmiri olduqdan sonra bir dəfə çövkan oynamaq üçün meydana gedir. Onun Əzhər Xər[2] adlı bir sərkərdəsi var

[1] *Əmr Leys – Səffarilər sülaləsinin ikinci hökmdarı, 265/879 – 287/900-cü illərdə hakimiyyət başında olmuşdur.*

[2] *Əzhər Xər – Əmr Leysin baş sərkərdələrindən biri.*

imiş, gəlib onun atının cilovundan tutur və deyir: «Qoymaram səni top vurub çövkan oynayasan». Əmr Leys deyir: «Necə olur ki, siz top vurmağı özünüzə rəva görürsünüz, çövkan oynamağı mənə rəva görmürsünüz?». Əzhər cavabında deyir: «Ona görə ki, bizim iki gözümüz vardır, əgər top gözümüzə dəysə, bir gözümüz kor olar, bir gözümüz qalar və bununla işıqlı dünyanı görə bilərik, sənin isə bir gözün vardır, bədbəxtlikdən əgər top o gözünü də çıxartsa, gərək Xorasan əmirliyinin fatihəsi oxunsun». Əmr Leys deyir: «Bütün eşşəkliyinə baxmayaraq düz deyirsən, söz verirəm ki, nə qədər sağam topa əl vurmayam».

Əgər ildə iki dəfə çövkan oynamağa həvəs göstərsən, razı qalaram. Lakin at üstündə çox oynamaq lazım deyildir, qorxusu var. Top vurmaq üçün süvarilərin sayı səkkizdən artıq olmamalıdır. Sən meydanın bu başında dur, bir nəfər də o başda dursun, altı nəfər isə ortada top vursun. Top sənin tərəfinə gələrsə, onu vurub geri qaytar və atı da o qədər çap, lakin qarmaqarışıqlığa soxulma ki, həm sədəmədən özünü qoruyasan, həm məqsədə çatmış olasan. Böyük adamların çövkan oynamaq qaydaları bundan ibarətdir, kömək isə allahdandır.

## İYİRMİNCİ FƏSİL

## DÖYÜŞ HAQQINDA

Ey oğul, döyüş meydanında olsan, orada yavaş tərpənib süstlük göstərmək yaramaz. Düşmən sənə üstün gəlib axşam xörəyi yeməmişdən əvvəl, sən ona qələbə çalıb səhər çayını iç. Döyüşün ortasına düşmüş olsan, özünü itirib canından qorx-

ma, gorda yatmalı olan adam heç bir vəchlə evdə yata bilməyəcəkdir, necə ki, təbəri dilində mən demişəm:

**R ü b a i**

*Heç qorxusu yoxdur düşmən olsa şir,*
*Bilmərəm dünyada mən qorxu nədir*
*Nə gözəl demişdir o ağıllı pir:*
*«Öləsi adama ev olar qəbir!».*

Həmin mənanı farsca da deyirəm ki, hamıya məlum olsun:

*Açıq ya da gizli şir olsa düşmən,*
*Şirə sən şəmşirlə cavab ver həmən.*
*Gorda tək yatmağa məhkum olsan sən*
*Evdə nigarınla yata bilməzsən!*

Döyüşdə bir addım irəli getmək mümkünsə, bir qədəm geri qoyma. Düşmən tərəfindən mühasirəyə alınsan, vuruşu dayandırma, çünki yalnız vuruşla düşməni ram etmək olar. Onlar sənin igidliyini gördükdə qorxuya düşərlər. Belə yerdə ölümü özün üçün xoşbəxtlik hesab et. Heç vaxt qorxma, ürəkli ol. Qoçaqların əlində qısa qılınclar uzun görünər. Vuruşda ehmallıq yaramaz, balaca qorxaqlıq və ya süstlük oldumu, min canın olsun, birini də salamat apara bilməzsən. Ən alçaq adam sənə üstün gələr. Beləliklə, öldürülsən rüsvayçılıq olar, bədnamlıqda şöhrət taparsan. Qəhrəmanlıqda məşhur olsan, səndən bir səliqəsizlik baş versə də ziyan çəkməzsən, tay-tuşların içində başıaşağı olmazsan. Lakin şöhrət və dövlət olmadıqda, adamın öz tay-tuşları arasında hörməti də olmur. Belə yaşayış-

dan isə ölüm üstündür. Yaxşı adla ölmək pis adla yaşamaqdan yaxşıdır.

**B e y t**

*Xoşdur yaxşı adla əgər ölsəm mən,*
*Mənə ad qalacaq, öləcək bədən.*

Lakin nahaq qan tökməyə həvəskar olma, heç bir insanın qanını halal hesab etmə. Öldürsən yolkəsənləri, oğruları, gorqazanları, yolazanları öldür. Nahaq qan hər iki dünyanın bəla qapılarını sənin üzünə açmış olar. Qiyamətdə cəzasını alarsan, bu dünyada pis ad qazanarsan. Gücsüzlər sənə etibar etməz. Xidmətçilərin ümidi qırılar. Xalq sənə nifrət edər. Camaat ürəklərində sənə kin bəslər. O dünyada bütün əzab-işgəncələr nahaq qan üstündə verilər. Lakin mən kitablarda oxumuşam, təcrübədən də görmüşəm ki, nahaq qanın cəzasını elə bu dünyada da çəkərlər. Əgər adamın öz taleyi uğurlu olsa, bəla onun övladına yetişər. Buna görə, allah, allah, özünə və balalarına yazığın gəlsin, nahaq qan tökmə. Lakin sərfəli olan haqq qanın axıdılmasında da kahıllıq göstərmə, işlərinə ziyan dəyər. Məsələn, mənim babam Şəmsülməali haqqında nağıl edirlər ki, o çox qəddar adam imiş və heç kəsi bağışlamazmış. Çox pis adam imiş, pisliyindən qoşun ondan nifrət edirmiş. Onlar mənim əmim Fələkülməali ilə əlbir olurlar, o, məcburiyyət üzündən gəlib öz atasını həbs edir, çünki ordu ona demişdi: «Sən bu işdə bizimlə bir olmasan, biz bu şahlığı özgələrinə verəcəyik». Şahlığın öz xanədanının əlindən çıxacağını gördükdə, zərurət üzündən, şahlıq xatirinə bu işi elədi. Babamı tutub əl-qolunu bağladılar, kəcavəyə mindirdilər, inanılmış adamlardan ibarət keşikçi qoydular və Cənaşk qalasına

göndərdilər. Onu yola salanlar içərisində Abdullah adlı bir adam var idi. Yolda Şəmsülməali həmin adama deyir: «Ya Abdullah, bu işin kim tərəfindən edildiyini, bu tədbirin necə həyata keçirildiyini bilirsənmi? Necə oldu ki, belə böyük bir iş görüldü, mən isə xəbər tutmadım?» Abdullah deyir ki, bunu filankəslər və filankəslər etmişdir. Beş sipəhsaların adını çəkir, deyir: «Bu işi onlar etmiş, ordunu onlar yoldan çıxarmışlar, bu işdə mənim də əlim olmuşdur. Lakin sən bu işi məndən görmə, özündən gör, çünki bunun səbəbi ordunun üz döndərməsi deyil, sənin çoxlu adam öldürməyindir». Şəmsülməali deyir: «Səhvin var, bu iş mənim başıma adamları öldürmədiyim üçün gəlmişdir. Əgər iş ağıllı qurulsaydı, gərək sənin və o beş nəfərin də qanı axıdılmış olaydı. Belə etmiş olsaydım, həm işlərim sahman olardı, həm özüm salamat qalardım».

Bunu deyirəm, biləsən ki, görüləsi zəruri olan işlərdə ehmallıq etməyəsən, məcburi olanlarda süstlük göstərməyəsən. Bir də ki, adam axtalatmağı özünə adət etmə, bu, qan tökməyə bərabər bir şeydir. Öz şəhvətin xatirinə bir nəslin kökünü kəsirsən, bundan daha ağır zülm ola bilməz. Sənə xədim lazımsa, xədim edilmiş tap ki, onun günahı başqasının boynunda olsun, sən bu günaha batmış olmayasan.

Döyüş məsələsinə gəldikdə isə, dediyim kimi ol, canının hayına qalma, nə qədər ki, bədənini itlərə yem etməmisən, adını şirlər adına qoşa bilməzsən. Bil ki, bir gün doğulan, bir gün də öləcəkdir.

Canlılar üç növdür: danışan canlılar, danışıb ölənlər, canlı ölülər, yəni: mələklər, insanlar, quşlar və heyvanlar. Pəhləvi dilində bir pars kitabında oxumuşam: Zərdüştdən soruşurlar ki, «canlılar neçə növdür?» O da belə cavab verib deyir: «Danışan canlılar, danışan və ölən canlılar, ölən canlılar».

Demək, məlum olur ki, bütün canlılar ölür və heç kəs öz əcəlindən əvvəl getmir. Ona görə də döyüşdə inamla vuruşub səy göstərmək lazımdır ki, həm çörəyə çatasan, həm şöhrət tapasan.

Qayıdıram əvvəlki sözə: bil ki, çörək və adı bu dünyada qazanarlar. Elə ki, qazandın, çalış mal-dövlət topla, topladığını yaxşı saxla və yerində xərclə.

## İYİRMİ DÖRDÜNCÜ FƏSİL

## EV VƏ TORPAQ ALMAQ HAQQINDA

Ey oğul, bil və agah ol ki, əgər ev, kənd, torpaq, ümumiyyətlə, alınıb satıla bilən hər nə alırsansa, qanuna riayət et. Hər nə alırsan bolluqda al, hər nə satırsan qıtlıqda sat, qazanmağa çalış və bundan utanma. Deyiblər ki, almaq istəyərkən, əldən iti ol, çənə döyməyi unutma, çənə döyüb ucuz almaq qazancın yarısıdır. Lakin hər nə alsan, onun xeyir və ziyanını bilib almaq lazımdır. Müflis olmaq istəmirsənsə, qazanmamış xərcləmə. Mayana ziyan vurmaq istəmirsənsə, axırı zərər olan mənfəətdən qaç. Çox varlı olub, yoxsulluq istəmirsənsə, paxıl və həris olma. Hər işdə səbirli ol, səbirli olmaq ağıllı olmağa bərabərdir. Bütün işlərdə öz xeyrinə laqeyd olma, çünki laqeydlik axmaqlığa bərabərdir.

İşin dolaşsa və məşğələ qapıları üzünə bağlansa, özünü itirmə, səriştəli ol, işlər öz qaydasına düşənə qədər səbir et. Tələsməklə heç bir iş düzəlməz.

Almaq məsələsinə gəldikdə, ev almaq istəyirsənsə, elə küçədə al ki, adamları etibarlı olsun. Şəhər kənarında alma, divar altından olanını alma, ucuzluq xatirinə dağılmış alma, hər

şeydən əvvəl qonşusuna bax. Deyiblər: «Əvvəl qonşu, sonra ev».

Müdrik Büzürcmehr demişdir: «Dörd şey böyük bəladır: birinci – pis qonşu, ikinci – böyük ailə, üçüncü – nacins arvad, dördüncü – ehtiyac».

Heç vaxt qonşusu ələvi[1] olan ev alma, alimlərin və dövlət xadimlərinin də evini alma. Çalış elə küçədə ev al ki, orada hamıdan dövlətli sən olasan. Lakin etibarlı qonşu seç. Elə ki, ev aldın, qonşuna hörmət et, onun haqqını tapdalama, belə deyiblər: «Qonşunun haqqı daha böyükdür».

Küçənin və məhəllənin adamları ilə mehriban dolan, xəstələrinin kefini soruş, təziyə yerlərinə get, cənazələrini basdırmaqda iştirak et, ümumiyyətlə, qonşuya bütün işlərində kömək et, şadlıqları ilə şadlan, öz imkanına görə pay göndər, hədiyyə ver. Beləliklə, sən küçənin ən hörmətli adamı olarsan.

Küçə və məhəllənizin uşaqlarını xoş dindir, başlarını sığalla, qocalarının kefini soruşub hörmətlərini saxla. Sən xalqla necə rəftar etsən, o da sənin elə rəftar edər. Onu da bil ki, yaxşıdan, pisdən insanın başına nə gəlirsə, öz əməlindən gəlir. Ona görə edilməyə layiq olmayanı etmə, deyilməyə layiq olmayanı demə, edilməyə layiq olmayanı edənlər görməyə layiq olmayan günlər görərlər.

Bacardıqca yurdunu böyük şəhərlərdə sal, elə şəhərdə sal ki, sənin üçün ən əlverişli olsun. Elə ev al ki, sənin evinin divarları başqalarınınkından uca olsun, camaatın gözü sənin evinə düşməsin, lakin sən də qonşuların evinə baxmaqla onları narahat etmə.

---

[1] *Ələvi – Əli nəslindən olan*

Torpaq alsan, qonşusu və quyusu olmayan torpaq alma! Nə alsan, bolluq ilində al, şəriksiz və şübhəsi olmayan torpaq tapsan, şərikli və şübhəli torpaq alma, torpağın xətərsiz bir dövlət olduğunu bil. Torpaq alanda həmişə onun abad olmasına çalış, hər gün yeni-yeni tikintilər sal ki, hərəsindən bir xeyir götürəsən. Əlbəttə, torpaq və imarətin abadlığı üçün kahıllıq etmə, yalnız abadlıq gəliri artırar. Gəlir istəmirsənsə, onda bütün çölləri və səhraları öz torpağın hesab edə bilərsən, gəlir isə yalnız abadlıq nəticəsində əldə edilə bilər.

## İYİRMİ SƏKKİZİNCİ FƏSİL

## DOST SEÇMƏK VƏ ONUN QAYDALARI HAQQINDA

Ey oğul, bil, insan nə qədər sağdır, onun dosta ehtiyacı vardır. Qardaşı olmayan adam dostu olmayandan yaxşıdır. Bir alimdən soruşurlar: «Dost yaxşıdır, yoxsa qardaş?» Deyir: «Qardaş da dost olsa yaxşıdır».

**B e y t**

*Dost olsa qardaşım, qardaş yaxşıdır,*
*Düşmən olsa, qara bir daş yaxşıdır.*

Deməli, dostlar haqqında fikirləşirsənsə, onlara bəxşiş, hədiyyə göndər, mərdlik göstər, çünki dost hayına qalmayanın dostları da hayına qalmaz. Belə adamlar həmişə dostsuz qalar. Deyirlər ki, guya dost adamı qohumdan uzaqlaşdırar. İnanma.

Tez-tez dost dəyişdirməyi adət etmə, dostu çox olanın eyibləri örtülər, ləyaqətləri meydana çıxar. Lakin təzə dost tapdıqda köhnəsinə arxa çevirmə. Yenisi ilə dost ol, köhnəsi də

qoy yerində qalsın, beləliklə dostların sayı çoxalsın. Deyiblər ki: «Yaxşı dost böyük xəzinədir». Bir də sənində dostlaşmaq istəyən, lakin hələlik yarımdost olan adamlar haqqında da fikirləş, onlara yaxşılıq et, qayğı göstər, xeyir-şərdə onlara kömək et. Səndə mərdlik gördükdə, dönüb sadiq dostun olarlar.

İskəndərdən soruşurlar: «Az müddətdə bu qədər böyük bir dövləti hansı xasiyyətinlə ələ gətirdin? Deyir: «Düşmənlərə lütf etmək, dostlara kəramət göstərməklə».

Bir də dostlarının dostları haqqında fikirləş, onlar da dostlar cərgəsində hesab edilərlər. Lakin düşmənlə dostluq edəndən ehtiyatlı ol, ola bilər onunla dostluğu sənindən möhkəm olsun və düşmənindən əvvəl sənə zərər yetirsin.

**B e y t**

*Qardaşım, əlini üz o dostundan*
*Ki, düşmənlə durub otura hər an.*

Dostunla düşmənlik edənlərdən də özünü qoru. Heç bir səbəb və əsas olmadan səndən şikayətlənən dostlardan dostluq gözləmə.

Dünyada eyibsiz adam ola bilməz, lakin sən mərd ol, mərd adamda nöqsan olmaz. Namərdlə dostluq etmə, namərd dostdan xeyir gəlməz. Badə dostlarını dost hesab etmə, çünki onlar qədəhi dost tutarlar, səni yox. Dostun yaxşısı da olar, pisi də, hər iki dəstə ilə dostluq et, yaxşıları ilə ürəkdən dostluq et, pisləri ilə dildə dost ol. Beləliklə, hər iki tərəfin dostluğu təmin edilmiş olar. Həmişə ehtiyac yaxşı dostlara düşməz, elə vaxt gələ bilər ki, pis dostlara da adamın işi düşə bilər. Hərçənd yaxşıların yanına getmək pislərin yanında hörmətini azaltdığı

kimi, pislərin də yanına getmək yaxşıların yanında hörmətini azaldar, lakin sən yaxşıların yolu ilə get ki, hər iki dəstənin dostluğu sənə nəsib olsun. Amma heç vaxt axmaq adamlarla dostluq etmə, çünki axmaq dost öz dostluğu ilə elə şeylər edər ki, yüz ağıllı öz düşmənliyi ilə onu edə bilməz.

Yalnız yaxşı və istedadlı adamlarla dostluq et ki, sən də dostlarının şöhrət tapdığı istedadlarla hörmət qazanıb tərifləyənəsən. Tək olmaq pislə oturmaqdan yaxşıdır. Bu barədə mən iki beyt də demişəm.

**Ş e i r**

*Ey könül, vəhşitək çölə qaçırsan,*
*Nə dərd anladırsan, nə söz qanırsan.*
*Demək, pis həmdəmsən, yaxşı ki, getdin,*
*Tənhalıq yaxşıdır, məncə, pis dostdan.*

Danlanmaq istəmirsənsə, dostların və adamların haqqını tapdalama. Deyiblər ki, iki cür adam məzəmmət edilməyə layiqdir: biri dostların haqqını tapdalayanlar, ikincisi, yaxşı işə qiymət qoymayanlar. Bil ki, insanların dostluğa yarayıb-yaramadığını iki şeylə müəyyən etmək olar: birincisi odur ki, dostu dara düşə, o, imkan daxilində heç bir şeyi dostundan müzayiqə etməyə və ağır gündə ondan üz döndərməyə; ikincisi, əgər dostu vəfat etsə, onun övladını və qohumlarını yanına çağırıb onlara yaxşılıq edə, hər dəfə dostunun qəbrinin ziyarətinə getdikdə həsrətini bildirə, doğrudur, bu dostun özü deyil, lakin onun ki, qəbridir.

H e k a y ə t. Belə danışırlar ki, Sokratı öldürməyə apararkən, bütpərəstliyi qəbul etməsini təkid edirlər. Deyir: «Allah eləməsin ki, yaradandan başqa birinə sitayiş edəm».

Onu edama aparırlar. Adətin tələb etdiyi kimi tələbələrindən bir dəstə onun yanınca gedir və ah-fəğan edirlər. Sonra ondan soruşurlar: «Ey filosof, indi ki, ölümə razı olubsan, de görək, səni harada dəfn edək?» Sokrat təbəssüm edib deyir: «Əgər məni yenidən tapa bilsəniz, harda istəyirsiniz, dəfn ediniz», yəni «tapdığınız mən olmayacağam, mənim qəlbim olacaqdır».

Adamlarla orta dost ol, dostlarının çoxluğuna bel bağlama, əsl dost özünü hesab et, dalına və qabağına diqqətlə bax, dostlarının etibarlılığına ümid edib arxayınlaşma, min dostun olsa belə, heç kəs sənə özündən artıq dost ola bilməz. Dostu xoş və bəd gündə yoxla, xoş gündə hörmətinə, bəd gündə isə köməyinə görə. Düşmənini düşmən hesab etməyəni dost bilmə, elə adam tanış adlanar, dost sayılmaz.

Dostlarınla narazılıq vaxtlarda da xoş vaxtlardakı kimi rəftar et. O adamı dost hesab et ki, bilirsən o da səni dost hesab edir.

Dosta dostluq xatirinə elə şey öyrətmə ki, bir vaxt düşmən olsa, onun vasitəsi ilə sənə ziyan yetirə bilsin, sonrakı peşmanlıq fayda verməz.

Yoxsul olsan, dövlətli dost axtarma, çünki yoxsulu heç kəs sevməz, xüsusilə, dövlətlilər. Dostu özünə bab seç, varlı olsan, dövlətli dost seçə bilərsən. Lakin dostluqda möhkəm ol, onda sənin də işlərin möhkəm olar. Axmaq bir şey üstdə dost səndən üz döndərirsə, onu geri qaytarmağa çalışma, deməli ləyaqəti yoxdur.

Tamahkar dostdan qaç, onun dostluğu tamah üzündən olar, həqiqi dostluq olmaz. Kinli adamlarla dostluq etmə, kinli adam dostluğa layiq deyildir, ürəyi həmişə kinlə dolu olan adamın qəlbinə dostluq daxil ola bilərmi?!

Dost seçmək qaydalarını öyrəndin, indi də dünyada baş verən işlər, yaxşılıq və pislik haqqında dinlə.

## OTUZ BEŞİNCİ FƏSİL

## ŞAİRLİK QAYDALARI HAQQINDA

Ey oğul, şair olsan, çalış sənin sözün səhli-mümtəne[1] olsun, (yəni oxuyanda hamı asanlıqla başa düşsün, o cürə yazmaq istədikdə isə bacarmasın), qəliz sözlərdən qaç, sənə məlum, lakin başqalarının bilmədiyi və şərhə ehtiyacı olan ibarələr işlətmə, çünki şeiri xalq üçün yazarlar, özü üçün yazmazlar. Vəzn seçib, qafiyə tapmaqla kifayətlənmə, sənətkarlığı və ahəngdarlığı olmayan şeir demə, bayağı şeirlər xoşa gəlməz. Şeirdə sənət və məharət, ahəngdarlıq və musiqilik lazımdır ki, xalqa xoş gəlsin. Şairlərin işlətdiyi qaydalardan; məsələn: və s.-dən istifadə etmək lazımdır.

| | | | |
|---|---|---|---|
| **Mücanis** | **Mütabiq** | **Mütəzad** | **Müşakil** |
| **Mütəşabih** | **Müstəar** | **Mükərrər** | **Mürəddəf** |
| **Müzdəvəc** | **Müvazənə** | **Müzmər** | **Müsəlsəl** |
| **Müsəccə** | **Müləvvən** | **Müstəvi** | **Müvəşşəh** |
| **Müvəssəl** | **Müqəttə** | **Müxəllə** | **Müstəhil** |
| **Zu-qafiyəteyn** | **Rəcəz** | **Məqlub** | |

[1] *Şərq poetikasında zahirən yazılması asan görünən, lakin o cür yazmaq çox çətin olan şeirə deyilirdi. Belə şeirlər dərin məzmunlu, yığcam, bədii olub asan yadda qalan şeirlər idi. Hamı belə bir şeir yazmağın «asan» olduğunu hiss edir, lakin yazmaq istərkən müvəffəqiyyətsizliyə uğrayırdı. Sədinin şeirləri səhli-mümtəne sayılır.*

İstəyirsən sənin sözün ali olsun və uzun müddət qala bilsin, müstəar şəklində yaz, mümkün olan istiarələrdən istifadə et. Mədhnamə yazdıqda da istiarələr işlət. Qəzəl və ya mahnı yazsan, sadə və gözəl yaz. Yaxşı yaddaqalan qafiyələr seç. Soyuq, süni söz oyuncağı işlətmə, aşiqlərin halına müvafiq lətif sözlər qoş, incə təşbehlər gətir, qoy həm zadəganların, həm adi adamların xoşuna gəlsin. Amandır, ağır şeirlər yazıb əruzu formal tətbiq etmə. Əruzun ağır vəznləri dalınca yalnız o adam qaçar ki, onun təbi ağır ola, xoş sözlər deməyi, incə mənalar işlətməyi bacarmaya. Amma sifariş etsələr, yaza bilərsən. Lakin şeir vəznlərini bil, şairlik elmini, ləqəbləri işlətməyin yerini, bədii elminin qaydalarını öyrən, şairlər arasında yarış baş versə, qoy sənə bata bilməsinlər, imtahan etmək istəsələr, aciz qalmayasan.

Fars əruzunun on yeddi dairə və bəhrlərinin adları bunlardır:

| | | | |
|---|---|---|---|
| **Həzc** | **Rəcəz** | **Rəməl** | **Həzəci-məkfuf** |
| **Həzəci-əxrəb** | **Rəcəzi-mətvi** | **Rəməli-məxbun** | **Münsərih** |
| **Xəfif** | **Müzare** | **Müzarei-əxrəb** | **Müqtəzəb** |
| **Müctəs** | **Mütəqarib** | **Səri** | **Qəribi-əxrəb** |
| | **Münsərihi-kəbir** | | |

(ərəb vəznlərindən isə məsələn, Bəsit, Mədid, Kamil, Vafir, Təvil və bu kimi bəhrlər vardır). Bu on yeddi bəhrdə əlli üç əruz və həştad iki zərb vardır ki, gərək onların hamısını öyrənəsən. Şeir, mədh, qəzəl, həcv, mərsiyə, tərkidünya və s. yazdıqda o barədə nə mümkünsə, hamısını de, bitkin bir əsər yarat, heç vaxt yarımçıq yazma. Bir də ki, nəsrdə işlənən sözləri şeirdə işlətmə, nəsr rəiyyətdir, şeir şah. Rəiyyətə yaraş-

mayan şey şaha heç yaraşmaz. Qəzəl və tərənə yazarkən, incə və duzlu yaz, mədhnamələrin təntənəli və gurultulu olsun. Söz söylədikdə alicənab ol, hər kəsin öz yerini bil, hərəyə özünə layiq mədh de. Məsələn, ömründə belinə bıçaq bağlamamış adam haqqında demə ki, «qılıncın arslan parçalayar, nizən Bistun dağını qaldırar, oxla tükü vurarsan». Ömründə eşşəyə minməmiş adamın atını Düldül, Büraq, Rəxş və Şəbdizə oxşatma, kimə nə demək lazım olduğunu bil.

Şair mədh edəcəyi adamın təbiətindən xəbərdar olmalıdır, bilməlidir ki, o nəyi xoşlayır, sonra elə mədh etməlidir ki, onun xoşuna gəlsin. Sən onun xoşuna gələn şeyi deməyincə, o da sənin xoşuna gələn şeyi sənə verməyəcəkdir.

Alçaq təbiətli olma, mədh etdiyin adamın ləyaqəti olmasa, heç vaxt özünü qəsidədə qul adlandırma. Həcv yazmağı peşə etmə, həmişə kuzə su ilə dolu qayıtmaz. Zöhd və Tövhid haqqında yazmağa qadir olsan, kahıllıq etmə, hər iki dünya üçün yaxşıdır. Hərçənd şeirdə mübaliğə məharət sayılır, lakin sən yalanı həddindən artıq şişirtmə.

Dostlar və böyük adamlar haqqında mərsiyə yazmaq vacibdir, lakin qəzəl və mərsiyəni bir üslubla, həcv və mədhi isə başqa üslubla yaz. Həcv yazmaq istəsən, bil: necə mədhdə birini tərifləyirsən, elə də haman mədhin əksinə yaz. Mədhin əksinə hər nə yazılsa, həcv olar, qəzəl ilə mərsiyə də bunun kimidir.

Lakin hər nə yazsan, özündən yaz, başqalarının sözünü təkrar etmə, əks halda təbin inkişaf etməz, şeir meydanın genişlənməz, ilk şeirə başlarkən necə idinsə, elə də qalarsan.

Lakin şeir yazmağa qüdrətin olsa, təbin inkişaf etsə, məharət qazansan, bir yerdə nadir bir sözə rast gəlib bəyənsən və onu başqa yerdə işlətmək istəsən, inad edib yarışa girmə,

həmin şeir növündə işlətmə, mədhdə rast gəlibsənsə, həcvdə işlət, qəzəldə təsadüf edibsənsə, mərsiyədə istifadə et, mərsiyədə eşidibsənsə, qəzəldə işə ver. Qoy heç kəs bilməsin ki, hardan götürübsən.

Əgər mədh yazdıran tapıb bu yolla güzəran keçirmək istəyirsənsə, qaşqabaqlı, çirkpaltarlı və turşsurətli olma, həmişə xoşsifət və üzügülər ol. Nadir hekayətlər, maraqlı rəvayətlər, gülməli məsəllər, məzəli lətifələri əzbərdən çox bil, bunları mədh etdiyin adama və onunla bir yerdə olanlara danış, şair bunlarsız keçinə bilməz.

Deyiləsi söz çoxdur, lakin bununla kifayətlənirəm.

## NASİR XOSROV



Əbu Muinəddin Nasir Xosrov əl-Qubadiani əl-Mərvəzi 1004-cü ildə Bəlx şəhəri yaxınlığında yerləşən Qubadian qəsəbəsində anadan olmuşdur. Nasir Xosrov Səlcuqlar hakimiyyəti dövründə yaşamışdır. O, Səlcuq hökmdarı Əbu Süleyman Çağrı bəy İbn Davud İbn Səlauqun sarayında xidmət etmiş, Mərvdə vergi toplayan olmuşdur. 1045-ci ildə könüllü olaraq vəzifəsindən istefa vermiş və Məkkə ziyarətinə getmişdir. Buna səbəb yuxuda müqəddəs bir şəxsin ona vəzifədən uzaqlaşıb Məkkəni ziyarət etmək məsləhəti olmuşdur. Nasir Xosrov 7 ildən sonra 1052-ci ildə Məkkə səfərindən geri qayıdır. O, Ələvi– ismaili ideologiyasının təbliqatçısı kimi Səlcuqların təqibinə məruz qalır və ailəsindən, vətənindən uzaq düşərək gah Mazandaran, gah da Pamir dağları ətəklərində yerləşən yaşayış məskənlərində xəlvəti ömür sürməyə məcbur olumuşdur. Bundan başqa onun Azərbaycan, Kiçik Asiya, Suriya, Fələstin, Misir və başqa yerləri gəzərək öz ideyalarını təbliğ etməsi barədə də fikirlər mövcuddur.

Nasir Xosrov 1088-ci ildə Bədəxşan vilayətinin Yamğan vadisində vəfat etmişdir.

Nasir Xosrovun zəngin yaradıcılıq irsi vardır. 24 min misralıq lirik şeirlər divanı, «Səadətnamə», «Rövşənainamə», «Vəchi-din», «Zad-ül-müsafirin», «Cameül-hikməteyn», «Quzariş və Rəhaiş», «Səfərnamə» adlı fəlsəfi-didaktik poema, traktak

və səyahətnamə əsərləri Nasir Xosrovun zəngin və çoxçalarlı yaradıcılığından xəbər verir. Eyni zamanda şair– filosofun «İksiri əzəm», «Qanuni əzəm», «Kənzül həqayiq» və s. adlı əsərlərinin olduğu haqqında məlumatlar verilsə də, həmin əsərlərin mətnləri əldə edilməmişdir. Nasir Xosrov riyaziyyat, astrologiya, fəlsəfə, fiqh və s. elmləri dərindən bilmiş, ustad rəssam kimi tanınmışdır.

Onun yaradıcılığında xüsusi yer tutan «Səfərnamə» səfər təəssüratları əsasında yazılmış nəsr nümunəsidir. Ədəbiyyatşünaslıq, dilşünaslıq, tarixşünaslıq, coğrafiyaşünaslıq, islamşünaslıq baxımından maraq doğuran bu əsərdə Asiya və Afrikanın ayrı-ayrı xalqlarının tarixi, mədəniyyəti, adət-ənənəsi, dili, həyat tərzi, dini, iqlimi və s. haqqında məlumatlara rast gəlinir. Nasir Xosrovun həyatının 7 illik bir dövrü Məkkədə keçdiyindən «Səfərnamə»də Məkkə ilə bağlı təəssüratlara çox yer verilmişdir. Əsərdə Azərbaycanla bağlı verilən məlumatlar böyük maraq doğurur. Belə ki, Azərbaycanın bir sıra elm və mədəniyyət xadimləri, qədim yaşayış məskənləri, dəniz və çayları ilə bağlı fikirlərin 1000 yaşlı «Səfərnamə»də yer alması bir sıra cəhətlərlə yanaşı, tarixilik baxımından da əhəmiyyət kəsb edir. Nasir Xosrovun Azərbaycanın görkəmli şairi Qətran Təbrizi (1012-1088) ilə görüşünü əks etdirən səhnə olduqca maraqlı təsir bağışlayır:

«Təbrizdə Qətran adlı (Qətran Təbrizi-E.Q.) şairlə görüşdüm. Gözəl şeir oxuyurdu». Həmin parçada biz Qətran Təbrizinin Nasir Xosrovla görüşü zamanı ona öz şeirləri ilə yanaşı, İran şairləri Dəqiqi və Məhəmməd Məncik Termezinin də şeirlərini oxuduğunu öyrənir və sənət məsələləri ilə bağlı fikir mübadiləsi apardığının şahidi oluruq. Qeyd edək ki, «Səfərnamə» Yaxın və Orta Şərq xalqları haqqında tarixi və elmi əhəmiyyəti böyük olan məlumat kitabı kimi bir sıra Şərq və Avropa xalqlarının dilinə tərcümə edilmişdir.

# S Ə F Ə R N A M Ə
**(ixtisarla)**

## YOLA DÜŞMƏ. XORASANIN ŞİMAL HİSSƏSİ. KİÇİK ASİYA

Mərhəmətli və rəhm edən Allahın adı ilə başlayıram.

Əbu Muinəddin Nasiri Xosrov əl-Qubadiyani əl-Mərvəzi – Allah onun günahlarından keçsin – belə deyir:

– Mən dəftərxanada katiblik etməklə məşğul idim, sultanların əmlakını və başqa işlərini idarə edənlərdən biri idim, divanın tapşırıqlarını icra edirdim. Uzun müddət bu işdə çalışmışdım və özüm kimi xidmətçilər arasında şöhrət qazanmışdım.

437-ci ilin rəbiülaxir ayında Xorasanda Əbu Süleyman Çağrı bəy Davud ibn Mikail ibn Səlcuqun əmirlik etdiyi dövrdə mən xidməti işlə əlaqədar olaraq Mərvdən çıxıb Mərvərrud vilayətində yerləşən Pəncdehə gəldim. Həmin gün Müştəri torizonta qalxmışdı. Deyirlər ki, o gün kim nə arzu etsə, ulu və müqəddəs Allah onun arzusunu yerinə yetirir. Bir guşəyə çəkildim, iki rükət namaz qıldım və arzu elədim ki, ulu və müqəddəs Allah mənə qüdrət, qüvvət versin.

Dostlarımın və qohumlarımın yanına qayıdanda gördüm ki, onlardan biri farsca şeir oxuyur. Mənim də xatirimə bir yaxşı şeir gəldi. Onu bir vərəqə yazdım və istədim ki, verim oxusun. Lakin mən vərəqi hələ ona uzatmamış, o, həmin şeiri

eyni ilə başdan-ayağa qədər oxumağa başladı. Mən bunu xatirimdə tutduğum niyyətin yerinə yetdiyi bir əlamət kimi başa düşdüm və öz-özümə dedim: «Alqışa layiq və ulu Allah mənim arzumu qəbul etdi.» Oradan Cuzcanana gəldim, bir aya yaxın orada qaldım və hər gün şərab içməklə məşğul oldum. Peyğəmbər – ona və övladına Allahın xeyir-duası və salamı olsun – buyurubdur ki, əgər ziyanını çəksəniz də həqiqəti söyləyin.

## QƏFLƏTDƏ YATMAQDAN AYILDAN BİR YUXU

Bir gecə yuxuda gördüm ki, biri mənə deyir: «Nə vaxta qədər insanın ağlını zail edən bu şərabdan içəcəksən. Ağıllı olsan yaxşıdır.» Mən ona cavab verdim ki: «Müdriklər dünyanın qəm-qüssəsini azaltmaq üçün bundan başqa bir şey fikirləşə bilməyiblər.» Cavab verdi ki: «Ağılsızlıqda və huşsuzluqda rahatlıq olmaz. Ağıllı adam xalqı huşsuzluğa sövq edən bir şeyi heç zaman kimsəyə məsləhət görməz, əksinə, elə bir şey məsləhət görər ki, ağılı və huşu daha da artırsın.» Dedim: «Axı mən bunu haradan alım?» Dedi: «Axtaran tapar.» Sonra qiblə tərəfə işarə etdi və daha heç nə demədi.

Ayılanda həmin yuxu tamam yadımda qalmışdı. Bu nəsihət mənə təsir etdi və mən öz-özümə dedim ki, dünənki yuxudan ayıldım və 40 illik yuxudan da ayılmalıyam. Fikirləşdim: Nə qədər ki, bütün işlərimi və əməllərimi dəyişməmişəm, nicat tapıb şadlıq üzü görməyəcəyəm.

437-ci ilin cəmadülaxir ayının 6-da cümə axşamı günü ki, Yezdəgürd erasının 414-cü ilinin dey ayının ortasına, yəni 15-nə mütabiq gəlir, başımı-bədənimi yudum və cümə məscidinə getdim, namaz qıldım, ulu və alqışa layiq Allahdan xahiş

etdim ki, vacib olan işi icra etməkdə mənə kömək eləsin, ulu Allahın buyurduğu kimi, məni pis və günah işlərdən çəkindirsin.

## HƏCCƏ GETMƏK QƏRARI

Oradan Şiburğana getdim. Gecəni Faryab adlanan bir yaşayış məntəqəsində keçirdim. Oradan Sənglan və Taliqan yolu ilə Mərvərruda gəldim. Oradan da Mərvə getdim. Xahiş etdim ki, məni ifa etdiyim vəzifədən azad etsinlər və dedim: – Mən Qibləni gedib görmək qərarına gəlmişəm.

Sonra mən bütün işlərimi təhvil verdim, bütün varidatdan imtina etdim, təkcə çox az miqdarda zəruri olan şeyləri özümdə saxladım və şəban ayının 23-də Nişabura üz tutdum. Mərvdən Sərəxsə gəldim. Arası 30 fərsəngdir[1], oradan da Nişabura qədər yenə 40 fərsənglik yoldur. Şəvval ayının 11-də şənbə günü mən Nişabura çatdım. Bu ayın son çərşənbəsində gün tutuldu.

Bu vaxt ölkənin hökmdarı Çağrı bəyin qardaşı Toğrul bəy Məhəmməd idi. O, əmr vermişdi ki, Sərraclar bazarının yaxınlığında bir mədrəsə tikilsin və onu bu vaxt tikirdilər də. O, özü isə ilk dəfə İsfahanı tutmağa getmişdi.

Zilqədə ayının 2-də sultanın xacəsi xacə Müvəffəqlə birlikdə Nişaburdan çıxdım. Kəvvan yolu ilə Qumisə gəldim və Şeyx Bayəzid Bəstaminin məqbərəsini – Allah onun ruhunu şad eləsin – ziyarət etdim.

Zilqədə ayının 8-də cümə günü oradan Damğana getdim. 437-ci ilin zilhiccə ayının əvvəlində Abxori və Çaştxoran

[1] *Fərsəng – orta əsrlərdə uzunluq ölçüsü. Bir fərsəng 6-7 km-dir.*

yolu ilə Simnana gəldim. Bir müddət orada qaldım və bir elm əhli ilə görüşmək istədim. Mənə bir kişi göstərdilər, adına ustad Əli Nesai deyirdilər. Onun yanına getdim. Cavan bir oğlan idi. Uzunsaçlı idi, deyləmilərin ləhcəsində fars dilində danışırdı. Onun qarşısında çoxlu şagirdləri oturmuşdu. Onlardan bir dəstəsi İqlidis, bir dəstəsi tibb, bir dəstəsi də hesab kitabları oxuyurdu. Söhbət əsnasında deyirdi ki, Əbu Əli Sinadan – Allah ona rəhmət eləsin – belə oxumuşam və ondan belə eşitmişəm. Bunu deməklə məqsədi Əbu Əli Sinanın şagirdi olduğunu mənə bildirmək idi. Onunla söhbət başlayanda dedi: «Mən siyaq haqqında heç nə bilmirəm, lakin bu hesablama üsulunu öyrənməyə həvəsim var.» Təəccüb etdim və oradan çıxıb getdim. Ürəyimdə dedim: «Madam ki, özü bir şey bilmir, başqasına nə öyrədəcək?»

Bəlxdən Reyə kimi hesabladım, 350 fərsəng oldu. Deyirlər Reydən Savəyə kimi 30, Savədən Həmədana da 30 fərsəngdir. Reydən İsfahana 50 fərsəng, Reylə Amol arası 30 fərsəngdir. Dəmavənd dağı bu iki şəhərin arasında günbəz kimi ucalır, ona Ləvasan da deyirlər. Onun başında bir quyu var. Oradan naşatır çıxır. Deyirlər ki, kükürd də çıxır. Adamlar inək dərisi götürüb onun içini naşatırla doldururlar. Sonra dağın başından aşağı diyirləyirlər. Çünki yolla aşağı gətirmək çətindir.

## QƏZVİN

438-ci ilin məhərrəm ayının 5-də fars tarixi ilə 415-ci ilin mordad ayının 10-da Qəzvinə tərəf hərəkət etdim və Qövhə kəndinə çatdım. Orada qıtlıq idi. Bir mən[1] arpa çörəyini

[1] *Mən – ölçü vahididir.*

2 dirhəmə verirdilər. Oradan çıxıb getdim. Məhərrəm ayının 9-da Qəzvinə çatdım. Qəzvində bağ çoxdur və bağların heç birinin ətrafına hasar və tikandan çəpər çəkilməyib ki, oraya girməyə mane olsun. Qəzvin mənim nəzərimdə yaxşı şəhərdir. Ətrafına möhkəm hasar çəkilib və onun üstündə dişə oxşar qübbələr düzəldilib. Gözəl bazarı var. Buranın bircə suyu azdır. Su yerin altından kəhrizlə axıdılır. Şəhərin rəisi ələvi[1] idi. Şəhərdə sənətkarların çoxu çəkməçilərdir.

438-ci ilin məhərrəm ayının 12-də Qəzvinin ətraf kəndlərindən olan Bil və Quban yolu ilə şəhərdən çıxdım. Xerzəvil adlanan kəndə çatdım. Mənim, qardaşımın və bizi müşayiət edən xidmətçimiz gənc hindlinin yol azuqəsi azalmışdı. Qardaşım kəndə getdi ki, baqqaldan bir şey alsın. Birisi ona deyir ki, baqqal mənəm. Nə istəyirsən?

Qardaşım cavab verir ki:

– Biz qəribik, buradan keçirik. Səndə yemək üçün hər nə ərzaq olarsa, bizə yarayar.

O belə cavab verir:

– Heç nəyim yoxdur.

Bundan sonra hara gedirdiksə, belə bir adam bizə rast gələndə: «Xerzəvil baqqalıdır», – deyirdik.

## TƏBRİZ

Məhərrəm ayının 26-da Şəmirandan çıxdım. Səfər ayının 14-də Səraba çatdım və həmin ayın 16-da Sərabdan çıxdım. Səidabaddan keçdim və 438-ci ilin səfər ayının 20-də Təbrizə gəldim. Bu tarix qədim təqvimlə şəhrivər ayının 5-nə

---

[1] *Ələvi– Əli ibn Əbu Talib tərəfdarları*

düşür. Bu şəhər Azərbaycanın paytaxtıdır. Əhalisi çox olan abad şəhərdir. Mən onun en və uzununu addımladım. Hər tərəfi 1400 addım oldu.

Azərbaycan vilayətinin padşahının adını xütbədə belə oxuyurdular: «Ən böyük əmir, dövlətin qılıncı və millətin şərəfi, movla əmirəl-möminin Əbu Mənsur Vəhsudan ibn Məhəmməd.»

Mənə nağıl elədilər ki, bu şəhərdə 434-cü ilin rəbiüləvvəl ayının 17-də cümə axşamı gecəsi mostərəqə günlərinin birində yatmaq namazından sonra zəlzələ olmuş, şəhərin bir hissəsi dağılmış, digər hissəsinə isə zərər dəyməmişdir. Deyirdilər ki, zəlzələ zamanı 40.000 adam həlak olmuşdur.

Təbrizdə Qətran adlı şairlə görüşdüm. Gözəl şeir oxuyurdu. Lakin fars dilini yaxşı bilmirdi.[1]

Yanıma gəldi. Məncik və Dəqiqinin divanlarını gətirib mənim üçün oxudu. Ona çətin olan hər bir sözü məndən soruşdu. Mən izah etdim. O, izahları yazdı. Sonra öz şeirlərini də mənə oxudu.

Rəbiüləvvəl ayının 14-də biz Təbrizdən çıxdıq. Mərənd yolu ilə Əmir Vəhsudanın qoşununun müşayiəti ilə Xoya gəldik. Oradan da bir bələdçinin köməyi ilə Berkriyə gəldik. Xoydan Berkriyə kimi 30 fərsəngdir. Oraya cəmadiüləvvəlin 12-də çatdıq. Oradan Van və Vəstana getdik. Oranın bazarlarında

---

[1] *Qətran Təbrizi (1012-1088) fars dilində «Divan» və «Ət-Təfasir» adlı farsca lüğət yazmış Azərbaycan şairidir. Mənbələrə əsasən deyə bilərik ki, Qətran Təbrizi Nasir Xosrovla görüşərkən, özündən bir əsr əvvəl yaşamış Dəqiqi və Məncik Termezinin şeirlərində işlənmiş, lakin ədəbi dildə olmayan ləhcə xarakterli sözlərin izahını soruşmuşdur. Ona görə də Qətran Təbrizinin fars dilini yaxşı bilməməsindən söhbət gedə bilməz və burada səslənən fikir bir əsr əvvəl ləhcələrdə işlənən çətin sözlərin izahına işarədir.*

qoyun əti kimi donuz ətini də satırdılar. Orada arvadlar da kişilərlə yanaşı dükanın qabağında əyləşib çəkinmədən istədikləri qədər şərab içirdilər.

## HƏLƏB

Hələb gözəl şəhərdir. Ətrafına böyük hasar çəkilib. Hasarın hündürlüyünü gözəyarı 25 ərəş[1] hesab etdim. Orada qaya üzərində çox əzəmətli bir qala da tikilib. Mənə elə gəlir ki, Hələb Bəlxdən kiçik deyil. Binalar bir-birinə yapışıqdır, lakin hamısı abaddır, gözəldir. Bu şəhər Şamdan, Rumdan, Diyarbəkrdən, Misirdən və İraqdan gəlib-gedən mallardan bac, vergi toplama yeridir. Oraya bu ölkələrdən tacirlər və alverçilər gəlirlər.

Şəhərin dörd darvazası var: Bab-ül, Yəhud, Bab-ül Lah, Bab-ül Cinan, Babi-Əntakiyə. Oranın bazarında çəki daşı rətli-Zahiridir. O, 480 dirhəmdir. Oradan cənuba tərəf gedəndə 20 fərsənglikdə Həma şəhəri yerləşir, ondan sonra Homs gəlir. Hələbdən Diməşqə qədər 50 fərsəngdir. Hələbdən Əntikyəyədək 12 fərsəngdir, Tarablus şəhərinədək də həmin qədərdir. Deyirlər ki, Kustantiniyəyə qədər 200 fərsəng olar.

Rəcəb ayının 11-də Hələbdən çıxdıq, 3 fərsəng gedəndən sonra bir kəndə çatdıq. Oraya Cund Qininsarin deyirdilər. O biri gün 6 fərsəng yol gedib Surmin şəhərinə çatdıq. Şəhər hasarsız idi. 6 fərsəng də getdik, Məərrət ən-Neman şəhərinə çatdıq. Şəhərin ətrafına daşdan hasar çəkilib. Şəhər abaddır. Şəhərin qapısında daşdan bir sütun gördüm. Onun üzərində

---

[1] *Ərəş – uzunluq ölçüsüdür, gəz kimi bu ölçü vahidi də 62 sm-ə bərabərdir.*

ərəb xəttində olmayan bir xətlə yazı gördüm. Birisindən soruşdum ki, bu nədir? Dedi: «Əqrəbdən tilsimidir.» Bu şəhərdə heç vaxt əqrəb olmur və buraya əqrəb girmir. Əgər kim isə, haradansa əqrəbi tutub gətirsə və buraya buraxsa, o, dərhal qaçıb gedir və şəhərə qayıtmır. Həmin sütunun hündürlüyünü təxminən 10 ərəş hesab etdim. Bu şəhərin bazarlarını mən çox abad gördüm. Cümə məscidi şəhərin ortasında və elə uca bir yerdə tikilib ki, oraya daxil olmaq istəyən hansı səmtdən gəlirsə 13 pilləkən yuxarı qalxmalıdır. Onlar əkin sahələrində yalnız buğda əkirlər və məhsulları bol olur. Burada əncir, zeytun, püstə, badam ağacları və üzümlüklər çoxdur. Şəhərin suyu yağış və quyu suyudur.

## ƏBÜLƏLA MƏƏRRİ

Orada Əbüləla Məərri adında bir adam var idi. O, kor idi və bu şəhərin rəisi idi. Çox dövlətli adam idi. Onun qulu və xidmətçiləri çox idi, hətta bütün şəhər əhli ona bəndəlik edirdi. O özü isə zahidlik yolunu tutmuşdu. Xirqəyə bürünüb evdə otururdu. Gündə yediyi yarım mən arpa çörəyindən başqa bir şey deyildi.

Mən eşitdim ki, onun sarayının qapısı həmişə açıq olur və şəhərin işlərini naibləri və müavinləri görürlər. Yalnız çətin və vacib bir iş olanda ona müraciət edirlər. O da öz nemətini heç kəsdən əsirgəmir. O, gecələr oyaq qalır, daim oruc tutur və heç bir dünyəvi işlə məşğul olmur. Bu adam şeirdə və ədəbiyyat elmlərində elə bir yüksək dərəcəyə çatmışdır ki, Şam, Məğrib və İraqın alimlərinin etirafına görə bu əsrdə hələ heç kəs onun səviyyəsində olmamış və indi də bu səviyyədə ola

bilən bir adam yoxdur. O, bir əsər yazmışdır və onu «Əl-füsul vəl-ğayat» («Fəsillər və son hədlər») adlandırmışdır. O, əsərdə elə müəmmalı sözlər, məsəllər, zərif və qəribə ibarələr işlətmişdir ki, az miqdarda adamlardan başqa onu hamı başa düşmür. Başa düşənlər də ondan dərs alan adamlardır. Hətta ondan şübhələndilər ki, o, bu kitabı Quranın ziddinə yazıb. Daima ətraf yerlərdən 200-dən çox adam gəlib ondan ədəb, elm və şeir öyrənir. Eşitdim ki, onun 100.000 beytdən çox şeiri var. Bir adam ondan soruşmuşdu:

– Bu bol mal-dövlətin, nemətin hamısını böyük Allah xeyirxahlıqla sənə bəxş etmişdir. Nə səbəbə sən onu xalqa paylayırsan, özün isə yemirsən?

O, cavab verdi ki, «Mənə bu yediyimdən artıq bir şey lazım deyil.»

Mən buraya çatanda bu adam hələ sağ idi.

438-ci ilin rəcəb ayının 15-də biz oradan çıxdıq və Kuymata, oradan da Həma şəhərinə gəldik. Həma Asi çayının sahillərində yerləşir, abad və gözəl bir şəhərdir. Bu çaya ona görə «asi» deyirlər ki, o, Ruma tərəf axır. Yəni onun suyu müsəlman ölkəsindən qeyri-müsəlman (dinsizlər) ölkəsinə tərəf axdığı üçün ona asi (üsyançı) adı verilib. Onun sahilində çoxlu su çarxları qurulmuşdur.

## BEYRUT

Oradan Beyrut şəhərinə çatdıq. Orada daşdan tağ gördüm. Yol o tağın altından keçirdi. Tağın hündürlüyünü gözəyarı 50 gəz[1] hesab etdim. O, yanlardan ağ lay daşlarla

[1] *Gəz – uzunluq ölçüsüdür, 62-sm-ə bərabərdir.*

örtülüb. Daşların hər biri 1000 məndən ağır olardı. 20 gəz hündürlüyündə olan bu qurğunu kərpiclə tikiblər. Onun üstündə isə hər birinin hündürlüyü 8 gəz olan qalın gövdəli mərmər sütunlar ucaldıblar. Mərmər layların birini 2 adam qucaqlaya bilməzdi. Bu sütunları isə onların başında hörülmüş tağ birləşdirir. Nəfis şəkildə yonulmuş daşlarla tikilən bu tağ elə düzəldilib ki, iki tərəfdən hörülə-hörülə gələn və ortada birləşdirilən daşların arasına nə gil, nə də gəc tökülüb. O böyük tağdan sonra onun üstündə və düz ortada 50 ərəş hündürlüyündə başqa bir əzəmətli tağ da düzəldilib. Onun üstünə qoyulmuş hər bir mərmər layın uzunluğunu gözəyarı 8, enini isə 4 ərəş hesab etdim. Hər birinin ağırlığı təxminən 7000 mən olar. Bu daşların hamısına qabartma və oyma üsulu ilə elə gözəl naxışlar vurulub ki, oymaçı belə yaraşıqlı bir işi ağac üzərində də nadir hallarda görə bilər.

Bu mahalda bu tağdan başqa bir tikinti qalmamışdır. Soruşdum ki: «Bu nə yerdir?» Dedilər ki: «Eşitdiyimizə görə bu Fironun bağının qapısı imiş və tarixi çox qədimdir.»

Buranın çölləri mərmər sütunlarla doludur. Sütunların başı və gövdəsi dairəvi, dördkünc, altıbucaqlı və səkkizbucaqlı bəzəkli mərmər daşlardandır. Daşlar elə bərkdir ki, onlara dəmir də kar edə bilməz. Lakin bu ətrafda heç yerdə bir dənə də dağ yoxdur ki, daşların oradan kəsilib gətirilməsi güman edilsin. O biri daşlar müxtəlif rənglərin qarışığından əmələ gələn süni daşlara oxşayır. Onlar da başqa daşlar kimi dəmirlə əzilmir.

Suriyanın ərazisində qarşımıza 500 min sütun, yaxud sütun başlığı və gövdəsi çıxdı. Yaranmışın heç biri bilmir ki, onlar nə binası olmuş və ya onların materialını haradan gətiriblər.

## PEYĞƏMBƏRLƏRİN QƏBİRLƏRİ

Əkkə şəhərindən şərq istiqamətində gedəndə bir dağ var ki, peyğəmbərlərin – onlara salam olsun – məqbərələri oradadır. Ora Rəmləyə gedən yoldan kənardadır. Mən bu müqəddəs qəbirləri ziyarət etmək və alqışa layiq ulu Allahdan kömək istəmək xəyalına düşdüm. Əkkənin sakinləri mənə dedilər ki, bu yolun üstündə ziyankar, təhlükəli adamlar yaşayırlar. Qərib bir adam görəndə ona hücum edir və əgər bir şeyi varsa, əlindən alırlar. Mən nəyim vardısa, hamısını Əkkə məscidində qoydum və şəhərin şərq darvazasından çıxdım. 438-ci ilin şəban ayının 23-də cümə ertəsi şəhərin banisi Əkkin qəbrini ziyarət etdim. O, oranın təmiz adamlarından və böyüklərindən biri olmuşdur.

Mənimlə yola bələd bir müşayiətçi olmadığından mən sərgərdan qalıb yola düşə bilmirdim. Birdən həmin gün ulu və alqışa layiq Allahın mərhəmətindən bir əcəm mənə yol yoldaşı oldu. O, Azərbaycandan idi, əvvəllər də bu müqəddəs qəbirləri ziyarət edibmiş və indi isə ikinci dəfə həmin niyyətlə bu tərəfə üz tutubmuş. Bu mərhəmətinə görə alqışa layiq və ulu Allahın şəninə iki rükət namaz qıldım və arzumu həyata keçirməkdə mənə yardım göstərdiyi üçün ona səcdə və şükürlər etdim. Bir kəndə çatdım ki, ona Bərdə deyirdilər. Orada İşa və Şəmunun – onlara salam olsun – qəbirlərini ziyarət etdim. Oradan çıxıb bir kiçik mağaraya çatdım ki, ona Damun deyirdilər. Oranı da ziyarət etdim. Çünki dedilər ki, bura Zül-Kiflin – ona salam olsun – qəbridir. Oradan da başqa bir kəndə çatdım. Ona Əblin deyirdilər və Hudun – ona salam olsun – qəbri orada idi. Onu ziyarət etmək də mənə qismət oldu. Onun qəbrinin ətrafında tut ağacları vardı. Üzeyr peyğəmbərin – ona salam olsun

– qəbri də oradadır. Onu da ziyarət etdim. Oradan cənuba tərəf hərəkət etdim və Həzirə deyilən bir kəndə gəldim. Bu kəndin qərb tərəfində bir dərə var idi. Orada qayadan dupduru bulaq suyu süzülüb tökülürdü. Bulağın qənşərində qayanın üstündə də məscid tikilibdir. Bu məscid 2 daş otaqdan ibarətdir. Onun damı da daşdandır, qapısı isə elə dardır ki, adam güclə oradan girə bilir. Orada yan-yana iki qəbir var. Onun biri Şueybin – ona salam olsun – o biri isə onun qızının qəbridir ki, o, Musanın – ona salam olsun – arvadı olmuşdur. O kəndin camaatı həm məscidi, həm də qəbirləri yaxşı qoruyurlar, təmiz saxlayırlar, üstündə şam yandırırlar və s.

Oradan da bir kəndə getdim. Oraya Ərbil deyirlər. Onun Qiblə tərəfində bir dağ döşündə dördkünc məhəccər və onun içərisində isə 4 qəbir var idi. Onlar Yaqub peyğəmbərin – ona salam olsun – oğlanları – Yusifin – ona salam olsun – qardaşlarının qəbirləri idi. Oradan çıxıb getdim və bir təpə gördüm. Təpənin aşağısında mağara var idi. Musanın – ona salam olsun – anasının qəbri buradadır. Oranı ziyarət edib irəli getdim, qarşıma bir dərə çıxdı. Dərənin axırında bir göl var idi. Təbəriyyə şəhəri o gölün sahilindədir. Gölün uzunluğu 6, eni isə 3 fərsəng olar. Suyu şirindir. Şəhər gölün qərb tərəfində salınıb. Şəhərin bütün hamamlarının suyu və digər çirkli sular o gölə tökülür. Gölün kənarında yerləşən şəhər və vilayətlərin sakinlərinin hamısı həmin gölün suyundan içirlər.

Eşitdim ki, vaxtilə bu şəhərə yeni bir əmir gəlir. Əmr edir ki, xarab və çirkli suların yolunu kəssinlər ki, axıb gölə tökülməsin. Bundan sonra gölün suyu elə iylənir ki, içmək mümkün olmur. Sonra o, əmr edir ki, çirkli suların hamısının bəndini açıb gölə buraxın. Elə də edirlər. Su yenə əvvəlki kimi içməli olur.

Bu şəhərə möhkəm hasar çəkilmişdir. Hasar divarı gölün kənarından başlanır və şəhərin ətrafına dolanır. Təkcə göl tərəfdə hasar yoxdur. Bir çox binalar suyun içindədir. Gölün dibi daşdır. Özülü suda olan mərmər sütunların üzərində ətrafa tamaşa etmək üçün qüllələr tikilib. Bu göldə balıq çoxdur. Şəhərin ortasında cümə məscidi yerləşir. Məscidin yanında bulaq var və o bulağın başında hamam tikiblər. Suyu elə istidir ki, ona soyuq su qatmasan çimə bilməzsən. Deyirlər ki, o hamamı Süleyman ibn Davud – ona salam olsun – tikmişdir. Mən o hamamda çimdim.

Bu Təbəriyyə şəhərinin cənub-qərbində bir məscid var ki, ona Yasəmən məscidi deyirlər. Çox gözəl məsciddir. Məscidin həyətinin ortasında yerdən bir qədər hündür tikilmiş böyük bir talvar, meydan var. Bu meydanın üzərində mehrablar tikilib. Meydanın dövrəsində yasəmən ağacları əkiblər. Məscidin adı da onunla əlaqədardır. Məscidin şərqində bir çardaq var. Yuş ibn Nuhun qəbri oradadır. Yəhudilərin qırdığı 70 nəfər peyğəmbərin– onlara salam olsun – qəbri o meydanın altındadır.

## BEYTÜLMÜQƏDDƏS

İndi də Beytülmüqəddəs şəhərinin təsvirini verirəm. Şəhər bir dağın başında salınıb. Orada yağış suyundan başqa su yoxdur. Kəndlərdə bulaqlar var, şəhərdə isə yoxdur. Çünki şəhər böyük qayanın (hərfən: daşın) üstündə salınıb və çox böyükdür. Belə ki, biz görəndə onun 20 min əhalisi var idi. Orada gözəl bazarlar və hündür binalar vardı. Şəhərin bütün küçələri lövhə daşlarla döşənib. Təpə və dik olan yerlər elə

hamarlanıb ki, yağış yağanda şəhərin bütün sahəsi tər-təmiz yuyulur.

Şəhərdə sənətkarlar çoxdur. Bazarda hər peşədən olan sənətkarların ayrıca cərgəsi var. Oradakı məscid şəhərin şərq hissəsindədir. Şəhərin şərq divarı eyni zamanda məscidin divarıdır. Məscidi keçəndən sonra qarşıya böyük və düz bir səhra çıxır. Ora Saherə adlanır. Deyilənə görə, qiyamət günü bu düzdə olacaq və adamlar məhşəri orada keçirəcəklər. Elə buna görədir ki, dünyanın bir çox yerlərindən oraya adamlar gəlirlər. Onlar orada da qalıb yaşayır və ölümlərini gözləyirlər. İstəyirlər ki, bu şəhərdə ölsünlər və pak ulu Allahın vədəsi çatanda məad yerində[1] hazır olsunlar.

Ey xuda, sən özün o gün öz qullarının müdafiəçisi ol və onların günahını bağışla! Amin, ya rəbbilaləmin!

O çölün axırında böyük qəbiristan var. Bir çox müqəddəs şəxsiyyətlər orada dəfn olunmuşdur. Adamlar gəlib orada namaz qılır, dua oxuyur və əllərini qaldırıb pak və böyük Allaha yalvarırlar ki, onların arzusunu yerinə yetirsin. İlahi, arzularımızı qəbul et, günahlarımızdan və pis əmllərimizdən keç! Öz mərhəmətinlə bizə rəhm et, ey rəhm edənlərin ən rəhmlisi!

Məscidlə Saherə çölünün arasında dərin bir dərə var. Xəndək kimi olan bu dərədə böyük binalar var. Onları əvvəlki vaxtlardakı evlər kimi tikiblər. Orada bir daş günbəz gördük ki, onu yonub bir evin damına qaldırıblar. Ondan qəribə bir şey olmaz ki, onu yerindən necə qaldırıblar. Deyilənə görə, o, Fironun evidir, o dərə də cəhənnəm dərəsidir. Soruşdum ki, bu dərəyə bu adı kim qoymuşdur? Deyirlər: Öz xəlifəliyi zamanı

[1] *Məad yeri – dini rəvayətə görə ölülərin qiyamət günü dirilib toplaşdığı yer*

Ömər ibn Xəttab – Allah ondan razı olsun – bir dəfə Saherə düzənliyində hərbi düşərgə salır. Bu dərəni görəndə o deyir: «Bu, Cəhənnəm dərəsidir.» Sadə və avam adamlar belə deyirlər ki, kim bu dərənin axırına qədər getsə, o, cəhənnəmdəki günahkarların səsini, ah-naləsini, bağırtısını eşidər. Mən də o dərənin sonuna qədər addımladım, lakin heç nə eşitmədim.

Şəhərdən yarım fərsəng cənuba doğru gedəndə və enişdən enəndə daşdan süzülən bir bulağa çatırsan. Ona Eyne-Səlvan deyirlər. Onun ətrafında çoxlu tikintilər var. Onun suyu bir kəndə axır. Orada da çoxlu evlər, bağlar, bostanlar var. Deyirlər ki, kim başını və bədənini həmin bulağın suyu ilə yuyarsa, ondakı dərd və uzunsürən xəstəliklər yox olar. O bulağı saxlamaq üçün nəzir verirlər.

## İSANIN BEŞİYİ

Şərq divar tərəfdə, onun cənub tinə qovuşduğu yerdə Qiblə də cənub tərəfdədir və şimal divarın üzbəüzündə yeraltı məscid yerləşir. Oraya daxil olmaq üçün bir neçə pilləkən aşağı enmək lazımdır. Onun sahəsi 20 gəz x 15 gəzdir. Damı daşla örtülüdür, sütunları mərmərdir. İsanın beşiyi də oradadır. O beşik daşdandır və elə böyükdür ki, adamlar içində namaz qılırlar. Mən də orada namaz qıldım. Onu yerə, torpağa bərkidiblər ki, yırğalanmasın, tərpənməsin. Bu haman beşikdir ki, İsa uşaqlığında onun içində uzanıb adamlarla söhbət edirmiş. Bu beşiyi məscidə mehrab əvəzində qoyublar. Bu məsciddə Məryəmin – ona salam olsun – də mehrabı var. O, şərq tərəfdə yerləşir. Zəkəriyyənin – ona salam olsun – mehrabı da elə oradadır. Quranın Məryəm və Zəkəriyyə haqqında olan ayələrini

də bu mehrabların üzərinə yazıblar. Deyirlər ki, İsa – ona salam olsun – bu məsciddə doğulmuşdur.

Sütunların birinin üzərində iki barmaq izi var. Sanki kim isə iki barmağı ilə bu sütundan yapışmışdır. Deyirlər ki, Məryəm doğanda bu sütundan iki barmağı ilə yapışmışdır. Bu məscid «İsanın – ona salam olsun – beşiyi» kimi məşhurdur. Orada çoxlu tunc və gümüş lampalar asılmışdır. Hər gecə onları yandırırlar. Elə ki, bu məscidin qapısından bayıra çıxırsan, şərq divarın üstü ilə gedib böyük məscidin küncünə çatanda digər gözəl və böyük bir məscidə rast gəlirsən. O, «İsanın beşiyi»ndən iki dəfədən də artıq böyükdür. Ona «Məscid ül-Əqsa» deyirlər.

## MƏSCİD HƏYƏTİNİN ORTASINDAKI TALVARIN VƏ İSLAMİYYƏTDƏN QABAQ QİBLƏ HESAB EDİLMİŞ SƏXRƏ DAŞININ XARİCİ GÖRÜNÜŞÜ

Həyətin ortasında bir talvar (hərfən: dükan) düzəldilib. O talvarı ona görə düzəldiblər ki, Səxrə daşı çox hündür olmuş və onu məscidin üstünə (yəni damına) çıxartmaq mümkün olmamışdır. Ona görə də bu talvarı özül (hərfən: əsas, bünövrə) kimi düzəldiblər.

Meydançanın (talvarın) sahəsi 330 x 300 ərəş, hündürlüyü 12 gəzdir. Onun üstü divarları kimi gözəl və hamardır, mərmər döşənib. Mərmər daşların arasına qalay töküblər. Meydança dörd tərəfdən lay mərmərlərdən tikilən hasarla əhatə olunmuşdur. Bu meydança elə düzəldilib ki, onun üstünə yalnız xüsusi hazırlanmış yollarla çıxmaq olar. Meydançaya

qalxanda məscidin damının üstünə çıxırsan. Meydançanın ortasında yeraltı su çəni düzəldilib. Yağış yağanda bütün sular yarıqlardan axıb oraya tökülür. Buranın suyu məscidin digər yerlərindəki suların hamısından daha içməli və təmizdir.

Bu meydançada dörd qübbə vardır. Onların ən böyüyü əvvəllər Qiblə sayılan Səxrə daşının üstündəki qübbədir.

## İBRAHİM XƏLİL – ONA ALLAHIN XEYİR-DUASI OLSUN – MƏQBƏRƏSİNİN TƏSVİRİ

Bu məqbərəni Suriyanın və Beytülmüqəddəsin əhalisi Xəlil adlandırırlar. Kəndin əsl adı isə Mətlundur. Başqa bir çox kəndlərlə birlikdə bu kənd də ziyarətgahın vəqfidir. Bu kənddə bir bulaq var. O, daşdan süzülür. Onun suyu azdır. Həmin suyu kəhrizlə kəndin qırağına axıdır, orada tikilmiş üstüörtülü hovuzda yığırlar ki, su boş yerə axmasın və həm kəndin adamları, həm də zəvvarlar – ziyarətə gələnlər ondan istifadə edə bilsinlər.

Məqbərə kəndin cənub kənarında yerləşir. Kənd isə Beytülmüqəddəsin cənub-şərqindədir. Məqbərə yonulmuş daşdan hörülüb, dörd divardan ibarətdir. Onun uzunluğu 80 ərəş, eni – 40, divarın hündürlüyü – 20, divarın eni isə 2 ərəşdir. Binanın (tikintinin) eninə – köndələninə mehrab və hücrə qoyulub. Hücrədə də gözəl mehrablar düzəldiblər və elə oradaca yan-yana baş tərəfləri Qibləyə tuşlanmış iki qəbir var. Hər iki qəbir yonulmuş daşla adam boyu hündürlüyündə düzəldilib. Sağ əldə İbrahimin oğlu İshaqın, solda isə onun arvadının qəbridir – onlara salam olsun. Qəbirlərin arası 10 ərəşdir. Məq-

bərənin (və ya sərdabənin) döşəməsi və divarları qiymətli xalılar və ipəkdən də gözəl məğrib həsirləri ilə bəzədilmişdir. Mən orada bir toxunma namaz həsiri gördüm. Dedilər ki, onu Misir sultanın rəiyyəti olan bir sərkərdə hədiyyə göndərib. Deyirlər ki, bu həsir Misirdə çoxlu qızıl məğrib dinarına satın alınmışdır və bu qədər Rum ipəyi olsaydı, ondan baha olmazdı. Mən onun tayını heç yerdə görmədim.

Hücrədən çıxanda məqbərənin həyətində Qiblə tərəfə yönələn iki bina var. Sağ əldəki binada İbrahim Xəlilin – ona Allahın xeyir-duası olsun – qəbridir. Bu, çox böyük bir binadır. Onun içində başqa kiçik bir otaq var ki, onun ətrafına dolanmaq olmaz. Divardan dörd pəncərə (və ya qapıcıq) açılıb ki, ziyarətə gələnlər oradan içəriyə baxıb qəbri görürlər. Qəbir bu dörd pəncərənin hər birindən görünür. Binanı döşəməsi və divarları ipək xalılarla örtülmüşdür. Qəbir daşdandır. Üç gəz hündürlüyündə qaldırılıb. Onun üstündə çoxlu gümüş qəndillər və çıraqlar asılmışdır. Qiblədən sol əldəki o biri binada İbrahimin – ona salam olsun – arvadı Saranın qəbri yerləşir. İki qəbir arasında dəhliz kimi bir keçid var və hər iki binanın qapısı bu dəhlizə açılır. Orada da çoxlu qəndil və çıraqlar asılmışdır.

Bu iki binadan o yana iki başqa məqbərə də var. Onlar da bir-birlərinə yaxındır. Sağ əldəki Yaqubun – ona salam olsun – qəbri, soldakı isə onun arvadının qəbridir. Ondan da o yana bir neçə otaq var ki, onlar da İbrahimin – ona Allahın xeyir-duası olsun – ziyafət otaqları olmuşdur.

Beləliklə, bu məqbərədə – ziyarətgahda 6 qəbir var.

## YUSİFİN QƏBRİ

Bu dörd divarın arxasından eniş başlayır ki, orada Yaqubun oğlu Yusifin – ona salam olsun – məqbərəsi yerləşir. Onun üstündə gözəl günbəz tikilib. Qəbir yonulmuş daşdan düzəldilib. Səhra tərəfdə Yusif günbəzi ilə təsviri verilən məqbərə arasında böyük bir qəbiristan var. Müxtəlif yerlərdən ölüləri gətirib orada dəfn edirlər.

Bu qəbiristanda hasara alınmış bir binanın (hərfən: məqsurənin) damında buraya gələn qonaqlar, zəvvarlar üçün xırda otaqlar da tikilibdir. Bu sərdabənin çoxlu vəqfi, kəndləri və Beytülmüqəddəs şəhərində toxunulmaz mülkü var. Orada ən çox arpa əkirlər, buğda isə az olur. Zeytun da çox yetişir. Müsafirlərə, qonaqlara, ibadətə gələnlərə çörək və zeytun yağı verirlər. Orada çoxlu dəyirman var. Dəyirmanların daşlarını qatır və öküzlər fırladır və hər gün çoxlu un üyüdülür. Orada xüsusi kənizlər var ki, onlar bütün günü çörək bişirməklə məşğul olurlar. Onların çörəyinin hər biri bir məndir. Hər yeni gələn adama gündə bir bütöv çörək və yağda bişirilmiş bir kasa mərcimək verirlər. Kişmiş də verirlər. Orada bu adət Allahın dostunun – ona salam olsun – vaxtından indiyə kimi gözlənilir.

Elə gün olur ki, oraya 500 adam gəlir və hamı üçün bu cür qonaqlıq hazırlayırlar.

Deyilənə görə, əvvəllər sərdabənin qapısı yox imiş və heç kim oraya girə bilmirmiş. Məqbərəni ancaq hasarın eşiyindən, eyvandan ziyarət edirmişlər. Mehdi Misirdə taxta əyləşəndən sonra onun əmri ilə oradan qapı açdılar, oraya çoxlu hər cür lazımi əşyalar qoydular, xalı döşədilər və habelə orada savab, ehsan – xeyriyyə yeri düzəltdilər.

Sərdabəyə giriş şimal divarın ortasındandır. Onun

hündürlüyü yerdən dörd gəzə qədər olar. Oraya iki yandan daş pilləkən düzəldiblər, bir tərəfdən qalxır, digər tərəfdən aşağı enirlər. Orada çox da böyük olmayan dəmir qapı qoyublar.

Sonra mən oradan Beytülmüqəddəsə qayıtdım. Oradan piyada Hicaza gedən bir neçə adama qoşuldum. Bizi müşayiət edən cəsarətli, gözəl və zirək bir adam idi. Ona Əbu Bəkr Həmədani deyirdilər.

438-ci ilin zilqədə ayının on beşində biz Beytülmüqəddəsdən çıxdıq və 3 gündən sonra Ərəz adlanan yerə çatdıq. Orada da axar su və çoxlu ağac var idi. Sonra biz başqa bir yerə gəldik. Oraya Vadi əl-Qura deyirdilər. Oradan da yeni bir yerə çatdıq. Buradan da çıxıb on gündən sonra Məkkəyə çatdıq. O ili buraya heç yerdən karvan gəlməmişdi və orada yemək tapmaq çox çətin idi. Mən orada əttarlar (hərfən: sikkətül-əttarin) küçəsində peyğəmbərin – ona salam olsun – darvazasının (hərfən: Bab ün-Nəbi) üzbəüzündəki evdə qalırdım. Bazar ertəsi Ərəfatda idik. Orada adamlar bədəvilərin hücumundan qorxurdular. Ərəfatdan qayıdandan sonra iki gün Məkkədə qalıb, sonra Suriya yolu ilə Beytülmüqəddəsə qayıtdım.

Qəməri təqvimlə 439-cu ilin məhərrəm ayının 5-də Qüdsə çatdıq.

Məkkə və mənim həccə getməyim barədə heç nə deməyəcəyəm. Çünki Məkkə və özümün axırıncı həccə getməyim haqqında söhbət edəndə, öz yerində geniş danışacağam.

Beytülmüqəddəsdə xaçpərəstlərin Biət ül-Qumamə adlanan bir kilsəsi var. Xristianlar ona böyük ehtiramla yanaşırlar. Hər il oraya Rumdan ibadətə çox adam gəlir. Hətta Rum qeysəri özü də gizli olaraq oraya gəlirdi ki, onu heç kəs tanımasın. Misirin hökmdarı əl-Hakim bi-Əmirullah olanda da Rum qeysəri oraya gəlmişdi.

Əl-Hakim bundan xəbər tutdu, öz mehtərlərindən birini onun yanına göndərdi və onu başa saldı ki, belə geyimli, belə sifətli bir adam Beytülmüqəddəsin ziyarətində oturub. Get, yaxınlaş və de ki, məni sənin yanın əl-Hakim göndərdi. O dedi ki, qeysər elə bilməsin ki, mən onun gəlişindən xəbərsizəm. Lakin arxayın olsun, mən ona heç bir qəsd etməyəcəyəm, toxunmayacağam.

Lakin sonralar əl-Hakimin əmri ilə kilsə dağıdıldı, talan edildi və yeri qazıldı. Ora bir müddət həqiqətən də xarabazar olaraq qalmışdı. Sonra Rum qeysəri Misir padşahının yanına elçi göndərdi, ona çox böyük hədiyyələr bəxş etdi və sülh istədi. Hökmdardan xahiş etdi ki, oranı yenidən bərpa etməyə icazə versin. Ondan sonra kilsəni yenidən tikirlər. O, çox böyük bir kilsədir. Orada 8.000 adam yerləşə bilər. Müxtəlif rəngli mərmərlərlə həddindən artıq əzəmətli tikilib, bəzədilib, naxışlar, rəsmlər çəkilib. Kilsənin içərisi Rum ipəyi ilə bəzədilib və müxtəlif şəkillər çəkilib. Hər yerində çoxlu xalis qızıl görünür. Bir çox yerlərdə İsanın dişi eşşək üstündə şəkli çəkilib. Orada digər peyğəmbərlərin də, məsələn, İbrahimin, İsmayılın, İshaqın, Yaqubun və onun oğlanlarının – onlara salam olsun – şəkilləri çəkilib. Bu şəkillərə səndəl yağı çəkilib və onların hər biri nazik və çox parlaq bir şüşənin altında saxlanılıb. Onların üzləri aydın görünür. Artıq heç bir örtüyə ehtiyac yoxdur. Bu, ona görə belə edilib ki, şəkillərə toz qonmasın və çirklənməsin. Xidmətçilər hər gün bu şüşələri silirlər. Orada çoxlu başqa şəkillər də var. Əgər onların hamısı təsvir edilsə, çox uzun çəkər. Bu kilsədə bir şəkil də var ki, o iki hissəyə ayrılır. Orada cənnət və cəhənnəmin təsviri verilib. Şəkilin birinci yarısında möminlər cənnətdə, ikinci yarısında isə günahlılar cəhənnəmdə təsvir olunur. Orada həm cəhənnəmin özü,

həm də onun içindəkilərin hamısı çəkilibdir. Bu kilsə elə əzəmətlidir ki, onun tayı-bərabəri heç yerdə yoxdur.

Həmin kilsədə çoxlu dindarlar, keşişlər, rahiblər otururlar. Onlar İncil oxuyur, namaz qılır və gecə-gündüz ibadətlə məşğul olurlar.

## İSGƏNDƏRİYYƏ MİNARƏSİ

Misirlə (Qahirə ilə) İsgəndəriyyə şəhərinin arasındakı məsafəni 30 fərsəng hesab edirlər. İsgəndəriyyə Rum dənizinin və Nilin sahilindədir. Oradan gəmi ilə Misirə çoxlu meyvə gətirirlər. Mən İsgəndəriyyədə bir minarə gördüm. Onun üstündə işıqsaçan, istilikburaxan bir güzgü qurulmuş imiş.

Əgər İstanbul tərəfdən rumlu gəmiləri gəlirdisə və onlar bu güzgünün dairəsinə daxil olurdusa, dərhal onların üstünə alov (şüa) düşür və yandırırmış. Rumlular bütün qüvvələri ilə çalışıb bu güzgünü məhv etmək istəmişdilər. Onlar müxtəlif hiylələr işlətmiş, nəhayət, adam göndərib onu sındırmağa nail olmuşdular.

Əl-Hakim Misir sultanı olan zaman bir nəfər onun yanına gəlir və güzgünü əvvəlki şəklində bərpa edəcəyini bildirir. Əl-Hakim ona deyir: «Artıq buna ehtiyac yoxdur. İndi hər il rumlular bizə qızıl və parça göndərir, hətta onlar bizim ordunun da onların torpağına keçməsinə razıdırlar. Artıq hər şey əladır.»

İsgəndəriyyədə içməli su yalnız yağış suyudur. İsgəndəriyyənin bütün səhralarında yuxarıda təsviri verilənlərə oxşar daş sütunlar qalmışdır.

İsgəndəriyyə dənizi Qeyrəvana qədər uzanır. Misirdən (Qahirədən) Qeyrəvana qədər 150 fərsəngdir.

## QAHİRƏ ŞƏHƏRİ

Qahirə şəhərinin beş darvazası var: Bab ün-Nəsr, Bab ül-Fütuh, Bab ül-Qəntərə, Bab ül-Züveylə, Bab ül-Xəlic.

Şəhərin hasarı yoxdur, lakin binalar hasar divarından da uca və möhkəmdir. Şəhərdəki hər bir saray və pavilyon isə hasara alınıbdır. Binaların çoxu beş və altı mərtəbəlidir. İçmək üçün Nilin suyundan istifadə edirlər. Suçular onu yük heyvanları ilə daşıyırlar. Nilə yaxın yerlərdə qazılan quyuların suyu şirin, Nildən aralı yerlərdə qazılan quyu suları isə ona nisbətən şor və duzlu olur. Deyirlər ki, suçular 50 min eşşək, qatır və dəvəni yükləyərək tuluqla Misirə və Qahirəyə su daşıyırlar.

Yük heyvanları keçə bilməyən dar döngələrdə suyu suçular bürünc səhənglər və tuluqlarla dallarında daşıyırlar.

Şəhərdə evlərin arasında bağlar və ağaclar vardır ki, onları quyu suyu ilə suvarırlar. Sultan hərəmxanasında xüsusi hərəm bağı var ki, ondan gözəl bağ tapılmaz.

Orada su çarxları düzəldilmişdir ki, bağları onların vasitəsilə suvarırlar. Evlərin damlarında da ağaclar əkilmiş və köşklər düzəldilmişdir. Mən orada olanda sahəsi 20 Ç 12 gəz olan mənzili ayda 15 Məğrib dinarına kirayəyə verirdilər. Mən kirayədə yaşadığım bina dörd mərtəbəli idi. Onlardan üç mərtəbəni dediyim qiymətə kirayəyə vermişdilər. Yuxarıdakı mərtəbəni isə sahibi özü üçün saxlamışdı. O mərtəbə üçün də ayda ev sahibinə beş Məğrib dinarı təklif etdilər, lakin o, vermədi. Dedi ki, ola bilsin, özümə lazım oldu. Lakin mən orada qaldığım bir il ərzində o, iki dəfə də oraya çıxmadı. Bu evlər elə təmiz, zərif və qəşəngdir ki, onu əhəng, daş və kərpiclə tikilmiş deyil, qiymətli daş-qaşla tikilmiş hesab etmək olar.

Qahirədə evlər bir-birindən aralıdır. Belə ki, heç kəsin

evi və ağacı özgənin evinin divarına toxunmur, yanaşmır. Ona görə də birisi öz evini uçurmaq və yenidən ayrı cür tikmək istəsə bundan qonşusuna heç bir zərər gəlməz. Qahirə şəhərindən çıxıb qərbə tərəf getmək istəsən xəlic (körfəz) adlanan böyük bir kanala rast gəlirsən. Bu kanalı sultanın atası çəkdirmişdir. Kanalın sahillərində sultanın şəxsi mülkiyyəti olan 300 kənd vardı. Kanal başlanğıcını Misirdən götürür və Qahirəyə tərəf axır, oradan da sultanın qalasına burulur. Qalanın başlanğıcında iki pavilyon vardır. Onlardan biri Lölö, digəri isə Cövhərə adlanır.

Qahirədə dörd məscid var. Onlarda cümə günləri namaz qılırlar. Onlar: Cameyi-Əzhər, Cameyi-Nur, Cameyi-Hakim, Cameyi-Muizz adlanır. Axırıncı məscid şəhərin kənarında, Nilin kənarında yerləşir.

Misirdən Qibləyə tərəf üz çevirmək istədikdə yönü Həməlin çıxdığı tərəfə tutmaq lazımdır.

Misirdən Qahirəyə bir mildən də az məsafədir. Misir cənubda, Qahirə isə şimaldadır. Nil Misirdən keçib Qahirəyə çatır. Bu iki şəhərin arasındakı binalar və bağlar onları bir-birinə bitişdirmişdir.

Yayda bütün düzənliklər və səhralar dənizi xatırladır. Təkcə sultanın bağları təpədə salınmış və onlar su altında qalmır. Qalan bütün bağlar suyun altında qalır.

## MƏKKƏYƏ ÇATMAQ. İKİNCİ HƏCC. NİLLƏ ÜZÜYUXARI GETMƏK, CİDDƏ

Zilqədə ayının əvvəlində biz Misirdən çıxdıq və ayın 8-də Qulzum sahilinə çatdıq. Orada gəmiyə əyləşdik, 15 gün su ilə yol getdik və Car (Yanbu) adlanan şəhərə çatdıq. Bu

zaman ayın 22-si idi. Oradan biz dörd günə Allahın elçisinin (yəni Məhəmməd peyğəmbərin) – Allahın ona xeyir-duası və salamı olsun – şəhərinə – Mədinəyə yetişdik. Allahın elçisinin – ona salam olsun – şəhəri Mədinə səhranın kənarında yerləşir. Oranın torpağı nəmişlik və şorandır. Axar suyu var, lakin azdır. Ora xurmalıqdır, Qiblə Mədinənin cənubuna düşür.

Allahın elçisinin – ona xeyir-dua və salam olsun – məscidi Məscid əl-Həram böyüklüyündədir.

Allahın elçisinin – ona salam olsun – məqbərəsi məscidin minbərinin yanındadır, üzü qibləyə tərəf tutanda sol əldə qalır. Belə ki, xətib minbərdən peyğəmbəri – ona salam olsun – xatırlayanda və ya ona salavat çevirəndə üzünü sağ tərəfə tutur və onun məqbərəsinə işarə edir. Məqbərə beşgüşəlidir. Onun divarları məscidin sütunlarının arasından qaldırılmışdır. Deməli, beş sütunla əhatə olunmuş məqbərənin ətrafında məhəccər kimi bir hasar düzəldilib ki, heç kəs oraya getməsin. Onun açıq qapısına da tor çəkilib ki, quş oraya girməsin.

Məqbərə ilə minbərin arasında yanları mərmərdən düzəldilmiş artırma kimi hasara alınmış bir həzirə (qəbir) var. Bu hissəyə rouzə deyirlər.

Deyirlər ki, o, behiştin bir bağçasıdır. Allahın elçisi – ona salam olsun – buyurmuşdur.: «Qəbrimlə minbərimin arasında cənnət bağlarından biri yerləşir.» Şiələr qərar edirlər ki, ora Fatimeyi-Zəhranın – ona salam olsun – qəbridir. Məscidin tək bir qapısı var. Şəhərin kənarında cənuba yönələn səhra var, o səhrada qəbiristan var və Həmzə ibn Əbdül Müttəlibin – Allah ondan razı olsun – qəbri oradadır. Oraya Qübur üş-şühəda deyirlər.

Biz Mədinədə cəmi iki gün qaldıq, vaxt az idi. Şərqə tərəf yollandıq. Mədinənin iki mənzilliyində dağ dərəsinə

bənzər dar keçidə yetişdik. Oraya cühfə deyirdilər. Bura Məğrib, Şam və Misirin miqatıdır.

Miqat o yerə deyirlər ki, orada Məkkə ziyarətinə gələnlər ihram geyirlər. Deyirlər ki, bir il oraya lap çox ziyarətçi toplanmış imiş. Birdən dağdan güclü sel gəlir və onların hamısı qırılır. Ona görə də oraya cühfə (dağ arasındakı dar dərə) adı veriblər. Məkkə ilə Mədinənin arası yüz fərsəngdir və daşlıqdır. Biz oraya səkkiz günə getdik.

## MƏKKƏ YOLU İLƏ İRANA QAYITMAĞIMIN TƏSVİRİ

İndi də özümün Məkkə – böyük Allah onu bəlalardan qorusun – yolu ilə Misirdən İrana qayıtmağımın təsvirini verirəm.

Qahirədə bayram namazımı qıldım. 441-ci ilin zilhiccə ayının 14-də çaharşənbə axşamı günü Misirdə gəmiyə oturdum və Səidül-Əla yolu ilə hərəkət etdim. Səidül-Əla Misirin cənub tərəfində vilayətdir. Nil oradan axıb Misirə tökülür. Misirin bolluğu əsasən bu vilayətin hesabına mümkün olur. Orada Nilin hər iki sahili boyu çoxlu kəndlər və şəhərlər vardır ki, onların təsviri verilsə söhbət çox uzun çəkər. Nəhayət, Əsyut adlanan bir şəhərə yetişdik. Tiryək ilk dəfə burada hazırlanmışdır.

Tiryəki xaşxaşın qara tumu olan bir növündən hazırlayırlar. Belə ki, xaşxaş böyüyəndə və qoza bağlayanda onu çərtirlər. Ondan şirə kimi bir şey süzülür. Onu yığır və saxlayırlar. O, elə tiryəkdir. Bu xaşxaşın tumu zirə tumu kimi çox xırda olur.

Əsyutda qoyun yunundan elə çalma toxuyurlar ki, dünyada onun tayı-bərabəri yoxdur. Misir yunu adı ilə İrana (hərfən: Əcəmə) göndərilən zərif yunların hamısı Səidül-Ələdan gəlir. Misirin özündə yunu əyirmirlər. Mən bu Əsyutda fute (fitə) gördüm ki, onun bənzərinə nə Ləhavurda, nə də Multanda rast gəlmişdim. Görkəminə görə onu ipək hesab etmək olardı. Oradan da bir şəhərə gəldik ki, ona Qus deyirdilər. Orada böyük binalar gördüm. Onları elə nəhəng daşlardan tikiblər ki, görən təəccüb edir. Şəhərə daşdan qala divarı çəkilmişdir. Burada binaların çox hissəsi elə iri daşlardan hörülüb ki, onların hər birinin ağırlığı 20 min mən olar. Ən maraqlı cəhət budur ki, bu yerin 10-15 fərsəngliyində nə dağ, nə də qaya var. Bəs bu daşları haradan və necə gətirə bilərdilər?

## MƏKKƏ ŞƏHƏRİNİN TƏSVİRİ – BÖYÜK ALLAH ONU DAHA DA ŞƏRƏFLƏNDİRSİN

Məkkə şəhərini uca dağların arasında salıblar. Hansı səmtdən gəlsələr Məkkəyə çatana kimi onu görmək olmur. Məkkənin yaxınlığındakı ən uca dağ Əbu Qubeys dağıdır. O, günbəz kimi yuvarlaqdır. Belə ki, onun dibindən bir ox atsalar, başına çatar. Bu dağ şəhərin şərqindədir. Belə ki, adamlar dey ayında Məscid əl-Həramda olsalar və dağa baxsalar, görərlər ki, günəş onun təpəsindən doğur. Onun zirvəsində daşdan düzəldilmiş bir bürc (qüllə) var. Deyirlər ki, onu İbrahim – ona salam olsun – tikmişdir. Şəhər dağların arasındakı düzənlikdədir. Sahəsi iki ox uçuşu məsafəsinin kvadratından artıq deyil. Məscid əl-Həram bu geniş açıqlığın ortasındadır. Məscid əl-Həramın dövrəsində şəhər, küçələr və bazarlar yerləşir. Dağın

hansı yerində yarğan varsa, oraya daş hasar çəkilmiş və darvaza qoyulmuşdur. Şəhərin içində ağac yoxdur. Təkcə Məscid əl-Həramın qərb darvazasının yaxınlığında Bab İbrahim adlanan yerdə – su quyusunun yanında bir neçə uca və böyük ağac var.

Məscid əl-Həramdan şərq tərəfə, cənubdan şimala doğru böyük bazar uzanır. Bu bazarın cənub qurtaracağında Əbu Qubeys dağıdır. Əbu Qubeys dağının ətəyi səfadır. O, belədir: dağın ətəyini pilləkənvarı qazıb onların üzərinə cərgə ilə daşlar döşəyiblər. Adamlar bu pillələrlə yeriyirlər və dua oxuyurlar. «Səfa» və «Mərvə» edirlər – deyilən şey odur.

Bazarın şimal qurtaracağında Mərvə təpəsidir. Bu təpə çox da uca deyil. Şəhərin ortasında yerləşən bu təpədə çoxlu bina tikiblər. Bu bazarın bir başından o biri başına kimi qaçırlar.

Məkkənin yarım fərsəngliyində hər yerdə işarə dirəkləri basdırılıb, məscidlər tikilibdir. Əgər birisi uzaqdan gəlibsə və ümrə ziyarəti etmək istəyirsə, ihram halına oradan başlamalıdır. İhram odur ki, adamlar əyinlərində olan bütün tikiş vurulmuş paltarları soyunurlar, bellərinə bir önlük bağlayırlar, digər bir bürüncək və ya örtüklə də bədənlərini örtürlər və uca səslə qışqırırlar: «Ləbbeyk allahumm, ləbbeyk» və Məkkəyə tərəf gedirlər. Əgər kim isə Məkkədə olsa və Ümrə etmək istəsə, o da haman nişan dirəklərinin yanına gedir, orada ihrama girir, «ləbbeyk» deyə qışqırır və ümrə niyyəti ilə Məkkəyə girir.

Şəhərə girəndə o, Məscid əl-Hərama tərəf getməlidir. Ziyarətə gələn Kəbəyə çatanda sağdan onun başına elə dolanmalıdır ki, onun sol böyürü həmişə Kəbə tərəfə baxsın. Sonra o, Qara daş qoyulmuş divara tərəf gedir, daşı öpür, irəli hərəkət

edir. Bu qayda ilə o, bir də dolanır, yenə daşa yaxınlaşır, yenə onu öpür. Bu bir təvf olur. O, bu cür yeddi təvf etməlidir. Ondan üçünü tələsə-tələsə, qaçmaqla, dördünü isə adi yerişlə icra etməlidir. Təvaf qurtarandan sonra İbrahim – ona salam olsun – durduğu yerə gedilir. O, Kəbə ilə üzbəüzdədir. Ziyarətçi gərək İbrahim durduğu yerin arxasında dayansın. Çünki ora Kəbə ilə ziyarət mərasimi icra olunan yerin arasındadır və orada iki rükət namaz qılınır. Ona «təvaf namazı» deyirlər. Bundan sonra Zəmzəm su quyusu olan yerə gedilir, onun suyundan içirlər, ya da üzlərini isladırlar. Sonra Məscid əl-Həramın Bab üs-Səfa deyilən qapısından çıxırlar. Bu, məscidin qapılarından biridir ki, oradan bayıra çıxılanda Səfa dağı və onun pillələri qarşıda durur. Həmin Səfa pillələrinə çıxıb üzü Kəbəyə tərəf tutur və dua oxuyurlar. Duanın sözləri məlumdur. Dua oxunandan sonra aşağı düşür, bazardan keçib Mərvə dağına gedirlər. Bu belədir ki, cənubdan şimala doğru gedirlər. Bazardan keçəndə Məscid əl-Həramın qapılarına baxa-baxa gedilməlidir. Peyğəmbər – ona xeyir-dua və salam olsun – özü də buradan keçəndə tələsmiş və başqalarına da oradan tez-tez keçməyi məsləhət görmüşdür. Buranın eni 50 addım olar. Onun iki yanında dörd minarəı var. Adamlar Səfa dağından axışıb bu dörd minarədən ikisinin arasına qədər gəlirlər. Oradan da bazarın o biri başında olan digər iki minarənin arasına qədər ləhləyə-ləhləyə gedirlər. Oraya çatandan sonra isə Mərvə dağına kimi adi yerişlə hərəkət edirlər. Elə ki, oradakı pillərə çatdılar, onların üzəri ilə yeriyir və məlum duanı oxumağa başlayırlar. Bundan sonra geri qayıdırlar və ikinci dəfə həmin bazardan keçirlər. Deməli, dörd dəfə Səfa dağından Mərvə dağına qədər, üç dəfə isə Mərvədən Səfa dağına qədər gedirlər. Beləliklə, həccə gələnlər yeddi dəfə o bazardan keç-

məli olur. Mərvə dağından enəndə bazardır. Orada üzbəüz tikilmiş 20 dəllək dükanı var. Bütün həccə gələnlər orada başlarını qırxdırırlar.

Ümrə qurtarandan sonra Məscid əl-Həramdan çıxırlar, şərq tərəfdə yerləşən böyük bazara gəlirlər. O bazara Suqul-əttarin deyirlər. Burada gözəl binalar var. Onların hamısı dərman satanlarındır. Məkkədə iki hamam var. Onun döşəməsi adətən bıçaq bülövü hazırlanan yaşıl daşdandır. Mənim hesablamama görə, Məkkədə yerli əhali iki min nəfərdən artıq deyildi. Şəhərdəki qalan əhalinin 500 nəfərə yaxını gəlmələr və ziyarətçilərdən ibarət idi. Mən orada olanda Məkkədə qıtlıq idi. 16 mən taxılı bir Məğrib dinarına satırdılar. Odur ki, əhalinin çoxu şəhəri tərk edib başqa yerlərə getmişdi.

Məkkə şəhərində hər ölkə, məsələn, Mavərənnəhr, Xorasan, İraq və ayrı ölkələrin adamları üçün binalar tikilmişdir. Amma onların çoxu xaraba və viran idi. Bağdad xəlifələri vaxtilə orada çoxlu gözəl binalar tikdirmişlər. Mən orada olanda onların bəziləri xarab olmuş, bəziləri isə xüsusi mülkə çevrilmişdi. Məkkədə olan quyu suları elə duzlu və acıdır ki, onu içmək mümkün deyil. Orada çoxlu iri hovuzlar və böyük çənlər vardır ki, onların hərəsinin tikintisinə on min dinara qədər pul xərclənmişdir. Yağışlar yağıb dərələrdən sel gələndə həmin hovuzları doldururlar. Lakin mən orada olanda hovuzlar boş idi. Şaddil oğlu deyilən bir Ədən əmiri böyük xərc çəkərək yerin altı ilə Məkkəyə su çəkdirmişdi. Ərəfatda o su ilə bostan və zəmiləri suvarırdılar. Yol boyu əkinlərə çox işləndiyi üçün su Məkkəyə az gəlirdi. O da şəhərin içinə qədər gəlib çıxmırdı. Şəhərdən aralı hovuz düzəltmişdilər. Su orada yığılırdı. Su satanlar da oradan gətirib şəhərdə satırdılar. Bərqə yolunun yarım fərsəngliyində Bir-əz-Zahid deyilən bir su quyusu var.

Onun yanında da gözəl bir məscid var. Bu quyunun suyu şirindir. Su satanlar buradan da su gətirib Məkkədə satırlar.

Məkkənin havası çox istidir. Köhnə təqvimlə bəhmən ayının sonunda mən orada təzə xiyar, bədrəng[1] və badımcan gördüm. Mən bununla dördüncü dəfə idi ki, Məkkəyə gəlirdim. Bu dəfə 442-ci ilin rəcəb ayının əvvəlindən zilhiccə ayının 20-nə kimi Məkkədə mücavir oldum. Köhnə təqvimlə fərvərdin ayının 15-də artıq üzüm yetişmişdi. Kəndlilər şəhər bazarında üzüm satırdılar. Ordibehişt ayının əvvəllərində isə yemiş lap yaxşı yetişmişdi. Orada qışda da hər növ meyvə tapmaq olur və bazarlardan meyvə əskik olmur.

## KƏBƏNİN QAPISININ TƏSVİRİ

Kəbənin qapısı sac ağacından qayrılmış ikitaylı qapıdır. Qapının hündürlüyü 6,5 ərəş, hər tayının eni 1 ¾ gəzdir. Onun hər iki tayı 3,5 gəz enliyindədir. Qapının üzü və boyu uzunu, hər yeri yazıdır. Orada oyma üsulu ilə işlənilmiş gümüşü dairələr və müxtəlif naxışlı yazılar var. Yazıları qazma üsulu ilə qızıl və yandırılmış, qaraldılmış gümüşlə yazıblar. Qapının bütün üzünə Qurandan bu ayəni bütövlükdə yazmışlar: «Adamlar üçün tikilmiş ilk ibadətgah Bəkkə həmin məbəddir.» Qapının hər iki tayına Qəznədən göndərilmiş iki böyük gümüş həlqə vurulub. Onları qapının yuxarısından elə vurublar ki, heç kəsin əli oraya çatmır. Onlardan bir qədər kiçik iki gümüş həlqəni isə qapı taylarının aşağısından vurublar. Onlara hamının əli çatır. Aşağıdakı həlqələri iri gümüş qıfılla bağlayıblar. Qıfılı açmasalar, qapı açılmaz.

---

[1] *Bədrəng – Sarı rəngli yemişə oxşar çox da böyük olmayan sitrus meyvəsi*

## KƏBƏNİN İÇƏRİSİNİN TƏSVİRİ

Kəbənin divarının qalınlığı altı pəncədir. Döşəməsi başdan-başa ağ mərmərdəndir. Evin içində 3 kiçik hücrə var. Onlardan biri qapı ilə üzbəüzdədir, ikisi isə şimal tərəfdədir. Damı saxlayan dirəklər sac ağacından yonulmuşdur. Onların biri girdədir, qalanları dördküncdür. Şimal tərəfdə döşəmədə qırmızı mərmərdən uzunsov bir lövhə var. Deyirlər ki, peyğəmbər – ona xeyir-dua və salam olsun – orada namaz qılmışdır. Ziyarətə gələnlərdən kim bunu bilirsə, o, çalışır ki, namazını orada qılsın. Binanın bütün divarları əlvan mərmər lövhələrlə örtülüdür. Evin qərb divarında altı ədəd gümüş mehrab var. Onları divara mıxla vurublar və hərəsi bir adam boyu hündürlükdədir. Onlar qızıl və saf gümüş cövhəri ilə gözəl bəzədilmişdir. Bu mehrabları divarlara döşəmədən müəyyən qədər hündürdən – dörd ərəş yuxarıdan vurmuşlar. Döşəmədən dörd ərəş yuxarı divarlara heç bir bəzək vurulmamışdır. Oradan başlayaraq yuxarıya qədər bütün dörd divar zərli şəkillər və naxışlarla dolu mərmər lövhələrlə örtülmüşdür. Haqqında danışılan o hücrələr ki, biri İraq küncündə, o bir Şam (Suriya) küncündə və biri də Yəmən küncündə yerləşir, onların küncündə hər divara gümüş mıxlarla iki taxta lövhə asılmışdır. Həmin lövhələr Nuhun – ona salam olsun – gəmisinin taxtalarındandır. Hər lövhənin uzunluğu beş, eni isə bir gəzdir. Qara daşın arxasındakı hücrənin divarına qırmızı ipək parça çəkilmişdir. Qapıdan içəri girəndə sağ əldə evin küncündə üç gəz kvadratında dördkünc yer hazırlanıb və oradan pilləkən düzəldiblər. Binanın damına pilləkənlə çıxırlar. Orada Bab ür-Rəhmət adlanan təklaylı gümüş

bir qapı var. Ona gümüş qıfıl vurublar. Evin damına qalxanda orada da bir açıq qapı var. O, evlərin damlarında olan sadə qapılardandır. Onun hər iki üzünə gümüş örtük çəkilib. Evin üstünə ağac tirlər döşənmişdir. Lakin bu tirlər ipək parçalarla elə sarınıb ki, onları görmək olmur. Evin qabaq divarının fasadında qızıl bir kitabə asıblar. Orada Məkkəni Abbasi xəlifələrinin əlindən almış Misir sultanı Əl-Əziz-üd-Dinallahın adı yazılmışdır. Bundan əlavə orada yenə dörd böyük gümüş taxta var. Onları həmin divara yan-yana gümüş mıxlarla vurublar və hər birinin üstündə Misir sultanlarından birinin adı yazılmışdır. Həmin gümüş lövhələri o hökmdarların özləri hakimiyyət dövrlərində buraya göndərmişlər. Sütun dirəklərin arasında dörd gümüş çılçıraq asılmışdır. Kəbənin damı büllura bənzər yəməni mərməri ilə örtülmüşdür. Kəbənin dörd divarında dörd pəncərə var. Onların hamısına ayna salınmışdır. Otaqlara işıq onlardan düşür və yağış sularını buraxmır. Yağış suyunun novçası evin şimal divarının ortasında düzəldilib, uzunluğu üç gəzdir və üstü tamamilə qızılla yazılmışdır. Kəbənin örtüyü ağdır. Onun üstündə iki naxışlı hörmə zolaq var. Zolaqların eni bir gəz, aralarındakı məsafə isə təqribən on gəzdir. Onların alt və üstlərindəki məsafə də o qədərdir. Bu iki zolağa görə evin hündürlüyü üç bərabər hissəyə ayrılmışdır. Onların hər biri on gəzə yaxındır. Bu örtüyün dörd ucuna mehrab (aypara) şəkilli naxışlar toxunmuşdur. Onları qızıl saplarla naxışlayıblar. Örtüyün hər tərəfində üç taxca var: biri ortada böyük, ikisi isə yanlarda olmaqla kiçikdir. Beləliklə, dörd divarda on iki mehrab vardır.

Kəbə evinin bayırında, şimal tərəfində 1,5 gəz hündürlüyündə bir divar hörülüb. Divarın hər iki başı Kəbənin küncü ilə birləşir. Belə ki, o, əyilmiş yarımdairə şəklindədir.

Bu divarın orta hissəsi Kəbə divarından on beş gəz aralı qalır. Buranın divarı və döşəməsi müxtəlif rəngli və naxışlı mərmərlə örtülmüşdür. Ona əl-hicr divarı deyirlər. Kəbənin damından yağış suyu novça ilə axıb əl-hicrə tökülür. Novçanın altına mehrab formasında yaşıl lay daş qoyublar. Axar suların hamısı onun üstünə tökülür. Bu daş o böyüklükdədir ki, adam onun üstündə namaz qıla bilər. İbrahimin – ona salam olsun – durduğu yer Kəbənin şərq tərəfindədir. O, elə bir daşdır ki, İbrahimin – ona salam olsun – iki ayağının da izi onun üstündə qalıb. O daşı digər bir daşın üstünə qoyublar. Onun da üstünə gümüş lövhə ilə çox gözəl işlənilmiş adam boyu hündürlüyündə dördbucaq taxta örtük çəkilmişdir. Həmin qılafı iki tərəfdən zəncirlə iri daşlara bağlayıblar. Zəncirlərə iki qıfıl vurulub ki, heç kəs əli ilə ona toxunub açа bilməsin. Bu yerdən Kəbəyə qədər otuz ərəşdir.

## ZƏMZƏM QUYUSU

Zəmzəm quyusu da Kəbənin şərq tərəfində, Qara daş olan küncdədir. Zəmzəm quyusundan Kəbəyə qədər olan məsafə 46 ərəşdir. Quyunun ağzının diametri 3,5 kvadrat gəzdir. Onun suyu duzlu təhərdir, lakin içmək olar. Quyunun dövrəsinə iki ərəş hündürlüyündə ağ mərmərdən hasar çəkilmişdir. Hasarın dörd tərəfində su nohurları düzəldiblər. Quyudan su çıxardıb oraya tökürlər ki, adamlar dəstəmaz alsınlar. Zəmzəm hasarının içindəki döşəməni şəbəkə taxtalardan düzəldiblər ki, tökülən su axıb yerə getsin. Onun qapısı şərq tərəfdədir.

Zəmzəm hasarının şərq tərəfinin üzbəüzündə dördkünc və günbəzli digər bir hasar da var. Ona Siqayət ul-hac deyirlər.

Onun içində küplər qoyulub ki, hacılar onlardan su götürüb içsinlər. Siqayət ul-hacdan şərq tərəfdə üçgünbəzli uzun bir bina da var ki, ona Xizanət üz-Zeyt deyirlər. Şam, yağ və lampaları onun içində saxlayırlar.

Kəbənin dövrəsində hər yerdə sütunlar ucalır ki, onların başlarını ağac tirlərlə iki-iki birləşdiriblər. Bu birləşdirici tirlər bəzəklərlə və şəbəkələrlə gözəl işlənilmiş, onlara həlqələr və mıxçalar vurulmuşdur ki, axşamlar onlara şamlar qoyulsun və lampalar asılsın. Onlara məşail deyirlər.

Kəbə divarından bu məşailə qədər olan məsafə 150 gəzə yaxındır. Bu elə həmin təvafgahdır. Beləliklə, Məscid əl-Həramın həyətində Allah-taalanın şərəfli etdiyi əzəmətli Kəbədən başqa üç bina da vardır ki, onlardan biri Zəmzəm binası, o biri Siqayət ul-hac və digəri Xizanət üz-Zeytdir.

Məscidin ətrafında örtülü eyvanın divarı yanında sandıqlar qoyulmuşdur. Onlar Məğribin, Misirin, Suriyanın, Rumun, İraqeynin, Mavərənnəhrin və digər vilayətlərin ayrı-ayrı şəhərlərinə məxsusdur.

Məkkənin şimalında dörd fərsəng aralı Burqə adlanan yer var. Məkkə əmiri öz qoşunu ilə orada yaşayır. Orada axar su və ağaclar var. Bu sahənin uzunluğu iki fərsəng, eni də o qədərdir. Bu ildə rəcəb ayının 1-də mən Məkkə ziyarətində idim. Rəcəb ayında hər gün çıxanda Kəbənin qapısını açmaq orada adətdir.

## KƏBƏ QAPISININ – ALLAH ONU DAHA DA ŞƏRƏFLƏNDİRSİN – AÇILMASININ TƏSVİRİ

Kəbənin açarı Bəni-Şeybə adlanan bir ərəb qəbiləsinin adamlarının əlində olur. Kəbənin bütün xidmətlərini də onlar

icra edirlər. Bu xidmətin əvəzində onlar Misir sultanından aylıq maaş və xələt alırlar. Onların bir başçısı var ki, açar həmişə onda olur. O, Kəbəyə gələndə onu beş-altı nəfər müşayiət edir. Onlar Kəbəyə yaxınlaşanda ziyarətə gələnlərdən on nəfər (yuxarıda təsviri verilən) nərdivanı gətirib Kəbənin qapısının qabağına dayayırlar. Başçı o nərdivanla qalxır və Kəbənin astanasında dayanır. Bu zaman oraya iki nəfər qalxır və sarı ipək örtüyü götürürlər. Onlardan biri örtüyün bir ucundan, digəri isə o biri ucundan tutur və rəisi pərdənin arasına alırlar, onu o vaxta qədər orada saxlayırlar ki, o, qıfılı açır və onu həlqələrdən çıxardır və qapını açır. Bu zaman hacıların böyük bir dəstəsi qapının yanında dayanır. Qapı açılan kimi onlar əllərini qaldırıb dua oxuyurlar.

Məkkədə olan digər adamlar hacıların səsini eşidəndə bilirlər ki, artıq əl-Həramın qapısını açdılar. Bütün camaat bir ağızdan ucadan dua oxumağa başlayır. Məkkəni əzəmətli səsküy başına götürür. Sonra başçı içəri girir. O biri iki nəfər də örtüyü kənara tutub saxlayır və başçı iki rükət namaz qılır. Bundan sonra başçı qayıdıb qapının hər iki tayını açır, astanada dayanır, uca səslə xütbə oxuyur, rəsulillaha – ona xeyir-dua və salam olsun – və onun ailə üzvlərinə salavat çevirir. Bu zaman başçı və onu müşayiət edən şəxslər Məscid əl-Həramın sağ və solunda dayanırlar, ziyarətçilər gəlib keçir. Məscid əl-Hərama daxil olurlar. Onların hər biri orada iki rükət namaz qılır və günortaya yaxın oradan çıxırlar. Kəbədə namaz qılanda üzü qapıya doğru tuturlar, lakin digər tərəflərə də tutmaq olar. Bir dəfə Kəbə adamla dolu olanda və oraya artıq bir nəfərin də girməsinə yer qalmayanda mən onları saydım. Orada 720 nəfər adam var idi.

Yəmən əhalisi Məkkəyə ziyarətə gələndə geyimlərin-

dən hindlilərə oxşayırlar. Belə ki, onlar da hindlilər kimi bellərinə qətfə bağlayır, saçlarını uzadır və saqqallarını hörürlər. Hər birinin kəmərindən də bir xəncər asılır. Deyirlər ki, hindlilərin əcdadları yəmənlilər olmuşdur və hindlilərin xəncərə verdikləri ad «kettare» kəlməsi də ərəblərin «kətale» sözündəndir.

Şəban, ramazan və şəvval aylarında Kəbənin qapısı bazar ertəsi, cümə axşamı və cümə günləri açıq olur. Lakin zilqədə ayı çatanda Kəbənin qapısını açmırlar.

## BƏSRƏDƏ ƏLİ ZİYARƏTGAHLARI

Bəsrədə əmirəlmöminin Əli ibn Əbu Talibin – ona Allahın rəhmi gəlsin – adına 13 ziyarətgah vardır. Onlardan biri bəni-Məzyəd ziyarətgahı adlanır. Bu haman ziyarətgahdır ki, peyğəmbərin – ona Allahın xeyir-dua və salamı olsun – hicrətindən 35 il sonra rəbiüləvvəl ayında əmirəlmöminin Əli – Allahın ona rəhmi gəlsin – Bəsrəyə gəlir və Aişə – Allah ondan razı olsun – onunla döyüşür. Əmirəlmöminin – ona salam olsun – Məsud Nəhşəlinin qızı Leyli ilə evlənir. Bu ziyarətgah həmin qadının evi idi. Əmirəlmöminin – ona salam olsun – 72 gün bu evdə qalandan sonra Kufəyə qayıdır. Cümə məscidinin yanında Bab üt-Teyb adlanan digər bir ziyarətgah da var. Bəsrə məscidində mən elə bir tir gördüm ki, onun uzunluğu 30 ərəş, eni isə beş qarış dörd barmaq idi. Onun bir ucu daha yoğun idi. Bu, hind ağaclarının bir növündən idi. Deyirlər ki, əmirəlmöminin Əli – ona salam olsun – onu Hindistandan buraya gətirmişdir. Yerdə qalan on bir ziyarətgahın isə hərəsi bir məhəllədə idi. Mən onların hamısını ziyarət etdim. Halımız və

kefimiz yaxşı olandan sonra bir gün hər ikimiz təzə paltarımızı geyib bir vaxt bizi içəri buraxmayanların hamamına getdik. Elə ki, qapıdan içəri girdik, hamamçı və orada olanların hamısı ayağa qalxdılar. Biz orada olduğumuz müddətdə onlar ayaq üstə dayandılar. Sonra dəllək və kisəçəkən gəldi və bizə xidmət etdi. Biz paltarımızı geyib hamamdan çıxanda da hamamın paltar soyunub-geyilən yerində olan xidmətçilərin hamısı ayaq üstə dayanmışdılar. Onlardan biri də oturmamışdı. Bu əsnada hamamçılardan biri öz yanındakına dedi: «Bu cavanlar haman adamlardır ki, biz onları filan gün hamama buraxmadıq.» Elə bilirdilər ki, biz onların dilini bilmirik. Mən ərəb dilində dedim ki: «Düz deyirsən, biz o adamlarıq ki, cındır palaza bürünmüşdük.» O adam xəcalət çəkdi və bizdən üzr istədi. Bu iki hadisə 20 günün ərzində baş vermişdi. Bu əhvalatı ona görə yazıram ki, adamlar başa düşsünlər ki, ruzigarın qarşıya gətirdiyi pis günə nalə etmək lazım deyil. Cah-cəlal sahibi o böyük qayğıkeş və hamıya rəhm edən Allahdan ümidi kəsmək olmaz. Çünki o, ulu və mehribandır.

## QAYITMAQ. İSFAHAN. TƏBƏS. TUN. YENİDƏN BƏLXDƏ

Biz oradan yola düşdük və 444-cü ilin səfər ayının 8-də İsfahan şəhərinə çatdıq. Bəsrədən İsfahana qədər 180 fərsəng yoldur. İsfahan düzənlikdə salınmışdır, suyu və havası çox gözəldir. Hər yerdə on gəz dərinlikdə quyu qazılan kimi oradan sərin və içməli su çıxır. Şəhərin ətrafına darvazaları və döyüş meydançası olan uca və möhkəm hasar çəkilmişdir. Divarların üstü boyu hər yerdə dişlər var. Şəhərdə gözəl, uca binalar, or-

tasında qəşəng bir cümə məscidi, axar sulu arxlar var. Dedilər ki, şəhər hasarının uzunluğu üç fərsəng yarımdır. Şəhərdəki binaların hamısı abad idi, orada bir dənə də xarab bina görmədim. Çoxlu bazar var. Sərraflar bazarında 200 sərraf var idi. Hər bir bazarın dövrəsinə hasar çəkilmiş, qapı və darvaza qoyulmuşdur. Hər məhəllə və küçədə hasara alınmış və möhkəm darvaza qoyulmuşdur. Orada gözəl karvansaralar var. Bir küçəyə Tiraz küçəsi deyirdilər. O küçədə əlli yaxşı karvansara var. Onun hər birində çoxlu tacir və digər alverçilər öz hücrələrində oturub ticarətlə məşğul olurdular. Biz qoşulub getdiyimiz karvan 1.300 xərvar müxtəlif yük aparırdı. Biz o şəhərə daxil olanda o qədər boş binalar, karvansaralar var idi ki, biz yer, yemək və dəvələrə üluf vermək sarıdan əsla narahatlıq hiss etmədik. Sultan Toğrul bəy Əbu Talib Məhəmməd ibn Mikail ibn Səlcuq – Allah ona rəhmət eləsin – bu şəhəri alanda əsli Nişaburdan olan cavan bir oğlanı oraya hökmdar təyin etmişdi. Onun gözəl xətti vardı, çox sakit və gözəl bir oğlan idi, adı Xacə Əmid idi. O, elm sahiblərinin qədrini bilirdi, səxavətli və şirindil bir şəxs idi. Sultan əmr etmişdi ki, şəhər əhalisindən üç il müddətində heç bir vergi alınmasın. Oranın hökmdarının bu göstərişinə əməl edildiyi üçün şəhərdən çıxıb getmiş adamların hamısı doğma yerlərinə qayıtmışdılar. Bu cavan oğlan vaxtilə sultanın katiblərindən olmuşdur. Biz oraya çatmazdan əvvəl orada bərk aclıq, qəhətlik olmuşdu. Biz oraya çatanda isə arpa biçini başlamışdı. Bir mən yarım buğda çörəyini bir dirhəmə, üç mən arpa çörəyini də bir dirhəmə satırdılar. Oranın adamları söyləyirdilər ki, bu şəhərdə heç kəs səkkiz mən çörəyin bir dirhəmdən baha satıldığını görməmişdir. Mən farsdilli vilayətlərdəki şəhərlərin heç birini İsfahan qədər gözəl, çox əhalisi olan və abad görmədim. Deyirdilər ki, bu şəhərdə

arpa, buğda və digər dənlər 20 il qalsa da xarab olmur. Bəzi adamlar deyirdilər ki, şəhərin ətrafına hasar çəkilməzdən qabaq buranın havası indikindən daha da yaxşı idi. Hasar çəkiləndən sonra hava dəyişdi və o, bəzi şeylərə zərər vurdu. Lakin kəndlər əvvəllər olduğu kimi qalır.

Karvan gec yola düşdüyü üçün 20 gün İsfahanda qalmalı oldum. Səfər ayının 28-də oradan çıxdıq və Heysəmabad adlanan kəndə gəldik.

## CƏNNƏT

Rəbiülaxir ayının 9-da Rəqqədən çıxdıq və ayın 12-də Tun şəhərində olduq. Rəqqə ilə Tunun arası 20 fərsəngdir. Tun vaxtilə böyük şəhər imiş, amma mən orada olanda şəhərin çox hissəsi dağılmışdı. Şəhər düzənlikdə salınıb, axar suyu, kəhrizləri, şərq tərəfində çoxlu bağları var. Şəhərin dövrəsinə möhkəm hasar çəkilmişdir. Mənə dedilər ki, bu şəhərdə 400 kilim-xalça karxanası olmuşdur. Şəhərin həyətlərində çoxlu püstə ağacları var idi. Lakin Bəlx və Təxarıstanın camaatı elə zənn edirdi ki, püstə dağlıq yerlərdən başqa digər yerlərdə bitmir. Tundan çıxandan sonra bizi müşayiət edən giləkli nağıl etdi ki, bir dəfə biz Tundan Qunabada gedirdik. Birdən quldurlar bizə hücum etdilər və bizə qalib gəldilər. Qorxudan bir neçə adam özünü kəhriz quyusuna atdı. Quyuya düşənlərin birinin atası yumşaq qəlbli bir adam idi. O, əhvalatı eşidib tez buraya gəldi və bir cəsur adama pul verib quyuya salladı ki, oğlunu oradan çıxartsın. Camaatda nə qədər kəndir, ip var idisə topladılar. Oraya çoxlu adam yığışmışdı, 700 gəz kəndirlə həmin adamı quyuya salladılar. O adam quyunun dibinə çatdı,

həmin kişinin oğlunu ölmüş halda tapdı, onun belinə ipi bağladı və yuxarı dartıb çıxartdılar. Quyuya girən adam danışırdı ki, kəhrizdən böyük bir arxın suyu qədər su axır və kəhrizin uzunluğu dörd fərsəngdir. Deyilənə görə, o kəhrizi Keyxosrovun əmri ilə qazmışlar.

Rəbiülaxir ayının 23-də Qain şəhərinə çatdıq. Tundan oraya qədər olan məsafəni 18 fərsəng hesab edirlər, lakin fərsənglər ağır olduğu üçün karvan oraya 4 günə çata bildi.

## QAİNDƏ BİLİKLİ BİR ADAM

Qaində Əbu Mənsur Məhəmməd ibn Dust adlı bir adama rast gəldim. O, hər bir elmdən xəbərdar idi. Tibbi, məntiqi və nücumu gözəl bilirdi. O, mənə belə bir sual verdi:

– Necə bilirsən, bu asimandan və ulduzlardan o yanda bir varlıq mövcuddurmu?

Mən:

– Varlıq dedikdə o, yalnız səmanın altındakılardır, qalanların hamısı isə heçdir – dedim.

Soruşdu:

– Necə bilirsən, bəs bu göy qübbəsindən kənarda qeyrimaddi də olsa bir şey var, ya yox?

Dedim:

– Şübhəsiz ki, var, çünki aləm deyilən şey məhduddur, onun sonu – həddi isə fələkül-əflakdır. Son həd biri digərindən ayrılan yerə deyilir. Bu halı biləndən sonra demək olar ki, səmadan kənardakı şeylər onun altındakı və ya içindəki kimi deyildir.

Soruşdu:

– Əgər səmadan o yana qeyri-maddi bir aləm olduğunu ağıl kəsirsə, onda oranın özünün də bir son həddi var, ya yox? Əgər onun son həddi varsa, o, haraya qədər uzanır, əgər son həddi yoxdursa, hüdudsuz bir şey necə ola bilər?

O, mənə bu qəbildən bir neçə sual verdi və mən də ona cavab verdim. Axırda dedi:

– Bütün bunlar məni çox heyrətləndirir.

Dedim:

– Kim heyrətlənməmişdir?

## QARDAŞIMLA GÖRÜŞ

Aradan bir qədər keçdi, karvan yola düşdü, biz də yola düşdük. Həmin xidmətçi dedi:

– İndi ağam gələr. Əgər o, sizi görməsə qəmgin olar. Siz o məktubu mənə versəniz, mən ona çatdıraram və sevinər.

Qardaşım dedi:

– Sən Nasirin məktubunu istəyirsən, yoxsa Nasirin özünü? Budur Nasir sənin qabağındadır.

Həmin xidmətçi sevindiyindən bilmirdi ki, nə etsin.

Biz Miyan Rusta yolu ilə Bəlx şəhərinə tərəf hərəkət etdik. Mənim qardaşım Xacə Əbülfəth Dəşt yolu ilə Dəstgirdə gəlibmiş və vəzirlə birlikdə Xorasana əmirin yanına gedirmiş. O, bizim həccdən qayıtdığımızı eşidəndə Dəstgirddən qayıdır, Cəmügəyan körpüsünün başında dayanır və bizim oraya çatdığımızı gözləyir. O gün 444-cü ilin cəmadiyəlaxır ayının 26-sı cümə ertəsi günü idi.

Biz bütün ümidlərimizi itirəndən, dəfələrlə ölüm təhlükəsində qalandan, sağ qalacağımıza ümidimiz qırılandan

sonra yenə bir-birimizlə görüşüb şadlandığımız, birləşə bildiyimiz üçün pak və ulu Allaha şükürlər etdik. Bu dediyim tarixdə Bəlx şəhərinə çatdıq və əhvalımızı aşağıdakı bu 3 beytdə izhar etdim:

*Dünyanın dərd-qəmi artıq olsa da,*
*O da şadlıq kimi daimi olmaz.*
*Fələk bizdən ötrü fırlanır hər an,*
*Əgər biri keçsə, yeri boş qalmaz.*
*Səfərdən qayıtdıq, indi gözlərik,*
*Elə bir yolu ki, heç kəs qayıtmaz.*

Ziyarətlər dövründə müqəddəs ziyarət yerlərini və digər yerləri dolaşdığımızdan əlavə, Bəlxdən Misirə, oradan da Məkkəyə getdiyimiz, sonra isə Bəsrə yolu ilə Farsa və nəhayət, Bəlxə qayıtdığımız məsafə 2220 fərsəng idi. Mən bu səyahət dövründə gördüklərimi doğru, düzgün, olduğu kimi yazmışam, lakin bəzən də rəvayətləri, eşitdiklərimi oraya əlavə etmişəm. Onlarda dəqiqlik olmasa, oxucular günahı məndə görməsinlər, məzəmmət etməsinlər və töhmətləndirməsinlər.

Pak və böyük Allahın köməyi ilə əgər Şərq ölkələrinə də səfər edə bilsəm, gördüklərimi bu qayda ilə yazacağam. İnşallah! Yeganə, qüdrətli və ulu Allahın istəyi ilə!

Dünyanı yaradan Allaha şükür olsun! Məhəmmədə, onun ailəsinə və cəmi dostlarına xeyir-dua olsun!

## QARTAL LƏLƏKLİ OX

Yalçın qaya üstünə bir qartal qanad gərdi,
Güvəndi şəhpərinə, yalnız şikardı dərdi
Baxıb öz görkəminə sonsuz qürurla dindi:
«Qanadım altındadır bütün yer üzü indi.
Günəşə yüksəlməyə gücüm var, sürətim var,
Ümmanlara çıxmağa gücüm var, cürətim var.
Çöp üstə qımıldayan bircə mığmığa belə
Bu iti nəzərimdən yayınmayıbdır hələ.»
Öz-özünü çox öydü, baxmadı da qəzaya,
Bu amansız fələkdən axır gəldi cəzaya.
Qəfildən süzə-süzə bir ox gəldi üstünə,
Qəzanın oxu qoydu zavallını pis günə.
İti ox qanadını deşib bağrına batdı,
Buludların qoynundan onu torpağa atdı.
Balıq tək çapaladı, torpaq üstə sərildi,
O sınmış qanadları sağa-sola gərildi.
Dedi: «Bu ki, ağacdır, bir parçacıq da polad,
Bəs sürətlə uçmağa hardan alıb qol-qanad?»
Lələyi oxda görüb: Lələk mənimdir, – dedi,
Öz lələyim özümə necə qənimdir, – dedi.

## KƏNDLİYƏ SİTAYİŞ

Kəndlidir xilqətin əziz övladı,
Quşu, vəhşini də sevdi, tovladı.
Sənətkar işləməz boş yerə, müftə,
Axırda nəsibdir kəndliyə süftə.
Odur şadlıq verən şəhərə, kəndə,

Tarlada, bağlarda zəhmət çəkən də.
Nemət, firavanlıq əməlindədir,
Məxluqun ruzisi öz əlindədir.
Çörək qəhətliyi çəkməsə əyər,
Kim ondan üstünəm, artığam deyər.
İşləyər xışıyla yer sökə-sökə,
Xalqa nemət verər tər tökə-tökə.
Var xəzinədarıdır, – möhtacdır hamı,
Onca barmağıdır qəlblərin şamı,
Dən səpən, bağ salan, gül dərən odur,
Dünyanı cənnətə döndərən odur.

## SƏNƏTKARA SİTAYİŞ

Varmı sənətkardan daha bəxtiyar.
Əlin qazancından ləzzətli nə var?!
Gündüzlər işinə bağlıdır canı,
Gecələr evinin – şahı, sultanı.
Qazancı nədirsə onu da yeyər,
Sanma işləməkdən yoruldum deyər.
Töhvə – qazancıdır övladlarına,
Darınmaz varını dosta, yarına.
Gecənin qoynunda qayğısız yatar,
Səhər açılanda işə can atar.
Qulluq, itaətdən deyil, narazı,
Xaliq də razıdır, məxluq da razı.
Əzab-əziyyəti gəlməz arına,
Güvənər zəhmətin halal varına.
Başı göylərdədir getsə də hara,
Şahlar da möhtacdır sənətkarlara.

## NƏSİHƏT

Gör qocaman alim nələr deyibdir,
Onu dinləməmək sənə eyibdir.

Uyma alçaqlara, yaramazlara,
Düşmə öz əlinlə zillətə, dara.

Nə qoşul alçağa, nə bax sözünə,
Alimlər yolunda ev tik özünə.

Yaxşıya yaxşı ol, pisə də pis ol,
Namərddən uzaqlaş, xeyrə bais ol.

Qəfəs – gülüstandır comərdlər ilə,
Gülüstan – qəfəsdir namərdlər ilə.

Pis dosta, qardaşa arxalanma sən,
Onlardan yaxşıdır ağıllı düşmən.

Aqil insan hara, düşmənlik hara?!
Dost demə biganə, qafil dostlara.

## BİLİK

Nadansan, cahilsən bil ki, nə qədər, –
Günün, ayın, ilin ötüşsə hədər.

Biliklə yaşarsan daim həyatda,
Puçdur nadanlıqla keçən həyat da.

Hikmətlə, biliklə, comərdliklə sən,
Hər iki dünyada şahsan, hakimsən.

Zülmətdir cahana, cana cəhalət,
Könül sirrdaşına bəlli bu halət.

İş səni yetirər vara, qazanca,
İşsiz, qazancın da gedər asanca.

## PİSLİK VƏ NƏCİBLİK

Sənə bu dünyanı nə eylər qəfəs,
Onunla ülfəti, əlaqəni kəs.
Hərislik, acgözlük, tamah simiclik,
Şəhvət, hiyləgərlik, xəyanət, biclik,
Paxıllıq, dargözlük, təkəbbür, qürur,
Əngəldir, hər işdə bir ziyan vurur.
Onlardan uzaqlaş, başqa dost ara,
Arxalan şöhrətli, şanlı dostlara.
Bunlar comərdlikdir, onlar bədxahlıq,
Eylə öz könlünün mülkünə şahlıq.
Xeyirxah dostların yetiş dadına,
Bədxahlar ləkədir təmiz adına.
Ən böyük İnsansan olsan belə sən,
Belə deyilsənsə, divsən elə sən.

## ALLAHLA MÜBAHİSƏ

İlahi, istəsən gen dünyanı sən
Qarışqa qəlbinə yerləşdirərsən.

Nə incə tük qədər aləm kiçilər,
Nə qarışqa qəlbi böyümək bilər.

Qadir hökmün çatar min-min dağa da,
Onları sədəfə doldurmağa da.

Ülvi qüdrətinə aləm qalar mat,
Bir anda yaranıb yer, göy, kainat.

Nə qədər ağac ki, ot-bitki ki var,
Hökmünlə titrəşər küləkdən onlar.

Varlığın təməli sənlə mətin,
Yolunda məşəqqət sayılmaz çətin.

Canlının, insanın varlığı bəlli,
Varlığa inanmaq – inam, təsəlli.

Yaratdın bəşəri, – canlı insanı,
Əkdin könüllərdə fitnə fidanı.

Əkinçi səpdiyi hər toxum, hər dən,
Alar qidasını səmadan, yerdən.

Şuma, tarlasına arpa səpən kəs –
Arpa əkibsə də, buğda ki biçməz.

Sən yaradan gündən əzəl xilqəti,
Əzaba atmısan gözəl xilqəti.

Bəşəri itaət üçün yaratdın,
Bəs xain iblisi neçin yaratdın.

Sözüm çox olsa da, demək çətindi,
Nəfəs çəkməyə də qorxuram indi.

Tükcə yox inamım – danmaz zahidlər,
Nə desə, yalandır qanmaz zahidlər.

Ariflər kəlamı – könül sevinci,
Sədəfdən alınar qiymətli inci.

Şəkkə, şübhələrə dəlillərim var,
Qorxuram olaram qəzəbə düçar.

Çətindir asilik, günaha batmaq,
Çətindir sərt yayı gərib ox atmaq.

Bilmirəm qiyamət olacaq necə,
Hər kəs cəzasını alacaq necə.

İstəsən gizlədəm hər bir şübhəni, –
Heyvan yaradaydın gərək sən məni.

Məhşərdə davaya qalxam mən gərək,
Dilim çıxarıla kökündən gərək.

Dilim kəsilməsə haqq divanında,
Kəsilməz höccətim tanrı yanında.

Ədalət yalanmış – kəsilsə dilim,
Ədalət neçinmiş – istərəm bilim.

Görsəm, tanrı hara, qiyamət hara,
Nifrət yağdıraram mən xülyalara.

Versən öz yerini özgəyə hərgah,
Tələşa dəyərmi elə bir dərgah.

Buyur, aparsınlar düz cəhənnəmə,
Yəqin göstərərəm üz cəhənnəmə.

İnsafa, mürvətə yaraşarmı bu, –
Özün yox, özgəsi apara sorğu?!

O dünya deyil ki, bu dünya kimi,
Pul-rüşvət aldada orda hakimi.

Özünə bəllidir hər yaxşı-yaman,
Gələrsən sorğuyla tutulan zaman.

Günahkar deyiləm, sayma günahkar,
Günahım varsa da, sənsən səbəbkar.

Hiyləgər iblisi görmürdü gözün?
Niyə ürəklərdə yer verin özünü?!

Ehtiras – şəhvətə yaratdın ülfət,
Həzz verən ləzzətə çevrildi şəhvət.

Şəhvətlə doldurdun damarları da,
İstəklə qazandın etibarı da.

Gödəni eylədin tamaha əsir,
Məxluqun tələşlə hey ruzi gəzir.

Unamaz haramdır, yoxsa ki halal,
Tökər acgözlüklə qarnına dərhal.

İt nəfsi – bezdirər, zəhləmi tökər,
Ac-yalavaclığı içimi sökər.

Qulaqda həssaslıq, – dinləyər səsi.
Dil açan bərbətin inləyər səsi.

Əsər əyyaşlıqdan qəlbimdə tellər,
Boğar nəşələrin qoynunda sellər.

Düşdü bolqarların zülmü yadıma,
Onlar baisdilər ah-fəryadıma.

Yoxdur bolqarlarda əslində günah,
Düzünü deyərəm eşitsən hərgah.

İlahi, fitnəkar düzü, özünsən,
Etiraz etməkdən çəkinirəm mən.

Türk gözəllərinin dodağı, dişi,
Niyə füsunkardır yaradan, kişi?!!

Ağlı başdan alır gözəllikləri,
Barmağı ağızda qoyur hər pəri.

Göstərib gülüzlü, gülyanaqları, –
Çəkirsən sinəyə çarpaz dağları.

Öyrətdin alova bürünməyi də,
Gözəllər ardınca sürünməyi də.

Ehtiras kükrəyir, sönmür, nə haldı?
Gözəllər torundan çıxmaq mahaldı.

Nə qəlbi nəşəylə odlayaydıq, kaş!
Nə düzdə ulaqtək otlayaydıq, kaş!

Niyə məhşər xofu sarsın ürəyi?
Qorxular, tələşlar yarsın ürəyi.

Hiylə-fəsad qatıb al meyə iblis,
İçirdir insanı «nuş», – deyə iblis.

Əgər incitməyə qıymasan canı,
Niyə yaradırdın rəzil şeytanı?!

Qəlbən vurulmasa qıvrım saçlara, –
Hörüklər aşiqi çəkməzdi dara.

Cəzanla yerimiz qiyamətdədir, –
Bu qədər yalvarış, iltimas nədir?!

Çəksin yalvarışla hüzura əmrin,
Lakin qorxutmasın gözləri Əmrin.

Buyurdun bəşərin övladlarına:
Uymayın iblisin fəsadlarına.

Canımda, qanımda yer verdin ona,
Hökm edir: fəsadla girim min dona.

Özün yer vermisən mülkündə mənə,
Zülmün rəvadırmı bəs gündə mənə?!

Özün eyləmisən məhbəsdən azad,
Quldurun yolumda törədir fəsad.

Orucun, namazın, ziyarətin var.
Əmrinə qayilik, etmirik inkar,

Ceyran ovçususan, şübhə yox buna,
Mümkünmü düşməsin şikar toruna.

Ahuya deyirsən: «Durma, qaç, dazı»,
Hürküdüb dalınca salırsan tazı.

Səcdə, ibadətə vermisən meydan,
Girib ürəklərə azdırır şeytan.

Özün doğru yola sövq etdin bizi,
Azdıran, yolkəsən qoydun iblisi.

Adil saymaq olmaz xislətdə səni, –
Dost üstə göndərsən qatı düşməni.

Nə xeyri, – açıqdır dərgah üzlərə,
Yolları bağlısa hərgah üzlərə,

Mətləb niyə burda təzələnməsin?
Yumaq açılmasın, çözələnməsin?

Qurtara bilmirəm vəhşətdən, aman!
Ürəyim çırpınır dəhşətdən, aman!

Tələşla, arzuyla doldurur deyə,
Uçunmaq nəsibdir həssas ürəyə.

İtaət, sitayiş dilədin bizə,
Cənnətə, – köləlik verdi din bizə.

Demək, köləliyə biz haqq alırıq,
Niyə minnətinə möhtac qalırıq.

Hümmət sayılmırsa – köləlik haqqı,
Hər kəsə çatıbmı hələlik haqqı?!

Cəza – mükafatla ansan insanı,
Sənin insanlardan bəs fərqin hanı?!

Sənə görə pakam, ya da nanəcib,
Nəcib yaradaydın əzəldən, nəcib!

Cəza yaraşarmı əməlimizə?
Pisiksə, niyə can vermisən pisə?!

Sənsiz, yaxşılarda pislik olarmı?
Yaxşıya pisliyin mənası varmı?

Dəmir yaranmışam, cilam hanı bəs,
Dəmiri yaradan bəs cila verməz?!

Yüz dəfə yandırsan kürədə məni,
Dəyişən deyildir kürə də məni.

Yandırsan, başıma açsan min oyun,
Kimsənin önündə əymərəm boyun,

Diləklə yapışıb əl ətəyindən,
Üzmə əllərimi gəl ətəyindən.

Dinlə sözlərimi azacıq yenə,
Noğul şirinliyi bəxş edim sənə.

Xəyal aləmində yatmışdım gecə,
Şirin röyadaydım mən səhərəcə.

Göydən qulağıma yetişdi bir səs,
Onu dinləməyə göstərdim həvəs.

Görünməz aləmdən gələn bir pəri
Dedi ki, qurtarsan, bu söybətləri.

Günahdan keçəndən düşmə tələşə,
Səhər badəsini qorxma, çək başa.

Günah saymayıram dediklərini,
Saymağa dəyərmi xeyir-şərini...

Kim bizi tanısa, salsa yadına,
Töhvəmiz hazırdır daim adına.

Qapımız açıqdır məslək ərinə,
Çatar arzusuna, diləklərinə.

Nasir, fikir çatmaz düşüncələrə,
Çatsaydı, qadidin gör bir nələrə.

## QILINC OL

***«Səadətnamə»dən***

Qılınc ol, – sülh ilə gah girər qına,
Qəzəblə sıyrılar gah qından qılınc.
Su kimi şəffafdır iki üzü də,
Od saçar hər iki ağzından qılınc.

## MƏDDAH ŞAİRLƏRİ MƏZƏMMƏT

Dəm vurma şairlik adından daha,
Çıxar söz sehrini yadından daha.
Sehrlər, tilsimlər, açsa da sözün,
Saf su tək parıltı saçsa da sözün,
Döndərmə buludda bədirli aya,
Ay bulud altında çətin nur yaya,
Nə şah, nə də vəzir yanına apar,
Yalnız arif qəlbi sözdən nur tapar.
Hikmət, nəsihətdir ona yaraşıq,
Kor gözlər şeirdə görməz ki, işıq,
Sözə əbədiyyət mülküdür dəyər,
Pula satılarmı mədən də məyər?
Namərd tərifinə ağıllı gülər,
Eşşək boynuna da inci düzülər?
Şairlik adından, özündən utan,
Yalan tərif dolu sözündən utan!
Hüzurda dayanıb şer oxuma,
Həya təri töküb üzünü yuma.
Dil açıb kimsəni tərifləmə sən,
Söz, sənət əhlini hərifləmə sən.
Boşboğaz şairlər belədir, bəli,
Namusdan, qeyrətdən üzülüb əli.

# FƏXRİ GÜRGANİ

XI əsr İran ədəbiyyatının tanınmış şairi Fəxri Gürganinin həyat və yaradıcılığı haqqında məlumat olduqca azdır. Bu səbəbdən şairin həyatı haqqında fikirlər yalnız təxmini fərziyyələr əsasında formalaşdırılmışdır. Fəxri Gürgani Səlcuq dövlətinin əsasını qoyan Sultan Toğrulun (1040-1063) sarayında çalışmışdır. Ehtimal olunur ki, o, Şərqin möhtəşəm məhəbbət əsərini – «Vis və Ramin»i 1048-1056-cı illərdə qələmə almışdır. Şərq ədəbiyyatı tədqiqatçısı, «Vis və Ramin» əsərini Azərbaycan dilinə ilk dəfə tərcümə etmiş Abbasəli Sarovlu araşdırmalarının nəticəsi olaraq qeyd edir ki, əsərin başqa müəlliflər tərəfindən pəhləvi dilində və fars dilində nəsrlə yazılmış variantları da mövcud olmuşdur. «Vis və Ramin» əsərini yazmaqda şairin dostu İsfahan sərdarı Əbülfət Müzəffərin böyük təsiri olmuşdur. Əsərin «Sultanın İsfahandan getməsi və bu dastan müəllifinin sərgüzəşti» hissəsində Fəxri Gürgani bu barədə belə yazır:

*Qələmə aldığım bu dastan ki, var,*
*Məndən əvvəl yazmış neçə sənətkar.*
*Zəhmətlə axıdıb alın tərini,*
*Farsca sınamışlar hünərlərini.*
*Qatışmış ləhcələr, dillər, lisanlar,*
*Belə toplamışlar dastanı onlar*

*Dediyim sözlərdən oldu xəbərdar,*
*Şərəf tacı qoydu başıma Sərdar.*
*Yağışla canlanar gülüstan, dedi,*
*Canlansın əlində bir dastan, dedi,*
*Mənasız sözləri mən atam gərək*
*Bir sənət əsəri yaradam gərək.*

Lakin bir sıra mənbələrdə «Vis və Ramin» əsərinin N.Gəncəviyə məxsus olduğunu qeyd edirlər. XV əsrdə yaşamış Dövlətşah Səmərqəndi «Təzkirət-üş şüara»da iki yerdə Nizaminin «Xəmsə»dən əvvəl «Vis və Ramin» adlı əsər yazdığını nəzərə çatdırır. Lütfəli bəy Azər öz məşhur «Atəşgədə»sində «Vis və Ramin»i Nizami Gəncəvinin adı ilə bağlayır. Abbasqulu ağa Bakıxanov «Gülüstani-İrəm» əsərində «Vis və Ramin»in Səlcuq sultanı Mahmud üçün yazıldığını və əsərin Nizami Əruziyə yox, Nizami Gəncəviyə məxsusluğundan söhbət açır. XIX əsrin əvvəllərində alman şərqşünası Hammerin əsərlə bağlı fikirləri də «Vis və Ramin»in Nizami Gəncəviyə məxsusluğunu təsdiqləyir. Görkəmli Azərbaycan ədəbiyyatşünası prof.M.Rəfili 1947-ci ildə çap olunmuş «Vis və Ramin» problemi» adlı tədqiqatında Dövlətşah Səmərqəndi, Lütfəli bəy Azər, A.Bakıxanov və Hammerin fikirlərinə, o cümlədən öz araşdırmalarına əsaslanaraq «Vis və Ramin» əsərini Nizami Gəncəvi dühasının məhsulu kimi qələmə verməyi məqsədə müvafiq sayır. Lakin əsərin 1850-ci ildə Şpringer tərəfindən tapılmış əlyazması və 1865-ci ildə Nassau Lis tərəfindən ilk dəfə Kəlküttə şəhərində çap olunmuş variantı üzərində aparılan işlər, o cümlədən əksər şərqşünasların gəldiyi nəticələr «Vis və Ramin» əsərinin Fəxri Gürganiyə məxsus olduğunu təsdiqləmişdir.

«Vis və Ramin» Şərqin ən möhtəşəm məhəbbət poemasıdır. Müəllif iki sevgilinin – Vis və Raminin timsalında öz sevgisi yolunda mübarizə aparan, hər cür maneələrə sinə gərən, öz xoşbəxt taleyinə qovuşan gəncləri tərənnüm etmişdir.

# VİS VƏ RAMİN

*(ixtisarla)*

## VİS VƏ RAMİN DASTANININ BAŞLANĞICI

Şirin əfsanələr salnaməsindən,
Müdrik qocalardan öyrənmişəm mən:
Keçmişdə şöhrətli bir şah var imiş,
Səadət, xoşbəxtlik ona yar imiş.
Bütün şahlar ona köləymiş hətta,
Onunçun yaşarmış onlar həyatda.
Ziyafət düzəlmiş bir bahar çağı,
Adlı-sanlı kəslər olmuş qonağı.
Gəlmiş sərkərdələr, gəlmiş xaqanlar,
Hər yerdən məclisdə gözəllər də var.
Böyüklər burdadır Azərbaycandan,
İran torpağından, Reydən, Gürgandan.
Burdadır elçisi Kuhistanın da,
Xorasan, İsfahan, Dehistanın da.
Burdadır Ərdəbil elçisi Bəhram,
Guşəsp – Deyləmi, Şapurla Rəhham.
Burdadır yenilməz Kəşmiril, Azin,
Şücaətli Viru, yenilməz Ramin.
Şahın Zərd adında olan qardaşı,
Onun həm vəziri, həm də sirdaşı
Əyanlar içində məğrur oturmuş,

Ulduzlar içində sanki ay durmuş.
Şahənşah Möbidə indi nəzər sal,
Şahlar sitarədir, osa bir hilal.
Yanında fatehlər dayanmış ayıq,
Zər-ziba geyinmiş şahlara layiq,
O qaynar gözləri nur çeşməsidir,
Elə bil aləmi Gündür isidir.
Cəsur cəngavərlər öndə oturmuş,
Aybəniz gözəllər ədayla durmuş.
Sanki şikar gəzən şirdir igidlər,
Gözəllər çəməndə ahuya bənzər.
Nə şir görən ahu hürkmək istəyir,
Nə ovdan göz çəkir həris gözlü şir.
Kabab ortalıqda, qədəhlər dolu,
Sanki bura düşmüş Ayın da yolu.
Güllər ləçək səpir dəstəbədəstə,
Sanki dirhəm yağır gözəllər üstə.
Nazlı sənəmlərin bulud zülfləri,
Yanan müşk ətri tək basıb hər yeri.
Bir yanda xanəndə qalxıbdır zilə,
Bir yanda bülbülllər yalvarır gülə.
Şərabdan rəng alıb – dodaqlar aldır,
Müğənni yanında bülbül də laldır.
Yanaqda lalənin iki rəngi var,
Meydən, gözəllikdən olubdur onlar.
Şahın ziyafəti nə qiyamətdi,
Məclis sanmayın ki, bununla bitdi.
Yağış kimi yağdı mey qədəhlərdən,
Başqa yerə keçdi məclis bu yerdən.
Hamı evdən çıxıb səhraya gəldi,

Gözəllik seyranı ah, nə gözəldi!..
Bağdan, dağ döşündən, axar sulardan,
Rəngarəng nəğmələr ucalır hər an.
Gül-çiçək sayrışan bu çəmən-çayır.
Ulduzlar sayrışan gözə oxşayır.
Başlarda lalədən tac var, çətir var,
Əllərdə qədəhlər köz kimi yanar.
Bir dəstə at çapır, göstərir hünər,
Bir dəstə oynayır, dinir nəğmələr.
Bir dəstə bağatda içir, kef görür,
Bir dəstə gülşəndə gül-çiçək dərir.
Bir dəstə seyr edir gur şəlaləni,
Bir dəstə köksünə düzür laləni.
Atlas don biçsə də bura təbiət,
İşrət sona yetdi burda nəhayət.
Şah nə bir danışdı, nə də ki dindi,
Zivərli, zinətli paltar geyindi.
Oturdu dağ cüssə dağ boyda filə,
Fil alışıb-yandı zər-zivər ilə.
Döyüşdə sınanmış cəsur igidlər,
Şahın dövrəsində sanki şiri-nər.
Guya düzə axmış gövhər dənizi,
Şəfəqdən qamaşır insanın gözü.
O qabaqda gedən dəstə atlıdır,
Atlar polad nallı, yel qanadlıdır.
Gözəllər əyləşən kəcavələr, bax,
Gedir asta-asta yırğalanaraq.
Gövhərin nə sayı, nə sambalı var,
Yük altda töyşüyür yazıq qatırlar.
Çox da qov kimidir təxti-rəvanı,

Yükdəki ağırlıq dağlarda hanı?
Şahda səxavətə heyran qalmalı,
Paylamış sərvəti, paylamış malı.
Kamına yetişib, kefini sürmüş,
Nə qızıl qalmışdır, nə də ki gümüş…
Sən də səxavətlə yaşa dünyada,
Belə vur ömrünü başa dünyada.
Xəsislik insana afətdir, afət,
Ömrün zinətidir şuxluq, səxavət.
Başında əyanlar, əldə dolu cam,
Şah bu cür əyləndi yeddi gün tamam.

## MÖBİDİN ŞƏHRUNU İSTƏMƏSİ VƏ ŞƏHRUNUN ONUNLA ƏHD-PEYMANI

Gördü gümüş bədən, sərvi qaməti,
Xanımlar sərvəri o şux afəti.
Bir gün fürsət tapdı şahənşah buna,
Çağırdı Şəhrunu öz hüzuruna.
Tənhalıq sükutu çökdü araya,
Yer verdi taxtında o, təzə aya.
Görkəmdə huridir, pərizaddır, ah,
Qızıl gül dəstəsi verdi ona şah.
Qılıqla, şuxluqla, zarafatyana,
«Gözəlsən, nəcibsən» – söylədi ona.
«Ah nə qədər xoşdur – səndən alam kam,
Mənim ya zövcəm ol, ya da ki, aşnam.
Şirin can tək əziz olarsan mənə,
Şahlıq başdan-başa keçər əlinə.

Çox da bütün şahlar qarşımda əsir,
Mən sənin əmrinə ollam müntəzir.
Cah-cəlal bir yana, sənsə bir yana,
Sənsiz sevən gözüm baxmaz cahana.
Mən sənin olaram, sənsə heç kəsin,
Qızılım, gümüşüm, olar peşkəşin.
Can qurban istəsən, qurbanın ollam,
Öl – desən, ölərəm, qal – desən qallam.
Gecəli-gündüzlü olsaq üz-üzə,
Gün – novruza dönər, gecə – gündüzə.»
Şəhru bu sözləri eşidib ondan,
Verdi cavabını ədəblə o an.
Dedi: «Ey dünyanın bəxtəvər şahı,
Burax, yalvarışı, əfsusu, ahı.
Adıma layiqmi belə iş məgər?
Mənə yaraşarmı ər axtarım, ər?
Bu nə söz-söhbətdi, eşitdim səndən?
Axı neçə övlad anasıyam mən!
Hamısı sərkərdə, hakim, pəhləvan,
Hünərli, xoşsifət, ürəyəyatan.
Onlardan Virunun çoxdur şöhrəti,
Fildən də artıqdır gücü, qüdrəti.
Heyif, görməmisən mən necə vardım,
Naz-nemət içində xumarlanardım.
Qamətim ucaydı sərvi-rəvan tək,
Zülfümün ətrini yayardı külək.
Elə bil ömrümün cavan çağında,
Yaşıl söyüd idim çay qırağında.
Görsəydi hüsnümü, olardı rüsvay,
Gündüz parlaq günəş, gecə nurlu ay.

Getmişdi çoxunun isməti əldən,
Yuxusuz qoymuşdum çox gözləri mən.
Bir gün bir küçədən keçsəydim əgər,
Təravət saçardı il boyu o yer.
Hüsnümün əsiri – şahdı, sultandı,
Gözəllik nəsimim – ölüyə candı.
Gəncliyin baharı çoxdan ötüşmüş,
Ömrün xəzan çağı artıq yetişmiş.
Zəmanə soldurmuş gülgəz yanağı.
Qatmış qara müşkə ağ kafur yağı.
Şümşad qamətimi etmiş iki qat,
Çəkilmiş üzümdən o abi-həyat.
Kim ki, qocalıqda cavanlıq elər,
Külli-aləm onun üzünə gülər.
Bir xoşa gəlməz iş tutarsam əgər,
Məni salmazmısan nəzərdən, məgər?»
Möbid cavabında söylədi dərhal:
«Sən ey dilə gəlmiş işıqlı hilal!
Sənin tək bir gözəl doğan hər ana,
Həmişə yaşasın xürrəm, şadyana.
Yediyi nuş olsun anana hər an,
Belə sərv ucaldıb ömür bağından.
Xalqa orda şadlıq daim yar olsun,
Qoy səni yetirən torpaq var olsun.
İndi qocalıqda belə gözəlsən,
Görən necəymişsən hələ əzəl sən?!
Bir pəjmürdə gülə oxşasan da sən,
Min tərifə layiq, sözə layiqsən.
Zərif, nazikbədən vaxtın olanda,
Min cavan qəlbini çalmısan onda.

İndi istəmirsən olasan yarım,
Sənlə xoş keçə günüm, rüzgarım.
Barı, öz qızını verəsən mənə,
Sənubər qovuşa lətif səmənə.
Çəkər öz əslinə hər şey, məsəl var,
Qızın da özün tək səmənbər olar.
Bir dünya yaxşılıq görər o gerçək,
Süslü sarayımda parlar günəş tək.
Elə bir günəşə qovuşsam yerdə,
Göylər günəşinə baxmaram bir də.»
Şəhru cavab verdi: «Böyük hökmdar!
Səndən daha yaxşı damad harda var?
Olsaydı çadrada əgər bir qızım,
İndi gülməzdimi tale ulduzum!?
İnan, qızım yoxdur – sözüm gerçəkdir,
Olsa, əsirgəmək nəyə gərəkdir!
Qızım olmamışdır heç bu vaxtacan,
Sənsən kürəkənim qız doğsam haçan.»
Şahı inandırdı Şəhrunun sözü,
Qəlbən razı qaldı bundan şah özü.
Dedilər pozmayaq bu əhdi, andı,
Əl-ələ verdilər, peyman bağlandı.
Gülabı qataraq onlar müşk ilə,
Çin ipəyi üstə yazdılar belə:
«Əgər Şəhru xanım doğarsa bir qız,
Gərək şahənşahın olsun o yalnız.»
Bunun aqibəti görün nə olar,
Körpə doğulmamış – nişanladılar.

## VİSİN DOĞULMASI

Saysızdır aləmin şəkli və rəngi,
Ağlın yaradanla bitməz ki cəngi.
Zəmanə istər ki, düyün dolaşsın,
Ağıl bacarmaz ki, düyünü açsın.
Bax onun qurduğu tora, kələyə,
Şahın özü düşdü haman tələyə.
Ehtiras qəlbində bərk çağlamışdı,
Doğulmamış qızı adaxlamışdı.
Ağlı kəsərdisə, bilərdi ancaq,
Şəhru ona qız yox, bəla doğacaq.
İki adlı-sanlı şəxsin peymanı,
Peymana sadiqlik andı bəs  hanı?
Baş tutan sövdəyə oxşamırdı bu,
Nisyə sövdələşmə nahaqdan oldu.
Zaman öz hökmünü verdi, nə verdi,
Get-gedə artırdı nisgili, dərdi.
Bu vədin üstünə neçə il gələr,
Tamam unuduldu sözlər, vədələr.
Təzə yarpaq açdı quru budaqlar,
Qızılgül, nəstərən qoxudu bağlar.
Haçan gövhər axıb sədəfə doldu,
Şəhru qocalıqda hamilə oldu.
Elə ki, doqquz ay yetişdi sona,
İşıqlı ay doğdu sanki cahana.
Ana – dan yerinin şəfəqi kimi,
Doğulan körpəsə günəş deyilmi.
Elə ki, anadan bir qız doğuldu,
Gecənin zülməti günlə boğuldu.

Hamı bir ağızdan eylədi təkrar:
– «Yarəb, bəşərdə də belə hüsn olar?»
Sevincin, fərəhin həddi olmadı,
Mübarək körpənin Vis oldu adı.
Yenicə gəlmişdi uşaq cahana,
Onu bir dayəyə tapşırdı ana.
Xuzana apardı dayə uşağı,
Çünki Xuzandaydı ata ocağı.
Atlazla, gövhərlə süslədi onu,
Yüz nazla-niyazla bəslədi onu.
Hər bağdan adına bir gül dərərdi,
Uşaq da müşk-ənbər ətri verərdi.
Bəzəyi, zinəti parladı par-par,
Bahalı xəzlərdən geyərdi paltar.
Yastıq qu tükündən, yorğan ipəkdən,
Bax belə bəslərdi onu ürəkdən.
Yediyi nemətlər ləzizdi, ləziz.
Daş-qaşla bəzənib nur saçırdı Vis.
Elə ki, yetişdi qız boya-başa,
Bədəni büllurdu, boyu tamaşa.
Ağlı başdan alır onun camalı,
Tərifə sığmayır hüsnü-kamalı.
Elə bil baharda bəslənən bağdır,
Qızıl lalələri çıraq-çıraqdır.
Zülfləri bənövşə, gözləri nərgiz,
Yoxdur bu lətafət güldə də hərgiz.
Bəzən də bir bağdır sanki xəzanda,
Al-əlvan meyvələr yetişib onda.
Çənəsi almadır, döşlər çatal nar,
Üzüm salxımıdır o qara saçlar.

Səyyar xəzinədir şah sarayında,
Dünyanın sərvəti toplanmış onda.
Qıvrımsaç hörüklər ətirli çiçək,
Çöhrəsi atlazdır, əndamı ipək.
Gümüşdür bədəni, yaqutdur dodaq,
Dişləri dür təki, dürdən də parlaq.
Gözəl cənnət bağı sanarsan onu,
Qüdrətin nurundan biçilmiş donu.
Sudan da şəffafdır o bal dodaqlar,
Gah südə, gah meyə bənzər yanaqlar.
Ağıl heyranlıqdan çaşsa yeri var,
Fələyin gözü də baxsa qamaşar.
Bahar çiçəyidir – hər bir yanağı,
Bir cüt qaynar gözü canlara yağı.
Çöhrəsi üfüqdən boylanan Gündür,
Qəmzəsi cadudan daha ötgündür.
Üzü Rum elinin asimanıdır,
Bir cüt zülf hüsnünün pasibanıdır.
Hər iki yanağı yanır şam kimi,
Qıvrım zülf – sırğalı həbəş hakimi.
Saçları bulud tək olmuş pərişan,
Sırğası zöhrə tək yanan, sayrışan.
Fil sümüyündəndir sanki hər barmaq,
Barmaqlar ucunda xınalı dırnaq.
Boynunda qızıllı boyunbağı var,
Elə bil köz üstə düşüb damlalar.
Sanki təzə aydır – dövrəsi Ülkər,
Gümüş sərv üstünü həmayıl bəzər.
Cəmalı huridir, əməli cadu,
Duruşu maraldır, baxışı ahu.

Telini, dilini vəsf etsək əgər,
Birindən müşk yağar, birindən şəkər.
Qəsdən yiyələnmiş bu gözəlliyə,
Könüllər çapılıb-talansın, deyə.
Ya da göylər vermiş bu hüsnü ona,
Əbədiyyət nuru saçsın cahana.

## VİS VƏ RAMİNİN XUZANDA DAYƏNİN YANINDA TƏRBİYƏ OLUNMASI

Bax Visi beləcə bəslərdi dayə,
Üstündə can qoyub əsərdi dayə.
Ramin də burdaydı – dayə yanında,
Əsərdi üstündə dayə onun da.
Böyüdü Ramin də Vis ilə qoşa,
Bir bağ gülləri tək gəlirlər xoşa.
Nəzir-niyaz ilə boy atdı onlar,
Bir deyər, bir gülər, bir oynardılar.
On il bu minvalla tutdular ülfət,
Ramin aparıldı bir gün nəhayət.
Bundan kim baş açar, kim xəbərdardır?
Göylərin onlara nə hökmü vardır.
Onları nə hala salacaq zaman,
Onlardan nə qisas alacaq zaman?!
Hələ gəlməmişdi onlar həyata,
Nə bir ana vardı, nə də ki ata.
Artıq yazıları yazılmış idi,
Hamısı taleyin, bəxtin işiydi.
Demə ki, gücüm də, tədbirim də var.

Qəzanın işini nə bilmək olar?!
Oxuyub qurtarsa kim bu dastanı,
Eyiblər içində görər cahanı.
Söz var: «Olacağa çarə tapılmaz»,
Onları nahaqdan qınamaq olmaz.

## MÖBİD ŞAHIN VİSİN YANINA ELÇİ GÖNDƏRMƏSİ

Şahənşah elçisi özün yetirdi,
Ondan ay üzlüyə xəbər gətirdi.
Sözlər şirinlikdə guya şəkərdi,
Günəş camallının özü təhərdi:
Fil dişli dırnağı üzünə çəkmə,
Saçını yolaraq ay üzə tökmə.
Çərxin kəməndindən çıxa bilməzsən,
Tanrının hökmünə dözməlisən sən.
Gümanın qəlbinə qoy gəlsin ancaq,
Göylərin hökmünə gücün çatacaq?
Tale səni mənə yazıbsa əgər,
Çalışmaq, vuruşmaq hədərdir, hədər.
Taleyin öz əli yazıbsa fərman,
Səbrdən savayı nə gəzir dərman!
Səndən ötrü gəldim bura doğrusu,
Sevdalı qəlbimin yoxdur qorxusu.
Bu gün məhəbbətlə bağlayaq peyman,
Bir qəlbdə birləşsin qoy bu iki can.
Yalnız səadətin verər mənə kam,
Sənin fərmanından bir an çıxmaram.

Xəznələr açarın verrəm öhdənə,
Azımı-çoxumu tapşırram sənə.
Səndən məlhəm tapar qəlbimlə canım,
Özüm sarayıma olarsan xanım.
Nəşəmin üstünə bir nəşə gələr,
Adım adın ilə daha yüksələr.
Qəlbimin hökmüylə bağlaram peyman,
Möhrümə, imzama, andıma inan.
Tərk edən günədək ruhum bədəni,
Canım tək əzizlər, sevərəm səni.

## RAMİNİN VİSƏ AŞİQ OLMASI

Şah nurlanan gördü ümid gözünü,
Xorasan tərəfə apardı Günü.
Yol boyu şadlandı, hey sevindi o,
Unutdu cəfanı, cövrü indi o.
Visdən zinət tapmış kəcavə də bax,
Maninin nəqqaşlıq sarayı sayaq.
Yel təxti-rəvanın ötsə yanından,
Onun xoş ətrinə qərq olar cahan.
Parlaq dürdanəli bir mücrüydü o,
Ay nuruna batmış göy bürcüydü o.
Sanki bir günbəzdi o təxti-rəvan,
Ənbər havalıydı Visin saçından.
Sanki cilvələnib günəşin özü,
Zərrin niqab ilə örtülüb üzü.
Görən Zöhrə deyər, Ay deyər ona,
Ətir çilənibdir sanki yoluna.

Çövkandı hörüklər; kosdu zənəxdan,
Hüsnünə boylanır güllər yanaqdan.
Bəzəkli kəcavə bir cənnət bağı,
Vis də bu cənnətdə huri sayağı.
Ruzigar dəyişdi düşdü bir günə
Şadlıq Raminin də gülər üzünə.
Qəlbi məhəbbətdən oda qalandı,
Ağlı da, səbri də od tutub yandı.
Baharın sərt yeli əsdi nagahan,
Qaldırdı pərdəni təxti-rəvandan.
Elə bil al Günəş buludu yardı,
Bahadır qılıncı qından çıxardı.
Göründü pərdədən Visin camalı,
Ramin bihuş oldu görcək bu halı.
Sanki cilvələndi sehrkar pəri,
Ağlı başdan aldı cadu gözləri.
Zəhərli peykan da uçsaydı hara,
Açmazdı bəlkə də belə tez yara.
Ramin ay üzlünü görən kimi, ah,
Sanki ox sancıldı qəlbinə nagah.
At üstən yıxıldı o dağ cüssəli,
Elə bil yarpağı saldı yaz yeli.
Qəlbinin alovu çıxdı başından,
Sarsıldı varlığı bu tələşindan.
Sevgi gözdən keçib könlünə doldu,
Ürək bir baxışa qurbanlıq oldu.
İşıqlı gözündə söndü cahan da,
Aşiqlik ağacı boylandı canda.
Tez mərcan bəhəri yetirsin – deyə,
Görünür göz əkdi onu ürəyə.

Gülüşü, nəşəsi söndü, nə söndü,
Çox içib, məst olan sərxoşa döndü.
Sanki zəfərandı al yanaqları,
Səma tək göyərdi mey dodaqları.
Özündə deyildi, halı ağırdı,
Üzündən aşiqlik nuru yağırdı.
Heyrət içindəydi bir böyük alay,
Vurdu dövrəsində igidlər halay.
Kədərdən dolmuşdu qan-yaş gözlərə,
Canından əlini üzmüşdü hərə.
Kimsə bilmirdi ki, nə olub hələ,
Nə əzab çəkib ki, saralıb belə.
Üzdü ürəkləri onun bu dərdi,
Onu ağlar görən ondan betərdi.
Dili kilidlənmiş, gözü qızarmış,
Aşiqlik qorxusu qəlbini sarmış.
Ağlı-huşu gəldi azca başına,
Gözləri sədəfdi inci yaşına.
Sildi əlləriylə gözünü, indi,
Utanıb saxladı özünü indi.
Bu halı çaşdırdı artıq hər kəsi,
Dedilər var imiş ürəkkeçməsi.
Eşqə düşən aşiq mindi köhlənə,
Acıydı qüssədən şirin can yenə.
Yol gedir, yol-izə biganə kimi.
Özündən xəbərsiz, divanə kimi.
Ürəyi iblisin sərt pəncəsində,
Gözləri cananın kəcavəsində.
Gövhər mücrüsünü gözaltılayan,
Oğru tək baxırdı o, Visə hər an.

Dedi toz tutmasın yolları, düzü,
Görünsün bəxtimdən o ayın üzü.
Kaş yelə dönəydi yolun qubarı,
Açaydı pərdəni, görəydim yarı.
Kaş ki, fəryadıma qulaq verəydi,
Pərdədən gizlicə üz göstərəydi.
Saralmış çöhrəmi görəydi gözü,
Ahımı, dərdimi duyaydı özü.
Kaş rəhmi gələydi miskin halıma,
Dərdli əhvalıma, üzgün halıma.
Yanınca yol boyu yar həvəsinə,
Cilovdar olaydım kəcavəsinə.
Biri bir kişilik kaş eləyəydi,
Məndən o gözələ salam deyəydi.
Məni yuxusunda o kaş görəydi,
Tutub gözlərimi qan-yaş, görəydi.
Könlü məhəbbətdən od alaydı, kaş,
Daş qəlbi bir azca yumşalaydı, kaş.
Bunlar ürəyindən keçə biləydi,
Dostu düşmənindən seçə biləydi.
Eşqin həsrətini duysadı əgər,
Zalımlıq, qəddarlıq edərdi məgər?
Fikrə, düşüncəyə dalardı Ramin,
Səbirlə təsəlli alardı Ramin.
Qəlbə öyüd verən sözlər dilində,
Batıb qərq olardı fikir selində.
Ey könül, bu qədər söz açdın, yetər,
Bu boş fikirlərlə dolaşdın, yetər.
Qovruldun eşqindən belə gözəlin,
Səndən xəbərsizdir hələ gözəlin.

Visə qovuşmağın deyilmi əbəs,
Günəşin vəslinə çatmış hansı kəs?
Niyə oxşayırsan nadana, niyə,
Ümid bəsləyirsən ümidsizliyə?
Su deyə səhrada təşnə yanırsan,
Gördüyün sərabı sumu sanırsan?
İş necə dolaşıq, necə çətindi,
Əlacı qalıbdı allaha indi.
Sevda zəncirinə girifdar oldu,
Diləyi qəlbində tarımar oldu.
Arzuya çatmağa imkanmı vardı?
Yeganə çarəsi səbri-qərardı.
Gedirdi eşqindən xəbərsiz sona,
Nakam ürəyiylə yoldaşdı ona.
Yol yoldaşlığının faydası buydu,
Hər an gül üzünün ətrini duydu.
Bir qandal görürdü qolunda aşiq,
Yar ətri duyurdu yolunda aşiq.
Günü aşiq qədər ağlar olan kim?
Fikirdən saralan, qəmdən solan kim?
Görsələr birinin qızdırması var,
Bu haldan hamının halı pozular.
Aşiq qəlbi yanar illərlə odda,
Fəqət xəbər tutmaz yaxın da, yad da.
Ey ağıllı insan! De, bu nə haldı,
Məhəbbət aşiqi nə günə saldı.
Ömürlük aşiqin deyilmi bəsi,
Eşqin əzabları, ahı, naləsi?
Yeridir sevdadan ürək od alsa,
Məhəbbət alovu qəlbdə ucalsa.

Gizlicə saxlasın dərdini ürək,
Sirrini kimsəyə açmasın gərək.
Raminin başına sevda nə açdı,
Şahin caynağına keçmiş turacdı.
Bir yolluq nə ölən, nə qalandı o,
Sanki hörümçəkdən can alandı o.
Hanı dağ gövdəsi, halı yamandı,
O çinar qaməti indi kamandı.
Gedir, yol gedirdi, kədər üzündə,
Düz yol da dərəydi görən gözündə.

## RAMİNİN BAĞDA VİSİN EŞQİNDƏN AH-FƏĞANI

Raminin sevgisi qəlbində qaldı,
Eşq onu bir haldan min hala saldı.
Çəkilir həmişə sakit guşəyə,
Tək-tənha oturub ağlasın – deyə,
Sanma ki, gözünün yuxusu vardı,
Gecələr sübhədək ulduz sayardı.
Gündüzlər aramsız olardı hər an,
Hürküb ahu kimi qaçardı xalqdan.
Onu düşündürən, ağladan yardı,
Harda sərv görsə, səcdə qılardı.
Bağdakı yaryanaq gülləri görcək,
Düşərdi göz yaşı gülə şəbnəm tək.
Səhər bənövşəni bağdan dərərdi,
Anıb yar zülfünü – yelə verərdi.
Məstlik qorxusundan içməzdi şərab,
Halı şərabsız da xarabdı, xarab.

Daim tənbur idi dostu, munisi,
Bir an unutmazdı sevdiyi Visi.
Qəlbini həsrətli ahlar boğardı,
Payız gecəsinə hilal doğardı.
Nalədən köksündə ürək dinərdi,
Bülbül gül şaxından yerə enərdi.
O qədər qanlı yaş tökərdi gözü,
Qana, göz yaşına qəltandı özü.
İşıqlı gündüzü gecə sanardı,
Zər-xara döşəyi sərt tikanlardı.
Zavallı yaşardı bezar, xəstə hal,
Kimsə soruşmazdı, nədir bu məlal.
Könlünü sevgiyə verən zamandan,
Yanıb-yaxılmışdı şam kimi, inan.
Əlvida demişdi şadlığa ürək,
Həyatı gözündə bir heçdi gerçək.
Qanlı göz yaşıyla rəngin paltarı,
Nalədən bənizi zər tək sapsarı.
Yığılmış boğaza eşq əlindən can,
Kəsilmiş ümidi canla canandan,
Gəlib yar xəyalı qarşıda durmuş,
Şirin yuxusunu gözdən uçurmuş.
Hicran dəryasına qərq olmuş, heyhat,
Nöqtə tək kiçilmiş gözündə həyat.
Elə huşsuz etmiş, fikri, ələmi,
Tamam unutmuşdu külli aləmi.
Bəzən fal açardı yar bəxtinə o,
Görsün yetəcəkmi öz əhdinə o.
Bəzən də şahənşah bağına keçər,
Hər yanda özünə bir şahid seçər.

Deyərdi: «Halıma şahid olun bir,
Çəkdiyim cəfalar görün nədəndir.
Söyləyin halımı zalım gözələ,
Bəlkə siz alasız qəlbini ələ.
Gah da bülbüllərlə sözə gələrdi,
Onlara çoxluca tənə elərdi.
Deyərdi: fəryadla ötürsüz belə,
Nə əzab görmüsüz dünyada hələ.
Sizə nəsib olur məşuqu görmək,
Ələmli, qüssəli deyilsiz mən tək.
Sizə yar görməyə min-min bağ, gülzar,
Mənimsə ürəkdə yüz min dağım var.
Bəxt sizə yar verib, bağça, bağ verib,
Mənəsə sevgidə qüssə, dağ verib.
Yetişir güllərə naləniz bağda,
Sizdən uzaq olar kədər də, dağ da.
Sizin fəryadınız bəllidir yara,
Bəs niyə qəlbiniz bağlamış yara?
Mənim fəqanımsa qəribədir, ah
Sevgilim dərdimdən deyildir agah.
Mənim olmalıdır bu fəqan, bu qəm,
İlk bahar gülündən ayrı düşmüşəm.
Mənim olmalıdır qəlblərdəki dağ,
Könül gülşənindən uzağam, uzaq.
Bax, mənə layiqdir saralıb solmaq,
Qəlbi yar hicrindən yaralı olmaq.
Mənə, mənə layiq ölüb qurtarmaq,
Yarsız keçən ömrü axıra varmaq.
Belə deyə-deyə dolandı bağı,
Gözdə yaşı artdı, ürəkdə dağı.

## VİSİN RAMİNİ GÖRÜB AŞİQ OLMASI

Mehrigan bayramı… Şah məclis qurmuş,
Sərkərdələrilə kefə oturmuş.
Saray ayla dolu, ulduzla dolu,
Nazəndə gözəllə, şən qızla dolu.
Hamı Xosrov kimi xürrəm, nəşəli,
Hamının nərgiz tək qədəhli əli.
Meylə piyalələr dolur, boşalır,
Sərxoşlar mərdlikdən söhbət, söz salır.
Ərlər, sərkərdələr sığmır saraya,
Hər biri bənzəyir ulduza, aya.
Onların içində Ramin günəş tək,
Gözləri nərgizdir, yanaqlar çiçək.
Üzüm salxımıdır qıvırcıq teli,
Çöhrəsi üzüm tək parlaq, şirəli.
Telinin, üzünün təravətindən,
Müşk, ənbər salınar öz qiymətindən.
Elə bil sərvdir – boy verib bahar,
Sərv tək boyuna biçilib vüqar.
Qəlb incə, bel incə, ağız incədir,
Nə şadlıq, nə dünya ürəyincədir.
Düşsə də məclisə – kef dünyasına,
Elə bil batıbdır qəm dəryasına.
Eşqdən də xumar, meydən də xumar,
Məstliyi qədər də üzgünlüyü var.
Qızarıb məstlikdən yanağı zər tək,
Yatır üzgünlükdən köksündə ürək.
Yar ətri reyhan tək hopub ruhuna,

Mey də yar üzü tək görünür ona.
Vis gəlib gülşənin seyrinə dalmış,
Gülşən camalından rövnəq, nur almış.
Nə qədər kələklə, şirin söz ilə,
Gətirmiş dayəsi bura özüylə.
Çıxarmış gülşəndə damın üstünə,
Bacadan Raminin baxsın hüsnünə.
Sonra söylədi ki: «Can bala, bax bir,
Görürsən hamıdan Ramin gözəldir.
Gör ki, gözəllikdə elin gözüdür,
İstəklin, həmdəmin Viru özüdür.
Qüdrətdən gözəllik verilib ona,
Bahar gətiribdir şah sarayına.
Belə bir gözəli sevməyə dəyər,
Bu eşqin sevdası hər şeyə dəyər.»
Vis elə ki, baxdı diqqətlə ona,
Elə bil təzədən gəldi cahana.
Ramini, şövqlə, maraqla süzdü,
Virunun eşqindən əlini üzdü.
Sonra ürəyində söylədi belə:
«Ramin tək sevgili düşərmi ələ?!
Anadan, qardaşdan gen düşə-düşə,
Niyə yanmalıyam oda, atəşə?
Nə qədər tək-tənha ömr edəcəyəm.
Nə qədər dözməli? Dəmirəm, nəyəm?
Bundan gözəl, göyçək taparam kimi,
Sevəm sultan kimi, sevəm ər kimi?»
Andı, ürəyində çox şeyi andı,
Ömürdən ötüşən günlərə yandı.
Dönsə də eşqdən dəliyə belə,

Dayəyə sirrini açmadı hələ.
Dedi: «Doğru çıxdı sözlərin bir-bir,
Ramin dilavərdir, həm də gözəldir.
Elmdən, sənətdən o xəbərdardır,
Qardaşım Viruya oxşarı vardır.
O deyən baş tumaz, yenə də, anam,
Ay olsam, üzünə nurmu salanam?
Nə istərəm özüm düşüm azara,
Nə də o mübtəla olsun ah-zara.
Nə mən layiq olum böhtana, şərə,
Nə də ki, o batsın qəmə-kədərə.
Xaliq başqa gözəl yetirər ona,
Nə eşqim, nə adım düşər yadına.»
Vis gülşən damından yerə enən tək,
Al günəş gözündə oldu sönən tək.
Eşqin nəhəng divi girdi savaşa,
Çaldı pəncəsini qəlbə birbaşa.
Bitincə div ilə davası-cəngi,
Kəsildi qərarı, saraldı rəngi.
Yazıq Visin halı pisləşdi yaman,
Canda güc qalmadı, ürəyində qan.
Hissə təslim olan gördü özünü,
Ehtiras kor etdi ağlın gözünü.
Söylədi başıma nə gələcəkdir,
Çox olsa, üstümə yad güləcəkdir.
Niyə sevən könlüm sevdasız olsun?
Qəlbimin arzusu qəlbimdə solsun?
Ramin ki, bir nəcib əsilzadədir,
Paxıldan, bədxahdan çəkinmək nədir?
Həya ehtirası hey qovlayırdı,

Ağlı da hissini cilovlayırdı.
Qorxurdu əbədi bədnamçılıqdan,
Dünyanın verdiyi peşmançılıqdan.
Haqdan, cəhənnəmdən qorxudaydı o,
İsməti eşqindən üstün saydı o.
Sevgidən, sevdadan daha çəkindi,
Təklik, tənhalıqdı məqsədi indi.
Elə bil aləmə könlünü verdi,
Ona nə əl çatar, nə ün yetərdi.
Sevib sevilməyi rəva görmədi,
Ağlını eşqinə qurban vermədi.
Düzlüyü qəlbinə elədi sultan,
Yalqızlıq mülkünə sirdaş oldu can.
Dayə bilməyirdi Visin sirrini,
Eşqindən üstünmüş məsləki, dini.
Müjdəylə Raminin yanına gəldi:
«Bəxtinin ağacı göyə yüksəldi,
İpə-sapa yatmaz Vis ramdır indi,
Acıqsız, qəzəbsiz adamdır indi.
Daha vardır sənə eşqi, həvəsi,
Verir qəm ağacın şadlıq meyvəsi.»
Sevincdən sığmadı Ramin cahana,
Elə bil ölmüşdü, can gəldi ona.
Dayənin önündə öpdü torpağı,
Yaşasın – söylədi – belə qoçağı.
Etdiyin yaxşılıq üstündür tacdan,
Ölüm qorxusundan xilas oldu can.
Bu dilavərliyə, bu zəhmətinə,
Tanrı bəxş edəcək behişti sənə.
Adına yaraşan bəxşişim hanı,

Bəxşiş əvəzinə qəbul et canı.
Sən mənim anamsan, mənsə övladın,
Həmişə böyük tək çəkilmiş adın.
Əmrindən başımı yanmı əyərəm,
Səndən başmı, canmı əsirgəyərəm!
Keçərəm abrımdan, xəznəmdən, gücdən,
Arzunu yerinə yetirərəm mən.
Necə razı idi, necə minnətdar,
Qoydu qarşısına üç kisə dinar.
Qızıl sandıqçada altı gərdənbənd,
Parlaq mirvarilər olmuş sapa bənd.
Xeyli qızıl üzük – qaşları gövhər,
Mücrünün içində çoxlu müşk, ənbər.
Yaxına qoymadı dayə bunları,
Dedi: «Xoşbəxt balam, bir düşün, barı.
Səni sevmək hara, bu dövlət hara?
Nə gəlib özümdə dövlətə, vara.
Parlaq bir günəşsən gözlərimdə sən,
Töhfəni neylərəm, özün töhfəsən.»
Bircə gümüş üzük əlinə aldı,
Ramindən yadigar, nişanə qaldı.

## VİS VƏ RAMİNİN BİR-BİRİNƏ QOVUŞMASI

Şitili, fidanı düzgün olanda,
Ağac düz boy atar, ucalar onda.
Uğurlu gələndə, xoş gələndə il,
Novruzdan görünər gözəlliyi, bil.
Vislə Raminin də beləydi işi,

Xoş oldu vüsalın, bəxtin gəlişi.
Ürək ağrısıyla dözüb qüssəyə,
Şadlığa çıxdılar qəm yeyə-yeyə.
Vis əsirgəmədi məhəbbətini,
Zəmanə qəlbindən apardı kini.
Bir həftə ərzində onlar görüşdü,
Bir kimsə nə bildi, nə şəkkə düşdü.
Möbid Xorasandan yola düzəldi,
Təxti-rəvanıyla Gürgana gəldi.
Yol aldı Kuhistan səmtinə sarı,
Rey ilə Savəyə düşdü güzarı.
Haçan çatacaqsan onun dadına,
Yazıqdır, əl tutub yet imdadına.
Danışmaq nə qədər, demək nə qədər,
Hamısı mənasız, hamısı hədər.
Qalma comərdlikdən, hissdən, duyğudan,
Yatmış gəncliyini oyat uyqudan.
Şadlıq baharıyla gülsün hər dilək,
İnsanlıq fidanı açsın gül-çiçək.
Şadlığın, gəncliyin gör bəhrəsini,
Dad ömrün, həyatın hər nəşəsini.
Əslən nə allahsan, nə də ki, mələk,
Gildən yaranmısan sən də bizim tək.
Şövqdür, şəhvətdir insanda həvəs,
Gil su təşnəsidir, insan da həvəs.
Xaliq özü belə yaradıb bizi,
Kişiyə bağlayıb diləyimizi.
Hələ görməmisən kişi üzü sən,
Kişi ləzzətini hardan biləsən.
Bircə yol kişiylə qatsan ixtilat,

Həvəsin get-gedə artacaq yüz qat.»
Verdi cavabını ay üzlü afət:
«Kişidən əfzəldir əbədi cənnət,
Dinclik versə hiylən, öyüdün mənə,
Kişisiz, nəşəsiz dözərdim yenə.
Nə arzu, nə istək vardır ürəkdə,
Dözmür incikliyə, dözmür ürək də.
İnciyib-küsməyin əgər olmasa,
Ramin ayağını odlara basa,
Yel olub yanımdan ötə bilməzdi,
Quş olsa, vəslimə yetə bilməzdi.»
Ramin Xorasanda azaddı daha,
Başladı yalandan azarlamağa.
Tacını-taxtını şah verdi ona,
Ədalət dilədi el qulluğuna.
Mərvdən cəlalla getmiş şahənşah,
Vis ilə Raminə qalmışdır dərgah.
O pəri, çöhrəli oturmuş, bəli,
Bəzəkli-ətirli, nazlı-qəmzəli.
Saray… tavanında bütlər yan-yana,
Bütgər zər naxışla can vermiş ona.
Raminin eşqi tək özülü möhkəm,
Visin üzü kimi bütləri xürrəm.
Üç qapı açılır tək gülüstana,
Üçüsə yatağa, yaşıl eyvana.
Elə bil günəşdi taxt üstündə Vis,
Necə bəxtiyardı, necə qənirsiz.
Yanır cəvahirlə, zivərlə par-par,
Gözəllər hüsnünün yanında idbar.
Gül açmış yanaqlar sanki gülüstan,

Otuz ulduz yanır ağzında pünhan.
Ətirli bağlarca təravəti var,
Behiştin qoxusu ondan duyular.
Visin təravəti, bağın nəsimi,
Olmuşdu xəstəyə bir məlhəm kimi.
Visin çöhrəsidir açan gül-çiçək,
Visin nəfəsisə ənbər ətri tək.
Müşk, ənbər tüstüsü qalxsa buluda,
Onun nəfəsiydi elə bil o da.
O, bahar bağçası, gözəllər – çiçək,
Gül-çiçək gözündən şəbnəm içəcək.
Sanki behişt idi sarayla eyvan,
Vis onun hurisi, dayəsə rizvan.
Dayə məşuqəni bəzəndirdi şıq,
Eyvana, gülşənə verdi yaraşıq.
Elə ki, qonaqlar bir-bir yoxaldı,
Damüstü bacadan Ramini saldı.
Ramin yeridikcə süstlü sarayla,
Göyləri görürdü elə bil ayla.
Gözü sataşsa da Visin üzünə,
İnana bilmirdi özü özünə.
Görün dərdli könlü necə sevindi,
Elə bil qocaydı, gəncləşdi indi.
Şadlıq süzülən tək üzgün bədənə,
Deyərdin ölmüşdü, dirildi yenə.
Can quraqlıq görmüş əkinmiş guya,
Çoxdan həsrət imiş yağışa, suya.
Visin ətri hopdu su tək ruhuna,
Əbədi dirilik verildi ona.
Dünyanı nurladan aya yanaşdı,

Candakı atəşin tüstüsü qaçdı.
Dedi: «Belə behişt qismətmiş mənə,
Nələr bəxş etməyib yaradan sənə.
Nəcibsən, xanımlar xanımısan sən,
Sehrdən, cadudan kəskindir qəmzən.
Özün ənbər saçan bir bəyaz çiçək,
Qamətin şümşaddır, üzün lalə tək.
Günəşə bənzədər görən çöhrəni,
Bəxtəvər başına kim alsa səni.
Vəsfini söyləmək çətindir, çətin,
Sərvdir, şümşaddır, qəddin-qamətin.
Camalın bənzəyir nurlu hilala,
Harda zülmət olsa səndən nur ala.
Bu nuru, şöləni vermiş ki, bəxtin,
Sənինlə nurlansın qəlbi bədbəxtin.
Həmsərin olmağa çatsa ixtiyar,
Tapılmaz dünyada məndən bəxtiyar.
Nökərlik eləsəm qarşında əyər,
Gözucu baxmağım dünyaya dəyər.»
Utana-utana, naz sata-sata,
O pərizad saldı bunları yada:
«Sən ey comərd oğlan, bəxtiyar insan,
Məni çox bəlaya salıbdır zaman.
Ancaq görməmişdim belə müsibət,
Məni rüsvayçılıq qoydu xəcalət.
Müqəddəs varlığım batdı günaha,
Abrım, sədaqətim qalmamış daha.
Özüm olmamışam burda günahkar,
Dayədir səbəbkar, bəxtdir səbəbkar.
Hiyləylə, kələklə, yağlı dil ilə,

Məni rüsvay edən dayədir belə.
Yalvara-yalvara, can deyə-deyə,
Çatdı arzusuna, çatdı istəyə.
Bildir məqsədini, niyyətini sən,
Qəsdin dost olmaqdır, yoxsa ki, düşmən?!
Eşqin çiçək kimi tezmi solacaq?
Yoxsa yaqut kimi möhkəm olacaq?
Əhdini, andını danacaqmısan?
Peşmanlıq oduyla yanacaqmısan?
Belə olacaqsa peymanın əyər,
Bu qədər yalvarış de, nəyə dəyər?
Ötəri həvəsdən insan xar olar,
Əbədi günaha giriftar olar.
Bir ləkə ömürlük tapsa adamı,
Yumaz o ləkəni yüz ilin kamı.
Kim uysa bir günlük kama, murada,
Həyatı bir gündə qoy getsin bada!»
Başladı tərifə Ramin yenidən:
Bir gümüş sərvsən gözəllikdə sən.
Mən ki, görməmişəm Mah tək məmləkət,
Yetirmiş sən kimi ay üzlü afət.
Bir ana varmıdır Şəhru olmağa,
Viru kimi oğul, sən tək qız doğa.
Vətənin var olsun, elin var olsun,
Bəxtəvər nəsliniz bəxtiyar olsun.
Alqış səni doğan gözəl anaya,
Bir behişt mələyi vermiş dünyaya.
Alqış süd əmdiyin nəcib qadına,
Alqış qardaşının nəcib adına.
Var olsun ömrünü sənինlə sürən,

Adını eşidən, üzünü görən.
Edibsə dayəlik kim sənə, alqış,
Sənə könül verib sevənə alqış.
Mərvə həm şöhrətdir, həm də iftixar,
Qoynunda sənin tək nazlı gözəl var.
Niyə öyünməsin sənlə şah, niyə?!
Ay üzün nur saçır hərəmxanəyə.
Günəşə ucalmış eşqim, həvəsim,
Bu sevinc ömürlük bəsimdir, bəsim.
Mən ki, qulaq asdım şirin sözünə,
Gözlərim sataşdı xumar gözünə.
Könül məftun olmuş bu gözəl ada,
Yetmişəm arzuya, kama, murada.»
Sevdi bir-birini aşiqlər haman,
Qırılmaz əhd ilə bağlandı peyman.
Əvvəlcə and içdi Ramin bir daha,
Dünyanın padşahı olan allaha.
Şöləvər günəşə, işıqlı aya,
Müqəddəs Zöhrəyə, aydın səmaya.
Haqqa, duz-çörəyə, din-imanına,
Atəş şöləsinə, əziz canına.
Necə ki, dağlarda yellər oynaşar,
Axar-baxarlarda sular qaynaşar.
Gecə öz rəngini dəyişməyibdir,
Sularda balığa iy düşməyibdir,
Göylər ulduzların gərdiş yeridir,
Ürək məhəbbətin vərdiş yeridir.
Ramin sevgisində olmaz peşiman,
Qırılmaz yar ilə bağlanan peyman.
Heç kəsə göz dikməz, sevər tək səni,

Nə sevər, nə xoşlar əsla kimsəni.
Ramin and içərək əhdə, ilqara,
Eşqə sadiqliyi söz verdi yara.
Ortadakı ilqar pozulmaz, deyə,
Sonra da başladı Vis and içməyə.
Raminə bir dəstə verdi bənövşə,
Yadda saxla dedi bunu həmişə:
Təzətər bənövşə görsən harada,
Bu andı, peymanı salarsan yada.
Hansımız pozarsa əhdi-peymanı,
Görüm bənövşə tək göyərsin canı.
Gülü ki, gülşəndə seyrə dalaram,
Andı əhdimizi yada salaram.
Hansımız peymanı pozacaqsa da,
Ömrü bənövşə tək tez getsin bada.
Bu oldu onların sözləri, andı,
Sevgiylə, ülfətlə peyman bağlandı.
Tanrı özü şahid idi bu anda,
Şahiddi ulduzlar gen asimanda.
Bir yerə girərək sonra yatdılar,
Ortaya söz salıb, söhbət qatdılar.
Ramin şah olmuşdu onun qoynuna,
Vis də ondörd günlük ay idi ona.
Zər boyunbağı tək gümüş boynuna,
Raminin qolları dolanmış ona.
Görsə öz gözüylə onları rizvan,
Deyər belə gözəl tanımır cahan…

## VİSİN VƏ RAMİNİN SEVDASINDAN MÖBİDİN XƏBƏR TUTMASI

Şahənşah Möbidlə Ramin dörd həftə,
Bəzən ovda oldu, bəzən də kefdə.
Sonra da istədi getsin Muğana,
Dənizdə ov etmək xoş idi ona.
Günəş üzlü yardan ürəyində dağ,
Yatmışdı şahənşah Visi qucaraq.
Alsa da ağuşa nazlı dilbəri,
Bir an sevinməmiş sevəndən bəri.
Dayə gəlib dedi Visə xəlvəti:
«Belə gündə yatmaq yaramaz qəti.
Ramin gedəcəkdir Ərmənə sarı,
Gedəcəkdir ova, düşmənə sarı.
Xəbər də veriblər qoşuna erkən,
Çadır Mah düzündə açıbdır yelkən.
Ney, təbil başlayıb haya-haraya,
Ucalıb sədası ulduza, aya.
Əgər istəyirsən baxasan yenə,
Çin atlazından da gözəl üzünə.
Nə qədər gec deyil, fürsətdir hələ,
Dur, damın üstə çıx, ordan seyr elə.
Şahini, qırğısı, oxu-yarağı,
Ovlayar qəlbini şikar sayağı.
Tərk edib gedəcək elə ki, bizi,
Həsrəti üzəcək hər ikimizi.»
Möbid şah oyaqmış, sən işə bir bax,
Dayə deyənlərə asırmış qulaq.
Durdu yatağından hirsli, əsəbi,

Sərxoş filə döndü qeyzi, qəzəbi.
Dayəyə min söyüş yağdırdı o an:
«Murdardan murdarsan, zatıqırıqsan,
İmansız tapılmaz dünyada sən tək,
İtdən urvatsızsan, əskiksən gerçək.
Alçağın biridir tez tutun bunu,
Həyasız qancığı, qoca şortunu.
Haqlı cəzasını verim onun mən,
Dayəlik haqqını töküm gözündən.
Görüm Xuzan adlı yerə, torpağa,
Qar, yağış yerinə göydən daş yağa.
Çünki vətən olmuş əxlaqsızlara,
Geymiş əməlindən dünyalar qara.
Kiçiyin əxlaqın pozur, korlayır,
Böyüyün adına ləkələr yayır.
Xuzandan törəyər yalnız vicdansız,
Yaramaz, əxlaqsız, dinsiz-imansız.
Bədbəxtdir onlara kim bel bağlasa,
Onlardan yar seçib dayə saxlasa.
Dayə tapmaq üçün yermi qəhətdi,
Şəhru sarayını biabır etdi.
Bir korun gözətçi durmağı nədir,
Xuzanlı dayənin işi elədir.
Qarğa yol göstərsə hansı insana,
O yol gedib çıxar qəbiristana…»
Sonra üz tutaraq söylədi Visə:
«Adını korladın uyub iblisə.
Yox imiş kamalın, abrın, ismətin,
Yalanmış hər işin, sözün-söhbətin.
Tapdadın qeyrəti, getdi ar-namus,

Binamus elədin bizi, binamus.
Məsləkin də yalan, vəfan da yalan,
Hamının gözündə oldun alçalan.
Nifrət oxuyacaq qardaşın sənə,
Öz anan, dost-qohum nə deyəcək, nə?
Atdın onları da sən ayaqlara,
Oldular yanımda üzləri qara.
Neçə ki, dayədir təlim verənin,
Fənalıq dividir yoldaşın sənin.
Atalardan qalma yaxşı məsəl var:
«Böyük hər nə çalsa, uşaq oynayar.»
Yolladı Virunun üstə qasidi,
Saydı birər-birər nə ki, var idi:
«Yığasan bacının ipini bəlkə,
Doğra xıncım-xıncım, kəs tikə-tikə.
Dayəyə qan qusdur laxta-laxta sən,
Cəzasını verib öldürməlisən.
Özüm dərslərini olsam verəsi,
Yüz qat artıq cəza alar hərəsi.
Visin gözlərinə dağlar basaram,
Dayəni asaram, dardan asaram.
İtirrəm Ramini mən ilim-ilim,
Çəkməz adını da ağzımda dilim.
Onları rüsvayi cahan edərəm,
Adların dillərdə dastan edərəm.»
Gülüzlü, səmənbər Visə bax indi,
Şaha cavab üçün gör necə dindi.
Necə ismətliydi, necə utancaq,
Abıra, ismətə baxmadı ancaq.
Büllur qollarını əldən çəkərək,

Şahın yatağından qalxdı şümşad tək.
Ey bəxtiyar şahım, – deyə söylədi:
«Məni cəza ilə qorxutmaq nədi?
Haqlı buyurursan bu haqda, haqlı,
Haqlısan bu eybi açmaqda, haqlı.
Məni öldürsən də, qovsan da əgər,
Dağ basıb gözümü ovsan da əgər.
Ömürlük assan da boğazdan dara,
Lüt-üryan eyləyib çəksən bazara,
Sevirəm Ramini iki cahanda,
Canımdır bədəndə, ruhumdur canda.
Könül riqqətimdir, göz bəbəyimdir,
Sevgilim, sultanım, öz mələyimdir.
Bu eşqin yolunda ölərsəm, nə qəm,
Eşq ilə yaşaram, eşq ilə ölləm.
Mən ki, bu dünyada nə qədər varam,
Onu unutmaram, onu atmaram.
Çinar tək görünür boyu qıraqdan,
Gözəldir Mərvdən, gözəldir Mahdan.
Üzü nurlu ayım, parlaq günümdür,
Görüşü ümidim, toy-düyünümdür.
Virudan, Şəhrudan əzizdir mənə,
Əzizdir, əzizdir, əzizdir yenə.
Üzünə söylərdim sözün açığın,
İstər xoşun gəlsin, istər acığın.
İstər öldür məni, istər çək dara,
Mən hara, Ramindən ayrılmaq hara!
Mənim padşahımdır Viru da, sən də,
Sizsiniz hökm edən, fərman verən də.
Viru buxovlasa, salsa da oda,

Qardaş cəzasıdır – yer etməz o da.
Qılıncın canımı alası olar,
Adım ki, dillərdə qalası olar.
Vis eşqi yolunda qorxdum – deməzdi,
Yüz canı olsaydı əsirgəməzdi.
Neçə ki, aslanın gəlir nərəsi,
Neçə ki, susmayıb odlu nəfəsi.
Ona ürək edib kim bata bilər,
Onun balasına əl ata bilər.
Ramin dura-dura, sağ ola-ola,
Kimin hünəri var canımı ala.
Əlim çata-çata dənizdə suya,
Məni necə salar atəş qorxuya.
Visi Raminindən ayırmaq üçün,
Gərək ola bilsin allahlıq gücün.
Nə ölüm qorxudur, nə də işgəncə,
Gərək ayrı tədbir görəsən məncə…»
Bacıdan eşitdi bunları Viru,
Ona ölümdən də betər idi bu.
Evə tərəf çəkib apardı Visi,
Söylədi: «Biabır eylədin bizi.
Şaha abır verdin yanımda, abır,
Özünü, həm məni etdin biabır.
Nə şahdan, nə məndən utanmayırsan,
Ramini özünə yar da sayırsan.
Bilmirəm Ramində nə görmüsən sən,
Hamını ataraq onu sevirsən.
Xəznəylə, dövlətlə öyünər kişi,
Oxumaq, rud, tənbur çalmaqdır işi.
Onunku odur ki, tənbur kökləsin,

Küçədə, bazarda meyxana desin.
Keflənib yıxılır gəlirsə hara,
Paltarı girovdur şərabçılara.
Edib cühudlarla dostluğu peşə,
Mey pulu çəkirlər ondan həmişə.
Bilmirəm düşmüsən toruna necə?
Vermisən könlünü sən ona, necə?
Cənnəti unutma, abrını atma,
Nalayiq iş görüb, günaha batma.
Bu cür qardaşına, anaya, elə
Niyə ləkə vurdun sən bilə-bilə?
Yalnız adı qalıb əcdadımızın,
Onu batırmasın suçu bir qızın.
Ram olub iblisin qoynunda yatma,
Bu iki dünyanı Raminə satma.
Raminin eşqini bilsən – bal, şərbət,
Ondan daha xoşdur əbədi cənnət.
Xəbərdar etməyi borc bilirəm mən,
Ərinlə, tanrıyla özün bilərsən…»
Viru deyən zaman bu cür sözləri,
Cavahir tökürdü Visin gözləri.
Dedi: «Düz buyurdun qardaş, bunları,
Düzlük ağacının şirindir barı.
Elə tutuşmayıb canım odlara,
Öyüd kar eyləyə bu fəryadlara.
Könlümün şüşəsi sınmamış elə
Ki, insan əliylə bir də düzələ.
Artıq olan oldu, keçən də keçdi,
Bu sözün, öyüdün faydası heçdi.
Qapı bağlamağın öz vaxtı vardı,

Evimdə nə vardı oğru apardı.
Ramin öz eşqiylə salıbdı bəndə,
Bu bəndi qırmağa güc hanı məndə?
Desən ki, bunlardan birini bəyən
Əbədi behişti, ya Ramini sən,
Ramini bəyənər, seçərəm, düzü,
Behiştim, cənnətim olar ay üzü.
Viru gördü nələr deyir o pəri,
Cavahir tökməsin deyə gözləri.
Durub incik halda ayrıldı daha,
Onların işləri qaldı allaha…
Gün göyə yüksəldi, nurlandı cahan,
Günəş zərrin kosdu, göy üzü meydan.
Şah əyanlarıyla çövkan oynadı,
Süvarilər ilə meydan qaynadı.
Yenilməz ərlərdən iyirmi nəfər
Möbid toplayaraq olmuşdu rəhbər.
Düzəltmiş Viru da bir belə dəstə,
Başçı da özüydü onların üstə.
Möbidlə Raminə – Rəfida yoldaş,
Viruya, Şərvinə yoldaşsa Ərğaş.
Hələ nə qədər də cəngavər, əyan,
Zadəgan, süvari, igid, pəhləvan.
Kosu qoymurlar ki, bir dəysin yerə,
Çövkanlar qaldırır kosu göylərə.
Qalibdi Raminlə Viru oyunda,
Kos gah onda olur, gah da ki bunda.
Bu qədər hünərli oyunçu… di gəl
Oynaya bilməyir onlardan gözəl.
Bir dəstə incəbel qızla bu ara,

Vis qəsrin damından baxdı onlara.
Gördü qardaşını, gördü yarı da,
Hamıdan gözəldi oyunları da.
Dərd-fikir qəlbini diddi, qazıdı,
Alın qırışlandı, üz avazıdı.
Sanki sərv üstündə külək kükrədi,
O gümüş bədəni əsdi, titrədi.
Xumar nərgizlərdə su damla-damla,
Axdı mirvarilər gülə aramla.
Dayə xoş qılıqla üz tutdu Visə:
«Niyə qul olmusan yenə iblisə?
Neçin əlləşirsən canınla belə,
Göz yaşın bihudə dönübdür selə.
Qarun, Şəhru kimi atan, anan var,
Möbid hökmdarın, Viru havadar.
Bu gün xoşsifətdin, şəndin, güləşdin,
Ay üzlü gözəllər içrə günəşdin.
İrana məlikə, həm banusan sən,
Turanın xatını, şux dilbərisən.
İranın, Turanın iftixarısan,
Bu elin, obanın bəxtiyarısan.
Saç ənbər kimidir, üz gül sayağı,
Günə qısqanclıqsan, hilala yağı.
Hüsnünə heyrandır hər diyar sənin,
Ramin tək ərköyün yarın var sənin.
Yüz qəmin olsa da əgər ürəkdə,
Onu görən kimi gülər ürək də.
Sənin tək ay üzlü səmaya gərək,
Onun tək hökmdar dünyaya gərək.
Nahaqdır tanrıdan bu ah-fəğan da,

Sənə ki, behişti vermiş cahanda.
Taledən şikayət gəlməsin asan,
Ağlaya-ağlaya ağlar qalarsan.
Tanrıdan özgə də arzun var məyər?
Sənə bəxş etdiyi dünyaya dəyər.
Vermiş şahanəlik, gözəllik, gənclik,
Vermiş işvəkarlıq, səadət, dinclik.
Niyə görünməyir bunlar gözünə,
Naşükür olmağın durar gözünə.
Mənim nurlu ayım, olma naşükür,
Tanrı verdiyinə şükür et, şükür.
Bu qədər hirslənib şahı azdırma,
Qırma, qardaşının könlünü qırma.
Bunlar qətrə boyda gəlməsin sana,
Bir gün bu qətrələr dönər tufana…»
Yasəmən ətirli gözəl Vis indi,
Günəş tək parlayıb dindi, nə dindi:
«Ey dayə, neyləyim sən tək nadanla,
Sözü yaxşı anla, sonra get banla.
Çoxdan yayılıbdır bu söz cahana,
Döyüş asan gəlir gendən baxana.
Eşitmiş olasan bunu sən gərək,
Gözdən yaş çıxarmı yanmasa ürək?!
Mən pay-piyadayam, sənsə atlısan,
Məni üzən yollar, sənin̂çin asan.
Mən xəstə, sən sağlam, düzü belədir,
Çəkdiyim ağrılar bilməzsən nədir.
Şah – ərim, böyüyüm olsa da mənim.
Amansız yağımdır, qəddar düşmənim.
Adı ər, özüsə idbarın biri,
Sarsağın, alçağın, kaftarın biri.

Şəhruya yox daha mənim sözüm də,
Qızıl olsa belə heçdir gözümdə.
Viru göydə aya lap olsun tay da,
Yarım ki, deyildir mənə nə fayda?!
Ramin yaraşıqlı, cazibədardır,
Di gəl ki, nə qədər yalanı vardır.
O şirin dilində şirin sözü çox,
Sevgidə vəfası, etibarı yox!
Dili şəkər kimi, zahiri mumdur,
Daxili görünür öddür, zəqqumdur.
Əllərdə oyuncaq olmuş bir qızam,
Yüz yarım olsa da, y0enə yarsızam.
Yarım da, ərim də, qardaşım da var,
Canımı odlara yaxıblar onlar.
Məhəbbət əzaba, dərdə salıbdır,
Adım el içində ərli qalıbdır.
Nə yarım – gözəllər sevən yar kimi,
Nə ərdən yarıdım xanımlar kimi.
Bu necə yar idi, bu necə ərdi,
Bəxş etdi canıma əzabı, dərdi.
Bədbəxtlər bədbəxti, talesiz qızam,
Qızıl teşt istəməm, qızıl qan qusam.
Əgər bəxtim vardı, taleyim vardı,
Yeganə sevgilim Viru olardı.
Nə Möbid, nə Ramin olardı yarım,
Qəlbdə düşmənlərim, üzdə dostlarım.
Biri qılınc kimi qəsdimə durmuş,
Biri daşa dönüb könlümü qırmış,
Birinin düz gəlmir qəlbi diliylə,
Biri dildə zəhər, könüldə hiylə.

## RAMİNİN VİSİN YANINA GƏLMƏSİNDƏN MÖBİDİN XƏBƏR TUTUB ANASINA ŞİKAYƏTLƏNMƏSİ VƏ VİRUYA MƏKTUB YAZMASI

Artıq şahlarşahı bildi ki, bəli,
Çatmış bədəsilə Raminin əli.
Coşmuş məhəbbəti, coşmuş sevgisi,
Axtarıb tapıbdır yenə də Visi.
Bəd əməl əskilsə haçan iblisdən,
Dönərdi Raminin qəlbi də Visdən.
Dovşan şirə dönən zamanda ancaq,
Raminin ürəyi Visdən doyacaq.
Sərçə göstərərsə, laçın tək hünər,
Raminin qəlbi də eşqdən dönər.
Möbid anasının gəldi yanına,
Etdi qardaşından şikayət ona.
Söylədi: «Oğlunda namus-qeyrət var?
Ağlı olan kəs də belə iş tutar?!
Batırıb şöhrəti, şah adımı da,
Yoldan çıxarıbdır arvadımı da.
Belə rüsvayçılıq görübmü bəşər,
Olsun iki qardaş bir arvada ər?!
Ürəyim doymadı, tutmadı qərar,
Bu sirri odur ki, eylədim aşkar.
Bunu çoxdan bilir, demirdim sənə,
Əlacım olsaydı, deməzdim yenə.
Raminin halına indi özün bax,
Mənə qarğış, nifrin yağdırma nahaq.
Can verib əlimdə indi öləndə,

Bahar buludu tək ağlarsan sən də.
Cənnət-cəhənnəmim sən ki, özünsən,
Bu rüsvayçılığa layiqmiyəm mən?
Onun al qanıyla üz yuyam bəlkə,
Silinə üzümdən bu qara ləkə».
Anası söylədi: «Bic də, dəli də,
Kəsməz vuran qolu, tutan əli də.
O sənə qardaşdır, öldürmək nədir?
Qardaşlıqda təkdir və yeganədir.
Olmaz döyüş günü havadar duran,
Gün tək məclisini işıqlandıran.
Raminsiz kimsəsiz, yalqız qalarsan,
Nə bir kef duyarsan, nəşə alarsan.
Oturub-durmağa yoldaşın olmaz,
Etibarlı arxan, sirdaşın olmaz.
Sənə bircə oğul verməyib allah,
Bir gün yer üzünə olaydı o şah.
Yerində varisin olub qalaydı,
Tacını, təxtini ələ alaydı.
Əbədi verilmir ömür insana,
Həyat da bir zaman yetişər sona.
Əzrail çökəndə bir gün canına,
Düşmən sahib olar xanımanına.
Yaxşısı budur ki, dəymə Raminə,
Varislik naminə, şahlıq naminə.
Saxlaya şahlığı, əldə bəlkə də,
Nəslimiz kök salıb qala ölkədə.
Öldürmə qardaşı, qov arvadı sən,
Xəznəyə açarçı seç bir yadı sən.
Nə gəlmiş gözələ, göyçəyə eldə,

Gümüş rəngi üzdə, müşk ətri teldə.
Seç, hansı yatırsa könlünə sənin,
Tapşır açarını ona xəznənin.
Elə bir sədəfdən törəsin inci,
Şahlıq büsatının olsun sevinci.
Baxma ki, törəmiş Cəmşid nəslindən,
Visdən ümidini kəsməlisən sən.
Əsli-nəcabəti yaxşıdır onun,
Di gəl ki, çirkinlik naxşıdır onun.
Bir yerdə çaşasan məbada, oğul,
Salasan ortaya qan-qada, oğul!
Yüz gözəl tapılar olasan əri,
Çıxart ürəyindən sən o ləçəri.
Mənə də söyləyib bunu özgəsi,
Daha doğru deyib bunu, özgəsi.
O alçaq, xəyanət eyləyib sənə,
Virunun toruna düşübdür yenə.
Onunla oturur, onunla durur,
İşrətə qurşanır, büsat da qurur.
Allahdan gəzirdi Vis bu fürsəti,
Yerinə yetibdir indi niyyəti.
Bais Virudur ki, dərd-qəm yeyirsən,
Zavallı Ramindən nə istəyirsən?
Ramin vurulmasa sənin tək ona,
Gedib çıxardımı heç Həmədana?
Yolsuzluq yolundan azdırıb Visi,
Hər gün bir aşnası, bir müştərisi!
Çox da gözəlliyi, göyçəkliyi var,
Ömürlük birinə deyil vəfadar.
Gül kimi var ətri, rəngi, səfası,

Tez solur, tez sönür hüsnü, vəfası».
Anası bunları danışdı ona,
Qardaş qəlbi yandı öz qardaşına.
Vis ilə Viruya çoxaldı kini,
Qəzəbdən sarılıq sardı rəngini.
Qələmi qılınca döndərdi dərhal,
Viruya bir namə göndərdi dərhal:
«Bəlkə xəbərsizəm, söylə yoxsa sən
Məndən şöhrətlisən, ədalətlisən?!
Kimdir sənə arxa, kimdir havadar?
Bu qədər qürurun, təkəbbürün var.
Kim şücaət verdi – çıxdın bu yerə?
Tülkü ola-ola dönmüsən şirə?!
Gur vura bilməzsən bu hünər ilə,
Pəncələşirsən də şiri-nər ilə.
Belə miskinliklə, gücsüzlüklə sən
Mənim arvadımı ala bilərsən?
Vis indi səninlə bacıdır – deyə
Qoynundan çıxmasın arvadım niyə?
Niyə saxlamısan çəkib qoynuna?
Bir səbəb, bəhanə varmıdır buna?
İki ərli arvad səncə harda var?
İki öcəşkən fil bir tükdə durar?
Bəlkə bəlli deyil mənə yurdun da,
Çoxmuş müttəfiqin, çoxmuş ordun da.
Ər oğlu ərmişsən – yenilməz, mətin,
Basıbmış dünyanı adın, şöhrətin.
Nə şah çökdürmüsən bir yol ər kimi,
Nə döyüş görmüsən müzəffər kimi.
Nə bir məmləkətdən almısan xərac,

Nə bir şəhər tutub salmısan tarac.
Nə hünər, igidlik görmüşəm səndən,
Nə də eşitmişəm dostdan, düşməndən.
Bütün nəsilliklə ad alıbsınız,
Ucala-ucala alçalıbsınız.
Cinsiniz qatıra bənzəmir məgər?
Atasını sorsan – «anamdır» – deyər!
Yaxşı tuşlayırsan oxu, kamanı,
Döyüş zamanı yox, nişan zamanı.
Meydanda at üstə yaxşı durarsan,
Kosu öz-özünə yaxşı vurarsan.
Qız-gəlin yanında – xəlvətdə ərsən,
Kəsib-bağlayarsan, asıb-kəsərsən.
Döyüş meydanına girəndəsə sən,
Arvad tək qaçarsan kişi önündən.
Mahda – öz yerində sən belə şirsən,
Kənarda tülkü də görsən əsirsən.
Yadından çıxıbdır vurduğum yara?
Huşsuz sərilmişdin sən ayaqlara.
Mərvin igidləri zirək atlılar,
Sənin ki, üstündə at oynatdılar.
İntiqam eşqiylə qızdı aslanlar,
Döyüş meydanının filiydi onlar.
Mahda qopan ahlar, şivən, vəlvələ
Susmayıb, kəsməyib indi də hələ.
O qol da, şəmşir də öz yerindədir,
Hazırdır qırmağa yağını bir-bir.
Oxuyub məktubu sən ona inan,
Qılıncım təşnədir qanına, inan.
Nələr danışmısan eşitmişəm mən,
Gedib el içində kişilənmisən:

«Şah qəfildən gəlmiş – işmidir bu da?
Yırtıcı şir kimi durmuş pusquda.
Sanıb ki, yatmışam, deyiləm oyaq,
Şah Visi Qurabdan aparmış bayaq.
Mən Mahda olsaydım o zaman hərgah,
Apara bilməzdi Visi şahənşah.»
İndi ki, ayıqsan, huşyarsan belə,
Xoşbəxt şəhriyarsan olduğun elə.
Hər işdən eylədim səni xəbərdar,
Hərbə qoşmalıyıq, qətidir qərar.
Yollarda, izlərdə gözətçi dursun,
Bütün sərhədlərdə sərhədçi dursun.
Qoşun-ordu topla tamam İrandan,
Gilan səhrasından, Azərbaycandan.
Mən gələnə qədər düzəlt ləşkəri,
Gəlib tez biçərək oturdum geri.
Qisas üçün sərvət töksən nə qədər,
Əzabın yel kimi gedəcək hədər.
İndiki gəlişim gəlməsin asan,
Döyüşdən salamat can qurtararsan.
Ölkəni çevirrəm leşdən səhraya,
Dönər axan qanlar Dəclə tək çaya.
Vis gələr baş açıq, ayaq da yalın,
Deyərəm: «İt kimi yedəyə alın»
Elə rüsvay edim onu, qoy daha
Biri bir xəyanət etməsin şaha.»
Məktubu Viruya yollayaraq şah,
Sərkərdələrini eylədi agah.
İgidlər yaraqlı-yasaqlı halda,
Viruyla döyüşə hazırdır yolda.

## MÖBİDİN VİSƏ ÖYÜD VERMƏSİ

Behquy Ramin ilə danışan zaman,
Visi dilə tutdu Möbid də haman.
Ayıq vaxtı düzdü sözləri çin-çin,
Yarın daş qəlbini yumşaltmaq üçün.
Xoş sözlə fikrini hey aşıladı,
Sözü qurtaranda bir də başladı.
Dedi: «Baharısan mən kimi ərin,
Üzün günəşidir ay üzlülərin.
Boş yerə eşqində əzaba dözdüm,
Cəfanı çəkməkdən canımı üzdüm.
Eşqimi, sevgimi saldın dillərə,
Verdin ağ günümü qara yellərə.
Bütün gözəlliklər cəm olub səndə,
Var-dövlət, şan-şöhrət, ad-san da məndə.
Bizik şahlıq edən indi ellərə,
Mən şahlara şaham, sən gözəllərə.
Gəl olaq mehriban, kam alsın ürək,
Hər iki dünyanın kefini sürək.
Dönərsən sarayda sən məlikəyə,
Zahirdə şahənşah ollam ölkəyə.
Şahlıqdan quruca ad qalar məndə,
Sən özün olarsan fərman verən də.
Ən böyük şəhərlər, ellər, elatlar,
Gözəl gülüstanlar, bağlar, bağatlar,
Şahlıqla bərabər töhfədir sənə,
Çox şeyə layiqsən, bu nədir sənə?!
Vəzirim, vəkilim hüzura gələr,

Əmrini, hökmünü yazar mirzələr.
Hər işdə verərsən onlara fərman,
Necə də yaraşar sən yara fərman.
Eşqinin əsiri bir ərin ollam,
Sevdana can verən müştərin ollam.
Kimin həddi sənlə üz-üzə gələ,
Sözünə, əmrinə olmaya kölə.
Gözəlim, bəs deyil, bu qədər qılıq,
Peşəm yaxşılıqdır, eylə yaxşılıq.
Sən tək bədgümanam, yoxsa nəyəm mən?
Yalana, riyaya biganəyəm mən.
Dostluq varlığımın ruhu, canıdır,
Dilim doğruluğun tərcümanıdır.
İnanma bir yalan bu dilə gələr,
Pak ruhum pərvaza eşq ilə gələr.
Doğru sözlərimə inan ürəkdən,
Doğruluqla doğrult gəl özünü sən.
Əgər sevsən məni saf ürək ilə,
Dönüklük nərdini almazsan ələ.
Eşitsə sözümü, hakim də, şah da,
Gəlib astananı öpər dərgahda.
Bir də əvvəlki tək yolunu azsan,
Özümdən dəhşətli qatil tapmazsan.
Çəkin qəzəbimdən, çəkin sən mənim,
Qəzəbim qorxuncdur atəşdən mənim.
Virunun üzündən utan, gözəlim.
Elə bir qardaşı kim görübdür, kim?
Qıyma ki, o cəsur pəhləvanın da,
Üzü qara olsun elin yanında.
Utan qardaşından, elə bir həya,

Mənə nə gərəkdir belə bir həya.
Məhəbbət yoxdursa qardaşa səndə,
Sevgi tapmaq olmaz sirdaşa səndə.
Nə qardaş bilirsən, nə də ki, ana.
Əslini-nəslini bir tanısana!
Şöhrətim çatsa da Günəşə, Aya,
Neçin könül verim, düşüm bəlaya?
Cavab ver sözümə, cavab ver, barı,
Yetirəcəkmisən kama əğyarı?
Söylə daş qəlbində nə var, ey afət!
Nifrət gizlənibdir, yoxsa məhəbbət?
Eşqin məni üzmüş, yox canımda tab,
Qılıncla alaram sorğuma cavab.
Dözə bilməyirəm mən qəmə artıq,
Sirrim car olubdur aləmə artıq.»

## VİSİN MÖBİDƏ CAVABI

Şahənşah söhbəti elə ki, kəsdi,
Vis bağlar sərvi tək titrədi, əsdi.
Söylədi: «Əzizsən tanrı sayağı,
Kamalın zirvəsi – Dəmavənd dağı.
Qəlbin dəyanəti eyləmiş peşə,
Əllərin cavahir səpir həmişə.
Yaradan veribdir hünər, cəsarət,
Şahlıq büsatına layiq məharət.
Gözəl arzulardan nəcib əməlli,
Hünərin cahana gün kimi bəlli.
Zamanın şahısan bəxtiyar insan,

Dünyada şöhrətlə yaşa hər zaman.
Şöhrətin, hümmətin əngin səmalar,
Səadət günəşli cah-cəlalın var.
Tanrının hökmüdür kəsərdə hökmün,
Adın xoşbəxtlikdə şölə saçan Gün.
Özün ki, bilirsən kələk işləri,
Çərpəşik salandır fələk işləri.
Hökmünü verməsə yaradan kişi,
İnsan öz başına tutmaz bir işi.
Ölçünü-biçini tanrıdır bilən,
Azı da, çoxu da özüdür bölən.
İlk gündən son günə hər birimizi,
O, hər qədəm başı izləyir düzü.
Haqqın öz əmridir gördüyümüz iş,
Haraya istəmiş, oraya çəkmiş.
Yaxşı, pis qataraq xislətimizə,
Savab da, günah da yazıbdır bizə.
Yoğrulmuş bir şeyi ayıran varmı?
Tanrının yazdığı heç pozularmı?
Ağıllı, ağılsız kim var dünyada,
Hər bir əməlinə heyrandır o da.
Xislətim təmizdir, ya da ki, murdar,
Haqq belə yaratmış, nə günahım var?
Dünyaya gələrək ilk qədəm atdım,
Tərbiyə verildi, ərsəyə çatdım.
Səni bəxtiyara döndərib xaliq,
Məni bəxtiqara göndərib xaliq?
Günahkar deyiləm – yaxşıyam, pisəm,
Sanma pisliyimə özüm baisəm,
Mən ki, istəməzdim düşəm əzaba,

Dözəm məlamətə, dərdə, əzaba.
Özüm istərdimmi zillət görməyi,
Sitəmlə böyüyüb ömür sürməyi?
Rəva bilərdimmi çöhrəm saralsın,
Həmişə qəlbimi qorxular alsın.
Nə zaman özümü şad olan gördüm,
Şadlıqda ruhuma qəm dolan gördüm.
Açmış öz başıma iqbalım kələk,
Mənimlə əlləşir bu zalım fələk.
Görünmür taleyim gözə cin kimi,
Uçunur ürəyim göyərçin kimi.
Bezərək həyatdan doymuşam cana,
Yem olmaq istərəm vəhşi aslana.
Ürək pərdəsini dırnaqla dəlləm,
Dişlə damarımı doğrasam, nə qəm!
Nə ürək, nə damar, nə can gərəkdir,
Məni dərdə salan çünki ürəkdir.
Havasız boğulur sinəmdə ürək,
Fərəhsiz çırpınır dərd-qəmdə ürək.
Halı pərişanam qəmli duyğudan,
Açılmır bəxtimin gözü uyqudan.
Neçin eşqə uyum, pozulsun halım?
Ömürlük bədnamlıq əlində qalım?
Neçin düşmən olum şahənşahla mən?
Qohumum, qardaşım bezsin əlimdən?
Sirrimi yadlara verdim özüm də,
Qaranlıq quyudur dünya gözümdə.
Sevgi nə yaraşar zillət içində,
Olarmı aşna-yar zillət içində?
Danlaqdan, qeybətdən qulaq dolubdur,

Adım el içində bədnam olubdur.
Qaranlıq könlümə qapı açıldı,
Bir çıraq işığı ora saçıldı.
Qərq oldu nuruna könül sarayım,
Yetişdi ağlıma könül harayım.
Məhəbbət yolundan döndüm o gündən,
Sevgi ağacını kəsdim kökündən.
Eşqim qısaldıbdır gördüm dilimi,
Hər iki dünyadan üzdüm əlimi.
Bir dərin dəryadır eşqin ümmanı,
Onun dibi hanı, sahili hanı?
Ömürlük qoynunda gəmi sürəm mən,
Mümkünmü sahili bir də görəm mən?
Məndə olsa belə yüz Nuhun canı,
Bir canı sahilə çıxarmaq hanı?!
Neçin öz canımla nahaq çəkişim,
Qanımı tökməklə axı, nə işim?!
Sözünə mən əməl etməyim, niyə?
Qorxusuz yol ilə getməyim, niyə?
Görsən bir dönüklük məndə sən daha,
Nə cəza istəsən verərsən daha.
Qüvvətdə dönsə də bir şirə Ramin,
Məni çətin ələ gətirə Ramin.
Külək olsa mənim iyimə yetməz,
Nə küçə? Nə saray? Yanımdan ötməz.
Baş tutmaz, tilsimə əl atsa belə,
Baş tutmaz, kələklə aldatsa belə.
And-qəsəm içirəm sənə, allaha,
Əhdimi-andımı pozmaram daha.
Bir kənizin olum mən təki sənin,

Daha sən mənimsən, mən də ki, sənin.
Qəlbin mərhəmətə gəlsə bu kərə,
Dönərəm yanında qəndə, şəkərə.
Dodağın dodağa bəlkə qoyula,
Doğru sözlərimin dadı duyula.
Yəqin kam almaqdan agahsız, agah.»
Üzündən, gözündən öpdü şahənşah.
Sitayiş, pərəstiş, mərhəmət ilə,
Nəvaziş göstərdi tutaraq dilə.
Şad-xürrəm ayrıldı şahla o pəri,
Dağıldı könlündən kədər ləşkəri.

## RAMİNİN QURABA GETMƏSİ VƏ GÜLÜ GÖRÜB ONA AŞİQ OLMASI

İgid pəhləvandı çox da sarayda,
Raminə şöhrətdən, addan nə fayda.
Vissiz bu nə şöhrət, nə ucalıqdı,
Ürəyi sulara təşnə balıqdı.
Gəzdi hara varsa ixtiyarında,
Adil hakim oldu öz diyarında.
Dolaşdı harada, keçdi haradan,
Xaini, alçağı sildi aradan.
Yox oldu qurdun da daha qorxusu,
Qurdu çoban sandı qoyunla quzu.
Bildirçin qırğıdan lap ürküsüzdü,
Kəklik qızılquşla yanaşı süzdü.
Amulda mey içib o, kefə baxdı,
Şərab su yerinə axdı, nə axdı.
Onun sayəsində Qumiş əhli bax,

Batdı eyş-işrətə, sürdü kef-damaq.
Vahimə yaratdı odlu şəmşirlə,
Gur qoşa su içdi meşədə şirlə.
Hər yerdən İsfahan xoş gəldi ona,
Yollandı orduyla düz İsfahana.
Gürganı, Əhvazı, Reyi, Bağdadı,
Qərq etdi büsata, şənliyə adı.
Uyudu əzabdan çıxmış hər diyar,
Hamı necə xürrəm, necə bəxtiyar!
Çəkildi yurdundan qayğı kölgəsi,
Behiştə çevrilib güldü ölkəsi.
Ağaclar səadət barlı, bəhrəli,
Acgözlük, paxıllıq tərk etdi eli.
Biryolluq ixtiyar keçdi əlinə,
Özü fərman verən oldu elinə.
Qoymadı gəzməmiş Ramin bir oba,
Nəhayət, yetişdi gözəl Quraba.
Şöhrəti Günəşə, Aya bərabər,
Şapurla Rəfida tutdular xəbər.
Şahanə təntənə, şahanə büsat,
Bundan şairanə, daha nə büsat…
Hər səhər çıxdılar, ova, ovlağa,
Mey içib baxdılar kefə-damağa.
Rud çalıb, mey süzüb, məclis qurdular,
Ox, xəncər götürüb şikar vurdular.
Sərdilər meşədə şirləri yerə,
Süzüldü gülşəndə mey qədəhlərə.
Təsvirə sığmazdır toy-düyünləri,
İşrətdə, ovlaqda keçdi günləri.
Raminin kefinə qəm calanmışdı,

Ürəyi nar kimi paralanmışdı.
Haçan ki, şikarı nişan alardı,
Qəlbi eşq oxuna hədəf olardı.
Gecə tərk edəndə dostu, yoldaşı,
Dənizə dönərdi qanlı göz yaşı.
Günlərin birində Ramin bu halda,
Bir günəş üzlüyə rast gəldi yolda.
Qəm-qüssə dağıdan ilk bahar gülü,
Ədası, görkəmi ovlar könülü.
Gözəllik sultanı, qəlblərə fərəh,
Busəsi nəşədir, açılar ürək.
Yanaqlar andırır çiçəkli bağı,
Şəkərdən bəyazdır, bəyaz buxağı.
Tilsim yuvasıdır qoşa hörüklər,
Hər bəndi tilsimə çəkib sürüklər.
Şəfqətli dodağı hər dərdə məlhəm,
Beçə bal dadı da dodağından kəm.
Yaquta bənzəyən kiçik ağzı var,
Dişi parlaqlıqda Ülkərə oxşar.
Qaşları abxazlı oxatan, inan,
Əhvaz əqrəbi tək zülfü qıvrılan.
Al yanaq Şüştərin al ipəyincə,
Şəkər dodaqları incədən incə.
Dodağın birisi ətirli çiçək,
Biri şərab rəngli parlaq inci tək.
Ülkər ulduzu tək gözləri yanan,
Kaman qaşlarından xədəng tuşlanan.
Zirehmi çəkilmiş sünbül saçlara,
Nərgiz gözlər hara? Ox-kaman hara?
Vəhşi nar gülüdür, üzü tazə-tər,

Aşiqə zəncirdir qıvrım hörüklər.
Üzünü dirilik çeşməsi yuyub,
Zəncir hörükləri fitnə toxuyub.
Ağzında cavahir, şərbət, şəkər, bal,
Qar, süd, qan, mey hopan yanaqları al.
Birində ulduzlar yanıb sayrışan,
Biri də müşk-ənbər qoxuyur hər an.
Qaməti andırar sərvi, şümşadı,
Qəmzəsi yumşaldar daşı, poladı.
Xarada gizlənmiş gümüş əndamı,
Qızıl balıq sanır görəndə hamı.
Başında müşk-ənbər saçan tacı var,
Üstündə cavahir, qızıl parlayar.
Hörüyü sallanıb dəyir dabana,
Ətri bir  yanadır, tilsim bir yana.
Zülmət gecə kimi saçlar zil qara,
Ay üzü nur saçır sıx buludlara.
Qulağı ipəkdir – üstündə gülü,
İpəyin üstünə düzmüş sünbülü.
Könüllər oxşayan, can oda yaxan,
İncə, məlahətli, naz ilə baxan.
Bir bağdır – Ay, Ülkər enmiş oraya,
Gül-sünbül onları salmış araya.
Tanrının əliylə süslənmiş əzəl,
Büt tək sığallanmış necə də gözəl.
Bədəni atlazdır qaş-daş içində,
Gözəllik bütüdür qumaş içində.
Qaş-daşdan xəznədir sanki bədəni,
Bu qədər gövhərlə – gövhər mədəni.
Əyni cəvahirə, dürrə bələnən,

Süslənmiş saçından ənbər ələnən.
Görkəmi uzaqdan göz qamaşdıran,
Ənbərin qoxusu ağlı çaşdıran,
Tac – günəş, nur saçır Günəşə çöhrə,
Dişləri kəhkəşan, boynunda Zöhrə,
Bir şahzadə kimi cavan, bəxtiyar,
Arzu, həyat qədər şirinliyi var.
Zərif gözəlliyi ilk bahar bağı,
Ədası, duruşu maralsayağı.
Dövrəsində səksən incəbel pəri,
Rum, Çin gözəlləri, hind gözəlləri.
Onlar çəmən gülü, bağlar sərvimi,
Ayın ətrafında kəhkəşan kimi.
O qaməti sərvi, canlı hilalı,
Görəndə Raminin pozuldu halı.
Elə bil gözləri Günəşə baxdı,
Qamaşan gözündən sel tək yaş axdı.
Dizləri əsərək sarsıldı yaman,
Taqətsiz əlindən düşdü ox-kaman.
İnana bilmədi bu macəraya,
Günə, bütə baxdı, yoxsa ki, Aya.
«Bu nədir, gözəldir ilk bahar kimi,
Cənnət hurisimi, Çin gözəlimi?
Gözəllik bağının gənc sərvi bumu?
Sevinc səhrasının qırqovulumu?
O, bir şahzadədir, sənəmlər alay,
Gözəllər ulduzdur, o, bədirli Ay.»
Ramin heyran-heyran baxanda ona,
O gümüş bədənli gəldi yaxına.
Elə bil tanışmış haçandan bəri,

Görüşdü Raminlə o gözəl pəri.
Dedi: «Ey dünyanın şanlı hakimi,
Mahabad adınla nurlu Ay kimi.
Bu gecə bizə gəl, kimsə qınamaz,
Yollar yorğunusan, rahatlan bir az.
Qəbul et, qonaq ol, bir gecəlik sən,
Nəvaziş görərsən, sevinc görərsən.
Gülgün mey verərəm, taparsan nəşə,
Müşk ətri qoxuyar bənzər atəşə.
Adına meşədən çiyələk dərrəm,
Özün tək ətirli bənövşə verrəm.
Kəklik gətirərəm dağlardan sənə,
Quş, turac tutaram bağlardan sənə.
Bağdan təzə süsən, gül dərərəm mən,
Məclisi gülşənə döndərərəm mən.
Öz şirin canım tək tutaram əziz,
Budur adətimiz, qonaqcılıq biz».
Ramin dedi ona: «Ay üzlü, danış,
Adınla, əslinlə məni et tanış.
De görüm Qurabda sən kimlərdənsən,
Qızmısan, dulmusan, ya ərdəsən sən?
Adın nə? Vətənin de, hansı diyar?
Mənə, açıq söylə, olarmısan yar?!
Evlənmək istəsəm sənինlə əyər,
De, anan nə qədər başlıq istəyər.
Şirin dodaqların qənd, beçə balı,
Söylə necə alım, mən necə, balı?
Qiymət, can bahası qoyulsa sənə,
And olsun canına, ucuzdur yenə.»
Mələk ədasıyla göz süzə-süzə,

O günəş camallı başladı sözə:
«Adımı deməyi bilməyirəm ar,
Əslini danmaqdan axı, nə çıxar?
Günəşi danmağım mənası varmı?
Nur saçan Günəşi kimsə danarmı!?
Atam Rəfidadır, anamsa Gövhər.
Anam təmiz qadın, atam igid ər.
Cəngavər qardaşım – məşhur hər yanda,
Yenilməz igiddir Azərbaycanda.
Gül-çiçək içində doğulmuşam mən,
Gül qoymuş adımı anam əzəldən.
Atamı, anamı tanıyır hər yan,
Biri Həmədandan, biri Qurabdan.
Bədən gül, ətrim gül, özü güləm mən,
Adım gül, yanaq gül, üzü güləm mən.
Özüməm şəfqətli sənəm Qurabda,
Xanımlar xanımı mənəm Qurabda.
Qamətim sərvdir qardaşım təki,
Anamın üzüdür ay üzüm də ki…
Gərdənim büllurdan, sinəm gümüşdən,
Xəz kimi zərifəm, gül tək lətif mən.
Adımı, əslimi dedin danışam,
Adınla, əslinlə çoxdan tanışam.
Şahın qardaşısan, Ramindir adın,
Visin vüsalıdır arzun-muradın.
Balıq sudan ayrı yaşayarsa da,
Sən onsuz yaşarsan, salmazsan yada.
Dəclə ayrılarsa əgər Bağdaddan,
Sən də ayrılarsan qəddi şümşaddan.
O zaman silinər qəlbindən kədər,

Zəncinin üzündən qaranlıq gedər.
Əl atmış caduya, sehrə, əfsuna,
Səni qoca dayə bağlamış ona.
Onu unutmağa çatmaz qüdrətin,
Özgə yar sevməyin çətindir, çətin.
Dözmürsən, get yenə Vis ilə yaşa,
El rüsvayçılığa etsin tamaşa.
Əlindən yamanca qəzəblidir şah,
Elə işi rəva bilərmi allah?!»
Gülün sözlərinə Ramin inandı,
Sevdalı günləri nifrətlə andı.
Salmış aşiqliyi onu dillərə,
Tənələr yağdırıb, danlayır hərə.
Ay üzlü gözəli xoş qılıq ilə,
Çıxardı yolundan tutub al dilə.
Dedi: «Ey qaməti sərvə oxşayan,
Ay kimi, Gün kimi hüsnü nur yayan.
Bəlalı aşiqi qınama nahaq,
Şükr elə, yetişsin qoy dadıma haqq.
Bu əsrarlı dünya bilirsən nədir?
Yaxamız taleyin öz əlindədir!
Başıma qaxma ki, əməlim azmış,
Bəlkə tale özü bu cürə yazmış.
Olanı xatirə gətirək niyə?
Keçənlər qayıtmaz bir də geriyə.
İltimas edirəm ay üzlü pəri,
Gətirmə yadına gəl keçənləri.
Dünən keçib getdi, bu gündən danış,
Hər şey öz yerində, gəl olaq tanış.
İltifat göstərib olsan yar mənə,

Həm dildar olarsan, həm qəmxar mənə.
Gülsün ilk bahar tək qoy gülgün üzün,
Ömrümün günəşi özün ol, özün.
Olarsam sənlə hərgah bəxtiyar,
Sənə də hər zaman olar bəxtin yar.
Nurlu Aya dönsən mənimçin hərgah,
Səndən əsirgəməz səxavətin şah.
Olsan bəxtiyarlıq, səadət Ayım,
Xoşbəxtlik sultanın olaram daim.
Nəyim var, sənindir inan, dünyada,
Canımı istəsən sənindir o da.
Yalnız sən olarsan sarayda xanım,
Yalnız səni bilər məlhəm bu canım.
Əgər qovuşarsam sənin tək yara,
Qəlbən and içərəm əhdə-ilqara:
Neçə ki, mövcuddur səhralar, dağlar,
Dəclənin, Ceyhunun suları çağlar.
Suda balıq oynar, qaynar çeşmələr,
Gecə qaranlıqdır, Günəş nur ələr.
Göydə parlaq Günəş, ay yanacaqdır,
Sərvlər bağlarda nazlanacaqdır.
Küləklər dağlarda, düzlərdə əsir,
Ceyranlar çəməndə otlayır, gəzir.
Əbədi ayrılmaz qoşa yarıq biz,
Sevib-sevilərək yaşayarıq biz.
İlk oxum havayı getmiş, havayı,
Qucmaram özgəni səndən savayı.
Visdən daha gözəl olmasa yarım,
Tapdanar şöhrətim, namusum, arım.»
O Günəş çöhrəli, gül əndam gözəl,

Dedi: «Ramin, məni tora salma gəl,
Sanma düşəcəyəm sənin toruna,
Təslim olacağam şahlıq zoruna.
Şahlıq lazım deyil mənə heç zaman,
Nə cah-cəlal gərək, nə də şöhrət-şan.
Ordular çaxnaşan, meydan nə gərək,
Nə də gövhər dolu xəzinə gərək.
İstərəm sənlə bir həyat qurum,
Əmrinlə oturum, əmrinlə durum.
Olsam qaravaşın, kənizin hərgah,
Sanaram özünsən yer üzündə şah.
Olsan məhəbbətlə sevən yar mənə,
Olsan sədaqətli, vəfadar mənə,
Tapmazsan dünyada özüm kimi yar,
Məndədir etibar, sədaqət, ilqar.
Getmə Xorasana, yaşa burada,
Şad-xürrəm dolanıb, yetiş murada.
O cadugər Visi görmə bir daha,
Sənə qadın olmaz, zövcədir şaha.
Çox da mehribandır, gətirmə yada,
Verilmiş özgəyə, qismətmiş yada.
Söz ver ki, ondan üz döndərəcəksən,
Nə xəbər, nə qasid göndərəcəksən.
And içsən – bu əhdə sonacan varıq,
İki baş birləşən bir can olarıq.»
Ay üzlünün sözü könlünə yatdı,
Ramin danışmağı kənara atdı.
Razı qaldı Güldən, belə gəlindən,
Evə sarı çəkdi tutub əlindən.
Ramin Rəfidanın evinə gəldi,

Gül sərv tək uca, Ay tək gözəldi.
Gözəl taxt üstündə oturdu aram,
Cəvahir səpildi ayağa yüz cam.
Zər-xara bəzədi evi, eyvanı,
Müşk-ənbər qoxusu basdı hər yanı.

## RAMİNİN GÜL İLƏ EVLƏNMƏSİ

Nemətlə, gövhərlə zəngin ziyafət,
Əyanlar, əşrəflər olunmuş dəvət.
Şad-xürrəm əyləşmiş hər qonaq-qara,
Başlanmış işrətə, qızışmış ara.
Gül çapar göndərib yığmış hamını,
Xəbərdar eləmiş öz adamını.
Reydən, Həmədandan və Kuhistandan,
Qum, Gürgan, İsfəhan və Xuzistandan.
Gəlmiş hər şəhərin şəhər ağası,
Torpaq sahibləri, kəndin darğası.
Ay üzlü gözəllər gəlməyir saya,
Şahlar toplaşmışlar geniş saraya.
Bər-bəzək vurulmuş hər bir guşəyə,
Mey içib dalmışdır hamı nəşəyə.
Bərq vurur əllərdə meyli piyalə,
Elə bil düzlərdə sayrışır lalə.
Musiqi səsləndi, coşdu gündüzlər,
Nəğmə ilə doldu dərələr, düzlər.
Çəməndə, gülşəndə, çöldə axşamlar,
Qədəhdən yanırdı əllərdə şamlar.
Dağlarda daşlar da əqiqə çaldı,

Elə bil çaylarda sular da baldı.
Kimi cüyür qovdu, kimi də ceyran,
Baxan gur ovuna qalırdı heyran.
Quş səsi qarışdı qədəh səsinə,
Daldılar həyatın hər nəşəsinə.
Qumaşdı, ənbərdi tamam yer üzü,
Səhralar Şüştərin, Xərxizin özü.
Bağlarda quşların səsi ucalan,
Quşlar da çəng çalan, tütək, ney çalan.
Qonaqlı-qaralı dağların beli,
Qarışdı çaylara şərabın seli.
Müşkün tüstüsündən yarandı sərab,
Dünyanın tozunu yudu al şərab.
Bir ay qadın, kişi, şahlar, əyanlar,
İşrətlə, şikarla əyləndi onlar.
Meylə xumarlanan, sərxoş olan kim,
Şikara cuman kim, tənbur çalan kim.
Çövkan oynanıldı, işrət quruldu,
Dastan söylənildi, şikar vuruldu.
Ceyran hürkütdülər yamacda, yalda,
Qovuldu ürəkdən kədər, məlal da.
Hürkdü dağ keçisi, maralla əlik,
Oldu məskənləri səhra, meşəlik.
Düzdə yazıq ceyran sığınsın hara?
Tazının əlindən qaçdı dağlara.
Kədərsiz olmamış dünya heç vədə,
Bir ay qəm olmadı həmin ölkədə.
Sevənlər qayğısız, vüsal ilə şad,
Gecəli-gündüzlü qüssədən azad.
Hədiyyə verildi əyanlara da,

Xanəndə, müğənni coşdu arada.
Mahnı deyə-deyə, söz qoşa-qoşa,
Raminin şəninə gəldilər coşa:
«Sevinclə, fərəhlə yaşa aləmdə,
Heç vaxt görməyəsən kədər də, qəm də.
Yetiş hər arzuna, yetiş murada,
Layiqsən şöhrətə, layiqsən ada.
Yar olsun qələbə, rəşadət sənə,
Ucalıq, şan-şöhrət, səadət sənə.
Şikara çıxmışdın bizim diyara,
Rast gəldin Gül kimi gözəl şikara.
Kim belə günəşi ovlamış haçan?
Gözəllik gülüdür qarşında açan.
Baxıb heyran-heyran daim sən Gülə,
Ömürlük pərəstiş edərsən gülə.
Belə cənnət gülü kimin varıdır,
Ürəyin o gülün öz gülzarıdır.
Bir gül ki, üstünə düşür ay nuru,
Hansı gülə düşmüş bu cür ay nuru.
Qış vaxtı açılan solmaz gül hanı?
Elə gözəl gül ki, yoxdur tikanı.
Gülüstan sərvidir bu Gülün sənin,
Gör necə gülün var, necə gülşənin.
Bu gülşən sənindir bütün çağları,
Bəzər sarayını, bəzər bağları.
Olmasın payızda, qışda da həşəm,
Yaşa bu gülşənlə, çəkmə qüssə-qəm.
O gülün tikanı – ənbər telləri,
Ənbərlə gözəldir o gözəl pəri.
Bir cüt əqrəb olmuş bağban o gülə,

Nərgizlər gözətçi hər an o gülə.
Rəngində cavanlıq təravəti var,
Ətrindən ölülər dirilik tapar.
O gülün uğrunda qurban gedər can,
Qoxlasan ətrini, bayılmalısan.
Ətri müşk-ənbərdir, rəngi al şərab,
Mələk olmuş rizvan əliylə sirab.
Hər bir gül o Güldən ətir alandır,
Ənbər hörükləri tora salandır.
Şəkər satan kəslər gəlməz yaxına,
Ənbər satanlardır müştəri ona.
Əlinə gül alsın, piyalə alsın,
Qoy bu Gül Raminin əlində qalsın.
Səadət, xoşbəxtlik ona yar olsun,
Sevənlər hamıdan bəxtiyar olsun.»

## RAMİNİN VİSƏ MƏKTUB YAZMASI

Ramin gördü Gülü küsdürmüş yaman,
İncimiş, barışmaz daha heç zaman.
Kağız-qələm aldı Gülün yanında,
Visə məktub yazdı tələş canında.
Cəfa qılıncıyla vurmaqdı qəsdi,
Öz əhd-ilqarını onunla kəsdi.
Vəfadar, əhdinə sadiq gözələ,
Yazdı o vəfasız, ilqarsız belə:
«Vis, indi yəqin ki, yadına gələr,
Nələr gətirmədi başıma, nələr.
Əlimdən bizardı tanrıyla bəndə,
Nə abır, nə həya qoydular məndə.

Nəsihət verərək danladı hərə,
Eşqində xar olub, düşdüm dillərə.
Tapmadım dünyada bir qadın, kişi,
Bəyənsin tutduğum əməli, işi.
Olmadı eşqimi nifrətdən seçən,
İkrahla baxırdı hər yoldan keçən.
Adımı eşidən, tanımayan da,
Söyüş yağdırırdı mənə hər yanda.
Daima pislikdə çəkildi adım,
Məni dərdə saldı arzum, muradım.
Yolumu aslanlar, pələnglər kəsdi,
Qılınclar başımın üstündə gəzdi.
Səni sevən gündən qəlbim gülməmiş,
Bu miskin könlümdən qəm üzülməmiş.
Sayılmaz hicrində qorxu-təlaşım,
Dənizə çevrildi qanlı göz yaşım.
Vüsalın yolunda çıxdım savaşdan,
Bezmişdim canımdan, keçmişdim başdan.
Elə gün olmadı görəndə səni,
Yüz ürək ağrısı tapmasın məni.
Qəsdimə durmaq da gözə gəlməzdi,
Haqq özü, el sözü qarşımı kəsdi.
Sevdaya düşməmiş necəydim, necə?!
Mənimdi kef-damaq, məclis, əyləncə.
Gözümdə ahuya dönərdi pələng,
Balıq tək acizdi qarşımda nəhəng.
Hər yeldən dəniz tək coşmazdım da mən,
Ödünü udardı Günəş zəhmimdən.
Əlimə alan tək oxu, şəmşiri,
Sərərdim torpağa əsrəyən şiri.

Şahinim havaya pərvazlananda,
Buluda girərdi Ay həmin anda,
Göyə uçuranda mən qızıl quşu,
İtərdi qorxudan Ayın da huşu.
Yerindən oynasa arzu köhləni,
Fikir, xəyal belə tutmazdı məni.
Keyfimin səməndi mənzil vurardı,
Ümidimin gözü ayıq durardı.
Nəşəylə doluydu şadlıq piyaləm,
İstək xəznəsində gövhər bir aləm.
Cavan şümşad idim işrət bağında,
Sınmaz polad idim döyüş çağında.
Qızıla dönmüşdü daş yaylağımda,
İnciyə əvəzdi qum çaylağımda.
Gördünmü, sonralar nə oldu halım.
Əsir-yesir etdi məni iqbalım.
Gənc ikən bel bükmək olubdur payım,
Şimal ulduzuna dönübdür Ayım.
Eşq əydi qəddimi doğanaq kimi,
Zaman boğdu məni boğanaq kimi.
Sevgi ürəyimi yandırdı oda,
Sevinc uzaqlaşdı, yan durdu o da.
Ağlımı əlimdən aldı məhəbbət,
Dəli tək çöllərə saldı məhəbbət.
Mahir ox atandı sanki çoxları,
Sancıldı sinəmə tənə oxları.
Sinə dağlarımı demirəm hələ,
Üstəlik danlandım, salındım ələ.
Görürdün sərxoşam sevda meyindən,
Toxundun sərxoşa bilə-bilə sən,

Məndən salam olsun, atəşin salam.
Sanma bir də sevəm, səndən kam alam.
Tanış ol, halımla mənim bu dəfə,
Şad-xürrəm yaşayır, baxıram kefə.
Səndən ayrılalı, inan burada,
Könlüm sultan olmuş kama-murada.
Səbrə alışmışam haçandan bəri,
Tapmışam könlümə yatan dilbəri.
Ətirli gül açmış könül gülzarı,
Oxşaram behiştdə Gül kimi yarı.
Gül tək ətir saçır, gülür gözəlim,
Evimə zinətdir, oxşar öz əlim.
Başı naz balışda, yatır yanımda,
Odur görən gözüm, şirin canım da.
Ömürlük seçmişəm qadın özümə,
Nə Günəş görünür, nə Ay gözümə.
Gülüstan bəxş edib sanki gül mənə,
Sarayım Gül kimi dönüb gülşənə.
Səndən xata gəldi, tapdım yüz qada,
O, məni yetirdi kama dünyada.
Könlüm qanadlanır fərəhdən hər an,
Sənինlə görmədim belə güzəran.
Salanda yadıma olub-keçəni,
İndi də sarsıdır o halım məni.
Bu nakam ürəyim dözmüş nə təhər, –
Hicranın əlindən içərək zəhər.
Dünyadan xəbərsiz sənə uymuşam,
Əzab çəkə-çəkə fərəh duymuşam.
İndi oyanmışam həmin uyqudan,
Artıq ayılmışam sərxoş duyğudan.

Bəla zəncirini açmışam daha,
Zillət zindanından qaçmışam daha.
And içmişəm Gülə, o gül camala,
Taleyin hökmünə, yetgin kamala,
Dünya tanrısına, Günəşə, Aya,
Arzuya, məsləkə, parlaq dühaya.
Olaram ömürlük vəfadar Gülə,
Şadlıqla sevilən, sevən yar Gülə.
Mənim Mahabadım, sənin Mərvin var,
Məni ay əzizlər, səni hökmdar.
Burda ayla olan bircə saatı,
Şadlığı, işrəti, keyfi, büsatı,
Vermərəm yüz illik elə həyata,
Məhbəsi andıran kölə həyata.
Sanama günləri, ayları, ili,
Yolumu gözləmə, unut nisgili.
Sonsuzdur hicranın müdhiş yolları,
Ürək unudubdur sənin tək yarı.
Dözüm olan yerdə heçdir simuzər,
Nigaran qalmağın canını üzər.»
Ramin naməsini yetirdi sona,
Zərli möhür vurdu ünvanda ona.
Əmrlə hüzurda dayandı çapar,
Dedi ki, məktubu yara tez apar.
Qasid yelə dönüb yola düzəldi,
İki həftə keçmiş o, Mərvə gəldi.

## VİSİN RAMİNƏ MƏKTUB YAZIB GÖRÜŞ İSTƏMƏSİ

Məktub zərif ipək, Çin ipəyidir,
Sanki Tibet müşkü, yaz çiçəyidir.
Misir qarğısından düzəlmiş qələm,
Mürəkkəb gül suyu, ətrisə aləm.
Raminin həsrəti bəllidir, nədir?
Visin qəddi kimi qələm incədir.
Babil sehrikarı yazmış məktubu,
Söz deyil, incimi, şəkərmidir bu?
İpək kağız Visin sinəsi kimi,
Mürəkkəbin ətri Visin telimi?
Mirzə – gözü kimi əfsuna çəkər,
Sözlər dodağı tək inci, ya şəkər.
Allahın adıyla məktub başlandı,
Sonra yada saldı ilqarı, andı.
Hər şeydən dönüklük gəlir arına,
Sadiq sevgilindən – özgə yarına.
Günə həsrət aydan – çıxıb səmaya,
Parlaya-parlaya nur yayan aya.
Zaval vurmuş bağdan baharlı bağa,
Çiçəkli, meyvəli, bir barlı bağa.
Qurumuş şaxədən, pöhrəli şaxa,
Meyvəsi, Ay, ulduz bəhrəli şaxa.
Boş qalmış mədəndən – zəngin mədənə,
Dünyaca gövhəri zəngin mədənə.
Yaxılan gündüzdən – açılan günə,
İşığı aləmə saçılan günə.
Bir itmiş yaqutdan – qalan yaquta,

Taca şöləsini salan yaquta.
Xəzanlı gülşəndən – yazlı gülşənə,
Gülləri sayrışan nazlı gülşənə.
İncisiz dənizdən – əngin ümmana,
Sədəfi, incisi zəngin ümmana.
Bəxti qara kəsdən – xoşbəxt insana,
Səadət günəşi nurlar saçana.
Batan bir Günəşdən – doğan Günəşə,
Əbədi zülməti boğan günəşə.
Alovlu sevgidən – sönmüş sevgiyə,
Yanıb, sonra buza dönmüş sevgiyə.
Əzab çəkmiş candan – qayğısız cana,
Səadət qoynunda xumarlanana.
Eşqə biganədən – eşqi duyana,
Yenidən sevdaya, eşqə uyana.
Soluxmuş çöhrədən – al yanaq üzə,
Üzdəki parlayan nurlu gündüzə.
Od tutmuş yanaqdan – ipək yanağa,
İpək üstündəki çiçək yanağa.
Oyaq, yaşlı gözdən – yuxulu gözə,
Yaşarmaq bilməyən uyqulu gözə.
Vəfalı dilbərdən – vəfasız yara,
Abır-həya bilməz cəfasız yara.
Yalqızlıq ayından – dünya şahına,
Şahlığı bəllidir yada-yaxına.
Ağlaya-ağlaya yazdım naməni,
Ürəyim həyatdan bezdirib məni.
Hicran atəşində qovrulur bu can,
Şadlıq məclisində çal-çağırdasan.
Vəfa xəzinəsinə xəzinədaram,

Cəfanla həyatım olubdur haram.
Oxu məktubumu, dəysə də ara,
Səni and verirəm eşqə, ilqara.
Bizi qovuşduran vüsal dəminə,
Şirin görüşlərin xoş aləminə.
Sevgiylə ötüşən uzun illərə,
Eşqdən söz açan şirin dillərə.
Naməni sonacan sən oxuyasan,
Çəkdiyim əzabı yaxşı duyasan.
Xaliq xəlq eləyən, bu aləm ki, var,
Bəzən üzər bizi, bəzən sağaldar.
Gah şadlıq gətirər, gah da dərd-azar,
Gah həyat bəxş edər, gah da ki, məzar.
Vurarıq dünyanı başa yaxşı-pis,
Başqa dünya gələr sonra şübhəsiz.
Bu dünya yaşadar əfsanəmizi,
O dünya yaşadar əbədi bizi.
Gəzər əfsanəmiz dildə bir zaman,
Bilinər, seçilər yaxşıyla yaman.
Hansımız bədnamıq – bəllidir sənə,
El sənə pis deyir, yoxsa ki, mənə?
Abrıma, həyama bələddin əzəl,
Məni sevərdinmi, olmasam gözəl?!
Təmizliyim şəffaf jalə kimiydi,
Gözəlliyim qızıl lalə kimiydi.
Toz ələməmişdi üstümə rüzgar,
Kimsəni saymadım səndən özgə yar.
Bənzərdim ovlaqda dolaşan gura,
Ovçu bacarmazdı mənə tor qura.
Yeganə ovçuydun ovladın məni,

Toruna salaraq tovladın məni.
Bədnamlıq torunda qoydu əmələin,
Hicran quyusuna atdı öz əlin.
Aldadıb eylədin üzümü qara,
Gəlmisən əlimdən indi zinhara.
Onda oğru idin – qorxusuz, qansız,
İndi əhdi pozan, zalım, amansız.
Deyirsən qətidir andın, qərarın,
Daha olmayacaq Vis adlı yarın.
Mənə də etmişdin axı, and-aman,
Ömürlük dönməzsən məndən heç zaman.
Ondakı doğrudur, indiki andın?
Hansına inanaq bu iki andın?!
İçdiyin and-qəsəm sərsəri yelmiş
Vüsalın axar su, qıjovlu selmiş.
İpək təki rəngdən rəngə düşərsən,
Ya da ki, əllərdə dolaşan zərsən.
Kimi tapacaqsan məndən vəfadar?
Mənə yar olmayan kimə olar yar?
Yaramaz əmələin etdi biabır,
Özün tək məndə də qoymadın abır.
Xəyanət eylədin şah arvadına,
Bir nəslin ləkələr yaxdın adına.
Yalan and içərək batdın günaha,
Bundan da nankorluq olmaz ki, daha?!
Dönüklük eylədin vəfalı yara,
Səni incitməyən məsum nigara,
Alçaltdın alçalmaz elə bir kəsi,
Heç kimsiz, heç nəsiz sən idin bəsi.
Çöhrəsi günəş tək parlayan Visəm,

Pərişan saçları müşk yayan Visəm.
Ətirli yanağı yaz kimi Visəm,
Alovlu sevgisi daimi Visəm.
Gözəllər sultanı, həyalı Visəm,
Mən əbədiyyətin hilalı Visəm.
Üzündən ay doğan, al yanaq Visəm,
Dili şəkər dadan bal dodaq Visəm.
Taparam sənin tək bir hökmdarı,
Tapmazsan mənim tək ay üzlü yarı.
Sənin ki, nifrətin var imiş mənə,
Gəlsən, qovuşarsan çox çətin mənə.
Sonra görəcəksən peşmanlıq nədir,
Dərdinin dərmanı ancaq Visdədir.
Yəqin ki, Güldən də bezərsən bir gün,
Visin sorağınca gəzərsən bir gün.
Sərxoşsan, sərxoşda ayıqlıq hanı?
Yoxsa – kəsərdinmi əhdi-peymanı?!
Ayılıb dönsən də haçan huşyara,
Həsrət qalacaqsan qadına, yara.
Günlərlə qarşımda yaş tökəcəksən,
Yalvara-yalvara diz çökəcəksən.
Dönsə də alovlu eşqə nifrətin,
Vis yüz çıraqla da tapılar çətin.
Doymusan özümdən, gülgün yanaqdan,
Güldən də doyarsan bir gün nahaqdan.
Mənə yovuşmayan, kimə yovuşar?
Mənə qovuşmayan kimə qovuşar?
Aşiqəm deyəndə varsa da ürək,
Ya Visə can atsın, ya qəbrə gərək.
Bədbəxtlik o zaman tapdı ki, səni,

Gülün ucbatına verdin gülşəni.
Gözlərin görən tək bədirli Ayı,
Parlaq günəşini sandın havayı.
Çox öyünürsən ki, qızıl gülün var,
Birmirsən əlindən çıxıbdır gülzar.
Çıxıbmı yadından acı məşəqqət?
Almışdı ağlını başdan məhəbbət.
Görünsəm gözünə haçan yuxuda,
Sanardın şahlığa ucaldıb xuda.
Ruh oxşayan ətrim yetişsə sana,
Ölmüş olsan belə, gələrdin cana.
İradəsiz insan, ağılsız insan,
Unudur şadlığı, əzabı asan.
Deyirsən: «Gəncliyim ötüşmüş hədər,
Əfsus ki, ömrümü sarmış qəm-kədər...»
Mənim cavanlığım eşqinlə soldu,
Vəfana inandım, ömrüm puç oldu.
Sandım ki, bir şəkər qamışısan sən,
Becərsəm yəqin ki, şəkər verərsən.
Bəslədim, yetirdim bar uma-uma,
Daddığım barınsa döndü zəqquma.
Andıqca çəkdiyim o sitəmləri,
Eşqindən daddığım acı qəmləri,
Atəşlər, alovlar beynimi yaxır,
Ceyhun gözlərimdən çağlayıb axır.
Əzabım, zillətim özümə qaldı,
Məni etibarın bu günə saldı.
Quyu qazan sənsən, salan da dayəm,
Gendən baxıb ləzzət alan da dayəm.
Sən çatdın odunu, o vurdu odu,

Məni oda yaxan düşmən də odu.
Ondanmı, səndənmi gəlim fəryada?!
Sizdən yetişibdir hər əzab, qada.
Səndən vəfasızlıq, sitəm görərək,
Ayrılıq dağıyla dağlısa ürək,
Qanlar yağdırsa da zülümdən gözüm,
Ceyhunda boğulan olsam da özüm,
Qıymaram cəzanı verə yaradan.
Verdiyin əzaba görə yaradan.
Gözlərim görməsin bircə dərdini,
Ürək necə çəkər, necə dərdini?
Məndə tapılarmı dözüm dərdinə,
Dözə də bilmərəm özüm dərdinə.
On məktub yazmışam, sən Visi tanı,
Hər sözə hopubdur qəlbimin qanı.

## GÜLÜ SEVDİYİNƏ GÖRƏ RAMİNİN PEŞMANÇILIĞI

Ramin xeyli qaldı Gül ilə qoşa,
Bezdi sevgisindən, döndü sərxoşa.
Şadlığın baharı ötüşən kimi,
Gülşəndə əsmədi sevgi nəsimi.
Sındı mehribanlıq kamanları da,
Məhəbbət peykanı qaldı yarıda.
Fərəh libasları nimdaşdı, nimdaş,
Büsat çeşməsini bulandırdı daş.
Təzə sevdalıydı Ramin Qurabda,
Təzəykən içməli olar su qabda.

Ramin mey hərisi, Gül də bir şərab,
İçərək gətirdi sərxoşluğa tab.
Mey salar həvəsə içən adamı,
Qaldırar başına kasanı, camı.
O qədər içər ki, bezər axırda,
Nəfsi ölər, qalmaz gözü çaxırda.
Pozmuş əhvalını, halını deyə,
Baxmaz nəşə verən ləzzətli meyə.
Ramini məhəbbət meyi tutmuşdu,
Odur ki, Visi də tez unutmuşdu...
Bir gün igidlərlə çıxdı seyrana,
Vurmuş Çin naxışı bahar hər yana.
Lalələr çəməndə sayrışan, yanan,
Bülbüllər şax üstə qəlbi odlanan.
Çöl yüz rəngə çalan əlvan ipəkdir,
Ağ, sarı, qırmızı güldür, çiçəkdir.
Mələk təbiətli can dostu ona,
Bir dəstə bənövşə verdi dostuna.
Raminin ürəyi atlandı bu dəm, -
Peyman bağlamışdı o gözəl sənəm.
Vis şahın taxtında oturan zaman,
Üzündə ay, günəş bərq vuran zaman,
Raminə bir dəstə vermiş bənövşə,
Demiş yadda saxla bunu həmişə.
Eşqindən, andından kim dönsə ona,
Söyüş, qarğış tökmüş yüz yol o sona.
Raminin gözündə dünya qaraldı,
Elə bil ürəyi bir yara aldı.
Dünya qaralmadı, qaraldı gözü,
Könül tüstüsündən tor aldı gözü.

Qan yağdı gözündən çölə, çəmənə,
Bir il çətin yağış gələ çəmənə.
Kimin dərdli qəlbi bağlasa yara,
Axan göz yaşları verərmi ara?
Bulud tez-tez gələr göyə baharda,
Yağışlar aramsız yağar, yağar da.
Vis düşdü Raminin yenə yadına,
Tutuşdu ürəyi eşqin oduna.
Sanki mehribanlıq günəşi doğdu,
Şübhə buludunu gur işıq boğdu.
Elə ki, buludu parçalayar Gün,
Aləmə hərarət, isti yayar Gün.
Qəlbində məhəbbət işığı yandı,
Dostdan, yoldaşlardan o, aralandı.
Könlü sınıq halda endi atından,
Qəlbində səbri yox, üzündə də qan.
Dedi: «Könül, üzdü bu dərdin məni,
İçməmiş sərxoşa döndərdin məni.»
Hakim kəsmiş deyə qüssəni cana,
Nifrətlər yağdırdı zalım zamana.
Doğma diyarında diddi onu kin,
Dostdan, ev-eşikdən düşdü didərgin.
Yara könül verdi, düşdü azara,
Canandan ayrıldı, can gəldi zara.
Deyindi qəlbinə axa-axa qəm,
Deyindi qəlbini yaxa-yaxa qəm.
Dedi öz-özünə: «Heyranam, buna,
Hamıdan gen gəzib, döndüm Məcnuna.
Kefliyə, sərxoşa oxşayan könül!
Çirkini gözəllə bir sayan könül!

Gözündə sərab da, gülzar da birdir,
Zimistan da birdir, bahar da birdir.
Birdir quru torpaq, zər-xara sənə,
Axmaqsan, uyursan gözün görənə.
Cəfa da, vəfa da birdir hər halda,
Birdir ehtiras da, birdir kamal da.
Tez-tez dəyişərsən rəngi, sifəti,
Bir eşqə qərarın deyildir qəti.
Dünyanın qəmiylə yüklənibdir can,
Kədər ordusunun ordugahısan.
Ümid qapısına bağlılıq adət, -
Dərd can məbədində qılır ibadət.
Gələrək Quraba peymanı kəsdin,
Nicat axtarırdın, puç oldu qəsdin.
Giclikdən, məstlikdən iş hara çatdı, -
Ehtiras yelləri dənizə atdı.
Dedin ki, sevərək xoşla birisin,
Uyma vəfasına, eşqinə Visin.
Qorxma, ayrılsan da, ollam aram mən,
Yalqızlıq dərdinə qatlaşaram mən.
Sənə ümid olub, yarımı atdım,
Özgə yar sevərək vüsala çatdım.
Batıram dəryada, düşmüşəm lova,
Səni də salmışam oda, alova.
Dedin ki, yarı at, özgə yar ara,
Atmışam, salmısan burulğanlara.
Gətirdin dözümü, səbri bəhanə,
İndisə olmuşam dəli-divanə.
Peşmanam, inandım sözünə nahaq,
Verdim cilovumu özünə nahaq.

Boş yerə ağlınla durdum, oturdum,
Sənlə özümə ləkə də vurdum.
Dedim qəmlənməzsən indən belə sən,
Görürəm olmusan yenə kölə sən.
Ağılsız quş kimi, dən olar deyə,
Soxmusan başını tora-cələyə.
Könül, eyləmisən ömrü yarı da,
Güldürdün üstümə yağıları da.
Neçin qulaq asdım sözünə, neçin?
Qoydu öyüdlərin bu günə, neçin?
Özüm yaratmışam çıxılmaz halı,
Qanmazın cəzası belə olmalı!
Öz əlim söndürdü könül şamını,
Kədər pozdu həyat ehtişamını.
Düşdüm ceyran kimi tora mən ovda,
Pullu balıq təki qaldım tilovda.
Dərin quyu qazdı mənə öz əlim,
Arzumu quyuya atdı əməlim.
Mən necə yalvarım can alan yara?
İncimiş, baxarmı yalvarışlara?
Üzümdə su varmı, heç həya varmı?
Sönmüş məhəbbət də alovlanarmı?
Sevgi ocağına su atmışam mən,
Fərəhli könlünü qanatmışam mən.
Məhəbbət qələbə çalandan bəri,
Kədərlə ötüşmüş ömrün günləri.
Qürbət döndəribdir biganələrə,
Firqət döndəribdir divanələrə.
Bəxtim yovuşmayır, naz satır mana,
Özüm tək talesiz gəlməz cahana.»

Ramin izdihamdan aralananda,
Qüssədən üzünə tor qalananda,
Rəfida gəlirdi dabandabana,
Dönmüşdü damada bir nigahbana.
Amma yazıq Ramin duymurdu bunu,
Belədir aşiqin, eşqin qanunu.
Raminin sözləri oyatdı maraq,
Keçdi qabağına salamlaşaraq,
Dedi: «Şah-şöhrətin nur saçan çıraq,
Yasamı batmısan, üzlərdən iraq?
Hər nemət veribdir yaradan sənə,
Cumub qəm divləri haradan sənə?
İgidlər adına arxalanırlar,
Şahlar qardaşını günəş sanırlar.
İgid pəhləvansan, yenilməz ərsən,
Dünyanı şahlardan artıq bəzərsən.
Xoşbəxtlik səndədir, xoş gün səndədir,
Bu giley-güzarlıq, sızlamaq nədir?
Səndədir cavanlıq, belə cah-cəlal,
Səadət içində nə dərd, nə məlal?
Belə asiləşmə taleyə görə,
Salar naşükürlük yazıq günlərə.
Xəz-xara yastıqdan çəkilər başın,
Qoyular üstünə torpağın-daşın…»
Ramin incik halda tez cavab verdi:
«Bilinməz sağlama xəstənin dərdi.
Qəmimi, dərdimi hardan biləsən,
Məni danlamazdın yoxsa belə sən.
Xoşbəxt odur atmaz dostu-aşnanı,
Hicran dərdi kimi, acı dərd hanı?

Libas da inildər dartıb cıranda,
Meynə də ağlayar basıb qıranda.
Niyə ucalmasın ahım, fəğanım?
Qohumsuz-aşnasız məhv olur canım.
Qurab – sənə vətən, doğma el-oba,
Burdadır oğul-qız, qohum-əqrəba.
Həmişə dostların arasındasan,
Mənsə qürbətdəyəm, yaram verir qan.
Qərib – şah da olsa qürbətdə əyər,
Bir dost nisgilindən qəlbi göynəyər.
Dünya dost-aşnasız haramdır, haram,
Məlhəmsiz sağalmaz, qövr edər yaram.
Dadsan da həyatın nəşələrini,
Yüz sevinc verərmi bir dost yerini?
Olsa da qürbətdə bəxtiyarlığım,
Dostlara bağlıdır, arzum, varlığım.
Qibtəylə baxıram mən sənə hərdən,
Qayıdıb gələndə yoldan, səfərdən,
Çıxıb qarşılayar oğlun, yoldaşın,
Yığışar başına qohum-qardaşın,
Hamınız olursuz xürrəm, şadyana,
Düzülür zəncir tək hamı yan-yana.
Dolanır başına hər oğul, hər qız,
Hər biri özün tək xoşbəxt, qayğısız.
Nə qohum-qardaşım, nə arvadım var,
Nə yarım, məşuqəm, nə övladım var.
Sən tək bəxtəvərdim mən də bir zaman,
Yanımda dost-qohum, sevimli canan.
Xoş keçən günlərdən üzüldü əlim,
Vardı sadiq dostlar, nazlı gözəlim.

Yarın sitəmləri, min-min əzabı,
Xoş idi sevginin, eşqin əzabı.
Qoşa nərgizlərlə artardı dərdim,
Qoşa lalələrdən ötrü ölərdim.
Bir fərəh duyardım hər əzabda mən,
Nərgizlər xumardı, lalə qan içən.
Dodaq qalan zaman diş arasında,
Kəsərdi ağrılar can yarasında.
Xoş idi təqsiri başa qaxmağı,
Yaşına-yaşına nazla baxmağı.
Aləmdi – busələr sayılan zaman,
Bir günah üstündə saysız and-aman.
Xoş idi inciyib küsən çağımda,
Əlindən allaha yalvarmağım da.
Xoş idi öcəşmək, sözlə yarışmaq,
Barışaraq küsmək, küsüb barışmaq.
Təqsiri anlamaq – peşimanlamaq,
Könlünü alaraq özün danlamaq.
Saçını dağıdıb pozardım tağı,
Yarın qollarıydı belin qurşağı.
Bir həftə görməsəm artardı dərdim,
Əsirə, köləyə, qula dönərdim.
Vüsal günləriydi ən sevincli gün,
O günlər sayılır ömrə toy-düyün.
Haçan nərgizlərlə o alardı can,
Gülün şəfasıyla sağalardı can.
Nərgizin ətrindən bezməzdi könül,
Zərrəcə canımı incitməzdi gül.
O nərgiz gözləri dönsə cəllada,
Mərcan bəbəkləri çatardı dada.

Sünbül hörükləri kəmənd olardı,
Xoş ətri ruhuma axıb dolardı.
Məhəbbət yaşatmış məni dünyada,
Yar cövrü vermişdir yüz dərd, yüz qada.
Salmış aşiqlikdə qəm oda məni,
Yaşatmış sızlada-sızlada məni.
Hamı gözləriylə görərdi bunu,
Kimsəyə verməzdim arzu topunu.
Yarın saçlarıydı müşküm, ənbərim,
İstərdim gülü də üzündən dərim.
Şadlanar, çıxardıq ova, ovlağa,
Mey içər, verərdik dodaq-dodağa.
Deyərdim: «Eşqdən gəlmişəm zara,
Sevərək düşmüşəm dərdə-azara.
Ağlamaq-sızlamaq dilə gələndə,
Sevinc yaranırdı elə bil məndə.
O əzab yox deyə, əzablardayam,
O zillət yox deyə, indi dardayam».

## BARIŞMAQ MƏQSƏDİLƏ RAMİNİN VİSƏ CAVAB MƏKTUBU YAZMASI

Visi tərənnümlə başladı sözə,
Yazdı aycamala, o günəş üzə:
«Bədənin yonulmuş fil sümüyündən,
Qəndəhar bütüsən, Çin bütüsən sən.
Gümüş sütunusan, başında tacın,
Gözəllik çələngi, mənəm möhtacın!
Çiçəkli ağacsan, bahar bağısan,

Qızıl gül kimisən, su zanbağısan.
Xurma şərabısan, məlhəmsən cana,
Şəfa çeşməsisən, behiştsən mana.
Dişlərin mirvari, yanağın çiçək,
Yanırsan qılınc tək, ləl-cavahir tək.
Günəşsən eyvanda, aysan otaqda,
Ulduzsan səmada, gülsən budaqda.
Tacın da, taxtın da daim var olsun,
Sənsiz ömür sürsəm, mənə ar olsun.
Ay üzə çıxmağa yoxdur cəsarət,
Edərsən könlümü söz ilə qarət.
Görürəm yanında mən günahkaram,
Qorxuram dünyanı edərsən haram.
Günahı yıxmıram sənin boynuna,
Özüm də təqsirkar deyiləm buna.
Hicran divlərini tökdün üstümə,
İtdin qarışaraq qəzəb tüstümə.
Əgər bezməsəydin ilk eşqimizdən,
Cəsarət etməzdim şıltaqlığa mən.
Müqəddəs sayırdım öz sevgimizi,
Torpağa endirdin göylərdən bizi.
Bilirsən deyildim hər aşiqə tay,
İlk eşqə ucaltdım əbədi saray.
Şadlanıb toy-büsat qurduğum zaman,
Şadlıq sarayını eylədin viran.
Günahın varsa da günahsızlıqdır,
Sultansan, kim deyər – bu, haqsızlıqdır?!
Ürək məcbur edir gəlim yanına,
Hazıram əmrinə, hər fərmanına.
Gözəlim, çoxdandır çox intizaram,

Qoy öz behiştində can olsun aram.
Könül ağuşuna atır yenə can,
Örkən doğanaqdan keçər hər zaman.
Səndən ayrılalı boğur məni qəm,
Əjdaha ağzında qalmış kimiyəm.
Ürəkdə tükənməz qüssə varımdır,
Şahidi saralmış yanaqlarımdır.
Şahidlə barışmaq istər xətirim,
Kimə inanırsa, onu gətirim.
Şahid – yaşlı gözdə bu iki didə,
İki dost inanar iki şahidə.
Göz qanlı, inanar gözlərin buna,
Yanaqlar çəkilmiş qızıl suyuna.
Özün gözlərinlə gör onları sən,
Sonra təsdiq elə olanları sən.
Doğru danışmışam sənə həmişə,
Doğruluq olubdur aşiqə peşə.
Cəfayla vermişəm cəfana cavab,
Vəfayla verərəm vəfana cavab.
Ürək yanğısına, bu odlu aha,
Keçmiş əzabları bağışla daha.
Eşqimiz, sevdamız qoy təzələnsin,
Sevginlə ömrümə nurlar ələnsin.
Yalnız səni sevər sonacan ürək,
Əzizdən əzizsən, özgə nə gərək.
Ürəkdən qubarı silər öz yarın,
Gözə məlhəm olar ayaq tozların.
Dönsəm də, dönmərəm səndən dünyada,
Canımı istəsən, qurbandır o da.
Axı, səndən ayrı gəzəmi billəm?

Günəşlə dostluğu kəsəmi billəm?
Harda Tibet müşkü aramalıyam?
Ənbər saçı özüm daramalıyam!
Qoy eşqin yolunda incəlsin bədən,
Xəzinə tapılmaz əzab çəkmədən.
Huri, behişt yetir – dedim allaha,
Huri də, behişt də özünsən daha.
Neçə ki, biz sağıq, varıq dünyada,
Olanı, keçəni salmayaq yada.
Mən şərab olaram, sən şərab rəngi,
Mən ətir olaram, sən gül çələngi.
Mənimlə şad-xürrəm, bəxtiyar yaşa,
Sənsiz həyatımı vurmayım başa.
Öd-bağır yararam qılıncımla mən,
Zəhərli peykandan itidir qəmzən.
Qılıncla birləşsə kamanımız da,
Silinər dünyadan düşmanımız da.
Çayda, dəryalarda neçə damla var,
O qədər səmimi, odlu salamlar.
Yol üstə yazmışam mən bu cavabı,
Çox qısa yazmışam, oxu cavabı.
Özüm də gəlirəm, aram ol, aram,
Yüz sədd çəksələr də parçalayaram.
Havada hədəfə ox necə uçur,
Köhlənim yollarda eləcə uçur…»
Ramindən məktubu alan tək ələ,
Azin yola düşdü, döndü ağ yelə.
Durmadan Ramin də çapdı dalınca,
Oyunçu cumurdu çövkan dalınca.
Çapdılar Xorasan elinə sarı,

Vecə gəlməyirdi yol əzabları.
İki ox uçurdu hədəf üstünə,
Biri tez çatacaq, biri bir günə.

## VİSİN RAMİNƏ MƏKTUB YAZMASI

Ənbər mürəkkəbli mişkin qələmlə,
Vis bir namə yazdı yara ələmlə.
Məktubda dil açıb ağlayır sözlər,
Ürək qanı kimi çağlayır sözlər:
«Eşqim bəllidirsə eşqə yanana,
Belə məktub yazsın gərək canana.
Oxusan naməmi dinləyər daş da,
Cəngin naləsi tək inləyər daş da.
Nisgilli aşiqdən, arsız aşiqə,
Daşqəlbli, sərgərdan, yarsız aşiqə.
Əzabkeş kölədən, şöhrətli şaha,
Ki, parlaq Günəşdir, Aydır dərgaha.
Bəlalı aşiqəm, sızıldar yaram,
Nakamam, düşmənlər yanında xaram.
Kənizəm, canımı odlara yaxdım,
Dünyam qatı zülmət, naz satır baxtım.
Dünyada talesiz yoxdur özümdən,
Qan seli çağlayır ağlar gözümdən.
Bilirəm dərdimi təbibdən dəqiq,
Yanağım qızıldır, gözlərim əqiq.
Dünyanın kədəri, qüssəsi məndə,
Hər tüküm neştərə dönmüş bədəndə.
İntizar qəlbimi üzür, dağlayır,

Hər gözdən bir çayın suyu çağlayır.
Məktubla halımı salıram yada,
Məndən bəxtiqara yoxdur dünyada.
Qıvrılan, gözləri giryanam indi,
Qəlbi qəm oduna büryanam indi.
Şam kimi yanıram, axır göz yaşım,
Tüstümdən dumana bürünüb başım.
Munisim dərdimdir, sirdaşım qəmim,
Hicran dəryasında batıbdır gəmim.
Göz yaşı tökməkdən sancır ürək də,
Bir əlim başımda, bir əl ürəkdə.
Gözümdən dodağa əqiq axıbdır,
Kədərim aləmi oda yaxıbdır.
Buludlu gözümdən incilər yağır,
Min dərdə düşmüşəm sənsiz mən fağır.
Könlümün sirrini faş edib hicran,
Dərdi qanla yazıb yanağa müjgan.
Dəryaya dönübdür göz yaşlarım da,
Yuxum qərq olubdur göz yaşlarımda.
Sel gəlib, gözümdən qaçıb uyqular,
Yatmağa qoymayır qəmli duyğular.
Qan-yaşdan olubdur əldə nəm qələm,
Şadlıq büsatına çəkmişəm qələm.
Can oda qalandı, dözdü sitəmə,
Ürək vidalaşır, dözməyir qəmə.
Mən necə can atım arzu-murada?
Vermişəm qəlbimi, canımı bada.
O günəş camalın çəkildi hara?
Çəkilir ruhum da, könlüm də dara.
Həsrətin üzəcək məni gəlincə,

Nazilib olmuşam telindən incə.
Gündüzlər qəmxarım nur saçan gündür,
Sanıram al Günəş nurlu üzündür.
Həmdəmim olubdur gecə ulduzlar,
Dişinə oxşayır necə ulduzlar.
Yalandır, bu qədər dərd-qəm ilə mən,
Ovuna bilmərəm həmdəm ilə mən.
Dağlar da çəksəydi mən çəkən dərdi,
Çeşmədə suları qana dönərdi.
Dostlar nəsihətlə ovundurandır,
Yadlar məzəmmətlə tənə vurandır.
Dost-düşmən sözünə məhəl qoymadım,
Dillərdə dastandır hər yerdə adım.
Coşğun qəm selidir eşqim hər zaman,
Zəhərli xəncərə dönübdür hicran.
Neçin könül verir insan sevgiyə?
Özünü bəlaya salır bəs niyə?
Mənim tək sevsəydi hər aşiq yarı,
Yer ilə yeksandı indi məzarı.
Gendən çox gülmüşdüm eşqə düşənə,
Peşmanlıq gətirdi gülməyim mənə.
Gülüb, çox aşiqə çəkmişdim dağlar,
İndi güldüklərim dərdimə ağlar.
Görmüşdün, necəydim gənc qız olanda,
Göydəki Günəşdən parlaqdım onda.
Qamətim sərv idi, indi kamandır,
Gül tək yanaqlarım bir zəfərandır.
Əyər budaqları çoxlu bar yükü,
Əyibdir qəddimi dərd-qubar yükü.
Qəddim dönən gündən əyri kamana,

Qəm oxu qan tökür gözümdən cana.
Ayrılıq atını çapdın dördəmə,
Gözü yaşlı qoyub, saldın dərd-qəmə.
Atın toz qoparıb çıxanda yoxa,
Tozların gözümdə döndü bir oxa.
Gedəndə gözümdə qalıbdır əksin,
Dərdimdən şivən də salıbdır əksin.
Deyirlər fəryadın aşdı həddini,
Döndərdi fəğanın nala, qəddini.
Ötən gün qayıtsa, qayıdar yar da,
Hədərdir çəkdiyin bu dərd-qubar da.
Gecədir, günəşim bəs hanı indi?
Qaranlıq görürəm dünyanı indi.
Bir ümid, təsəlli yeri var yenə,
Günəş dan yerindən parlayar yenə.
Ötüşən novruzum, baharım gələr,
Məni yalqız qoyan öz yarım gələr.
Gözəlim, ay üzlüm, sərvim-şümşadım,
Şir vuran qoçağım, şöhrətim-adım.
Bilirsən işləyib eşqin canıma,
Canım da qurbandır mehribanıma.
Hər tükün əzizdir gözümdə mənim,
Bir tüküncə yoxam özüm də mənim.
Öz canımdan artıq sevirəm səni,
Könül səni istər, sevməz kimsəni.
Sınadın vəfamı yüz dəfə azı,
Qaldın istəyimdən həmişə razı.
İnan yarın sadiq yar olduğuna,
Qan saçan gözlərim şahiddir buna.
Əgər inanmasan vəfadar kimi,

Gəlib öz gözünlə gör şahidimi.
Üzümü dinara döndəribdir qəm,
Dinarın üstünə inci səpirəm.
Ceyhuna dönübdür ağlar gözlərim,
Ceyhundan qəm seli çağlar gözlərim.
Əyilmiş görərsən qamətimi sən,
Şadlıq məndən uzaq, mən də bəşərdən.
Göz yaşım, iniltim kəsilir bəyəm?
Elə bil on ildir ağır xəstəyəm.
Gəl, gör tale məni nə hala salmış,
Kor kimi, gözlərim ağara qalmış.
Atəşdir, sanma ki, sönübdür eşqim,
Kükrəyən alova dönübdür eşqim.
Azacıq ləngisən çətində, darda,
Gəlib tapacaqsan məni məzarda.
İstəsən görüşək, yubanma, tez gəl,
Nə ləngi, nə uyu, nə də ki, dincəl.
Məktubu oxuyub, yelə dön, yelə,
Bir gündə üç günlük yolu qət elə.
Sən gələnə kimi saç yola-yola,
Keşikçi duraram gəldiyin yola.
Dəyməsə əlimə cananın əli,
Aşiqlik havası edəcək dəli.
Daim duaçıyam pərvərdigara,
Məni qovuşdursun yenə də yara.
Yağış qətrələri sayılarsa da,
Sayılar salamım, sayı varsa da.
Ey günəş camallı, sərv boylu yar,
Ümmanlar suyundan çoxlu salamlar.
İlahi, bəlaya salma canımı,

Yara qovuşmamış alma canımı.
Məhv edib öldürsə ayrılıq dağı,
Tüstüm ərşə qalxar duman sayağı».
Gözəl Vis məktubu qurtaran saat,
Gəldi hüzuruna yelqanadlı at.
Naməni alan tək əlinə qasid,
Qalxdı köhlən atın belinə qasid.
Quzğun tək şığıyıb aşdı hər dağı,
Düzə namə yazdı atın dırnağı.
Dincəlmək bilmədi, igid çapardı,
Visin məktubunu yara apardı.

## RAMİNİN ŞAHLIQ TAXTINA ÇIXMASI

Raminə yetişdi ölümü şahın,
Baxtı qara gəlmiş Möbid padşahın.
Qəlbində şükürlər etdi allaha,
Möbidin ömrünə son qoydu daha.
Davasız-şavasız şah getdi bada,
Axmadı havayı qanlar arada.
Ölüm son mənzilə çatdırdı şahı,
Olmadı Raminin burda günahı.
Diz çöküb yalvardı pərvərdigara:
«Salmadan qovğaya, yetirdin yara.
Bağlı qapıları açansan, allah,
Zülmətə də işıq saçansan, allah.
Özünsən ucaldan fəzalara da,
Özünsən uğradan qəzalara da.
Mən səndən ömürlük razıyam, razı,

Salmaram özümdən səni narazı.
Ədalət görəcək hər bəndə daim,
Doğruluq görərsən sən məndə daim.
Sanma ədaləti unudacağam,
Yoxsul insanlara əl tutacağam.
Özün ol şahlıqda havadar mənə,
Köməyim sən olsan, kim batar mənə?
Hər işdə havadar, arxa sən özün,
Qoru bədnəzərdən, düşməndən özün.
Gün doğdu zindanda qulun baxtına,
Sayəndə sahibəm şahlıq taxtına.
Bəndənəm, kölənəm neçə ki, sağam,
Mən sənin qulunam, sən mənim ağam.
Şah etdin dünyada sən məni indi,
Kəsmə himayəni, kölgəni indi.»
Yalvardı tanrıya təmiz ürəklə,
Səadət naminə min bir diləklə.
Səfər əmri verdi sərkərdələrə,
Tutdu öz yerini orduda hərə.
Səsləndi şeypurlar, zurna-balaban,
Ceyhun kimi axdı qoşunlar bu an.
Ordu necə gedir, görəydin bunu,
Qovur səba yeli yaz buludunu.
Birləşdi Amula Deyləmin dağı,
Səsdən qulaq batdı məhşər sayağı.
Şöhrətli Ramin də sevimli yarla,
Yetişdi şad-xürrəm, təmkin-vüqarla.
Gəldi düşərgəyə o, şənbə günü,
Bir bayram sevinci sarmış üzünü.
Əyanlar, əşrəflər bura töküldü,

Səpilən gövhərdi, qızıldı, güldü.
Görüb ədaləti, bu ehtişamı,
Bir şahənşah kimi tanıdı hamı.
Sanki səxavəti yaz buluduydu,
Səpdiyi gövhərdən el bunu duydu.
Yeddi gün Amulda işrət quruldu,
İçdikcə şərabı, kefi duruldu.
Ruhama bəxş etdi Təbəristanı,
Xoşbəxtdi, comərddi, vardır ad-sanı.
Qədimdən şahdılar, çəkmiş əslinə,
Mənsubdur İranın Kəyan nəslinə.
Rey şəhərini də Behruza verdi,
Behruz sadiq dostdu, sınanmış ərdi.
Bir zaman Vis ilə qaçanda Reyə,
Möbidin çənginə keçməsin deyə,
Behruz qonaq kimi rahladı onda,
Bir müddət gizlədi, saxladı onda.
Yamanlıq itsə də, yaxşılıq itməz,
Behruzda səxavət tükənməz, bitməz.
Yaxşılıq belədir, atsan dəryaya,
Cavahir taparsan, batsan dəryaya.
Sonra da Azinə verdi Gürganı, –
Belə sirdaş hanı, belə dost hanı?
Baş sərkərdə qoydu Virunu Ramin,
Sərhəng təyin etdi Şirunu Ramin.
Şir güclü, fil güclü ər ikisi də,
Visin qardaşıdır hər ikisi də.
Adil hakim qoydu şəhərlərinə,
Gözətçi göndərdi sərhəd yerinə.
Çəkib ordusunu yönəldi Mərvə.

Sanki şəfa ilə o, gəldi Mərvə.
Xorasan bəzənmiş başdan-başacan,
Qənirsiz gözəllər gün tək nur saçan,
Gül-çiçək tökdülər yola gözəllər,
Yağış tək yağdırdı gövhəri əllər.
Sevinc bürümüşdü sevən kəsləri,
Ucaldı dillərdən alqış səsləri.
Ramin girən kimi öz paytaxtına,
Behişt qismət oldu sanki baxtına.
Ağaclar gül açmış, ilk bahar çağı,
Gülür səadətin sonsuz növrağı.
Bülbüllər rud çalıb, nəğmələr deyən,
Güllər gözəllər tək ipək don geyən.
Hər tərəf ənbərə, müşkə bələnmiş,
Hər yana zər, gümüş, gövhər ələnmiş,
Üç ay davam etdi təntənə, büsat,
Səpildi hər yandan zər, cavahirat.
Nəinki Mərvdə gülürdü hər yan,
Bayram içindəydi tamam Xorasan.
Möbidin zülmündən bezmişdi hamı,
Ölümü ellərin oldu bayramı.
Ramin əsarətə son qoydu daha,
Bütün el-obada bir toydu daha.
Cəhənnəm odunda çox yandı ellər,
Tuba kölgəsinə toplandı ellər.
Alçağa verməmiş fəlakət aman,
Pislikdə çəkilmiş adı hər zaman.
Haqsızlıq göstərib etmə sən pislik,
Pislik əvəzində görərsən pislik.
Xosrov yaxşı demiş bunu abidə:

«Məhşərdə qoyular pisə abidə.
Zənn etmə ki, çıxmaz paxırın elə,
Əvvəlin necəsə, axırın elə!»
Ramin ədalətlə şahlığı qurdu,
Röya aləmindən sakitdi yurdu.
Ordusu vuruşa edəndə səfər,
Bütün döyüşlərdə çalardı zəfər.
Tutdu qəsbkara, yağıya divan,
Çindən Bərbərədək onundu cahan.
Bütün sərhədlərdə keşikçi durdu,
Bütün şəhərlərdə hakim oturdu.
Adab oldu viran qalmış xaraba,
Salındı min şəhər, min kənd, min oba.
Xainlər, namərdlər çəkildi dara,
Atdırdı quyuya, dar zindanlara.
Yol üstə mənzillər, karvansaralar,
Yanında həmişə gözətçi qalar.
Elə qaçaq-quldur etmədi basqın,
Qalmadı ölkədə bir oğru, azğın.
Payladı qızılı şah kisə-kisə,
Rast gəlmək olmazdı bircə xəsisə.
Zər, gövhər payladı o, yoxsullara,
Çatdı yoxsullar da dövlətə, vara.
Zülmü, haqsızlığı hamı unutdu,
Lüt-üryan varlandı, özünü tutdu.
Qurd qoyun başına açmadı oyun,
Qurdun qarşısında əsmədi qoyun.
Hər həftə ordunu yığdı meydana,
Dedi ki, batmayın nahaqdan qana.
Ədalət divanı quruldu eldə,

Namərdlərin boynu vuruldu eldə.
Nə məhkum, nə hakim şah divanında,
Yoxsul da, varlı da birdi yanında.
Çəkərdi divana hökmdarı da,
Çatardı haqqına qoca qarı da.
Gələndə hüzura allah bəndəsi, –
Şah tək qarşılardı, o, həmin kəsi.
Kamal sahibini, müdrik alimi,
Sevərdi gözünün bəbəyi kimi.
Alimlər İrandan Mərvə qaçardı,
Dərdini, sirrini ona açardı.
Ramin hələ sağdı yüz on yaşında.
Səksən üç il şahlıq tacı başında.
Səadət içində keçdi şahlığı,
Səksən üç il sürdü şahənşahlığı.
Zamanın qəlbinə nur yaya-yaya,
Xoşbəxtlik bəxş etdi elə-obaya.
Üç şey sayəsində aləmdə yoxdu, –
Əzab da, zillət də, ələm də yoxdu.
Mənəvi zövq aldı min bir kitabdan,
Cavanlıq eşqiylə yaşadı hər an.
Qaldı Xorasanda gəzməmiş hara?
Hərdən Kuhistana çıxdı şikara.
Seyrə daldı gözəl Təbəristanı,
Nə Bağdad, Xuzistan, gəzdi hər yanı.
Yaratdı şəhərlər, yaratdı kəndlər,
Bulaqlar, kəhrizlər, körpülər, bəndlər.
Əhvaz ona görə belə abaddı,
Odur ki, adı da Raminabaddı.
Əhvaz desələr də indi hər yerdə,

Raminabad gedir salnamələrdə.
Şən həyat sürməkdə, kefdə də təkdir,
Adının mənası «xürrəm» deməkdir.
Özü tək şahlıqda kam alan hanı?
Elə məharətlə rud çalan hanı?
Ramin özü edib çəngi ixtira,
Başqa ada çıxsan, olar iftira.
Əgər olmasaydı çəngi yaradan, –
«Çəngi-Ramin» sözü çıxmış haradan?
Ramin bu minvalla şahdı dünyaya,
Çatmışdı şöhrəti Günəşə, Aya.
Tapşırdı ölkəni gözəl yarına,
Vis döndü Raminin hökmdarına.
Ondan iki oğul dünyaya gəldi,
Ramin kimi igid, Vis tək gözəldi.
Cəmşid, Xurşid idi onların adı,
Hamı əziz tutdu hər bir övladı.
Məğribi Xurşidə verdi atası,
Məşriqsə Cəmşidə oldu çatası.
Verildi Cəmşidə Misir, Qirvan, Şam,
Soğd, Çəğan, Xarəzm Xurşidə tamam.
Dünyanı gözəl Vis əlinə aldı,
Yalnız Azərbaycan Raminə qaldı.
Arran da, Ərmən də çatdı yarına,
Keçdi başdan-başa ixtiyarına.
Hökmran oldular illər boyunca,
Arzu-kam aldılar onlar doyunca.
Öz dövranlarını sürüb getdilər,
Nəvə-nəticələr görüb getdilər.

## VİSİN ÖLÜMÜ

Yarla səksən bir il Vis sürdü həyat,
Zaman şümşad qəddi əydi iki qat.
Əydi uca sərvi zamanın yeli,
Sanki doğanaqdı bükülmüş beli.
Olmuşdu düşmənsiz gözü dünyanın,
Ona düşmən oldu özü dünyanın.
Nuşirəvan yaxşı deyibdir bunu:
«Qocalıq qəlbimə sancdı oxunu.
Zaman çəkdi mənə qocalıq dağı,
Çəkməzdi bu dağı amansız yağı.
Beli sınan kəsə qıymaz düşməni,
Belimi sındırıb, öldürdü məni.»
Görsə də dünyanın vəfasını Vis,
Daddı hər zülmünü, cəfasını Vis.
Zəlillik gətirdi baxtın cəzası,
Sözünə baxmadı yeddi əzası.
Ölüm pusqudaydı, gördü bu halı,
Söndürdü ziyası sönən hilalı.
Sarsıtdı Ramini matəmi yarın,
Axdı gözlərindən yaş narın-narın.
Dedi yana-yana: «Ömür sirdaşım,
Cansız cəsədinə əyilir başım.
Yalqızlıq dağını basdın yaraya,
Hicran köhlənini çapdın haraya?
Necə vəfalıydın eşqə-sevgiyə,
Əbədi döndərdin üzünü niyə?
Yüz dəfə and içdin, peyman bağladın, –

Olarsan ömürlük vəfalı qadın.
Niyə dönük çıxdın, aran dəydi bəs?
Sən ki, vəfalıydın, cəfa nəydi bəs?
Vəfalı aşiqin vəfası budur,
Zülmkar zamanın cəfası budur.
Kimi yola vermiş cəfasız həyat?
Kimə vəfalıdır vəfasız həyat?
Vəfada sən hara, bu dünya hara?
Vəfan da özünlə getdi məzara.
Qocalıq dərdiylə dağlanan da mən,
Zillət zənciriylə bağlanan da mən.
Dərd qoydun dərdimin üstünə, niyə?
Saldın zəlalətə, pis günə, niyə?
Səni torpaq altda görüncə gözüm,
Yatdığın torpağa dönəydim özüm.
Şirin qılıqlarla məni öyərdin,
«Ayağın altında ölüm», – deyərdin.
Mənə göz dağıdır bu günün sənin, –
Qara torpaqdadır gümüş bədənin.
Sənsiz nəyə gərək bu şahlıq indi?
Şan-şövkət sənindi, var da sənindi.
Heç nə könül açmaz, ovutmaz daha,
Sənsiz yaşamağım baş tutmaz daha.
Yaxa yırtmalıyam, çatlayır ürək,
Kül-torpaq sovuram başıma gərək.
Bilirsən qocayam, yaramaz, haşa,
Qocanın şivəni qaxıncdır başa.
Çəkdiyim qəm yükü qəddimi əyir,
Matəmin gözümdən gövhər ələyir.
Dil deyib, üzümü cırmasam da mən,

Ağlamaq-sızlamaq gəlir əlimdən.
Həsrətin yandırır, yaxır canımı,
Tökür kirpiklərim ürək qanımı.
Necə yaxa cırım, sinəmə vurum?
Necə ağı deyim, yasxana qurum?
Əzizi öləndə – olanda qəmgin,
Yaraşır qocaya səbrlə təmkin.
Səbr, təmkin sözü dildədir ancaq,
Ürək bilmir bunlar heç nədir ancaq.
Qəlbi yanğınlıyam, od-alovluyam,
Dil-dodaq təpimiş, başı lovluyam…»
Ramin son qoyaraq sızıltılara,
Şahanə sərdabə qoydurdu yara.
Atəşgah tikdirdi gümüşə, zərə,
Qəsri ucalaraq çatdı Ülkərə.
Görkəmi andırdı möhtəşəm dağı,
Hər yeri şəkilli, – cənnətin bağı.
Harda belə türbə, atəşgah vardı,
Cənnətin özü də həsəd apardı.
Ucaldı sərdabə, atəşgah indi,
Nə günə qalacaq görək şah indi.

## RAMİNİN ŞAHLIĞI OĞLUNA TAPŞIRIB ÖLƏNƏ QƏDƏR ATƏŞGAHDA İBADƏTƏ ÇƏKİLMƏSİ

Təzə il gəlibdir, Novruz bayramı,
Bahar kimi şəndir, xürrəmdir hamı.
Çağırdı Xurşidi Ramin hüzura,
Hakimlər, amirlər axışdı bura.

Tapşırdı taxtını öz övladına,
Keçdi şahənşahlıq oğlun adına.
Qoydu təntənəylə başına tacı,
Dedi: «Şahsan, olma düşmən möhtacı.
Mübarək tacın da, şah cəlalın da,
Bu Kəyan tacın da, cah-cəlalın da.
Verib ulu Hürmüz mənə şahlığı,
Mən də tapşırıram sənə şahlığı.
Hünər göstərməkdə çəkdim sınağa,
Hünərin qəlbimi döndərdi dağa.
Budur, şahlıq tacım artıq səndədir,
Daha şahənşahlıq öz öhdəndədir.
Yaşım çoxdan keçib yüzü, ay oğul!
Keçib dövranım da düzü, ay oğul!
Həştad üç il çəkdi şahlıq növrağı,
Dosta sevinc oldum, yada göz dağı.
Sənindir bu şahlıq, şəhriyarlıq da,
Sənindir cavanlıq, bəxtiyarlıq da.
Mənim şahlığımı gördün sən özün,
Atan kimi şahlıq edərsən özün.
Hürmüz nə soruşsa məndən məhşərdə,
Onu soruşaram səndən məhşərdə.
Nə ədavət bəslə bir kəsə, nə kin,
Çalış yaxşı olsun şah aqibətin…»
Şahlıq yaraşmırdı düşgün vaxtına,
Oturtdu Xurşidi şahlıq taxtına.
Səltənət taxtından əl çəkdi daha,
O dünyanın taxtı gərəkdi daha.
Döndü atəşgahda abidə Ramin,
Dedi ürəyində Hürmüzə amin.

Əzəl xaliq verdi şahlığı, tacı,
İndi abidliyə qalmış əlacı.
Baxma ki, əzəllər adı uluydu,
Ehtiras köləsi, tamah quluydu.
Dünya başdan-başa ona baş əydi,
Qalxdı məğrur başı göylərə dəydi.
Hərislik fikrini çıxartdı başdan,
Ürək qəmdən azad, can da tələşdan.
Tərk etsə ehtiras, qayğı insanı,
Qurtarar əbədi bəladan canı.
Üç il sirdaş oldu şahənşah qəmə,
Nə bir kəsə uydu, nə də aləmə.
Kəsərək türbənin yanını Ramin,
Üzdü sızlamaqdan canını Ramin.
Günah əzabıyla can üzə-üzə,
Diz çöküb yalvardı ulu Hürmüzə.
Qocalıq, düşgünlük salmışdı əldən.
Üç il göz yaşları töküldü dən-dən.
Köməyə çağırdı adil allahı,
Günahı varsa da əfv etsin şahı.
Qurtardı xaliqə duası-andı,
Sanki od tutaraq alışdı, yandı.
Əridi, gözünün nuru da söndü,
Bənizi zəfəran telinə döndü.
Gecə yaradana dua oxudu,
Qəlbinin qanıyla üzünü yudu.
Soyudu bədəni, əli, ayağı,
Hürmüz hüzuruna çəkdi sübh çağı.
Tapşırdı allaha pak olmuş canı,
Əli boşda qoydu saysız düşmanı.

Şahların günəşi ciyərparası,
Qohumlar, əyanlar tutdular yası.
Qoydular Ramini Vis yatan yerə,
Aşiqlər qoşaydı, təkdi məqbərə.
Aşiqlər qoşaydı, təkdi məqbərə.
Ədəbi qovuşdu o pak ruhları,
Behiştin bağında qucdu yar-yarı.
Dünya marıtdadır hər zaman, hər an,
O vəhşi qaplandır, biz ahu-ceyran.
Oylaqda, çəməndə qərar tutmuşuq,
Çənginə keçməyi buz unutmuşuq.
Alim də, igid də öyər özünü,
Hamı heyranlıqla döyər gözünü.
Bilmirik gəlmişik haradan, necə,
Necə gedəcəyik aradan, necə.
İki cür həyata insan qanidir,
Biri əbədidir, biri fanidir.
Necə uymuşuqsa fani dünyaya,
Əbədi dünyanı salmırıq saya.
Gəlib-gedənləri bir-bir sayırıq,
Lakin gözümüzə inanmayırıq.
Çaşqınıq, kəsməyir ağlımız niyə –
Qasın əbədiyyət, uyaq faniyə?
Ədəbi həyata can ata-ata,
Bağlıyıq hələlik, ani həyata.
Biz ki, dönəlgəsi dönən kəslərik,
Bəs niyə dünyaya ümid bəslərik?
İnsanlar məhbusdur, dünyasa məhbəs,
Sığınmaz tanrıya insan olan kəs.
İki dünya vermiş insana xalıq,

Biri əbədiyyət, biri fənalıq.
Xoşbəxtdir yarsa da kimə yaradan,
Tanrının yolunda əsirgəmir can.
Xoşbəxtdir axırı yaxşı insanlar,
Yaxşı adla köçür dünyadan onlar…
Ölmüş aşiqlərə dastan bağladım,
Ellərin dilində gəzəcək adım.
Əl atdım tarixə, əfsanələrə,
Şirin əfsanəmdən söz salar hərə.
Necə söz açmışıq Ramindən, Visdən,
Elə söz açaydı ellər də bizdən.
Yazdığım əsərdən yaz ətri gələr,
Büt kimi gözəldir sözlər, kəlmələr.
Ey sənət aşiqi, ey gözəl insan,
Kamal da, camal da səndədir, inan.
Oxu başdan-başa gözəl dastanı,
Ondan zövq almayan bir aşiq hanı?
Hər sənət əhlinə, zövqü olana,
Gülşən bir yanadır, bu da bir yana.
Özün dastanımı oxusan əyər,
Qoyar sərraf gözün hər sözə dəyər.
Ey sözün sərrafı, duysan sözümü,
Bəxtiyar sanaram mən də özümü.
Belə gözəl əsər yaradan gəncə,
Vermə ulu tanrı, əzab-işgəncə.
Bəndən kömək dilər, biganə qalma,
Bəzən ağ olsa da, canını alma.
Alqış yaradana, alqış min kərə,
Alqış peyğəmbərə, xəlifələrə.

## SƏNAİ QƏZNƏVİ



Sənai Əbdülməcid Məcdud bin Adəm Qəznəvi (1070-1140/50) XII əsr İran ədəbiyyatının görkəmli nümayəndəsidir. O, Qəznəvilər sarayında yaşamış, onların şərəfinə qəsidələr yazmışdır. Fəlsəfi-didaktik poeziyanın, o cümlədən Şərq təsəvvüf ədəbiyyatının inkişafında əhəmiyyətli rol oynamışdır. Ədəbi təsir dairəsi olduqca böyük olmuşdur. Sənai Qəznəvinin «Hədiqət-ül-həqiqət» («Həqiqət bağı») əsərinin Nizaminin «Sirlər xəzinəsi» və C.Ruminin «Məsnəvi» əsərlərinə təsiri barədə fikirlər mövcuddur. Sənai Qəznəvi «Təriq-ül-təhqiq» («Axtarış yolu»), «Karnameyi-Bəlx» («Bəlx dastanı»), «Eşqnamə», «Əqlnamə», «Qəraibnamə», «Əhvnamə» və s. əsərləri ilə farsdilli ədəbiyyatın yeni mərhələdə inkişafına güclü təsir göstərmişdir. Sənai didaktik poema janrının banisi hesab olunur. O, 40 ilədək Bəlx, Mərv, Herat, Xorasanda yaşamışdır. Divan tərtib etmiş və məsnəvilər ilə yanaşı, nəsr əsərləri də yazmışdır.

## GƏRƏK

İllər gərək, – əlvan daşa al günəşdən atəş dola, –
Yəməndəki əqiq ola, Bədəxşanın ləli ola.
Aylar gərək, – pambıq açа, ondan ipək, sap düzələ,
Kəfən ola bir şəhidə, libas ola bir gözələ.
Günlər gərək, – qoyunlar belindəki güzəm yundan –
Bir ulağa erkən ola, əba geyə sufi ondan.
Ömür gərək, – bir uşağın istedadı zahir ola,
Alimlikdə məşhur ola, şairlikdə mahir ola.

## İNSANI UCALDAR ELMİ, ƏMƏLİ

Elmsiz, biliksiz ölüdür insan,
Barsız budaq açmaz könlü heç zaman.
Naz-nemət yaradan elmdir, bəli,
İnsanı ucaldar elmi, əməli.
Elm-sənət əhlidir zamanın özü, –
Göylər sinəsidir, ulduzlar gözü.
Hikmətli kəlamı ürəyinə yaz,
Dəyərli sözlərdən qulağın dolmaz.
Tanrı da düşməndir «mənəm», – deyənə,
Elmini əməldə göstərməyənə.
Nə bildiyin varsa əməldə sına,
Öyrən də, öyrət də sən başqasına.

## TAPAR ZƏHMƏT ƏHLİ XƏZİNƏ, QAŞ-DAŞ

Qəflətdə keçirdin gəncliyini sən,
Elə cavanlığı sayma ömürdən.
Uymaz düşkünlüyə ağıllı insan,
Ağıl əyyaşlıqdan bizardır hər an.
Hər gecə yuxuya dalmaq üçündür?
Bir nurlu gündüzü almaq üçündür.
Əzaba qatlaşan xəzinə qucar,
Bülbül gül eşqindən qəfəsə düçar.
Tənbəllik, nadanlıq yar olsa kimə, –
Büdrəyər, çaş qalar, basar vahimə.
Hünərsiz həmişə zillətdə yaşar,
Aqilin nəşəsi başından aşar.
Zəhmətsiz, əzabsız bəsləsən canı,
Çəkiş belə canla, yoxdur ziyanı.
Tapar zəhmət əhli xəzinə, qaş daş,
Şirin yuxulardır ölümə yoldaş,
Yolçu olmasan da, arzu yolunda,
Əlləş, qurumamış əlin, qolun da.
Mənsəb sahibindən mətləb dilə sən,
Aya qovuşarsan mətləb ilə sən.

## ÖLÜM QORXUSU

Hünəri, şöhrəti dillərdə gəzən,
Aqil atalardan eşitmişəm mən:
Ucqar kəndistanda vardı bir qarı,
Bir qız, üç inəkdi dövləti, varı,
Məhsəti deyilən qızı gözəldi,

Bir gün bədnəzərdən o, gözə gəldi.
Bədrli ay idi, hilala döndü,
Dünya o qarıya zülmət göründü.
Ürəyi alışdı, ciyəri yandı,
Yeganə qızıydı, aman-zamandı.
Qarı öz qızına deyirdi hər an:
«Kaş ki, qabağında öləydi anan».
İnək susamışdı, qarnı da toxdu;
Burnunu mətbəxdə qazana soxdu.
Təntidi, büdrədi bir an içində,
Qaldı «batmış başı» qazan içində.
Cəhənnəm divi tək cumdu, nə cumdu,
Mətbəxdən qarının üstünə cumdu.
Qarı əzraili gördü elə bil,
Qorxub yalvarışla tökdü ona dil:
«Ey ölüm mələyi, Məhsəti deyləm,
Zavallı qarıyam, qocalıbdır qəm,
Sağlamam, canımda azar yox qəti,
Sən allah, gəl məni sanma Məhsəti.
Ölümün mələyi tez tapar onu,
Xəstə Məhsətidir, get apar onu.»

## RÜBAİLƏR

**1**

Bir havasan, – canımdakı nəfəsimsən,
Bir atəşsən, – odlu eşqim, həvəsimsən.
Bir susan ki, diriliyə səbəbkarsan,
Bir torpaqsan, – varlığımsan, qəfəsimsən.

**2**

Baxtım hanı, yar mehrini sezə biləm?
Ağlım hanı, – belə eşqə dözə biləm?
Əlim hanı, – bu fələyi əzə biləm?
Ayaq hanı, – qaçıb rahat gəzə biləm?

**3**

Gözəllərin fəraqında ağlamışam,
Bu sinəmi neştər ilə dağlamışam.
Ümidimi öyüdünə bağlamışam,
Öz iynəmlə öz-özümü saxlamışam.

**4**

Bu dünyanın mehrabıdır üzün sənin,
Göy şahını qul etmisən özün sənin.
Fitnə, qovğa, vəhdət, səcdə, qibləgahdır,
Hər baxışı qanlar tökən gözün sənin.

**5**

Alim olub, baxma sürür səfa kişi,
Gör edirmi öz əhlinə vəfa kişi,
Yar yolunda çəkə bilsə cəfa kişi,
Verər dərdə loğman kimi şəfa kişi.

**6**

Ey büt, sərxoş gözün oxu – qorxu, xəta,
Qanlar töküb, istər yenə qana bata,
Yaxşı olar yar çöhrəsi zirehlənə,
Xatalıdır bir oxu ki, sərxoş ata.

**7**

Daim əlim ətəyində ola sənin,
Ayaq tozun gözlərimə dola sənin.
Sevənlərin vardı deyə sayılmıram,
Aşiqlərin kaş saralıb sola sənin.

**8**

Məndən olsa, – doğulmazdım, nə edəydim,
Ölməzdim də, bu arzum kaş yetəydim.
Bundan gözəl, bundan yaxşı nə olardı, –
Nə gələydim, nə qalaydım, nə gedəydim.

## İMADİ



İmadi (...-1186) XII əsr İran ədəbiyyatının tanınmış simalarından biridir. Yüksək dini təhsil almışdır. İranın müxtəlif şəhərlərində – Rey, Qəznə və Mazandaranda yaşamış və yaradıcılıq fəaliyyətini davam etdirmişdir.

## Taleyim ki, bu yamyaşıl çəmənzara salıb məni

Taleyim ki, bu yamyaşıl çəmənzara salıb məni, –
Ehtiyacın əjdahası öz ağzına alıb məni.
Tor toxuyan hörümçəyə mən özümü tay görmüşəm.
Göz yaşımın yağışıyla öz canıma tor hörmüşəm.
Məni möhtac sanmayın siz nə çörəyə, nə də suya.
Qəm – çörəyim, göz yaşım – su, güvənirəm bu ruzuya.
Fələklərdən inci-gövhər dilədiyim gündən bəri –
Göz yaşımdır inci kimi ətəyimə tökdükləri.
Azadlığın arzusuyla çırpınıram zaman-zaman.
Şümşadca da, süsəncə də azadlığım yoxdur, aman!
Ürək dedi: əz canını, kömək mənəm, kömək mənəm,
Dəmir insan varsa əgər, demək, mənəm, demək, mənəm.
Düşmən olub nurlu fələk, qılınc çəkib yaxar günəş,
Pəncərəmdən gözü qanlı yağı kimi baxar günəş.
Söz daşını göyə atdım fələklərə çatsın dedim,
Göyün büllur sarayını şüşə kimi çiliklədim.
Kinli ruzgar işığını tez söndürdü çırağın da,
Qibtəsindən yağ qoymadı günəş onun çırağında.
Deyirsən ki, danışmayım, susum, dözüm dərddən yansam,
Mən haqlıyam, zülmə görə dalğa kimi dalğalansam.
Ürəyimin şüşəsi tək qubar tutmuş ayna varmı?
Sözlə cila verilməsə, qəlb aynası parlayarmı?
Fələk məni əbədilik bir guşəyə, küncə atdı.

Korluğuyla baş aparan, şahə qalxan bədöy atdı.
Mən – biliyin ağ tərlanı, uçmaq üçün coşur qanım.
Bu dünyada şah qəsridir yalnız yuvam, aşiyanım.

* * *

**Sanki bir mələk vardır bu lacivərd göylərdə**

Sanki bir mələk vardır bu lacivərd göylərdə,
Həmişə nakam qoyur aşiqləri hər yerdə.
Bağın seyrinə çıxdım, – qəlbim açılsın deyə,
Yaşıllığa söylədim: daim yaşıl qal belə,
Dedi: «Ömrüm üç aydır, buna da şadam hələ».
Nərgizdən soruşdum ki: gözündəki yaş nədi?
«Günəşə çox baxmışam, qamaşıb gözüm», dedi.
«Yenə təravətlisən» – üz tutdum yasəmənə,
Dedi: «erkən soluram, təravət gərək mənə».
Soruşdum qızıl güldən: Niyə gülürsən, niyə?..
Dedi: «solğun aşiqə, ondakı miskinliyə».

## ƏNVƏRİ ƏBİVƏRDİ



Ənvəri Övhədəddin Əbuvərdi (1126-1187) XII əsr fars ədəbiyyatının qüdrətli şairidir. Getenin yüksək qiymət verdiyi 7 fars şairlərindən biridir. Ədəbiyyatda qəsidə ustadı kimi şöhrət tapmışdır. Əbdürrəhman Cami onun qəsidələrini möcüzə adlandırmışdır. Bu qəsidələr içərisində «Xorasanın göz yaşları» adlı şeir daha məşhurdur. Fəlsəfə, nücum və riyaziyyat elmlərinə dərindən bələd olmuşdur. Müəyyən zamanlar Sultan Səncər sarayında yaşamışdır. Lakin saray ziddiyyətləri onu saraydan uzaqlaşmağa məcbur etmişdir. O, məddah şairləri həcv edən şeirlər yazmışdır. Qəzəl və qəsidələrindən ibarət iki divanı vardır.

## QƏNAƏT VƏ COMƏRDLİK HAQQINDA

Son yavan çörəyi götür təknədən,
Götürmə kimsənin minnətini sən.
Toxgözlü özündə acgözlük duymaz,
Həris adam kimi tamaha uymaz.
Ey tamah, qənaət nicata yoldur,
Qənaət mülkündə naz-nemət boldur.
Qazanc çoxaldıqca gözün doyacaq.
Hərislik evini viran qoyacaq.
Aləmin varsa da bir can mülkündə,
Sən ki, aləmsizsən cahan mülkündə.
Varsa da birinin azacıq varı,
Yaxşılıq sayılar payladıqları.
Elə adam var ki, əl açan deyil,
Əliaçıqlıqdan heç qaçan deyil.
Səxavəti hədsiz, gözü toxdu, tox,
Vüqarda, mənlikdə tayı yoxdu, yox.

## ZƏMANƏDƏN ŞİKAYƏT

Zəmanə çarpışır daim insanlar ilə,
Onunla vuruşdayam, ömrü boyu pəsəm mən.
Bu çarxın dəyirmanı dolanmasa tərsinə,
İstəməzdim suyunu əjdana tək kəsəm mən.

## BİR HƏKİMİ MƏZƏMMƏT

Bəxtiyar odur ki, uğursuz gündə,
Bir həkim görməsin gözü önündə.
Əlini kimin ki, nəbzinə atar, –
Ruhu yoxa çıxar, nəbzi də yatar.
Harda təbabətdən söz-söhbət salar,
Ölümün sədası dərhal ucalar.
Ölüm mələyindən alar dərmanı,
Verdiyi dərmandan sağalan hanı?!

## HƏCV

Bir ağanın nökərinə üz tutaraq dedim dünən:
«Ağanızın qonaqları kimlər olur, adını çək?»
Dedi: «Ağa süfrəsinin qonağıdır axşam-səhər –
Böyüklərdən yalnız mələk, kiçiklərdən ancaq milçək?»

## NƏSİHƏT

Şad-xürrəm yaşamaq, yaxşılıq öyrən,
Bilirsən dünyanın vəfasını sən,
Əzizlə dövranı, əziz ol ona,
Görməmiş zamanın cəfasını sən.

## ÖYÜD

Kim ki, mələk olmaq istər cahanda,
Div, ulaq şəhvəti olmasın canda,
Ey naxələf oğul, ata mülkündə,
Fitnələr, qovğalar törətmə gündə.

Bu dünya bir odlu kürəyə bənzər,
Kim yanar kürədə dolanar, gəzər?
Ürəyin yoxsa da eşqi, həvəsi,
Quş kimi tərk edib demək qəfəsi.
Qəzəb ilan dişi sancar bədənə,
Tamah qarışqa tək can atar dənə,
Şöhrət utandırar mələkləri də,
Hünər məğlub edər fələkləri də.
Günəş ol, zəkandan nurlansın beyin,
Nə samur dərisi, nə qumaş geyin,
Göy tək şəhvətini kimsə sezməsin!
Arvadın, uşağın səndən bezməsin!
Ağıl buraxmasın heç vaxt yaxanı,
Lütün yaxasından yapışan hanı?!
Çəngin, neyin səsi ucalsa belə,
Ay, günəş göylərdən öc alsa belə,
Qulağın karsa da yoxdur faydası,
Korluğun varsa da yoxdur faydası..!

## FƏLƏKDƏN ŞİKAYƏT

Nə qədər fitnələr törədər fələk,
Zülmündən bezərək zinhara gələk?!
Bəla atəşini ələr cahana!..
Ələməz ələk tək nələr cahana?
Fitnədir həyata, bəxtiyarlığa,
Qatmış bəlasını bütün varlığa.
Cəfadan enməyib zülmün əlləri,
Nələr törətməyib bəd əməlləri.
Qurtuluş tapmıram, qalmışam naçar,

Belə zamanədən iblis də qaçar.
Olsam məstan kimi, qayğısız, xumar,
Quduz tək atılıb üstümə cumar.
Alçaqdır, insanla daim əlləşər,
Zinhara gəlibdir zülmündən bəşər.
Fələyin hökmünü göstərir nücum:
Öküzün üstünə şir çəksə hücum,
Sanma ulduzlardan çələngə dönər,
Fitnələr törədən pələngə dönər,
Yerin sinəsində siçanlar ki, var,
Fələk süründürüb eyləyibdir xar.

## ÖZ LƏYAQƏTİNİ QORUMAQ HAQQINDA

Ənvəri, tamahla şeiri eylə yad,
Birisi dayədir, birisi övlad.
Gədalıq, hərislik – tamaha mənsəb,
Arayıb – axtarma sən daha mənsəb.
Elmdən xoruz tək başda tacın var,
Toyuq yumurtlayar, fallıq axtarar.
İnsanın zinəti hünərdir, hünər,
Onsuz insan oğlu miskin görünər.
Ömrün – ən qiymətli, parlaq cəvahir,
Şairlik şöhrətin hər yerdə zahir
Uyma təriflərə, çərən-pərənə,
Salma söz incini pərən-pərənə!..

## QƏZƏL

Bu canım çatdı sona, canana çatmır əlim,
Dərdim həddən aşıbdı, dərmana çatmır əlim.

Qəmindən asi düşdüm, iman da çıxdı yoxa,
Eşqində kafir oldum, imana çatmır əlim.

Sonsuzdur vüsal yolu, bir yana çıxan deyil,
Dözməyə yox taqətim, gümana çatmır əlim.

Kimim var yardan əziz, o da ki, məndən uzaq,
Şikarım saymır məni, kamana çatmır əlim.

Deyir ki, utanırsan, yetişməzsən vüsalıma,
Əlimi üzüb mənim, bir yana çatmır əlim.

Eşqimin sultanıdır qəlbimi əsir edən,
Məhəbbət əsiriyəm, sultana çatmır əlim.

## HİKMƏT VƏ NƏSİHƏT

İstərsə ayıq ol, istərsə xumar,
Ağa, dünya səndən üçcə şey umar.
Qurtuluş yoluna çıxmaq istəsən,
Həyatda onlardan nicat istə sən.
Kim ki, bu üç şeyə sahib olmayıb,
Beyninə kamalın nuru dolmayıb.
Onlar yasaq deyil heç bir məsləkə,
Mənsəbə, şöhrətə salmayıb ləkə.
Qoy sayım nələrdir, dinlə bir anlıq:
Comərdlik, doğruluq, nəcib insanlıq!

## HİKMƏT

Ağıllıya bir ağılsız üz tutaraq dedi belə:
«Bizim vali bir həyasız dilənçidir, baxır ələ».
Dedi: «Əcəb dilənçidir, tək tacının inci, zəri,
Dolandırar illər boyu bizim kimi yüz nəfəri!»
Dedim: «Yazıq, yanılırsan, niyə verdin bu sualı?
Heç bilirsən haradandır onun varı, mülkü-malı?!
Cəvahiri, mirvarisi – körpəmizin göz yaşıdır,
Yetimlərin ürək qanı – yaqutudur, qaş-daşıdır.
İliyimiz, sümüyümüz yaradıbdır bu bardağı,
Əlimizdən zorla alıb, olub onun su bardağı,
Bu, hərislik yolçuluqdur, xərac, zəkat saysan da sən,
Həqiqətən, valimizin fərqi yoxdur dilənçidən!»
Həris insan Süleyman da, bir Qarun da olsa əgər,
O bir yolçu, o bir sayıl, o bir gəda, deyil məgər?!

## QİTƏLƏR

Bir dostum soruşdu: «Hardasan, harda?
Çoxdandır, qalmışam mən intizarda!»

Dedim: «Miniksizlik məni çaşdırıb,
Dostumdan-aşnamdan uzaqlaşdırıb».

Dedi: «İstəmirsən bəs niyə bir at?
Biz sənə möhtacıq, sənsiz yox nicat!»

Düşdü İmadinin sözü yadıma,
Bu sözlər yerində çatdı dadıma:
«Sümüyüm sınsa da, «uf!» demərəm mən,
Alçaqdan mumiya istəmərəm mən».

## VARLININ XƏSİSLİYİ

Ağanın evində qonaqdım dünən,
Gördüm qudurubdur var çoxluğundan.
Axşamdan sübhədək yata bilmədik,
Mən yazıq acından, o, toxluğundan.

## HEYHAT

Çoxmu parlayacaq ay nuru üzdə?
Ay üzün hamıda oyadıb həvəs.
Heyhat, ağ gümüştək büllur bədəni,
Qara gümüş pula satırsan əbəs.

## ZƏMANƏ ƏHLİNDƏN ŞİKAYƏT

Bir tülkü təntidi, uçundu, əsdi,
Başqa tülkü gördü: o, təngi nəfəsdi.
Dedi: «Səni qovan söylə kim olub?»
Dedi: «Ulaqlara qurd hakim olub!»
Dedi: «Qorxmaq niyə, ulaqsan məgər?»
Dedi: «Olmasam da mən ulaq əgər,
İnsan tək bunları bir duyan hanı?
Ulaqla tülküyə fərq qoyan hanı?»
Qorxuram məni də ulaq sayalar,
Tutub eşşək kimi, tez çullayalar.
Eşşəyi tülküdən ayırmayanlar,
Eşşəkdir, nə qanar, nə də ki, anlar!..

## GİLEY

Kim ki, tərif yazır bu zəmanədə,
Gedir ənam üçün dərgaha sarı,
Dörd cürə iqtidar olmasa onda.
Kəsməz ürəyinin dərdi-azarı:
Əyyubun dözümü, Nuhun həyatı,
Xızırın müdrikliyi, Qarunun varı.

## RÜBAİLƏR

**1**

Qəlb sənindir, onu yada vermərəm mən,
Həyatımdır, müftə bada vermərəm mən.
Yüz can qurban ürəyimin arzusuna,
Sevən qəlbi yüz cana da vermərəm mən.

**2**

İstər sənsiz qızıl qanda üzə ürək,
Cəfan ilə şirin canı üzə ürək.
İnsaf elə, yağış deyil, yağa bir də,
Ot da deyil, çıxa bilsin üzə ürək.

**3**

Adın mənim, vüsal dadın özgəsinin,
Qəmin mənim, özün yadın, özgəsinin.
Həsrətindən göz yaşında boğuluram,
Atıb məni, qucaqladın özgəsini.

## ÖMƏR XƏYYAM

Ömər ibn İbrahim Xəyyam 1048-ci ilin 18 may tarixində Nişaburda çadırçı ailəsində anadan olmuşdur. Ömər onun adı, Xəyyam isə ləqəbidir. Mənası çadırçı deməkdir. Ömər Xəyyamın atası Sultan Mahmudun Hindistan yürüşündə iştirak etmiş və buna görə qənimət payını alsa da, özünü məzəmmət etmişdir. O, 1066-cı ildə dünyasını dəyişmişdir. Ömər Xəyyam anası Fatiməyə xüsusi qayğı göstərmişdir. Atası Ömər Xəyyamın təhsili ilə xüsusi məşğul olmuşdur. Xəyyam əl-İsfaraini tərəfindən 1027-ci ildə əsası qoyulan mədrəsədə təhsil almışdır. Quranı və dini elmləri yaxşı mənimsəmişdir. Bundan başqa o, fəlsəfə və dəqiq elmlərə də dərindən yiyələnmişdir. Onu da qeyd edək ki, Ö.Xəyyamın riyazi görüşləri üzrə iki doktorluq dissertasiyası müdafiə edilmişdir. Ömər Xəyyam məlum olmayan səbəblərdən Xorasanı tərk edir. Güman etmək olar ki, 1064-cü ildən etibarən Qaraxanilər dövlətinə düşmən hücumları Xəyyamı Nişaburdan uzaqlaşmağa məcbur etmişdir. 1066-1070-ci illərdə Ömər Xəyyam Səmərqənddə yaşayır. O, 1070-ci ildə Səmərqəndə gedir və 1074-cü ilə qədər bu şəhərdə çalışmalı olur. Səmərqənd və Buxara regionun ən böyük elmi mərkəzləri olduğu üçün Ö.Xəyyam burada riyaziyyata aid 4 əsərini,

o cümlədən «Riyaziyyat çətinlikləri», «Hesab və əl-mükəbala məsələlərinin isbatı haqqında risalə», «Müdriklik tərəzisi» adlı əsərlərini yazır. 1074-cü ildə Xəyyam İsfahana köçür və 1092-cü ilə qədər bu şəhərdə yaşayır. Bir müddət 1074-1075-ci illərdə əsası qoyulan İsfahan rəsədxanasında çalışır. O, 1077-ci ilin dekabr ayında riyaziyyata aid «Evklidin kitabının girişindəki çətinliklərə aid şərhlər» adlı ciddi əsərini tamamlayır. 1080-1091-ci illər Ömər Xəyyamın elmi fəaliyyətinin məhsuldar dövrü hesab olunur. Bu illərdə o, «Varlıq və zərurət haqqında risalə», «Üç suala cavab», «Mövcudluq haqqında risalə» və s. əsərlərini yazır.

Məlikşah Səlcuqinin hakimiyyəti dövründə Ömər Xəyyama böyük diqqət göstərilmişdir. Ömər Xəyyam onun xahişi ilə bu gün də əhəmiyyətini itirməyən «Cəlali təqvim» əsərini yazmışdır. Məlikşah Səlcuqi Xəyyamı münəccimbaşı təyin etmiş, rəsədxana tikmək üçün Xəyyama xeyli miqdarda pul vermişdir. Lakin 1092-ci ildə Məlikşahın ölümü rəsədxana tikmək planını həyata keçirməyə imkan verməmişdir. 1098-1110-cu illər Ömər Xəyyamın intensiv axtarışlar dövrü hesab olunur. 1114-cü ildə Xəyyam Mərvə köçür. Ömər Xəyyam 4 dekabr 1131-ci ildə Nişaburda vəfat etmişdir. Ömər Xəyyam həm ciddi elmi əsərlər, həm də rübailər müəllifi kimi tanınır. Qəribə də olsa alim Xəyyamla, şair Xəyyamın başqa-başqa şəxs olması barədə fikirlər də mövcuddur.

Ömər Xəyyam çoxsaylı elmi əsərlər yazsa da, o daha çox şair kimi məşhurdur. Ona şöhrət gətirən rübailəri say etibarilə o qədər də çox deyildir. Elmi ədəbiyyatlarda Xəyyamın rübailərinin sayı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi tədqiqatçılar bu sayın 121, bəziləri 250-300, bəziləri isə 1000-1200 olduğunu təsdiqləyirlər. Mütəxəssislərin fikirlərinə görə,

Xəyyamın rübailəri toplanıb nəşr edilərkən başqa müəlliflərə məxsus çoxsaylı rübailər səhvən onun adına çap edilmişdir.

Ömər Xəyyam rübailərində sufi ruh olduqca böyükdür. Sevgi və çağırış onun rübailəri üçün başlıca göstəricidir. Bu sevgi Allaha olan sevgi, bu çağırış isə Allaha qovuşmaq, ona doğru hərəkət etmək çağırışıdır. Xəyyam şərab anlamında azad olmağı, sərxoşluq altında isə vəcdəgəlməni təbliğ edir. Təmənnasız ibadət və könüllü yoxsulluq ideyası Ömər Xəyyam rübailəri üçün mühüm keyfiyyətdir. İfrat sufi düşüncə şairdə müəyyən məqamlarda tərki-dünyalığa da gətirib çıxara bilmişdir. Tədqiqatçıların bir qismi Ömər Xəyyamın ailə qurmamasının səbəbini onun tərki-dünyalığa qapılması ilə bağlayırlar. Lakin Xəyyam rübailərində mənəvi kamilləşmə və mənəvi təkamül xətti ideya kontekstində milli və dini məhdudiyyətləri aşaraq bəşəri dəyər qazanmışdır. Bu gün dünya xalqlarının Xəyyam sevgisinin səbəbi də bununla bağlıdır.

## R Ü B A İ L Ə R

Eşq əhli gərək həmişə rüsva olsun,
Divanəliyilə məstü şeyda olsun,
Huşyarlıqda dərd çəkirik hər şeyə biz,
Məstkən deyirik: qoy nə olursa olsun.

* * *

Könlüm, bu zəmanədən sən ehsan diləmə!
Dövrandan aman gözləmə, sahman diləmə!
Dərman diləsən, bir az da artar dərdin,
Dərdinlə barış, səbr elə, dərman diləmə!

* * *

Öpsəm ayağından sənin, ey şux dilbər,
Varkən ayağın, özgə ləbindən kim öpər?!
Əl məndən, ətək xəyalın olsun hər gün,
Gəzsəm, arasam vüsalın olsun gecələr.

* * *

Bir gün ki əlimdə parlayır cami-şərab,
Şadlıq məni eyləyir o gün məstü xərab,
Yüz möcüzə icad edirəm sənətdə,
Təbim o zaman atəş olur, söz də gülab.

* * *

Məşuqə və meylə bu xarab guşədə şad,
Rəhmət və əzab ümidi, fikri, bizə yad.
Hər bir şeyi qoyduq girova badə üçün,
Oddan, havadan, sudan və torpaqdan azad.

* * *

Meyxanəni abad mey içənlərdir edən,
Min tövbə-günah qanın sorurlar bizdən,
Mən işləməsəm günah, edilməz rəhmət,
Rəhmət şərəfin günahımızdır bəzəyən.

* * *

Dostluq az elə, hər kəsə dil vermə, saqın!
Olma bu zəmanə əhlinə çox da yaxın,
Bir kəs ki, onu arxa bilirsən özünə,
Diqqət eləsən, odur həqiqətdə yağın.

* * *

O qəsrdə ki verərdilər Bəhrama cam,
Ahuya olub doğum yeri, aslana dam[1]

Bəhram ki, ömür boyunca gur ovlardı
Gördün necə birdən gora girdi Bəhram.

* * *

Dilbərlərə kim, gülər dodaqlar vermiş,
Dərd əhlinin o, bağrına dağlar vermiş,
Qismət bizə şadlıq etməmişdirsə, nə qəm?
Yüz minlərini gözləri ağlar vermiş.

* * *

Gəlmiş bulud, ağlayır çəmən üstünə, bax,
Gülrəngli şərabsız nəyə lazım yaşamaq,
İndi çəmənin otlarına biz baxırıq,
Bəs qəbrimizin otlarına kim baxacaq?!

* * *

[1] *Dam – tor*

Üsyanım ilə heç kəsi yandırmır odum,
Bir kimsənədən yaxşılığa yox umudum,
Xalqın sitəmindən göyə qalxan əl ilə,
Xeyir olmadı heç, hansı ətəkdən tutdum.

* * *

Çərxin dönüşündə görmürəm bir məfhum,
Dünya əzabından özgə hər şey mövhum,
Öz işlərimə diqqət edib mən görürəm
Ömrümdə mənə olmadı bir şey məlum.

* * *

Məndə bu nəfəs saqiyə sadiq qalmış,
Xalqdansa mənə bu bivəfalıq qalmış;
Axşamkı şərabdan bir udum qalmışsa,
Söylə, nə qədər ömrdən artıq qalmış?

* * *

Kafirlik ilə din arası bir andır,
Şəkk ilə yəqinin arası bir andır,
Xoşluqla keçir sən bu əziz ömrü bu gün,
Sağlıqla ölüm fasiləsi bir andır.

* * *

Bihudə yerə hər tərəfə cummamalı,
Əsr ilə ayaqlaşmalı, rəhm ummamalı,
Zərlər nə verirsə fələyin nərdində,
Yalnız o naxışlara baxıb oynamalı.

* * *

Çatmır ki əlin sənin bu gündən sabaha,
Çəkmək sabahın dərdini boş bir sövda,
Qəlbin ayıq isə bu günü zay etmə,
Yoxdur bu qalan ömrümüzə çünki vəfa.

* * *

Növbətlə bu gün ömür cavanlıqdı mənə,
Badə içirəm, bu kamranlıqdı mənə,
Eyb eyləməyin ki, acıdır mey, xoşdur,
Ondan da acı bu zindəganlıqdı mənə.

* * *

Ey çərxi-fələk, bu kin, ədavət səndən!
Hər zülm doğub sənin qədim şivəndən!
Ey torpaq, əgər döşün yarılsa, şəksiz
Min dürrü cavahirat çıxar sinəndən!

* * *

Ey qəlb, zəmanədən ki sən qüssədəsən,
Ruhun birdən çıxıb gedəndir, bil sən,
Əyləş bu çəməndə, xoş yaşa bir neçə gün,
Az sonra çəmənlik bitəcək türbəndən.

* * *

Bir sirli vücuddan törəmişdir bu cahan,
Mahiyyətini bu cövhərin yoxdur açan,
Hər kəs nə gəlib ağlına bir sözdü deyib,
Əslində nədir, dərk eləmir bir insan.

* * *

Bu guzə mənim günümdə bir dilxun olub,
Bu şux gözəlin saçlarına vurğun olub,
Boynundakı qulp o aşiqin bir qoludur,
Yarın sarılıb boynuna bir məcnun olub.

* * *

Dünya deyilən aləmimiz bir qoca dam,
Onda otarır öz atını sübh ilə şam,
Yüz Cəmşidi yormuş, yola salmış bu saray,
Bir gordur ki, onda yatıb yüz Bəhram.

* * *

Zər təştinə bənzər bu səma zümrüdrəng,
Çox dövr eləmişdir, yenə də dövr edəcək,
Bir vaxt bu çərxi-fələyin hökmü ilə
Gəldik biz də, getmədəyik hər kəs tək.

* * *

Üç-beş gün ömür növbətimiz böylə keçib,
Çöldə necə yel əsir keçir, öylə keçib,
Mən çəkmərəm əsla iki gün dərdini heç:
Biri hələ gəlməyib, biri dünlə keçib.

* * *

Eyvay ola bir qəlbə ki, od yox onda,
Bir dilbər üçün yanmayır onda sevda,
Bir gün ki şərabsız keçirirsən onu sən
Heç bir günün olmaz daha bədtər ondan.

* * *

Badəylə yaşa ki, mülki-Mahmud budur,
Çəngə qulaq as, ki ləhni-Davud budur,
Keçmiş-gələcək söhbətini salma yada,
Hal ilə yaşa ki, əsl məqsud budur.

* * *

Həm dost və həm düşmən ilə yaxşı dolan,
Heç pislik edər başqasına yaxşı olan?!
Pislik eləsən düşmən edərsən dostu,
Sən yaxşılıq et, düşmənin olsun aşnan.

* * *

Novruz şehi xoşdur düşə gül çöhrəsinə,
Xoşdur çıxa bir gözəl çəmən səhnəsinə,
Ondan ki dünən keçib, danışmaq boşdur,
Xoşdur qulaq asmaq bu günün nəğməsinə.

* * *

Üzmə özünü sən, canına qəsd eləmə,
Öz qismətinə razı ol, artıq diləmə,
Azdır demə sən, hər nə qədər bəhrən var,
İlk gündən alınmış o adınla qələmə.

* * *

Başdan-başa dünyanı tamam gəzdik biz,
Sonsuzluğunu üfüqlərin sezdik biz,
Bir kəsdən eşitmədik bu yoldan dönəni,
Hər kim bu yolu keçib gedib, qoymamış iz.

* * *

Yad dost olacaq mənə, əgər etsə vəfa,
Bədxahımdır dostum, əgər etsə cəfa,
Nuşun ziyanı olsa əgər, niş olacaq,
Padzəhr olacaq zəhər, əgər versə səfa.

* * *

Şadlıqla yaşa, axırı ömrün qəmdir,
Hər zərrə içində Keyqubaddır, Cəmdir,
Əhvalı cahanın və həyatın əsli
Röya və xəyal ilə dolu bir dəmdir.[1]

* * *

Səhra baharın hüsnünü çəkdi üzünə,
Bu qəlbi qırıq yerə həyat gəldi yenə.
Bir gənc gözəl ilə get çəməndə mey iç,
Qəbrindən ot bitənlərin xatirinə.

* * *

[1] *Dəmdir – keçici bir nəfəsdir.*

Aləm dolu möhnətdir, günlər dolu qəm,
Dünya dolu afətdir, hər yanda sitəm,
Məxləs, nə qədər göz qoyuram hər tərəfə,
Asudə adam yox kimi, hər kəsdə ələm.

## R Ü B A İ L Ə R

Sirri əzəli nə sən bilirsən, nə də mən,
Bu bilməcəni nə sən oxursan, nə də mən,
Biz pərdənin arxasında, söyləşmədəyiz,
Ta pərdə düşür, nə sən qalırsan, nə də mən!

* * *

Öldürmək üçün bizi fələk hər ləhzə,
Bir növ ilə sui-qəsd edir canımıza,
Əyləş bu yaşıl çəməndə, qaldır qədəhi,
Ta torpağımızda bitməmişdir səbzə!

* * *

Fəryadı nədəndir bu xoruzi səhərin,
Bilmirsənmi illətin sən o növhələrin?
Yəni səhərin aynası verdi nişan,
Bir gecə də keçdi ömürdən, yox xəbərin!

* * *

Bir iş ki hələ yox ortada, etmə maraq!
Zəhmət qazanırlar, düşünənlər çox uzaq,
Şad ol bu cahanı, könlünü eyləmə dar,
Kim, ruzi bu qəm çəkməklə artmayacaq!

* * *

Qalx xatirimiz üçün ey nazlı gözəl,
Göstər üzünü, eylə bizim müşkülü həll,

Bir kuzə şərab verginən ta içəlim,
İndi ki hələ torpağımız kuzə deyil.

* * *

İndi ki səadət sənə hər dəm gül açar,
Sağərdən əlin neyçün durubdur bikar?
Mey iç ki, zəmanə düşməni-xaindir,
Müşküldür belə bir günü tapmaq təkrar!

* * *

Az et tamahın cahanda sən ömr elə şad,
Kəs yaxşı yamandan gözünü, ol azad,
Mey iç, ələ al bir gözəlin saçlarını,
Bu bir neçə gün keçər, verən olmaz yad!

* * *

Bir gecə sənə qəm etməmişkən şəbihun[1],
Əmr et gətirə saqi şərabi-gülgün,
Ey qafili-biçarə qızılsan? Ki səni,
Torpağa soxub yenə çıxarmaq olsun?

[1] - *gecə basqını*

## SƏDİ ŞİRAZİ



Sədi Şirazi (Şeyx Əbu Məhəmməd Müslihəddin ibn Abdullah Sədi Şirazi) XIII əsr İran ədəbiyyatının görkəmli sənətkarıdır. O, Şərqin mədəniyyət mərkəzlərindən biri hesab olunan Şirazda ruhani ailəsində anadan olmuşdur. Onun anadan olma tarixi hələ də tam dəqiqləşdirilməmişdir. Ayrı-ayrı tədqiqatçılar bu tarixin 1184, 1189, 1209 və s. illərə aid olduğunu təsdiqləməyə çalışmışlar. «Gülüstan» əsərində «Kitabın yazılma səbəbi» bölümündə S.Şirazi əsəri 50 yaşında, bahar fəsli, ordibehiştin 1-ci günündə (21-22 aprel) yazmağa başladığı və hicrətin 656-cı ilində (1258) tamamladığını qeyd edir:

*Ömürdən gedir bu keçən hər nəfəs*
*Baxıram ətrafa qalmamış bir kəs*
*Ey yatan əlli il qəflətdə bütün*
*Qoyma ki, boş keçə bu qalan beş gün.*

Bu tarixlərin dəqiqliyinə əsaslandıqda S.Şirazinin anadanolma tarixini 1208-1209-cu illərə aid etmək olar. Lakin mənbələrdə şairin 1184-cü ildə anadan olub 100 ildən artıq ömür sürməsi ilə bağlı fikirlərə daha çox rast gəlmək mümkündür. Sədi şairin təxəllüsüdür. Bu təxəllüsü o, Şiraz hakimi Atabəy Əbubəkr Sədin (1195-1226) şərəfinə götürmüş və «Gülüstan»ı

da ona ithaf etmişdir. Sədi Şirazinin atası Şeyx Abdulla saray mülazimi olmuş və din alimi kimi ona böyük hörmət bəslənilmişdir. Sədi Şirazinin atası oğlunun təlim-tərbiyəsi ilə ciddi məşğul olmuşdur. Lakin Sədi kiçik yaşlarında olarkən atasının ölümündən kədərlənmiş və ana babası Məsud ibn Müslih əl-Farsinin himayəsində yaşamağa başlamışdır. S.Şirazi ata itkisinin narahatçılıqlarını belə ifadə edir: «Milçək üstümə qonanda bir neçə adam narahat olardı. İndi isə düşmən məni aparsa belə heç kim yaxın düşmür». Dövrün böyük alim və münəccimi kimi şöhrət tapmış dayısı Qütbəddin Şirazinin S.Şirazinin elmlərə yiyələnməsində mühüm rol oynamışdır.

1224-cü ildə S.Şirazi Bağdada gəlir. Əsası Xacə Nizamülmülk Tusi tərəfindən qoyulan, fəaliyyət göstərdiyi zamanda dünyanın ən məşhur universiteti hesab edilən «Nizamiyyə» mədrəsəsindəki təhsil illəri onun həyatının mühüm dövrü kimi xarakterizə olunur. Atabəy Səd ibn Zəngi onun bu mədrəsədə dövlət hesabına oxumasını təmin etmişdir. Sədi Şirazi burada Əbu İshaq Şirazi, Əbdürrəhman ibn Cövzi, Şəhabəddin Sührəverdi kimi alimlərdən dərs almışdır. Mədrəsədə oxuduğu illərdə o, ərəb dilini mükəmməl öyrənməklə yanaşı, dini-fəlsəfi elmlərə də dərindən yiyələnmişdir. Təhsilini başa vurduqdan sonra Sədi Şirazinin Şərq ölkələrinə səyahəti başlamışdır. Təxminən 30 illik bir dövrü əhatə edən (1227-1256) səyahətlərində o Yaxın və Orta Şərqin əksər yerlərində olmuş və zəngin həyati təcrübə əldə etmişdir. Hətta onun bu dövrdə Aralıq dənizindən Hind okeanına qədər gəmi ilə səyahəti, Səlib yürüşü zamanı əsir düşməsi, təsadüf nəticəsində hələbli şəxs tərəfindən əsirlikdən azad edilməsi, ailə qurması, o cümlədən Azərbaycanda olması və s. haqqında da maraqlı məlumatlar verilir. S.Şirazi 1257-ci ildə doğma yurdu

Şiraza qayıdır. Onun Konya, Təbriz və s. yerlərə səfərləri istisna olmaqla demək olar ki, S.Şirazi 1257-ci ildən ömrünün sonuna qədər Şirazda yaşamışdır. Onu da qeyd edək ki, Konya səfəri zamanı o, C.Rumi ilə görüşmüşdür.

S.Şirazi 1257-ci ildə «Bustan», 1258-ci ildə isə «Gülüstan» əsərlərini yazmışdır. Verilən məlumatlara görə Şeyx Səfiəddin Ərdəbili (1252-1334) Şirazda olarkən S.Şirazi ilə görüşmüşdür. S.Şirazi 1291-ci ildə Şirazda vəfat etmişdir.

S.Şirazi «Bustan» və «Gülüstan» əsərlərindən başqa çoxsaylı risalə, qəzəl, rübai, qitə, məsnəvi, müləmmə, tərcibbəndlər və s. müəllifidir. Maraqlıdır ki, o, hələ sağlığında öz əsərlərinin tərtibi ilə məşğul olmuşdur. Ölümündən təxminən 30 il sonra isə Əli ibn Əhməd ibn Əbubəkr Bistun S.Şirazi irsini tam şəkildə toplayıb külliyyat tərtib etmişdir. Onun tərtib etdiyi külliyyat 1791-ci ildə Kəlküttə şəhərində daşbasma üsulu ilə çap edilmişdir.

Şairin 1257-ci ildə qələmə aldığı «Bustan» 10 babdan (fəsildən) ibarətdir. Əsər əxlaqi-didaktik səciyyə daşıyır. «Bustan»da ədalət və insaf, səxavət, eşq, təvazö və sadəlik, təslim və itaət, qənaət, tərbiyə, sağlamlıq, qocalıq və tövbə haqqında şairin hikmət və nəsihətləri diqqəti cəlb edir.

S.Şirazi zəngin yaradıcılıq irsinə sahib olsa da «Gülüstan» (1258) onun yaradıcılığının şah əsəri hesab olunur. Əsər Şərqdə elə bir əks-səda doğurmuşdur ki, «Gülüstan»a bənzər əsərlər yazmaq həvəsi ənənəyə çevrilmişdir. Cami «Baharıstan», Məcdəddin «Xaristan», Qaani «Pərişan», Sünbülü (Gəndistan) adlı əsərlərini «Gülüstan»a nəzirə kimi qələmə almışdır.

«Gülüstan» 8 babdan ibarətdir. Həmin fəsillər əsərdə aşağıdakı şəkildə sıralanmışdır.

1. Hökmdarların rəftarı haqqında
2. Dərvişlərin əxlaqı haqqında
3. Qənaətin fəziləti haqqında
4. Susmağın faydaları haqqında
5. Eşq və cavanlıq haqqında
6. Zəiflik və qocalıq haqqında
7. Tərbiyənin təsiri haqqında
8. Söhbət qaydaları haqqında

«Gülüstan» əsərindən əksər Şərq ölkələri mükəmməl dərslik kimi istifadə etmişlər. Sədi yaradıcılığı Şərq dünyasında diqqət mərkəzində olmuş və öyrənilmişdir. S.Ə.Şirvani M.Ə.Sabirə dərs keçərkən S.Şirazidən tərcümə tapşırmış və şeiri yaxşı tərcümə etdiyinə görə ona Nizaminin «Xəmsə»sini bağışlamışdır. «Gülüstan» müxtəlif vaxtlarda Azərbaycan, latın, ingilis, fransız, alman, ərəb, rus dillərinə tərcümə edilmişdir. Əsər Azərbaycan dilinə ilk dəfə Mirzə Sadıq Ruhil tərəfindən tərcümə edilərək «Bəhr-ül həqayiq» adı ilə çap olunmuşdur. Sonralar əsər Məmmədağa Soltanov, Rəhim Sultanov və İsmayıl Şəms tərəfindən Azərbaycan dilinə tərcümə edilərək nəşr edilmişdir (1962, 1987).

# BUSTAN

*(ixtisarla)*

## BU KİTABIN YAZILMASININ SƏBƏBİ

Dolaşdım dünyanı, səyahət etdim,
Hər cürə insanla ünsiyyət etdim.
Ərmağan axtarıb tapdım hər yerdən.
Sünbüllər topladım mən xirmənlərdən…
Görmədim şirazlı kimi xoşsifət,
Tanrı bu torpağa yağdırsın rəhmət!
Mən Şamda, ya Rumda gəzdiyim zaman
Şirazlı mərdləri yad etdim hər an.
İstədim gəzdiyim bağdan, çəməndən
Dostlar məclisinə boş dönməyim mən.
Dedim ki, Misirdən qayıtsa hər kəs
Ordan qənd gətirər, əliboş dönməz.
Qəndim olmasa da, dərin sözüm var.
Misir qəndindən də şirin sözüm var.
Bu o qənd deyil ki, olsun ağızda,
Tapar ağıllılar bunu kağızda…
Sözdən on qapılı bir saray qurdum.
Bu qəsrə hikmətdən bəzəklər vurdum.
Xalqı qorumaqdan danışır biri,
Öyrədir insana elmi, tədbiri.
İkinci söhbəti açır kərəmdən,

Deyir şükr eyləyən uzaqdır qəmdən.
Üçüncü danışır qəlb riqqətindən,
Azad könüllərin məhəbbətindən.
Verir təvazö dördüncü qiymət.
Açır razılıqdan beşinci söhbət.
Altıncı deyir ki, qənaət öyrən!
Yeddinci söyləyir: tərbiyət öyrən.
Səkkizinci fəsil göstərir ki, sən
Sağlam olmağınçın şükr etməlisən.
Doqquz təbliğ edir tövbə və savab,
Onuncu fəsillə qurtarır kitab.
Kitabı yazmışam xoş bir əyyamda,
İki çox mübarək gözəl bayramda.
Altı yüz əlli beş tarixində mən
Dəyərli gövhərlər saçdım təbimdən.
Ətəyim doludur dürr ilə gövhər,
Yenə xəcalətdən çəkirəm kədər
Ki, dürr dənizində sədəfim də var.
Kiçik bağçada da yetişər çinar…
Bunu yaxşı düşün, ey arif insan!
Hünər sahibləri aramaz nöqsan.
İstər ipək tiksin, istər zərxara,
Tikən sətin astar qoyar paltara.
Paltarın astarı deyilsə ipək,
Acıqlanmayasan buna sən gərək.
Mən öz sənətimdən deyiləm məğrur,
Dərvişəm, neyləyim, hünərim budur.
Nə qədər olsa da pislər günahkar,
Tanrı yaxşılara onu bağışlar.
Mənim sözlərimdə nöqsan görəndə,

Kərəm et, oxucum, bağışla sən də.
Xoşuna gəlsə də min beytdən biri,
Onun xatirinə pisləmə şeiri.
Müşkün bir dəyəri olarmı Çində?
Şeirin də qiyməti yox fars içində.
Şeirlə doludur çünki bu ellər…
Sədinin hünəri o şəxsə bənzər
Ki, bir gül gətirə güllü bostana,
İstiot apara ya Hindistana.
Xurma çox şirin də olsa, yenə sən
Onun da içində çərdək görərsən.

# BİRİNCİ FƏSİL
# *ƏDALƏT VƏ İNSAF HAQQINDA*

## ƏNUŞİRƏVANIN VƏSİYYƏTİ

Ölüm yatağında olduğu zaman
Hörmüzə demişdir Ənuşirəvan:
Oxşa könülləri, xalqı sal yada,
Təkcə öz halına qalma dünyada.
Öz rahatlığını düşünsən, heç kəs
Ölkəndə gün görüb yaşaya bilməz.
Ağıllı istəməz ki, yatsın, çoban,
Olsun canavara sürüsü qurban.
Düşün yoxsulların halını hər an.
Şahı rəiyyətdir edən hökmran.
Soltan bir ağacdır, rəiyyət rişə.

Ağac kökü üstə durur həmişə.
Xalqın ürəyini incitsən əgər,
Sənin öz kökünə baltalar dəyər
Düz yol istəyirsən – ədalətli ol.
Xalqına, elinə sədaqətli ol.
İnsanı yaşadan budur doğrusu:
Yaxşılıq ümidi, pislik qorxusu.
Bu iki nöqtəni bilsə hökmran,
Ölkəsində hamı yaşayar asan.
Yoxsulu düşünsə ölkənin şahı,
Tanrı yer üzündə olar pənahı.
İstəyir ki, mülkü qalmasın viran,
Şah gərək zalıma verməsin aman.
Xalqı düşünməsə əgər hökmdar,
Sanma ki, mülkündə xoşbəxtlik olar.
Rəiyyət incisə hökmranından,
Məmləkətdə bolluq olmaz heç zaman.
Gərək rəiyyəti qorxmasın şahdan,
Şah gərək çəkinsin böyük allahdan.
Xalqının işini eyləsən bərbad,
Ölkəni yuxunda görərsən abad.
Zülmdür ölkəni dağıdan, yıxan:
Böyüklər bu sözü unutmaz bir an:
Gərək rəiyyəti incitməsin şah,
Çünki rəiyyətdir ölkəyə pənah.
Kəndlinin, muzdurun işi, zəhməti
Verib hökmdara bunca dövləti.
Sənə ömür boyu yaxşılıq edən
İnsafmı yamanlıq görsün əlindən?!

## XOSROV VƏ ŞİRUYƏ

Yumanda əbədi Xosrov gözünü
Şiruyəyə dedi ürək sözünü:
Çalış ürəyində olsun bir niyyət,
Ölkəndə xoş günlər görsün rəiyyət.
Oğul, ədalətdən üz döndərməsən,
Xalq düşüb əzaba çəkinməz səndən.
Rəiyyət zülmdən qaçır hər zaman,
Çirkin ad qoymasın gərək hökmran.
Xalqı incidəndə azğın hökmdar,
Kəsir öz kökünü demək o qəddar.
Qılınclar, nizələr yıxmayan şahı,
Yıxar bir qarının yanıqlı ahı.
Bir çıraq yandırıb məzlum dul qadın,
Odundan şəhəri bürüyüb yanğın…
Soruşsan dünyada kimdir bəxtiyar,
Deyərəm: insaflı, adil hökmdar.
Çatsa adil şaha ölüm növbəti,
Yağar məzarına xalqın rəhməti.
Yaxşı da, yaman da keçər dünyada,
Çalış yaxşılıqla düşəsən yada.
Əgər hakimlərin olsa haqsevən,
Ölkəni daima abad görərsən.
Sənə də düşməndir eli incidən
Xalqa zərər verib, xeyrini güdən.
O hakimlərdə ki yoxdur ədalət,
Xətadır onlarda olsa rəyasət.
Xəzinə toplamaq bəhanəsilə
Onlar min əziyyət çəkdirir elə.
Olmasa padişah haqq tərəfdarı,

Bir gün ellər yıxar o hökmdarı.
Qalmaz həmişəlik zalım hökumət,
Qalar ancaq ona əbədi lənət.
Yaxşılar yamanlıq görərmi eldən?
Yamanlıq eyləsən, öz düşməninsən.
Düşmənə mükafat verməyib, gərək
Kökünü kəsəsən onun ağac tək.
Quduz canavara rəhmin gəlməsin,
Vaxtında məhv elə, o yekəlməsin.
Xalqın sürüsünə daraşmadan qurd,
Kəs onun başını, dağılmasın yurd.
Quldurlar soyanda bu sövdagəri,
Nə gözəl deyibdir o, bu sözləri:
Mərdlik gözlənilməz quldur, qaçaqdan,
Kişilik uzaqdır namərd alçaqdan,
Soysa tacirləri əgər hökmdar,
Ölkəsi, ordusu xeyirsiz qalar.
Ağıllı yamanlıq görsə bir yerdə,
Getməz o ölkəyə ömründə bir də.
Olsa müsafirə əgər hörmətin,
Gəzər yad ellərdə sözün-söhbətin.
Çalış acizləri etmə müztərib,
Səndən inciməsin əsla bir qərib.
Olsan səyyahlara əgər aşina,
Səyyah yaxşı adı yayar hər yana.
Yadlara hörmət et, ayıq ol ancaq,
Səni aldatmasın hər yetən alçaq.
Üzdə dost göstərir özünü düşmən,
Gərək yabancıdan sən çəkinəsən.
Bilsən əcdadının qədrini uca,

Adın ləkələnməz dünya durduqca.
Nə qədər ki, vardır əlində qüdrət,
Kərəm sahibi ol, göstər mərhəmət.

## ŞAPURUN XOSROVA MƏKTUBU

İşdən kənar etdi Şapuru Xosrov,
Kədərdən sarsıldı, xəstələndi o.
Yazdı hökmüdara: Ey böyük soltan,
Mən ölüb getsəm də fani dünyadan,
Sənin fəzilətin qalacaq ancaq,
Olmaz ədalətdən boyun qaçırmaq.
Gəncliyim yolunda keçib, hökmran,
Qovma qocalıqda məni qapından.
Qəribdən çirkin iş baş versə əgər,
İncitmə onu, yad ölkəyə göndər,
Bəsləmə qəlbində ona ədavət,
Olur öz düşməni ondakı xislət.
Əgər fars elində gəlib dünyaya,
Göndərmə Səqlaba, Ruma, Sanaya.
Pisləri göndərsən başqa bir yurda,
Verər başqasına əziyyət orda.
Sənin də ölkənə gətirər ləkə,
Deyərlər məhv olsun elə bir ölkə,
Ki belə insanlar yetişdiribdir.
Kim buna tərbiyə, ədəb veribdir.
Kimin uzun illər xidmətləri var,
Qocaldı, pis baxma ona hökmüdar.
Qocalıqdan düşüb o, ağır halə,
Əlindən nə gələr, edəcək nalə.

Saxlaya bilməsə biri əmanət,
Yanında gözətçi qoy onun, əlbət.
Əgər gözətçi də etsə xəyanət,
Göstərmə onlara artıq dəyanət.
Əmanət saxlayan qorxmayıb şahdan,
Çəkinsin o gərək böyük allahdan.
Onu bil ki, görsən əgər yüz adam,
Axtarsan, bircəsi olar düz adam.
Qoysan iki dostu bir yerdə işə,
Səbəbdir sənincin böyük təşvişə.
Verib iki yoldaş möhkəm əl-ələ,
Oğurluq edərlər səndən kələklə.
O zaman ki qorxdu oğru oğrudan,
Qorxusuz, xətərsiz gedər karivan.
Birini eylədin xidmətdən kənar,
Əfv eylə sonralar onu, hökmüdar.
Sən bir ümidsizə eyləsən imdad,
Yaxşıdır min qulu etməkdən azad.
Əməl kəndirini yazığın qırma,
Yaranın üstündən bir yara vurma.
Baxır ata necə doğma oğluna,
Elə baxmalıdır şah öz quluna.
Ata övladını döysə də hərdən,
Silir göz yaşını, salmır nəzərdən.
Yumşaqlıq göstərsən, qudurar yağı.
Çox təzyiq üsyankar edər qorxağı.
Yumşaqlıqla sərtlik olur bərabər,
Təbibdə həm dərman olur, həm neştər.
Cavanmərdlik eylə, sən haqq ilə ol;
Haqq sənin olsa da sən xalq ilə ol.

Hamının həyatı sovrular bada,
Bir yaxşı ad qalar ancaq dünyada.
Tiksən karvansara, körpü, dəyirman,
Adın yaşayacaq sənin hər zaman.
Qoymasa özündən hər kəs yadigar,
O bir ağacdır ki, gətirməyib bar.
Səni unutmasın istəsən cahan,
Etmə böyüklərin adını pünhan.
Xeyirli iş görüb getməsə hər kəs,
Adı yaxşılıqla onun çəkilməz.
Səndən əvvəllərdə çox şahlar varmış,
Hamı böyük-böyük hökmüdarlarmış.
Naz-nemət içində ömür sürdülər,
Öldülər, qaranlıq qəbrə girdilər.
Birindən cahanda yaxşı ad qaldı,
Birinin tarixdə adı bəd qaldı.
Bədxahın sözüylə qalxma yerindən,
Hər işi əvvəlcə öyrən dərindən.
Səndən üzr istəsə əgər təqsirkar,
Bağışla suçunu, olma çox qəddar.
Biri eyləmişsə kiçik bir günah,
Öldürmə istəsə o, səndən pənah.
İlk günah edənə eylə nəsihət,
İkincidə həbs et, ver çox əziyyət.
Gördün ki, nəsihət, həbs etmir əsər,
Sındır ağac kimi onu yerə sər.
Yaxşı düşün, xəta çıxmasın səndən,
Calanmaz ayırsan başı bədəndən.
Sınar asanlıqla ləli-bədəxşan,
Sınığı yamanmaz lakin heç zaman.

## ADİL HÖKMDAR

Deyirlər bir böyük adil hökmdar
Çox ucuz parçadan geyirmiş paltar.
Biri deyir ona: bəxtiyar soltan,
Geyin paltarını Çin qumaşından.
Şah cavab verir ki, bu mənə bəsdir,
Sadəlik yaxşıdır, bəzək əbəsdir,
Onunçun deyildir yığdığım xərac,
Özümü bəzəyim, zinnətlənsin tac.
Bəzənib-düzənsəm qadın kimi mən,
Necə məğlub olar əlimdə düşmən?
Mənim də ürəyim çox şey istəyir,
Lakin xəzinə tək mənim deyildir.
Xəzinə xərclənər qoşun-ləşkərə,
Elə malı verilməz zərə-zivərə.
Hökmdardan razı olmasa ordu,
Heç zaman ürəklə qorumaz yurdu.
Alıb ulağını düşmən kəndlinin,
Soltan ondan töycü niyə istəsin?
Düşmən ulaq alsa, padşah xərac,
Batar o diyarda bütün taxtü-tac.
Heç insaf deyil ki, şığıyıb göydən,
Qartal qarışqadan alsın güclə dən.
Kim ki incitməyib acizi heç vaxt,
Yaşayar dünyada daima xoşbaxt.
Bir məzlum inləyib eyləsə nalə,
Zalımın həyatı gedər zəvalə.
Bacarsan, xoşluqla fəth elə ölkə,
Qan tökmə, adına gəlməsin ləkə.
Torpağa tökülən bircə damla qan
Bahadır dünyanın soltanlığından.

## BAĞDADDA YANĞIN

Od tutub ahından bir gecə xalqın,
Bağdad şəhərini sarmışdı yanğın.
Biri dedi: şükür, yaxşıdır halım,
Yanmayıb dükanım, sağ qalıb malım.
Bir arif söylədi: ey arsız insan,
Xalqı düşünmürsən, öz hayındasan!
Deyirsən od tutub yansın bir şəhər,
Mənim sarayıma dəyməsin zərər.
Aclar mədəsinə daş basan zaman,
Durub daş ürəkli baxar qıraqdan.
Udsa ürək qanı əli qabarlı,
Yağlı tikə uda bilərmi varlı?
Görsən, bir dərdlini sən ayaq üstə,
Demə ki, bədəni deyildir xəstə.
Dostlardan mənzilə tez çatan qoçaq
Dalda qalanları düşünər ancaq.
Görəndə palçığa batıb bir eşşək,
Şahların qəlbini dərd alsın gərək.
Səadət mülkündə olarsa hər kəs,
Sədinin bir sözü edər ona bəs.
Dinlə, bir nəsihət söyləyirəm mən—
Kim tikan əkibsə, dərməz yasəmən.

## KƏLLƏ VƏ ALİM

Deyirlər Dəclədə bir quru kəllə
Bir arif kişiyə söyləyib belə:
Mən də bir zamanlar hökmdar idim,
Ölkələr fəth edən tacdar idim.

Bəxtim kömək etdi, diz çökdü yağı,
Aldım qüdrətimlə bütün İraqı.
İstədim Kirmanı tutum sonra mən,
Əfsus kəlləm oldu qurdlara məskən.
Uyma gəl qəflətə qoca dünyada,
Ölən insanları sən gətir yada.

### ATA NƏSİHƏTİ

Biri övladına verdi nəsihət:
Ağıllı sözlərə eylə sən diqqət!
Gücsüz uşaqları incitmə, bala,
Sən də bir güclüdən çəkərsən bəla.
Olsan xalqa ziyan verən canavar,
Gün gələr səni də pələng parçalar.
Vardı uşaqlıqda qolumda qüvvət,
Acizlər çəkirdi məndən əziyyət.
Bir gün bir güclüdən yumruq yedim mən,
Bir də zəifləri incitmədim mən.

## İKİNCİ FƏSİL

## *SƏXAVƏT HAQQINDA*

### COMƏRD İNSAN HEKAYƏSİ

Bir comərd qocaya dedi bir nəfər:
Əngələ düşmüşəm, yamandır işlər.
On dirhəm borc aldım bir əclafdan mən,
İndi ağlım çaşıb tənələrindən.

Gecələr halımı edib pərişan,
İzləyir gündüzlər məni hər zaman.
Tikanlı sözündən yaradır könlüm,
Od vurulmuş kimi paradır könlüm.
Elə bil anadan o doğulan dəm,
Tanrı vermiş ona yalnız on dirhəm.
İnsanlıq dərsindən bir hərf də bilmir,
Sanki pul görməsə gözləri gülmür.
Günəş dağ başından hələ çıxmadan
Hər gün qapımızı döyür o nadan.
Bu daş ürəklinin əlindən, görən,
Tapılarmı məni xilas eyləyən?
Bu sözdən köyrəldi qəlbi olduqca,
Verdi on dirhəmi xeyirxah qoca.
Fırıldaqçı alıb qızılı həmən
İtdi qızıl kimi bir anda gözdən.
Qocaya bir nəfər dedi: bilirsən
O kimdir? Çıxarıb qızıl verirsən.
Elə kələkbazdır, fırıldaqçıdır,
Ölsə, ağlamasan ona yaxşıdır.
Elə hiyləgərdir görsə şiri-nər,
Min kələklə qoyar üstünə yəhər.
Əbu-Zeydə kələk gələr şahmatla,
Aldadar bir anda vəziri atla.
Qoca qəzəblənib ona dedi sus!
Dinməsən yaxşıdır sən, ey uğursuz.
Heç insaf deyil ki, dərdli bir insan,
Sənə boyun əysin, boş qaytarasan.
Əgər düz idisə dediyi sözlər,
Qoymadım abırı tökülsün hədər.

Əgər kələk gəlib mənə o nadan,
Yenə tutduğumdan deyiləm peşman
Hiylə ilə məndən o qızıl alıb.
Çox şükür üzümdə abırım qalıb.
Yaxşıya, yamana payla simü zər,
Sənə xeyir verər, şəri rədd edər.
Ağıllı insanla edəndə söhbət,
Çalış öyrənəsən yaxşı nəsihət.
Əgər dərin ağlın, huşun varsa, sən
Sədinin sözünə qiymət verərsən.
O çox vaxt danışır belə hallardan,
Bəhs etmir qaş-gözdən, qara xallardan.

## SƏXAVƏTLİ OĞUL

Tərk edib dünyanı getdi bir nəfər,
Oğluna irs qaldı yüz min dinar zər.
Etməyib sandıqda qızılı pünhan,
Geniş bir ürəklə xərclədi oğlan.
Qızıl toplamağa etmədi maraq
Gəlirdi evinə yoxsullar qonaq.
Süfrəsində olur çox qohum, çox yad,
Hamının qəlbini eyləyirdi şad.
Biri tənə ilə söylədi ona:
Külək tək sovurma pulu hər yana.
Bir ildə düzəlir böyük bir xərmən,
Ona bircə anda od vurursan sən.
Hər zaman əlində qalmaz bu nemət,
Vardır çox hikmətli doğru hekayət.
Bir zahid oğluna söyləyib: oğlum,

Comərd ol səfərdə, qurbanın olum.
Əlin açıq olsun, səxavət göstər,
Xərclə, sən hər yerdə kəramət göstər.
Uzağı görəndi ağıllı oğlan,
Hörmətlə zahidə deyib: ata can,
Cibini saxlasan əlin boş qalmaz.
Qənaət eyləsən varın azalmaz.
Qızına söyləyib kəndli bir qadın;
Çalış qara günçün məhsulun qalsın.
Kuzən boş olmasın gərək heç zaman,
Həmişə su axmaz kəndin arxından.
Şirin pəncəsini zərlə əzərsən,
Olar o dünyanı almaq zər versən.
Bir anda dostların xərcləyəndə zər,
Dəyər düşmənlərdən sənə çox zərər.
Varın olsa, dostlar qapını açar,
Olmasa, yar-yoldaş yanından qaçar.
Əlin boş olanda yüz qat əyilsən,
Yenə də heç kəsə gərək deyilsən.
Zər olsa cini də tora salarsan,
Divi kor eyləyib, satın alarsan.
Zərlə sevər səni bütün gözəllər,
Zərsiz qaçıb səndən kənar gəzərlər.
Əliboş ümidin tez çıxar boşa,
Zərlə döndərərsən ağ divi daşa.
Varını ovcuna qoysan bir anda,
Çətinlik çəkərsən cib boşalanda.
Yoxsullar səyinlə varlanmaz, ancaq
Düşüb yoxsulluğa qalarsan çılpaq.
Bu sözlər oğlanı yandırdı, yaxdı,

Başında elə bil ildırım çaxdı.
Dedi: gəl eyləmə mənə nəsihət,
Babamdan atama qaldı bu sərvət.
Atam da, babam da getdi həsrətlə,
Qaldım yerlərində mən bu sərvətlə.
Mən getsəm, oğluma çatacaq malım,
Xəsislik eyləyib neçin alçalım.
Verirəm xalqıma bu gün neməti,
Xəsis gizlətməsin sabah sərvəti.
Yaxşı ye, yaxşı gey, yaxşı bağışla,
Səni qarşılasın hamı alqışla.
Ağıllı həm yeyər, həm verər yada,
Həsrətlə can verər xəsis dünyada.

## SƏXAVƏTLİ YOXSUL

Biri xərcləyəndi, sərvəti yoxdu,
Kərəm sahibiydi, qüdrəti yoxdu.
Gərək səxavətli çəkməsin zillət,
Olmasın alçağın əlində sərvət.
Lakin mərd olanlar çatmır murada,
Yüksəlmir, alçalır daim dünyada.
Uca dağ başında sel tutmaz qərar,
Aşır qayalardan tökülür sular.
Odur ki, bu comərd kərəm sahibi
Olmamışdı dinar, dirhəm sahibi.
Çətinliyə düşüb, çəkib dərdi-sər,
Məktub göndərmişdi ona bir nəfər.
Məktubda yazırdı: ey comərd insan,
Pulçun olmuş yerim qaranlıq zindan.

Alicənab adam məktubu alır,
Bir az fikrə gedir, qanı qaralır.
Görür əli boşdur, çəkir qəm, kədər.
Dustağı tutana göndərir xəbər:
Tutduğun dustağı zindandan burax,
Mən zamin olaram düşməsin qaçaq.
Sonra tez o durub gəlir zindana,
Deyir: bu şəhərdən qaç get bir yana.
Əgər sərçə görsə açıqdır qəfəs,
Tez uçar, fürsəti əlindən verməz.
Dustaq külək kimi qaçır bir anda,
Çatmayır tozuna onun tufan da.
Kərəm sahibini tutub deyirlər:
Onu sən bu saat tapmasan əgər.
Pulu verməlisən, heç görən olmuş,
Qayıtsın qəfəsdən uçub qaçan quş?
Qaçan tapılmayır, bu comərd insan
Tutulub zindanda qalır bir zaman.
Olur gecə-gündüz həyatı bərbad,
Nə şikayət edir, nə də ki fəryad.
Bir ağıllı onu görüb deyir: sən
Neçin tutulmusan? Oğru deyilsən.
O deyir: əyrilik bilmərəm əsla,
Bir yazıq insançın çəkirəm bəla.
Kömək edib zamin dayandım ona,
Düşdüm əvəzində qara zindana.
O kərəm sahibi ölürsə, ancaq
Onun yaxşı adı daim qalacaq.
Əgər sağ insanın ölübsə qəlbi,
Yaşayır o canlı bir məzar kimi.
Qəlbi diri olsun insanın gərək,
Can nəyə lazımdır olmasa ürək.

## YAXŞILIĞIN SONU

Bir gənc bir qocaya hörmət etmişdi,
Kərəm göstəmişdi, xidmət etmişdi.
Bir gün bədbəxtliyə düşdü bu cavan,
Onu öldürməyə göndərdi soltan.
Yığışıb hər yandan gəldi adamlar,
Doldu başdan-başa küçələr, damlar.
Qoca gördü o gənc olubdur əsir,
Başının üstünü cəlladlar kəsir.
Alicənab şəxsə ürəyi yandı,
Çünki ona hörmət edən cavandı.
Şivən qopardı ki, heyf, öldü soltan,
Qaldı hökumətsiz, hakimsiz cahan.
Qılınc çəkmiş türklər bunu eşitdi,
Şahın ölümünə təəssüf etdi.
Hamının göylərə qalxdı fəryadı,
Vurub üz-gözünə onlar ağladı.
Başlarında alov, dillərində ah,
Gəldilər, gördülər səlamətdir şah.
Aradan çıxartdı bu gənci tədbir,
Ağıllı qocanı tutdular əsir.
Qəzəblə şah dedi: söylə görüm sən
Ölüm diləmisən mənimçin nədən?
Qoca cavab verdi: soltan sağ olsun!
Sənin hikmətinlə bu cahan dolsun.
Mən yalandan dedim ölüb hökmran,
Ölümdən qurtuldu bir yazıq insan.
Bu sözlər soltanın xoşuna gəldi,
Qocaya dinmədi, qəlbi köyrəldi.

Üz qoydu qaçmağa o yazıq cavan,
İstədi ölümdən o qurtarsın can.
Biri dedi: kimsə əcəldən qaçmaz,
Ölümdən kim səni eyləyib xilas?
Cavan bu adama söylədi ki, mən
Qurtarmışdım yazıq qocanı dərddən.
Çətinlikdə tutdu o da əlimdən,
Odur xilas oldum vaxtsız ölümdən.
Toxumu insanlar səpir torpağa,
Bir gün o torpaqdan məhsul yığmağa.
Sən eşitməmisən bu sözü yoxsa:
Bir divi öldürüb kiçik bir əsa.
Bu bir hədisdir ki, deyib Mustafa:
Bəxşiş dəf eyləyir insandan bəla.

## ARILAR

Zəhərli arılar evə dolmuşdu,
Bu işdən kişi çox qəmgin olmuşdu.
Arvad dedi: kişi, gəl toxunma sən,
Arılar bu evi edibdir məskən.
Kişi çıxıb getdi, arılar birdən,
Axışıb arvadı sancdı yer-yerdən.
Arvad dama çıxıb eylədi fəryad,
Qışqırıb ərindən istədi imdad.
Kişi dedi: arvad, eyləmə nalə,
Sən saldın özünü bu ağır halə.
Səndən bir yaxşılıq görsə də alçaq,
Sənə yamanlığı artırar ancaq.
Sən xalqı incidən bir zalım görsən,

Vur qılıncla, düşsün başı bədəndən.
Döyüş vaxtı əsgər neyi neyləyər,
Bir nizə min neyə olar bərabər.
Bu məsəl çox gözəl deyilib bişək:
Təpik vuran ata ağır yük gərək.
İt nədir ki, ona açasan süfrə,
Köpəkçin bir parça sümük at yerə.
Pişiyə xoş baxsan, göyərçin qapar,
Canavar bəsləsən, Yusifi yırtar.
Yaxşılıq eyləsə gözətçi heç kəs
Oğrunun əlindən rahatlıq görməz.
Yaxşı layiq olar mala, hörmətə,
Yaman düşməlidir dərdə, zillətə.
Əgər bir binada olmasa əsas,
Göyə yüksəlsə də faydası olmaz.

## TƏMSİL

Yaxşı söyləmişdir Bəhram hökmran,
Səhrada dəyəndə yerə atından:
Əmrimdə olmadı mənim bu köhlən,
Sürüdən başqa at tutmalıyam mən.
Dəclə sakit ikən bağla səddini,
Coşanda azmasın o öz həddini.
Kəməndinə düşdü qurd, vermə aman,
Öldür azad olsun sürün qorxudan.
Gözləmə səcdəni azğın iblisdən,
Yaxşılıq gözləmə heç zaman pisdən.
Saxla düşmənini sən əndişədə,
Olsun divin yeri gərək şişədə.

İlana rast gəlsən, axtarma ağac,
Başını daşla əz, tapmasın əlac.
Qələm əhli bədxah olursa əgər,
Qələm deyil, tutur əlində xəncər.
Qanunsuz iş görür əgər bir vəzir,
Səni oda salır tökdüyü tədbir.
Demə belə vəzir ölkəmə bəsdir,
Sarayda saxlamaq onu əbəsdir.
Sədinin sözünə eyləsən əməl,
Şahlığında olar möhkəm bir təməl.

# ÜÇÜNCÜ FƏSİL

# *EŞQ HAQQINDA*

## SƏMƏRQƏND GÖZƏLİ

Vardı Səmərqənddə incə bir dilbər,
Dodaqları baldı, sözləri şəkər.
Günəşə bənzərdi o sahibcamal,
Hüsnü gətirərdi dinə min zaval.
Dünya yaranandan belə bir afət
Hələ görməmişdi heç yerdə xilqət.
Yol gedəndə hamı ona baxırdı,
Eşqi könülləri oda yaxırdı.
Onu bir aşiqi izləyən zaman,
Acıqlı baxaraq dedi o canan:
Ey azğın, mən sənə vurulmuşammı?
Ya sənin toruna düşən quşammı?

Geri dön, sən məni izləsən əgər,
Xəncərimlə qanın tökülər hədər.
Birisi söylədi: o qızdan əl çək,
Get axtar özünə başqa bir çiçək.
Sanmıram çatasan bir gün murada,
Qanın itib gedər sənin arada.
Sədaqətli aşiq düşüb məlalə,
Qopardı ürəkdən yanıqlı nalə.
Dedi: yar qılıncı məni məhv etsin,
Al qanım qoy axıb torpağa getsin.
Düşmənin yanında deyilsin barı,
Bunu öz əliylə öldürüb yarı.
Abırım getsə də, öz sevdiyimdən
Ayrıla bilmərəm bir dəqiqə mən.
Mənə söyləmə ki, sevməkdən çəkin,
Gəl özün bu sözü deməkdən çəkin.
Qanımı töksə də dilbər sevgilim,
Yenə razı qalar, inan ki, qəlbim.
Yandırsa atəşdə gecələr məni,
Xoş ətri dirildər hər səhər məni.
Sevgi meydanında duran qoçaqdır,
Sədi eşq yolunda ölsə də sağdır.

## MƏHƏBBƏT

Xoşdur məhəbbətin sevinci, qəmi,
Xoşdur yaraları, xoşdur məlhəmi.
Sevənlər istəməz şahlıq, səltənət,
Səbirlə, ümidlə yaşayar fəqət.
Eşqi badəsinə kim verib könül,

Acılıq duysa da edib təhəmmül.
Aşiqlərə meyin xumarı xoşdur.
Gülzarın həm gülü, həm xarı xoşdur.
Dost yolunda səbir sanma zəhərdir,
Dostun zəhəri də dosta şəkərdir.
Eşqin sərxoşunu qorxutmaz kədər,
Dəvə məst olanda yaxşı yük çəkər.
Aşiqə xoş olur düşsə də bəndə,
Qorxmaz bağlansa da aşiq kəməndə.
Sevər tənhalığı eşqin soltanı,
Ona xoş görünər eşqin hər anı.
Dirilik suyudur sevgi zülmətdə,
Böyük müəmmalar var məhəbbətdə.
Beytülmüqəddəsə bənzəyir aşiq,
Xaraba olsa da saçır nur, işıq.
Aşiqlər bənzəməz ipək qurduna,
Yanar pərvanətək eşqin oduna.
Aşiqin yanında olsa dilaram
Yanar susuzluqdan qəlb, olmaz aram.
Susuzluq aşiqin deyil nisgili,
Sönməz eşq yanğısı axıtsan Nili.
Torpaqdan yaranmış incə bir sənəm,
Alır aramını, verir qüssə, qəm.
Oyaqlıqda salır fitnələr xalı,
Yuxuda incidir səni xəyalı.
Hörmətlə öpürsən ayaqlarından,
Yarsız heç görünər gözündə cahan.
Sevgilin edəndə qızıldan həzər,
Sənin nəzərində torpaq olar zər.
Canansız qəlbini sənin heç bir kəs

Oxşayıb bir an da ovuda bilməz.
Gözündür mənzili sevimli yarın,
Göz yumsan, qəlbində olur dildarın.
Aşiqsən, qorxmazsan rüsva olmaqdan,
Cananın yolunda fəda olmaqdan.
Cananı verərsən istəsə canan,
Çəksə qılıncını, keçərsən başdan,
Eşqin binası ki, belə havadır,
Fitnələr saçandır, fərmanrəvadır.
Həqiqi aşiqlər eşqin bəhrində,
Tufanlar qopsa da, üzər dərində.
Aşiqi məst edir eşqin naləsi,
Aşiqçin bir heçdir aləmin səsi.
Canan olan yerdə nəyə lazım can,
Cananla xoş olur aşiqə cahan.
Təbiblər acizdir eşq əlacından,
Aşiqin dərdinə tapılmaz dərman.
Aşiq həqiqətə haqqa tez qoşar,
Eşqin şərabilə məst olub yaşar.
Əzəldən, Ələstdən bir səs yüksəlir,
Eşqin fəryadıdır hər zaman gəlir.
Aşiqə tənhalıq olur daim xoş,
Ayağı torpaqdır, ürəyi atəş.
Aşiq nərə çəksə, yerdən qopar dağ,
Naləsindən olar şəhərlər torpaq.
Aşiq gah daş kimi eyləyir sükut,
Gah dönür küləyə, gah olur bulud.
Səhərlər yaş axır onun gözündən,
Sanki sellər axır gedir üzündən.
Eşq yolunda çapır gecə atını,

Məhəbbətdən alır qol-qanadını.
Sevəni cəzb edir sevdiyi nigar,
Oxşamaz qəlbini başqa bir dildar.
Gecəsi gündüzdür, gündüzü gecə
Məhəbbət odunun sanır əyləncə.
Aşiqlər unudur iki dünyanı,
Aşiqin sevdiyi canandır canı.

## HƏQİQİ AŞİQ

Xatirimdədir ki, bir cavan oğlan
Səhraya qaçmışdı halı pərişan.
Hicrindən atası düşmüşdü dərdə,
Yuxusuz qalırdı il gecələr də.
Etdilər oğlana dostlar məzəmmət,
Dedi: eyləməyin siz mənə töhmət.
Yar çağırdı, oldu məskənim səhra,
Olmaram heç kəsə daha aşina.
Həqqin camalını görəndən bəri
Bir xəyal sanıram bütün göyləri.
Pərişan aşiqçin bir olur fələk,
Ya div bil aşiqi, ya dilbər mələk.
Sevənlər eşqdə olur pəri tək,
Lakin vəhşi kimi həyat sürür tək.
Olur əli gödək, qolu qüvvətli,
Özü sərxoş olur, sözü hikmətli.
Bəzən bir guşədə tənha dolanır,
Bəzən bir məclisdə odlanıb yanır.
Nə qorxur kimsədən, nə sevda bilir,
Həyat aləmini o, röya bilir.

Olur ağlı-huşu çox pərakəndə,
Dinləmir nəsihət, töhmət edəndə.
Ördəklər batarmı dəryada məgər?
Yananda qorxarmı oddan səməndər?
Aşiqdə çox olur səbr, hövsələ,
Gəzir səhraları o, mətanətlə.
Yayınır hər zaman xalqın gözündən,
Danışmaq istəmir əsla özündən.
Meyvəli bir bağdır gətirir çox bar,
Həyat aləmində deyil günahkar.
Aşiqdir sədəfdə pünhan mirvarı,
Coşmayır dərya tək gur dalğaları.
Xoşbəxtsən qaçma, ol aşiqə həmdəm,
Aşiq div cildində deyildir adəm.
İnsanlıq deyildir sümüklə, ətlə,
İnsan gözəl olmaz gözəl surətlə.
Aşiq bir soltandır çox qüdrəti var,
Olmaz hər kənizə, qula xiridar.
Şehin hər damlası olsaydı gövhər,
İncidə, gövhərdə olmazdı dəyər.
Aşiqçin ən uca dağlar pəst olur,
Bir damla şərabla aşiq məst olur.
Qorxmaz eşq yolunda kəskin qılıncdan,
Aşiq haqdan dönüb qaçmaz bircə an.

## MƏCNUNUN SÖZLƏRİ

Bir nəfər Məcnuna dedi: neçin sən
Leylinin kuyuna daha gəlmirsən?
Sənə yad kimidir nazənin Leylin.

Yoxsa sevgilinə qalmayıb meylin?
Bu sözdən ağlayıb Məcnun inlədi:
Ey xacə, yaxamdan əl götür, dedi.
Yaralı könlümü çəkiblər dara,
Yaramın üstündən gəl vurma yara.
Sanma ki, uzaqlıq səbrdən olur,
Elə uzaqlıq var cəbrdən olur.
Dedi müsahibi: ey vəfalı yar,
Leyliyə bəlkə bir sifarişin var?
Məcnun söylədi ki, dost olan yerdə,
Gəl mənim adımı sən çəkmə bir də.

## PƏRVANƏNİN EŞQİ

Biri pərvanəyə söylədi ki, sən
Halına münasib yar sevməlisən.
Gəl salma özünü çətin yollara,
Şamın eşqi hara, yazıq sən hara.
Səməndər deyilsən, atəşə girmə,
İgidliyin yoxdur döyüşə girmə.
Günəş görsə qaçar yarasa, durmaz;
Ağıllı özündən güclünü vurmaz.
Ağıllı düşməni sevməz heç zaman,
Dost olmaz düşmənlə ariflər, inan.
Əgər canın yanıb gedirsə hədər,
Kim deyər yaxşıdır tutduğun işlər?
Şahdan qız istəsə əgər bir gəda,
Döyülüb qovular, baş tutmaz sövda.
Şahlar məclisini bəzəyən nigar
Sənə vurularmı, olarmı dildar?

Sanma ki, şam gəlib belə məclisə
Uyar sənin kimi yazıq müflisə.
Bütün məclisləri işıqlandırar,
Zavallı, o səni odda yandırar.
Yanıqlı pərvanə cavab verdi: mən
Qorxmuram yanmaqdan, oddan, atəşdən.
Qəlbimdə Xəlil tək bir atəşim var.
Bu alov görünür gözümə gülzar.
Sanma ətəyini çəkir cananın,
Sevgisi ayrılmaz qəlbidir canın.
Sanma öz rəyimlə girərəm oda,
Eşqin zənciridir mənim boynumda.
Sanma yalnız indi alovlanmışam,
Oddan uzaqda da oda yanmışam.
Sevgili aşiqə eyləyəndə naz,
Aşiq zahidlərin sözünə uymaz.
Dostun ayaqları altında ölsəm,
Bunu eyib sanar hansı bir sərsəm?
Cananın yolunda getsə də canım,
Var olsun qoy mənim dilbər cananım.
Əgər yanmağımdan xoşlanırsa yar,
Qoy məni yandırıb kül etsin odlar.
Demə ki, özünə bir həmdərd ara,
Könül vurulmuşdur sevdiyim yara.
Bu ona bənzər ki, əqrəb sancana
Desinlər inləyib düşmə həycana.
Hər kəsə nəsihət əsər eyləməz,
Ona dil tökmək də əbəsdir, əbəs.
Cilovu əlindən gedən yazığa,
Demə asta yeri, batarsan zığa.

Bu söz Sindibadda deyilib gerçək,
Ki, sevgi atəşdir, həvəs bir külək.
Küləkdən atəşin qüvvəti artar,
Pələngi vurarsan, hiddəti artar.
Özgəyə yamanlıq eyləsən əgər,
Axırda sən özün çəkərsən zərər.
Çalış sən özündən gözəl yar axtar,
Özün tək insanla sürmə ruzigar.
Xudpəsənd yar tapar özünə bənzər,
Xətərli yerlərdə sərxoşlar gəzər.
Sevda yollarına düşdüyüm andan,
Əl çəkdim dünyada mən başdan, candan
Həqiqi aşiqsən sən, başından keç,
Başından keçməyən aşiq deyil heç.
İndi ki üstünü alacaq əcəl,
Qoy səni öldürsün sevdiyin gözəl.
Madam ki dünyada ölür hər insan,
Qoy səni öldürsün nazlı bir canan.
Madam bir gün sənin çıxacaq canın,
Ayağı altında çıxsın cananın.

## ŞAM VƏ PƏRVANƏ

Yuxu gözlərimdən çəkildi axşam,
Eşitdim pərvanə dedi ki, ey şam,
Mən aşiqəm, yansam əgər rəvadır,
Sənin yanmağında nə məna vardır?
Şam ona söylədi: ey havadarım!
Əlimdən getmişdir sevimli yarım.
Bal kimi o şirin yarım gedəndə

Fərhad tək yanaram odlara mən də.
Şamın sellər kimi daşqındı dərdi,
Göz yaşı üzündən axıb gedərdi.
Deyirdi: baxma ki, nur saçıram mən,
Görə necə yaş axıb gedir gözümdən.
Hünərin deyildir sənin məhəbbət,
Səndə nə səbir var, nə də ki, cürət.
Sənin bir qanadın od tutur ancaq,
Mən başdan-ayağa odlanmışam, bax.
Sən kiçik şölədən qaçırsan axşam,
Mənsə dayanmışam, yanıram tamam.
Gecə keçmişdi ki, bax, birdən-birə,
Söndürdü şamı da bir pəriçöhrə.
Şam başı tüstülü, kədəri daşqın,
Deyirdi: bax, sonu belədir eşqin.
Aşiqlik istəsən əgər sən, odlan!
Məhv ol, eşq odunda axıradək yan.
Aşiqin qəbrində ağlamaq boşdur,
Şadlıq et ki, ölüm aşiqə xoşdur.
Həqiqi aşiqsən olma mərəzsiz,
Yaşa Sədi kimi kinsiz, qərəzsiz.
Başına od yağsa hər yandan əgər,
Çəkinməz meydandan yenə igidlər.
Çəkinsin, girməsin dənizə insan,
Girdi, qorxutmasın gözünü tufan.

# DÖRDÜNCÜ FƏSİL
## *TƏVAZÖ VƏ SADƏLİK HAQQINDA*

### YOXSUL FƏQİH

Köhnə paltar geymiş fəqih deyirlər,
Qazının evinə gəldi bir səhər.
Keçdi yuxarıda əyləşdi… Qazı
Onun bu halından oldu narazı.
Müərrif yapışıb ətələrindən,
Danlayıb kişini ona dedi: sən
Bilmirsən yuxarı deyildir yerin?
Axı yoxdur sənin qiymətin, qədrin.
Ya keç aşağıya, ya çıx get burdan,
Yeri rütbəsilə tutur hər insan.
Mənim sözlərimə daha nə hacət,
Yerini bilməyən çəkər xəcalət.
Mövqeyini bilib anlarsa hər kəs,
Xar olub yüksəkdən aşağı enməz.
Pəncən yoxdur sanma özünü aslan,
Böyüklük hər kəsçin deyildir asan.
Yoxsul arif gördü iş düşüb ləngə,
Taleyi girişib onunla cəngə.
Gözündən od çıxdı, başından tüstü,
Aşağı tərəfə keçdi əlüstü.
Məclisdə fəqihlər girişdi bəhsə,
Gurultu qoparıb verdi səs-səsə.
Fitnə qapısını açıb yer-yerdən,
Qarışıqlıq düşdü araya birdən.
Cəngi xoruz kimi hamı vuruşdu,

Qışqırıb hiddətlə qabardı, coşdu.
Biri sərxoş kimi qəzəblənirdi,
Biri göyə qalxıb yerə enirdi.
İşə salmışdılar elə bir düyün,
Onu həll eyləmək deyildi mümkün.
Köhnə paltar yoxsul aşağı başdan,
Şir kimi meydana atıldı o an.
Dedi: ey qanun və şəriət əhli!
Davadan iş çıxmaz, buraxın cəhli.
Dəlildə, sübutda olur güc, qüvvət,
Qanun olan yerdə iş görməz hiddət.
Bilin ki, məndə də var topla çövkan.
Dedilər: çıx danış, bu sən, bu meydan.
Qabağa yeriyib arif təmkinlə,
Danışıb qəlbləri aldı o, ələ.
Oldu sübutları o qədər möhkəm.
Bütün davalara çəkildi qələm.
Hər yandan dedilər ona: afərin!
Doğrudan da varmış böyük hünərin.
Arif söz atını elə oynatdı,
Qazı eşşək kimi palçığa batdı.
Sarığı göndərdi ona hörmətlə,
Mərhəmət göstərib, dedi şəfqətlə:
Bağışla, bilmədim mən hünərini.
Aşağıda sandım sənin yerini.
Varkən səndə belə bilik, mərifət,
Yerin yuxarıda olmalı, əlbət.
Müərrif sarığı ona verəndə,
Arif işarəylə söylədi: məndə
Olmayıbdır əsla təkəbbür, qürur,

Sarığı başıma qoyma, kənar dur.
Görsə yoxsul dostlar sarıq başımda,
Azad nəfəs ala bilməz qarşımda.
Məni rəhbər bilib etsələr hörmət,
Yoxsullar görərlər məndən həqarət,
Zərdən ya palçıqdan düzəlsin kuzə -
Bulağın suyu bir görünər bizə.
Ağıl deyil zərli sarığa bağlı,
Kişinin başında olmalı ağlı.
Başdan böyüksə də küdü, balqabaq,
Başlarında beyin yoxdur heç ancaq.
Öyünmə sarıqla, saqqalınla sən,
Sarıq pambıqdandır, saqqalsa tükdən.
İnsana insanlıq verməyir camal,
Büt gözəl görünür, ancaq olur lal.
İnsanın ölçülür yeri hünərlə
Ucalıb nəhs olma, dönmə zühələ.
Həsirin qəmişi ucasa əgər
Daha faydalıdır ondan neyşəkər.
Ardınca yüz kölə getsə də, yenə
Ağlın yoxsa, böyük deməzlər sənə.
Bir dəyərsiz muncuq batmışdı gilə,
Dedi onu inci sayan cahilə:
İpəyə sarıyıb eyləmə zərli,
Məni səndən heç kəs almaz, ay dəli.
Ələfin yanında olsa yüz çiçək,
Yenə ələfliyi qalacaq, gerçək.
Varlı varla yaxşı görünməz, bişək,
Çulu atlas olsa eşşəkdir, eşşək.
Arif kişi dedi öz bildiyini,
Yudu söz suyuyla qəlbindən kini.

Qəlbi inciyənin sözü olur bərk,
Sarsılan düşməni vurasan gərək.
Düşmənin beynini əz fürsət varkən,
Aparar qubarı fürsət ürəkdən.
Qazı bu sözlərin oldu əsiri,
Gözünü yaşartdı böyük təqsiri.
İliyinə qədər bu söz işlədi,
Əlinin dalını möhkəm dişlədi.
Yoxsul arif çıxıb getdi otaqdan,
Gəzdi, kimsə ondan tapmadı nişan.
Böyüklər çəkdilər ucadan nərə;
Kafir göyə uçdu, batdımı yerə?
Nəqib soraqlaşıb qaçdı hər yana,
Dedi, kim rast gəlib belə insana.
Dedilər: elə şəxs bizim şəhərdə,
Sədidir, yazdığı bütün sözlərdə
Vardır şirinliklə acı həqiqət,
Ona min afərin, ona min hörmət.

## ARİF VƏ SƏRXOŞ

Belə söyləyirlər, sərxoş bir nadan
Tutub bir arifin arxalığından,
Onu yaxalayıb möhkəm vururdu,
Arif dinməyirdi, sakit dururdu.
Yaxınlaşıb ona dedi bir nəfər:
Səndə heç kişilik yoxmudur məgər?
Yumruqla cavab ver sən də azğına,
Xoş xislətli arif söylədi ona:
Qızğın arslan kimi sərxoşla heç kəs
Əlbəyaxa olub vuruşa girməz.

## HATƏM HAQQINDA HEKAYƏ

Belə söyləyirlər ki, Hatəm kardı,
Sanma bu sözlərdə həqiqət vardı.
Vızıltı qoparıb milçək ilişdi,
Bir səhər hörümçək toruna düşdü.
Pusquda durmuşdu sakit hörümçək,
Toru qənd düşünüb gəlmişdi milçək.
Hatəm baxıb ona dedi: tamahkar!
Sanma ki, hər yerdə şəkər var, qənd var
Axmaqlar aldanar şirniyə, qəndə,
Görməz toru, gedib düşər kəməndə.
Biri söylədi: ey haqq sevən insan!
Belə eşitmişdim, guya sən karsan.
Duydun bir milçəyin səsini belə,
Bizim hamımızdan daha diqqətlə.
Kiçik vızıltıdan oldun xəbərdar,
Sənə bundan sonra deyilərmi kar?
Hatəm gülüb dedi: əzizim, məncə,
Kar ol, qulaq asma ancaq bivecə.
Özümü karlığa vurmasaydım mən,
Xəbərdar olmazdım əsla eybimdən.
Evimdə kim olsa mənə həmsöhbət,
Məni kar biləndə itməz həqiqət.
Bütün nöqsanımı deyər, çəkinməz,
Kar olmasam yaltaq eybimi deməz.
Bilsəm xislətimdə var hansı nöqsan,
Dərk edib düzəldə bilərəm asan.
Pis söz dinləyəndə edərəm həzər,
Nadan məclisinə etmərəm güzər.
Hatəm kimi kar ol yaltağa uyma,
Nalayiq sözləri dərk edib duyma.

## LOĞMAN HAQQINDA HEKAYƏT

Deyirlər ki, Loğman qara sifətdi,
Kobud görünürdü, zahiri bəddi.
Biri öz köləsi sanıb Loğmanı,
Tutub işə salır arif insanı.
Loğman çox əziyyət, çox zəhmət çəkir,
Bir ildə kişiyçin bir saray tikir.
Hardansa kişinin tapılır qulu,
Tutduğu iş ona gəlir qorxulu.
Yalvarır, yaxarır kişi Loğmana.
Loğman gülümsəyib söyləyir ona:
Bir il ürəyimi eyləmisən qan,
Bir saatda necə çıxarım yaddan?
Fəqət təqsirindən keçirəm yenə,
Xeyr işindən zərər gəlməyib mənə.
Sənincin zəhmətlə saray yaratdım,
Hikmətdə özüm də yüksəldim, artdım.
Mənim bir köləm var, ona bu gündən,
Daha çətin işlər gördürmərəm mən.
Çəkdiyim zəhməti salaram yada,
Onun həyatını vermərəm bada.
Əziyyət çəkməsə böyükçün hər kəs,
Yanmaz zəiflərçin, o qədir bilməz.
İnciyən güclünün ağır sözündən,
İncitməz zəifi heç vaxt özündən.

## HƏQİQİ AŞİQ

Bir nəfər Sədi tək ürəyi sadə
Verib bir gözəlçin könlünü badə.

Düşməndən cəfalar görürdü hər an,
Kötəkdən olsa da onun bağrı qan.
Acıqlanmayırdı bu işdən ancaq,
Kimsə görməyirdi onda qaşqabaq.
Dedilər ki, arın yoxmudur məgər,
Susursan dəydikcə sənə kötəklər?
Düşmən zərbəsinə miskinlər dözər,
Əlini canından acizlər üzər.
Aşiq cavab verdi elə sözlərlə,
O sözlər layiqdir yazılsın zərlə:
Könlümün mülkünü tutmuş məhəbbət,
Orda yuva sala bilməz ədavət.

# BEŞİNCİ FƏSİL
# *TƏSLİM VƏ İTAƏT HAQQINDA*

## ƏRDƏBİLLİ PƏHLƏVAN

Bir dəmir pəncəli gənc Ərdəbildə
Hədəfi deşməklə məşhurdu eldə.
Bəhrami-Gur kimi kəmənd atardı,
Bir dağ keçisini dərhal tutardı.
Bir keçə geyimli meydana gəldi,
Onun qarşısında cövlana gəldi.
Ərdəbilli gördü o pəhləvanı,
Ox alıb, tərkindən çəkdi kamanı.
Keçə geyimliyə əlli ox atdı,
Oxların hamısı hədəfə çatdı.
Biri də deşmədi keçəni ancaq,

O keçə geyimli tərpənib qıvraq,
Ansızın əl atdı uzun kəməndə,
Saldı ərdəbilli igidi bəndə.
Birbaş ordugaha gətirib onu,
Əlini bağlayıb əydi boynunu.
Ərdəbilli gecə yatmadı bir an,
Səhər bir gözətçi dedi: pəhləvan,
Oxun dəmir deşər, bunda nə sirr var,
Keçə geyimliyə oldun giriftar?
İgid ağlayaraq dedi: heç bir kəs
Əcəlin əlindən qurtara bilməz.
Bir pəhləvandım ki, girəndə hərbə
Zal oğlu Rüstəmə vurardım zərbə.
Bəxtimin gücüylə fili yıxardım,
Bütün döyüşlərdən qalib çıxardım.
Parlaq bəxtim oldu qaranlıq gecə,
Döndü dəmir oldu adi bir keçə.
Əcəl çatsa, deşər nizə cövşəni,
Çatmasa, bir köynək qoruyar səni.
Əcəl qılıncını siyirən zaman,
Cövşən geyinsə də çılpaqdır insan.
Bəxtiyar bir adam olsa da çılpaq,
Onun bədəninə işləməz bıçaq.
Əcəli çatmasa, məhv olmaz nadan,
Arif də qurtarmaz əcəl oxundan.

### XƏSTƏ VƏ HƏKİM

Bir kürd xəstələnib yatmadı gecə;
Həkim baxıb ona söylədi: məncə
Çox meynə yarpağı yeyibdir kişi,
Bu gecə, yəqin ki, bitəcək işi.
Dəysə bir sinəyə iti ox əgər,
Deyil pis yeməkdən mədəyçin betər.
Pis yemək ağrıdıb pozar mədəni,
Xəstəlik illərcə incidər səni.
Həkim həmən gecə dünyadan getdi,
O xəstə sağalıb qırx il ömr etdi.

## ALTINCI FƏSİL
## *QƏNAƏT HAQQINDA*

### QARINQULU HAQQINDA HEKAYƏ

Bu xurmadan şirin hekayəti mən
Ərməğan gətirdim sizə Bəsrədən.
Bir dəfə Bəsrədə olduğum zaman,
Dostlarla keçirdik bir xurmalıqdan.
Yolçular içində bir nəfər vardı,
Çox yeyəndi, sanki qarnı anbardı.
Xurma ağacını görüb dırmaşdı,
Birdən budaq sındı, ağacdan aşdı.
Çıxdı bircə anda bədəndən canı,
Kəndxuda görüncə artdı heycanı.
Dedi: bu kişini kimdir öldürən?
Dedim ki, danışma çox qəzəblə sən,
Qarnıdır ömrünü verən zavalə,

Qarınqululuqdan düşüb bu halə.
Hər xurma ağacdan dərilməz asan,
Bəzən xurma üçün məhv olar insan.
Qarın bir zəncirdir bağlayar qolu,
Olmaz qarınqulu allahın qulu.
Qarışqa əməkdən alır çox ləzzət,
Çox yeyən çəyirtkə çəkməyir zəhmət.
Qəlbini pak elə dünyada ancaq,
İnsanın gözünü doydurar torpaq.

## ŞƏKƏR SATAN

Bir dəfə bazarda dayanıb səhər,
Tabaqda satırmış bir ney-şəkər.
Deyir bir arifə: gəl nisyə al sən,
Əlinə düşəndə pulu verərsən.
Arif verir ona gözəl bir cavab:
Mən şəkər yeməsəm çəkmərəm əzab,
Lakin sən borcunu istəyən zaman,
Ürəyim sıxılar iztirabımdan.
Ağıllı istəməz elə qənd, şəkər
Ki, olsun axırda onunçun zəhər.

## AĞILLININ TİKDİYİ EV

Tikdi bir ağıllı kiçik bir bina,
Bir nəfər yanaşıb söylədi ona:
Madamki əlində imkan var, nədən
Özünçün gözəl bir saray tikmirsən?
Dedi: çox yüksəlmək boşdur, əbəsdir,

Mənə yaşamaqçın bu ev də bəsdir.
Çayların, sellərin coşqun çağında,
Ağıllı ev tikməz yol qırağında.
Yüksək kaşanələr, uca qəsrlər
Yıxıb dağıtmışdır uzun əsrlər.

# YEDDİNCİ FƏSİL
# *TƏRBİYƏ HAQQINDA*

## İBRƏTLİ SÖZLƏR

Dağ ətəyi kimi əyilsən yerə,
Başın əzəmətlə qalxar göylərə.
Salasan dilini, ey arif insan,
Sən əziyyət çəkib görməzsən ziyan.
Arif sədəf kimi gec ağız açar,
Ancaq danışanda incilər saçar.
Uzun söz qulağa verər əziyyət,
Zəhləni aparar uzun nəsihət.
Bir an dayanmadan danışsa hər kəs,
Kimsənin sözünü eşidə bilməz.
Hərzəkar, boşboğaz hazırcavabdan
Yaxşıdır düşünüb danışan insan.
Sözü düşünməmiş söhbətə keçmə,
Yüz dəfə ölçməsən, bir dəfə biçmə.
Arpa boyda kiçik bir müşkü ənbər,
Yüz ətirsiz gülə olar bərabər.
Az danışan adam xəcalət çəkməz,
Peşimanlıq görüb, nədamət çəkməz.

Arif ol, söhbəti müxtəsər eylə,
Uzun danışandan qaç, həzər eylə.
Yüz əyri ox atsan olmaz dəyəri,
Bir ox at – hədəfdən getməsin əyri.
Gizlində bir elə söz danışma sən,
Bir gün qızararsan xəcalətindən.
Dörd divar içində eyləsən qeybət,
Sözünü eşidən tapılar əlbət.
Bir şəhər kimidir – sirr saxlar ürək,
Darvazası açıq olmasın gərək.
Ağıllı dilini saxlar dünyada,
Şam dilindən yanar, sovrular bada.

## ACIDİLLİ OLMAĞIN ZƏRƏRİ

Biri söyüş söydü dava zamanı,
Onu bərk döydülər, göyərdi canı.
Paltarı cırıldı, qaldı lüt-üryan,
Bir ağıllı dedi: ey xudbin insan!
Ağzını yumsaydın əgər qönçə tək,
Sinən yırtılmazdı, yeməzdin kötək.
Tənbur beyinsizdir, danışır hədyan,
Rahatlıq verməyir kimsəyə bir an.
Olmasaydı əgər alovun dili,
Onu söndürməzdi suların əli.
Hünər sahibini göstərir hünər,
Hünərdir gün kimi parlaq bir gövhər.
Xalis müşkün varsa, tərif etmə sən,
Dəyəri bilinir müşkün ətrindən.
Zərgərlər yanında boşdur and içmək,

Zərin saflığını göstərər məhək.
Min böhtan yağdırıb əbləhlər dedi:
Söz duyan əhl adam deyildir Sədi.
Kürküm də soyulsun əynimdən mənim,
Lakin boş sözlərdən getməsin beynim.

## TƏSİRSİZ NƏSİHƏT

Huş əhli sözümə yetirsə diqqət,
Ona xoş görünər etdiyim söhbət.
Bir gün vida edib Beytülhəramə,
Səfərə çıxmışdım Darüssəlamə.
Bir gecə mən yalnız qaldığım zaman,
Gözümə sataşdı bir qara insan.
Alıb ağuşuna ay üzlü canan,
Gördüm, dodağını dişləyir nadan.
Sanki o ifritdi, qadınsa Bilqis,
Sanki bir mələyi qucmuşdu İblis.
Örtüb ağ ipəyi qara bir keçə,
Sanki birləşmişdi gündüzlə gecə.
Yanıb füzulluqdan od tutdu ürək,
Dedim ki, bunları ayıram gərək.
Döydüm o ifriti qızı buraxsın,
Gün çıxsın buluddan, işığı axsın.
Çəkildi gülşənin üstündən duman,
Yumurta qarğanın çıxdı altından.
İfrit qorxusundan qaçdı tez geri,
Lənətlər yağdırdı mənə o pəri.
Dedi: ey nanəcib, riyakar insan!
Ey dünyaya uyan gözü dar insan!

İllərdi, könlümü vermişdim əldən,
Can tək sevib ona vurulmuşdum mən.
İndi bişirmişdim o xam tikəni,
Neçin sevgilimdən ayırdın məni?
Qadın bağıraraq söylədi: dəhşət!
Qalmayıb arada mərhəmət, şəfqət.
Bir gənc yoxmu mənim halıma yansın,
Gəlib bu qocadan intiqam alsın.
Eldə həyasızlıq artıb olduqca,
Naməhrəm qadına əl atır qoca.
Bu qadın o qədər səs-küy qopardı,
Həyadan tər yuyub məni apardı.
Ağlım söylədi ki, indi sən gərək,
Qabıqdan çıxasan bir sarımsaq tək.
Əngəl baş verməsin deyə qorxudan,
Soyunub lüt oldum çəkmədən bir an.
Qadının yanından qaçdım lüt çılpaq;
Dedim paltar qalsın, qurtuldum ancaq.
Bu işin üstündən keçdi bir müddət,
Mənə rast gələrək dedi o afət:
Məni tanıyırsan? Dedim: şübhəsiz!
Hələ bir dəfə də savaşmışıq biz.
Tövbə eləmişəm, inan ki, bir də
Füzulluq etmərəm daha heç yerdə.
Ağıllı elə iş görməz bir zaman,
Böyük zərər çəkib olsun peşiman.
O günkü iş mənə bir ibrət oldu,
O çəkdiyim bəla nəsihət oldu.
Saxla öz dilini ağlın var əgər,
Ya sus, ya Sədi tək saç sözdən gövhər.

## QEYBƏT HAQQINDA

Birisi edirdi dostlarla qeybət,
Ona bir ağıllı verdi nəsihət:
Yanımda pisləmə dedi özgəni,
Onda pis nəzərlə görürəm səni.
Xalqın pisliyini danışan bir kəs,
Nanəcib adamdır, yaxşılıq görməz.

## OĞUL TƏRBİYƏSİ

On birə girəndə oğlunun yaşı,
Qoyma naməhrəmə qarışsın başı.
Pambığa od vursan bir anda yanar,
Göz yumub açınca evin odlanar.
İstəyirsən səndən qalsın yaxşı ad,
Elm öyrət oğluna, qoy olsun ustad.
Oğlunun olmasa ağlı, kamalı,
Sən öldün, neyləyir dövləti, malı.
Əgər öz oğlundan ata çəksə naz,
Oğlun çətinliyə dözümü olmaz.
Oğluna bilik ver, sevdir zəhməti,
Qoy olsun kamalı, ağlı, sənəti.
Oğlunu sevirsən, ta uşaqlıqdan
Onu çətinliyə öyrət hər zaman.
Şagirdə xoş təsir eyləməz kötək,
Ustaddan təhsinlə afərin gərək.
Olsa da Qarun tək varın, sərvətin,
Qoy oğlun işləsin, əziyyət çəksin.
Güvənmə varına, qalmaz o nemət.
Çıxar bir gün əldən yığdığın sərvət.

Qurtarar yığdığın qızıl, gümüş, bax,
Sənətsə tükənməz dövlətdir ancaq.
Hər an bir gərdiş var bu ruzigarda,
Oğlun olsa əgər qürbət diyarda,
Ona çox köməklik eyləyər sənət.
Yadlara əl açıb çəkməz əziyyət.
Sədi nədən gəlib murada vardı,
O nə səhra keçdi, nə dəniz yardı.
Uşaqkən başı çox cəfalı oldu,
Odur ki böyüyüb vəfalı oldu.
Boyun qaçırmasa hər kəs fərmandan,
Bir zaman özü də verəcək fərman.
Ustadın cövrünü görməyən uşaq,
Dövranın cövrünü görəcək ancaq.
Övladı bəsləsə atalar özü,
Olmaz yad əllərdə övladın gözü.
Olmasan övladçün qüssədə, qəmdə,
Övladın avara olar aləmdə.
Əgər bir müəllim olsa bədəsil,
Yetişdirə bilməz bəxtiyar nəsil.
Xətti qaralmamış üzü qaralan
Müxənnəsdən olmaz qəhrəman oğlan.
Gərək o namərddən qaçasan uzaq
Ki, abır tökməkdir peşəsi ancaq.
Oğul qələndərlik eyləsə əməl,
Elə bir oğuldan çəkməlisən əl.
Qəm çəkmə, pis övlad olsa da tələf,
Qoy ölsün atadan qabaq naxələf.
Arif ol, eyb açmaq olmasın işin,
Sən öz nöqsanını, eybini düşün.

# SƏKKİZİNCİ FƏSİL
# *SAĞLAMLIQ HAQQINDA*

## SAĞLAM BƏDƏN

Bal şirin eyləyər sağlam mizacı,
Lakin can verənin deyil əlacı.
Əgər bir insanda qalıbsa həyat,
Ona fayda verər yediyi nabat.
Hər kəsin bədəndə qalmasa qanı,
Onu sağaldarmı həkim dərmanı?
Hər kimin beynini əzibdir polad,
Səndəl sürtsən, ona eyləməz imdad.
Xətər qılıncını sanma əyləncə,
Qəzanın önündə gəl açma pəncə.
Həzmə versə yeyib-içməyi mədən,
Saf olar ürəyin, sağ olar bədən.
Əgər bir gün mədən pozulsa tamam,
Bütün bədənini incidər təam.
Mizac isti olur, soyuq, yaş, quru,
Bu dörd şeylə artır gözünün nuru.
Bu dörd şeydən biri göstərsə qüvvət,
Bütün mizacını pozar təbiət.
Külək tək əsməsə nəfəsin bir an,
Mədən can evində qaldırar heycan.
Mədə qazanında coşmasa xörək,
Nazənin bədəni saxlamaz ürək.
Ağıllı bir şeydə görsə ziddiyyət,
Çəkinər o şeydən, eyləyər nifrət.
Artmaz çox yeməkdən canın qüvvəti,
Bədən pərvərişdən alır qüdrəti.

## TOĞRUL VƏ KEŞİKÇİ

Bir xəzan gecəsi Toğrul hökmran
Görür ki, küçədə hindli pasiban
Yağan yağışlardan, qardan titrəyir.
Ona rəhmi gəlib hökmran deyir:
Al bu arxalığı, azacıq dayan,
Kürkümü göndərim sənə mən bu an.
Şah öz sarayına qayıdan kimi,
Əsir yavaş-yavaş səhər nəsimi.
Şahın sarayında bir kəniz varmış,
Qəlbinə hakimmiş, bəxtinə yarmış.
Toğrul elə uyur o pərizadə,
Zavallı hindlini salmayır yadə.
Toğrulun verdiyi kiçik paltarmış,
Əyninə olmayır, hindliyə darmış.
Bir yandan soyuğun bərk şiddətindən,
Bir də intizarın əziyyətindən
Hindli əldən düşür; sarayda Soltan,
Qəflətlə kef çəkir yanında canan.
Bir qadın Toğrula söyləyir səhər:
Gecə ağuşunda yatdı bir dilbər,
Daldın sübhə kimi eyşə-işrətə,
Bilmədin yoxsullar düşüb zillətə.
Bir karvan başçısı kef etsə əgər,
Quma batanlardan tutmaz bir xəbər.
Kapitan gəmidə yatsa asudə,
Bilməz zavallılar boğulur suda.
Gəl dalma yuxuya gecə karvanda,
Dəvənin yüyəni qalıb sarvanda.
Yolun dağ yoludur, qumsallıq, daşlıq,

Geri qalanlara eylə yoldaşlıq.
Dağ kimi dəvəyə minib gedirsən,
Piyadələrdən də bir xəbər tut sən.
Budur bax dünyada ən böyük bəla,
Toxun acdan olmur xəbəri əsla.

## BİLİKLİ HƏKİM VƏ LOVĞA ŞAHZADƏ

Bir şahzadə atdan yıxılıb yerə
Zərb ilə dəymişdi boynu yəhərə.
Fil kimi keçmişdi bədənə boynu.
Bu hal əldən-dildən salmışdı onu.
Həkimlər tapmırdı dərdinə dərman,
Böyük bir filosof gəldi Yunandan.
Çalışıb düzəltdi əyri damarı,
Dərddən xilas etdi ağır bimarı.
Tamam sağalınca cavan şahzadə,
Qoca filosofu salmadı yadə.
Bir gün həkim gəldi onun yanına,
Şahzadə baxmadı xoş üzlə ona.
Bu iş filosofa çox ağır gəldi,
Sıxılıb kədərlə yola düzəldi.
Söylədi: boynunu sağaltmışam mən,
Çevirmişdir indi üzünü məndən.
Həkim saraya bir toxum göndərdi,
Udla yandırmağa tapşırıq verdi.
Tumu alan kimi həmən şəhriyar,
Əmr etdi ud ilə bir yandırsınlar.
Ucadan asqırdı şahzadə birdən,
Yenə boynu çıxdı əvvəlki yerdən.

Şahzadə həkimçün göndərdi xəbər,
Yüyürüb həycanla gəldi elçilər.
Gördülər həkimdən yoxdur bir nişan,
Döndülər saraya onlar kor-peşman.

# DOQQUZUNCU FƏSİL
# *QOCALIQ VƏ TÖVBƏ HAQQINDA*

## QOCANIN DEDİKLƏRİ

Gənclik zamanında yığışıb gecə
Dostlarla qurmuşduq şən bir əyləncə.
Gül kimi təzəydik, bülbül kimi şən,
Gözəl nəğməmizlə dolmuşdu gülşən.
Fələyin cövründən saçları dümağ
Bir qoca durmuşdu məclisdən uzaq.
Biz püstə kimiydik dodağı xəndan,
O bir fındıq kimi sakitdi hər an.
Bir gənc gedib ona dedi: ay qoca,
Nədən kədərlisən, qəmlisən bunca?
Burax dərdi-qəmi, gəl bu çəməndə
Əylən cavanlarla, kef elə sən də.
Dünya görmüş qoca baxıb diqqətlə,
Dedi bu sözləri xeyli riqqətlə:
Səhər küləkləri gəzər bağları,
Oynadar həmişə tər budaqları,
Yaz çağı otlarda olur təravət.
Payız yetişdimi, solur təravət.
Bahar ətir verir yaşıl yarpağa,

Saralmış yarpaqlar düşür torpağa.
Ömrümün qışıdır, keçib güllü yaz,
Gənclərlə oturmaq mənə yaraşmaz.
Olmuşam qanadı bağlı bir tərlan,
Gərək öz halımı düşünüm hər an.
Əl çəkdim nemətdən, işrət sizindir.
İndi əylənməyə növbət sizindir.
Başına qondumu qocalıq tozu,
Gülməz gənclər kimi insanın üzü.
Ala qarğa kimi qanadlarım ağ,
Mənə bülbül kimi layiq deyil bağ.
Tovuz cilvələnər, gəzər bağ, çəmən,
Qanadı qırılmış bir şahinəm mən.
Mən nəyəm – saralıb biçilmiş başaq,
Cavanlıq tər-təzə sünbüldür ancaq.
Çiçəklər soldumu, lətafət gedər,
Qalmaz gülüstanda təravət, gedər.
Əsasız büdrəyir ayağım mənim,
Həyat ola bilməz dayağım mənim.
Günəş batan zaman olur sapsarı,
Solur qocanın da gül yanaqları.
Uşaqlar oyuna etsə də həvəs,
Qoca əyləncəyə uymasın əbəs.
Nə gözəl deyibdir bu sözü Loğman:
Ölüm daha xoşdur pis yaşamaqdan.
İstəsən sərmayən getməsin əgər,
Evin qapısını bağla hər səhər.
Gənclər nur saçınca qaranlıq yerə,
Qocalar girəcək qaranlıq qəbrə.

## HƏKİM VƏ QOCA

Həkimin yanına gəldi bir qoca,
Bədəni zəifdi onun olduqca.
Dedi: bir nəbzimi yoxla mənim, bax,
Güclə ayağımı çəkirəm ancaq.
Elə bil batmışam palçığa-zığa,
Bir əlac, bir dərman tap mən yazığa.
Həkim dedi: çatıb son günlərin, sən
Qiyamətdə zığdan çıxa bilərsən.
Qocaldın, bəsləmə gənclik duyğusu,
Qurumuş çaylara gəlməz bir də su.
Gənclik çağlarında tərpəndin zirək,
Qocalıqda sakit yatasan gərək.
Qırxdan keçirdinmi sən öz ömrünü,
Bil ki, həyatının gəlir son günü.
Bir insan ki, güclə çəkir nəfəsi,
Başında qalarmı gənclik həvəsi?
Sevinc ürkür məndən, qəmim qalmışdır,
Başımın üstünü gecə almışdır.
Yaşıl çəmənlərdən nə zövq alım mən?
Çəmənlər bitəcək sabah qəbrimdən.
Seyr edib görmüşük gülü, gülzarı,
Tapdayıb keçmişik bir çox məzarı.
Dolanar fəsillər, gələr bir zaman,
Keçərlər bizim də torpağımızdan.
Boş keçdi gəncliyin günləri, heyhat!
Dönməz bir də geri o gedən həyat
Ötdü şimşək kimi sürətlə dövran,
Əfsus ki, o günlər dönməz heç zaman.
Əfsus, batil işə həvəskar olduq,

Haqdan, həqiqətdən biz kənar olduq.
Tənbəl bir şagirdə deyib müəllim:
Günün hədər keçdi, almadın təlim!
Əfsus, gözəl ömrü çırpmışıq daşa,
Bu son günləri də vurarıq başa.
Səadət mülkündə ömür sürənlər,
Sədinin sözünü sanar bir gövhər.

## ATA NƏSİHƏTİ

Çıxmaz xatirimdən ata zəhməti,
Gəlsin haqqın ona böyük rəhməti.
Aldı uşaqlıqda mənə lövh, dəftər,
Bir də qızıl üzük, daşı ləl, gövhər.
Məni bir xurmayla tacir aldatdı,
Onu barmağımdan dartdı, çıxartdı.
Dərk edib tanımaz uşaq qaş-daşı,
Bircə şirni ilə aldanar başı.
Sənə bəlli deyil ömrün qiyməti,
Odur ki, sevirsən eyşü-işrəti.
Ömür dedikləri dəyərli gövhər,
Qoyma ki, işrətlə məhv olsun hədər.

## ZÜLEYXANIN EŞQİ

Züleyxa içərək eşq badəsini,
İtirdi ağlını, iradəsini.
Sarsıtdı qəlbini şəhvət dərindən,
Yapışdı Yusifin ətəklərindən.
Misir xanımının bir bütü vardı,

Onu tanrı bilib uca tutardı.
Tez bir örtük asdı üzündən bütün,
Yayınsın pis işi gözündən bütün.
Bir küncdə əyləşib Yusif ələmli,
Şəhvətli qadına baxırdı qəmli.
Öpüb əllərindən, ayaqlarından,
Yusifə söylədi: hanı o peyman?
Gəl burax, əzizim, qəmi, məlalı,
Xoş keçin, buraxma eşqi, vüsalı.
Yusifin üzünə axdı göz yaşı,
Dedi: sanma məni nanəcib, naşı.
Sən utandın bütdən, daş parçasından,
Mən utanmayımmı böyük tanrıdan.
Ömür tələf oldu, qayıtmaz geri,
Peşmanlıq düzəltməz çirkin işləri.
Şərabı içirlər üz qızartmağa,
Mey üzü döndərir sarı yarpağa.
Üzrü bu gün istə, gələndə əcəl,
Sənə danışmağa verməyir macal.

## SƏRXOŞLUQ BƏLASI

Biri taxıl biçib döymüşdü xərmən,
Deyirdi: ruzimi toplamışam mən.
Bir gecə mey içib məst oldu ancaq,
Yandırdı taxılı zavallı axmaq.
Səhər durdu gördü xərməndən çöldə,
Qalmayıb bir dənə sarı sünbül də.
Qəm, kədər bürüdü yoxsul dərvişi,
Bir ağıllı ona dedi, ay kişi,

Uyub sərxoşluğa neçin qudurdun?
Taxıl xərmənino neçin od vurdun?
Xərməni toplayıb sonra yandıran,
Adama söyləyər hər görən nadan.
İlqarı, imanı satıb dünyada,
Sovurma öz təmiz adını bada.
Bir bədbəxt çəkəndə əzab, əziyyət,
Olar xoşbəxtlərə bu halı ibrət.
Üzr istə çəkməmiş sən hələ əzab,
Döyüləndə fayda verməz iztirab.
Bu gün varlığını sarmasa qəflət,
Qızartmaz üzünü sabah xəcalət.

## QƏZƏLLƏR

Ey sariban, ahəstə get, arami-canımdır gedən,
Yar könlümü çəkmiş mənim, ruhi-rəvanımdır gedən.

Səy eylədim əfsun ilə pünhan qılım mən dərdimi,
Pünhan işim çıxdı üzə, seyr eylə, qanımdır gedən.

Qaldım belə zarü zəlil, biçarəyəm, qəlbim əlil,
Düşdüm o dilbərdən uzaq, asudə anımdır gedən.

Yox əhdinin bünyadı heç, bitməz onun bidadı heç,
Çıxmaz könüldən yadı heç, ən xoş zamanımdır gedən.

Bir an dayan, ey sariban, qoyma gedə bu karivan,
Ol sərvə uymuşdur könül, sərvi-rəvanımdır gedən.

Bir dön geri, ey nazənin, göz məskənin olsun sənin,
Sənsiz bu sonsuz göylərə, ahu fəğanımdır gedən.

Can tərk edəndə cismini, insan açar öz hissini,
Yoxdur sözüm, görmüş gözüm, bu xəstə canımdır gedən.

Sədi, sənə layiq deyil yardan giley, ey bivəfa,
Gördüm mən ondan çox cəfa, səbrü təvanımdır gedən.

* * *

Xoşdur nə qədər cəfa qılır yar,
Var meydə xumar, güldə də xar.

Hər söz çıxa bal dodaqlarından,
Şirin olar, ey sevimli dildar!

Səndən kimə eyləyim şikayət?
Səndən sənə min şikayətim var.

Gülsən mənə eyb tutmaram, ah,
Göz yaşlarım eyləyib məni zar.

Göydə bulud ağlayan zamanlar,
Gülməzmi çəmən, çiçəkli gülzar.

Qəlbin gözü var sənin dalınca,
Qəlbinsə sənin deyil xəbərdar.

Can versəm əgər ayaqlarında,
Mən incimərəm, sözümdür aşkar.

Həsrət çəkirəm ölüb dirilsəm,
Bir də qabağında ölsəm, ey yar!

Bir daş kimi mən bucaqda qalsam,
Ya olsam əgər önündə divar.

Susmam yenə çünki daş da görsə,
Eylər sənə min məhəbbət izhar.

Sədi çəkilən deyil bəladən,
Zəncirlə hara gedər giriftar.

* * *

Etdi o daş ürəkli, dün qəlbimi pərişan,
Getdi könül dalınca, tən qaldı yerdə bican.

Dürr saçdı gözlərimdən hicranı nazlı yarın,
Dərya kimi yaş axdı, sildim qolumla mərcan.

Yoxdu gümanım əsla gündüz ola qaranlıq,
Oldu səhər zamanı dünya gözümdə zindan.

Əsdi sərin küləklər, döndü behiştə hər yan,
Etdi səhər nəsimi sanki cahanı rizvan.

Gördüm nəsimi sübhün gəldikcə ehtizazə
Bağlarda qönçələr də çak eyləyib giriban.

Könlüm deyildi yalnız eşqə uyan cahanda,
Gülçün düşübdür eşqə bülbül olub qəzəlxan.

Bir dərd olub bu hicran, min nalədən sağalmaz,
Yoxsa mən eyləyərdim naləmlə hicrə dərman.

Qalxdı o gizli pərdə, razi büruzə verdim,
Səbr ilə etmək olmaz qəlbində dərdi pünhan.

Sığmaz iki məhəbbət bir qəlbə, Sədi, əsla,
Tərk eylə canı getsin, qalsın könüldə canan.

* * *

Səfərindən yenə yarım qayıdıb tazə gəlib,
Misrdən şəkkərimiz bir daha Şirazə gəlib.

Canımı almağa qəsd eylədi şahin baxışın,
Bir göyərçin kimi könlüm quşu pərvazə gəlib.

Dinimiz, şöhrətimiz getsə də yoxdur zərəri,
Dərd, bəla harda ola aşiqi-canbazə gəlib.

Bu cigər yandırıcı dağ ki var sinəmdə,
Dağa dəymiş alışıb dağ yanıb avazə gəlib.

Mən o günki üzünü gördüm o dilbər gözəlin,
Söylədim: aşiqi cəzb etmək üçün nazə gəlib.

Nə qədər ağla gələn incə gözəllik var isə,
Şübhə yoxdur ki, bizim dilbəri-mümtazə gəlib.

Sən qayıtdın, gözəlim, oldu gözüm içrə yerin,
Sədini gördü, hamı hörmətə, ezazə gəlib.

## RÜBAİLƏR

Sən qonaq gələndə gecələr bizə,
Dönür gecələrim aydın gündüzə.
Deyirəm: şam sönsün, ay göydə batsın,
Günəş qonaq gəlib məclisimizə.

* * *

Dostluq ilqarını pozanda dildar,
Tutdum ətəyindən onun biqərar.
Dedi: get yuxuda görərsən məni,
Dedim: sənsiz yuxu olarmı, ey yar?

* * *

Söz verdi bir gecə məni şad etsin,
Qüssədən qəlbimi yar azad etsin.
O gündən nə qədər gecələr keçdi,
Yar bir də verdiyi sözü yad etsin.

* * *

Deyirlər: yarında tünd xasiyyət var,
Layiqmi sevəsən elə bir nigar?
Deyirəm: girməyin araya, billah,
Yaxşı da, yaman da olsa, xoşdu yar.

* * *

Sanmayın dərdimi təbiblər bilər,
Məhəbbət dərdini həbiblər bilər.
Məni sevgilimin dərdi öldürür,
Bu sirri açmayın, qəriblər bilər.

## QİTƏLƏR

Yarasa gündüzdən olmur xəbərdar,
Bununçün günəşin nə qüsuru var?!
Məncə kor yaxşıdır o gözlüdən ki,
Göz yumub günəşi eyləyir inkar.

* * *

Salma həqarətlə yoxsula nəzər,
Bil ki, daşda olur dəyərli gövhər.
Nafənin xəttini həqir sanma gəl,
Nafədən alınır müşk ilə ənbər.

* * *

Nakəs olanlarda var belə xislət,
İki adam etsə əgər məsləhət,
Tez bəd güman olub düşər şübhəyə,
Deyər ki, eybimdən gedir bu söhbət.

* * *

Bir insan qanını töksə hökmran,
Tökülər aləmdə çaylar qədər qan.
Gərək öldürəsən bir canavarı,
Başqa canavarlar qaçsın qorxudan.

* * *

Versələr hökmünə bütün dünyanı,
Bütün aləmləri, bu asimanı.
Qarunun gəncini, Cəmin mülkünü,
Dəyməz incitməyə bircə insanı.

# G Ü L Ü S T AN

**(ixtisarla)**

## MƏRHƏMƏTLİ VƏ MEHRİBAN ALLAHIN ADI İLƏ BAŞLAYIRAM

İzzət ilə calal sahibi olan allaha şükr edirəm ki, itaət etməklə ona yaxınlaşır, şükr etməklə öz nemətini artırırsan. Hər nəfəs aldıqca ömür uzanır, hər nəfəs verdikcə ürək şadlanır. Deməli, hər nəfəs almaqda iki nemət mövcuddur və hər nemətə şükr etmək gərək.

**Beyt**

Məgər əldə dildə var öylə hünər,
Edə xaliqə şükr lazım qədər…

**Şeir**

Bəndə odur kim bilə təqsirini,
Üz tutaraq allahına yalvara,
Çünki ona layiq olan xidməti,
Kimsə bacarmaz edə bu dünyada.

Onun hesabsız rəhmət yağışı hər yerə yağmış, əsirgəmədiyi nemət süfrəsi hər yerə yayılmışdır. Öz bəndələrinin namus pərdəsini balaca günah üçün parçalamaz, səhvən onu inkar edənləri də ruzisiz qoymaz.

**Şeir**

Ey kəramət sahibi, başı bağlı xəznəndən,
Tərsayə də, gəbrə də bol-bol ruzi verirsən.
Düşmənlərə sən belə nəzər salan zamanda,
Unutmazsan yəqin ki, dostlarını bir an da.

Fərş sahibi, Səba yelinə əmr etdi ki, öz yaşıl fərşini yer üzünə sərsin, bahar buludunun dayəsinə də buyurdu ki, bitkilərin qızlarını yer beşiyində boya-başa çatdırsın. Ağaclar Novruz xələtilə yaşıl paltara bürünüb, yaz mövsümünün gəlişilə budaqlarının balaları başına çiçək papağı qoydu. Onun qüdrətilə şirinlik yarandı, xurma toxumu cücərib gözəl ağaca çevrildi.

**Şeir**

Bulud, külək, qəmər, günəş fələk daim işdədir,
Ki, bir qarın çörək tapıb sən yeyəsən ləzzətlə.
Hər şey olmuş sənin üçün hərəkətdə, fərmanda,
Düzgün olmaz sən vaxtını keçirəsən qəflətlə.

Belə xəbər verirlər kainatın başçısı, bütün mövcudatın iftixarı, aləmin qoruyucusu, insanların hamisi, zamanın son peyğəmbəri Mühəmməd Mustafa-allah onu səlamət etsin.

**Beyt**

Şəfaətli, itaətkar, kəramətli peyğəmbər,
Ədalətli, şücaətli, mürüvvətli peyğəmbər.

**Beyt**

Ümmətinin nə dərdi var sən tək arxa olan zaman,
Nuh gəmiçi olan yerdə qorxmaz heç kəs tufanlardan.

**Beyt**

Əngin fəza kəmalıdır, Günəş bənzər cəmalına,
Gözəlliyin cəlalıdır, alqış ona və alına.[1]

Əgər günahkar və halı pərişan olan bir bəndə ümidlə o yüksək calallı həqqin dərgahına yalvarış əlini qaldırıb raz-riyaz

[1] *al – ailə, yaxın adamlar*

etsə, böyük yaradandan etina görmədikdə yenə əl qaldırıb ahnalə ilə ondan kömək istəsə, allah taala buyurar: mənim qulumun məndən başqa köməyi olmadığından onun istəyini yerinə yetirdim, arzusuna çatdırdım ki, öz bəndəmin bu qədər yalvarışından xəcil oldum.

**Beyt**

Gör nə qədər allahda vardır lütfü kəramət
Bəndə günah eyləmiş, o sa çəkir xəcalət.

Onun cəlal Kəbəsində bir guşəyə çəkilib ibadət edənlər özlərinin layiqincə ibadət edə bilmədiklərin etirafla, camalının gözəlliyini vəsf edənlər heyrət içində qalıb demişlər: Biz sənin mərifətini layiqincə dərk edə bilmədik.

**Şeir**

Kim sorsa allahın vəsfini məndən,
Nişansız varlığı bilərmi bir kəs?
Aşiqlər məşuqun ölmüşləridir,
Çıxmaz, şübhəsiz ki, ölmüşlərdən səs.

Ariflərdən biri başını aşağı salıb fikir dəryasına qərq olmuşdu elə ki, düşüncədən ayılıb özünə gəldi, dostlardan biri soruşdu:

– Getdiyin bostandan bizə bir hədiyyə ver.

O, dedi:

– Gedəndə yadımda idi ki, əgər gül ağacına çatsam, ətəyimi doldurub dostlara hədiyyə gətirəcəyəm. Lakin elə ki, bostana çatdım, gülün ətri məni o qədər məst etdi ki, ətəyimdən belə tuta bilmədim.

**Şeir**

Ey mürği-səhər eşqi bu pərvanədən öyrən,
Yandısa canı çıxmadı ondan yenə avaz.

Bu müddəilər bilməyir əsla nə xəbərdir,
Kim tutsa diləkdən xəbər, ondan xəbər olmaz.

**Şeir**

Ey xəyaldan üstün olan sirri bilinməz qüdrət,
Çox dedilər, çox eşitdik, çox oxuduq, nəhayət,
Məclis bitdi, ömür çatdı başa biz də qocaldıq,
Lakin yenə biz əvvəlki nöqtədə donub qaldıq.

## ATABƏY ƏBUBƏKR İBN SƏDİN TƏRİFİ

Sədinin gözəl tərifinin dillərə düşməsi, şair avazəsinin dünyaya yayılması, şirin hekayələrinin ağızda şəkər dadıb əsərlərinin hər yarpağının qızıl vərəqi tək əldən-ələ gəzməsi, onun öz fəzilət və sənətkarlığının yetkinliyindən deyil, bəlkə cahanın hökmdarı, zəmanənin sərdarı, Süleyman taxtının varisi və iman sahiblərinin hamisi, şahlar şahı Atabəy Müzəffərəddin Əbubəkr ibn Səd ibn Zənginin (yer üzündə allahın kölgəsi odur. İlahi, ondan razı ol və könlünü şad elə!) Ona mərhəmət nəzərilə baxıb, sənətinə yüksək rəğbət və həqiqi məhəbbət bəsləməsindəndir.

**Şeir**

Mənə ki, salırsan belə xoş nəzər,
Günəşdən məşhurdur yazdığım əsər.
Olsa da qulunda çox eybü nöqsan,
Hünərdir hər eybi bəyənsə sultan.

**Şeir**

Keçən gün hamamda ətirli bir gil,
Yetişdi əlimə bir dost əlindən.
Soruşdum müşksən, ya inki ənbər,
Ki, belə məst oldum sənin iyindən?
Dedi ki, yararsız bir palçıq idim,

Bir müddət gül ilə etdim nişimən.
Mənə dost kamalı eyləmiş təsir,
Yoxsa ki, yararsız haman giləm mən!

Allah Şiraz torpağını adil hökmdarların gücü və işgüzar alimlərin himmətilə dünya durduqca əmin-amanlıqla saxlasın.

Yəqin bu Pars mülkünə toxunmaz afəti-dövran,
Ki, salmış başına sayə sənin tək sayeyi-yezdan.
Tapa bilməz yəqin heç kəs gəzərsə cümlə dünyanı,
Sənin dərgahi-alin tək ki, versin dərinə dərman.
Özünsən arxası hər bir zavallı bəndənin daim,
Görüm versin mükafatın sənin ol xaliqi-keyhan.
Bu xaki-Parsı sən saxla ilahi bədi-afətdən,
Nə qədri abü xak olsa cahanda baqi, cavidan.

## KİTABIN YAZILMASININ SƏBƏBİ

Bir gecə keçən günləri xatırlayıb hədər getmiş ömrümə təəssüf edir, könlümün saray daşını göz yaşımın almaz danələrilə deşir, öz halıma münasib olan bu beytləri deyirdim:

**Şeir**

Ömürdən gedir bu keçən hər nəfəs
Baxıram ətrafa qalmamış bir kəs
Ey yatan əlli il qəflətdə bütün,
Qoyma ki, boş keçə bu qalan beş gün
Utansın o kəs ki, ömrü puç etdi,
Dünyadan köçəndə xəcalət getdi.
Köç vaxtı səhərin şirin yuxusu,
Qoyar piyadəni yoldan, doğrusu.
Hər gələn dünyada bir bina saldı,
O getdi, mənzili özgəyə qaldı.
Çoxları dünyaya göstərdi həvəs,

Tikdiyi binada qalmadı bir kəs.
Vəfasız dünyaya meyl etmə, zinhar.
Dostluğa yaramaz bu köhnə qəddar,
İndi ki, öləcək pis də, yaxşı da.
Xoş ona ki çatdı yaxşı bir ada.
Bir yarpaq göndər öz qəbrinə bu gün
Ki, sonra göndərmək deyildir mümkün.
Dövran bir günəşdir, ömür isə qar
Hələ gör xacədə necə qürrə var?
Ey pulsuz bazara gedən sərsəri,
Qorxuram əliboş dönəsən geri.
Sütülkən kim yesə əkinin hər il,
Başşaq toplayacaq xirmən üstü bil.

Bu düşüncələrdən sonra belə qərara gəldim ki, xəlvət bir guşəyə çəkilib heç kəslə söhbət etməyim, sinə dəftərimi mənasız sözlərdən təmizləyib, daha hədərən-pədərən danışmayım.

**Beyt**

Qalıb bir guşədə sakit danışmaz olsa bir insan,
Daha xoşdur, açıb dil boş, ləyaqətsiz danışmaqdan.

Elə bu zaman vaxtilə gəcavədə həmnişinim və hücrədə həmdəmim olan dostlarımdan biri qabaqkı adəti üzrə qapımdan içəri girdi. O, nə qədər gülüb-danışıb, zarafat etdisə, cavab vermədim və başımı ibadətdən qaldırmadım. İncik nəzərlə məni süzüb dedi:

**Şeir**

Bu gün mümkün ikən danışmaq sənə,
Dil aç, qardaşım, söylə, xoşluqla din!
Əcəl peyki bir gün yaxandan tutar,
Zərurət üzündən susarsan, yəqin.

Yaxın adamlarımdan biri vəziyyəti görüb, dostumu başa

saldı ki, filankəs qalan ömrünü dünyada guşənişinliklə keçirib, tənhalıq və sükutla başa vurmağı qərara almışdır. Əgər bacararsan, sən də öz başının çarəsini qıl, nə məsləhət bilirsənsə elə də et.

Dedi:

– O böyük izzətə və qədim səmimiyyətə and olsun, əgər o, mənimlə həmişəki kimi dostcasına danışmasa, əl çəkib, ayaq geri qoymayacağam. Çünki dostun könlünə dəymək nadanlıqdır. İçdiyi andın günahını isə asanlıqla yuya bilər. Onun seçdiyi bu yol düz yol deyil, ağıllı adamlar rəva bilməzlər ki, Əlinin zülfüqarı qınında, Sədinin sözü qəlbində qalsın.

**Şeir**

Nədir dil ağızda, ey ağlı olan,
Hünər xəznəsinə açardır inan.
Əgər bağlı olsa, kim anlar ki, o,
Cəvahir satandır, ya muncuq satan.

**Şeir**

Ədəb sayılsa da məclisdə susmaq,
Məsləhət zamanı danışmaq gərək.
İki şey ağıla nöqsan sayılır,
Yersiz susmaq ilə yersiz söz demək.

Nəhayət, onunla danışmaqdan boyun qaçırıb, üz döndərməyə insafım yol vermədi, o mənim ən yaxın dostum və sədaqətli sirdaşım idi.

**Beyt**

Necə vuruşasan, o adamla sən,
Ki, onun üzündən keçə bilmirsən.

Onunla söhbət etməyə məcbur oldum. Qalxıb gəzə-gəzə seyrə çıxdıq. Bahar fəsli idi, şaxtalı soyuqlar zamanı keçmiş, qızıl gül dövranı çatmışdı.

**Nəzm**

Ağaclar üstündə yarpaq köynəyi,
Bayram paltarıdır şadlıq bağında.
Birinci günüdür ordibehiştin,
Bülbüllər oxuyur gül budağında.
Qızılgül üzünə al şəbnəm qonmuş.
Sanki tər düzülmüş yar yanağında.

Gecəni dostlarımızdan birinin bağında keçirməli olduq. Gözəl və səfalı bir yer idi. Ağaclar baş-başa vermiş, sanki torpağına mina zərrələri səpilmiş, budaqlarına ulduz danələri asılmışdı.

**Şeir**

Cənnət tək bir bağdır, çağlayır sular,
Quşların səsilə dolmuşdur hər yan.
Al-əlvan lalələr bəzəmiş yeri,
Meyvələr doldurmuş bağı firavan.
Külək ağacların kölgəliyində,
Rəngbərəng fərşləri döşəmiş əlvan.

Səhər açılanda qayıtmaq arzusu qalmaq istəyinə üstün gəldi, dostumun ətəyini cürbəcür güllər və çiçəklərlə doldurub, şəhərə aparmaq istədiyini gördüm. Ona dedim:

– Özün bilirsən ki, gülün davamı, gülüstanın isə vəfası yoxdur. Atalar yaxşı demişlər: ömrü az olan şeyə könül bağlamağa dəyməz.

Dedi:

– Nə etmək lazımdır?

Dedim:

– Oxuyanlara səfa, eşidənlərə şəfa verən «Gülüstan» adlı bir kitab yazmaq lazımdır ki, heç bir xəzan yeli onun yarpaqlarına əl vura bilməsin və zamanın gərdişi onun nəşəli baharını boranlı qışa çevirə bilməsin.

**Şeir**

Nəyinə lazımdır gül tabaq-tabaq,
Gəl, «Gülüstan»ımdan apar bir varaq.
Gül beş-altı günə saralıb solar,
Mənim Gülüstanım daim xoş olar.

Mən bu sözləri deyən kimi dostum ətəyindəki gülləri yerə töküb, ətəyimdən yapışdı və dedi:

– Kişi vədinə vəfa etməlidir.

Elə həmin gün «Ünsiyyət və söhbət qaydaları barəsində» natiqlərə fayda verən, yazıçılara sənətkarlıq öyrədən iki fəsil hazır oldu. Xülasə, gülüstandan gül qurtarmamış «Gülüstan» kitabı tamam oldu.

Lakin həqiqətdə bu kitab o zaman bitmiş hesab edilə bilər ki, o, dünyanın pənahı, allahın (yer üzərində) kölgəsi, yaradanın mərhəmət nuri, zamanın zinəti, sülhün dayağı, göylərdən kömək alan, düşmənlərə zəfər çalan, qalib dövlətin qüvvəti, millətin parlaq çırağı, dövranın camalı, islamın kamalı, Səd ibn Atabək, böyük, əzəmətli şahlar şahı, ümmətin ümidi, Ərəb və Əcəm hakimlərinin başçısı, quruların, dənizlərin sultanı, Süleyman mülkinin varisi, Müzəffərəddin Əbubəkr ibn Səd ibn Zənginin (allah, onun səadətini əbədi et, cəlalını artır, işlərinə rəvac ver) sarayında bəyənilsin və (şahzadə) öz lütfkar nəzərlərilə ona baxmış olsun.

**Şeir**

Bəzərsə mərhəməti bu kitabı sərvərimin,
Olar bu Çin bəzəyi ya ki, nəqşi «Ərjəngi»[1]

---

[1] *Sasani hökmdarlarından I Şapur vaxtında (241-272)İranda məşhur olan rəssam Maninin kitabının adıdır. Orada ən gözəl, nəfis şəkillər mövcud idi. Bu ifadə altında bəziləri Çin rəssamlarının rəssamlıq sənəti də nəzərdə tutulur.*

Ümidlərim bundadır ki, qəbula layiq olar,
Ki, gülüstan ola bilməz məkani-diltəngi
Ələlxüsus onun əvvəlində xoş xətlə,
Yazılsa Səd Əbubəkr Səd bini Zəngi.

Mənim fikrimin gəlini zinətdən məhrum olduğu üçün, utandığından başını yuxarı qaldırıb, yaslı gözlərini xəcalətin ayağı altından ayıra bilmir. Nə qədər ki, böyük əmir, alim və ədalətli, qələbələr ilhamçısı, səltənət təxt-tacını qoruyanların başçısı, məmləkətin tədbirçilər tədbirçisi, fəqirlərin pənahı, qəriblərin istinadgahı, alimlərin hamisi, zahidlərin dostu, fars əhlinin iftixarı, din və dövlətin fəxri, islamın və müsəlmanların köməkçisi, şahların, sultanların etimadlısı Əbubəkr ibn Əbunəsr (allah onun ömrünü uzun, mənsəbini böyük, ürəyini geniş, yaxşı əməllərinin mükafatını artıq etsin. Çünki, o, dünyanın ən böyük adamlarının tərifinə layiq olmuş, xasiyyətlərin ən gözəllərini özündə toplaya bilmişdir) bu əsəri qəbul edib, onu öz mərhəməti ilə zinətləndirməyincə (bu gəlin) ariflər məclisinə çıxa bilməyəcəkdir.

**Şeir**

Onun kölgəsində kim olsa, əlbət,
Kini dostluq olar, günahı taət.

Dərvişlərdən başqa hər bir bəndənin və xidmətçinin bir vəzifəsi vardır. Bunlardan hər kim öz işində kahıllıq etsə və səhlənkarlığa yol versə, danlanılar və məsuliyyətə cəlb olunarlar. Dərviş tayfası isə böyüklərin nemətləri müqabilində şükür edib xeyir-dua oxuyurlar. Belə bir xidməti zahirdə etməkdənsə gizlində etmək daha münasibdir, çünki birincisi yaltaqlığa yaxındır, ikincisi qədirdanlığa, ona görə də tez müstəcab olar.

**Şeir**

Bu fələyin qaməti şadlıq ilə oldu rast
Ta ki sənin tək oğul doğdu bu bətni-zaman.
Hikməti var xaliqin, lütf eləsə hər kəsə,
Bəndəni xas eyləyib xalqa edər hökmran.
Kim yaşadı xeyrilə, tapdı əzəl dövlətin,
Xeyir-dua saxlayar yaxşı adı cavidan.
Əhli-kəmal etsə də, etməsə də vəsfini,
Məşşata lazım deyil gül üzə heç bir zaman.

Saray xidmətindən çəkilib güşənişin olmağımın səbəbi bu misaldakı hikmətə görədir: hind filosoflarından bir neçəsi bir yerə yığışıb Bozorçmehrin fəzilətindən söhbət açmış və nəhayət, onun ağır-ağır danışmasından başqa bir eybini tapmamışlar; yəni o, danışarkən çox düşünür, dinləyici isə onun fikrinin sonunu intizarla gözləməli olurmuş. Bozorçmehr bunu eşidib demişdir:

– Əvvəlcə «nə deyim» haqqında fikirləşmək, sonradan «niyə dedim?» peşmançılığından yaxşıdır.

**Şeir**

Dünya görmüş qoca söz ustadı, bil,
Əvvəlcə fikr edər, sonra açar dil.
Tələsik söyləməz sözünü bir dəm,
Fikrini kamil de, gec olsa nə qəm!
Düşünüb sonra de sözü müxtəsər,
O qədər danışma, «bəsdir» desinlər.
Nitqilə üstündür heyvandan insan,
Heyvandan əskiksən boş-boş danışsan.

Xüsusən böyük hökmdarın ariflər və bilikli alimlər iştirak edən hüzurunda danışmağa cəsarət göstərsəm, utanmazlıq edər və hüzuri-mübarəkə dəyərsiz mal gətirmiş olardım. Cəvahirat bazarında muncuğun bir arpa qədər qiyməti olmaz.

Çıraq, günəş qarşısında işıq verməz, uca minarələr Əlvənd dağı yanında alçaq görünər.

**Şeir**

Kim xalqa iddia göstərsə əgər,
Hər yerdən başına bir zərbə dəyər.
Sədisə yazıqdır, qəlbi azada,
Yazıqla kim dava edər dünyada?
Əvvəlcə bir düşün, sonra dilə gəl,
Divar tez yıxılar olmasa təməl.
Mən də bir gülçüyəm, bostandan uzaq,
Mən də bir Yusifəm Kənandan uzaq.

Loğmandan soruşdular ki, «elmi kimdən öyrəndin?» Dedi: korlardan, onlar ayaqları altını yoxlamadan irəli addım atmazlar. Atalar demişlər:

– Bir yerə girməzdən əvvəl oradan necə çıxacağını düşün!

Fərd. Kişiliyini sına, sonra arvad al.

**Şeir**

Xoruz cəld olsa da savaşda, lakin,
Qızıl quş çənginə o qadir deyil,
Pişik siçan üçün pələng olsa da,
Pələng qarşısında bir siçandır bil.

Lakin alicənab şəxslər öz tabeliklərində olan adamların eyiblərini üzə vurmayıb, xırda qüsurlarını açmadıqlarına əmin olduğumdan, müxtəsər şəkildə bir sıra qəribə hekayələri, təmsilləri, şeir və nağılları, həmçinin keçmiş hökmdarların əxlaq və rəftarlarından bəhs edən rəvayətləri bu kitabda topladım və əziz ömrümün bir hissəsini ona sərf etdim.

**Şeir**

Bu dünya duracaq illər boyunca,
Lakin torpaq olar bizim bu bədən.
Bir xəyal qalacaq bizdən yadigar,
Varlıqsa yox olub gedəcək həmən
Bəlkə bir xeyirxah biz yazıqları,
Rəhmətlə xatırlar dua edərkən.

Kitabı tərtib edib fəsillərə ayırarkən, mətləbi qısa bir surətdə ifadə etməyə diqqət göstərməyi lazım bildim və oxucunun darıxmaması üçün behişt bağlarına oxşayan bu «Gülüstan» kitabını səkkiz fəslə böldüm:

1. Hökmdarların rəftarı haqqında.
2. Dərvişlərin əxlaqı haqqında.
3. Qənaətin fəziləti haqqında.
4. Susmağın faydaları haqqında.
5. Eşq və cavanlıq haqqında.
6. Zəiflik və qocalıq haqqında.
7. Tərbiyənin təsiri haqqında.
8. Söhbət qaydaları haqqında.

Günümüz xoş ikən, keçmədəydi bil,
Hicrətdən altı yüz əlli altı il,
Qəsdimiz verməkdi düz yolu nişan,
Allaha tapşırıb köçdük dünyadan.

# I FƏSİL
# HÖKMDARLARIN RƏFTARI HAQQINDA

## 1. Hekayət

Nağıl edirlər ki, bir padşah bir əsirin öldürülməsini əmr etmişdi. Yazıq əsirin ümidi kəsildikdə, ağzına gələni deyib padşaha söyüşlər yağdırmağa başladı. Məsəl var deyərlər: canından əl çəkən ağzına gələni deməkdən qorxmaz!

**Beyt**

Yoxsa bərk ayaqda qaçmağa imkan,
Kəsərli qılıncı qarmalar insan.

**Şeir**

Ümidsiz qalsa hər insan
Açar dil, qorxmaz aləmdə.
Hücum eylər itə birdən
Pişik məğlub olan dəmdə.

Padşah yanındakılardan əsirin nə danışdığını soruşdu. Xeyirxah vəzirlərdən biri dedi:

– Ey hökmdar, o deyir ki, qəzəblənəndə özünü saxlaya bilən adam, başqalarının da günahını bağışlaya bilər.

Padşah rəhmə gəldi, əsirin ölümündən əl çəkdi. Xeyirxah vəzirin rəqibi olan başqa bir vəzir sözə qarışıb dedi:

– Hökmdarın hüzurunda yalan danışmaq bizim kimi adamlara yaraşmaz. Bu əsir padşahı söyüb ona nalayiq sözlər dedi.

Şah bədxah vəzirin bu sözündən hiddətlənərək dedi:

– Onun yalanı sənin doğrundan xoş idi, çünki o, xeyirxahlıq məqsədilə deyilmiş, sənինki isə bədxahlıq. Ağıllı adamlar demişlər: «Sülh doğuran yalan, fitnə törədən doğrudan yaxşıdır.»

**Şeir**

Kimin ki, sözünə əməl edir şah,
O, gərək hər sözdə olsun xeyirxah.

Fridunun[1] sarayının tağında yazılmışdır:

**Lətifə**

Bu dünya məgər qaldımı bir şaha?
Get öz qəlbini bağla bir allaha.
Bu dünya, bu mülkə sığınma bir an,
O sən tək çoxun məhv edibdir, inan.
Nə fərqi gedərkən bu canü, bu tən,
Ya təxt üstə öl, ya da torpaqda sən?

## 2. Hekayət

Xorasan hakimlərindən biri yuxuda gördü ki, Mahmud Səbüktəkinin[2] bütün bədəni çürüyüb torpağa qarışmış, lakin gözləri hələ də öz hədəqəsində hərlənir və ətrafa baxır. Bütün alimlər bu yuxunu yozmaqda aciz qaldılar. Ancaq orada olan dərvişlərdən biri baş əyib dedi: «Gözləri həsrət çəkir, axı, ölkəsi əldən-ələ keçir.»

**Şeir**

Çox gömüldü yer altına mənəm-mənəm deyənlər
Ki, onlardan bu dünyada bircə ad-san qalmadı.
Torpaq altda yatanlara bir diqqətlə nəzər sal.

---

[1] *Fridun – Əfsanəvi Pişdadiyan sülaləsindən altıncı padşah hesab olunur. Atasını zalım Zöhhak öldürmüş, anası onu xilas etmişdir. Dəmirçi Gavə Zöhhakı taxtdan saldıqdan sonra onu taxta əyləşdirmişdir.*

[2] *Mahmud Sabüktəkin – qəznəvilərin ən məşhur və qüvvətli hökmdarlarındandır. 997-1030-cu illər arasındakı hökmranlığı dövründə İran, Türküstan və Hindistanın əsas hissəsini öz hakimiyyəti altında birləşdirmişdir.*

Torpaq yedi, sümüyündən belə nişan qalmadı.
Yaxşı addır Nuşirəvanı bu dünyada yaşadan,
Lakin köçdü bu dünyadan Nuşirəvan, qalmadı.
Ey filankəs, xeyirxah ol, bil həyatı qənimət,
Nə qədər ki, deməmişlər filan-filan qalmadı.

### 3. Hekayət

Bir şahzadə haqqında eşitmişəm ki, özü çirkin və qısaboylu, qardaşları isə gözəl və uca idi. Bir dəfə şah ona alçaq nəzərlə baxıb, etinasızlıq göstərdi. Oğlan həssas idi, başa düşdü və dedi:

– Ata, ağıllı gödək, axmaq uzundan yaxşıdır. Hər qaməti uca olanın qiyməti baha olmaz. Qoyun kiçik olsa da təmiz, fil böyük olsa da murdardır.

**Şeir**

Çox alçaq olsa da Tur dağı[1] bişək,
Allah dərgahında sayılır yüksək.

**Şeir**

Söylədi bədəncə zəif bir alim,
Bir şişman axmağa: «Varmı xəbərin
Əgər ərəb atı arıq olsa da,
Bir töylə eşşəkdən yaxşıdır, yəqin.»

Atası güldü, söz dövlət başçılarının ürəyinə yatdı, qardaşlarında isə kin oyatdı.

---

[1] *Tur dağı – Qırmızı dənizin şimalında Sina yarımadasında bir dağdır. Yəhudilərin peyğəmbəri sayılan Musa guya Misirdə peyğəmbərliyə çatdıqda onun dinini qəbul etməyən Fironu bütün qoşunu və əmlakilə dənizə qərq etmiş, sonra öz tərəfdarları ilə Tur dağına çəkilmişdir. Dini rəvayətə görə guya allahla bu dağın başında danışarmış.*

**Şeir**

Nə qədər dil açıb dinməmiş insan,
Hünəri və eybi qalacaq nihan.
Gördüyün hər meşə sanma ki, boşdur,
Bəlkə də yatmışdır orada qaplan.

Deyirlər ki, həmin günlərdə güclü bir düşmən padşahın ölkəsinə hücum etdi. Hər iki tərəfin qoşunları üz-üzə gəldikdə döyüş meydanına birinci atılan həmin oğlan oldu.

Vuruş çağı kimsə görməmişdir arxamı,
Bəlkə torpaq – qan içində görəcəksən döşümü.
Hər döyüşən öz başını itirirsə vuruşda,
Dönüb qaçan, girə verər saya gəlməz qoşunu.

Bunu deyib, özünü düşmən qoşununa vurdu, bir neçə pəhləvan öldürdükdən sonra atasının yanına gəldi, baş əydi və dedi:

**Şeir**

Məni belə zəif hesab edən sən,
Demə ancaq boydadır hər iqtidar.
Döyüşlərdə incə belli at gərək,
Kök öküzün meydanda nə xeyri var?!

Nağıl edirlər ki, düşmənin qoşunu son dərəcə çox, hökmdarınkı isə az idi. Buna görə də onun qoşunundan bir hissə döyüşdən qorxub qaçmağa başladı. Bu vaxt həmin oğlan nərə çəkib dedi:

– Ey, kişisinizsə, çalışın qadın paltarı geyməyin! Süvarilər onun bu sözündən qeyrətə gəlib cəsarətləndilər, qaçanlar da geri döndülər, hamısı birlikdə düşmənə qarşı hücuma keçdi. Padşahın qoşunu həmin gün düşmənə qələbə çaldı.

Şah igid oğlunu bağrına basıb öpdü. Sonra şahın ona qarşı məhəbbəti gündən-günə artmağa başladı, nəhayət onu

özünə vəliəhd təyin etdi. Qardaşları paxıllıqdan onun xörəyinə zəhər qatdılar. Bacısı eyvandan bunu gördü, dərhal pəncərəni bərk çırpdı. Oğlan işin nə yerdə olduğunu duydu və əlini xörəkdən çəkərək dedi:

– Heyifdir, hünərlilər ölə, hünərsizlər onların yerini tuta!

**Beyt**

Dünyadan yox olsa gər hüma quşu,
Bir kimsə sayəban etməz bayquşu.[1]

Ataları bu xəyanətdən xəbərdar olub oğlanlarını yanına çağırtdırdı, onlara lazımi qulaqburması verdikdən sonra, hərəsinə ölkənin uzaq bir hissəsində yer ayırdı. Bununla da aralarındakı fitnə yatdı və ədavət aradan qalxdı, çünki məsəl var deyərlər:

«On dərviş bir kilimə yığışar, iki padşah bir ölkəyə sığışmaz.»

**Şeir**

Bir çörək taparsa mömin, düz adam,
Yarısın paylayıb, yarısın yeyər.
Padişah bir ölkə aldıqda, yenə
İkinci ölkəni almaq istəyər.

**4. Hekayət**

Ərəblərdən bir dəstə quldur dağ başında məskən salıb, karvan yolunu kəsmiş, dağın zirvəsində ən uca yerdə möhkəm

[1] *Hüma quşu – qədim nağıl və əfsanələrdə dövlət quşu kimi təsvir olunur.*

bir mövqeyi tutmuşdular. Buna görə şah qoşunları quldurlara bata bilmir, camaat isə onların qorxusundan yata bilmirdi. Quldurların bu hərəkəti bir müddət də davam edərsə, onlara üstün gəlməyin mümkün olmayacağını görən o ətrafın başçıları tədbir üçün bir yerə toplaşdılar.

**Şeir**

Yeni rişə atan cavan bir çinar,
Bir adam əl atsa yerindən çıxar.
Lakin kök atarsa o xeyli zaman,
Fələk də gələrsə, qoparmaz, inan.
Çeşmə tutulsa da kiçik bel ilə,
Dolarsa keçilməz böyük fil ilə.

Başçılar məsləhətləşib bir nəfəri quldurları pusmağa göndərdilər və hücum üçün fürsət gözləməyə başladılar. Pusquda oturmuş adam tezliklə xəbər gətirdi ki, quldurlar məskənlərini yiyəsiz qoyub hansı bir tayfa üzərinə isə basqına getmişlər. Bunu eşidən kimi dərhal sınanmış və müharibə görmüş bir dəstə döyüşçü göndərdilər, onlar gedib quldurların məskən saldığı dağın keçidində pusquda dayandılar.

Axşamüstü quldurlar çoxlu qənimətlə öz məskənlərinə qayıtdılar, qənimətləri yerbəyer edib, silahlarını açdılar, paltarlarını soyunaraq yatdılar. Onların başının üstünü alan birinci düşmən yuxu oldu. Gecədən xeyli keçdi.

**Beyt**

Günəşi bürüdü zil bir qaranlıq,
Guya ki, Yunisi udmuşdur balıq.

Pusqudakı igidlər dərhal hücum edib quldurların qollarını bir-bir dallarına bağladılar, səhər açılan kimi şahın hüzuruna gətirdilər. Şah quldurların hamısını öldürməyi əmr etdi. Onların içərisində gənc bir oğlan da var idi. Onun gül çöhrəsi

bahar çəməni tək təzəcə çiçəklənir, gənc ömrünün həyat bağında ilk meyvələr yetişirdi. Vəzirlərdən birinin ona rəhmi gəldi, irəli çıxaraq şahın taxtı önündə təzim etdi və dedi:

– Bu gənc hələ həyat bağından meyvə dərməmiş, cavan ömrünün ləzzətini görməmişdir. Hökmdarın kəramət və səxavətinə arxalanaraq xahiş edirəm ki, şah onun qanından keçsin və bu qulunu minnətdar etsin.

Vəzirin bu sözündən xoşlanmayan şah hiddətləndi və dedi:

**Beyt**

Yaxşıdan ibrət götürməz, zati bəd, nacins olan,
Necə ki günbəz başında qoz dayanmaz heç zaman.

Belə yaramazların nəslini kəsib, dudmanlarını dağıtmaq lazımdır. Odu söndürüb qorunu saxlamaq, əfini öldürüb balasına rəhm etmək ağıllı iş deyildir.

**Şeir**

Göylərdən yağsa da dirilik suyu,
Söyüd ağacında görməzsən səmər.
Alçaq adamlarla oturub durma,
Həsir qamışından alınmaz şəkər.

Vəzir şahın sözünü istər-istəməz təsdiq etdi, onun fikrinə afərin deyib əlavə etdi:

– Cahan hökmdarının buyurduqları həqiqətdir, yaramazlar içərisində tərbiyə alan, onların xasiyyətini də mənimsəyər. Lakin bu oğlan hələ uşaqdır və quldurların yaramaz sifətləri onda möhkəm təsir buraxa bilməz. Qulunuz ümid edir ki, əgər o, bundan sonra xeyirxah adamlar arasında tərbiyələnsə, gözəl xasiyyətlər qəbul edib, islah oluna bilər. Bir hədisdə deyilir ki, insan fitrətən pak doğulur, lakin sonra, ata-anasının tərbiyəsi ilə, ya yəhudi, ya xristian, ya da atəşpərəst olur.

**Şeir**

Pislərə yar oldu Lutun arvadı
Ayrıldı peyğəmbər xanədanından.
İtisə bir zaman Əshabi-kəhfin,
Yaxşılarla getdi oldu bir insan.[1]

Şahın yaxın adamlarından bir neçəsi də vəzirə qoşulub vasitəçilik etdilər. Nəhayət, şah oğlanın günahından keçdi və dedi:

– Məsləhət bilmirəm, lakin bağışlayıram.

**Şeir**

Zal bir gün söylədi oğlu Rüstəmə:[2]
«Biçarə və zəif sanma düşməni,
Çox gördük balaca çeşmənin suyu,
Güclənib apardı yüklü dəvəni.»

Xülasə, oğlanı nazü-nemətə çatdırıb, tərbiyəsini təcrübəli bir müəllimə tapşırdılar. Nəhayət, oğlan natiqlik, hazırcavablılıq və saray qaydalarını dərindən öyrənib, hamısının rəğbətini qazandı.

Bir dəfə vəzir şahın hüzurunda oğlanın fəzilətlərindən danışaraq, dedi ki, ağıllı mürəbbilərin tərbiyəsi yaxşı nəticə

---

[1] *Dini rəvayətlərə görə qədim Fələstində peyğəmbər olan Lutun arvadı onun dinini qəbul etməyənlərə qoşulub ərindən üz döndərmişdir. «Əshabi-kəhf» isə dini əfsanələrdə adı çəkilən «Mağara sahibləridir» (əshabi sahiblər, kəhf-mağara). Hədislərdə nağıl olunur ki, qədim Misirdə Dəqyanus adlı zalım bir hökmdarın 6 nəfər saray xadimi onun zülmündən qaçır, yolda bir çoban da öz iti ilə onlara qoşulur. Gecələdikləri bir mağarada guya allah onlara qiyamətə qədər əbədi yuxu vermişdir, onların hamısı, o cümlədən çobanın iti də guya behiştə gedəcəkdir və o dünyada Əshabi-kəhfin iti ilə Lutun arvadının dərisini bir-birilə dəyişəcəklər.*

[2] *Zal farsların qədim əfsanəvi qəhrəmanı, misilsiz pəhləvan Rüstəmin atasıdır. Onun atası Sam, anadan ağ tüklü doğulmuş, buna görə də ona qoca mənasını verən Zal adını vermişdir.*

vermiş, köhnə, yaramaz xasiyyətlərdən oğlanda əsər qalmamışdır.

Hökmdar vəzirin sözünə gülümsəyib dedi:

**Şeir**

İnsanla qalmağa etsə də adət,
Qurd oğlu qurd olar, yenə, nəhayət.

Bu hadisədən bir-iki il keçdi. Oğlan bir dəstə yerli dələduzlarla dostlaşıb, onlarla yoldaşlıq etməyə başladı. Əvvəlki quldurluq xasiyyətləri onda yenidən baş qaldırdı. Nəhayət, günlərin birində fürsət tapıb həmin vəziri, onun iki oğlunu öldürdü, evini soyub, var-dövlətini yığışdırdı, quldurların mağarasına qaçıb, atasının yerində oturdu və yol kəsməyə başladı. Padşah bu hadisədən xəbərdar olduqda təəssüflənib dedi:

**Şeir**

İti şəmşir olmaz paslı dəmirdən,
Gözləmə nakəsdən adamlığı sən.
Yağışla sulansa bağ da, şoran da,
Bağda lalə bitər, şoranda tikən.

**Şeir**

Şoranlıq bitirməz sünbül heç zaman,
O yerdə zəhməti eyləmə hədər.
Pisə yaxşılıqla, yaxşıya pislik,
Mənaca bir şeydir düşünsən əgər.

## 6. Hekayət

Belə rəvayət edirlər ki, Əcəm[1] hökmdarlarından biri rəiyyətin var-yoxunu əlindən alıb, onlara əziyyət verməyə baş-

[1] *Ərəblər ərəb olmayanı, türklər isə iranlıları əcəm, yaxud əcəmi (yəni əcnəbi) adlandırmışlar.*

ladı. İş o yerə çatdı ki, xalq bu zülm və sitəmə davam gətirməyib başqa ölkələrə qaçmağa və qürbətdə yaşamağa məcbur oldu. Əhali əskildikcə ölkədə məhsul da azaldı, xəzinə boş qaldı. Bunu görən düşmənlər təzyiq göstərməyə başladılar.

**Beyt**

Kim müsibət günü istər ona bir yar olsun,
De ki, xoş gündə özü xalqa havadar olsun.
Qulağı halqalı qul, hörməti görməzsə gedər,
Lütf qıl, lütf sənə yadları da bir qul edər.

Bir gün onun hüzurunda «Şahnamə»[1] kitabından Zöhhakın[2] devrilməsi və Fridunun qələbəsi haqqındakı hissəni oxuyurdular. Vəzir soruşdu:

– Heç bilmək olmur ki, xəzinəsi, mülkü və qüvvəsi olmaya-olmaya Fridun hökmdarlığı necə ələ ala bildi?

Hökmdar dedi:

– Məgər eşitmədinmi ki, camaat ona tərəfdar çıxıb, ətrafında sıx birləşmiş, taxt-tacı ələ gətirməsinə kömək etmişdir.

Vəzir dedi:

– Ey hökmdar, əgər camaatı ətrafında sıx birləşdirmək şahlığın əsasıdırsa, bəs nə üçün sən xalqı başından dağıdırsan? Məgər sən şahlıq etmək istəmirsən?

---

[1] *«Şahnamə» – Əbülqasım Firdovsinin (934-1020) məşhur əsəridir. Firdovsi bu ölməz epopeyasında İranın ən qədim dövrlərindən başlamış VII əsrə qədərki hökmdar və qəhrəmanlarını, tarixi-əfsanəvi hadisələri nəzmə çəkmişdir.*

[2] *Zöhhak – İranın qədim tarixində əfsanəvi hökmdardır. Rəvayətə görə ərəb nəslindəndir. Guya iblis onun hər çiynində bir ilan bitirmiş və bu ilanlara hər gün iki cavanın beyni verilirdi. Bundan cana doyan xalq Dəmirçi Gavənin başçılığı ilə üsyan edib, Zöhhakı öldürmüş və Cəmşidin oğlu Fridunu taxta oturtmuşdur.*

**Beyt**

Ordunu can kimi bəslə hər zaman,
Orduyla sayılar hər yerdə sultan.

Hökmdar dedi:

– Ordu və camaatı ətrafımızda birləşdirməyin şərti nədir?

Vəzir dedi:

– Şah səxavətli olmalıdır ki, onun ətrafına toplansınlar; rəhmli olmalıdır ki, ondan qorxub qaçmasınlar; səndə isə bunların heç biri yoxdur.

**Şeir**

Şahlara yaraşmaz zülm etmək bir an,
Qurddan ola bilməz sürüyə çoban.
Padişah zülm etsə xalqına əgər,
Özü öz mülkünü tar-mar edər.

Ağıllı vəzirin məsləhəti hökmdarın xoşuna gəlmədi, hiddətlənərək onu zindana göndərdi. Çox çəkmədi ki, hökmdarın əmoğlanları üsyan edib atalarının haqqını almaq üçün qoşun çəkdilər. Şahın zülm və sitəminə davam gətirməyən, vətənini tərk etmiş adamlar da qayıdıb onlara qoşuldular. Nəticədə hökmdar məğlub oldu və hökmdarlıq əmoğlanlarının əlinə keçdi.

**Şeir**

Rəiyyətə zülm edərsə bir ağılsız hökmdar,
Düşmən bir gün edər onun ölkəsini tar-mar.
Rəiyyətlə sülh edən şah dəf edər hər afəti,
Adil şahın ləşkəridir çünki öz rəiyyəti.

## II FƏSİL
## DƏRVİŞLƏRİN ƏXLAQI HAQQINDA

### 1.Hekayət

Yüksək mənsəbli bir şəxs zahiddən soruşdu:

– Adamlar filan abidin dalınca pis danışırlar, sən onun haqqında nə deyə bilərsən?

Dedi:

– Zahirində eyib görmürəm, batininə isə bələd deyiləm.

**Şeir**

Hörmət et, hər zaman, yaxşı adam bil,
Hər kimi çox sadə geyinmiş görsən.
Batini dərk etmək bir müşkül işdir.
Darğa tək hər evə daxil olma sən.

### 2. Hekayət

Gördüm bir dərviş üzünü Kəbənin[1] astanasına sürtür və hey belə deyir: «Ey kərim allah, rəhim allah, sən özün bilirsən ki, zalim və cahillərdən nə xətalar baş verə bilər».

**Qitə**

Xidmətində müqəssirəm əfv et,
Çünki yoxdur ümid taətdən,
Tövbə eylər günah üçün asi,
Arif üzr istəyər ibadətdən.

Abidlər dualarının icrətini, tacirlər mallarının qiymətini istərlər. Mən isə nə dua etmişəm, nə mal gətirmişəm, baş götürüb dərgahına dilənməyə gəlmişəm. Vəziyyətimə görə yox, ləyaqətimə görə mənimlə rəftar et.

---

[1] *Kəbə – Ərəbistanda Məkkə şəhərində müsəlmanların böyük ziyarətgahıdır.*

**Şeir**

Kəbənin önündə bir yolçu gördüm,
Ağlaya-ağlaya deyirdi haman:
«Demirəm qəbul et itaətimi,
Lütf edib keç mənim günahlarımdan».

**Beyt**

Öldürsən ya bağışlasan mən dönmərəm astanandan,
Üzü yola bir qulunam, əmrin nədir, nədir fərman?

**3.Hekayət**

Bir dəfə gördülər ki, Əbdülqadir Gilani[1] (Allah ona rəhmət eləsin) üzünü Kəbə mehrabının xırda daşlarına sürtüb belə deyir: «İlahi, məni bağışla, əzab-əziyyət verəcəksənsə, qiyamət günü kor elə ki, bağışlananları görüb utanmayım».

**Şeir**

Hər səhər küləyi əsən zamanda,
Torpağa üz sürtüb yalvarıram mən.
«Ey səni heç zaman unutmadığım,
Heç məni yadına salrsanmı sən?..»

**4. Hekayət**

Bir gün zahidin evinə oğru gəldi. Nə qədər axtardısa bir şey tapa bilməyib kədərləndi. Bunu görən zahid, altındakı palazı çəkib oğrunun yolu üstə atdı ki, əliboş qayıtmasın.

**Şeir**

Eşitdim ki, allah adamı bir an,
Düşmən qəlbini də sıxmaz heç zaman.

[1] *Əbdülqədir Gilani – İranda məşhur təriqət başçısı olub 1165-ci ildə vəfat etmişdir.*

Belə bir məqamə çata bilməzsən,
Sən ki dostlarınla hey vuruşursan.

**Tərbiyət.** Sədaqət əhlinin səmimiyyəti üzdə də, dalda da eyni olar, naəhl adamlar isə üzdə sənə qurban olar, dalda isə eyib tutar.

**Beyt**

Zahirdə bir yazıq qoyuna oxşar,
Arxada sanki bir quduz canavar.

**Beyt**

Hər kim sənə özgənin eybini dedi, bişək
Sənin də hər eybini başqasına deyəcək.

## 13. Hekayət

Bir dərvişə böyük ehtiyac üz verdi. Sadiq dostunun kilimini oğurladı. Qazı əlini kəsməyi əmr etdi. Kilim sahibi rəhmə gəlib dedi:

– Mən malımı ona halal edirəm.

Qazı dedi:

– Sənin halal etməyinlə şəriət qanunu poza bilmərəm. Kilim sahibi isə dedi:

– Doğru buyursunuz, lakin yoxsul malı vəqf [1] malıdır, vəqf malını oğurlayanın isə əlini kəsməzlər.

Qazı oğrunu bağışlayıb danlamağa başladı və dedi:

– Başına yer qəhət idi ki, gedib belə bir dostunun evini yardın?

Dedi:

– Qazı sağ olsun, eşitməmisən ki, deyiblər:

«Dost evini sil-süpür et, düşmən qapısına getmə?»

---

[1] *Vəqf malı – Məscidə və dini-xeyriyyə idarəsinə məxsus olan mal, mülkiyyət*

**Beyt**

Ruhdan düşmə, üz verərsə sənə çətinlik günü
Soy düşmənin dərisini, dostunsa al kürkünü.

## III FƏSİL
## QƏNAƏTİN FƏZİLƏTİ HAQQINDA

### 1. Hekayət

Hələb[1] şəhərinin bəzzazlar bazarında Qərb ölkələrindən gəlmiş bir dilənçiyə rast gəldim. O, xalqa müraciətlə deyirdi:

– Ey varlılar, sizdə insaf, bizdə qənaət olsaydı, dünyada dilənçilik qalmazdı.

**Şeir**

Məni ey qənaət, dövlətli eylə,
Dünyanın səndən xoş neməti yoxdur.
Loğmanın hikməti səbrilə oldu,
Kimdə səbr olmasa hikməti yoxdur.

### 2.Hekayət

Misirdə iki şahzadə var idi. Biri elm oxuyur, digəri mal toplayırdı. Nəhayət, biri əsrinin alimi, o biri Misirin hakimi oldu. Bir gün hakim qardaş alim qardaşa həqarətlə baxıb dedi:

– Mən səltənət aldım, sən isə yoxsulluqda qaldın.

Dedi:

– Mən öz taleyim üçün o böyük allaha daha çox şükür etməliyəm, çünki peyğəmbərlər və alimlər mirası, yəni elm

[1] *Hələb – Suriyada şəhərdir*

mənə: Fironun və Haman mirası, yəni Misir hökmdarlığı isə sənə çatmışdır.

**Şeir**

Qarıncayam, ayaq altda əzilləm,
Mən deyiləm nəştər vuran bir arı.
Bu nemətə necə şükr etməyim ki,
Gücüm yoxdur incidəm insanları.

### 3. Hekayət

Nağıl edirlər ki, bir dərviş ehtiyacın alovu içində yanır, cındır paltarını yamayır, öz küskün könlünə təskinlik verib deyirdi:

**Beyt**

Biz razıyıq sadə paltar, su və quru çörəkdən,
Xoşdur çəkmək möhnət yükü xalq minnəti çəkməkdən.

Kimsə ona dedi:

– Nə oturubsan, dur, filan adamın yanına get! O, çox səxavət, kəramət sahibidir, dərvişlərə rəğbət bəsləyir. Hamı onu ürəkdən sevir. Halından xəbərdar olsa, məmnuniyyətlə qarşılayıb sənə hörmət edər.

Dərviş dedi:

– Sus, başqalarına əl açmaqdansa, aclıq içində ölmək yaxşıdır!

**Şeir**

Yamaq tikib bir guşədə səbr eyləmək yaxşıdır,
Nə ki, gedib paltar üçün xanı tərif edəsən,
Doğrudan da, bir cəhənnəm işgəncəsi kimidir,
Öz qonşunun sayəsində sən cənnətə gedəsən.

## 4.Hekayət

Əcəm hökmdarlarından biri Məhəmməd peyğəmbərin yanına bilikli bir həkim göndərdi. Həkim bir neçə il Ərəbistan ölkələrində qaldı, lakin bu müddət ərzində heç kim ona müalicə üçün müraciət etmədi. Nəhayət, o, Məhəmməd peyğəmbərin yanına gəlib şikayətləndi:

– Məni sizin adamlarınızı müalicə etmək üçün buraya göndəriblər. Ancaq bu müddət ərzində heç kim yanıma gəlməyibdir ki, öhdəmə düşən vəzifəni yerinə yetirəm.

Peyğəmbər dedi:

– Bu camaatın bir adəti var: acmamış yeməzlər, doymamış yeməkdən əl çəkərlər.

Həkim dedi:

– Demək onların sağlamlığının səbəbi bu imiş.

Sonra təzim edib yeri öpdü və getdi.

### Şeir

Ariflər o zaman başlar kəlamə,
Ya da əl uzadar o vaxt təamə,
Ki, söz söyləməsə törəsin ziyan,
Ya da ac qalarsa zəifləsin can.
Mütləq dediyində bir hikmət olar
Yeyib içdiyi də bir qüvvət olar.

## 5. Hekayət

Biri hey tövbə edər, sonra da həddən çox yeyərdi. Axırda bir şeyx ona dedi:

– Görünür, çox yeməyə adət edibsən, nəfsin asıldığı tövbə bağı isə tükdən də nazikdir, sən ki, bu nəfsini belə bəsləyirsən, o, tük nədir lap zənciri də qırar.

**Beyt**

Birisi bəslərdi qurd balasını,
Böyücək məhv etdi öz ağasını.

### 6. Hekayət

Ərdəşir Babəkan[1] haqqında nağıl edirlər ki, bir gün o, bir ərəb hakimindən soruşdu:

– Gündə nə qədər yemək lazımdır?

Dedi:

– Yüz dirəm ağırlığında.

Dedi:

– Bu qədərdən nə güc olar?

Dedi:

– Bunun gücü səni ayaq üstə saxlayır. Ondan çox yesən artıq yük olar.

**Beyt**

Yemək lazım yaşamaqçın, deməkçin,
Səncə həyat lazım ancaq yeməkçin?!

## IV FƏSİL
## SUSMAĞIN FAYDALARI HAQQINDA

### 1. Hekayət

Dostlarımdan birinə dedim:

– «Danışmaqdan ona görə imtina edirəm ki, çox zaman sözün yaxşısı da olur, pisi də; düşmənlər isə yalnız pisini görürlər.»

Dedi:

– Düşmən yaxşısını görməsə yaxşıdır.

---

[1] *Ərdəşir Babəkan (226-240) – Sasani sülaləsinin banisi hesab olunur.*

**Beyt**

Bəllidir ki, xeyir işin şər görünər düşmənə
Bilə-bilə yalandan o, böhtan düzəldər sənə.

**Beyt**

Bil ədavət gözündə eyibdir hər bir hünər,
Sədi – güldür, lakin o, düşmənə xar görünər.

**Beyt**

Həyat verən bu günəşin özü də,
Çirkin şeydir yarasanın gözündə.

**2. Hekayət**

Bir tacirə min dinar ziyan dəydi. Oğluna tapşırdı ki, bu haqda heç kimə bir söz deməsin.

Oğlu dedi:

– Ey ata, əmr sizindir, demərəm. Lakin bir başa sal görüm, gizlətməyin nə faydası?

Dedi:

– Ondan ötrü ki, müsibət ikiqat olmasın: biri sərmayənin əldən getməsi, ikincisi qonşuların tənə etməsin.

**Beyt**

Dərdini düşmənə söyləmə aman,
Qəlbində toy-bayram eyləyər haman.

**3.Hekayət**

Ağıllı-kamallı, elmli məlumatlı bir gənc var idi, lakin təbiətən adamlara uyuşmaz, alimlər məclisində bir kəlmə də danışmazdı. Bir dəfə atası ona dedi:

– Ey oğul, sən də görüb bildiklərindən bir şey danış!

Dedi:

– Qorxuram, bilmədiklərimdən soruşalar, xəcalət çəkəm.

**Şeir**

Deyirlər ki, bir sufi[1]
Mıx çalırmış başmağına
Bir xan onu tutub deyir:
«Nal vur atın ayağına.»

**Beyt**

Kimsə bir söz deməz sən sussan əgər,
Lakin söz dedinmi, dəlil də göstər.

## 4.Hekayət

Hörmətli bir alimin bir dinsizlə (allah ona lənət eləsin) mübahisəsi düşdü, lakin onunla höcətləşə bilmədi. Söz qalxanını yerə qoyub geri qayıtdı. Biri ona dedi:

– Bu qədər bilik və kəmal sahibi olmağına baxmayaraq, bir dinsizin öhdəsindən gələ bilmədin.

Dedi:

– Mənim elmim Quran, hədis və şeyxlərin dediyinə əsaslanır, o isə bunların heç birinə inanmır, onun dedikləri də mənim işimə yaramır.

**Beyt**

Bir kəs ki, Qurana inanmayır heç
Cavabı odur ki, cavab vermə keç!

## 5. Hekayət

Həkim Calinus[2] gördü ki, bir nadan bir alimin yaxasından tutub onu təhqir eləyir.

---

[1] *Sufi – dərviş, dünya nemətlərindən əl çəkib, əbədi aləm, axirət, allaha qovuşmaq ideyası ilə yaşayan, tərki-dünya; sufilər öz əqidələri etibarilə müxtəlifdir.*

[2] *Həkim Calinus – qədim yunan filosoflarındandır.*

Dedi:

– Əgər o, alim olsaydı, nadanla işi bu dərəcəyə çatdırmazdı.

**Şeir**

Ağıllı olanlar heç vaxt vuruşmaz,
Alim nadanlara heç də baş qoşmaz.
Sözünü acıqla söyləsə nadan,
Ağıllı dindirər onu mehriban.
İki alim qoymaz bir tük qırılsın,
İstəməzlər sülhə zəncir vurulsun.
Hər iki sözləşən olarsa cahil,
Ehtiram zəncirin tez qırarlar bil.
Birinə bir nadan çirkin söz dedi.
O biri təmkinlə belə söylədi:
Sən məndə çox eyib axtarma hədər,
Bilməzsən eybimi mən bilən qədər!

## 6. Hekayət

Səhbani-Vail[1] fəsahətlə danışmaqda misilsiz idi. Belə ki, bütün il boyu danışsaydı, onun sözlərində təkrar görməzdin. Əgər bir sözü ikinci dəfə deməyə məcbur olsaydı, başqa ibarələrlə ifadə edərdi. Bunu da deyim ki, saray xadimlərinə layiq xasiyyətlərdən biri də məhz bundan ibarətdir.

**Şeir**

Əgər söz olarsa incə və şirin,
O sözü eşidən deyər afərin.
Bir dəfə dedinmi, təkrar etmə sən,
Xoş olar halvanı bir kərə yesən.

[1] *Səhbani-Vail – İslamiyyətin ilk dövründə məşhur ərəb natiqi və alimidir.*

## 7. Hekayət

Eşitmişəm ki, alimlərdən biri demişdir:

– Başqasının sözünü kəsib danışmaq, öz qanmazlığını etiraf etmək deməkdir.

### Şeir

Hər sözün ey alim, baş-ayağı var,
Sözün arasına söz qatma zinhar.
Ağıllı sakitlik görməsə bir an,
Dil açıb bir söz də söyləməz inan.

## 8. Hekayət

Sultan Mahmudun xidmətçilərindən bir neçəsi Həsən Meymədidən[1] soruşdu:

– Sultan hansı məsələ haqqında sənlə məsləhət edirdi?

Həsən Meymədi cavab verdi:

– Məncə o məsələdən sizin də xəbəriniz var.

Dedilər:

– Sultan sənə dediyini bizə demir.

Dedi:

– Ona görə ki, başqasına deməyəcəyimə arxayındır. Bəs nə üçün məndən soruşursunuz?

### Beyt

Bildiyi hər sözü söyləməz insan,
Verməz şah sirrinə başını qurban.

---

[1] *Həsən Meymədi – Sultan Mahmud Qəznəvinin vəziri idi.*

## V FƏSİL
## EŞQ VƏ CAVANLIQ HAQQINDA

### 1.Hekayət

Həsən Meyməndidən soruşdular:

– Sultan Mahmudun hər biri dünya gözəli adlandırıla biləcək bu qədər qulamı olduğu halda, nə üçün Ayazı hamısından çox istəyir, halbuki, Ayaz o qədər də yaraşıqlı deyildir.

Dedi:

– Ürəyə yatan, gözə də xoş dəyər.

**Şeir**

Padişah hər kəsə eləsə hörmət,
Pis iş də tutsa, hey tərif olunar.
Şah kimdən azacıq bədgüman olsa,
Ən yaxın adamı çıxmaz havadar.

**Şeir**

Kim nəyə baxarsa inkar gözüylə,
Yusif hüsnünə də çirkindir deyər.
Lakin məhəbbətlə o, divə baxsa,
Gözünə misilsiz mələk görünər.

### 2. Hekayət

Deyirlər bir xacənin çox gözəl bir qulu var idi və xacə onunla dostluq büsatı qurmaq istəyirdi. Dostlarından birinə dedi:

– Heyif bu boy-buxundan, bu gözəllikdən ki, özü kobud, dili uzundur.

Dedi:

– Qardaşım, eyş-işrət keçirdiyin adamdan hörmət göz-

ləmə, aşiq-məşuqluq ortaya çıxanda, hakim məhkumluq aradan qalxar.

**Beyt**

Xacə bir nazənin bir pərisifət –
Qul ilə oynarkən gülərsə üzü,
Təəccüb deyildir qulu naz etsə,
Naz çəksə həvəslə xacənin özü…

**3. Hekayət**

Gördüm bir zahid eşq içində yanır, nə səbr edə bilir, nə dərdin açır. Çox əziyyət çəkir, çox məzəmmət eşidir, lakin fikrindən də dönməyir və deyirdi:

**Şeir**

Əlimi üzmərəm mən ətəyindən,
Bir iti qılıncla vursan da məni.
Axı səndən başqa ümidim yoxdur,
Qaçsan bil taparam yenə də səni.

Bir dəfə onu danlayıb dedim:

– Səlis əqlinə nə olmuşdur ki, xəsis nəfsin ona üstün gəldi?

Bir az fikrə getdi, sonra dedi:

**Şeir**

Haraya girərsə eşqin sultanı,
Alar iradədən tabü-təvanı.
Çirkaba qərq olan biçarə məgər,
Dünyada heç təmiz yaşaya bilər?

**4.Hekayət**

Birisi könlünü vermiş, canından keçmişdi. Lakin göz dikdiyi yer qorxulu, getmək istədiyi yer təhlükəli idi: hazır

kükə deyildi ki, əl atıb götürsün, xam cücə deyildi ki, tez tora düşsün.

**Beyt**

Puluna baxmazsa nazənin dilbər,
Qızılın torpaqla olar bərabər.

Yenə nəsihət edərək ona dedilər:

– Bu sevdadan əl çək, çoxları bu xam xəyala düşmüş, lakin gör necə olmuş, nə hala düşmüşlər?!

Nalə çəkib dedi:

**Şeir**

A dostlar, etməyin mənə nəsihət,
Ki, mənim gözlərim ondadır fəqət,
Cəngavər məhv edər zorla düşməni,
Yar isə naz ilə öldürür məni.

O necə məhəbbətdir ki, can qorxusundan canandan əl çəkəsən?!

**Şeir**

Sən əgər özünü unutmamışsan,
Sənin aşiqliyin yalandır demək.
Dost ilə birləşmək mümkün deyilsə,
Onun arzusuyla öləsən gərək.

**Beyt**

İmkan tapsam tutaram ətəyindən nigarın,
Yoxsa gedib ölərəm, qapısında o yarın.

Onun işləri ilə maraqlanan, qayğı göstərib səhhətinin hayına qalan yaxın adamları çox səy göstərdilər, öyüd verdilər, yalvardılar, yaxardılar, xeyri olmadı.

**Beyt**

Təbibim deyir ki, səbr eylə, dayan,
Bu həris nəfs isə dözməyir bir an.

**Şeir**

Bilirsənmi nazlı bir dilbər gecə,
Aşiqinə pıçıldadı gizlicə.
Belə diqqət verirkən sən özünə,
Heç qiymətim görünərmi gözünə?

Nağıl edirlər ki, onun aşiq olduğu şahzadəyə xəbər çatdırdılar ki, çoxdandır xoş təbiətli, şirindil bir cavan bu tərəflərə gəlib-gedir, gözəl sözlər danışır, mənalı söhbətlər edir. Deyəsən, qəlbində bir məhəbbət, başında bir sevda var.

Şahzadə başa düşdü ki, cavanın könlünü çalmış, onu öz bəla girdabına salmışdır. Tez ata minib o tərəfə getdi. Cavan uzaqdan şahzadənin gəldiyini gördükdə ağlayaraq dedi:

**Beyt**

Qatilim yenə də gəlib dayandı,
Sanki qurbanına ürəyi yandı.

Şahzadə cavanı xoş dindirdi, kefini soruşdu, adı, yeri, sənətilə maraqlandı, cavan dostluq dəryasına elə qərq olmuşdu ki, nəfəs almağa taqəti, cavab verməyə qüdrəti olmadı.

**Beyt**

Əzbərdən bilsən də Quranı inan,
Çaşsan əlif, bey də çıxar yadından.

Şahzadə dedi:

– Nə üçün mənimlə danışmırsan, mən də dərvişəm, dərvişlərlə oturub-duranam, hətta onlara qulağı sırğalı bir qulam.

Bu zaman məhbubun nəvazişindən qüvvət alan cavan başını dostluq dəryasının dalğaları arasından çıxaraq dedi:

**Beyt**

Sənlə bir məkanda olmaq bir əmri-mahal,
Sən sözə dil açanda olar mənim dilim lal.

Bunu dedi, bərkdən bir nərə çəkdi və canın haqqa təslim etdi…

**5. Hekayət**

Son dərəcə gözəl bir şagird var idi, insan təbiəti gözəlliyə meyl etdiyi üçün müəllim də ona mail olmuşdu.

Ona görə başqa şagirdlərə etdiyi əziyyət və tənbehi ona rəva görməzdi. Təklikdə rast gələndə isə ona belə deyərdi:

**Şeir**

Ey mələk, mən sənə elə valehəm,
Ki, bütün varlığım çıxıb yadımdan.
Kipriyin qəlbimə oxlar atsa da,
Mən kiprik vurmayıb baxaram heyran.

Bir dəfə şagird ona dedi:

– Dərsimə nəzər yetirdiyin kimi, tərbiyəmə də fikir ver ki, xoşuna gəlməyən şeyləri düzəltməyə çalışım.

Dedi::

– Ey oğlan, sən bunu başqalarından soruş, o gözlə ki, mən sənə baxıram, hünərdən başqa bir şey görmürəm.

**Şeir**

Bədxahın gözləri çıxsın dünyada,
Görür nöqsan kimi hər hünərini.
Varsa yetmiş eybin bircə hünərin,
Dost ancaq görər o bir hünərini.

**6. Hekayət**

Yadımdadır bir gecə sevimli dilbərim qapıdan girdi, onu görcək özümü itirib elə tələsik ayağa qalxdım ki, ətəyim yellənib çırağı söndürdü.

**Beyt**

Bu, yuxumu, gün çıxıb qatı zülməti boğdu,
Bu xoşbəxtlik ülkəri əcəb haradan doğdu?

O oturdu və gileylənib dedi:

– Məni görcək çırağı söndürməyində nə məna var?

Dedim:

– Bunun iki mənası var, birinci budur ki, səni görüb günəş çıxdığını zənn etdim, ikinci isə bu şeiri xatırladım:

**Şeir**

Şamın qabağını bir çirkin kəssə,
Tut öldür o saat qoy görsün hamı.
Yox, əgər şirindil bir nazəninsə,
Yapış ətəyindən tez söndür şamı.

**7. Hekayət**

Biri çoxdan idi ki, dostunu görmürdü soruşdu:

– Hardasan, nə vaxtdandır intizarını çəkirəm.

Dedi:

– İntizar çəkmək təngə gəlməkdən yaxşıdır.

**Şeir**

Gec gəldin ey nazlı məstanə gözəl,
Çəkmərəm yaxandan bu tezliklə əl.
Xoş olmaz məşuqi görmək nüdrətən,
Lazımdır yarını tez-tez görəsən.

**Hikmət.** Əgər sevgilin öz yoldaşları ilə sənin yanına gələrsə, demək, incitmək üçün gəlmişdir, çünki bu halda ya qısqanclıq baş verəcəkdir, ya düşmənçilik.

**Beyt**

Dostlarla sən məni görməyə gəlsən,
Dava axtarırsan, sülhə də gəlsən.

**Şeir**

Yar əğyarla bir anlığa belə söhbət edərkən,
Qeyrətimdən titrədim mən az qaldı ki, verəm can.
Gülüb dedi: mən məclislər çırağıyam, ey Sədi!
Mənə nə var bir pərvanə özünü etsə qurban.

## VI FƏSİL
## ZƏİFLİK VƏ QOCALIQ HAQQINDA

### 1. Hekayət

Dəməşq məscidində bir neçə alimlə mübahisə edirdik. Bu zaman bir gənc məscidə girib soruşdu:

– Sizlərdən fars dilini bilən varmı?

Hamı məni göstərdi, mən ondan soruşdum:

– Nə sözün var?

Dedi:

– Yüz əlli yaşında bir qoca can üstdədir. O, fars dilində nə isə danışır, biz isə başa düşmürük, mərhəmət göstərib qocanın yanına getmək zəhmətini qəbul etsəniz savab olar, bəlkə vəsiyyət edir.

Mən qocanın başı üstə çatan zaman o, bu şeiri oxuyurdu:

**Şeir**

Bir zaman dedim ki, kamə çataram,
Bilmədim bu arzu boş bir həvəsdir.
Təəssüf ki, ömrün bol süfrəsindən,
Bir tikə götürdük dedilər bəsdir.

Beytin mənasını şamlılara ərəbcə dedim. Onlar qocanın ömrünün uzunluğuna, eləcə də həyatın vəfasızlığına etdiyi təəssüfə təəccübləndilər. Mən qocadan soruşdum:

– Özünü necə hiss edirsən?

Cavab verdi:

– Nə deyim?

**Şeir**

Bilirsənmi bir adamın çıxarsalar dişini,
Kefi necə pozular və halı olar pərişan?

İndi özün hesab elə necə olar əhvalı,
O kəsin ki, bədənindən çıxıb gedə əziz can.

Dedim:

– Ölüm fikrini başından çıxart. Özünü qorxutma, çünki yunan filosofları demişlər:

– Bədən nə qədər sağlam olsa, onun həmişə belə qalacağına ümid bağlamaq olmaz, xəstəlik nə qədər ağır olsa, onun həmişə ölümlə nəticələnəcəyinə hökm vermək yaramaz. Müalicə etdirmək istəyirsənsə həkim çağıra bilərəm. Qoca üzünü çevirib güldü və dedi:

**Şeir**

Bir təbib görsə ki, yamandır xəstə,
Əlini tez qoyar əlinin üstə.
Xacənin xəyalı, nəqşi-eyvandır,
Ev isə binadan belə virandır.
Qocanın işləri olarkən əngəl,
Sürtürdü arvadı hey ona səndəl.
Əhval ki dolaşdı, pozuldu məzac,
Nə əfsun sağaldar, nə də ki əlac.

**2. Hekayət**

Diyarbəkrdə bir qocaya qonaq oldum. Onun çoxlu malı və gözəl bir oğlu var idi. Bir gecə qoca dedi:

– Ömrümdə bundan başqa övladım olmayıbdır. Bir vadidə ziyarətgah deyən bir ağac vardır ki, adamlar dilədiklərini almaq üçün ora gedirlər. Mən həmən ağacın altında uzun gecələr oturub ağlamış və çoxlu dua etdikdən sonra allah bunu mənə əta etmişdir.

Oğlan isə bu vaxtda astadan yoldaşlarına deyirdi:

– Kaş o ağacın yerini biləydim, gedib dua eləyəydim, atam öləydi.

Ata sevinirdi ki, oğlum ağla çatıb; oğul deyinirdi ki, atam nə üçün ölmür.

**Şeir**

İllər keçir lakin güzər etmirsən,
Öz atanın məzarına heç zaman.
Sən atana nə hörmətlər etdin ki,
O hörməti gözləyirsən oğlundan?

**3.Hekayət**

Bir gün cavanlığıma salıb bərk qaçmış, yorulub gecəni bir dağın ətəyində qalmışdım. Karvanın arxasınca asta-asta gələn bir qoca dedi:

– Nə oturubsan, bura yatmaq yeri deyil!

Dedim:

– Necə yeriyim, ayağım getmir.

Dedi:

– Eşitməmisən ki, deyiblər: «Yeriyib oturmaq, qaçıb yıxılmaqdan yaxşıdır.»

**Şeir**

Ey mənzilə çatmaq üçün tələsərək can atan,
Heç tələsmə, səbrli ol, mənə qulaq as bir az,
Ərəb atı tələsərək qoşa çapar, yorular,
Dəvə isə gecə-gündüz asta gedər yorulmaz.

**4.Hekayə**

Cəld, gülər üz, şirin söz bir cavan oğlan mənimlə dostluq edirdi, heç bir dərdi ürəyinə salmaz, heç bir qəmi yaxına buraxmaz, dodaqları gülüşdən əskik olmazdı.

Çoxdan idi ki, görüşmürdük, bir dəfə ona rast gəldim, gördüm arvad almış, övlad basmış, şadlığın kökü kəsilmiş, şənlik gülü solmuş.

Dedim:

– Kefin necədir, necə dolanırsan?

Dedi:

– Uşaqlar olandan uşaqlığı buraxmışam.

**Beyt**

Uşaqlıq və gənclik, qocalıq nədir?
Bizi xofə salan bu zəmanədir.

**Şeir**

Qocaldınsa əl götür uşaqlıq şıltağından
Burax qalsın gənclərə hər oyun, hər zarafat.
Cavanlığın şövqini qocalardan gəl umma,
Gedər sular dübarə arxa qayıtmaz, əlbət.

**Şeir**

Keçdi cavanlıq daha yox iqtidar,
Ah nə yaman getdi o xoş ruzigar.
Getdi qolumdan necə şir qüvvətim,
Şadlanaram olsa penir qismətim.
Qaraltmışdı tüklərini bir qarı,
Ona dedim: ey keçən il kaftarı,
Saçlarını rəngləmək olmaz çətin,
Amma düzəlməz bu kəman qamətin.

## VII FƏSİL
## TƏRBİYƏNİN TƏSİRİ HAQQINDA

### 1.Hekayət

Bir vəzirin bir kütbeyin oğlu var idi. Bir alimin yanına göndərdi ki, buna tərbiyə ver, bəlkə ağıllana.

Alim bir müddət ona tərbiyə verdi, təsiri olmadı. Atasının yanına adam göndərib xəbər çatdırdı ki:

– Oğlun ağıllanmır, amma məni dəli edib.

**Şeir**

Heç seyqəl götürməz zatı pis dəmir,
Nə qədər çalışsan bədgöhər olar.
İti yeddi dəniz su ilə yusan,
Yaş olcaq daha da beş-betər olar.
İsanın eşşəyi Məkkəyə getsə,
Qayıdıb gələndə yenə xər olar.

### 2.Hekayət

Bir alim oğlanlarına öyüd-nəsihət verib dedi:

– Əziz oğlanlarım, sənət öyrənin ki, dünya malına etibar yoxdur. Səfərdə qızıl-gümüşün qorxusu var, ya oğru aparar, ya xərclənib qurtarar, sənət isə qaynar bulaq, tükənməz bir xəzinədir. Sənət sahibi dövlətdən məhrum olsa da, qorxusu yoxdur, çünki sənət özü elə bir dövlətdir ki, ona sahib olan hara getsə, hörmət qazanıb yuxarı başda oturar. Sənətsiz adam isə dara düşdükdə əl açıb dilənçiliklə dolanar.

**Beyt**

Ağırdır rütbədən düşüb qul olmaq,
Naza öyrəşəndən sonrakı danlaq.

**Şeir**

Nagahan Şamda bir iğtişaş düşdü,
Hərə baş götürüb qaçdı bir yana.
Elmli, kamallı kəndli övladı,
Gedib vəzir oldu şaha, sultana.
Lakin fərasətsiz vəzir balası,
Kəndlərdə diləndi hey yana-yana.

**Şeir**

Ata mirasını istəyirsənsə,
Çalışıb atanın elmini öyrən!
Çünki dövlətini bir gün içində,
Havaya sovurub xərc edəcəksən.

**3.Hekayət**

Alimlərdən biri bir şahzadəyə dərs deyir, lakin rəhmsizcə döyür, olmazın əziyyətlər verirdi. Bir dəfə uşaq tab gətirə bilməyib atasının yanına şikayətə getdi. Köynəyini çıxarıb göyərmiş bədənini atasına göstərdi. Atasının ürəyi yandı, müəllimini çağırtdırıb dedi:

– Mənim oğluma etdiyin o əziyyət və tənbihi heç bir rəiyyət övladına etmirsən, bunun səbəbi nədir?

Dedi:

– Səbəbi odur ki, gərək hamı danışanda ağzının sözünü bilsin, xalq yanında özünü yaxşı aparsın, xüsusilə padşahlar; çünki şahların dediyi hər söz dillər əzbəri, tutduğu hər iş əllər vərdişi olur, qara camaatınkına isə o qədər əhəmiyyət verən olmaz.

**Şeir**

Yüz nalayiq iş görərsə bir kasıb,
Yüzdən birin bilməz dostlar-aşnalar.
Amma sultan bircə gülünc söz desə,
Dilə düşər ölkə-ölkə dolanar.

Deməli, böyüklərin uşaqlarının tərbiyəsilə daha çox məşğul olmaq, onların əxlaqının gözəlliyinə daha çox fikir vermək müəllimin borcudur.

**Şeir**

Kiçik ikən hər uşaq edilməzsə tərbiyət,
Böyüyəndə görünməz onda ədəb, nəzakət.
Yaş çubuğu, istəsən hər şəkilə salarsan,
Od qurudub düzəldər o çubuğu nəhayət.

Alimin cavabı, oğluna qarşı tələbkarlığı şahın xoşuna gəldi. Ənam bağışladı, xələt verdi, rütbəsini artırdı.

**4.Hekayət**

Məğrib ölkəsində qaraqabaq, acıdil, tündxasiyyət, mərdümazar, gəda təbiət, bədkirdar bir mədrəsə müəllimi gördüm. Sir-sifətini görən müsəlmanların işi düz gətirməz, quran oxumasına qulaq asanların üzü gülməzdi. Bakirə qızlar, pakizə oğlanlar onun əlindən zara gəlmişdilər, nə gülməyə cürət edirdilər, nə danışmağa cəsarət: Gah birinin al yanağına sillə vurardı, gah o birinin əl-ayağını fələqqəyə qoyardı. Müxtəsəri axırda, valideynlər onun qəddarlığını başa düşdülər, döydülər, incitdilər, mədrəsədən qovdular. Dərsləri həlim, yumşaq xasiyyət, mehriban, ehtiyacı olmayınca danışmayan, heç kəsin qəlbinə dəyməyən, könlünə toxunmayan bir müəllimə tapşırdılar.

Birinci müəllimin qorxusu şagirdlərin ürəyindən çıxdı,

ikinci müəllimin mələk təbiətli olduğunu görüb div xasiyyətli olmağa başladılar. Onun həlimliyinə bel bağlayıb elm öyrənməyi tərk etdilər, oxumaq əvəzinə oyun çıxardır, min bir kələk qururdular, əlindəki yazı lövhələrini bir-birinin başına vurub qırırdılar.

**Beyt**

Müəllim olarsa səssiz, mülayim,
Uşaqlar bazarda oynayır daim.

İki həftədən sonra həmən mədrəsənin yanından keçirdim, gördüm birinci müəllimin könlün alıb yenə öz yerinə qaytarmışlar. Açığını deyim ki, bərk incidim, ixtiyarsız olaraq dedim:

– «Yenə də bu iblisi bu mələklərə müəllim ediblər?!»

Dünyagörmüş hazırcavab bir qoca dedi:

**Şeir**

Mədrəsəyə göndərdi oğlunu bir padşah,
Gümüş bir lövhə qoydu onun yanına həmən.
Lövhün başı üstündə qızıl xətlə yazdırdı,
Xoşdur ustad cəfası ata məhəbbətindən.

**5.Hekayət**

Bir zahid oğluna əmilərindən çoxlu miras qaldı. O, bunu eyş-işrətə israf etməyə başladı. Görmədiyi yaramaz iş, dadmadığı içki qalmadı. Nəhayət, ona nəsihət verib dedim:

– Oğul, adamın gəliri çaya, eyş-işrət isə dəyirmana oxşar. Yalnız o adam kefi istədiyi kimi xərcləyə bilər ki, kifayət qədər gəliri olsun.

Xərcini az elə, yoxdursa gəlir,
«Dəniz mahnısında» belə deyilir.
«Yağmasa dağlara əgər yağış, qar,

Bir ilin içində Dəclə quruyar.»

– Ağlını başına toplayıb eyş-işrətdən əl çək. Var-dövlətin tükənər, darlığa düşüb peşmançılıq çəkərsən!

Kef məclisində çalğıya qulaq asmaq oğlana xoş gəldiyi üçün sözüm qulağına batmadı, etiraz edərək dedi:

– Bu gün şadlıq və sevincini sabahkı qəm qorxusu ilə puç etməyi ağıllı adamlar bəyənməzlər.

**Şeir**

O varlı-dövlətli bəxtəvərlərin,
Bəd gündən varmıdır qorxusu bəyəm?
Kefindən əl çəkmə bir anda, dostum,
Sabahkı gün üçün bu gün çəkmə qəm.

Bundan əlavə, mən səxavət taxtında oturub, mərhəmət kəmərini belimə bağlamışam və əliaçıqlıqda camaat içində şöhrət qazanmışam.

**Şeir**

Kimin səxavətdə çıxdısa adı,
Pulu saxlamağı o bacarmadı,
Elə ki, yaxşı ad qazandı insan,
Kərəm qapısını bağlamaz bir an.

Nəsihət qəbul etmədiyini və mənim isti nəfəsimin onun soyuq dəmirinə təsir etmədiyini gördükdə, öyüd verməkdən əl çəkdim, onunla dostluğu kəsdim və filosofların bu sözünü yerinə yetirdim:

«Sən sözünü de, qəbul etməsələr, özləri təqsirkardırlar.»

**Şeir**

Sözünə yoxsa da bir qulaq asan,
Sən yenə öyüd ver mərd-mərdana.
Çox çəkməz görərsən döşünə döyən.

İlişib düşəndə dara, zindana,
Əlini dizinə vurub söyləyir:
Kaş qulaq asaydım o mərd insana.

Az keçdikdən sonra, necə ki, düşünmüşdüm, elə də oldu. Onu acınacaqlı bir vəziyyətdə gördüm: paltarlarına yamağı yamaq üstündən vurub, bir loğma çörək üçün dilənirdi. Əhvalına ürəyim yandı, bu halda, onu danlamağı və yaralı ürəyinə düz səpməyi insafsızlıq hesab edib öz-özümə dedim:

**Şeir**

Yaramaz bir hərif məstlik zamanı,
Düşünməz ki, sabah qalacaq darda.
Ağaclar baharda meyvə versə də,
Qış fəsli lüt qalar soyuqda, qarda.

## VIII FƏSİL
## SÖHBƏT QAYDALARI HAQQINDA
*(Hikmət və nəsihətlər)*

**Hikmət.** Mal-dövlət yaşamaq üçündür, yaşamaq mal-dövlət yığmaq üçün deyil.

Ağıllı bir adamdan soruşdular:

– Xoşbəxt kimdir, bədbəxt kim?

Dedi:

– Xoşbəxt odur ki, əkər-yeyər, bədbəxt odur ki, qoyub-gedər.

**Beyt**

Namaz qılma o heçə ki, heç bir xeyir demədi,
Ömrü boyu ehtirasla mal topladı, yemədi.

**Hədis.** Musa əleyhisəlam Qaruna nəsihət edib deyirdi:

– Başqalarına yaxşılıq elə, necə ki, allah sənə yaxşılıq edibdir. Eşitmədi, aqibətin eşitdin.

**Şeir**

O adam ki, dinar, dirəm ilə xeyir görmədi,
Dinar, dirəm üstə başı getdi əldən nəhayət.
İstəyirsən xoş olasan sən hər iki dünyada,
Xəlqə kərəm et ki, sənə allah etmiş kəramət.

**Nəsihət.** Ərəblər deyirlər: bağışla, lakin minnət qoyma, çünki faydası özünə qayıdacaqdır.

**Şeir**

Kəramət ağacı hara düşdüsə,
Boy atıb yüksəldi fələklərəcən.
Əgər istəyirsən bar verə daim,
Minnət ərəsilə onu kəsmə sən.

**Şeir**

Allaha şükr elə, ki fayda vardır
Onun baxışında, fəzilətində,
Şaha minnət qoyma xidmətinlə, bil
Səni o saxlamış öz xidmətində.

**Hikmət.** İki adam havayı zəhmət çəkib, faydasız əmək sərf edər: biri yığıb yeməyən, o biri bilib etməyən.

**Şeir**

Biliyin olsa da bir ümman qədər,
Nadansan əmələn olmasa əgər,
Eşşəyə yüklənsə bir neçə kitab,
Nə alim olar o, nə də süxənvər.
Başıboş o yazıq heyvan nə bilsin,
Dalında odundur, ya kitab-dəftər.

**Nəsihət.** Elm əqidəli olmaq üçündür, dünya malı yığmaq üçün deyildir.

**Beyt**

Kim satsa biliyi, məsləki, dini,
Elə bil odlamış öz xirmənini.

**Hikmət.** Oxuduğuna əməl etməyən alim məşəl gəzdirən kora bənzər.

**Beyt**

Faydasız keçirsə ömrünü insan,
Qızılı toplayar bir şey almadan.

**Hikmət.** Ölkə ağıllı adamlarla gözəllənər, din pak adamlarla möhkəmlənər.

Şahlar alimlərin məsləhətinə daha çox möhtacdır, nəinki alimlər şahların mərhəmətinə.

**Şeir**

Ey padişah, əgər məndən istəyirsən nəsihət,
Bu mənalı sözlərimi sən həmişə sal yada:
İşi ancaq alimlərə tapşır sən əl-əlbət
Hərçənd alim işə möhtac deyildir heç dünyada.

Üç şey əbədi yaşamaz: – Mal ticarətsiz, elm mübahisəsiz və hökmdar siyasətsiz…

Pislərə rəhm edib, yaxşıları incitmək – zalimləri bağışlayıb, məzlumlara zülm etməkdir.

**Beyt**

Xəbisə nə qədər etsən ehtiram,
Sənin dövlətinə qatacaq haram.

**Hikmət.** Padşahların dostluğuna**,** uşaqların xoşavazlığına etibar yoxdur. Biri riya ilə dəyişilər, biri röya ilə.

**Beyt**

Min dostlu məşuqə könül vermə sən,
Verəndə ürəyi ayır bədəndən.

**Nəsihət.** Sirrini yoldaşına bildirmə, nə bilirsən bəlkə

bir gün düşmən oldu. Düşməninə də çox zərər vurma, bəlkə bir gün dost oldu. Gizlətmək istədiyin sözü ən sədaqətli dostuna belə demə, çünki hər bir dostun öz dostu, dostunun da öz dostu var…

**Şeir**

Susmaq çox yaxşıdır, nə ki, sirri sən
Birinə deyərək, «demə» deyəsən.
Suyunu gözündən bağla çeşmənin,
Çünki arx dolarsa daşacaq yəqin.

**Beyt**

O söz ki, aşkarda deyə bilməzsən,
Onu gizlində də heç söyləmə sən.

**Nəsihət.** Zəif düşmən tabe olursa, o bunu güclü ola bilmək xatirinə edir. Əgər dostların dostluğuna etibar yoxdursa, düşmənin yaltaqlığına necə etibar etmək olar?! Kiçik düşmənə etinasız baxmaq, xırda qığılcıma məhəl qoymamaq kimidir.

**Şeir**

Əlinə keçəntək düşməni öldür,
Çünki od yüksəlsə odlanar cahan.
Qoyma düşməni heç oxa əl atsın,
Onu tik ox ilə o əl açmadan.

**Nəsihət.** İki düşmən arasında elə söz danış ki, onlar dostlaşanda utanmayasan!

**Şeir**

İki şəxsin arasında savaş bənzər bir oda,
Odun tökər od üstünə söz gəzdirən o bədbəxt.
Vuruşanlar çox çəkməz ki, barışarlar yenidən,
O naxələf ortalıqda qalıb çəkər xəcalət,
Anlamazdır iki adam arasına od salan,
Çünki özü bu atəşdə yanacaqdır nəhayət.

**Şeir**

Sözünü dostuna yavaşca danış,
Ta qulaq asmasın qan içən əğyar,
Divar qarşısında söz deyən zaman,
Bil ki, divarın da qulaqları var.

**Hikmət.** Düşmənlə barışanın məqsədi dostlarla savaşmaqdır.

**Beyt**

Ey ağıl sahibi o dostdan yan dur,
Ki, daim düşmənlə oturub-durur.

**Nəsihət.** Bir işə başlarkən tərəddüd etsən, az zərərli tərəfini qəbul et.

**Beyt**

Sərt danışma başqası deyərsə xoş söz sənə,
Dava cavabı vermə sülh qapısın döyənə.

**Nəsihət.** Qızıl ilə düzələn işdə, canı təhlükəyə salmaq ağılsızlıqdır.

**Beyt**

Elə ki əl üzdün bütün ümiddən,
Haqlısan qılınca əl atanda sən.

**Nəsihət.** Zəif düşmənə rəhmin gəlməsin, güclənsə sənə rəhm etməyəcəkdir.

**Beyt**

Düşməni zəif görcək qürrələnmə heç zaman,
Hər sümükdə bir məğz var, hər köynəkdə bir cavan.

**Nəsihət.** Kim pis adamı öldürsə, xalqı onun bəlasından qurtarar, onu isə allahın əzabından.

**Şeir**

Yaxşılıq çox yaxşı sənətdir, amma,
Cəllad yarasına məlhəm qoyma sən.
İlana rəhm edən bilməyir məgər,
Adəm övladına zülm edir həmən.

## KİTABIN SONU

Allahın köməyilə bu «Gülüstan» kitabı bitdi və başqa müəlliflərdəki adətin əksinə olaraq özgələrinin şeirindən istifadə edilmədi.

**Beyt**

Öz köhnə xirqəni geyməyin, inan,
Yaxşıdır birovuz təzə çuxadan.

Sədinin sözlərinin əksəriyyəti sevinc gətirən və məftun edəndir. Odur ki, gözü götürməyənlər öz tənəli dillərin işə salıb deyirlər ki, nahaq yerə beyni yormaq və faydasız olaraq çıraq tüstüsünü udmaq ağıllı adamların işi deyil. Lakin arif adamlara aydındır ki, (bu sözlər də onlar üçün yazılmışdır) şəfaverici nəsihət inciləri zərif ibarə sapına düzülmüş və acı məsləhət dərmanları şirin zarafat balına qarışdırılmışdır ki, insanın yorğunluğuna mail olan təbiəti bu sərvəti qəbul etməkdən məhrum qalmasın.

**Şeir**

Yaşadıq dünyada biz də bir müddət,
Etdik bacardıqca neçə nəsihət,
Onu dinləməsə bir kəs nə olar,
Qoy bizdən dünyada olsun yadigar.
Ey oxucum, müəllifə bəxşiş dilə allahdan,
Katibə də istə onu bağışlasın girdikar,
Özünə də dua elə istəklərin doğrulsun,
Bu kitaba kim sahibsə o da olsun bəxtiyar!

## HAFİZ ŞİRAZİ



Şərq lirik janrının inkişafında misilsiz xidmət göstərmiş Şəmsəddin Məhəmməd Hafiz Şirazi 1325-ci ildə (bəzi mənbələrdə 1300-cü ildə) Şirazda anadan olmuşdur. Hafiz onun təxəllüsüdür. Quranı əzbər bildiyi üçün bu təxəllüsün ona verildiyi təxmin olunur. Atası Bəhaəddin əslən İsfahlı olsa da, sonralar Şiraza köçmüş və Şirazın varlı tacirlərindən biri olmuşdur. Hafiz atasının ölümündən sonra ailəsinin ehtiyacını ödəməkdən ötrü gecə səhərə qədər xəmirmaya hazırlayan sexdə işləmiş, səhərlər isə təhsilini davam etdirmişdir. Deyilənlərə görə o, ağır maddi ehtiyac içində olsa da, gəlirinin bir hissəsini kitab almağa sərf etmişdir. Şeir yazmağa erkən yaşlarında başlasa da, ilk mərhələdə bu sahədə uğur qazana bilməmişdir. Rəvayətə görə Şah-Nabat adlı bir qıza qovuşmaq üçün 40 gün Baba Kuhi ziyarətgahında dua ilə məşğul olur və sonda onu yuxu aparır. Yuxuda Həzrət Əli ona «elm qapıları sənin üzünə açıqdır» deyə müjdə verir. Yuxudan ayılan Hafiz hamını heyrətə gətirən bir şeir yazır. Və o gündən etibarən Hafizin şöhrəti şəhərə yayılır. Sənətə hörmət bəsləyən, həm də şeirlər yazan Şiraz hakimi Şah Şücanın (1357-1384) Hafizə rəğbəti böyük olmuşdur. Düzdür, onların arasında yaranan münaqişə Hafizi 1372-1374-cü illərdə Şiraz-

dan getməyə məcbur etsə də, o, yenidən doğma Şiraza dönmüş və həyatını davam etmişdir. 1387-ci ildə Əmir Teymur Şirazı zəbt edərkən Hafizlə görüşür. Rəvayətə görə Hafizin:

*Əgər ol türki-Şirazi bizə lütf etsə pünhanı,*
*O hindu xalına verrəm Səmərqəndi, Buxaranı –*

beytli qəzəlini oxuyan Teymur şairi yanına çağırıb qəzəblə soruşur: «Mən dünyanı fəth etdim ki, Səmərqənd və Buxaranın şöhrətini bütün aləmə yayım. Sən nə cürətlə mənim gözəl şəhərlərimi bir qara xala verirsən?».

Deyilənlərə görə Hafiz Əmir Teymura cavabında bildirmişdir ki, mən gözəlin qara xalına Səmərqənd və Buxaranı deyil, üç batman qənd və iki xurma bağışlayacağımı demişəm. Sonradan iki məşhur şəxsin səmimi danışığında Hafiz əsl həqiqəti hökmdara bildirərək əynindəki köhnə paltarlarını göstərməkdən belə çəkinmir: «Mən var-yoxumu gözəllərə bağışlamasaydım, bu günə qalmazdım». Bir çox mənbələrdə olduğu kimi, Rzaqulu xan Hidayət də Hafizin Əmir Teymurla görüşdüyü zaman paltarlarının köhnə olduğunu təsdiqləyir. Hafiz 1389-cü ildə vəfat etmiş və Şirazın gül-çiçəkli məkanı olan Müsəlla dağında dəfn olunmuşdur.

Hafiz klassik Şərq poeziyasında möcüzələr yaratmış nadir istedad sahibidir. O, yaşadığı zamandan bu günə qədər təkcə sənət aləmində deyil, həm də siyasi dairələrdə qiymətləndirilmiş və ona heyrət doğuracaq səviyyədə pərəstiş edilmişdir. Bu səbəbdən dövrün görkəmli siyasi xadimləri Bağdad hakimi Sultan Əhməd Cəlair, Hindistan hakimi Şah Mahmud Bəhməni onu öz saraylarına dəvət etmiş, Hafizi saraylarında görəcəklərindən məmnunluq duyacaqlarını bildirmişlər. Lakin Hafiz bu təklifləri qəbul etsə də, taleyin hökmü onun həyatını Şirazla bağlamışdır.

Hafiz ədəbi aləmdə divan müəllifi kimi məşhurdur. Əsərləri divan şəklində ölümündən bir qədər sonra dostu Məhəmməd Güləndam və Azərbaycan şairi Şah Qasım tərəfindən tərtib edilmişdir. Yaradıcılığında əsas yeri qəzəlləri tutur. Hafizin qəzəllərinin sayı müxtəlif sayda göstərilir. Hafizin dostu, mədrəsə yoldaşı Məhəmməd Güləndamın tərtib etdiyi divanda və Seyid Əbdürrəhim Xalxalinin tənqidi mətnində onların sayı 496, Hüseyn Pəjmanın tənqidi mətnində isə 581 olduğu göstərilir. Hafizin ayrı-ayrı müəlliflərin əsərlərinə yazmış olduğu haşiyə və şərhlər ilə yanaşı, Qurana yazdığı təfsirin mətni də əldə edilməmişdir.

Söz gülüstanının bağbanı olan Hafiz sənətində sözün müqəddəs məna mahiyyəti ilk növbədə şairin Quran üslubuna yaxınlığı ilə səsləşir. Heç şübhəsiz, Hafiz şeirlərində ölçüyəgəlməz çoxmənalığın təzahürünün başlıca səbəblərindən də biri budur. Görünür, Hafiz divanından fal kimi istifadə də bununla bağlıdır. Ömrü boyu Hafizi oxuyub öyrənən, İranda «türkün Hafizi» kimi tanınan Azərbaycanın dahi şairi M.Şəhriyar (1906-1988) onun divanından iki dəfə fal kimi istifadə etmişdir. Bu falabaxmanın biri təxəllüs ilə bağlı olmuşdur. Özünə təxəllüs seçmək istəyən Şəhriyar Hafiz divanına baxarkən ilk dəfə aşağıdakı sözləri oxumuşdur:

«Çərxi-fələk sikkəni Şəhriyarın adına döydürdü. Mən də öz şəhərimə gedib öz Şəhriyarım olmalıyam.»

Hafiz divanından Şəhriyarın 2-ci dəfə fal kimi istifadə etməsi 1934-cü ilə təsadüf edir. Şair bu barədə belə yazır: «Atam neçə dəfə allahdan arzu eləmişdi ki, Qədr gecəsində vəfat eləsin. Eləcə də oldu. 1313-cü şəmsi ilində, Ramazan ayının 23-ü gecəsi, əhyə gecələri mərasimindən sonra sübh əzanına iki saat qalmış, dodağında təbəssüm infarkt xəstəliyindən dünya-

dan köçdü. O gecə mən Xorasan yaylağı kəndlərindən birində idim. Yuxuda gördüm ki, atam üzü aya tərəf hərəkət etməkdədir. Ay işığı üzünü və sinəsini nura qərq etdiyi halda da qəhqəhə ilə gülürdü və qəhqəhəsi üfüqlərə yayılırdı. Oyananda qoca kəndli dedi: «Allahu əkbər». Sübh əzanı idi. Çırağı yandırıb qəmgin halda Hafiz «Divanı»ndan fal açdım. Bir qəzəl gəldi ki, təəccüblü olsa da, o gecəyə qədər gözümə sataşmamışdı.

*Ruze-hicran o şəbe-firqəti-yar axər şod,*
*Zədəm in fal o qozəşt əxtər o xar axer şod.*
*Bəd əz in nur blafaq dəhəm əz dele-xiş,*
*Ke be Xurşid residim o ğobar axer şod.*
*(Yarın hicran günü və ayrılıq gecəsi qurtardı,*
*Bu falı açdım, ulduz keçdi, iş qurtardı.*
*Bundan sonra öz ürəyimdən üfüqlərə nur verəcəyəm.*
*Çünki günəşə çatdıq və toz-torpaq qurtardı.)*

İki gün sonra atamın vəfatı haqqında teleqram gəldi».

Hafiz qəzəli elə mərtəbəyə qaldırmışdır ki, onun sayəsində qəzəl həm məzmun, həm də forma baxımından yeniləşmiş və beləliklə, şeirdə Hafiz üslubu formalaşa bilmişdir. Amma bununla yanaşı, Hafiz sənətdə Xəyyam, Nizami, Rumi və Sədi Şirazini birləşdirən universal poetik məktəb ənənələrinin davamçısı kimi onun inkişafına böyük töhfələr bəxş etmişdir.

## QƏZƏLLƏR

Əgər ol türki-şirazi, bizə lütf etsə pünhanı,
O hindu xalinə verrəm Səmərqəndi, Buxaranı.

Gətir, saqi, içək badə, kənar ol ahu həsrətdən,
İnan cənnətdə tapmazsan bu gül açmış Müsəllanı.

Fəğan bu şəhrə min qovğa salan duzlu gözəllərdən!
Alıblar könlümü əldən, necə türk adlı yəğmanı.

Bizim bu natəmam eşqin nədir nəfi gözəl yarə,
Bəzərmi rəngilə bir kəs məgər gülşəndə Rənanı?

Bilirdim Yusifin hüsnü tükənməz iqtidar ilə,
Ki, rüsva eyləyər bir gün cahan içrə Züleyxanı.

Acı sözlər şirin ləbdən mənimçün nuş olur, cana.
Onun tək şəhdü şəkər yox, dolansan külli dünyanı

Qulaq as, bir sözüm vardır, cahandidə həkiməm mən,
Cavanlar can ilə dinlər həmişə sözdə mənanı.

Danış sən meylə mütrübdən, burax əsrarı dünyadə,
Ki, xilqətdə açan yoxdur əzəldən bu müəmmanı.

Qəzəldir söylədin, Hafiz və ya dürrilə gövhərdir,
Gərək göylər nisar etsin ona zər tək Sürəyyanı.

* * *

Hayanda var belə bir mübtələsı hicranın?
Çürütdü ömrümü zülmü, cəfası hicranın.

Özüm qərib, köməksiz, fəqir, əsir, aşiq,
Yıxar məni bu amansız bəlası hicranın.

Düşə mənim əlimə, öldürəm haman saət,
Edəm bu göz yaşımı qanbahası hicranın.

Hara gedim, nə edim, dərdimə nə çarə qılım,
Nə eyləyim ki, verilsin cəzası hicranın?

İnanmıram ki, çıxam ayrılıq kəməndindən,
Görünməyir bu qara intəhası hicranın.

Sevəydi hicr səni, bir düşəydi hicranə,
Biləydi təkcə ölümdür dəvası hicranın.

Deyin, fəraq hara, mən hara, bu dərd hara,
Əzab üçün məni doğmuş anası hicranın?

Gülündən ayrı dönüb qanə Hafizin bağrı,
Gəlir çəməndə həmişə nəvası hicranın.

* * *

Dedim, xəta elədin eşqdə, gözəl canan,
Dedi, qəza belə vermiş əzəl mənə fərman.

Dedim ki, tanrı səni vəsl ilə edib xoşbəxt,
Dedi, mən istəməmişdim bu cür vüsal ondan.

Dedim, səni bu günə pis müsahibin salmış,
Dedi ki, taleyimə yoldaşam əzəl başdan.

Dedim, nə oldu ki, kəsdin mənimlə ülfətini?
Dedi, fələk əli ilə düşür qara hicran.

Dedim, çox içmisən, içmə bu son piyaləni sən,
Dedi, sonuncu piyalə olur qəmə dərman.

Dedim ki, ah gözəl ömrüm, nə tez ötüb getdin?
Dedi, qonaqlığının vaxtını bilir mehman.

Dedim, nədir qara xətlər sənin üzündə, dedi,
Cahanı tərk eləmək əmridir yazıb dövran.

Dedim, günəş üzünü görmüşəm səhər tezdən,
Dedi, duam bu idi sübhə dək səmalardan.

Dedim, bir az da dayan lütf elə, aman, getmə!
Dedi, bu cür tələb eylər, heyif ki, dövrü zaman.

Dedim ki, Hafizi tərk etməyə nədir illət?
Dedi, bu barədə etdim mən əhd ilə peyman.

* * *

Gəldi gül fəsli, gəlin gülşənə işrət eləyək,
Pirimiz böylə deyib, əmrinə hörmət eləyək.

Yoxdur heç kəsdə kərəm, zövqü səfa vaxtı keçir,
Səcdəni tərk eləyib badəyə beyət eləyək.

Bu gözəl fəsldə, yarəb, bizə bir yar yetir,
Ta baxıb gül üzünə könlümüzü məst eləyək.

Ərğənunsazı fələk düşmən edibdir sənətə,
Hamı birlikdə gəlin biz ona nifrət eləyək.

Gül açıb, yarpağına səpməmişik badə hələ,
Qoy vuraq başımıza dərd ilə riqqət eləyək.

Lalənin camını gülşəndə xəyalən içirik,
Mütrübə çatmayır əl, qoy belə adət eləyək.

Bülbülük, güllər içində dilimiz bağlı qalıb,
Hafiza, söylə, bu dərdin kimə söhbət eləyək?

* * *

Hər işi, hər əməli, ləl-şəkər barı şirin,
Xəlq edib xilqət əzəldən o gözəl yarı şirin.

Gül kimi incə ləbi, sərv kimi nazlı boyu,
Bir lətafətli çiçək tək hamı rəftarı şirin.

Könlümü şad eləyir, zülfü səmən yarpağı tək,
Hüsn bağındakı hər meyvəsi, hər barı şirin.

Şivəsi, nazı, şirin, çahi-zənəxdanı şirin,
Qaş-gözü, al yanağı, sinədəki narı şirin.

O xumar gözlərinə canımı qurban edərəm,
Bizə bu dərdlər ilə etdi o rüxsarı şirin.

Eşqinin selləri hərçənd kəsib qarşımızı,
Gedirik vəslə gedən qorxulu yolları şirin.

Bu fəna yollarını tutsa da min dərdü bəla,
Hafiz ümmidlə gedir dilbərinə sarı şirin.

* * *

Eşq edib könlümü alqan ki, soruşma!
Od vurub halıma hicran ki, soruşma!

Seyr edib küllü cahanı neçə dəfə,
Tapmışam bir elə canan ki, soruşma.

Sel axır dövrbərindən o nigarın,
Ah, bizim göz yaşımızdan ki, soruşma.

Mən eşitdim qulağımla, o danışdı,
Elə sözlər, elə dastan ki, soruşma.

Ayrılıq dərdini çəkdim gecə-gündüz,
Oldu könlüm evi viran ki, soruşma,

Baxma öylə qəzəbilə demərəm mən,
Öpmüşəm gül dodaqdan ki, soruşma,

Eşq üzündən yenə Hafiz bu cahanda,
Tapdı bir mərtəbə, bir şan ki, soruşma.

* * *

Dünən səfərdəki yardan xəbər verib yellər,
Verim bu könlümü mən də yelə görüm neylər.

Baxanda qəlbim əsirdi ləbin xəyalı ilə,
Çəməndə öz telini titrədən zaman güllər,

Görəndə nərgisin o tacını fəğan etdim,
Ərəqçinində, dedim, qıvrılıb qara tellər,

Gecə çırağla, səhərlər küləklə həmsirrəm,
Fəqət yayır sözümü aləmə bütün ellər.

Səhər nəsimi gətirdi vüsal müjdəsini,
Onun əliylə açıldı ürəkdə müşgüllər.

Bu gün göründü gözümdə nəsihətin əsəri,
İlahi, şad ola daim görüm şirin dillər.

Mənim vüsal gecəsi könlümə şəfəq yağdı,
Unutmaram o dəmi keçsə də uzun illər.

Təmiz ürəklə yetişdin müradə, ey Hafiz,
Təmiz ürəklilərə dəyməsin qara əllər.

* * *

Bir dənə meyvə dərəm mən o bağından, nə olar?
Nur alam bircə gecə şah çirağından, nə olar?

Kölgəsində o yaşıldon ucaboy sərvin əgər,
Baş əyib fəxrlə öpsək ayağından, nə olar?

Yaralı könlümüzü naz ilə odlara yaxan,
Dərman etsən ona öz gül yanağından, nə olar?

Ömrü sərf eyləmişəm yar ilə, meyxanə ilə,
Tozlu-torpaqlı məçidlər bucağından nə olar?

Eşqinin badəsi dünyadə məni ölməz edib,
Vahi bir abi-həyatın bulağından nə olar?

Məskən etdim özümə dilbərimin kuçəsini,
Zahidin verdiyi cənnət sorağından nə olar?

Bildi aşiqliyimi xacə mənə söz demədi,
Hafizi qovma sən öz vəsl bağından, nə olar.

* * *

Aşiqləri bəlayə saldı gözəl camalın,
Bənd etdi işvə ilə min qəlbi qarə xalın.

Hicrində, sən bilərdin, aşiqlərin nə çəkmiş,
Gəlsəydi yoxlamaqçın heç olmasa xəyalın.

Yox qəmlərin hesabı, saqi, gətir şərabı,
Ancaq odur əlacı bu dərd ilə məlalın.

Gül dövrü kef zamanı, zövqü səfa içində
Tutmaq gərək əlindən sən qaşları hilalın.

Canan ayağın öpmək olsa sənə müyəssər,
Artar o şahdan artıq, Hafiz, sənin cəlalın.

* * *

Gəl, gəl, gözəlim, lütfilə bir an mənə can ol,
Yan halimə könlüm kimi sinəmdə nihan ol.

Aç şişəni, doldur qədəhi, sevgili saqi!
Sonra bu cahan mülkünə söylə, ramazan ol.

Tərk eylə, gülüm, dini, geyin rind libası,
Pak qəlbin ilə cəhd elə məşhuri-cahan ol.

Söylər gözəli ki, nigəranəm, mənə rəhm et,
Axır gələrəm, gözlə, əzizim, nigaran ol.

Ey qəlb, qan etdi səni o ləbləri yarın,
Dilbər belə istər, nə olar, səbr elə, qan ol.

Silməkçin ürəkdən gülümün dərd-qubarın,
Ey göz yaşı, ax sel kimi sən, üzdə rəvan ol.

Hafiz ki deyir: Cami-Cəm olsun mənə könlün,
Ey qəlb, onun xatirinə cümlə cahan ol.

* * *

Yad edib aşiqini nazlı nigarım bu gecə!
Allah, allah, yenə də gəldi o yarım bu gecə!

Görcəyin qaşlarını səcdə edib baş əyirəm,
Çatdırıb aşiqini kamına tanrım bu gecə.

Bəxtimin gülşəninə vəsli çiçək səpdi onun,
Ömrümə verdi səfa tazə baharım bu gecə.

«Haq» yazar axsa qanım zülm ilə Mənsur kimi,
Haqdan ayrı nə olar başqa şüarım bu gecə?!

«Leylətül-qədr» kimi telləri keçmiş əlimə,
Sığmayır dünyalara dövlətü varım bu gecə.

Xonçanın örtüyünü açmağı qəsd eyləmişəm,
Məni öldürsə də o çeşmi-xumarım bu gecə.

Mən fəqirəm, gözəlim, sənsə gözəllər şahısan,
Busə lütf eylə ki, yox əldə qərarım bu gecə.

Hafiza, başdakı sevda səni məhv eyləyəcək
Şam kimi şölə saçan ah-şərarım bu gecə.

* * *

Gördüm o yarı dünən, məstü xuraman getdi,
Tərk edib meykədəni, halı pərişan getdi.

Söylədim munisi-can, getmə, bizə rəhm elə sən
İncimişdi ürəyi, baxmadı, canan getdi.

Bəlkə Xarəzmilə Ceyhunu salıb xatirinə,
Atdı öz şahlığını sanki Süleyman getdi.

Bir də kimdir ki, onun tək sözə qiymət versin?
Getdi, əfsus! Bədəndən elə bil can getdi.

Yalvarıb söylədim, ey yar, fəqirəm, nəzər et,
Baxmadı halətimə lütf ilə sultan, getdi,

Bilməyib hörmətini, qəlbinə dəydik deyəsən,
Baxdı aşiqlərinə, gör necə peşman getdi.

Tökdü göz yaşlarını sel kimi getdikdə nigar,
Hafizin qəlb evini eylədi viran, getdi.

* * *

Ay üzlü dilbərinə eyləyir dua Hafiz,
Əgərçi ömrü boyu çox görüb cəfa Hafiz.

Yanaqları eləyibdir əgərçi bağrını qan,
Ləbindən istəyir öz dərdinə dəva Hafiz.

Görüb qara xalını bəndə düşmə zülfündə,
Sənə kifayət edər düşdüyün bəla, Hafiz.

Dayanma, fəsli-bahardır, gəl ey gözəl saqi,
Sevir çəməndə görə yar ilə səfa Hafiz.

Visalə çatmaq üçün yox ümid imkanı,
Gözəllərin şahısan, neyləsin gəda Hafiz?

Verər hədiyyə kimi könlünü gözəl yarə,
Çatarsa vəslə əgər dərdə mübtəla Hafiz.

Götür rübabi ələ, bir gözəl qəzəl söylə,
Bu dərdli qəlbimə ver şeirilə şəfa Hafiz.

* * *

Gözəl Şirazımın yoxdur misalı,
Uzaq qıl, yarəb, ondan hər zəvalı.

O Rüknabadinə əhsən, yüz əhsən!
Ki, Xızr ömrü verir xalqa zülalı.

Gözəldir Cəfərabadu Müsəlla,
Nəsimi məhv edər dərdi, məlalı.

Lətif bir ruhu sən Şirazdan istə,
Nişan versin elin əqli, kamalı.

Misir qəndindən orda söhbət açma,
Ki, şəkkər yağdırır hər gül cəmalı.

Səba, gəl yarımızdan bir xəbər ver,
Nə cürdür haləti, xoşdurmu halı?

Məni röyadan, ey tanrı, ayırma,
Ki, şad etmiş onun şirin xəyalı.

Əgər öldürsə xoşdur nazlı yarım,
Könül söylər qanım olmuş həvalı.

Səni, Hafiz, yaman incitdi hicran,
Neçin tərk eylədin bilməm vüsalı?

* * *

Bu cahandan bizə bir sevgili canan bəsdir,
Bu çəməndən bizə bir sərvi-xuraman bəsdir.

Mən riya əhli ilə ülfəti qət eyləmişəm,
Mey ilə olsa əgər dostluğa imkan, bəsdir.

Qəsri-Firdovs əməl sahibinin qismətidir,
Bizə bir meykədə bəxş etsə də dövran, bəsdir.

Çağlayan çaylara bax, ömrünü sən sal yadına,
Eyləsə böylə tamaşa səni heyran bəsdir.

Seyrə dal aləmi, bazarini, azarini gör,
Etdi əhvalımızı qəmlə pərişan, bəsdir!

Yar ki, bir çöldə gəlib lütf ilə yar oldu bizə,
Həmnəfəs olmaq üçün bir belə ceyran, bəsdir.

Öz qapımdan məni sən cənnətə göndərmə, gülüm,
Bura aləmdə bizə, canına qurban, bəsdir.

Vəsldir könlümüzü şad eləyən dünyadə,
Bu təmməna bizə, ey saçları reyhan, bəsdir.

Hafiza, etmə şikayət ki, nədir qismətimiz,
Olmusan böylə qəzəl mülkünə sultan, bəsdir.

* * *

Rəməzan getdi, yenə könlümüzə can gəldi,
Eyş meyxanəmizin şəninə şayan gəldi.

Zahidin dövrü keçib, ötdü kədər əyyamı!
Rindlər məclisinə bir yeni dövran gəldi.

Əzəlindən hərədə bir cürə adət yaranıb,
Badə içmək nə üçün bizlərə nöqsan gəldi!

Badədən dəyməyib heç kimsəyə bir qətrə ziyan,
Zöhddən xəlqə bəla, bəlkə, bir ümman gəldi.

Nə nifaq ilə işim var, nə riya ilə mənim,
Narəva işlərə nifrət bizə asan gəldi.

Birinə pislik edib aşmırıq öz həddimizi,
Kim ki pislik elədi, axırı peşman gəldi.

Mey üzüm şirəsidir, bir adamın qanı deyil,
Nə üçün içməyimiz sizlərə qan-qan gəldi?!

Heç də bu eyb deyil, olsa da heç eyb deyil,
Eybsiz yer üzünə hansı bir insan gəldi.

Hafizi eylədi pərgar tək avarə xalın,
Qəlbi bir nüqtədə öz eşqinə qurban gəldi.

* * *

Cənnətə getmək üçün kimdir çıxan meyxanədən,
Kim nəyi tutmaq dilər, ta əl çəkə peymanədən?

Məst idi piri-muğan bir xoş müəmma söylədi:
Xəlq olub saqi nədən, mina nədən, səhba nədən?

Badə iç, qəm eyləmə, dünya keçər, qalmaz belə,
Sən nəsihət dinləmə zahid kimi biganədən.

Bəsdir axır, söyləmə, ömrüm keçir, dövran dönür,
Dəhrdə kam almadıq onsuz da ki, biz heç nədən.

Bəndə düşmə, ey könül, yüksəl göyə şahin kimi,
Baxma, heç nakəslərin bəxş etdiyi hər danədən.

Öz gücün, öz zəhmətinlə külbəni abad elə,
Mərhəmət lazım deyil heç qəsrdən, kaşanədən.

Könlünü mən Hafizin aldım qəzəllə, çəng ilə,
Ta görək dövran nə istər beylə bir məstanədən.

* * *

Nazənin, pərdəni sən atdın üzündən, bu nədir?
Məstsən yox xəbərin yoxsa özündən, bu nədir?

Sən gözəllər şahısan, mənsə fəqir aşiqinəm,
Saxla öz aşiqini, salma gözündən, bu nədir?

Zülfünü badi-səba əldə oyuncaq eləmiş,
Kam alır qeyrilə biganə sözündən, bu nədir?

Tellərin bənd elədi könlümü əvvəldə, fəqət
Ayağın öpməyə qoymur qərəzindən, bu nədir?

Ləblərin rəmz deyir, incə belin işvə satır,
Bəlkə bir çarə ola dərdə nazından, bu nədir?

Bəzəyib külli-cahanı üzünün nuru sənin,
Hərə bir zövq alacaq ay bənizindən, bu nədir?

Könlüm, əğyarı kənar eylə ki, dildar gəlir,
Hafizin bir xəbər alsın mərəzindən, bu nədir?

## SAQİNAMƏLƏR

Gətir saqiya, ruhuma ver səfa,
Könül dərdlidir, sən şəfa ver, şəfa
Alarsa əlindən camı ruzigar,
Cəmə ruzigar bir məzardır, məzar.
Keçir ömr sürətlə, sal bir nəzər,
Keçən ömrü qoyma ki, getsin hədər.
Bacarsan əlindən yapış hər kəsin,
Yıxılsan əlindən yapışsın sənin.
Ədalətli olsa əgər hökmdar,
Gedərkən yerində gözəl ad qalar.
Nə əksən biçərsən, məsəldir, məsəl,
Qalan bu cahanda əməldir əməl.
Dayanma cəhanə, bizə etmə naz
Ki, həm möhrəbazdır və həm hoqqabaz.

* * *

Gətir saqi, qəmdən şad olsun ürək,
Şərabınla birdəm xoş olsun ürək.
Çalış qəlbini meylə mədhuş elə,
Cahan cümlə heçdir, meyi nuş elə.
Gətir saqi, yoxdur ömürdə vəfa,
Bu dərdə mey ilə sən eylə dəva.

Gətir saqiya, meylə bir kam alaq,
İçib ta mey ilə biz aram olaq.
Dözə bilsə insan əgər hicrana,
Könül çöndərər badədən üz yana.
Gətir saqiya, hiyləgərdir zaman,
Əgər vaxt çatsa, o verməz aman.
Fələk qəmlər ilə yaxarkən səni,
Çağır dadına sidqilə badəni.
Qürurlanma, saqi, yaxın gəl, yaxın,
Nə lazım ki, torpaqkən od olmağın?
Gətir, meylə dolsa qədəh xoş olur,
Riyasız olarsa bizə nuş olur.
Gətir, saqiya, ki, bu ləzzət qalar,
Cahanda nə dövlət, nə sərvət qalar.
Qızıl varsa hər gah verib badə al,
Özünçün nə varsa, bu dünyadə al.
Gətir, saqiya, ləlvəş badəni,
Ala bəlkə qəmdən, kədərdən səni.
Bu təsbihü xirqə bəladır müdam,
Uzaq saxla məndən daha, vəssalam!
İçib məstlikdən ölərkən məni,
Tutarkən qara yerdə son məskəni.
Yapın tabutu siz mənə meynədən,
Uzaq olmasın qəbr meyxanədən.
Yuyarkən tökün üstümə badəni
Xərabatilər dəfn qılsın məni.
Məzar üstünə saqi səpsin şərab,
Çalınsın o dəmdə dəf ilə rübab.
Əgər eyləsə, çəng dad eyləsin,
Müğənni nəva ilə yad eyləsin.

Yıxıl, Hafiza, çıxma meyxanədən,
Xərac istəməz şah viranədən.

* * *

Gəl ey saqi, mey ver, atım qəmləri,
Fərəhlə keçirdim ötən dəmləri,
Firudun kimi Kaviyani ələm
Ucaldım, görüm ki, hanı Cami-cəm?
Eşit gəl nələr söyləyir ta bu ney,
Geyin dəstgahından şirindir bu mey.
Danış, deyrdən, badədən, pirdən,
Ötən şahları yad elə burda sən.
Gəl, ey saqi, bu kimyayi-zəfər
Bizə Nuhların ömrünü bəxş edər.
Gətir ki, açılsın səadət yolu,
Uzun ömr, istək, məhəbbət yolu.
Gətir, saqiya, ərğavani qədəh
Ki, nəşəylə versin bizimçün fərəh.
O mey ki, olubdur xilaskar bizə,
Gətir taki olsun o qəmxar bizə.
O meydən gətir ki, mənə can verir,
Şirindir o badə ki, canan verir.
Gətir ki, çıxım ərşi-əlayə mən,
Baxım aşiqanə bu dünyaya mən.
Gətir, hal gətirsin bu hal ilə mey.
Kəramət yetirsin kəmal ilə mey
Sürahi gətir, tut əlimdən mənim,
Xəbər gəlmədi hasilimdən mənim.
Gətir, fikri, əqli, dili odlasın,
Şir içsə durub cəngəli odlasın.

Çıxım cəngə əflakdə şir ilə,
Bu qurdun evin məhv edim zur ilə.
Gətir, istərəm mən ki, bədnam olam
İçəm badəni, camdən zövq alam.

* * *

Yenə fitnələr yağdırır ruzigar,
Mənəm, məstlik, bir də nazlı nigar.
Edibdirsə də matü heyran məni,
Tuta bilmir ancaq bu dövran məni.
Dönür hiylə ilə əzəldən fələk,
Doğur sübh olanda, gecə boylu tək.
Könül, dünyadan sən kənar ol kənar
Ki, tutmaz biri körpü üstə qərar.
Bu dünya o çöldür, haman qurğudur
Ki, orduyla onda itib Səlmü Tur
Bu viranə mənzil o vaxtdan qalıb
Ki, Əfrasiyab onda eyvan salıb.
De Piran hanı, harda olmuş nihan?
Hanı Şideyi-türk, mərd qəhrəman?
Demə qəsrini təkcə bərbad edib,
De ki, onları bircə kim yad edib?
Gözəl söyləmiş Cəm də bu dünyaya
Ki, dəyməz həyat bir çürük arpaya.
Müğənni, dayanma, götür rud ilə,
Gözəl nəğmə de, könlümü şad elə.
Ümid ver səsinlə mey içmişlərə,
Salam söylə həsrətlə keçmişlərə.
Çal o çəngini ərğənun üstə sən,
Cahan fikrini tərk edim bəlkə mən.

Atım qəmləri, bəlkə rahət olum,
Bir anlıq həyatda fərağət olum.
Yenə Xosrəvani bir ahəng çal
Ki, alsın təranəylə rudun məlal.
Bir ahəng çal ki, şən etsin bizi,
Silinsin qəzəllə kədər, qəm izi.
Məni qəm yükü tikdi güclə yerə,
Qopar zərb üsulilə birdən-birə.
Çalış pərdədən bir hava qıl kənar,
Görək ta nə söylər bizə pərdədar.
Elə bir nəva çal bu gün rəqsdə
Ki, Nahid göydə duyub rəqs edə.
Müğənni, dəfi, çəngi dur saz elə,
Cavab ver nigarə, xoş avazilə.
Elə nəğmə de, sufi ta mat qala,
Visal istəyə, məstü heyran ola.
Müğənni, mənimlə nə dəva gərək,
Dəfə sillə vur, nəğmələr dinləyək.
Hücum eyləyərsə kədər, qəm əgər,
Dəfin nərəsi bil ki, məğlub edər.
Müğənni, dayanma, gül açdı bahar,
Quşun nəğməsilə dolub laləzar.
Mənə ruh gətir xoş bir ahəng ilə,
Mey ilə, ney ilə, dəfü çəng ilə.
Ud ilə bizi şad, məsrur elə,
Yeni nəğmələr de, yeni şur ilə
Təranənlə bu dərdə bir çarə et,
Mənim könlümü xirqə tək parə et.

## MƏSNƏVİ

Gəl ey vəhşi maral, gəl hardasan sən?
Sənինlə bir qədər söhbət edim mən.
İki tənha, iki yalqız pərişan,
İki yol ayrımında matü heyran.
Yaxın gəl, dərdliyik, həmdərd olaq biz,
Könüldən yar olub , həm dərd alaq biz.
Nə çöldür, hər tərəf qəmdir, xəzandır?
Çiçəksiz, laləsiz, hər yan tikandır.
Bu qəmlərlə bizə qəmxar olan yox,
Qəriblik, bir nəfər dildar olan yox.
Məgər ki, Xizr gəlsin dadə çatsın,
Bu yerdən çıxmağa bir yol yaratsın.
Məgər lütfilə bir həmdərd gəlsin,
Ki, falım «Latəzərni fərd» gəlsin.
Deyirlər, bir nəfər keçmiş zamanda
Deyirmiş dostuna yad bir məkanda
Ki, ey salik, davarcıqda dənin var?
Gətir tor qur ki, düşsün bəndə quşlar.
Cavab vermiş: buyur, bu sən, bu da dən,
Fəqət Simürğü tutmaq istərəm mən.
Dübarə söyləmiş: gəzmə cahanı,
Bu dünyadə onun yoxdur məkanı,
Uçubdur çünki o dünya üzündən,
Qaçıb xalqın nihan olmuş gözündən.
Götür camı, gül açmış bağ, gülşən,
Vəlakin, qafil olma çərx əlindən,
Otur bir guşədə, sən işrət eylə,
Düşün tənha, özünlə söhbət eylə
Gətir keşmişləri, keçsin gözündən,
Soruş ki, hardadır, sən öz-özündən.

Keçən keçmiş, özünçün indi ağla,
Əlində varikən ömrü qucaqla.
Gedib yarım mənim əldən zamandır,
Müsəlmanlar, müsəlmanlar, amandır!
Elə bir zərbə vurmuş qarə hicran
Ki, dostun varlığı çıxmış yadımdan.
İki tənha, biri yarım, biri mən,
Nə cür gəlsin visal Xizrin əlindən?
Fəqirlik şərhini mən etsəm izhar,
Günəş göydən yerə zər eylər isar.
Görüb bu gövhəri xərmöhrədən keç,
Çalış yaxşı-pisi əqlinlə sən seç.
Bu minvalla əgər bir söz yazam mən,
Sual et şərhini «nun vəlqələm»dən
Ki, cəmdir orda hər hikmət məqalı,
Açar bir-bir nədir hicran məlalı.
Qatıb əqlilə ruhu ilk əzəldə
Yeni bir danə etdi, əkdi çöldə.
Ümidin ətrini al hasilindən,
Həyatın camını salma əlindən.
Bu nafə bir ilahi ahudandır,
Nə bir ceyran ki, insandan qaçandır.
Bu çöldə çənk söylər pərdə-pərdə
Ki, yüz məzlum qanı heçdir bu yerdə,
Ətəklə körpələr od yandırırlar,
Gələrsə Cəbrail də, yandırarlar,
Danışmaq kimlərə burda yar olmuş,
Təalallah, nədən kimlər xar olmuş?
Dayan, Hafiz, bu haqda vurma sən dəm,
Sözü kutah elə «allahü ələm».

## RÜBAİLƏR

Günün kölgəsidir qara tellərin,
Çöhrəndən nur alıb üzü qəmərin,
Gecələr xəttindən bir nişanədir,
Bəzənib hüsnünlə üzü səhərin.

* * *

Eşqin bu könlümü qan eyləyib, qan,
Hüsnünün hüdudu ötüb idrakdan,
Zülfündə qəribdir biçarə ürək,
Zülmətlər içində heyrandır, heyran.

* * *

Ruhuma ayandır yanağın sənin,
Gözümə sürmədir torpağın sənin,
Deyərdim: gözümün üstündən yeri,
Qorxuram, inciyər ayağın sənin.

* * *

Qönçələr yenə də gəlmiş gülşənə,
Nərgizin gözləri xumardır yenə,
Xoş onun halına ki, cam içində,
Üzür köpük kimi hey dönə-dönə.

* * *

Ürəyim zülfündə məkan istədi,
Bəladən, zillətdən aman istədi,
Can verdim töhvə tək hilal qaşına,
Baxma ki, o, məndən mərcan istədi.

* * *

Ayın sarayında gəzir camalın,
Qürurla göylərdə uçur xəyalın,
Yalançı, hiyləgər, deyirsən bizə,
Görərik kimindir sonu bu halın.

* * *

Zər ilə mümkündür yar olsun şikar,
Zər ilə bizlərə şikar oldu yar,
Nərgiz ki, gözəllər şahıdır bağda,
O da zər önündə qalıbdır xumar.

* * *

Mən zövqü olanın quluyam, qulu,
Budur insanlığın həyatda yolu,
Eşqin ləzzətini anlaya bilməz
Bu meydən içməyib kim qədəh dolu.

* * *

Hicranın yapışıb mənim yaxamdan,
Yarama duz səpir bu acı hicran,
Qorxurdum ayrılam mən bir gün səndən,
Qorxduğum başıma gəldi, ey canan!

* * *

Sel axır ömrümün kaşanəsindən,
Mey gedir ayrılıq peymanəsindən,
Ey xacə, bu illər gəlib aparsın,
Bizləri həyatın viranəsindən.

* * *

Qəmindən yatmadım gecə sübhədək,
Kirpiyin ucundan gövhər səpərək,
Dərdini heç kəsə açmaz dünyada
Eşqinlə çırpınan bu yazıq ürək.

* * *

Çəməndə güllərin camalına bax,
Buludun kədərli əhvalına bax,
Sərv azad olsa da, quldur o, gülə
Sən gülün hüsnünə, cəlalına bax!

## QİTƏ

Bir zaman dövlət üçün səy elədim aləmdə,
Gördüm axırda bütün mənfəəti oldu zərər,
Hər nə vermişdi təbiət, tutub aldı bir-bir,
Getdi əfsus, cavanlıq! Gələcək bir də məgər?
Ömrümüz oldu fəna, mal hanı? Sərvət nə gərək?
Betər oldu hamı qəmdən bu müsibətlə kədər.
Qoymaram boş keçə bundan belə əsla, əsla!
Ömrümün bircə dəmi hər iki dünyayə dəyər!
Xəznələr tapdı ürək indi bu viran sinədə
Fikrətim bəhr kimi saçmadadır dürr, gühər.
Hər nə gəlsə əlinə, Hafiz, əgər az ya çox,
Şən yaşa, qəmlər ilə eyləmə sən ömrü hədər.

## ƏBDÜRRƏHMAN CAMİ

Fars-tacik ədəbiyyatının qüdrətli nümayəndəsi, filosof, alim və musiqişunas Əbdürrəhman Cami 1414-cü il 7 noyabr tarixində Cam (Xorasan) şəhərində anadan olmuşdur. İlk təhsilini atasından almışdır. Sonra Heratın Dilgəş mədrəsəsində məşhur sufi alim Mövlana Cüneydi Üsulidən dərs almışdır. Mədrəsədə oxuyarkən çoxlu mütaliəsi, surətli oxusu və qeyri-adi hafizəsi ilə hamını heyran qoymuşdur. Görkəmli alim Xacə Əlaəddin Əli Səmərqəndi Cami qədər hafizəli və istedadlı şagird görmədiyini xüsusi qeyd etmişdir. Cami Heratda təhsilini başa vurduqdan sonra Səmərqəndə getmişdir. Səmərqənd o dövrdə nücum, riyaziyyat və təbiət elmlərinin güclü tədris olunduğu yer hesab olunurdu. O, Qazizadə Rumidən (Mirzə Uluğbəyin ən yaxın dostu və əməkdaşı) dəqiq elmlər üzrə dərs almışdır. Həndəsə və cəbr üzrə dövrün ən çətin imtahan edəni Əli Quşçunun imtahanından müvəffəqiyyətlə çıxmışdır. Cami 1472-ci ildə Məkkə ziyarətində olmuşdur. Bu zaman o, Səbzəvar, Qəzvin, Həmədan, Kərbəla, Dəməşq, Hələb, Təbriz və s. şəhərlərdə olmuş, bu şəhərlərdə yaşayan bir çox alim və şairlərlə görüşə bilmişdir. Cami ilə türk dünyasının dahi şairi Ə. Nəvai arasında xüsusi dostluq və yaradıcılıq əlaqələri olmuşdur. Hər iki sənətkar öz əsərlərindən ibarət di-

vanlarını tərtib edərkən bir-birinə məsləhət vermiş və kömək etmişlər.

Cami 1492-ci ilin noyabr ayında vəfat etmişdir. Onun dəfnini Ə. Nəvai təşkil etmiş və ölümü ilə əlaqədar iki beytlik maddeyi tarix yazmışdır. Həmin beytləri dəfn zamanı Hüseyn Vaiz oxumuşdur.

Ə.Cami 50-dən çox elmi-bədii əsərlərin müəllifidir. Bunların 34-ü nəsrlə, 16-sı şeirlə yazılmışdır. Düzdür, Cami əsərlərinin sayı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bu da həmin əsərlərin bəzilərinin bizə gəlib çatmaması ilə əlaqədardır. Məs.,Ə.Nəvai Cami əsərlərinin sayının 35, Sam Mirzə 45, Bertels 45-47 olduğunu bildirmişdir. Epik-lirik, mənsur, elmi, fəlsəfi, dini əsərlər yazması onun yaradıcılıq dairəsinin genişliyindən xəbər verir. Camiyə dünya şöhrəti qazandıran şairin 3 divanı, «Həft övrəng» məsnəvilər toplusu, «Baharistan» və «Nəfəhatül-üş» poemalarıdır.

Cami divanları ardıcıl şəkildə belə adlanır:

«Fətihəmüş şəhab» (gənclik illərində yazılmış şeirlər),»Vəsiməm-ül Əqd» (orta yaşlarda yazılmış şeirlər), «Xatümətül həyat» (qocalıq dövründə yazılmış şeirlər).

Cami 1480-1485-ci illərdə «Həft övrəng» (Yeddi tac) adlı məsnəvilər silsiləsi yazmışdır. «Həft övrəng»ə aşağıdakı poemalar daxildir.

«Silsilət-üz zəxəb»(«Qızıl silsiləsi», 1480), «Səlaman və Əbsal»(1480), «Töhfətül-Əbrar»(«Azadələr töhfəsi» 1481), «Söhbətül-Əbrar»(Müqəddəslər kəlamı» 1482), «Yusif və Züleyxa»(1483), «Leyli və Məcnun» (1484), «Xirədnameyi-İsgəndər»(İsgəndərin ağıl kitabı», 1485).

Bu sırada əvvəlki iki əsərdən başqa 5 poema Nizaminin «Xəmsə»sinə nəzirə hesab olunur.

Caminin 1487-ci ildə yazmış olduğu «Baharistan» S.Şirazinin «Gülüstan»ına nəzirədir. Əsər «Gülüstan» kimi 8 fəslə bölünür ki, bunlar da «rövrə» (bağ) adlanır. Əsərin əvvəlində müəllif tərəfindən bildirilir ki, o, oğluna Sədinin «Gülüstan»ını oxumuş və «Baharistan» adlı əsər yazmaq qərərına gəlmişdir.

Cami sufi təriqət olan nəqşbəndliyin təbliqatçısı olmuş, müəllimi Sədəddin Kaşğarinin yolunu davam etdirmişdir. Nəqşbənd sözü təriqət başçısının ipək parça üzərinə naxış vurma sənəti ilə bağlı olmuşdur ki, onun da əsasını Xacə Bahaəddin Nəqşbənd (vəfatı 1318-ci il) qoymuşdur. Qeyd edək ki, nəqşbəndlikdə yoxsulluqda mənəvi sultanlıq axtarışı əsas xətt götürülmüşdür.

Cami əsərləri başqa xalqların dilinə tərcümə olunmuş, onun ədəbi irsi təkcə Şərqdə deyil, həm də Avropada yayılmışdır. Caminin bir çox şeirləri ilə yanaşı, «Yusif və Züleyxa», «Baharistan» və s. əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir.

# YUSİF VƏ ZÜLEYXA

**(ixtisarla)**

## XİTAB

İlahi, solmayan bir gül ver bizə!
Ümid qönçəsini aç üzümüzə!
O qönçə bəzəsin ilham bağını,
Ətriylə doldursun gül damağını!
Bu möhnət evində minnət qoymadan,
Məni nemətinə qərq et, yaradan!
Minnətdar olmaqda ol mənə rəhbər,
Olsun təşəkkürün dilimdə əzbər!
Paklıqdan, ağıldan barındır məni,
Sözümlə fəth edim bütün ölkəni!
Könlümdə gövhərdən bir xəznə yarat!
Ver o xəzinədən dilimə barat!
Sən açdın təbimdə özün nafəmi[1],
Mişkimin ətriylə doldur aləmi!
Yağsın qələmimin dilindən şəkər!
Yazdığım şeirlər qoxusun ənbər!
Qalmamış sənətə, sözə etibar,
İndi bu namədən bir quru ad var!
Bu şirin badələr məclisində mən,
Bir nişan görmürəm bu təranədən!

[1] *Nafə – mişk mənbəyi olan ahu göbəyi*

Çəkib badələri başa həriflər,
Nə qədər şərab var, içib getmişlər!
Görünmür məclisdə püxtə bir adam
Ki, olsun əlində mey dolu bir cam!
Cami, gəl utanma, özünü yetir!
Safından, xıltından bizə mey gətir!

## EŞQ FƏZİLƏTİNİN BƏYANI VƏ ƏSƏRİN NƏZMƏ ÇƏKİLMƏSİNİN SƏBƏBİ

Eşqsiz bir könül, könül deyildir,
Eşqsiz bir vücud su ilə gildir.
Könüldən getməsin məhəbbət qəmi,
Tərk etsin eşqsiz könül, aləmi.
Aləmin varlığı eşq ilə qəmdir
Ki, eşqin aləmi ülvi aləmdir!
Fələk gərdiş edir eşq ilə ancaq,
Eşqin fitnəsilə dolmuşdur afaq,
Eşqin əsiri ol, get, azad yaşa,
Qəmini sinənə salıb, şad yaşa!
Eşqin badəsindən könül məst olar,
Sevib-sevilməyən xudpərəst olar.
Eşqdir aşiqi saxlayan cavan,
Eşqlə dünyada ucalar insan.
Məcnun içməsəydi bu meydən əgər,
Yada salardımı onu bir nəfər?
Minlərlə ağıllı, idraklı insan,
Sevib-sevilmədən getmiş dünyadan,
Onlardan nə bir ad, nə nişan qaldı.
Nə dillər əzbəri bir dastan qaldı.

Varsa da dünyada bir çox gözəl quş,
Onların adını hamı unutmuş.
Zövq əhli eşqdən danışsa əgər,
Bülbüllə pərvanə adını çəkər.
Dünyada yüz işə qol qoysan belə,
Eşqdir hamıdan yüksək mərhələ.
Məcazi olsa da, eşqə könül ver,
Həqiqət mülkünə eşq rəhbərdir.
Əvvəl əlifbanı öyrənməmişsə,
Quranı oxumaq bilməz bir kimsə!
Eşitdim mürşüdə dedi bir nəfər,
Həqiqət yolunda ol mənə rəhbər!
Dedi ki, eşqlə tanış deyilsən,
Aşiq ol, sonradan yanıma gəl sən!
Surət şərabından sərxoş olmadan,
Məna şərbətini dadmazsan, inan!
Lakin o şərabdan bir cam içərək,
Çox tez bu körpüdən keçəsən gərək.
İstəsən vaxtında mənzilə çatmaq,
Bu yolda nə durmaq olar, nə yatmaq.
Allaha şükür ki, yaşadıqca mən,
Çəkmədim əlimi eşq ətəyindən.
Mişkimi nafəsiz görən dayələr,
Nafimi[1] kəsdilər, eşq oldu xəncər.
Anam dodağıma döş qoyan zaman,
Əmdim eşq südü, o süd oldu qan.
Saçım süd rəngində olsa da bu gün,
Getməz damağımdan dadı o südün.

[1] *Naf – göbək*

Qocaya, cavana baxmaz məhəbbət,
İndi də könlümlə bağlayıb ülfət,
Deyər: – Cami, aşiq sayılmaz qoca,
Aşiqlik adını uca tut, uca!
Yarat aşiqlikdən elə bir dastan
Ki, qalsın o səndən aləmdə nişan!
Yarat bir əsər ki, adın ucalsın,
Sən ölüb gedərkən, yerində qalsın.
Eşqin sədasını eşidən zaman,
Quş tək qanadlandı bədənimdə can.
Durdum xidmətində canla-başla mən,
Sehirlər yaratdım öz qələmimdən.
Allahın köməyi olarsa əgər,
Əkdiyim bu ağac haqdan bar verər.
Eşqin atəşindən bir od qalaram,
Yanar bu atəşdə ağıllar tamam.
Tüstüdən fələklər qara bağlayar,
Sonsuz ulduzların gözü ağlayar.
Sözü bir məqama çatdırım ki, mən
Göylər hünərimə söyləsin: «Əhsən!»

**SÖZ FƏZİLƏTİ ÇƏMƏNİNDƏN GÜL TOPLAYIB DƏSTƏ DÜZƏLTMƏK VƏ ƏSƏRİN NƏZMƏ ÇƏKİLMƏSİ SƏBƏBİNİN TAMAMLANMASI TELİ İLƏ ONU BAĞLAMAQ**

Eşq divanının bəzəyi sözdür,
Eşq gülzarının çiçəyi sözdür.
Ağlın bar-bəhəri söz olmuş ancaq,
Dünyada yadigar tək söz qalacaq!
Hər nə ki, dünyada bizdən yaranmış,
Aqillər demiş ki, sözdən yaranmış.

Sözün nəfəsilə canlandı qələm,
Varlıq lövhəsinə nəqş etdi rəqəm.
Sözün çeşməsini qələm ki açdı,
Hikmətdən saf, təmiz fəvvarə saçdı.
Dünyada yüksəkdə, alçaqda nə var,
Həmən fəvvarədən məst olub qalar.
Dodaq o təsirdən nüktələr[1] saçar,
Məna gülşənində gül kimi açar.
Atar ətəyinə nəfəs əlini,
Gülşəndən çıxarar o şux gəlini.
Açar qapısını önündə qulaq,
Düşər ayağına bihuş olaraq.
Könül qarşılayar sevinclə onu,
Ürək qonça kimi qucar boynunu.
Gah dodaq sevincdən açılıb gülər,
Gah da qəm-qüssədən ağlayar gözlər.
Gülər qəmlilərin dodağı ondan,
Gülən insanları odur ağladan,
Onda bu hikməti gördüyümçün mən,
Çəkmərəm əlimi, bil, ətəyindən.
Alışdım pir verən meydən içərək,
İndi də göylərdə mən uçam gərək,
Qəlbimdə gizlənən sirri bildirəm,
Dünyanı ağladam, həm də güldürəm.
Köhnəlmiş Xosrovla Şirin dastanı,
Şirin sözlə tapım yeni sultanı.
Məcnunla Leylinin bitmiş söhbəti,
Başqa bir aşiqin çatmış növbəti.

[1] *Nüktə – incə, mənalı söz*

Yusiflə Züleyxa eşqindən həmin,
Şəkər yeməlidir, tutisi təbin.
Allah bu dastanı bəyənmiş özü,
Mən də qaldıraram göylərə sözü.
Tanrı ki, vəhyində vermişdir xəbər,
Yəqin onda olmaz yalandan əsər.
Kimsənin xatiri bizdən şad olmaz,
Yalanı doğruya qatarsaq, bir az.
Sözün doğruluqdur hüsnü, kamalı,
Ay da naqis olsa, solar camalı.
Ağartmış olsa da üfüqü bir az,
Yalançı səhərin işığı olmaz.
Doğruçu səhərlə söküləndə dan,
Qaldırar bir qızıl bayraq asiman.
Yalanı sənətlə bəzəsən əgər,
Onun çirağına nur verər hünər.
Çirkinin əyninə atlas biçmə, gəl,
İpək donla çirkin görünməz gözəl.
Gözəl ola bilməz ipəklə çirkin,
Çirkin, qiymətini salar ipəyin.
Ənniyi gül üzə sürtəsən gərək,
Gözəlin hüsnünü artırar bəzək.
Ənnik yaxılsa da çirkin bir üzə,
Baxanda çirkinlik dəyəcək gözə.
Bütün məşuqlardan Yusif gözəldi,
Belə bir hüsn ilə adı yüksəldi.
Bir gözəl vəsfində gedərsə söhbət,
«Yusifi-sanidir» deyərlər, əlbət.
Aşiqlər içində Züleyxa təkdi,
Hamıdan ondakı eşq yüksəkdi.

Eşqə ömrü boyu meylini saldı,
Şah ikən, əsiri-eşq olub qaldı.
Qocalıb taqətdən düşdüyü zaman,
Eşqin qüdrətilə oldu novcavan.
Ağladı eşq ilə, güldü eşq ilə,
Doğuldu, yaşadı, öldü eşq ilə,
Onlardan söz açıb mən birər-birər,
Qələmin ucuyla saçaram gövhər.
Nadir inciləri sərf etdikcə mən,
Yaranar yeni bir xəznə hikmətdən.
Təkcə arzum budur, bir nəcib insan,
Mənəbbətnaməmi oxuyan zaman,
Namə tək üzümdən üzün örtməsin,
Qələm tək hərfimə barmaq sürtməsin.
Əsərdə taparsa əgər bir xəta,
Açmasın başıma min bir macəra!
Bacarsa, səhvimi eyləsin islah,
Bacarmazsa, sussun, olmasın bədxah!

## QEYB GECƏ MƏCLİSİNDƏ YUSİF CAMALININ ŞƏMİNİN İŞIQLANMASI VƏ ADƏMİN KÖNÜL PƏRVANƏSİNİN O ATƏŞƏ YANMASI DASTANI

Məna dənizindən inci tapanlar,
Asiman vəhyindən xəbər tutanlar,
Bəşər tarixini yazmaq istərkən,
Verdilər belə bir xəbər Adəmdən:
Mənəvi göz ilə baxdığı zaman,
Adəmə nəslini verdilər nişan.
Durmuş peyğəmbərlər səf-səf aşikar,
Hər səfin öz yeri, öz məqamı var.

Övliya[1] səf çəkib başqa bir yanda,
Dayanmış xidmətə hazır hər anda.
Onların ardında yaradaraq səf,
Ordular bir tərəf, şahlar bir tərəf,
Düzülüb sıraya başqa xəlayiq,
Hərəsi bir işə, bir ada layiq.
Hamıya diqqətlə baxınca Adəm,
Canlandı gözündə yeni bir aləm.
Ay kimi Yusifə sataşdı gözü,
Ay deyil, o idi günəşin özü!
Məclisdə hamıdan şam tək seçilir,
Hüsnü qarşısında hamı kiçilir.
Günəş qarşısında ulduz itən tək,
Gözəllər önündə itmişlər, gerçək!
Çiyninə dilbər tək salmışdır rida[2],
Ayağı altında yüz dilbər fəda.
Hüsnünün kamalı həddini aşmış,
Vəslində idrakın özü də çaşmış.
Əynində ilahi lütfündən xələt,
Başında parlayır taci-səltənət!
Alnında səadət sübhü açılır,
Üzündən zülmətə işıq saçılır.
Vücud zülmətindən pak ola-ola,
Durmuş peyğəmbərlər ondan sağ-sola.
Mələklər yanında bir dövrə vurmuş,
Bayraqlar qaldırıb, nizamla durmuş!
Bu günəş qəndilin pak mehrabına,

---

[1] *Övliya – dini rəhbərlər*
[2] *Rida – uzun ətəkli üst paltarı*

Bir uca səs ilə edərlər səna.
Adəm heyran oldu o cah-cəlala,
Təəccüb içində daldı xəyala:
İlahi, bu kimdən almış yaraşıq?!
Kimin gözlərinə bəxş edir işıq?!
Haradan yar oldu ona səadət?!
Haradan bu camal, bu şan, bu şövkət?!
Səs gəldi: o sənin nuri-didəndir,
Kədərli qəlbini sevindirəndir!
Yəqub gülzarında bir növnəhaldır[1],
Xəlil səhrasında cavan ğəzaldır[2]!
Cəlalda keyvanla yanaşı durar,
Şah olar, Misirdə taxta oturar!
Hüsn camalını görən gözəllər,
Qibtədən olarlar hamı xuncigər,
Odur güzgü tutan ay camalına,
Nəyin var xəznəndə bağışla ona!
Dedi: – Bəxşiş ona könlümü verdim,
Camalın altıda dördünü verdim.
Yəni gözəlliyi qıl üçə qismət,
İki pay ona ver, xalqa bir, fəqət!
Günəş tək camalı nur saçan zaman,
Çıxsın gözəllərin hüsnü sıradan.
Sonra o dilbəri basdı bağrına,
O təmiz qəlbini bəxş etdi ona.
Alnından öpərək necə bir ata,
Ona öz meylini eylədi əta!

---

[1] *Növnəhal – cavan ağac, tingə.*
[2] *Ğəzal – ahu, ceyran.*

Oğlunun şövqündən açdı gül kimi,
O gülü oxşadı bir bülbül kimi.

## CAMAL GÜNƏŞİNİN TÜLUU İLƏ MƏĞRİB ÖLKƏSİ MƏŞRİQ OLAN ZÜLEYXANIN ƏSLİ-NƏSƏBİ HAQQINDA

Xəzinəsində sonsuz söz dürrü olan,
Şair xəbər verdi keşmiş zamandan
Ki, Timus adlı şah Məğrib-zəmində,
Namusda tək idi öz aləmində.
Calalı, şövkəti, mülkü, ordusu,
Qəlbində qalmazdı heç bir arzusu.
Səadət rəmziydi başının tacı,
Taxtı fələklərdən alar xəracı.
Ordusu, cövzadən[1] bağlayar kəmər,
Qılıncına bəxti bəxş edər zəfər.
Var idi Züleyxa adlı bir qızı,
Dünyanın misilsiz parlaq ulduzu.
Qız deyil, aləmin göz işığıydı,
Şahlıq xəznəsinin yaraşığıydı.
Dilimi vəsfində aciz bilərək,
Xəyalıyla təbi sınayam gərək.
Saçı tək asılım başdan aşağı,
Qəlbimə nur saçsın hüsn çırağı.
Köməyimə çatsın o şirin ləblər,
Vəsf edim hüsnünü, bəlkə, bir təhər.
Rəhmətdən yaranmış sərv qaməti,
Gülşənə bəxş etmiş o lətafəti.

---

[1] *Cövza – qədim astronomiyada bürc adı.*

Su içib şahlığın sərçeşməsindən,
Sərvi çəmən içrə salmış nəzərdən.
Ariflər yolunda saçı tor qurmuş,
Mişk onun saçına qul olub durmuş.
Tükləri birbəbir ayırıb daraq,
Saçı ortasında qurmuş incə tağ.
Nafəni bölmüşdür darağın dişi,
Mişkdən müşküldür nafənin işi.
Zülfü səmən kimi düşmüş aşağı,
Kölgədə qalmışdır gülün budağı.
Qoşa hörükləri iki hindu tək,
Şümşad sinəsində ip eşir, gerçək!
Fələk bəzəyərkən gül camalını,
Gümüş lövhə olmuş onun alını.
Sağında, solunda o gümüş lövhün,
Mişk ilə iki nun[1] yazmış sərnigün.
Yazmış öz əliylə sənətkar ustad,
İki nun altında iki gözəl sad[2].
Nunlardan uzanan mim[3] həlqəsinə,
Burnu bir əlifdir[4] gümüşdən yenə.
Əlifə artırıb ağız sıfrını[5],
On dəfə artırmış hüsnün qədrini

---

[1] *Nun – ərəb əlifbasında «N» hərfi ucları yuxarı səmtə çevrilmiş hilal şəklində yazılır. Şair, Züleyxanın qaşlarını başı aşağı yazılmış «N» hərflərinə oxşadır.*

[2] *Ərəb əlifbasında «sad» gözlü (S) hərfi yumurtavari halqa şəklində yazılır. Burada Züleyxanın gözlərinin təşbihidir.*

[3] *Mim həlqəsi – ərəb əlifbasında «Mim» (M) hərfinin çox kiçik halqası olur. Burada ağızın kiçikliyini göstərən mübaliğəli təşbih kimi işlənmiş.*

[4] *Əlif (a) ərəb əlifbasında şaquli düz xətt şəklində yazılır. Burada gözəlin burnu həmən hərfə oxşadılır*

[5] *Ağız sifri – ağız sifrə (nöqtəyə) oxşadılır.*

Sini[1] görünməkçin dodağı qaçmış,
Mimin düyününü[2] dişiylə açmış.
Üzü nümunədir İrəm bağından,
Orada çiçəklər açmış al-əlvan,
Zənci uşağı tək o gül bağında,
Qara bir xalı var hər yanağında.
Zənəxdanı vardır xalis gümüşdən,
Bir abi-həyatdır, ölməzsən, içsən.
Buxağına baxan ariflər deyər,
Süzmüş o çeşmədən süd ilə şəkər.
Zənəxdanı baldır, buxağı qəndab,
Ürəkdə qalarmı daha səbrü-tab?
Gərdəni bəyazdır fil sümüyündən,
Ahudan bac alar ondakı gərdən.
Sinəsi zərifdir gül yarpağından,
Köynəyi altında gül olmuş pünhan,
Bir cüt nur dağıdır iki məməsi,
Necə dağ, bəlkə də, kafur çeşməsi.
İki nar yetişmiş tək bir budaqda,
Səba olmalıdır gözdə, qulaqda.
O gümüş qollar ki, qoynuna almış,
Gümüş qiymətini birə beş salmış.
İncidən pakizə o dilbər üçün,
Ağzı dualıdır möminlər bütün.
Pərilər üzərlik olub oduna,
Dua bağlayırlar candan qoluna.
Şahların qəlbini qarət edərək,
Yengində gizlətmiş cüt gümüş bilək.

---

[1] *Sin (dişli s) hərfi-dişlərə təşbihdir.*
[2] *Mimin düyünü (bax mim halqası – ağız)*

Silər könüllərdən əli hər qəmi,
Yaralı sinəyə qoyar məlhəmi.
Əldə barmaqları, sanki, bir qələm,
Yazar ürəklərə eşqdən rəqəm.
Dırnaqları vurmuş könüllərə xal,
Bədrin üzərinə artırmış hilal,
Aya pəncə atmış beş barmağıyla,
Ay saralıb solur pəncə dağıyla.
Beli tük qədərdir, tükdən də incə,
Bəlkə də, bir tükün üçdə birincə.
Belinə bağlasa kəmər bir tükdən,
Qırılardı beli bu ağır yükdən.
Qarnı ağ mərmərdir o şux gözəlin,
Göbək kəsən dayə, sağ olsun əlin!
Sarğısı bir dağdı, xalis gümüşdən,
Tükdən asılı dağ görməmişəm mən!
O dağa bir nəfər əl vursa ancaq,
Xəmir tək içində quylanar barmaq.
Lakin pərdədədir hələ şux gözəl,
Onun sağrısına toxunmamış əl.
Göbəkdən aşağı, dizdən yuxarı,
Nə varsa unudaq, gəlin onları!
Çəkmiş o yerlərə ismətdən hasar,
Nə fikir yol tapar, nə göz sataşar.
Onun baldırları, zənn edirəm mən,
Hüsnünə sütundur sadə gümüşdən.
Bir gül dəstədir, vallahı, nurdan,
İşıqsız gözlərdən qalmışdır pünhan.
Səfası güzgüyə meylini salmış,
Ədəblə önündə diz çöküb qalmış.

Onunla diz-dizə oturan kəslər,
Səadət üzünü güzgüdə görər.
Demə, baldırından ayağı kəmdir,
Lətafətdə o gül sabitqədəmdir.
Dabanından tutmuş pəncəsinədək,
Olduqca zərifdir, gül yarpağı tək.
Aşiqin gözünə o ayaq bascaq,
Göz yaşı ayağa qabaq salacaq.
Topuğu vəsfində nə deyim, aman!
Nə desəm, ariflər tapacaq nöqsan.
Bəzəyi heç vəsfə gələrmi? Düzü,
Bəzəyə o pəri bəzəkdi özü.
Gövhərlə doluydu başdakı tacı,
Hər gövhər böyük bir ölkə xəracı!
Qulaqlarındakı bir cüt güşvara,
Qəlbi məftun edər, canı avara.
Qırsa boynundakı boyunbağını,
Ətəklə cib tutmaz gövhər dağını.
Telində minalı telbəndi vardı,
Minlərlə gövhəri satın alardı.
Lütf ilə edərkən aləmə ehsan,
Kafiydi bircə qaş qolbaqlarından.
Qızıldan mən sizə vermirəm xəbər,
Düşmüş ayağına, xəlxal olub zər.
Hərdəm ki, naz ilə taxta oturar,
Rumla Çin ipəyi içrə qərq olar.
Misir atlasından xələt geyərək,
Gəzərkən görünər tavusdan göyçək.
Günəş boylanarkən sübh dəmində,
Görər onu yeni libas əynində.

Bir cibə iki yol o aparmaz əl,
Ay tək yeni bürcdən çıxar o gözəl.
Ayağını şahlar belə öpməmiş,
Təkcə ətəyinə məxsusdur bu iş.
Yalnız köynəyidir onu qucuyan,
Ancaq öz ağuşunda yatır o canan.
Dayəsi olmuşdur qara gözlülər,
Pərəstardır ona pəri üzlülər.
Minlərlə huri tək yaşıdı vardı,
Xidmətində gecə-gündüz durardı.
Heç zaman könlünə qonmamış qubar,
Nə də ayağında tikan yeri var.
Sevməmiş, sevməyir hələ bir kəsi,
Yaddır xatirinə eşqin həvəsi.
Tər nərgis gülü tək yatır hər gecə,
Səhərlər oyanır necə bir qonça.
Gəlincik oynadır körpələr kimi,
Xəlvətə çəkilir pərilər kimi.
Oyunbaz fələkdən yoxdur xəbəri,
Oyunla gününü keçirir pəri.
Dünyanın dərdindən, qəmindən, azad,
Yaşayır asudə, ömür sürür şad.
Kim bilir, nə kələk quracaq fələk?
Hamilə gecələr nə doğar, görək?

## YUSİF CAMALI GÜNƏŞİNİN QILINCINI ZÜLEYXA İLK DƏFƏ YUXUDA GÖRÜR BƏ QINDA OLAN BU QILINCLA ÖLDÜRÜLÜR

Gənclik günləri tək sevinc gətirən,
Bir gecə ki, xoşdu, aydın səhərdən.
Yatıb rahatlanır quş da, balıq da,

Hadisə ayağı yox ortalıqda.
Ulduzlar göz vurur, ay işıq saçır,
Nurlu bir səhərə gecə yol açır.
Darğanın huşunu almış əlindən,
Zəngi susdurmuşdur zəng tərpədən.
Quyruğunu edib boynunda halqa,
İtlər uyumuşdur, səs salmaz, əsla!
Yarasa qanaddan çəkmişdir pəncə,
Sübhün carçısı da yatmış bixəbər.
Şahlıq sarayının bürcündə duran,
Keşikçi bir xaşxaş görmüş uzaqdan.
Xaşxaş xəyalıyla fikrə dalmışdır,
Yuxu taqətini əldən almışdır.
Sarsılıb yuxunun sərt hücumundan,
Təbilçalan qalmış təbil çalmaqdan.
Hələ eşidilmir azançı səsi.
Oyatmaz yuxudan o da bir kəsi.
Şəkər ləblərini yummuş Züleyxa,
Nərgisi getmişdir şirin yuxuya.
Telləri sarılmış balışın üstə,
Yataqda uzanmış, sanki, güldəstə.
Saçı ipək kimi olmuş pərişan,
Qızarıb yanağı ipək balışdan.
Surət görən gözü yuxuya dalmış,
Lakin qəlbindəki göz açıq qalmış.
Bu zaman qapıdan gəldi bir cavan,
Nə dedim? Cavan yox, bəlkə də, bir can!
Qərq olub vücudu nur bulağında.
Hurini talamış cənnət bağında.
Hüsn-camalını almış əlindən,

Qoymamış huridə əsər qəmzədən.
Ucalan qaməti təzə şümşaddır,
Azadlıqda qolu sərvi-azaddır.
Çiyninə düşmüşdür zülfü zəncir tək,
Ağlın əl-ayağın bağlamış bərk-bərk.
Alnında çeşmə tək dalğalanır nur,
Ay, günəş önündə baş əyib durur.
Pakların mehrabı[1] kaman qaşları,
Kölgəsində bəslər bir cüt xumarı.
Behişt bağçasında ay üzü bir gül,
Qaşının qövsidir o aya mənzil.
Çəkib gözlərinə naz sürməsindən,
Vurar sinələrə ox müjəsindən.
Gülümsər dodağı – şəhd ilə şəkər,
Danışsa, ağzından xalis qənd tökər.
Dişləri şəffafdır, safdır incidən,
Üzüdür günəşə ziya bəxş edən.
Gülərsə, Sürəyya nur səpər yerə,
Püstə qibtə edər duzlu ləblərə.
Buxağı üstündə bir alma durur,
Buxaq o almadan asılı sudur.
Mişkdən dağ vurmuş xalı yanağa,
Qonmuş gül bağına bir qara qarğa.
Gümüş kimi qoldan, biləkdən sazdır,
Belinə bir incə tük desən, azdır.
Züleyxa göz açıb üzünə baxdı,
Bu baxış od olub canını yaxdı.
Bir camal gördü ki, olmaz bəşərdə,

[1] *Pakların mehrabı – qaşlar müqəddəs adamların mehrabına oxşadılır.*

Nə huri, nə qılman, nə pərilərdə.
Ondakı surəti, camalı gördü,
Bir deyil, eşqinə yüz könül verdi.
Verdi qamətinə qəlbində məskən,
Könlündə bir fidan əkdi eşqindən.
Ürəyi yaxıldı gizli bir oda,
Səbri, dini getdi bu oddan bada.
Ənbər zülflərinə qəlbi oldu bənd,
Hər tükü canının telinə peyvənd.
Qaşının tağını gördüyü anda,
Yuxulu gözləri qərq oldu qanda.
Ləbləri qəlbinə bal şəhdi süzdü,
Dişi kirpiyinə mirvari düzdü.
Gümüş biləyindən divanə oldu,
Önündə qul deyil, pərvanə oldu.
Görüncə üzündə o mişkin xalı,
Üzərlik tək oda tutuşdu halı.
Alma buxağından sarsıldı canı,
Asan dərmək olmaz elə almanı.
İlahi, bu necə surət, nə sima?!
Surətdən daha da üstündür məna!
Züleyxa unutdu Züleyxalığı,
Surətdən mənaya keçdi varlığı.
Əgər o mənadan tutsaydı xəbər,
Həqiqət yolunda açardı şəhpər.
Lakin o, surətə olaraq məftun,
Məna nəzərindən gizləndi onun.
Hamımız yapışıb vahi[1] surətdən,

[1] *Vahi – xəyali, ötüb keçən*

Qalmışıq xəbərsiz bir həqiqətdən.
Surətdən mənaya gedib çatmadan,
Könül surətgəri dərk etməz bir an!
Kuzənin içində su görsə əgər,
Təşnə, o kuzəni başına çəkər.
Sərin bir bulağın başında insan,
Söhbət açarmı heç ucuz saxsıdan?!

## ZÜLEYXA ÜÇÜNCÜ DƏFƏ YUSİFİ YUXUDA GÖRÜR. ADINI VƏ YERİNİ BİLİR VƏ AĞLA GƏLİR

Gəl, ey eşq, işlərin çox qarışıqdır,
Peşən gah savaşmaq, gah barışıqdır!
Gah ağıllıları dəli edirsən,
Gah da divanəyə ağıl verirsən.
Gözəllər zülfünü zəncir edərək,
Aqili bağlarsan divanələr tək.
O zülfün bəndini açdığın zaman,
Ağıl çırağına nur gələr ondan.
Züleyxa bir gecə səbrü qərarsız,
Qəmlə həmdəm idi özü qəmxarsız.
Başına çəkirdi möhnət camını,
Almışdı əlindən eşq aramını.
Ənbər saçlarını qəmdən yolurdu,
Ah ilə başına kül sovururdu.
Düşdü üzü üstə qara torpağa,
Torpağı döndərdi gül üzü bağa.
Tökdü nərgisindən qanlı yaşları,
Süsən tək dil açıb, andı dildarı.
Qəlbindən qəm teli bağladı saza,

Yar ilə başladı razü-niyaza.
Dedi: – Ey səbrimi qarət edən yar,
Pərişan könlümdə qoymayan qərar!
Mənə qəm gətirdin, qəmxar olmadın.
Könlümü ovladın, dildar olmadın,
Deyərdim, gülərdim, yaşayardım şən.
İndi zəncirinə bağlanmışam mən!
Adını bilmirəm, çağırım, barı,
Yerini bilmirəm, axtarım yarı!
Qönçə tək o qədər qan yedim qəmdən,
Axırda gül kimi çıxdım hərəmdən.
Demirəm, gözündə əziz bil məni,
Özünə bir yazıq kəniz bil məni.
Kənizin könlünü lütfünlə qıl şad,
Möhnət zindanından gəl, elə azad.
Mənim tək bağrı qan olmasın heç kəs,
Məni rüsvay etdi bu eşqi-həvəs.
Dünyaya sığmayır anamın qəmi,
Atma güldürdüm bütün aləmi.
Məni tərk etdilər pərəstarlarım,
Yalqızlıq qəmilə keçir rüzgarım.
Canımı bir çöp tək saldım odlara,
Kimsəsiz mən hara, yanar od hara?
Danışıb könlüylə şivən qopardı,
Nəhayət, o gülü yuxu apardı.
Gözü məst olunca yuxu camından,
Gəldi yuxusuna yenə də canan.
Nə qədər gözəldi camalı, bilsən,
Vəsfində daha söz tapmayıram mən.
Tutdu ətəyindən Züleyxa yavaş,

Tökdü ayağına gözdən qanlı yaş.
Dedi: – Ey qəlbimi möhnətə salan,
Bu ağlar gözümdən yuxunu alan!
Səni o xaliq ki, yaratmış səni,
Hər iki dünyada ucaltmış səni.
Azalt könlümdəki qəmi, qubarı
Adını, yurdunu aç, söylə, barı!
Dedi: – Təkcə bunu arzu edirsən?
Qoy deyim, Misirdə yaşayıram mən.
Məni əziz tutar Misir sultanı.
O mənə vermişdir şövkəti, şanı.
Züleyxa elə ki, ünvanı bildi,
Elə bil, yüz illik ölü dirildi.
Dinlədi yarını o nazlı afət,
Başına huş gəldi, canına qüvvət.
Yuxuda taleyi ona oldu yar,
Divanə yatmışdı, oyandı huşyar.
Tutunca sevdiyi o aydan xəbər,
Yenidən ağıllı oldu o dilbər.
Çağırdı, kənizlər gəldi hər yandan,
Dedi: – Qəm yükünü atın boyundan.
Aparın atama bu xoş müjdəni,
Silin xatirindən qəmi, qüssəni.
Deyin ağlım, huşum gəlmiş yerinə,
Qurumuş arxıma su gəlir yenə.
Gəl, qızıl zənciri aç ayağımdan,
Daha divanəlik etmərəm, inan!
Qoyma ayağımı, qalsın zəncirdə,
Öz əlinlə gəl, aç, bağlama bir də.
Bu müjdə atanın könlünü açdı,

Az qala başından huşu da qaçdı.
Özünü bir vurğun kimi itirdi,
Nəhayət, o nazlı sərvə yetirdi.
Gümüş ayağından açdı ilanı,
Zəncirdən qurtardı sərvi-rəvanı.
Önündə torpağa düşüb dayələr,
Qızıl taxta onu dəvət etdilər.
Naz ilə əyləşdi taxt üstə canan,
Başına tac qoydu xalis qızıldan.
Pərilər onunla həmxanə oldu,
O şəmin başına pərvanə oldu.
Yaşıdlarla məclis qurdu o dilbər,
Tuti tək ləbindən axıtdı şəkər.
Başladı söhbətə, dodağı qaçdı,
Bir çox ölkələrdən söz-söhbət açdı.
Hekayə söylədi Rumdan, Həbəşdən,
Misrin adını da çəkirdi bəzən.
Elə ki, Misirdən başlandı söhbət,
Əzizin də adı çəkildi xəlvət.
Bu adı dilində edincə əzbər,
Sayə tək torpağa düşdü o dilbər.
Gözündən sel kimi axıtdı qanı,
Göylərə yüksəldi, ahı, fəğanı.
Sanki, bütün aləm çıxdı yadından,
Gah yardan danışdı, gah diyarından.
Yalnız yar sözünü edərdi təkrar,
Başqa söz ağzına almazdı zinhar!

## ZÜLEYXANIN ATASI MİSİR ƏZİZİNİN YANINA ELÇİ GÖNDƏRİR, ZÜLEYXA EŞQİNİ ONA BİLDİRİR VƏ ƏZİZ ONU QƏBUL EDİR

Qəmdən Züleyxanın qəlbi dağlıydı,
Ümid qapıları ona bağlıydı.
Olar hər gecənin nurlu gündüzü,
Qara günlülərin gülərmi üzü?
Ata gördü, qızı gedir əlindən,
Əlacı mümkündür Misir elindən.
Qərara gəldi ki, arif bir insan,
Misirdə bu dərdə axtarsın dərman.
Misrin Əzizinə salam yetirsin,
Züleyxadan ona işarə versin.
Ağıllı dostlardan seçdi bir nəfər,
Tərifə layiqdir ondakı hünər.
Qiymətli töhfələr verərək ona,
Göndərdi Əzizi-Misrin yanına.
Sifariş etdi ki, ey böyük insan,
Sənin astananı öpər bu dövran.
Həmişə allahdan istəyirik biz,
Əzizsən, olasan gün-gündən əziz!
İsmət pərdəsində bir günəşim var,
Ayın ciyərinə nur saçan nigar.
Məqamı ucadır ulduzdan, aydan,
Kölgəsin günəş də görməmiş, inan!
Sədəfdə incidən safdır o dilbər,
Hüsnü cilvələnsə, ulduzlar sönər.
Qorxar ki, ulduzlar görər üzünü,
Aya baxanda da örtər üzünü.
Təkcə güzgü onu üzünü görmüş,

Zülfünü tək daraq darayıb hörmüş.
Kimsə ayağına qoymamışdır baş,
Təkcə zülfü düşər ayağa birbaş.
Həyətdə gəzərkən o zaman-zaman,
Ətəkləri öpər ayaqlarından.
Bəzək görməmişdir onun yanağı,
Neyşəkər dadmamış şəkər dodağı.
Onunçun gizlənər camalı güldən
Ki, gül rüsvaylıqla çıxmış pərdədən.
Nərgis şərab içər, yada göz vurar,
Odur ki, o gözəl nərgisdən qaçar.
Kölgəsi yanınca getməsin deyə,
Ay, günəş çıxarkən, çıxmaz küçəyə.
Suda əks etməsin deyə surəti,
Sevməz bulaq üstə sözü, söhbəti.
Daim pərdədədir, evdə oturur,
Pərdə xaricində yüz büsat qurur.
Bütün şahlar olub hüsnünə aşiq,
Görməz o kimsəni eşqinə layiq.
Rumdan Şama qədər tac sahibləri,
Bağrı qan olmuşdur, lakin o pəri,
Kimsəyə baş əyməz, məğrur duraraq,
Bircə Misr elinə meyli var ancaq.
Rumdan söz düşəndə qəlbi sıxılar,
Rumlu şum[1] yaranmış, deyir o nigar.
Söyləsən, yanında yaxşı yerdir Şam,
Deyər: Gündüzü də görünər axşam.
O tapar təsəlli Misrin adiylə,

[1] *Şum – uğursuz*

Misr üçün göz yaşı dönmüşdür Nilə.
Bilmirəm, bu işə nə olmuş səbəb?
Misirdən o gözəl nə edir tələb?
Bəlkə də, torpağı o yerlərdəndir,
Qisməti, ruzusu o ellərdəndir?
Qəbul etsən əgər, eylə xəbərdar,
Göndərim, yanına gəlsin o nigar.
Hüsnüylə verməzsə evinə bəzək,
Bir qaravaş olub, ev süpürəcək.
Misrin Əzizinə çatcaq bu xəbər,
Onun sevincini tutmadı göylər.
Dedi: Məndə hanı elə ləyaqət,
Ki, belə bir işə edim cəsarət?
Şah məni torpaqdan qaldırır deyə,
Yeri var ki, başım yüksələ göyə.
Mən torpağam ki, uca buluddan,
Üstümə çilənir lütf ilə neysan.
Yüz dilim olsa da, necə bir süsən,
Acizəm, bu lütfün təşəkküründən.
Şah mənə mərhəmət qılırsa izhar,
İtaət edərəm bəxtim olsa yar.
Başım ayaq olar, gözlərim başmaq,
İstərəm, baş üstə murada çatmaq.
Lakin Misir şahı o ulu sultan,
O qədər xidmətə vermişdir fərman,
Bir saat yanından gedərsəm əgər,
Qılıncla başımı bədəndən üzər.
Şah mənim üzrümü qəbul edərək,
Məndən inciməsin, əfv etsin gərək.
Əgər razı olsa, xalis qızıldan,

İki yüz kəcavə bəzərəm, inan!
Qoşaram minlərlə incəbel kəniz,
Ayüzlü, sərvboy, şirindil kəniz.
Qullar göndərərəm gündən işıqlı,
Behişt hurisindən çox yaraşıqlı.
Dodaqları şirin, dilləri şəkər,
Bellərində xalis qızıldan kəmər.
İpəkdən, xaradan arxalıq, papaq,
Qızıl yəhər ata minərlər ancaq.
Kənizlər günəşdən xələt geyərlər,
Huri libasında görünər bəşər.
Ayın üzərində bəzəyərlər tağ,
Mişk ilə örtülər hər bir gülyanaq.
Qərq olar hamısı zərə, gövhərə,
Qızıl kəcavədə oturar hərə.
İstənilən qədər alim insanlar,
Dövlətin dayağı olan əyanlar.
Göndərim, o gülü böyük minnətlə,
Misrə gətirsinlər nazla, izzətlə.
Elçi bu sözləri eşitcək həmən,
Öpərək Əzizin qədəmlərindən,
Dedi: – Ey bu Misrə izzət bəxş edən,
Bizim ellərin də əzizisən sən.
Var bizim şahın da şəni, şövkəti,
Az deyil kimsədən onun dövləti.
Gəlməz kənizləri, qulları saya,
Hüsndə rəqibdir hər biri aya.
Onun xidmətində amadə duran,
Çoxdur ağacların yarpaqlarından.
Çöldəki qumlardan çox ləl, mərcan,

Səxavətli əli vermişdir ehsan.
Razılıq istərdi o səndən ancaq,
Bil ki, cavabından razı qalacaq.
O şirin meyvənin həsrətindəsən,
Tezliklə göndərər, xatircəm ol sən.

## ZÜLEYXA ÇADIR DEŞİYİNDƏN MİSRİN ƏZİZİNİ GÖRÜR VƏ ALDANDIĞINI BİLİB FƏRYAD QOPARIR

Hoqqabaz ruzigar, bu qoca fələk,
Görək nə yol ilə quracaq kələk.
O gah ümmid ilə yaşadır bizi,
Gah qəmə döndərir sevincimizi.
Muradı göstərir bizə uzaqdan,
Edir könlümüzü nakamlıqla qan.
O zaman ki, çatıb Misrin Əzizi,
Nemətə qərq etdi qulu, kənizi.
Züleyxa çadırda öz dayəsilə,
Məşquldu söhbətə yüz həvəs ilə.
İstərdi yarını görsün yaxından,
Dedi: – Ey qəmxarım olan dayə can!
Daha qalmamışdır könlümdə qərar,
Yarı görməyimə bir çarə axtar!
Qonşuluqda olsa vəfalı canan,
Aşiqin könlündə qalarmı tavan?
Bir susuz, bulağa çatarsa əgər,
Ağzı islanmazsa, yanğından ölər.
Züleyxanı görüb halı pərişan,
Dayə tədbir üçün çıxdı çadırdan.
Çadırın dövrünə-bərinə qaçdı,
İynə gözü boyda bir deşik açdı.

Züleyxa bayıra baxdı oradan,
Ah çəkdi, qəlbindən qopdu bir tufan!
Dedi: – Vay, qəribə işə düşdüm mən,
Divarım yıxıldı, ev hörülmədən.
Bu mənim gördüyüm o cavan deyil,
Ağlımı başımdan aparan deyil!
Bu deyil yuxuda gördüyüm afət,
Boş yerə bu qədər çəkdim əziyyət!
Əfsus ki, taleyim yenə də döndü,
Səadət ulduzum üfüqdə söndü.
Mən xurma əkdimsə, barı xar oldu,
Gözlədiyim rütəb[1] zəhrimar oldu.
Xəzinə uğrunda çəkdim çox zəhmət,
Qismətim əjdaha oldu, nəhayət!
Gülün ətri üçün çıxdım gülşənə,
Tikan nizəsini batırdı mənə.
Bir içim su üçün ciyərim ətşan,
Qumlu bir səhrada qaçıram hər yan.
Dilim susuzluqdan od kimi qızar,
Dodağım olmuşdur çat-çat, qan sızar.
Uzaqdan görünür gözümə bulaq,
Yıxıla-yıxıla gedirəm, ancaq.
Görürəm orada sudan yox əsər,
Quru şoranlıqdır bütün o yerlər.
Dağda libasımı verərək əldən,
Qəm dağı altında gizlənmişəm mən.
Daş dəymiş ayağım qabar-qabardır,
Nə getmək, nə durmaq qüdrətim vardır.

---

[1] *Rütəb – yaş xurma.*

Qanlı gözlərimə görünür bəzən,
Dumanlı bir xəyal itirdiyimdən.
Gedirəm ki, çatım ona nagəhan,
Bəxtimdən olur bir yırtıcı aslan,
Dənizdə gəmimi daşa vurmuşam,
Bir taxta üstündə lüt oturmuşam.
Alıb ağuşuna məni dalğalar,
Aşağı, yuxarı atıb çalxalar.
Bir qayıq görünər gözümə birdən,
Nəcat ümidiylə sevinərəm mən.
Elə ki, yaxına gələr bir qədər,
Görərəm nəhəngdir, mənə qəsd edər.
Yoxdur mənim qədər bədbəxt dünyada,
Kimsə mənim kimi düşməmiş oda.
Canan həsrətində gözü yaşlıyam,
Əlləri qoltuqda, başı daşlıyam.
Üzümə bir qapı gəl aç, ey fələk!
Allah xatirinə, yaxamdan əl çək!
Mənə yetirməsən sevdiyim yarı,
Əğyar didarıyla incitmə, barı!
Qəlbən sevdiyimlə bağladım peyman,
Səy ilə qoruyum xəznəmi hər an.
Rəva görmə mənə dərdi, ələmi,
Əjdaha əlinə vermə xəznəmi.
Ağlayıb sızladı bir xeyli zaman,
Axıtdı kirpikdən üzünə al qan.
Qopdu sızıltılar saf ürəyindən,
Üzünü torpağa sürtürdü qəmdən.
Bəxtin uçan quşu geri dönərək,
Səslədi qeybdən onu bir mələk;

– Ey yazıq, üzünü götür torpaqdan,
Bu müşkül edəcək işini asan.
Muradın bu Misrin Əzizi deyil,
Lakin onsuz olmaz muradın hasil!
Onunla yarını tapacaqsan, bil!
Onsuz yar vüsalı müyəssər deyil!
Onun ülfətindən qorxma, ey nigar
Ki, ismət qıfılın səlamət qalar.
Ondakı açarın dişi mumdur, mum!
Açar ki, mumdandır, hünəri məlum!
Gövhərin dərdini niyə çəkirsən,
Almaz işi gəlməz mumun əlindən!
Əlinə iynə yox, bir çöp götürsə,
Bəxiyə vurarmı dərzi ətləsə?
Paltarın yengində əl yoxsa əgər,
Boş paltar heç vura bilərmi xəncər?
Züleyxa elə ki, bunu eşitdi,
Şükr üçün torpağa səcdəyə getdi.
Tərgidib naləni, ahı, fəğanı,
Qönçə tək bağrında gizlətdi qanı.
İntizar gözünü dikərək yola,
Gözlədi müşkülü, özü həll ola.

## YUSİF GÜNƏŞİN, AYIN VƏ ON BİR ULDUZUN ONA SƏCDƏ ETDİYİNİ YUXUSUNDA GÖRÜR VƏ BU YUXU QARDAŞLARININ ONA QARŞI HƏSƏDİNİ ARTIRIR

Xoşbəxtdir gözünü surətdən çəkən,
Gözünü gizlədən yaman gözlərdən.
Qəlbən oyaq olub gözüylə yatan,
Kim görüb, yatarkən ayıq bir insan?

Bu fani aləmə yumub gözünü,
Başqa bir aləmdə görsün özünü?!
Yəqubun yanında Yusif bir gecə
Ki, onu sevirdi can-ciyərincə,
Balışa baş qoyub, rahat yatırdı,
Gülüş ləblərinə şəkər qatırdı.
Güldükcə Yusifin o şəkər ləbi,
Gəldi həyəcana Yəqubun qəlbi.
Nərgis tək gözünü Yusif açanda
Bəxti tək gözündən yuxu qaçanda,
Dedi: – Ey şəkəri xəcalət edən,
Niyə gülüş qopdu şəkər ləbindən?
Dedi: – Yuxu gördüm, günəş ilə ay,
On bir parlaq ulduz bir-birinə tay,
Hamısı qarşımda baş əydi mənim,
Səcdəyə gedərək, etdilər təzim.
Ata dedi: – Bəsdir, az danış bir az,
Bu sirri kimsəyə söyləmək olmaz!
Yuxundan tutsalar qardaşlar xəbər,
Sənə yetirərlər ayıqkən zərər.
Səndən min qüssə var ürəklərində,
Rahat qoyarlarmı səni yerində?
Onlar tab gətirməz paxıllığından,
Zənnimcə, bu yuxu yozulur asan.
Atanı dinlədi, nə bilsin ancaq,
Tədbir zəncirini külək qıracaq.
Yusif yuxusunu dedi birinə,
O da tez çatdırdı hər on birinə.
Bir sirri bilərsə ikicə nəfər,
Düşər dildən-dilə, dünyanı gəzər.

Bir həkim söyləmiş: – İki dodaqdan,
Başını tez verər bada bir insan.
Çox zaman dodaqdan bir sirr çıxmış,
Yüzlərlə igidin evini yıxmış.
Gözəl bir misal var həyatda, yoxla!
«Başını sevirsən, dilini saxla!»
Bir quş etsə əgər qəfəsdən pərvaz,
Tutub bir də onu bağlamaq olmaz!
Qardaşlar bu sirdən oldular qəmgin,
Artdı onlardakı qəzəb, həsəd, kin.
Dedilər: – Atamız düşünür nələr?
Vurur öz əliylə özünə zərər!
Niyə bir uşağa düşübdür meyli,
Uşaq ailədə olmuş tüfeyli.
Bu uşaq deyildir, bəladır, bəla!
Bizimlə düşmənlik edir bərməla!
Özündən toxuyur gündə bir yalan,
Özünü qiymətə mindirir ondan.
Ona aldanmışdır bu miskin qoca,
Tutar xatirini hər şeydən uca!
Mehrini kəsmişdir bizdən büsbütün,
Yusifi tutar o hamıdan üstün!
Atamız bu qədər ondan çəkir naz,
Yenə bu cəlaldan o razı qalmaz.
İstər biz qul olaq, o isə ağa,
Hər gün qarşısında düşək torpağa.
Atamız salarkən ona xoş nəzər,
O, qürurla bizə arxa döndərər!
Gündüzlər səhrada çobanı bizik,
Gecələr evinin pasbanı bizik.

Bizimlə düşməni əzib xar edər,
Bizimlə dostlara iftixar edər.
Bəs onda hiylədən başqa nə görmüş
Ki, ona bu qədər ixtiyar vermiş.
Gəlin başımızın hayına qalaq,
Onu bir yol ilə avara salaq.
Gəlin, biz tədbirlə əl-ələ verək,
Onu bir kələklə evdən itirək.
Şoranlıqda bitsə bir tikan həmən,
O yeri qazmalı, ağac əkmədən.
Oturub bir yerdə tədbir tökdülər,
Əlac tapmaq üçün nəqşə çəkdilər.

## QARDAŞLAR YUSİFİ SƏHRAYA APARIR VƏ ZİLLƏTLƏ ONU QUYUYA SALIR

Fəğan, bu vəfasız fələk əlindən!
Ayı gündə atır bir yerə kindən!
Can çəmənliyində bir maral otlar,
Onu parçalayar zalım canavar.
Paxıllar Yusifi alıb getdilər,
Qurdlar bir quzunu şikar etdilər.
Nə qədər ki, ata baxırdı, onlar
Yusifə məhəbbət edirdi izhar.
Gah biri çiyninə alırdı yerdən,
Digəri bağrına basırdı bəzən.
Birisi silirdi tozu üzündən,
Başqası öpürdü şəhla gözündən.
Elə ki, səhraya qoydular qədəm,
Məhəbbət yerinə başlandı sitəm.
Çiyindən saldılar sərt daş üstünə,

Sanki gül atıldı atəş üstünə.
Başmaqlar alındı ayaqlarından,
Gül ayaqlarına mıxlandı tikan.
Gülü utandıran o ayaqlara,
Daş ilə tikandan yetdi min yara.
Oldu ayaqları qanında qəltan,
Döndü laləzara çöllər o qandan.
Elə ki, onlardan qalırdı geri,
Vururdu üzünə sillə hər biri.
Kəsilsin o əl ki, qıyar özünə,
Sillə ilə vurar ayın üzünə.
Elə ki, keçərdi qabağa bir az,
Qardaşlar vurardı başına qapaz.
İlahi, bağlansın zəncirə o əl
Ki, ondan zərbələr alır bir gözəl!
İstərdi onlarla getsin yanbayan,
Tutub çəkərdilər qulaqlarından,
O əl ki, dartardı zərif qulağı,
İlahi, kəsilsin onun barmağı!
Kimin ətəyindən tutub durardı,
O alıb Yusifi yerə vurardı.
Kimin ayağına düşsəydi nalan,
Başı kos olardı o ayaq çovqan.
Yalvarıb, birindən istəsə kömək,
Kömək istədiyi vurardı kötək.
Ümidi kəsildi qardaşlarından,
Gözündən lalə tək axıtdı al qan.
Bulaşdı torpağa, qərq oldu qana,
Dərdü-qəm əlindən gəldi fəğana.
Dedi: – Haradasan, ata can, ata?!

Neçin Yusifini duymursan, ata?!
Gəl, oğullarının felinə bir bax!
Gör necə ağılsız, dinsiz olaraq,
Sənin zəhmətini yerə vurdular?!
Qəlbidaş, rəhmsiz, nankor oğullar!
Sənin can bağında bəslənən bir gül,
Ehsan yağışınla süslənən bir gül,
Gör, necə taqətdən düşüb, can verir?
Nə də ki, susuzluq bir aman verir.
Ömür bağçasında əkdiyin fidan,
Bəsləyib, nazını çəkdiyin fidan,
Gör, necə kəsilmiş zülmün əliylə,
Sovrulub getmişdir səm küləyiylə?!
O ay ki, gecənin göz işığıydı,
Evinin, obanın yaraşığıydı,
Fələyin əliylə gəlmiş zavala,
Nur üçün əl açır miskin hilala!
Bu halla getdilər üç ağac qədər,
Yusif çox yalvardı, rəhm etmədilər.
Bir quyu başına çatıb, nəhayət,
Düşərgə saldılar, oldular rahət.
Zalımın qəbri tək dardı o quyu,
Zülmətiylə bağrı yardı o quyu,
Ağzı əjdahanın ağzına bənzər,
Hər nəfəs çəkdikdə, udar yüz nəfər.
Mərdimazar kimi ürəyi dardı,
İçində hesabsız ilanlar vardı.
Qəm, kədər yağırdı hər tərəfindən,
Haqqında düşünən düşərdi əldən.
Mərkəzi uzaqdı, dibi qorxulu.

Havası üfunət, özü şorsulu.
Otursaydı orda bir anlıq hər kəs,
Darılardı nəfəs yolunda nəfəs.
Qardaşlar gəldilər qəti qərara
Ki, quyu Yusifçün dönsün məzara.
Yusif zülm əlindən fəryada gəldi,
Dağ-daş naləsindən imdada gəldi.
Daş onun halını bilsəydi, inan!
Əriyib, yumşaq olardı mumdan!
Ağladı Yusifin halına göylər,
O daş ürəklərə etmədi əsər.
Nə cəfa etdilər o qönçə gülə,
Söyləsəm, qorxuram, od düşə dilə!
O qol ki, toxunsa behişt ipəyi,
Göyərərdi ondan incə biləyi.
Kəndir bağladılar keçi tükündən,
Hər tükü kəndirin oldu bir tikən.
Tük kimi o nazik incə belinə,
Bir ilan sardılar çal ipdən yenə.
Köynəyi alındı gül bədənindən,
Gül kimi lüt qaldı o zəfir bədən.
Sallayıb bu halda onu quyuya,
İpini kəsərək, saldılar suya.
Parlaq bir günəşdi onun camalı,
Fələk dedi: – «Günəş suda qalmalı!»
Quyunun dibində var idi bir daş,
Yusif daş üstündə oturdu birbaş.
Sadə daş bununla bəxtəvər oldu,
Daş dönüb qiymətli bir gövhər oldu.
Şəkər dodağının bərəkətindən,
Şor su şirin oldu bal şərbətindən.

Üzünün nurundan quyu nur tapdı,
Sanki, üzü aydı, nuru məhtabdı.
Zülfündən havası oldu müəttər,
Üfunətdən onda qalmadı əsər.
Camalı quyuya şölə salınca,
Qaçıb gizləndilər ilan, qarınca.
Bazbəndi içində bir köynək vardı,
Cəddi İbrahimdən o yadigardı.
İbrahimə onu göndərmiş Rizvan,
Sayəsində olmuş atəş gülüstan.
Cəbrayıl quyuya endi ərşdən,
Bazbəndi qolundan açaraq həmən.
Köynəyi çıxarıb dedi: «Al, geyin,
Qoy çılpaq qalmasın o gül bədənin»,
Dedi: – Ey nəsibi olan dərdü ah,
Sənə bir sifariş göndərmiş allah,
Deyir: – Səbr eləsin, tez bir gün gələr,
O xainlər ki, sənə bu gün zülm edər,
Qarşında dururlar xəcil, pərişan,
Yerə baş dikərlər məhzun, pəşiman.
Bu pis işlərini bir-bir sayaraq,
Sirrini açmazsan onlara ancaq.
Tanıyıb bilərsən, kimlərdir onlar?
Onlar isə səni heç tanımazlar.
Yusif Cəbrayıldan eşitcək bunu,
Yetişdi dərdinin, qəminin sonu.
Oturdu quyuda barigah kimi,
Daş taxtın üstündə xoşbəxt şah kimi.
Gəldi süfrəsinə behiştdən nemət,
Cəbrayıl onunla oldu həmsöhbət.

## MİSRƏ GEDƏN KARVAN QUYUNUN BAŞINA ÇATIR VƏ YUSİFİ ORADAN ÇIXARIR

Allahın adıyla yollanan karvan,
Həyat çeşməsinə bəxş eyləyir can.
Quyuya dol salsa o karvan əgər,
O dolun bürcündən ay tülu edər.
Yusif üç gün qaldı o dar quyuda,
Adətdir, təzə ay qalar quyuda.
Oldu dördüncü gün, açıldı səhər.
Yusifin könlündən silindi qəhər.
Bir karvan çıxaraq yola Yəməndən,
Misrə yola düşdü könülləri şən.
O quyu başına gəlib çatdılar,
Orada düşərgə, yurd yaratdılar.
Yusif bələdçisi olan bir karvan,
Düşərgə seçməkdə səhv etməz, inan!
Hamı susamışdı quyunu görcək,
Oraya cumdular çevik, sevincək.
Əvvəlcə yetişdi xoşbəxt bir insan,
Həyat çeşməsinə ilkin yol tapan,
O Xızır sifətli, dolçanı aldı,
Su üçün qaranlıq quyuya saldı.
Yusifə söylədi Cəbrayıl o dəm,
Hüsnünü görməyə təşnədir aləm!
Parlaq günəş kimi dolda otur, gəl,
Qaranlıq məğribdən məşriqə yüksəl!
Quyu kənarını üfüqə döndər,
Qoy alsın hüsnündən işıq üfüqlər!
Aləmi bəzəsin səndəki camal,

Qaranlıq dünyaya yüksəl, işıq sal!
Yusif daş üstündən tələsik durdu,
Saf bulaq suyu tək dolda oturdu.
Quyudan o dolu çəkən bəxtəvər,
Gördü, dol ağırdır, çətin yüksələr.
Dedi: – Nə səbəbdən dol ağır çıxar?
Yəqin, sudan başqa onda nəysə var?!
Elə ki, quyudan çıxdı o çıraq,
Su çəkən bu sirrə heyran qalaraq,
Dedi: – Bəxtimə bax, qara quyudan,
Çıxmış nur mənbəyi bir mahi-taban!
Müjdə! Ki şor suyun içindən bu gün,
Bir su çıxarmışam şərbətdən üstün!
Çöldə bir gül açdı onun üzünə,
Sataşmasın deyə yadlar gözünə,
Gizlicə apardı onu mənzilə,
İstəməzdi düşsün söhbəti dilə.
Bəli, xəznə tapsa bir nəfər əgər,
Gizlədə bilməzsə, yüz bəla çəkər.
Hələ yaxındaydı paxıl qardaşlar,
Onu izləyirdi durmadan onlar.
Gözdən qoymayaraq o kor quyunu,
Bilmək istərdilər işin sonunu.
Karvandan, Yusifdən tutunca xəbər,
Qaçaraq quyuya tərəf getdilər.
Səslənib Yusifi çağıran zaman,
Yalnız əks-səda gəldi quyudan.
Yusifi tapmağa verib qərarı,
Baş alıb, getdilər karvana sarı.
Gəzib axtardılar tər-qan içində,

Yusifi tapdılar karvan içində.
Tutaraq dedilər bu bizim quldur,
Vəfasız olsa da, yenə qəbuldur.
Tənbəldir, meyl etməz xidmətə, işə,
Fikri qaçmağadır bunun həmişə.
Doğrudur, gözəldir, bir ayparadır,
Satmaq istəyirik, çün avaradır.
Çirkin qul iş görər, hünər göstərər.
Qulun gözəlindən gözləmə hünər!
Bir qul ki, işləməz, hey yeyər, yatar,
Dəyəri-dəyməzə sat, yaxan qurtar.
Biz əbəs qatlaşdıq ağır zəhmətə,
Hazırıq ki, sataq ucuz qiymətə.
Yusifi quyudan çəkib çıxaran,
Onu satın aldı qardaşlarından.
Deyirlər, Malikdi o şəxsin adı,
Azacıq pul verib Yusifi aldı.
Yığışıb yükünü bağladı karvan,
Yenə Misrə tərəf oldular rəvan.
Nadanlar bazara gətirsə ayı,
Qədrini bilməyib satar havayı.
Misrin xəracıydı didarı onun,
Yüz cana dəyərdi göftarı onun!
Yəquba bəlliydi onun dəyəri,
Züleyxa gərəkdi ona müştəri!
Bir neçə pul üçün, ağlını bilən,
Səadət xəznəsin verərmi əldən?!

## MALİK YUSİFİ MİSRƏ ÇATDIRIR, PADŞAH ONLARIN GƏLMƏSİNDƏN XƏBƏR TUTUR VƏ ƏZİZİ ONLARI QARŞILAMAĞA GÖNDƏRİR

Malik xəznə tapdı zəhmət çəkmədən,
Qiymətli xəznəyə malik oldu şən.
O könül oxşayan ayı görüncə,
Şadlıqdan bilməzdi, otursun necə?!
Ruh verən ətrinin olub mayili,
Bir mənzil edirdi iki mənzili.
Misrə yaxınlaşdı o, uzaq yoldan,
Oldu Misr elinə qəziyyə əyan.
Dedilər, səfərdən qayıtmış Malik,
İbrani bir qula olaraq malik.
Hüsn fəzasında aydır o dilbər,
Gözəllikdə yoxdur ona bərabər.
Görməmiş hələ də min gözlə fələk,
Bütün yer üzündə bir elə mələk.
Misrin sultanına çatdı bu xəbər,
Qibtədən, həsəddən yandı o sərvər.
Gözəllik bağıdır, dedi ölkəmiz,
Belə gül hələlik görməmişik biz.
Cənnət gülşənində açsa da bir gül,
Misirli yanında yanıb olar kül.
Əzizə söylədi: – Durma, çıx yola,
Karvanı şəhərdən kənar qarşıla.
Get, o ay üzlünü öz gözünlə gör,
Sonra izzət ilə saraya gətir.
Əziz gəlib çatdı yolda karvana,
Nəzəri sataşdı mahi-Kənana,
Özünü, sözünü itirdi bütün,

İstədi önündə səcdəyə düşsün.
Lakin Yusif onu qaldırıb sonra,
Özü səcdə qıldı hörmətlə ona.
Baş ancaq o şəxsə gərək əyilsin
Ki, onun boynunda bir minnət bilsin.
Sonra Əziz verdi Malikə fərman
Ki, gərək saraya gəlsin bu oğlan.
Malik söylədi ki, bir sözüm yoxdur,
Sənin kərəminə ümidim çoxdur.
Lakin üzürlü tut bizi bir qədər,
Hamını yormuşdur bu ağır səfər.
İzin ver burada bir az dincələk,
Yolun his-tozundan biz təmizlənək.
Yuyunub geyinək, olaq tərtəmiz,
Şahın hüzuruna sonra gələk biz.
Əziz bu sözləri dinlədi, dərhal
Şahın hüzuruna qayıtdı xoşhal
Yusifin hüsnündən öz sultanına,
Danışdı, od saldı şahın canına.
Şah dedi: – Minlərlə ayüzlü cavan,
Hər biri gözəllik mülkünə sultan.
Hamısı başında qızıl ərəqçin,
Əyninə zərxara libas geyinsin.
Bağlasın belinə minalı kəmər,
Gülsün ləblərindən tökülsün şəkər.
Hər biri gözəllik bağının gülü,
Hamı ağ buxaqlı, hamı gül üzlü.
Yusifi bazara çəkən zamanda,
Müştəri hüsnünü görən zamanda,
Hamı bu bəzəklə, bu calal ilə,
Dayansın üz-üzə mahcamal ilə.

Önündə səf çəksin bütün gözəllər,
Yusifin hüsnü qoy solsun bir qədər.

## ZÜLEYXA ŞAH SARAYI QARŞISINDA YUSİFİ GÖRÜR VƏ TANIYIR

Günəş camalını göstərən zaman,
Süha ulduzları gizlənər haman.
Züleyxa görməmiş o ay camalı,
İki mənzil qədər yardan aralı
Olsa da, mənadan tutmuşdur xəbər,
Canına od düşüb, yanırdı cigər.
Bilməzdi nə üçün canı odlanar?
Təsəlli tapmaqçın bir gün o naçar,
Səhraya çıxdı ki, gəzib, şad olsun,
Könlü dərd əlindən bir azad olsun.
Bir neçə gün dözüb qəmə, möhnətə,
Səbr ilə özünü saldı zəhmətə.
Çalışdı qayğısız eyş-işrət edə,
Lakin dərdü-qəmi artdı get-gedə.
Qəlbi açılmadı çöldə, çəməndə,
Zənn etdi şad olar evə gedəndə.
Tələsik qalxaraq atın belinə,
Dönmək istəyirdi öz mənzilinə,
Məqsədi olsa da evinə çatmaq,
Şah qəsri yanından keçəndə, ancaq
Görüb izdihamı eylədi heyrət,
Guya ki, Misirdən qopur qiyamət?
Soruşdu, dedilər: – Bu toy, təmtəraq
Kənanlı bir qulçun qurulmuş ancaq!
Qul demə, günəşdir onun camalı,
Gözəllik mülkünün cahü-cəlalı.

Züleyxa ətrafa göz gəzdirərək,
Yarını tanıdı, o qulu görcək!
Çəkdi ixtiyarsız ürəkdən fəryad,
Huşunu itirdi o boyu şümşad!
Özünü itirdi kəcavə çəkən,
Onu mənzilinə çatdırdı həmən.
Xəlvətə çəkilib bir az dincəldi,
Yavaş-yavaş halı özünə gəldi.
Dayəsi soruşdu: – Ey mahi-taban,
Nə üçün qopardın yanıqlı fəğan?
Nədən şivən etdi şirin ləblərin?
Acı bir hal ilə yıxıldın neçin?
Dedi: – Nə söyləyim mehriban ana!?
Nə desəm, qorxuram, canım odlana?
İzdiham içində o qul adlanan
Ki, bütün Misr olub hüsnünə heyran,
O mənim qibləmdir, əziz canımdır,
Ona canım qurban, öz cananımdır!
Yuxuda görmüşəm mən o nigarı,
Almışdır əlimdən səbrü-qərarı.
Canım alovlanır, ürəyim yanır,
Qəmindən gözümdə qan dalğalanır!
Eşqi ixtiyarı əlimdən almış,
Məni bu qürbətə o çəkib salmış.
Elimdən, günümdən edib avara,
Bu qərib ölkədə qoymuş biçara.
Görürsən, illərlə daim ağlaram,
Mənə eyşü-işrət olmuşdur haram.
Bütün qəmlərimə bir odur səbəb!
Könül daim edər vəslini tələb.
Möhnətim ağırdır dağlardan, inan!

Özüm öz işimə qalmışam heyran!
Ayım boylanacaq kimin bürcündən?
Şəmim hansı bəzmi edəcək rövşən?
Kimin gözlərinə işıq verəcək?
Evi gülşən olub, açacaq çiçək?
Kimə can verəcək o şəkər ləblər?
Sərvi sayəsində kimlər dincələr?
O qara zülfləri kim hörər, açar?
O gümüş qaməti kim çılpaq qucar?
Kim onun yolunda candan keçəcək?
Tozundan gözünə sürmə çəkəcək?
O mənim halımı biləcəkdirmi?
Üzümə səadət güləcəkdirmi?
Dayə Züleyxanın dərdini qandı,
Şəm kimi od alıb, ağladı, yandı.
Dedi: – Gizlicə yan, gizlicə yandır,
Dərdini kimsəyə açma, amandır!
Səbri peşə etdin bir neçə illər,
Səbr ilə açılar bütün müşküllər.
Səbr ilə arzuna çatarsan, yəqin,
Qara buludlardan çıxar günəşin!

## ZÜLEYXANIN ÖZÜ YUSİFİN YANINA GEDİR, ONA YALVARIR, LAKİN YUSİF ONUN TƏKLİFİNİ YENƏ DƏ RƏDD EDİR

Dayə Züleyxaya gətirdi xəbər
Ki, onun zəhməti verməmiş səmər.
Züleyxa bu sözü eşidən zaman,
Qıvrım saçı kimi oldu pərişan.
Kirpikdən axıtdı ciyər qanını,

Qara badamlardan yaş innabını.
Yürüdü sərvtək Yusifi sarı,
Sayəsi altına aldı dildarı.
Dedi: – Ayağının torpağıyam mən,
Bir an sağ qalmayım səni sevmədən!
Eşqinlə doludur hətta tüklərim,
Özümdən tük qədər yoxdur xəbərim.
Xəyalın cismimin can çırağıdır,
Kəməndin boynumun boyunbağıdır.
Canımı qəmlərə salan da sənsən,
Eşqinlə canımı alan da sənsən!
Könlümün qissəsi gəlməz bəyana,
O dönmüş gözümdə bir qətrə qana.
Eşqin dəryasında qorxu bilmədən,
Təpədən-dırnağa qərq olmuşam mən.
Əgər damarımı deşsə qan alan,
Çıxar qan yerinə qəmin damardan.
Bu sözlər Yusifə çox etdi təsir,
Züleyxa soruşdu: – Bu halət nədir?
Sən mənim gözümsən, ağlasan əgər,
Bir daha gülmərəm ölənə qədər.
Bir qətrə yaş axsa kirpiklərindən.
Od düşər canıma, odlanaram mən.
Hüsnünün möcüzü sayılır bu da,
Su ilə salırsan canımı oda.
Yusif Züleyxanı görüncə qəmli,
Ürəyi atəşli, gözləri nəmli,
Züleyxa gözündən inci tökən tək,
Lələndən Yusif də gövhər səpərək,
Dedi: – Ağlayıram, bil, budur illət

Ki, mənə düşməyir əsla məhəbbət!
Doğma bibim sevdi məni bir zaman,
Məni rüsvay edib, dedi oğrusan!
Öz atam da məni çox sevdiyiçin,
Mənə qardaşlarım bəslədilər kin.
Atamın yanından saldılar uzaq,
Bu qürbət ölkədə olmuşam dustaq!
Sinəmdə fikirdən qan olur ürək,
Sən sevsən, başıma nələr gələcək?
Məşuqlar, adətdir, qısqanc olarlar,
Sevilmək mülkünə olub hökmdar.
Nə əvvəl, nə axır heç kəsi, əsla!
Şərik istəməzlər, eşqə, sövdaya.
Sərv gözəllikdə baş çəksə əgər
Kölgə tək yer ilə yeksan edərlər.
Səmada üzünü bəzəsə bir ay,
Qısqanclıq şimşəyi vurub edər zay.
Günəş ki, fəzanın ovcuna çatar,
Onu həsəd əli məğribə atar.
Züleyxa dedi: – Ey nurlu çirağım!
Sənsən parlaq ayım, arxam, dayağım!
Demirəm gözündə əziz bil məni,
Öz kənizlərinə kəniz bil məni.
Ürək məhəbbəti, sinə dərdindən,
Başqa şey gəlməyir mənim əlimdən.
Mən səni sevirəm canımdan artıq,
Düşmənlik gözləmək məndən, nə layiq
Kim istər, öz əli canını alsın?
Kim istər ruhunu bəlaya salsın?
Eşqindən ürəyim para-paradır,

Dilinlə vurduğun bu nə yaradır?
Lütf qıl, ləbindən mənə busə ver,
Eşqimi qəbul et, murada yetir!
Mənimlə bu yolda yoldaş ol, barı!
Gəl, birgə keçək bu ağır yolları!
Yusif cavabında dedi: – Ey xanım,
Qulluq zəncirinə bağlıdır canım!
Qulunam, vəzifəm sənə qulluqdur,
Mənə qul əlindən gələn iş buyur!
Ağalıq gözləmə sən öz qulundan,
Məni utandırır dediyin ehsan!
Mən kiməm, sənինlə yaradıb ülfət,
Ağama, Əzizə edim xəyanət?!
Şahla bir duzdana barmaq uzadan,
Bir qulu layiqdir, öldürə sultan!
Gərək öz yerini tanısın hər qul,
Sən də gəl, məni qıl iş ilə məşğul!
Necə xidmətin var, buyruq ver mənə,
Can-başla edərəm itaət sənə!
Yəqin eşitmisən, məşhur məsəl var:
Qulun işləyinin qiyməti artar.
Çalışqan qulların könlü olar şad,
Tənbəl qul olunmaz qulluqdan azad.
Züleyxa dedi: – Ey bəxtiyar insan!
Qarşında əsgigəm bir qara quldan!
Hər yerdə bir işə başlayanda mən,
Yüz işçi yüyürür, tutur əlimdən!
Onlar ola-ola sənə iş demək,
Eyibdir, sən də bu fikrindən əl çək!
Yol yerimək üçün yaranmış ayaq,

Olmaz ki, gözü də biz ayaq sayaq.
Yerə ayaq qoysan, sənə güc verər,
Göz yerə dəyərsə, azar gətirər.
Yusif bu sözləri eşidib ondan,
Dedi: – Ey ürəkdən mənə mehriban!
Doğrudan, sevirsən əgər məni sən,
Arzumun əksinə getməməlisən!
Arzum işləməkdir, nə iş buyursan,
Dostluğa yaraşmaz maneyə qursan!
Bir ürək sevirsə başqa ürəyi,
Diləyi olmalı, dostun diləyi!
Qılar istəyini dostuna qurban,
Öpər arzu dostun ayaqlarından.
Yusif Züleyxadan ayrılmaq üçün,
Söhbəti xidmətə həsr etdi bütün.
Qorxurdu yaxınlıq fitnə doğursun,
Fitnədən çalışdı uzaqda dursun.
Od ilə oynayan pambıq tez yanar,
Yaxşıdır oddan o qaçarsa kənar.

## ZÜLEYXA YUSİFİ YEDDİNCİ OTAĞA GƏTİRİR, ONDAN MURAD İSTƏYİR, YUSİF ONU RƏDD EDİR

Bu sirli sarayın söz söyləyəni,
Belə nəql eləmiş bu hekayəni:
Elə ki, yeddinci otağa çatdı,
Züleyxa ağlayıb, şivən qopartdı.
– Ey Yusif, gözümün üstə qoy qədəm.
Lütfündən bəzənsin bu nurlu hərəm.
Yusifi orada salaraq girə,
Dəmir qıfıl vurdu qızıl zəncirə.

Otaqda yox idi əğyardan əsər,
Paxıllar oradan tutmazdı xəbər.
Onun qapısından yadlar girməmiş,
Dostlar da oraya üz çevirməmiş.
Aşiqlə məşuqdan başqa yox bir kəs,
Nə darğa görünər, nə də bir əsəs[1].
Məşuqun üzünə bəzək verib naz,
Aşiq könlü edib şövqdən pərvaz.
O geniş meydanda həvəs odlanar,
Tamahın canına od düşüb yanar.
Məst olub Züleyxa yanında canan,
Əlini əlindən buraxmaz bir an.
Şirin sözlə salıb atəş canına,
Yusifi gətirdi təxtin yanına.
Özünü o taxtın üstünə saldı,
Ağladı, Yusifin seyrinə daldı.
Dedi: – Ey gülüzlü, mənə nəzər sal,
Könlümü lütf ilə bir dəm ələ al.
Günəş camalımı görərsə əgər,
Ay olub, üzümdən işıq əxz edər.
Məni dərd oduna yaxdığın yetər,
Həqarət gözüylə baxdığın yetər!
Ürək sözlərini deyib o nigar,
Eşqini Yusifə qılırdı izhar.
Onun fitnəsindən Yusif qorxaraq,
Başını aşağı tuturdu ancaq.
Otağın fərşinə sataşdı gözü,
Gördü: Züleyxadır, bir də ki, özü,

[1] *Əsəs – gecə keşikçisi*

İpək bir yataqda ikisi bərk-bərk,
Qucub bir-birini uzanmış, gerçək!
Oradan gözünü ayırdı birdən,
Başqa bir nöqtəyə baxınca həmən,
Özünü onunla gördü qolboyun,
Pozdu əhvalını bu sirli oyun.
Qapıya, divara, baxdı, hər yana,
İki gül oturub gördü yan-yana.
Göyə üz tutdu, ah, allah amandır!
Gördü səqfdə də mətləb hamandır!
Artdı Züleyxaya meyli bu zaman,
Üzünə bir kərə baxdı mehriban.
Doğdu Züleyxanın könlündə ümid,
Zənn etdi, doğacaq üzünə xurşid.
Yaralı ahu tək qəmdən mələdi,
Könlünün qanını gözdən ələdi.
Dedi: – Mətləbimi rəva qıl, rəva!
Vəslinlə dərdimə dəva qıl, dəva!
Mən susuz, sən isə həyat suyusan,
Mən ölmüş, sən isə nuşdarusan[1]
Mən səndən uzağam, necə ki, canan,
Ölü candan olar, susuz bulaqdan.
İllərdir qəmində canım odlanar,
Şövqündən nə yemək, nə yatmağım var.
Məni qəm selində boğduğun, yetər!
Ac, susuz, yuxusuz qoyduğun yetər!
Səni and verirəm allah eşqinə,
Şahların sultanı o şah eşqinə!

[1] *Nuşdaru – əfsanəvi təsirli (sağaldıcı) dərman.*

O hüsnə ki, səndə xaliq yaratmış,
Dünyanı fəth edib, kamala çatmış.
O nura ki, sənin alnında parlar,
Ay olmuş önündə səcdəyə vadar.
Səni and verirəm kaman qaşına,
Sərv qamətinə, uca başına,
Kaman qaşlarını çatan mehraba,
Zülfün kəməndini düyən qüllaba[1],
Könüllər ovlayan cadu gözünə,
Dünyanı bəzəyən o gül üzünə,
Bir tükə ki, ona sən bel deyirsən,
Bir sirrə ki, ağız zənn eləyirsən,
O gül yanağını bəzəyən xala,
Şəkər ləblərindən süzülən bala,
Həsrətində axan bu göz yaşıma,
Odlu ahlarıma, qəm sirdaşıma,
Üstümə dağ kimi yüklənən qəmə,
Könlümü odlayan dərdə, ələmə,
Bütün varlığımı əzən eşqimə,
Sonsuz qüruruna dözən eşqimə,
Rəhm qıl, ürəyim dönmüşdür qana,
Çətin işlərimi gəl, sal sahmana.
Bir çiçək dərməkçün sənin bağından,
İllərdir yanaram eşqin dağından.
Yaralı sinəmin məlhəmi ol, gəl!
Ətrinlə könlümün həmdəmi ol, gəl!
Hicrindən sarsılıb düşmüşəm oda,
Ver vüsal süfrəndən canıma qida.

[1] *Qüllab – halqa, kitmək.*

Məndə süd, səndə ki, təzə xurma var,
Süfrə açmamağa nə bəhanə var?
Bu süddən, xurmadan cismimə can ver,
Həsrətlə ölməkdən mənə aman ver!
Yusif ona dedi ki, ey pərizad,
Sən varsan, pərini kimsə etməz yad,
Gəl, məni bu günah işə çağırma,
Məsumluq şişəmi daş ilə qırma!
Vurma ətəyimə günah ləkəsi,
Yandırar cismimi şəhvət şöləsi!
And olsun hər yerdə hazır allaha,
Yaxşıya, yamana nazir allaha!
Səxa[1] dənizində fələk bir hübab,
Zərrədir önündə nurlu afitab.
And olsun əcdadım pak insanlara!
Paklıqda oxşaram ancaq onlara!
Gövhərim onlardan almış yaraşıq,
Onlar ulduzuma vermişdir işıq!
Bu gün əl götürsən yaxamdan əgər,
Bu xəlvət binadan buraxsan əgər,
Mənim hörmətimdən feyzə çatarsan,
Mənim xidmətimdən razı qalarsan!
Kam alıb, ruh verən ləl-ləbimdən,
Könlün aram olar sərv qədimdən!
Murada çatmağa tələsmə zinhar,
Gec dəyən meyvələr ləzzətli olar!
Toruna gec düşən sürətli ceyran,
Yaxşıdır tez düşən çolaq dovşandan!

[1] *Səxa – səxavət*

Züleyxa söylədi: – Bir susuz əgər,
Su tapsa, saxlarmı sabaha məgər?
Az qalıb ki, şövqün canımı alsın,
Qoymaram bu iş heç axşama qalsın.
Hanı məndə dəxi o səbrü-qərar,
Bu işi təxirə salam, ey nigar?!
Bir ləhzə mənimlə mehriban otur,
Sənə bu əmrdə nə mane olur?
Yusif ona verdi belə bir cavab:
Nədir qəlbində bu sonsuz iztirab?!
İki maneə var: rədd edir mehri,
Allahın qəzəbi, Əzizin qəhri.
Əziz duysa məndən nankorluq əgər,
Yüz dərdə, möhnətə giriftar edər.
Qılıncı sıyırar üstümə mənim,
Öldürər, köynəyim olar kəfənim.
Bir də ki, qiyamət günündə allah,
Zinanı sayacaq ən ağır günah!
O, bədəməllərə verərkən cəza,
Qorxuram, adımı birinci yaza.
Dedi: – Əziz deyil qorxulu düşmən,
Onu işrət günü məst edərəm mən.
Bir camla canını yaxaram, bişək!
Yuxudan ayılmaz qiyamətədək!
Sən özün deyirdin, allahım mənim,
Günahı əfv edər, rəhimdir, kərim!
Mənim içi dolu yüz xəzinəm var,
Bu xəlvət sarayda quylanmış onlar.
Allahın yolunda verərəm ehsan,
Məncə, keçər allah günahlarımdan!

Yusif ona dedi: – Qoymaram ki, mən,
Bir kəs zərər çəksin mənim üzümdən!
Xüsusən, Əziz ki, tutaraq əziz,
Mənə bağışlamış misilsiz kəniz!
Mənim allahıma gəlincə, inan!
Rüşvətlə könlünü çətin alasan!
Xəlq edib, müzd almaz heç birimizdən.
Rüşvətlə keçərmi təqsirimizdən?!
Züleyxa dedi: – Ey şahlardan xoşbəxt,
İstəsən, əlinə keçər tacü taxt.
Qəlbimə qəm oxu vurmağın yetər!
Bəhanə gətirib durmağın yetər!
Bəhanə dediyin məkrü hiylədir,
Düz işi əyməkçin bir vəsilədir.
Əyri yol tutaram, allaha pənah,
Sənin bu hiylənə,dözmərəm, vallah!
Taqətim tükənmiş, məni qıl aram,
Necə olsa, gərək səndən alım kam!
Deməkdən yoruldum, etmədi əsər,
Muradım olmadı səndən müyəssər,
Daha kəs dilini, danışma, bir az,
Xeyr işdə gecikmək zərərsiz olmaz!
Quru qamış kimi yandığım zaman,
Sən ləzzət alırsan gur alovumdan!
Nə fayda bu oddan, tüstüsü əgər
Sənin gözlərinə qılmayır əsər.
Bu oda, tüstüyə sən oldun səbəb,
Barı, gəl oduma bir ovuc su səp!
Züleyxa sözünü çatdırdı sona,
Yusif rədd cavabı verərkən ona,

Züleyxa söylədi: – Bəsdir, danışdın,
Sözlə vaxt almağa yaman alışdın!
Çıxma istəyimə qarşı, yoxsa mən,
İntihar edərəm sənin əlindən!
Gəl, qucu boynumu, qucmasan əgər,
Öz əlimlə kəsər boynumu xəncər!
Bil ki, dolaşmasa qolun boynuma,
Düşər nahaq qanım sənin boynuna!
Xəncəri vuraram bir süsən kimi,
Qızardar gül kimi qan köynəyimi.
Ayrılıq dağıyla odlanar canım,
Sənin inadından qurtarar canım!
Əziz meyidimi qarşında görər,
Səni qatil bilib, vallah, öldürər!
Torpağın altında tutunca aram,
Canınla qovuşan canım alar kam!
Döşəyin altından aldı o dilbər,
Söyüd yarpağı tək yaşıl bir xəncər!
Yanan ürəyindən şivən qopardı,
Təşnə boğazına su tək apardı.
Yusif şimşək kimi sıçrayıb həmən,
Ki, tutub xəncəri alsın əlindən.
Dedi: – Bu əməldən əl çək, Züleyxa!
Səbirli olasan gərək, Züleyxa!
Bəlkə, kama çatdın mənim vəslimdən,
Belə əbədilik ayrılma məndən.
Məhəbbət bürcünün ayı Züleyxa,
Yusifi mehriban görüncə daha,
Elə zənn etdi ki, Yusif olub ram,
Vüsala çataraq olacaq aram.

Xəncəri əlindən saldı, yönəldi,
Başqa bir məqsədlə yaxına gəldi.
Qolunu doladı belinə birdən,
Dalbadal busələr aldı ləbindən.
Qıldı incisini oxuna hədəf,
Etdi gövhərinə canını sədəf.
Yusif tuşlamadı oxu hədəfə,
İncini qoymadı yaxın sədəfə.
Könlü istəsə də, deşsin bir inci,
İsmət mane oldu ona birinci.
Züleyxa dil açıb hey yalvarırdı,
Yusif qaçmaq üçün yol axtarırdı.
O murad istəyir, hər dəm ağlardı,
Açdığı düyməni Yusif bağlardı.
Yusifin bir küncə üzü sataşdı,
Zərli bir pərdəyə gözü sataşdı.
Soruşdu: – Pərdədə kim var, bir dayan?!
Pərdənin dalında kimdir oturan?
Dedi: – Bir qüvvədən çəkinirəm mən
Ki, çıxa bilmərəm onun əmrindən.
O qızıl bir bütdür gözləri gövhər,
İçini doldurmuş mişklə ənbər.
Mənim xaliqimdir o sənəm, deyə,
Düşərəm önündə hər an səcdəyə.
Dedim, sataşmasın gözümə gözü,
Pərdənin dalında gizlətdim, düzü.
Qoy məni görməsin günah iş üstə,
Din yolundan edən təbah[1] iş üstə.

[1] *Təbah – pis əməl*

Yusif fəryad etdi: – Bu barədə sus!
Yoxdur xaliqimdən xəbərin, əfsus!
Sən cansız gözləri salırsan saya,
Mən necə canlıdan etmədim həya?
Necə mən qorxmayım qadir allahdan?
Xəbərsiz qalarmı o bu günahdan?
Bu sözlə özünü ataraq kənar,
Yataqdan çəkildi Yusif huşiyar!
Əlif uzaqlaşdı lam əlif-lamdan,
Şamdan uzaq qaldı o gümüş şamdan.
İti addımlarla Yusif qaçırdı,
Aradan çıxmağa yollar açırdı.
Hər bağlı qapıya çatdığı zaman,
Qıfıl qopub, düşür yerə qapıdan.
Barmağı olmuşdu, sanki, bir açar,
Hər işarəsiylə bir qapı açar.
Züleyxa sürətli addımlar atdı,
Sonuncu qapıda Yusifə çatdı.
Arxadan əlinə keçdi ətəyi,
Çəkib parçaladı ipək köynəyi,
Köynəyi yırtılmış bir qönçə kimi,
Çıxıb getdi əldən könül həmdəmi.
Züleyxa bu qəmdən nalə edərək,
Döşəndi torpağa qara kölgə tək.
Odlanan qəlbindən nalə yüksəldi,
Ney kimi coşaraq fəryada gəldi.
Nə qədər bədbəxtəm, – dedi, – ah, aman,
Küsüb o nazənin getdi yanımdan.
Əfsus ki, torumdan qaçdı o şikar,
Əfsus, o şəhdə ki, oldu zəhrimar.

Deyirlər, bir zaman ac bir hörümçək,
Gəzib axtarırdı özünə yemək.
Gördü bir tərəfdə oturub şahin,
Əlindən qurtarıb bir padşahın.
Hörümçək başladı tor toxumağa,
O məğrur şahini tora salmağa.
Quşun ətrafında hərlənib müdam,
Öz göbək suyunu işlətdi tamam.
Şahin qanadını bir kərə çaldı,
O tordan bir neçə qırıq tel qaldı.
O hörümçək mənəm, könlüm yaralı,
Düşdüm öz arzumdan ayrı, aralı,
Tel kimi qırılmış həyat damarım,
Quş kimi əlimdən uçmuş şikarım!
Əlimdə arzumdan, əməllərimdən,
Bir neçə qırıq tel qalmışdır həmən.

## MİSİR QADINLARI ZÜLEYXANI YUSİFİ ZİNDANA SALMAĞA TƏHRİK EDİRLƏR, O DA RAZI OLUR

Hüsnü qarşısında doğrandı əllər,
Büt kimi baş əydi ona gözəllər.
Lakin ismətini atmadı Yusif,
İsməti şəhvətə satmadı Yusif.
O bir günəş oldu, onlar yarasa.
Rəsmdir, günəşdən qaçar yarasa.
Onu saldırmaqçın qara zindana,
Züleyxanı düşmən etdilər ona.
Dedilər: – Ey bədbəxt, ey miskin qadın,
Niyə bu dünyada kama çatmadın?
Yusif bir misilsiz gözəl olsa da,

Səni ki, çatdırmır kama, murada.
Yorulduq nəsihət verməkdən ona,
Dilimiz deməkdən döndü suvana.
Lakin dəmirinə kar etmir suvan,
Bircə əlacı var, tutasan divan.
Zindanı isti bir kürəyə döndər,
Yumuşalsın deyə, zindan göndər.
Atəşdə qızaraq yumşalsa polad,
Ondan nə istəsən, qayırar ustad.
Dəmiri qızdırmaq bacarmırsan sən,
Əl çək soyuq-soyuq dəmir döyməkdən.
Fitnə Züleyxanı çıxardı yoldan,
Düşündü: Yusifi ram edər zindan.
Arzu muradına yetişsin deyə,
Qıldı viranəni vətən xəznəyə.
Aşiqin eşqində olmazsa kamal,
Xudpəsəndlik olar ondakı xəyal,
İstəyər önündə qul olsun yarı,
Əlinə verilsin hər ixtiyarı.
Eşqin bir gülünü iyləyib atsın,
Aşiqin canına yüz tikan batsın.
Bir gecə Əzizlə yatdı Züleyxa,
Hiyləni işvəyə satdı Züleyxa.
Dedi: – Rüsvay etdi məni bu oğlan,
Misirdə bədnamam onun ucundan.
Arada söz gəzir, danışır hamı,
Deyirlər, sevirəm mən bir qulamı.
Alıb şikar kimi oxundan yara,
Verirəm qanımla su torpaqlara.
Guya eşqi vurmuş bağrıma yüz ox,

Ki, ox ox üstədir, canımda yer yox!
Bir tüküm qalmamış eşqindən xali.
Özümdən tük qədər deyiləm hali.
İstərəm son qoyum bu bəd gümana,
O gənci göndərim qara zindana.
Sonra hər tərəfdə edim onu xar,
Carçıya əmr edim, çəksin belə car:
– Kim çıxsa ağanın malına şərik,
Biz onu zindana məhkum edərik.
Ağa hərəminə ayaq basanlar,
Cəzanın, qəzəbin dadını anlar.
Görsələr Yusifi həbs etmişəm mən,
Camaat, əlbəttə, çıxar şübhədən.
Bu söhbət Əzizin könlünü açdı,
Bu fikri bəyəndi, dodağı qaçdı.
Söylədi: Düşündüm mən xeyli zaman
Ki, necə qurtaraq rüsvayçılıqdan?
Fikrimə gəlmədi belə bir tədbir,
Sənin hər bir sözün bir xəzinədir.
Bu gündən verirəm sənə ixtiyar,
O muzi tikanı yolundan qopar.
Züleyxa Əzizdən alınca rüxsət,
Yusifin yanına yollandı xəlvət.
Dedi: – Bu könlümün diləyi sənsən,
Ruhum ilham alır sənin eşqindən.
Əziz ixtiyarı vermişdir mənə,
Başın əlimdədir, hakiməm sənə.
İstəsəm, fələklər olar məkanın,
İstəsəm, zindanda çürüyər canın.
Mənə xor baxdığın bu qədər yetər,

Sənin şıltağına dözüm, nə qədər?
Mənim istədiyim yola qoy qədəm,
Nə sən xar olasan, nə mən çəkim qəm.
Məni sevindirsən, sevinəcəksən,
İlahi məqama yüksələcəksən.
Lakin əl çəkməsən öz inadından,
Məskənin olacaq qaranlıq zindan.
Ömrünü zindanda verincə başa,
Mənimlə gül, danış, bəxtiyar yaşa.
Yusif gətirməyib bu sözlərə tab,
Verdi Züleyxaya ağır bir cavab.
Züleyxa sarsıldı həmin cavabdan,
Verdi sərhənglərə qəhr ilə fərman:
Tacı götürdülər başından onun,
Əyninə taxdılar palazdan bir don.
Gümüş ayağına bağlandı dəmir,
Boynuna saldılar bir ağır zəncir.
Eşşəyə mindirib cani sandılar,
Misri küçə-küçə dolandırdılar.
Carçı səslənərək, verirdi elan
Ki, satınalınmış bizim qullardan,
Hər biri qudurub yoldan azarsa,
Ağa hərəminə ayaq basarsa,
Bu yaramaz kimi min müsibətlə,
Zindana düşəcək ağır zillətlə.
Lakin xalq etdikcə ona tamaşa,
Dedi: – Ola bilməz belə iş, haşa!
Kimsəyə toxunmaz belə bir gözəl,
Bu üzün sahibi olmaz bəd əməl.
Bu ki, insan deyil, pak bir mələkdir,

Şeytanlıq mələyə nəyə gərəkdir?
Gözəlin əlindən çıxmaz pis işlər,
Ağıllı babalar yaxşı demişlər:
– Bir kəsin gözəlsə əgər camalı,
Camalından artıq olar kamalı.
Çirkinsə birinin sir-sifəti,
Daha çirkin olar, bil, xasiyyəti.
Gözəlin əlindən gəlməz yamanlıq,
Çirkin də yaxşı iş bilməz bir anlıq.
Xülasə, Yusifi salıb böhtana,
Aparıb atdılar onu zindana.
Zindana gəlincə o qəlbi işıq,
Camalı məhbəsə verdi yaraşıq.
Günəş qaranlığa imdada gəldi.
Məhbuslar heyrətdən fəryada gəldi.
Gözəllər şahının bərəkətindən,
Zəncirlilər oldu zəncir tərpədən.
İradət gündəsi – ayaqlarında,
Səadət zənciri boyunlarında.
Şadlığa çevrildi hamıda kədər,
Qəm dağı göründü bir saman qədər.
Bəli, huri bizə olarsa həmdəm,
Cənnətə çevrilər hətta cəhənnəm.
Hər yerdə olarsa gülüzlü dildar,
Küllük gözümüzə görünər gülzar,
Yusif o zindanda tutunca aram,
Züleyxa zindana göndərdi peyqam
Ki, daha verməyin ona əziyyət,
Boynundan zənciri açınız, əlbət!
Əynindən çıxarın palaz donunu,

Qumaşla bəzəyin sərv boyunu.
Həqarət tozundan yuyun saçını,
Qoyun şah başına izzət tacını.
Başqa məhbuslardan ayırın təmiz,
Ayrıca otaqda saxlayın əziz.
Ətirlə, bəzəklə verin yaraşıq,
Olsun gecəsi də gündüz tək işıq,
Fərşinə döşəyin sündüz[1] xalçalar,
Çəkin divarına zərli parçalar.
Zindanban bu əmrə edərək əməl,
Bir otaq bəzədi cənnətdən gözəl.
Yusif köçürüldü yeni mənzilə,
Bəndə xaliqini andı sidq ilə.
Necə ki, qılmışdı özünə adət,
Mehraba üz tutub, etdi ibadət.
Xilas olduğundan qadın məkrindən,
Şikayət etməzdi öz taleyindən.
Yoxdur bu dünyada elə bir bəla
Ki, onun axırı əlacsız ola.
Bir əsir bəlaya dözsə nə qədər,
Onun müşkülünü haqq asan edər.

## YUSİF ZİNDANDAKILARA XEYİRXAHLIQ GÖSTƏRİR, ONLARIN YUXUSUNU YOZUR, ZİNDANDAN APARILAN İKİ NƏFƏRƏ SİFARİŞ VERİR, ONLAR İSƏ BU SİFARİŞİ UNUDUR

Anadan doğulsa xoşbəxt bir nəfər,
Səadət günəşi zülməti silər.
Getsə tikanlığa dönər gülşənə,

[1] *Sündüz – rəngarəng, ipək qarışıq*

Gül ətri yayılar bağa, çəmənə.
Keçsə bulud kimi susuz səhradan,
Bəxtindən o səhra olar gülüstan.
Düşsə külək kimi bağa güzarı,
Hər gül çıraq olub bəzər gülzarı.
Zindana düşsə də, könlü olar şad,
Qılar məhbusları qüssədən azad.
Oldu məhbusların gözündə, zindan –
Görüncə Yusifi, bir şən gülüstan.
Onun sayəsində hamı şad oldu,
Məhbuslar könlünə qüssə yad oldu.
Zəncir boyunlarda iqbala döndü,
Kündə ayaqlarda xalxala döndü.
Bir məhbus yatağa düşsəydi əgər,
Xəstəlik etsəydi onu xuncigər,
Yusif oturan tək yatağı üstə,
Dərhal sağalardı, durardı xəstə.
Birinin narahat olsaydı yeri,
Dadına çatardı onun tədbiri.
Təsəlli verərdi açıq üz ilə,
Dar zindan dönərdi geniş mənzilə.
Bir fəqir olsaydı çörək möhtacı,
Şirin ruzigarı keçsəydi acı,
Varlılardan alıb qızıl bir açar,
Darlıq qıfılını açardı naçar.
Dolaşıq yuxular görüb bir nəfər.
Xəyal girdabına düşsəydi əgər,
Yusif o yuxunu təbir edərdi,
Məhbusu girdabdan geri çəkərdi.
Şaha yaxın olan iki bəxtəvər,

Saray xəlvətindən düşüb dərbədər,
Zindanda Yusiflə həmdəm olmuşdu,
Dərdinə, qəminə məhrəm olmuşdu.
Bir gecə hərəsi gördü bir yuxu,
Düşdü canlarına iztirab, qorxu,
Bir yuxu verirdi müjdə nəcatdan,
Bir yuxu deyirdi əl üz həyatdan.
Yuxunu yozmaqdan aciz qalaraq,
Onlar canlarını üzürdü ancaq.
Elə ki, Yusifə açdılar söhbət,
Yozdu yuxuları sahibi-hikmət.
Birini aparıb dara çəkdilər
Biri şah yanında oldu mötəbər.
Şahın hüzuruna gedən cavana,
İzzətə, hörmətə yetən cavana,
Yusif söylədi ki, ey nəcib insan,
Şah ilə oturub durduğun zaman,
Onun hüzurunda edəndə söhbət,
Deyib danışmağa tapanda fürsət,
Unutma, məni sal şahın yadına,
Bu yaxşılıq çatar hər imdadına.
Söylə ki, zindanda vardır bir qərib,
Şahın ehsanından qalmış binəsib.
Qoyma günahsıza etsinlər cəfa,
Ədalət bu zülmü görməmiş rəva!
O cavan, şah ilə həmməclis oldu,
Qədəhi etibar meyiylə doldu.
Yusifin sözünü çıxartdı yaddan,
Keçdi neçə illər bu əhvalatdan.
Bəlalı zindanda necə bir məhbus,

Yusif otururdu nəcatdan məyus!
Bəli, hər o kəs ki, allahı sevər,
Məşuqlar bəzminə o ziynət verər!
Rahatlıq yolunu bağlar üzünə,
Kimsədən gözləməz nəcat özünə!
Göz dikər gözünə hər kəsdən əvvəl,
Açmaz bir kimsəyə yardım üçün əl!
Tutsa ətəyindən bir kəsin əgər,
Onu öz torunun əsiri edər!

## MİSİR PADŞAHI GÖRDÜYÜ YUXUNU YOZMAQ ÜÇÜN YUSİFİ YANINA ÇAĞIRIR VƏ ONUNLA MİSİR ARVADLARI ARASINDA BAŞ VERƏN MACƏRANI YOXLAMAĞA BAŞLAYIR

Dünyada açarsız bir çox qıfıl var,
Nə qədər axtarsan, tapmazsan açar.
Düyünə düşəndə alimin işi,
Fikri səmər verməz, artar təşvişi.
Köməyinə çatmaz bir qüdrətli əl,
Düyünü açmaqda qalar məəttəl.
Bu zaman qeyb əli gətirər açar,
Nəcat qapısını üzünə açar.
Boş çıxdı Yusifin bütün felləri,
Qırıldı qurduğu tədbir telləri,
Yalnız bir allaha gətirdi pənah,
Darda qalanlara arxadır allah!
Bütün varlığını Yusif unutdu,
Kərəm ətəyindən xaliqin tutdu.
Misrin hökmdarı o ağıllı şah,
Yeddi öküz gördü yuxuda nagah.

Hamısı kök idi, hamısı şişman,
Biri digərindən gözəl və cavan.
Yeddi başqa öküz göründü bu dəm,
Arıqlıqda sanki bir qamış qələm.
Arıqlar köklərə hücum etdilər,
Onları ot kimi yeyib getdilər.
Yeddi yaşıl sünbül göründü bu an,
Könül qüvvət aldı, göz işıq ondan.
Yeddi quru sünbül onları tutdu,
Şirəsini sorub, tamam qurutdu.
Oyandı padişah yuxudan səhər,
Dedi, yuxusunu yozsun alimlər.
Dedilər, belə bir yuxu mahaldır,
Mənbəyi puç fikir, yersiz xəyaldır!
Belə bir yuxunu yozmaq yaramaz,
Əlac unutmaqdır, düşünsən bir az.
O cavan Yusifi yadına saldı,
Sirrinin üstündən pərdəni aldı.
Dedi, zindanda var gözəl bir oğlan,
Hər kəsin müşkülü həll olar ondan,
Huşyardır, hər cürə yuxunu yozar,
Ancaq o dənizdə incini tapar.
İzin ver, bu sirri açaraq ona,
Deyim, təbir desin şah yuxusuna.
Dedi: – İcazəyə yoxdur ehtiyac,
Kora iki gözdür ən yaxşı əlac.
Mənim ağıl gözüm kordur o gündən,
Ki, belə bir sirri açmayıram mən.
Yol alıb zindana getdi o cavan,
Yusifə danışdı şah yuxusundan,
Yusif ona dedi: – Öküzlə sünbül,

Özü öz halının şahididir, bil!
O arıq öküzlər, quru sünbüllər,
Deyir ki, gələcək çox ağır illər.
Əvvəlcə yeddi il yağış yağacaq,
Torpaqdan bolluca məhsul doğacaq,
Nazü-nemət ilə dolacaq aləm,
Yeddi ilsə, qıtlıq olacaq aləm.
Bütün nemətləri insan yeyəcək,
Xalqlar ac qalaraq qara geyəcək.
Yağış yağmayacaq qara buluddan,
Çöldə olmayacaq nişanə otdan.
Varlılar işrətdən əl çəkəcəklər,
Yoxsullar aclıqdan can verəcəklər.
Yusifdən bu sözü o şəxs eşitdi,
Ədalətli şahın yanına getdi.
Yusifin tökdüyü təbiri bilcək,
Açıldı sultanın qəlbi qönçə tək.
Dedi: – Dur, özünü zindana yetir!
Yusifin özünü buraya gətir!
Elçi deyən sözlər olsa da şəkər,
Daha xoşdur, özü söyləsə əgər!
Bir söz ki, deyəcək dilbərin özü,
Niyə bir başqası desin o sözü?
Təzədən o cavan zindana vardı,
O nadir gövhərə müjdə apardı,
Dedi: – Ey behiştin sərvi, tez ol, dur!
Yürü, şah bağında yeni büsat qur!
Yürü, camalınla o bağı bəzə,
Güllər gül üzünə açsın tərtəzə!
Dedi: – Mən bəs necə sevim o şahı,
Ki, o mənim kimi bir bigünahı,

Zindanda qılmışdır illərlə məhbus?
Onun kərəmindən olmuşam məyus!
Şah əgər istəyir bu qəm evindən
Qurtarım, əmr etsin mərhəmətindən,
İlk dəfə üzümü görən gözəllər
Ki, heyran qalaraq doğramış əllər,
Yığışıb gəlsinlər hamı bir yerə,
İşim aydın olsun mənim bir kərə.
Desinlər, nə günah gördülər məndən,
Nə üçün zindana salınmışam mən?
Şah bilsin, nə sirrim var ürəyimdə,
Xəyanət ləkəsi yox ətəyimdə.
Xəyanət sayılır ən böyük günah,
Xayinə həmişə düşməndir allah!
Namusa xəyanət etməmişəm mən,
Başım bəla çəkib sədaqətimdən.
Məncə, lağım atıb, xəznə talayan,
Yaxşıdır, namusa əl uzadandan.
Elə ki, şah oldu işdən xəbərdar,
Əmr etdi haman gün bütün qadınlar,
Şahın sarayında cəm olsun, tamam,
Qadınlar pərvanə, şahsa olsun şam
Şahın məclisinə gəldi xanımlar,
Onlara üz tutub dedi hökmdar:
– Nə pislik gördünüz, deyin üzünə,
Bədnamlıq qılıncı çəkdiz üzünə?
Qışınız hüsnüylə yaz ola-ola!
Nə üçün zindana saldınız yola?
O zərif boynu ki, incidər çiçək,
Aqillər zəncirə çəkməsin gərək!
Səba nəsimindən solan bir gülün,

Ayaqda zənciri su olar, bilin!
Qadınlar söylədi şaha: – Ey xoşbəxt,
Tək sənə layiqdir bu tac ilə təxt!
Yusifdə yamanlıq görməmişik biz,
Yoxdur onun qədər vicdanı təmiz!
Necə ki, saf olar sədəfdə gövhər,
O qədər təmizdir o nazlı dilbər.
Züleyxa özü də ordaydı, ancaq
Hiyləni, yalanı atmışdı uzaq.
Eşqin göz yaşıyla yuyaraq təmiz,
Qəlbində ləkədən qoymamışdı iz.
Ruhunda həqiqət qaldırmış bayraq,
Doğruçu səhər tək düz danışaraq,
Sığındı ürəkdən öz allahına,
Etiraf eylədi hər günahına.
Dedi: – Günahsızdır o mahi-Kənan!
Mənəm onu sevib yolunu azan.
Vəslindən istədim dərdimə çara,
Sözümü rədd etdi, qovdum kənara.
O mənim zülmümlə düşdü zindana,
Mənim qəmlərimdən yetişdi cana.
Qəmim–həddi aşıb ötdü, nəhayət,
Onun canına da etdi sirayət.
Canına yüz cəfa yetmiş əlimdən,
İndi çıxam gərək xəcalətindən.
Şah ona yaxşılıq edərsə əgər,
Başım iftixarla göyə yüksələr.
Padşah işlərin əslini bildi,
Qönçə tək açıldı, gül kimi güldü.
Dedi: – Haqq söz üçün sizə mərhəba!
Yusifə zindanı kim görmüş rəva?

O hüsn bağında bir güldür xəndan,
Gülə gülşən gərək, nəinki zindan!
Ruh gərək, cismdə yaşasın xoşbəxt,
O şahın məqamı olmalıdır təxt!

## YUSİF ŞAHLIQ TAXTINA ƏYLƏŞİR, QARDAŞLARI ACLIQ ÜZÜNDƏN TAXIL APARMAQ ÜÇÜN MİSRƏ GƏLİRLƏR

Yusifə allahın mərhəmətindən,
Şahlıq tac-taxtı verildi birdən.
Camaat acından olarkən tələf,
Üz tutdu Yusifin qəsrinə tərəf.
Onun qarşısında düşüb torpağa,
Çörək istəyirdi həm qul, həm ağa.
Xalqın kədərindən ürəyi doldu,
Qəmdən buğda kimi yanıb qovruldu.
Arpanı, buğdanı satsınlar deyə,
Yeni şah bir fərman verdi ölkəyə:
Azacıq bir müddət keçincə bundan,
Anbarlar boşaldı arpa-buğdadan.
Hər kəsin qızılı, gümüşü vardı,
Verib əvəzində buğda alardı.
Nə inci, nə yaqut qaldı, nə gövhər,
Sataraq, taxıla verib yedilər.
Dolandıqca dövran, keçdikcə zaman,
Aclıq atəşinə tutuşdu Kənan.
Yusif qardaşları tapmadı çörək,
Onları da saldı bu oda fələk.
Yəqubun yanına gedərək onlar,
Çörəkdən söz açıb, qan ağladılar.

Ata mehribanlıq edib onlara.
Dedi: – Ürəyimə vurdunuz yara!
Ulduzlar seyrindən olmuşam agah,
Ki, vardır Misrdə xeyirxah bir şah,
Bilikdə allahın feyzinə məzhər[1],
Qəlbi təmizlikdə bir nurlu səhər.
Günəş tək aləmə üzü nur saçar,
Xalq ona üz tutar, ona əl açar.
Sizin halınızdan tutarsa xəbər,
Yəqin, hörmət edər, yardım göstərər.
Bilincə Misrdə belə bir şah var,
Səfərə çıxmağa hazırlaşdılar.
Alıb lazım olan əmtəələrdən,
Dəvəyə yükləyib, çıxdılar evdən.
Keçib səhralardan bir xeyli zaman,
Kənandan Misirə yetişdi karvan.
Yusif taxtü-tacı buraxıb o gün,
Ova çıxacaqdı səyahət üçün.
Parlaq günəş kimi nur saçır üzü,
Qoşunla dolmuşdu o çölün düzü.
Əynində gövhərlər parıldayardı,
Min qızıl kəmərli qulları vardı.
Onun arxasınca yollandı ləşkər,
Sanki, bir dənizdə coşdu ləpələr.
Yusif, o ay üzlü, günəş büsatlı,
Şikar arxasınca gəzirdi atlı.
Bu dəmdə qardaşlar yetişdi yoldan,
Gördülər at çapır, ov gəzir sultan.
Tamaşa etməyə durub bir yanda,

[1] *Məzhər – aşkara çıxaran*

Şah ötüb buradan keçən zamanda,
Qəribləri görüb dayandı dərhal,
Çağırıb yanına verdi çox sual.
Qardaşlar hər yandan verdilər xəbər,
Kənandan, Yəqubdan söz söylədilər.
Yusifin xoşuna gəldi bu söhbət.
Nisgilli qəlbində coşdu məhəbbət,
Yurd, ata həsrəti canını yaxdı,
Gözündən üzünə incilər axdı.
Əmr etdi yanınca gedən əyana,
Qayğı göstərilsin əhli-Kənana.
Şəhərə aparıb etsinlər hörmət,
Hər biri göstərsin onlara xidmət.
«Nəcib insanlardır» söylədi, bunlar
Misirdə ən əziz qonağımdırlar.
Aparın mənzilə, xidmətdə durun,
Onlara layiqli bir məclis qurun!
Döşəyin süfrəyə dadlı xörəklər,
Şərbətdən, şəkərdən, nə istəsələr.
Yusifin əmrinə edib itaət,
Əyanlar göstərdi onlara hörmət.
Alıb gətirdilər şəhərə birbaş,
Bütün şəhər əydi qonaqlara baş.
Yusif də gəzərək bir az çölləri,
Döndü dostlarıyla şəhərə geri.
Çatdı günəş kimi mənzilə həmən,
Düşdü bir ay kimi atın belindən.
Əyanlar yeridi sağ və solundan,
Qəsrinə yollandı o şanlı sultan!
Bağlandı zəncirə əzmiylə fələk,

Taxta qədəm qoydu o bir günəş tək!
Taxtını vücudu qərq etdi nura,
Söylədi: – Əzizlər gəlsin hüzura!
Əzizlər Yusifi aldı araya,
Sanki, bəzək verdi ulduzlar aya!
Yusif qardaşları tutunca xəbər,
Dəvətsiz saraya tərəf gəldilər.
Yusif ləblərindən saçdı gövhəri,
Dedi ki: Bismillah, gəlin içəri!
Gəlib baş əydilər hamısı tək-tək,
Günəşin önündə səyyarələr tək!
Dedilər: – Ey bəxti cavan padişah,
Təxtini, tacını hifz etsin allah!
Bizə göstərdiyin izzət, ehtiram,
Edib cümləmizi sənə bir qulam.
Yusif şad görünür zahirdə, amma,
Ürəyində vardı müşkül, müəmma!
Batində qəlbinə kədər çökürdü,
Gizlicə gözündən gövhər tökürdü.
Kənan əzizləri Misrə çatanda,
Ürəyi təsəlli tapdı bir anda.
Çağırdı onları taxtın yanına,
Gülər üz göstərdi mehmanlarına.
İncilər saçırdı şahın ağzından,
Dedi: – Gəldiyiniz yola can qurban!
Zatınız, südünüz, təmizdir – deyə,
Bu gəliş şərəfdir bizim ölkəyə.
Xoşdur, mübarəkdir qədəmləriniz,
Sizin tək qonaqla fəxr edirik biz!
Gəlişiniz verdi gözlərə işıq,

Sizinlə ölkəmiz tapdı yaraşıq.
Yusif çalışırdı ki, gündən-günə,
Etsin qonaqları məhrəm özünə.
Artdıqca onlara Misirdə hörmət,
Onlarda artardı vətənə rəğbət.
Lakin o gülüzlü böyük hökmdar,
İcazə verməzdi getsinlər onlar.
Onlar israr edib hey yalvarardı,
Yusif öz sözündə möhkəm durardı.
Bu gün razılaşıb qalsa da onlar,
Sabah edərdilər getməkdə israr.
Yusif başqa tədbir düşündü bir gün,
Çağırıb quluna dedi: – get özün,
Apar, qonaqların mallarını sat,
Göstər qiymətini birə ikiqat.
Taxıldan hazırla elə barxana,
Güclə gedib çatsın dəvə Kənana!
Qul şaha baş əyib, bazara getdi,
Yusif nə demişdi, elə də etdi.
Bir gün Yusif ilə söhbət zamanı,
Qardaşlar yad etdi yenə Kənanı!
Xoş sözlər Yusifin ağzında qaldı,
Ürəyi sıxıldı, rəngi saraldı.
Qəlbi dərya kimi coşaraq kindən,
Qara bulud kimi qopdu yerindən.
Dedi: – Ey qəddarlar bu sözdür doğru.
Ki, siz casuzsunuz, ya da ki, oğru!
Düz adam tanınar düzlük üzündən,
Yalançı tələyə düşər sözündən.
Düzlük, təmizlikdən dəm vurdunuz siz,

Mən də xatirinizi tutardım əziz.
Əgər sözünüzdə yoxdursa yalan,
Doğruçu səhər tək danışın, əlan!
Yalançı səhər tək etsəniz riya,
Düşəcək başınız min bir bəlaya.
Qəzəblə üz tutub o, zindanbana,
Aparın bunları, dedi, zindana!
Hamı bir ağızdan dedi qardaşlar
Ki, ey bu ölkənin fəxri hökmdar!
Nə casus, nə oğru, bəlkə də, acıq,
Çörəkçin Kənandan gəldik, möhtacıq!
Bu bəd əməllərdən, bil, arıyıq biz,
Yəqub peyğəmbərin övladıyıq biz!
Atamız bizimçün edir ahu-zar,
Oturub daima çəkir intizar.
Bir oğul qəmiylə ürəyi dolmuş,
O qədər ağlamış, gözü kor olmuş.
Dedi: – Yəqub sizə atadır əgər,
Yoxdur sizdən özgə övladı məgər?!
On ağız süsən tək açıldı birdən,
Dedilər: – Razıyıq mərhəmətindən,
Bir oğlu da vardır, Yəqubun ancaq,
Adı İbn-Yamin, sayılır uşaq.
Var idi bir oğlu, adı da Yusif,
Uşağı qurd yedi, etdik təəssüf.
Atamız çox sevir İbn-Yamini,
Onunla unudur Yusif qəmini.
Nə gecə, nə gündüz ayrılır ondan,
Onsuz bir zindandır Yəquba cahan!
Dedi: – Doğrudursa əgər sözünüz,

Kənana gedərək Misrə dönünüz!
Söz verin Kənandan qayıdan zaman,
Gələcək sizinlə o cavan oğlan!
Bu vədə siz əməl etsəniz əgər,
Yanımda qədriniz daha yüksələr!
Taxıl bağışlaram o qədər sizə
Ki, bolluqla çatsın qəbilənizə!
Bir nəfər sizlərdən girov qalacaq,
Geri qayıtmağa and için ancaq!
Qardaşlar and içdi böyük allaha
Ki, hamı qayıtsın Misrə bir daha!
Şərt kəsib, and içib, yəmin etdilər,
Yəhudanı girov qoyub, getdilər!

## YUSİF VƏ ZÜLEYXA KƏBİN KƏSDİRİR, ZÜLEYXA MURADA ÇATIR

Yusifə allahdan yetişdi fərman,
Alsın Züleyxanı o mahi-Kənan.
Toya hazırlaşdı Yusif o saat,
Quraraq şahlara layiq bir büsat.
Gəldilər məclisə şahlar, əyanlar,
İzzətlə taxt üstdə tutdular qərar.
Xəlil qanunuyla, Yəqub diniylə,
Eşqin, gözəlliyin xoş ayiniylə,
Züleyxa verildi Yusifə ərə,
Yusif malik oldu nadir gövhərə.
Hamı başlarına gövhər səpərək,
Şah dedi, el dedi, «Toyun mübarək!»
Ehtiram edərək hər bir qonağa,
Yusif üzr istədi, qalxıb ayağa,

Qıldı Züleyxanı şirin dillə şad,
Gəlini gərdəyə göndərdi damad.
Çıxdı pişvazına kəniz, pərəstar,
Əyildi önündə taclar və başlar.
Gözəl camalına olaraq aşiq,
Verdilər bəzəklə ona yaraşıq.
Elə ki, toy bitdi, təmtəraq bitdi,
Qonaqlar birbəbir evinə getdi,
Ay saldı üzünə ənbərdən niqab,
Yerə gümüş pərdə döşədi məhtab.
Firuzə fələyin çatıldı tağı,
Yandı minlər ilə ulduz çırağı.
Fələk sürəyyadan taxdı gərdənbənd,
Yaqutu gövhərə şəfəq etdi bənd.
Gecənin zülməti sanki bir pərdə;
Sirrini gizlətdi xalqın hər yerdə.
Xəlvətə çəkildi məhrəmlə məhrəm,
Qara pərdə ilə örtüldü hərəm.
Züleyxa gərdəkdə çəkir intizar,
Ürəyi yerində tutmayır qərar.
Susuz ləblərinə toxunan sumu?
Həqiqətmi, yarəb, yoxsa yuxumu?
Bu sudan atəşi sönəcəkdirmi?
Gecəsi gündüzə dönəcəkdirmi?
Gah dolub gözləri yaşla şadlıqdan,
Gah edir könlünü hicran fikri qan.
Deyirdi: «– Bu işə inanmıram mən,
Üzümə bu xoşbəxt gün doğa birdən».
Gah da öz-özünə düşünüb bir az,
Deyirdi: – «Ümidi kəsmək yaramaz!»

Qəlbini sarsıtdı bu çəkişmələr,
Üz-üzə gəldilər sevinclə kədər.
Bir də gördü, pərdə çəkildi lay-lay,
Mənzili bəzədi bir pərdəsiz ay.
Züleyxa görüncə onun üzünü,
Nuru qamaşdırdı iki gözünü.
Səbrü-qərarını əlindən aldı,
Düşüb kölgə kimi torpaqda qaldı.
Yusif əhvalına salınca nəzər,
Bildi ki, məhəbbət canını üzər,
Gətirib qızıl taxt üstünə saldı,
Baş-başa uzanıb, qoynuna aldı.
Ətriylə huşunu qaytardı ona,
Yuxudan ayıldı, bayılmış sona.
O üz ki, baxmazdı Yusif bir zaman,
Daima göz yumub, qaçardı ondan,
Nə gördü: üz deyil, ay parasıdır,
Naxışla bəzənmiş Çin xarasıdır.
Dəyməmiş o üzə bəzəkçi əli,
Huridən gözəldir cənnət gözəli.
Aldı qərarını əldən o camal,
Qucuyub öpməyə başladı dərhal.
Öpdü şəkər kimi şirin ləbindən,
Dişi tər innabı üzdü yerindən.
Vüsal süfrəsində o əziz qonaq,
Sandı ki, duzdandır o bir cüt dodaq.
Odur ki, öpüşlə başladı işə,
Duz ilə başlanar yemək həmişə.
Duzundan daddıqca şövqi çoxaldı,
Qolların kəmər tək belinə saldı.
O kəmər altında zəhmət çəkmədən,

Nişan tapdı nadir bir xəzinədən.
Bir inci tapmağa tələbi vardı,
Xəznədə incini sədəf axtardı.
Qoydu qarşısına o şirin dilli,
Gümüş bir mücürü, ağzı qıfıllı.
Nə o mücürüyə bir əl uzanmış,
Nə onu xəznədar yada inanmış.
Saldı o qıfılı yaqutdan açar,
Açıb qoydu ona bir dürri-şəhvar.
Ərğəvan şaxəsi qopdu yerindən,
İki gül ayrıldı biri-birindən.
Atını darısqal meydana saldı,
O qədər çapdı ki, sustalıb qaldı.
Bir at baş aparsa meydanda əgər,
Nəfəsi təngiyər, nalları düşər.
Gecəykən yuxudan qalxdı bir susuz,
Su üçün bulağa getdi yuxusuz,
Hərçənd ki, əvvəlcə budaqda batdı,
Su içib qayıtdı, yerində yatdı.
İki qonça vardı bulaqda qoşa,
Səhər nəsimiylə çatdı baş-başa.
Birisi açıldı, digəri qaldı,
Açmayan açanın içinə daldı.
Yusif qonça dərdi hüsnün bağından,
Gördü incisini deşməmiş zaman.
Dedi: «Necə qaldı bakir bu gövhər,
Qonçan açılmadı, açıldı səhər?»
Dedi ki, Əzizdən qeyri görməmiş,
O isə bağımdam qonça dərməmiş.
Şöhrətdə nə qədər olsa da qoçaq,
Bu kimi işlərdə sust idi ancaq.

Mən səni yuxuda gördüm uşaqkən,
Adını, yerini soruşdum səndən.
Mərhəmət göstərib, şad etdin məni,
Sən mənə tapşırdın bu xəzinəni.
Qorudum, etmədim bir kəsdən həras[1],
Kimsə gövhərimə vurmadı almas.
Şükürlər olsun ki, həmən əmanət,
Bu gün çatdı sənə bütöv, səlamət.
Qorxu qılıncına olsam da hədəf,
Qoymadım etsinlər incimi tələf.
Yusif bu sözləri eşidən zaman,
Yüksəldi gözündə o mahitaban.
Dedi: – «Ey huridən, mələkdən gözəl,
Sən bunu istərdin neçə il əvvəl?
Bununçunmu məndən intiqam aldın?
Məni böhtanınla zindana saldın?»
Dedi: – «Üzr istərəm, mən o zamanlar,
Məhəbbət dərdinə oldum giriftar.
Canım əriyirdi eşqin odundan,
Könlümün dərdinə tapmazdım dərman.
Səndəki gözəllik, məlahətli üz,
Şövqimi artırdı hər gün birə yüz.
Eşqin oldu məni yoldan çıxaran,
Etdim, etdiyimə oldum peşiman.
Öldürsən, məzəmmət etmərəm səni,
Lakin üzürlü tut, bağışla məni.
Bir günah ki, ona eşq olub səbəb,
Məşuqun könlündə doğurmaz qəzəb.»

[1] *Həras – qorxu*

## YUSİF VƏFAT EDİR, ZÜLEYXA İSƏ HİCRAN DƏRDİNƏ TAB GƏTİRMƏYİB HƏLAK OLUR

Bir gün səhər-səhər Yusif oyandı,
Üzündən hər tərəf nura boyandı,
Şahlıq libasını geyinib həmən,
Atlanmaq qəsdiylə çıxdı evindən.
Ayaq üzəngiyə qoyduğu zaman,
Cəbrayıl söylədi: – «Tələsmə, dayan!»
Mələyin əlində bir alma vardı
Ki, cənnət bağına bəzək vurardı.
Almanı Yusifə verdi həmin an,
İyləyib almanı, Yusif verdi can!
Çatdı damağına ətri cənnətin,
Oldu müsafiri əbədiyyətin.
Yusif tərk edincə fani cahanı,
Aləmi çulğadı xalqın fəğanı,
Bütün xalq ağlayıb, fəğana gəldi,
İnilti sədası göyə yüksəldi.
Züleyxa söylədi: – «Nədir bu fəğan?
Nə olmuş ağlayır yer ilə göy qan?»
Dedilər ki: – Yusif, o mehriban şah,
Taxtını tabuta döndərmişdir, ah!
Köçərək bu fani dünya evindən,
Tapmış əbədiyyət mülkündə vətən.
Eşitcək bu sözü o nazlı dilbər,
Sanki, varlığını qarət etdilər,
Özünü sərv tək torpağa saldı.
Üç gün kölgə kimi torpaqda qaldı.
Dördüncü gün isə bir an ayıldı,
Yusifi soruşdu, yenə bayıldı.

Üç kərə bu əməl olundu təkrar,
Üç gün tamam huşsuz qaldı o nigar!
Nəhayət, özünə gəldi bir təhər,
Yenə də Yusifdən istədi xəbər!
Bildi nə yataqda onu görən var,
Nə də tabutunu bir götürən var!
Hər kəsdən soruşdu, dedilər ancaq,
Xəznə tək Yusifi udmuşdur torpaq!
Züleyxa bu zülmü görcək fələkdən,
Yırtıb yaxasını, çıxdı köynəkdən.
Yarıq sinəsindən sanki yol açdı,
Gizli od qəlbindən şölələr saçdı.
Alov püskürdükcə yarıq yaxadan,
Yanğı azalmayıb, artdı hər zaman.
Dırnaqla üzünə rəqəm yazırdı,
Sanki qan axmaqçın arxlar qazırdı.
O arxlardan axıb sızıldıqca qan,
Səməni bəzədi, sanki, ərğəvan.
Dırnağı üzünü elə qanatdı,
Gözünün bəbəyi al qana batdı.
Daş vurdu döşünə, gah da dizinə,
Sillələr yağdırdı qanlı üzünə,
Gah gümüş üstündə əqiq bitirdi,
Gah lalə üstündə nilfər yetirdi.
Əl atıb başına saçını yoldu,
Başına döyməkdən qolu yoruldu.
Sərvin bağçasında qalmadı reyhan,
Lakin usanmadı sünbül yolmaqdan,
Yanan ürəyindən hey fəğan çəkdi,
Qəmli sinəsindən əl-aman çəkdi

Ki, taxtın bəzəyi o Yusif hanı?
Məzlumlar köməyi oYusif hanı?
Bu qəmli dünyadan köçdüyü zaman,
Əcəl şərbətini içdiyi zaman,
Elə tələsmiş ki, gözləməmiş mən,
Görüşüb öpəydim üzəngisindən.
Başını yasdıqda görmədim, aman!
Üzündən tər çiçək dərmədim, aman!
Dəydi vücuduna qafil ox əgər,
Niyə mən sinəmi etmədim sipər?
Taxtaya çevrildi o şah üçün taxt,
Taxta oldu şahlıq taxtından xoşbəxt.
Mən gülab tökmədim ağlar gözümdən,
Cismini yumadım o gülabla mən.
Boyunu kəfənə tutan zamanda,
Önündə səcdəyə gedən bir anda,
Niyə o kəfəni tikmədim özüm?
Canım sap olaydı, iynəsi gözüm!
Qəmi ürəkləri büryan edəndə,
Məhmili dünyadan köçüb gedəndə,
Niyə fəğanımla aləm dolmadı,
Dilim məhmilinin zəngi olmadı?!
Onda ki, açdılar torpaqda yataq,
Oldu o incinin sədəfi torpaq.
Niyə süpürmədim mən o torpağı,
Mənzilim olmadı onun qucağı?!
Əfsus, itirdiyim fürsətə əfsus!
Əfsus, bu çəkdiyim möhnətə əfsus!
Gəl canım, gör məni məhrumam necə?
Fələyin əlində məzlumam necə?

Məndən uzaqlaşdın, bir yad etmədin,
Görüşünlə məni sən şad etmədin.
Vəfa belə olmaz, ey vəfadarım!
Yar yarı unutmaz, sevimli yarım!
Məni xatirindən silib, tərk etdin,
Qan, torpaq içində buraxıb getdin.
Sancdın ürəyimə elə bir tikan,
Qəbrimdən o tikan bitəcək, inan!
Sən elə bir yerə etmisən səfər
Ki, geri dönməmiş ordan bir nəfər.
Əlacım budur ki, uçum, yüksəlim,
Qanadlı quş kimi yanına gəlim.
Deyib bu sözləri, məhmil istədi,
Məhmili gül kimi üzü bəzədi.
Axıtdı gözündən sel kimi qan-yaş,
Yusifin qəbrinə yollandı birbaş.
Orada yox idi yarından nişan,
Yalnız bir təpəcik gördü torpaqdan.
O torpaq üstünə qəlbi məlallı,
Düşdü sayə kimi günəş camallı.
Qəbri göz yaşıyla gövhərə tutdu,
Saralmış üzüylə saf zərə tutdu.
Gah başından öpdü, gah ayağından,
Ah çəkib, vay deyib, qopardı fəğan:
– Ey gül rişəsi tək torpaqda qalan,
Mənəm torpaq üstə gül kimi solan!
Xəznə tək torpağa getdin birinci,
Mən torpaq üstünə səpirəm inci.
Sən özün su kimi hopdun torpağa,
Məni bir çöp kimi atdın qırağa.

Fərağın cismimi qərq etdi qanda,
Xəyalın odladı məni bir anda.
Od vurdun canıma «çör-çöpdür» – deyə,
Tüstüsü burulub, yüksəldi göyə.
Göz açıb, baxmadı tüstümə bir kəs,
Gözdən su səpmədi üstümə bir kəs.
Ağlayıb, köksünü sürtürdü yerə,
Ölüm arzuladı haqdan yüz kərə.
Həsrətdən tükəndi səbri, qərarı,
Əyildi ki, öpsün o tək məzarı,
İki barmağını gözünə atdı,
Qoşa nərgisini oyub çıxartdı.
Onları torpağa saldı o dilbər,
Dedi: – Yaş torpaqda nərgis xoş bitər.
Bir göz ki, gül üzün görməyəcəkdir,
Bu bağda o gözlər nəyə gərəkdir?
Rəsmdir, əzizi ölən adamlar,
Tabutu üstündə gözün çıxarar.
Düşmüşdü tabutdan ayrı o nigar,
Qıldı gözlərini qəbrinə nisar.
Sövkədi qəbrinə qanlı üzünü,
Can verib həyata yumdu gözünü.
Xoşbəxtdir, o aşiq ki, verəndə can,
Vüsal müjdəsini alar canandan.
Dostlar hadisədən olub xəbərdar,
Gəlib, matəmində qan ağladılar.
Yusifə tutmuşdu matəm nə qədər,
Ona da o qədər yas tutdu ellər.
Yaslının yasında oturdu hamı,
O nakam gözələ yas qurdu hamı.

Ağlayıb oxşamaq yetincə sona,
Dedilər verilsin gərək qüsl ona.
Necə yaz yağışı yuyar bir gülü,
Yudu göz yaşıyla onu Misr eli.
Səmən şaxəsindən çıxan qönçə tək,
Cisminə verdilər kəfənlə bəzək.
Üzündən sildilər hicran tozunu,
Yusifin qəbrinə qoydular onu.
Bu xeyri görməmiş heç kəs ölümdən
Ki, ölüncə canan tutsun əlindən.
Bu şirin dastanı nəql edən ustad,
Qılmış qocalardan bu hədisi yad
Ki, Yusif ölərkən Misr ellərində
Basdırıldı Nilin bir sahilində.
Digər sahilini çulğadı bəla,
Qırdı insanları qəhətlik, vəba.
Qəbri köçürdülər digər sahilə,
Burada yüz bəla üz verdi elə.
Nəhayət, verdilər belə bir qərar.
Daş tabut içinə onu qoysunlar.
O zaman qır ilə suvandı tabut,
Nil çayı dibinə tullandı tabut.
Gör necə iş qurdu fələk onlara.
Yenə də ayırdı öləndən sonra.
Sonsuz kin var imiş çərxin zatında,
Asudə qoymadı torpaq altında.
Birini qərq etdi eşqin gölündə,
Biri susuz qaldı hicran çölündə.
Nə gözəl demişdir eşqə diz çökən,
Eşqdən dünyada min ziyan çəkən,

Hər kəsin ki, eşqi kamal çatmış,
Rahat yaşamağın daşını atmış.
Qara məzarda da olsa məskəni,
Yenə para-para olar kəfəni.
Xoşdur aşiq üçün dözüb hicrana,
Ölərək yetişsin vəsli canana.
Çoxları dünyaya demiş – «Əlvida!» –
Hamıdan mərd öldü ancaq Züleyxa.
Əvvəl gözlərini oydu o nigar,
Sonra cananına can qıldı nisar.
Rəhmətə qərq olsun belə bir aşiq,
Tapsın cananından gözləri işıq.

## KİTABIN BİTMƏSİ

Cami! Ariflərə üzünü döndər,
Bu qədər ki, xamlıq etmişsən, yetər!
Yetkin ol, düşsən də qara torpağa,
Azad ol, özünə özün ol ağa!
Lakin, təbiətdə belə qayda var;
Hər meyvə kal ikən budaqda qalar.
Elə ki, dəyməyə başladı həmən,
Tökülər, başına daşlar dəymədən!
Ariflər əlindən naz-nemət al,
Xamlara nə əl aç, nə də məhəl sal!
Tamahın kökünü kəs qənaətlə,
Tələbin qolunu sındır hümmətlə.
Qənaət mülkündə bir ev tik, otur,
Simurğ ol, üzlət[1] də aşiyanə qur!
Dil aç, məzlumların vəsfində danış.

[1] *Üzlət – tənhalıq, güşənişinlik.*

Alçaq əməllərdən qaçmağa çalış!
Şahlara baş əymə çörək üçün sən,
Yoxsa çörək deyil, qapaz yeyərsən!
İlin dörd fəslinə diqqət ilə bax,
Zəmanə onlarla dolanır, ancaq!
Bildirin, bu ilin yazını düşün,
Payızı eynidir, baxsan büsbütün!
Yaylar da eynidir, diqqət et bir az,
Onları sadəcə ayırmaq olmaz!
Nə qədər ecazkar olsa da təkrar,
İnsanın təkrardan zəhləsi qaçar!
Düşün öz xeyrini, əl çək ziyandan,
Varlığın bəhəri yoxluqdur, inan!
Çalış, boş fikirlər yormasın səni,
Ürəyin olmasın devlər məskəni.
Cahilə söz-söhbət açma eşqdən,
Kor gözü çıraqla aça bilməzsən!
Hər cür pis əməldən çalış, uzaq dur,
Təriqət əhlinin şüarı budur!
Nəfsin şişə kimi olmazsa təmiz,
Tutmaz xatirini ariflər əziz.
Ömrünün çırağı bir püflə sönər,
Başındakı ağıl tüstüyə dönər.
Canından qaranlıq gəncliklə getmiş,
Gününü qocalıq nura qərq etmiş!
Çatmışdır, zülmətin, korluğun sonu,
İşıq bürümüşdür indi yolunu.
Zülmətdə yetmədin murada bir dəm.
Bu işıqlı yolda addımla möhkəm.
Bəlkə də, çatasan o xoş mənzilə

Ki, vəfa qoxusu oradan gələ.
Saçın ağarmışsa, bu ki, ar deyil!
Saçı ağ olanın üzü ağdır, bil!
Hər cür süniliyi çıxar qəlbindən,
Saçını boyama başqa rəngə sən!
Başına düşmüşdür qocalıqda qar,
O qardır, əriyib gözündən axar!
Ağla, tövbə üçün gözdən axıt su,
Onunla qəlbindən qara rəngi yu!
Qəlbindən qaranı yuya bilməsən,
Nə xeyir görərsən qara əməldən?
Qələmi at yerə, əlin titrəyir,
Varağı cır, tulla, fikrin hərzədir!
Fikir çırağında qalmamış işıq,
Təbin bağçasında yoxdur yaraşıq.
Əlində tutaraq qarğa ayağı,
Nə üçün gəzirsən bu gözəl bağı?
Yerişdə tovusu yamsılayırsan,
O ayaq, bu yeriş deyildir asan.
Vəhmdən, xəyaldan qurtarmağın, bil,
Əlacı şeirlə söz demək deyil!
Hanı böyük ustad? Hanı Nizami?
Hanı onun nəzmi, incə kəlamı?
Bu gün pərdədədir böyük sənətkar,
Təbinin gövhəri hər yerdə parlar.
O bu gün pərdədə olsa da özü,
Pərdəsiz demişdir mənalı sözü.
Pərdəli sözlərin nə mənası var?
İnsan təkcə sirri qəbrə aparar.
Hər sirrə vaqifdir şəriksiz allah,

Başqa cür düşünmək sayılır günah.
Bu qorxunc aləmdən ümidini kəs,
Qüdsiyyət bağının seyrinə tələs!
Bu fani dünyadan gözünü çəkən,
Tapar əmn-amanlıq ərşində məskən.
Qəlbindən şübhəni-şəkki qoparsan,
Vəhdət sirlərinə bir yol taparsan.
Yolun qorxuludur, mənzilin uzaq,
Götür yolun üçün özünlə ərzaq.
Aqillər əliboş etməzlər səfər,
Karvanda pəhləvan olsan da əgər.
Ariflər demişkən, oruc tutmaqdan
Məqsəd qənaətdir çörəyə, inan!
Qoca arvadların işidir namaz,
Onlar nə etdiyin özü də qanmaz.
Kişisən, çalış, bir könül al ələ,
Ariflər desinlər sənə: «Bax belə!»
Elə bir könül ki, şərh edib keçdim,
Vəsfində qiymətli incilər deşdim.
Elə bil könülü axtarsan əgər,
Mənim mürşüdümdən tutarsan xəbər...

* * *

Çox şükür ki, yaman olsa da dövran,
Sona çatdırıldı bu gözəl dastan!
Könlümün min dərdi, min qəmi vardı,
Nəzmin, qafiyənin meydanı dardı!
Fərağət mülkünə arxalanaraq,
Girdi bu məclisə cəsarətlə bax,
Əl çəkdi dünyadan, qəmlə ötüşdü,
Çıxdı çətinlikdən düz yola düşdü.

Dizimdən baş yükü çəkildi yüngül,
Gizli yükdən azad olundu könül!
Qələm bir at kimi baş alıb getdi,
Gah Həbəş, gah Rumda xoş mənzil etdi,
Çapdıqca arxada qaldı əsərlər,
Hazıra qayibdən verdi xəbərlər.
Nə qələm vurandan qaçdı bir kərə,
Nə gözlük elədi ona məsxərə.
Tibet mişki ilə doluydu dəvat,
Yazmaqda qələmə göstərdi imdat!
Təblənin ağzını möhürlədi mum,
Mumsuz təblə olar mişkdən məhrum!
Varaqlar qurtardı pərişanlıqdan,
Bir yerə yığılıb, oldular divan.
Yüz varaq bir cildə yığışdı gül tək,
Onları dağıtmaz bir daha fələk!
Qoy artsın bu gülün ətri dəmadəm,
Yaşasın, nə qədər yaşayır aləm!
Eşq ilə yazılmış bu kitaba bax!
Aşiqdən, məşuqdan danışır ancaq!
Oldu tuti kimi yediyim şəkər,
«Yusif və Züleyxa» adlandı əsər!
Bəzənmiş, necə bir yaşıl gülüstan,
Hüsnü ziyadədir İrəm bağından!
Onun hər dastanı bir gülüstandır,
Hər sözü dillərdə bir dastandır!
Minlərlə gül açmış o gülüstanda,
Yüz nərgis uyumuş naz ilə onda.
Onun hər nöqtəsi çiçəkdir, güldür,
Hər bir ibarəsi şeyda bülbüldür.

Kafur lövhəsində mişkdən hər xət,
Vermiş kölgə kimi işığa ziynət!
Onun mətnindəki gözlü hərflər,
Mənaca dalğalı dənizə bənzər.
Axar hər tərəfə o bulaqlardan,
Lətafətlə dolu sular durmadan.
Xoşbəxt o kəsdir ki, ola bəxti yar,
Tuta o bulağın üstündə qərar!
Dağıla qəmləri baxdıqca suya,
Könlündən kədərin tozunu yuya.
Boy ata canından sərv tək vəfa,
Əl açıb göylərə eləyə dua.
Allahın mərhəmət sərçeşməsindən,
Bu susuz canımı siyrab edim mən,
Bu tər çiçəkləri qucuyan zaman,
Yadından çıxmasın bu qoca bağban.
Qələm bu lövhədə döndü nəqqaşa,
İlin axırında yetirdi başa.
Tarixi səkkiz yüz səksən doqquzdan,
O yana keçmədi bir gün də, inan!
Beyt-beyt saydım, bitdikdə əsər,
Dörd min rəqəmini aşdı beytlər.
İlahi! Aşiqlər xatirinə sən,
Bu arzu, diləyi qəbul et məndən!
Bu təzə gəlinin dadına haqla,
Onu hər eybdən, qüsurdan saxla!
O böyük sultana qıl onu qismət,
Ki, şir sifətlidir, aslan təbiət!
Xüsusən, o bəxti cavan hökmran
Ki, adı Aslandır, ləğəbi Aslan!

Mərdlik meydanında göstərmiş hünər,
İki şir demişdir ona igidlər!
Biri tamah adlı divdən qorunar,
Biri aslanlarla sərpəncə vurar!
Adını rəmzlə çəkdim mən onun
Ki, yaman gözlərdən amanda olsun!
Yoxsa, necə onun müdrik gözündən,
Gizlədə bilərdim bu gövhəri mən?
Təbi şeir deməkdə tükü tən yarar,
Qələmi o tükdən atlas toxuyar!
Salar könülləri şeriylə tora,
Aşiqi çatdırar xoş arzulara.
Çəkər aşiqlərin qəlbini bəndə,
Gözəllər ləbini döndərər qəndə.
Göydən nazil olan bir işıq kimi,
Adıyla xətm etdim bu kitabımı!
Bütün insanları keçirdim gözdən,
Ondan başqasına yol tapmadım mən.
Nə qədər dünyada dolanır dövran,
Canı sağlam olsun, qəlbi şadman!
Nə varsa, allahdan qeyri, unutsun,
Onun kərəmini nəzərdə tutsun!
Sözünü qurtardın sən dua üstə,
Cami! Allahından mərhəmət istə!
Qara iş öyrənmə öz qələmindən,
Qəlbini təmiz yu göz yaşınla sən!
Bu çöldən keçərkən qələmini at,
Qara fikirləri başından çıxart!
Dilini sükutla cəzalandır sən
Ki, sükut yaxşıdır söz söyləməkdən!

# BAHARİSTAN

**(ixtisarla)**

## DİBAÇƏ

...İndiki ürəkaçan bir vaxtda, ürəyimin parçası oğlum Ziyaəddin Yusif ərəb dilini yenicə öyrənməyə, ədəb elmini təzəcə dərk etməyə başladığı bir çağda onu xatırlatmaq istəyirəm ki, yeniyetmələr və zəhmətə alışmamış uşaqlar ürəklərinə yatmayan, ağıllarına batmayan sözlər eşitdikdə qəlblərinə bir dəhşət, beyinlərinə bir vəhşət çökür.

Onun başını qarışdırmaq, könlünü şənləndirib tədrisə alışdırmaq üçün mən bəzən məşhur şeyx, böyük ustad Müsləhəddin Sədi Şirazinin ən qiymətli və nəfis təbərrüklərindən (hesab edilən) «Gülüstan»dan bir neçə sətir oxuyardım.

### Məsnəvi

Elə bir «Gülüstan» ki behişttək ürək açır,
Torpağı gül qoxuyur, yarpağı ətir saçır.
Babları da behiştin qapıları qədərdir[1],
Şirin hekayələri sanki abi-kövsərdir.
Mənaları gizlənmiş, bürünərək pərdəyə,
Hurilər qibtə edir, ona «afərin!» deyə.
Şeirinin sərv ağacı buludlara dayanmış,
Lütfünün şəbnəmindən böyük çaylar yaranmış.

Bu zaman birdən fikrimə gəldi ki, mən də onun qiymətli fikirləri və lətif şeirlərinə oxşar bu səpkidə bir neçə sətir, bu

---

[1] *Babları da behiştin qapıları qədərdir – Kitabın səkkiz fəsildən ibarət olduğuna işarə edilir. Dini kitabların dediyinə görə, behiştin də səkkiz qapısı vardır.*

üslubda bir neçə varaq yazım ki, hazırlar üçün bir dastan, qaiblər üçün bir ərməğan olsun.

Fikrimə necə gəlmişdisə, elə də yerinə yetirildi.

**Qitə**

Əgər Sədi yaratmış məndən əvvəl «Gülüstan»,
Səd ibni Zəngi[1] üçün vurmuş ona hər rəngi.
Mənsə «Baharistan»ı o şah üçün yazmışam,
Qul olmağa layiqdir ona Səd ibni Zəngi[2].

**Qitə**

Gəlin tamaşaya «Baharistan»ı,
Siz orada «Gülüstan»lar görərsiz.
Gülüstanın hərəsinin lütfündən,
Çiçək yığar, sünbül, reyhan dərərsiz.

Bu «Baharistan» səkkiz rövzəyə[3] (fəslə), hər rövzə isə müxtəlif rəngli və müxtəlif ətirli ayəyə (bölməyə) ayrılmışdır; nə xəzanın pozucu yeli onun rəngini soldura bilər, nə zamanın dağıdıcı əli onun ətrini öldürə bilər...

Tikan, alaq, kol-kos, çör-çöpü olmayan bu bağa tamaşaya gələnlərdən bircə şey xahiş olunur ki, mübarək qədəmlərini buraya qoyub, etibarlı nəzərlərini buraya saldıqda, onu əkib yetişdirməkdə ürəyinin qanını, bəsləyib böyütməkdə şirin

---

[1] *Səd ibni Zəngi – Atabəylərdən olub, 1195-1226-cı illərdə Şirazda hökmranlıq etmişdir. Sədi «Gülüstan» əsərinin əvvəlində onu tərifləyir və kitabını onun adına yazdığını söyləyir.*

[2] *Qul olmağa layiqdir ona Səd ibni Zəngi – «Baharistan» teymurilərin ən məşhur hökmdarlarından biri Sultan-Hüseyni (1469-1506) nəzərdə tutur.*

[3] *Rövzə – Bir neçə mənası vardır. Burada «bağ» mənasında işlənmişdir.*

canını əsirgəməyən bağbana dua oxumaqla onu yad, sənа qılmaqla onu şad etsinlər...

## BİRİNCİ RÖVZƏ (BAĞ)

Heratın o müdrik qocası[1] ...Əbdüllah Ənsari öz əshabələrinə belə vəsiyyət etmişdir:

«Hər ağıllı qocadan bir söz öyrənin, bunu bacarmasanız, onların adlarını xatırlayın ki, fayda görə biləsiniz».

### Rübai

Sənin namü nişanında eşq var,
Məktubunda, peyğamında eşq var.
Məhəlləndən keçən olur aşiqin
Yəqin ki, dam-divarında eşq var.

Bir dəfə Şibli[2] əleyhirrəhmənin[3] başına hava gəlmişdi. Onu xəstəxanaya apardılar. Bir dəstə yığılıb görüşünə getdilər. Soruşdu: «Siz kimsiniz?» Dedilər: «Sənin dostların».

Yerdən bir daş götürüb onlara hücum etdi, hamısı qaçdı. Şibli dedi:

«Ey dostluq iddiasında olanlar, geri qayıdın, dost dostdan qaçmaz və onun cəfa daşlarından saqınmaz».

---

[1] *Herat qocası – XI əsrin sufi şeyxi, filosofu və şairi Əbdüllah Ənsari nəzərdə tutulur. 1006-cı ildə anadan olmuş, 1088-ci ildə vəfat etmişdir.*

[2] *Şibli – Şibli Cəfər ibn Yunis Bağdadi. Dövrünün görkəmli sufilərindən olmuşdur. Ərəbcə şeirləri vardır. (Ölümü 945/46).*

[3] *Əleyhirrəhmə – yəni ona rəhmət, rəhmətlik, mərhum. Qədim Şərq ədəbiyyatında, yüksək inşa ilə yazılmış əsərlərdə ölmüş böyük adamlar, xüsusilə sufi, şeyx, şair və alimlər haqqında belə deyilərdi. Məsələn: Sədi əleyhirrəhmə və s.*

**Qitə**

Dost odur ki, pislik görsə dostundan,
Daha artıq hörmət edə o dosta.
Min daş dəysə dost əlindən başına,
Məhəbbətlə qarşı gedə o dosta.

Əbülhəsən Quşçi[1] əleyhirrəhmə deyibdir: «Dünyada ən xoşa gəlməyən o adamdır ki, onun dostluğu ya əvəzə üçün olsun, ya qərəzə üçün».

**Rübai**

Hicran günü dost əlindən çəkən dad,
Dostluğunda vəslə edən istinad,
Dost deyildir, nakişidir o kəs ki,
Öz dostunu məqsəd üçün edir yad.

Şeyx Əbusəid Əbülxeyr[2] əleyhirrəhmədən soruşdular ki, təsəvvüf nədir. Dedi: «Odur ki, başındakını çıxarasan, əlindəkini verəsən, hər nə etsələr dözəsən».

**Rübai**

Sufilik eyləmək istəsən əgər,
Başdan çıxmalıdır eyşü işrətlər.
Var-yoxu verməli, yoxsullaşmalı,
Dözməli nə yazsa qəzavü-qədər.

Şəqiq Bəlxi[3] deyibdir: «Qaçın dövlətlilərin dostluğun-

---

[1] *Əbülhəsən Quşçi – XV əsrin görkəmli alimlərindən olub. Atası Uluqbəyin yanında rəsədxanada işləmiş, özü isə onun quşçusu olduğundan, «Quşçi» ləqəbini almışdır. 1474/75-ci illərdə vəfat etmişdir.*

[2] *Şeyx Əbusəid Əbülxeyr – Ərəb həkimi (1177-1225).*

[3] *Şəqiq Bəlxi – Sufi şairlərdən olub, dövrünün müdrik alimlərindən hesab edilmişdir. Çoxlu həkimanə sözləri vardır. 752/53-cü illərdə vəfat etmişdir.*

dan. Elə ki könlünü ona verdin, səxavətindən şirnikləndin, demək, özünə yeni bir Allah tapdın...»

Yusif ibn Hüseyn Ərrazi[1] əleyhirrəhmə demişdir: «Bütün yaxşılıqlar elə bir evdədir ki, onun açarı təvazö və özünü kiçik tutmaqdır; bütün pisliklər elə bir evdədir ki, onun açarı «biz, biz» və «mən, mən» deməkdir...»

* * *

Bir dərviş Xacə Əbdülxaliq Əcdəvani[2] əleyhirrəhməyə demişdir: «Behişt və cəhənnəmi seçməkdə Allah ixtiyarı mənə versə idi, mən cəhənnəmi seçərdim; çünki behişt nəfsin istəyidir, cəhənnəm isə Allahın əmri».

Xacə onun sözünü rədd edərək deyir: «Bəndə hara, ixtiyar hara! Hara desə get, gedəcəyik, harda desə qal, qalacağıq».

**Qitə**

Ağa buyurmayınca özbaşınalıq etmə,
Ey özünü bəndə, qul adlandıran avara.
Oradakı ağanın hökmü, əmri rəvandır,
Orada bəndə hara, özbaşınalıq hara!?

* * *

Xacə Bahaəddin Nəqşbəndi[3] əleyhirrəhmədən soruş-

---

[1] *Yusif ibn Hüseyn Ərrazi – Əbu Yəqub ləqəbi ilə məşhurdur. Dövrünün görkəmli şeyxlərindən hesab edilmişdir. (Ölümü – 954/55).*

[2] *Xacə Əbdülxaliq Əcdəvani – sufi alimlərdəndir, 1220/21-ci illərdə vəfat etmişdir.*

[3] *Xacə Bahaəddin Nəqşbəndi – Nəqşbəndilik təriqətinin əsasını qoyanlardan hesab edildiyindən, «Nəqşbəndi» ləqəbini qazanmışdır. 1317/18-ci illərdə vəfat etmişdir.*

dular ki, sizin nəslinizin silsiləsi hara gedib çatır. Dedi: «Heç kəsin nəslinin silsiləsi heç yerə gedib çatmaz».

**Rübai**

Əbada hiylə var, yoxdur bir bəhər,
Duada riya var, yoxdur bir səmər,
Sən kəndin kökünə silsilən demə,
İnsanın kökündən yoxdur bir xəbər.

## İKİNCİ RÖVZƏ (BAĞ)

...MƏSLƏHƏT. Həkim o adama deyərlər ki, şeylərin necə olduğunu mümkün qədər doğru bilsin, əməllərini bacardığı qədər düzgün həyata keçirsin.

**Rübai**

Xoşbəxt odur fani işdən əl çəkə,
Əbədilik naminə tədbir tökə.
Nə mümkünsə hamısını öyrənə,
Öyrəndimi, dərhal toxumun əkə.

* * *

**Hekayət.** İskəndər Rumi[1] cahangirliyinin ilk illərində böyük hiylə işlədərək bir qalanı fəth etdi və onu viranəyə çevirməyi əmr etdi. Dedilər: «Orda çox bilikli, çətin məsələləri həll edən bir alim vardır». Onu çağırtdırdı. Gəldikdə çox çirkin, ürək bulandıran, zövq əhlində nifrət oyadan bir sifətə malik olduğunu gördü. Dedi: «Bu nə qəribə sir-sifət, nə eybə-

[1] *İskəndər Rumi – Məşhur yunan sərkərdəsi Makedoniyalı İskəndər nəzərdə tutulur (er. əvvəl 356-323).*

cər bir xilqətdir». Həkim bu sözdən bərk tutuldu, pərt halda gülə-gülə dedi:

**Qitə**

«Çirkin» deyə vurma mənə tənə sən,
Ey fəzilət, mərhəmətdən bixəbər.
Bədən qındır, ruh isə iti qılınc,
Qılınc kəsər, qında olmaz bir təpər.

Sonra dedi: «Əxlaqı xalq ilə düz gəlməyənin dərisi bədəni üçün elə bir dar məngənəyə çevrilər ki, zindan onun yanında geniş bir istirahətgaha oxşar».

**Qitə**

Kim edərsə hamı ilə pis rəftar,
Onu qəmə, qüssəyə düçar bilin.
Həbsi üçün göstərməyin təşəbbüs,
Dərisini ona həbsdən dar bilin.

Bir də dedi: «Paxıl rahat olmaz, yaradanını da sakit qoymaz, başqalarına nə versə, gözü götürməz, özünə isə layiq olmadığı hər şeyi istər».

**Qitə**

Həsədə vərdiş edən hər adamın xasiyyəti
Allahın hökmünə də etiraz etməkdir, inan,
Kimdə nə görsə, o saat deyəcək hardandır?
Neçin Allah ona vermiş, mənə yox, ahü aman!

Bir də dedi: «Ağıllı, səxavətli adamlar mallarını dostlarla yeyərlər, ağılsız xəsislər isə (yeməyib) düşmənlərə qoyarlar».

**Qitə**

Səxavətli, hər nə keçsə əlinə,
Səpər dostun ayağına, nəyi var.
Nə toplasa təbiəti xəsislər,
Ölümündən sonra düşmənə qalar.

Bir də dedi: «Kiçiklərlə şitlik edib zarafatlaşmaq böyüklüyü hörmətdən salmaq, rüsvayçılıq tozu qaldırmaqdır...»

Bir də dedi: «Yumruq vurmağa adət etmiş adamlar zəiflərin təpiyi altında məhv olarlar».

**Qitə**

Yaxşı dinlə sən bu sözü, ey könül,
Onu demiş arif, hüşyar adamlar:
«Düşmənçilik xəncərini siyirən,
Düşmənçilik qılıncından məhv olar!»

İskəndər öz qulaqlarının bu hikmət cəvahiri ilə dolduğunu hiss etdikdə, onun ağzını, öz qulağı kimi, cəvahirlə doldurdu və o qalanı viran etməkdən vaz keçdi.

**HİKMƏT**. Şəfqət saçan yer üzərində nəsihət toxumundan başqa bir şey əkməmiş Fridun öz övladlarına bu vəsiyyəti yazmışdır: «Günlərin səhifəsi ömür səhifəsidir, ona ən gözəl əməllər və ən dəyərli əsərlərdən başqa heç nə yazmayın».

**Qitə**

Bu dünyanın səhifəsi adamların ömrüdür,
Fikirləşib tapmış bunu çox ağıllı bir insan.
Xoşbəxt o vaxt olarsan ki, bu pak, təmiz səhfəyə,
Yalnız yaxşı, xeyir əməl, gözəl əsər yazasan!

**HİKMƏT**. Alimlərdən biri demişdir ki, hikmət haq-

qında qırx dəftər yazdım, bir fayda görmədim, oradan qırx söz ayırdım, ondan da bir bəhrə götürmədim, ondan da dörd söz seçdim və istədiyimi onlarda tapdım. Birinci[1].

**İkinci**. Malın nə qədər çox olur olsun, onunla qürrələnmə, çünki gec-tez zamanın gərdişindən puç olub gedəcəkdir.

**Rübai**

Sadəlövh adamtək vurulma vara,
O bənzər tez keçən ağ buludlara.
Tez ötən şeylərə bel bağlamazlar
Ağıllı adamlar, düşsə də dara!

**Üçüncü**. Gizli sirrin varsa, onu heç bir dostuna demə. Çox zaman elə olur ki, dostluq dönüb düşmənçiliyə çevrilir və dostluq aradan gedir.

**Qitə**

Düşmənlərdən gizli tutmaq istədiyin bir sirri,
Yaxşı olar, oğul, onu dosta da deməyəsən.
Çox görmüşəm bu kəcrəftar fələyin gərdişindən,
Düşmən dönüb dost olmuşdur, dost isə qəddar düşmən.

**Dördüncü.** O peşəyə xor baxma ki, onu tərk etdikdə acından öləsən, artıqtamahlıqdan qaç, nə zəruridirsə, ona yol aç.

**Qitə**

Lazım olan bir sənəti axtar sən,
Veyil-veyil dolanmaq çox yamandır.

---

[1] *Birinci... – Qadın ləyaqəti təhqir edildiyindən, qadınlara qarşı etibarsızlıq, etimadsızlıq təbliğ edildiyindən, ixtisara salınmışdır.*

Lazım olan bir sənəti tapdınmı,
Möhkəm yapış, əldən vermə, amandır.

**HİKMƏT**. İbn Müqəffə[1] deyir ki, hind alimlərinin kitabxanasını yüz dəvəyə yükləyirdilər. Şah onların azaldılmasını xahiş etdi, bir dəvəyə endirdilər, yenə ixtisarını xahiş etdi, dörd kəlmə ilə kifayətləndilər.

**Birinci.** Şahların ədalətli olmaları.

**Məsnəvi**

Ədalətli olarsa bu dünyada şəhriyar,
Böyüklər də, kiçik də, rahat-farağat yaşar.
Yox, əgər qəddar olub, ciyərləri dağlasa,
Göyə fəğan qalxacaq, yer batacaqdır yasa.
Əyri-üyrü dünyada yaratmaqçın səadət
Yalnız bir şey lazımdır: hökmdardan ədalət!

**İkinci.** Rəiyyətin sədaqətli və itaətkar olması.

**Beyt**

Hökmə tabe olmamaqdır şah zülmünə səbəb, bil!
Buğda biçməz arpa əkən, bu mümkün bir iş deyil.

**Üçüncü**. Bədənin sağlamlığını qorumaq. Acmadıqca əli təama uzatmamalı, yedikdə isə doymadan əli taamdan çəkməli.

---

[1] *İbn Müqəffə – Dövrünün ən məşhur alim və mütərcimlərindən hesab edilmişdir. Məşhur «Kəlilə və Dimnə» əsərini orta fars (pəhləvi) dilindən ərəb dilinə ilk dəfə tərcümə etmişdir. Didaktik əhəmiyyətli orijinal əsərləri də olmuşdur. 36 yaşında ikən 762/63-cü illərdə tikə-tikə doğranılaraq, təndirdə yandırılmışdır.*

**Rübai**

Xəstəlik törədən amilləri sən,
Çalış ki, özündən kənar edəsən.
Uzaq ol dərmandan[1], acmamış yemə,
Doymamış əlini götür süfrədən.

**Dördüncü**. Üzlərini yad adamlardan gizlətmək və gözlərini yabançı adamlardan çəkmək barədə qadınlara nəsihət.

**Qitə**

Əsl arvad odur ki, naməhrəm bir kişiyə,
Göz bəbəyi olsa da, üzünü göstərməsin.
Əgər kişi deyilsə onun qanuni əri,
Göy mələyi olsa da, gözünü göstərməsin.

**HİKMƏT**. Dörd kəlmə var ki, dörd padşah demiş və sanki dörd kamandan bir ox atmışlar. Kəsra[2] söyləmişdir: «Demədiyim sözdən heç vaxt peşman olmamışam, lakin çox olub ki, dediyimdən qan və torpaq içində yatmışam».

**Qitə**

Məclisdə boş danışmaqdan susub durmaq yaxşıdır,
Hələ peşman olmamışdır sirri gizli saxlayan.
Lakin sirri faş eyləyib söz gəzdirən adamlar,
Çox görmüşəm, peşman olmuş yersiz danışmağından.

Qeysər buyurmuşdur: «Mənim demədiyim sözə qüdrətim dediyimdən çox çatar, yəni demədiyimi hər vaxt deyə bilərdim, lakin dediyimi dana bilmərəm».

---

[1] *Uzaq ol dərmandan – orijinalda: uzaq ol nadan həkimlərdən.*

[2] *Kəsra – Sasani sülaləsindən olan şahlara verilən ləqəbdir. Əsasən Xosrov Ənuşirəvan və ondan sonra gələnlərə aid edilir. Cami Ənuşirəvanı nəzərdə tutur. (531-579)*

**Qitə**

Deyilməsi çətin olan şeyləri
Asanlıqla demə sən hər yetənə.
Gizli sözü lazım olsa deyərsən,
Desən, gizlətməsi düşər çətinə.

Çin xaqanı bu mənanı aşağıdakı kimi demişdir: «Çox vaxt deməyin pərişanlığı deməməyin peşmançılığından ağır olubdur».

**Qitə**

Gizli bir sirr yadına düşən zaman,
Dərhal onu söyləməyə atma can.
Qorxuram ki, açıb demək təqsiri
Ağır olsun gizlətmək günahından.

Hind hökmdarı bu barədə söz açaraq belə demişdir: «Dilimdən qaçırdığımı bir daha geri qaytara bilmərəm, demədiyimin sahibiyəm, istəsəm deyərəm, istəməsəm demərəm».

**Qitə**

Gizlin sirlə deyilmişə fərq qoy sən,
Bu barədə qəribə bir məsəl var:
O – qınında saxlanılan xəncərə,
Bu – kamandan atılmış oxa oxşar.

* * *

**Hekayət.** Bir qeyrətli dərviş bir qüdrətli şahla dostluq edir və tez-tez onun görüşünə gedirdi. Bir gün şahdan özünə qarşı bir soyuqluq hiss etdi, ha fikirləşdi, tez-tez görüş və çox-çox söhbətdən başqa bir səbəb tapmadı. Gediş-gəliş ayağını kəsdi, söz-söhbət büsatını yığdı.

Bir gün şah həmin dərvişə rast gəldi, dayandırıb dedi: «Ey dərviş! Səbəb nədir ki, bizdən qaçırsan, söhbətə gəlmirsən, qapı açmırsan?!»

Dərviş dedi: «Səbəbi odur, bilirəm ki, «nə üçün gəlmirsən» sualı «nə üçün gəlirsən» sorğusundan yaxşıdır».

**Qitə**

Bir dövlətli bir dərvişə dedi ki:
«Bəs çoxdandır neçin bizə gəlmirsən?!»
Cavab verdi: «Belə deməyin xoşdur
Hiddət ilə «neçin gəldin» deməkdən».

## ÜÇÜNCÜ RÖVZƏ (BAĞ)

**HİKMƏT.** Şahların varlığı insaf və ədalət üçündür, cəlal və əzəmət üçün deyildir...

**Hekayət.** Tarixdə yazılmışdır ki, dünyanın hakimiyyəti beş min il mağların və atəşpərəstlərin əlində olmuşdur. Səltənət ona görə bu xanədanın əlində bu qədər çox qalmışdır ki, onlar rəiyyətə zülm etməmiş, onlarla ədalətlə rəftar etmişlər...

**Qitə**

Ədalətlə insaf gərəkdir şaha,
Fərq eləməz kafir olsun, ya dindar.
Mömin olan zalim şahdan yaxşıdır
Adil olan dinsiz, kafir hökmdar!

* * *

**HİKMƏT**. Padşahın yaxın adamı bilikli həkim[1] olmalı, zarafatcıl nədim[2] olmamalıdır; çünki birincisindən kamal, ikincisindən zaval artar.

**Qitə**

Alimlərin hər mənalı sözü gövhər kimidir,
Xoş ona ki, mücrü etmiş sinəsin bu gövhərə
Ariflərin ürəkləri hikmət xəzinəsidir,
Yaxşı saxla, qoyma getsin xəzinə uzaq yerə.

**HİKMƏT.** Padşaha yaxın olanlar yüksək dağlara qalxan, lakin nəticədə fələyin işi, zamanın gərdişi sayəsində o dağlardan yerə yıxılan adamlara oxşarlar. Əlbəttə, təbiidir ki, daha yüksəkdə olanların yerə dəyməsi daha ağır, aşağıda olanların yıxılması daha yüngül nəticə verər.

**Qitə**

Şaha yaxın olanın uca olar eyvanı,
Oraya qalxan insan, yüksəklikdən qıl həzər.
Qorxuram ki, oradan yıxılasan bir zaman.
Bil ki, yüksəkdə olan yerə dəysə, bərk dəyər.

* * *

**HİKMƏT**. Padşahların nədimlərinin əli düz və sözü düz olmalıdır ki, rəiyyətlərin və məmurların vəziyyəti haqqında şaha doğru məlumat versinlər. Deyirlər ki, Ərdəşir Ba-

---

[1] *Həkim – Klassik Şərq ədəbiyyatında filosof, hikmət sahibi, alim mənasında işlədilir.*

[2] *Nədim – Qədimdə, şah saraylarında xüsusi vəzifə sahibinə deyərdilər. Nədimlər şahın ən yaxın adamları hesab edilər, onun məhrəmanə söhbətlərində, eyş-işrət məclislərində iştirak edərdilər.*

bəkan[1] hər şeydən xəbərdar şah imiş. Səhər nədimlər gəldikdə deyərmiş ki, filankəs bu gecə nə yeyib, filan arvad və ya cariyə ilə nə söhbət edib. Kim nə etmiş idisə, hamısını deyərdi, camaat elə bilərdi ki, ona vəhy gəlir, göydən mələkələr xəbər gətirir. Mahmud Səbüktəkin[2] də belə imiş.

**Qitə**

Xəbəri olmasa şahın ordudan,
Onun qəzəbindən qorxarmı qoşun?
Zülm üçün minlərlə bəhanə tapar,
Fisq üçün minlərlə düzəldər oyun.

* * *

**HİKMƏT.** Aristatalis[3] deyir: «Padşahların ən yaxşısı odur ki, leş ətrafında dolanan quzğuna oxşasın, ətrafında quzğun dolanan leşə oxşamasın; yəni o öz dövrəsində olanların halından xəbər tutmalıdır, dövrəsində olanların isə bundan xəbəri olmamalıdır, nəinki şah özü öz halından bixəbər, ətrafındakılar isə onun halından xəbərdar... (olsunlar)».

* * *

**Qitə**

Şahlar gərək qartal kimi yaxşı görsün ətrafı,
Dövrə vurmuş quzğunların hər addımın izləsin.

---

[1] *Ərdəşir Babəkan – Sasani sülaləsinin banisi hesab edilir. 224/6-cı illərdə V.Ərdəvana qarşı çıxaraq onu məğlub etmiş və Əşkanilər sülaləsinə son qoymuşdur.*

[2] *Səbüktəkin – Qəznəvilər sülaləsinin banisi, Soltan Mahmudun atası.*

[3] *Aristatalis – Məşhur yunan alimi və filosofu Aristotel nəzərdə tutulur. (Eramızdan əvvəl 384-322).*

Lakin gərək leş olmasın, dövrə vurmuş quzğunlar
Onu didib, sonra da ki, dimdiyin təmizləsin.

* * *

**Hekayət.** Həccaca qarşı üsyan etmiş adamlardan bir qadını tutub onun yanına gətirdilər. Həccac qadınla danışır, o isə gözünü yerə dikir, başını yuxarı qaldırmırdı, nə ona cavab verir, nə də üzünə baxırdı. Orda olanlardan biri dedi: «Axı, əmir səninlə danışır, nə üçün dinmirsən, ona baxmırsan?!» Dedi: «Mən elə bir adamın üzünə baxmaqdan utanıram ki, Allah onun üzünə baxmır».

**Qitə**

Zalimin üzünə baxma, çünki o,
Cəhənnəmdə açıq qapıya bənzər,
Cəhənnəm qapısı açılan gündən,
Allah da lütf ilə salmamış nəzər.

* * *

**Hekayət.** İskəndərdən soruşdular: «Yaşının azlığına, təcrübənin yoxluğuna baxmayaraq, az müddətdə bu qədər dövləti necə ələ gətirdin, bu qədər məmləkəti necə fəth etdin?» Dedi: «Düşmənlərlə düşmənçiliyi azaltdım – ara qızışdırmaqdan əl çəkdilər; dostlarla dostluğu möhkəmlətdim – lazım olanda köməyə gəldilər...»

**Hekayət.** Bir gün İskəndər öz sərkərdələri ilə bir yerdə oturmuşdu. Onlardan biri dedi: «Allah sənə çoxlu dövlət və qüdrət vermişdir, sən də çox arvad al ki, övladların çox olsun, səndən dünyada yadigar qalsın».

İskəndər dedi: «Kişidən yadigar övlad deyil, xeyir, əməl və yaxşı ad qalar, bir də yaxşı deyil ki, dünya kişilərinə qələbə çalmış bir adama qadınlar qalib gəlsin».

**Qitə**

İndi ki ata bilmir, onun əziz övladı
Ağıllı olacaqdır, yoxsa səfeh bir axmaq.
Ariflərin gözündə yaxşı ad üstün olar,
Övlad üçün arvada nəyə lazım qul olmaq?

## DÖRDÜNCÜ RÖVZƏ (BAĞ)

**Hekayət.** Mədinədə bütün din elmlərinə vaqif bir alim var idi. Bir dəfə yolu qul satanlar məhəlləsinə düşdü, xanəndə bir qız gördü. Onun səsinin məlahətinə Nahid qibtə edir, üzünün təravətinə günəş həsrət çəkirdi. Səsinin məlahətindən, üzünün təravətindən, zülfünün şəvəsindən, özünün işvəsindən alimin ağlı itdi: nəğməsinin ahəngdarlığından, rəqsinin füsunkarlığından ixtiyari əldən getdi, dar düşüncə məcrasından geniş məhəbbət səhrasına çıxdı.

**Qitə**

Gözəl sima, yaxşı səs ayrı-ayrı olduqda,
Valeh edir adamı, heyran qoyur insanı.
Hər ikisi birləşib vəhdət təşkil etdikdə,
Ona qarşı durmağa insanda qüdrət hanı?!

Müxtəsəri, o alimlik simasını itirdi, rüsvayçılıq libasına büründü. Ah-zar edir, Mədinə bazarını gəzirdi.

Dostları onu danlamağa başladılar, faydası olmadı. Öz-özü ilə danışır və bu şeiri oxuyurdu:

**Rübai**

Onuntək naz ilə kim süzə bilər?
Aşiqin ürəyin kim üzə bilər?
Hər gələn deyir ki, əl götür ondan,
Onun fərağına kim dözə bilər?

Bu əhvalat Əbdüllah ibn Cəfərə çatdı... O, kənizin sahibini çağırıb, qırx min dirhəmə qızı aldı və əmr etdi, alimin huşunu başından çıxaran təranəni həmin səslə oxusun. Onu kimdən öyrəndiyini soruşdu. Qız dedi, filan müğənnidən. Əbdüllah onu tapdırdı, sonra alimi çağırtdırıb dedi: «Divanəsi olduğun o təranəni qızın müəlliməsindən eşitmək istəyirsənmi?» Dedi: «Bəli». Əbdüllah müğənniyə dedi, həmin havanı oxusun. Oxuması ilə alimin huşunu itirməsi bir oldu, elə güman etdilər ki, öldü. Əbdüllah ibn Cəfər dedi: «Gördünüzmü, bu kişinin ölümünə səbəb olmaqla, nə günaha batdıq». Sonra əmr etdi, onun üzünə su vurdular. Özünə gəldi. Ona dedi: «Biz sənin o qızı bu qədər sevdiyini bilmirdik». Dedi: «Vallah, gizlində olanı aşkara çıxanından daha artıqdır». Əbdüllah soruşdu: «Həmin qızın bu təranəni oxumasını istəyirsənmi?» Dedi: «Onu aşiq olmadığım bir adam oxuduqda nə hala düşdüyümü gördünüz, əgər onu divanəsi olduğum öz məşuqəmin ağzından eşitsəm, gör nə hala düşərəm». Soruşdu: «Onu görsən tanıyarsanmı?» Ağlaya-ağlaya dedi:

**Beyt**

Deyirsən: «Tanıyarsan, göstərsəm o cananı?»
Vallah, ona tay yoxdur, gəzsən bütün dünyanı.

Əmr etdi kənizi gətirib ona verdilər. Dedi: «Bu sənindir, and olsun Allaha, heç ona gözümün ucu ilə də baxmamışam». Alim Əbdüllahın əlindən öpüb ayağına düşdü və dedi:

**Rübai**

Kərəmindən ağlım gəldi özümə,
Hicran bitdi, tale güldü üzümə.
Axıtdığım qanlı yaşlar qurtardı,
Rahat oldum, yuxu gəldi gözümə.

Sonra kənizin əlindən tutub evlərinə yollandı.

Əbdüllah bir qulama əmr etdi: «Qırx min dinar al, apar onlara ver ki, məişətin ağırlığından qəlblərinə qubar çökməsin, qoy rahat yaşayıb bir-biri ilə kef çəksinlər».

## BEŞİNCİ RÖVZƏ (BAĞ)

**Hekayət.** İki ağıllı adam arasında eşq haqqında söhbət düşdü. Biri dedi: «Eşqin xasiyyəti həmişə bəla və əziyyətdir, aşiq həmişə iztirab və məşəqqət içərisində olar». O biri dedi: «Sus, görünür, sən dalaşmaqdan sonrakı barışığın ləzzətini, fəraqdan sonrakı vüsalın şərbətini dadmamısan. Heç kəsin qəlbi aşiqlərin qəlbi qədər təmiz, heç kəsin ürəyi sevməyi bacarmayanların ürəyi qədər kəsif ola bilməz».

**Qitə**

Qəlbin gözəlliyidir aşiqliyin səbəbi.
Gözəlliyə meyl edər qəlbi gözəl olanlar.
Biri höccət eləyib, məndən dəlil istəsə,
Deyərəm məlum şeydir: «Hər kəs öz tayın tapar!»

**Hekayət.** Ağıllı, kamallı, Əştər ləqəbli bir cavan qəbilə başçılarından olan Ceyda adlı gözəl bir qıza aşiq olmuşdu. Onlar bir-birini görüb sevmiş, aralarında olan dostluq telləri möhkəmlənmişdi. Onlar bu sirri uzaq və yaxın adamlardan gizlədir, mümkün olduqca üstüörtülü saxlamağa çalışırdılar. Lakin necə ki, demişlər:

**Beyt**

Eşq elə bir sirdir ki, gətirmək olmur dilə,
Lakin örtmək də olmur onu min pərdə ilə.

Nəhayət, onların sirlərinin üstü açıldı, gizlin işləri aşkara çıxdı. İki tayfa arasında dava düşdü, adam öldürüldü, qan axıdıldı, Ceydanın tayfası öz doğma vətənini buraxıb başqa yerə köçməyə məcbur oldu.

Fəraq günləri uzandıqca, hicran odu yanır, vüsal arzusu alovlanırdı. Bir gün Əştər öz dostlarından birinə dedi: «Mənə yoldaşlıq edib, başqa yerə gedə bilərsənmi, Ceyda ilə görüşmək üçün mənə kömək edə bilərsənmi? Artıq dözə bilmirəm. Gündüzüm gecəyə, gecələrim gündüzə çevrilmişdir». Dedi: «Baş üstə, göz üstə. Mən hazıram. Nə desən edərəm, hara desən gedərəm».

Hər ikisi qalxdılar, səfərə layiq yaraqlandılar, iki gün, iki gecə yol getdilər, gəlib həmin diyara çatdılar. Həmin tayfaya yaxın bir dağın ətəyində dayandılar, orada yurd saldılar.

Əştər dostuna dedi: «Qalx, bu itmiş dəvənin cilovundan tutub, soraqlaşa-soraqlaşa həmin tayfanı tap, mənim adımı onun quzularına baxan, arzularına məhrəm olan, sirlərini saxlayan filan kənizdən başqa heç kəsə demə. Məndən ona salam yetir, Ceydanı soruş və bizim harada düşdüyümüzü ona nişan ver».

Mən qalxıb həmin tayfanın olduğu yerə getdim. Mənə rast gələn ilk adam həmin kəniz oldu. Əştərin salamını çatdırdım. Ceydanın kefini soruşdum. Dedi ki, əri onu bərk qısqanır və gözdən qoymur. Lakin siz gecə namazı vaxtı filan təpənin dalındakı filan ağacın altında olun.

Mən tez qayıdıb həmin xəbəri Əştərə çatdırdım. Hər ikimiz miniklərimizi cilovlayıb, ehmalca yola düşdük, vaxtında gəlib vədə verilmiş yerə çatdıq.

**Rübai**

Həyəcan içində çəkir intizar,
Göz yaşı axıdır, edirdik ah-zar.
Qəflətən eşitdik həmayil səsi,
Bildirirdi ki: «Yaxındadır yar!»

Əştər yerindən sıçrayıb onu qarşıladı, salam verib əlindən öpdü. Mən üzümü çevirib yan tərəfə getmək istədim. Çağırdılar ki, geri qayıt, nalayiq bir iş görülməyəcək, namünasib bir söz deyilməyəcəkdir. Mən geri qayıtdım. İkisi bir yerdə oturub keçmişdən, gələcəkdən danışdılar, axırda Əştər dedi: «Arzu gözüm intizardadır ki, bu gecə mənimlə bir yerdə qalasan, fəraq dırnağı ilə ümid üzümü cırmayasan».

Ceyda dedi: «And olsun yaradana ki, bu mümkün deyildir, mənim üçün bundan daha çətin bir iş ola bilməz. İstəyirsən ki, yenə də əvvəlki qanlı hadisələr baş versin, ruzigar üz döndərsin, yenidən qəm və kədər qapıları mənim üzümə açılsın?»

Əştər dedi: «And olsun o Allaha ki, bu sözlərə baxmayacağam və səni heç yerə buraxmayacağam».

**Misra**

Nə deyirlər desinlər, nə edirlər etsinlər.

Ceyda dedi: «Sənin bu dostunda o təpər varmı mənim dediklərimi yerinə yetirə?!»

Qalxıb dedim: «Hər nə desən, onu edərəm, min əziyyətə dözərəm, canım da lazım olsa, onu verərəm».

Paltarını çıxarıb dedi: «Bunları gey və öz paltarlarını mənə ver». Sonra dedi: «Qalx, get mənim çadırıma, pərdənin dalında otur. Ərim gəlib sənə bir piyalə süd gətirəcək və deyəcəkdir ki, bu sənindir, al. Sən tələsmə, almağı yubandır. O,

südü sənin əlinə verəcək və ya yerə qoyub gedəcək, bir də sabah səhərə qədər gəlməyəcəkdir».

Necə demişdi, elə də etdim. Onun əri süd gətirdikdə, mən naz eləməyə başlayıb vaxtı uzatdım, südü yerə qoymaq istəyərkən, mən də onun əlindən almaq istədim, əlim piyaləyə toxundu, piyalə çevrildi, süd yerə dağıldı. Qəzəblənib dedi: «Bu mənimlə qoz-qoz oynayır».

Əlini uzadıb o biri evdən maral dərisindən hörülmüş, başdan ayağa qədər bərk bürülmüş, gövdəsi incə, başı yumru qamçını götürdü.

**Qitə**

Yoğunluqda əfi ilan kimidir,
Uzunluqda əjdahaya bənzəyir.
Çılpaq bədən üzərini o zalim,
İlan kimi zolaqlarla bəzəyir.

Mənim dalımı təbil kimi çılpaq edib, müharibə günündə təbbal döyən kimi, arasıkəsilmədən döyəcləməyə başladı.

Qorxumdan cınqırımı çıxara bilmirdim ki, səsimi tanıyar, ağrıdan dayana bilmirdim, sanki dərimi soyurdular. Belə qərara gəldim yerimdən qalxam, xəncərlə qanını axıdam. Sonra düşündüm ki, heç bir əlin yatıra bilməyəcəyi fitnə qalxa bilər. O qədər dözdüm ki, anası, bacısı gəlib məni onun əlindən aldılar və onu itələyib bayıra saldılar. Bir saat keçməmişdi ki, Ceydanın anası gəldi, elə bildi mən Ceydayam. Mən hıçqırıqla ağlayıb dalımı ona çevirdim və paltarımı başıma çəkdim. Dedi: «Qızım, Allahdan qorx, ərinin xoşuna gəlməyən işlər tutma, ərinin bir tükü min Əştərə dəyər. Əştər kimdir ki, sən onun üstündə əziyyət çəkəsən və zəhər kimi şərbət içəsən».

Ayağa qalxıb dedi: «Bacını göndərəcəyəm bu gecə sənin yanında yatsın, hayına qalsın». Sonra çıxıb getdi.

Bir saat keçməmişdi ki, Ceydanın bacısı gəldi, ağlamağa başlayıb, məni döyənə pis-pis söyüşlər yağdırdı. Mən dinmədim, uzanıb yanımda yatdı, əlimi uzadıb ağzını bərk-bərk tutdum və dedim: «Sənin bacın indi Əştərin yanındadır, mən isə onun əvəzinə bu əziyyətə düçar olmuşam. Səsini çıxarma, bu sirri heç kəsə açma, yoxsa siz də rüsvay olarsınız, mən də».

Əvvəl bərk qorxmuşdu, sonra yavaş-yavaş özünə gəldi, axırda mehribanlaşdı. Səhərə qədər lətifə danışır və hey gülürdü. Səhər olcaq Ceyda gəldi. Bizi görcək qorxub soruşdu: «Vay, bu sənin yanındakı kimdir?» Dedim: «Qorxma, sənin bacındır. Özü də nə yaxşı bacın vardır». Soruşdu: «O burda nə qayırır?» Dedim: «Özündən soruşarsan, vaxtımız yoxdur».

Paltarımı alıb özümü Əştərə çatdırdım. Hər ikimiz ata minib yola düzəldik. Mən yolda əhvalatı ona danışdım, dalımı açıb qamçıların yerini göstərdikdə, çox üzr istədi və dedi: «Atalar deyiblər ki, dostu bərkdə yoxlarlar, xoş gündə dostluğa nə var?!».

**Qitə**

Bir gün sənə, ey könül, qəm üz verərsə əgər,
Qəm çəkən dostun olsa, qəm eyləməz sənə kar.
Dostu ağ gündə deyil, sınayarlar bərk gündə,
Səadətli günlərdə dostlar tapmağa nə var!?

## ALTINCI RÖVZƏ (BAĞ)

**Hekayət.** Xəlifə bir gün qəlyanaltı edirdi, qabağında qızardılmış quzu var idi. Səhradan bir ərəb gəldi, xəlifə onu yanına çağırdı.

Ərəb oturcaq iştah ilə yeməyə girişdi. Xəlifə dedi: «Nə olub ki, quzunu belə parçalayıb, marça-marçla yeyirsən? Sanki onun atası sənə kəllə vurubdur». Ərəb dedi: «Yox, bu belə deyildir, amma sən ona elə mərhəmət gözü ilə baxır, mənim parçalayıb yeməyimdən elə darıxırsan ki, deyəsən, onun anası sənə süd veribdir».

**Qitə**

Xacə öz malını elə sevir ki,
Hər şeyi çox əziz tutur canından,
Qoyun-quzusuna bəla üz versə,
Ana, balasını eyləyər qurban.

**LƏTİFƏ**. Bəhlulə dedilər: Bəsrə divanələrini say! Dedi: «Onları saymaqla qurtaran deyil, desəniz ağıllıları say, sayaram, çünki onlar o qədər də çox deyil».

**Qitə**

Ağıllı bildiyin hər bir adamda
Cünun mayasından kiçik bir pay var
Dünyada baş verən bəladan qaçıb,
Cünun kölgəsində o tutar qərar.

* * *

**LƏTİFƏ**. Bir alim sirlərinə vaqif olan bir dostuna məktub yazırdı. Bir adam onun yanında oturmuşdu, gözucu onun məktubunu oxuyurdu. Bu, həmin alimə toxundu, o yazdı: «Əgər mənim yanımda nakişi, oğrutəbiət bir adam oturub, oğrun-oğrun məktubumu oxumasaydı, bütün sirlərimi sənə yazardım». O adam dedi: «Ey ağa, vallah mən sənin məktubunu

oxumuram, bu nə sözdür yazırsan?» Dedi: «Ay axmaq, oxumursansa, bəs hardan bildin mən nə yazıram?!»

**Qitə**

Kim bilərsə oğurluqla bir kişinin sirrini,
Layiq olar çağırasan onu oğru, cibkəsən.
Hələ bir də bu iş üçün muzd istəsə, kafidir
Tüpürəsən surətinə, nakişi ad verəsən.

* * *

**LƏTİFƏ**. Böyük burunlu bir kişi bir arvadı istəyir, özünü ona belə tərifləyirdi: «Mən az yatan, ağırbatman, tədbirli, arvad şıltağına səbirli bir adamam». Arvad dedi: «Səbirli olmasaydın, qırx il o boyda burunu gəzdirə bilməzdin».

**Qitə**

Nə vaxtadək hara gəldi soxacaqsan burnunu?
Buna-ona mane olan burnun yaman böyükdür.
Hər an sənin əyilməyin taət üçün deyildir.
Yer üstünə səni əyən daşıdığın bu yükdür.

* * *

**LƏTİFƏ.** Bəhlul Harun-ərrəşidin yanına gəldi. Vəzirlərdən biri dedi: «Ey Bəhlul, muştuluğumu ver. Əmirəlmöminin səni öküz və eşşəklərə sərkərdə təyin etmişdir».

Bəhlul dedi: «Mənə qulaq as, əmrimi yerinə yetir, sən də mənim rəiyyətlərimdənsən».

**Qitə**

Müjdə verdin: öküzə, eşşəyə mən şah olum,
Belə şaha rəiyyət, a kəlləxər özünsən.
Dedin, mənim qoşunum ayı, donuz olacaq,
Bu hesaba birinci girən nəfər özünsən.

## SƏKKİNCİ RÖVZƏ (BAĞ)

**...Hekayət.** Bir tülkü bir qurdla dostluğundan dəm vurur və ondan ayrı oturub-durmurdu. Bir dəfə yenə ikisi gəzərkən bir bağa rast gəldilər: qapısı bağlı idi, divarları tikanlı. Ətrafını gəzib bir külüf tapdılar. Bu külüf tülkü üçün geniş, qurd üçün dar idi. Tülkü asanlıqla girdi, qurd çox çətinliklə keçə bildi. Cürbəcür üzümlər gördülər, rəngbərəng meyvələrə təsadüf etdilər. Tülkü bic olduğundan, əvvəlcədən qaçmaq yolunu nəzərə aldı, qurd gic olduğundan, dürt deyincə yeyib yerində qaldı. Birdən əlində böyük bir dəyənək olan bağbanın onlara tərəf gəldiyini gördülər. Beli incə tülkü külüfdən tez eşiyə çıxdı, qarnı şişman qurd ilişib deşikdə qaldı. Bağban çatıb ağacla o qədər vurdu ki, tükü yolunmuş, dərisi soyulmuş qurd ölmə-dirilmə halda zorla külüfdən özünü bayıra saldı.

**Qitə**

Ey xacə, qızılla sən zor göstərmə,
Axırda dünyadan zəlil gedərsən.
Bu nazü-nemətdir kökəldən səni,
Bir düşün, nəhayət, əlil gedərsən.
Bu yekə cüssənlə, gələcək bir gün,
Ölüm qapısından səfil gedərsən.

* * *

**Hekayət.** Neştərində öldürücü zəhər, təbiətində kin və qəzəb olan bir əqrəb səfərə çıxmışdı. Böyük bir çayın kənarına çatdı, quruyub yerində qaldı. Nə keçməyə qüdrəti, nə dönməyə qeyrəti vardı. Tısbağa onun vəziyyətini görüb halına yandı, dalına mindirib özünü suya vurdu, üzə-üzə o biri sahilə üz qoydu. Bu zaman qulağına bir səs gəldi; əqrəb nə iləsə onun dalına vururdu. Soruşdu: «Bu nə səsdir?». Dedi: «Bu, tikandır, səni sancıram, bilirəm kar etməyəcəkdir, ancaq nə çarə, canımı bu azarın əlindən qurtara bilmirəm». Tısbağa öz-özünə dedi: «Yaxşısı budur ki, bu mərdümazarın canını bu azarın əlindən mən qurtarım».

Bunu deyib suyun altına cumdu, dalğa vurub əqrəbi apardı, sanki belə bir əqrəb heç yox idi.

**Qitə**

Bu şər, fəsid məclisində tərbiyəsiz cavanlar,
Yüz cür hiylə qurmaq üçün olurlar əldə alət.
Yaxşıdır ki, qərq olalar ölüm girdablarında,
Həm özləri xilas olsun, həm xalq yaşasın rahət.

* * *

**Hekayət.** Bir siçan bir neçə il bir baqqalın dükanında quru və yaş meyvələrdən yeyib kef ilə dolanırdı. Baqqal bunu görür, lakin özünü o yerə qoymur və cəza vermirdi. Atalar demişkən, bu o günə qədər davam etdi ki,

**Beyt**

Alçaq, rəzil adamların mədəsi tox olan tək,
Min cür hay-küy sala-sala pəhləvanlıq edəcək.

Siçanın da qarnı doydu, bu qərara gəldi ki, baqqalın kisəsini doğrasın, ağdan, sarıdan nəyi varsa, hamısını oğurlasın. Elə də etdi, gümüşdən, qızıldan nə var idisə, hamısını dartıb öz yuvasına daşıdı. Bir gün baqqalın pula ehtiyacı oldu, əlini kisəyə atdı, onu yoxsulların cibi, acların mədəsi kimi boş gördü. Siçanın işi olduğu başa düşdü. Pişik kimi pusquda durdu, siçanı tutub ayağına bir ip bağladı, sonra buraxdı, ipin uzunluğundan bildi ki, yuvası hara qədərdir. Sonra siçanın yuvasını dağıdıb, evinə çatdı. Gördü, nə gördü: siçanın evində sərraf dükanında olduğu kimi qızıl gümüşə qatışıb, dinar dirhəmə qarışıb. Öz malını götürüb yerinə qayıtdı, siçanın quyruğundan tutub pişiyə atdı. Siçan öz cəzasına çatdı, necə çatdı; nankorluğun acısını daddı, necə daddı.

**Qitə**

Şuri şərdən can qurtarmaz bu dünya hərisləri,
Xoşbəxt odur şurü şərdən yaxasını yan tutar.
Qənaətdə əzizlik var, ruha rahatlıq vardır,
Həddən artıq hərislikdə baş ağrısı, möhnət var.

**Hekayət.** Bir tülkü yol üstündə durub o yan-bu yana baxır, ov axtarırdı. Birdən uzaqdan qaraltı göründü, yaxınlaşıb yırtıcı bir qurdun böyük bir itlə sədaqətli sirdaş, səmimi yoldaşlar kimi bir yerdə gəldiklərini gördü, nə bu onun hiyləsindən qorxurdu, nə o bunun xəyanətindən ehtiyat edirdi. Tülkü qabağa qaçıb salam vəzifəsini yerinə yetirdikdən sonra dedi:

«Allaha şükür, köhnə düşmənçiliyiniz yeni dostluğa, qədim ədavətiniz təzə mehribanlığa çevrilmişdir. Lakin bir şey bilmək istəyirəm: bu sirdaşlığın səbəbi nədir, bu yoldaşlığın baisi kimdir?»

İt dedi: «Bizim dostlaşmağımızın səbəbi çobandır. Ço-

banın qurdla düşmənçiliyi qoyuna görədir, mənim qurdla düşmənçiliyim isə çobana görə. Bu gün dostluğundan feyziyab olduğum bu qurd dünən özünü bizim sürüyə vurdu, bir quzunu götürüb qaçdı. Adətim üzrə quzunu qurddan saldırmaq üçün onun dalınca yüyürdüm, lakin çata bilmədim. Geri qayıtdıqda çoban çomağını qaldırıb nahaq yerə məni döyməyə başladı. Mən də dostluğu kəsib ondan qaçdım, gəlib köhnə düşmənimlə dostlaşdım».

**Qitə**

Düşmənlə dost ol ki, o da heç zaman
Düşmənlik tiyğilə vurmasın səni.
Dostunu o qədər incitmə ki, o
Özünə dost etsin sənə düşməni.

**Hekayət.** Tülküyə dedilər: «Yüz dinar alıb bu xəbəri kənd itlərinə çatdıra bilərsənmi?» Dedi: «Vallah, yaxşı muzd verirsiniz, canımdan keçmək qorxusu olmasaydı, ondan əl çəkməzdim».

**Qitə**

Alçaqdan kəramət ummaq odur ki,
Gəmini salasan böyük tufana.
Düşmənə əyilmək mal, mənsəb üçün
Zərbədir, ölümdür hər mərd insana.

* * *

**Hekayət.** Bir dəvə bir səhrada otlayır və onun kol-kosu ilə dolanırdı. Bir tikan koluna rast gəldi; gözəllər zülfü tək təravətli, sevimlilər üzü tək məlahətli idi. Boynunu uzatdı ki, kolun boynunu üzsün, gördü ortasında bir əfi ilan yatıb, elə

qıvrılıb ki, başı quyruğuna çatıb. Geri döndü və onu yeməkdən əl çəkdi. Kol elə güman etdi ki, dəvənin fikrini dəyişməsi onun tikanlarından qorxması, iynələrinin ona batmasıdır. Dəvə bunu duyub dedi: «Mənim qorxuma səbəb qonaqçının aşkar tikanı deyil, bəlkə də o gizlənmiş qonaqdır, tikanın vuracağı yaradan deyil, ilanın dişindəki zəhərdən qorxdum, dərdini çəkməsəydim, qonaqçını bir tikəyə yeyərdim».

**Qitə**

Nanəcib adamdan qorxarsa nəcib,
Canından qorxmur o, hörmətdən qorxur.
Hər kəs kül üstünə ayaq qoymursa,
Altında gizlənən atəşdən qorxur.

## XATİMƏ (SON)

Ürəyimə damır, fikrimdə dolanır ki, bu kitab qurtarana oxşamır; xəyal düşünməkdən, qələm işləməkdən yorulmur. Lakin yazanın təb güzgüsünü yorğunluq pası basdığından, oxucunun mərhəmət əli onu cilalandırmadığından, burada dayanmağı məsləhət bildim.

Ey Cami, aç sözün büsatını sən
Ki, sözdən daha xoş bir büsat yoxdur.
Lakin xamuş olub sakitcə otur,
Əgər bu halətdə bir nişat yoxdur,
Təbində şadlığın nə mənası var,
Əgər bu məclisdə qəlbi şad yoxdur.

Burda deyilən şeirlər, nağıl edilən hekayələr başqalarının adından deyilməyibsə, bu kitabı yazanın öz fikrinin məhsuludur.

**Rübai**

Cami ki, hər yerdə bir əsər yazsa,
Heç kəsdən sözü borc almağa getməz.
Kimin ki, dükanda öz malı çoxdur,
Özgənin malına dəllallıq etməz.

Mən oxucuların alicənablığına bel bağlayıb ümid edirəm ki, bir nöqsan görsələr, mərhəmət göstərib ona göz yumacaqlar, rüsvay etmək üçün ağızlarını açıb dillərini işə salmayacaqlar...

**Bu kitabın yazılma tarixi haqqında**

Bu gözəl əsərdə qələm gəzərkən,
Cami öz təbini sınadı gözəl.
Bitməkdə tarixin bilmək istəsən,
Səkkiz yüz doxsanın üstə iki gəl!

## BİRİ KÖNÜL AÇAN, BİRİNDƏN ZƏHLƏ QAÇAN İKİ NÖV ŞEİRİN TƏRİFİ VƏ XÜSUSİYYƏTLƏRİ

*(«Qızıl zəncir»dən)*

Şeir – zəka bülbülünün təranəsi deməkdir,
Əbədiyyət mülkünün nişanəsi deməkdir.
Hansı quş heyran edər cəhcəhiylə hər kəsi?
Gəlsə, güllükdə səsi, yoxsa küllükdə səsi?
İlham gülüstanından gələn avazdır şeir,
Könülləri oxşayan ətirli yazdır şeir.
Sirli qapılar açar, zəfərlərə səsləyər,
Ruhu qanadlandırar, qəlbi kamla bəsləyər.
Şeir də var, elə bil odlu şəhvət kürəsi,
Tüstülü atəşini nəfəsə püskürəsi,
Eşidəni bezdirər – yalvarışı, lağ-lağı,
Möhnətə, dərdə salar, nəşəyə qatar ağı.
Məzmuna uyğun olsa mənaca sözü şeirin,
İncə, zərif duyğudan yoğrular özü şerin
Şöhrəti ucalaraq kainata yayılar,
Şair sənət mülkündə, yer üzündə sayılar.
Məna, məzmun qaranlıq, hədəfdən kənar olsa,
Ürəyi bulandırıb, ədəbdən kənar olsa,
Xiridarı tapılmaz, – ömürlük göz dağıdır,
Vay şairin halına, – töhmət, üz danlağıdır,
Şəffaf bulaq suyu tək saf gərək, gözəl şeir,
Hər sözü inci gərək, dürr gərək, qəzəl-şeir.
Parıltısı saf suda şölə saçar incinin,
Şöləsi büllur kimi könül açar incinin.
Suyu olsa bulanlıq – qaynar, sərin çeşmənin, –
Dibini görmək olmaz dayaz, dərin çeşmənin.

İnci gəzmək əbəsdir – bir çeşmə ki, durulmaz,
Onun suyu bəlkə də əl-üzə də vurulmaz.
Belə şeirin qəlizdir həm məzmunu, həm sözü,
Qaranlıq mənasından qaralar insan gözü.
Hər sözdə düşünəsən haçanacan mənanı?
Ürəyin qana dönər açanacan mənanı.

## İSGƏNDƏRİN ƏHALİSİ XOŞBƏXT HƏYAT SÜRƏN BİR ÖLKƏYƏ YETİŞMƏSİ

***(«İsgəndərin müdrikliyi»ndən)***

İsgəndər dolaşdı bütün dünyanı,
Sandı gəzib-görüb artıq hər yanı.
Nəhayət, yetişdi elə bir yurda,
Gördü gözəl tayfa sakindir burda.
Boş danışıqlara susmuş dodaqlar,
Pisliyə bağlanıb gözlər, qulaqlar.
Hər iş qaydasında, arada birlik,
Nə ağalıq vardır, nə də əsirlik.
Bu yerdə nə varlı, nə yoxsul vardır,
Hakim nə əmirlər, nə sultanlardır,
Var da bərabərdir, mal da bərabər.
Hamıda güzəran, hal da bərabər.
Qəhətlik sezilməz, gözləri toxdur,
Sülh kitablarında «hərb» sözü yoxdur.
Hamı bir-birindən olur bəhrəmənd,
Evlərdə nə qıfıl, nə kilid, nə bənd.
Hər evin önündə boş bir məzar var,
Görənin qorxudan bağrı yarılar.
İsgəndər heyrandı bu vəziyyətə,

Qəbirlər qazılıb hansı niyyətə?
Əvvəlcə soruşdu: «Söyləyin barı,
Sağ ikən nenirsiz bu məzarları?»
Dedilər: «Məzarı qazmışıq, düzü,
Başa vuranacan öz ömrümüzü
Ağzı açıq görək böyükləri biz,
Ölümə ibrətdir böyüklərimiz.
«Ağızlar», söyləyir belə kəlamı:
«Hər açıq ağıza» bir dildir hamı».
Dişsiz ağız kimi baxırıq gora,
Dil tək düşəcəyik bir zaman ora.
Dilik, bizə zindan olar hər «ağız»,
Kərpiclər diş olar, dolar hər «ağız».
Şah dedi: «Qıfılsız qapı tapılar?
Oğrunu çağırar açıq qapılar».
Dedilər: «Bu elin oğrusu yoxdur,
Oğurluq eləyən doğrusu yoxdur.
Hamı bir-birinə sadiqdir burda,
Torpaq tək sakitlik hakimdir yurda.
Bircə arpa əksən burda yerə sən,
Axırda yeddi yüz sünbül dərərsən».
Şah dedi: «Var-dövlət üstə obada
Heç vaxt aranızda düşmür dava da?»
Dedilər: «Peşəsiz bir kimsə yoxdur,
Gözümüz, könlümüz həmişə toxdur.
Qovğasız yaşayır burda hər adam,
İxtilaf qılıncı qındadır müdam».
Yenə də heyrətlə dedi hökmdar:
«Niyə padşahsızdır bu sakit diyar?»
Dedilər: «Hökmdar – zülmə görədir,

Kim kimə zülm edir, fitnə törədir?!
Ədalət – qızıldır, zülmdür – meyar,
Zalımsız nə lazım adil hökmdar!»
İsgəndər soruşdu: «Neçin burada
Bir varlı, dövlətli yoxdur arada?»
Dedilər: «Səxavət sahibi comərd,
Qızıl, gümüş üçün çəkərmi heç dərd?
Dünyada hərislik yaddır bizlərə,
Hərislər can atar gümüşə, zərə».
Şah dedi: «Hamıya vacibdir yemək,
Aclıq, qəhətlik də bilmirsiz, demək?»
Dedilər: «Hər zaman tapılar çörək,
Günah etmirik ki, aclıq da görək.
Çox da ki, yerimiz dağ-daşdır, koldur,
Ruzi-nemətimiz əzəldən boldur».
Şah dedi: «Yenidir bu dəb, bu adət,
Haçandan nəsibdir belə səadət?
Atadan-babadan qalıb bu nemət?
Haradan yetişib belə qənimət?»
Dedilər: «Bu adət bu elə xasdır,
Ulu babamızdan bizə mirasdır.
Olanı-qalanı deyirik biz də,
Atalar əkibdir, yeyirik biz də».
İsgəndər söhbəti bəyəndi yaman.
Geriyə qayıtmaq istəyən zaman
Bir dərzi köşkünə yanaşdı bu dəm.
Gözləri qamaşdı, şah çaşdı bu dəm,
Gördü kəsib könül sapını dərzi,
Unudub aləmi, unudub ərzi.
Şöhrət libasını kişi atıbdır,

Başını iynə tək işi qatıbdır,
Cahillər əlindən qurtarıb canı,
Sənət sahibidir, pakdır vicdanı.
İsgəndər dedi ki: «məşğulsan yaman,
Xəbər tutmamısan şah gələn zaman.
İti olmalıydı cəhdin iynədən,
Sap kimi boynunu əymədin nədən?
Dərzi söylədi ki: «bir sənətkaram,
Şöhrətə uymaqla olmayıb aram.
Cəlalın ucadır, qibtəm yox şaha,
Niyə hüzurunda baş əyim daha?!
Qızıl, gümüşünə qul olmaram mən,
Qapıda ilan tək qıvrılmaram mən.
Bir zaman iki şəxs kəsdi səsini, –
Can quşu tərk etdi öz qəfəsini,
Biri öldü taxta, taca baxmadan,
Birisi köç etdi kasıb daxmadan.
Birinin kəfəni xəz ilə xara,
Birini bükdülər nimdaş paltara,
Əlvida dedilər bu puç saraya,
Qoydular onları bir mağaraya.
Keçdi bu ölümdən neçə gün, bəli,
Getdim o kahaya qəmli, qüssəli,
Gördüm cəsəd üstə yoxdur dəri də
Büsbütün qarışıb sümükləri də.
Sükuta qərq oldum, nə səs, nə səda,
Bilmədim hansı şah, hansıdır gəda.
Üşütmə, gizilti çökdü canıma,
Vəhdət son qoydu həyacanıma...»
Şah ona dedi ki: «ey müdrik qoca,

Mənsəbdə hamıdan ucasan, uca!
Görürəm hər işdən xəbərdar səni,
Gəl, qoyum bu elə hökmdar səni».
Dərzi iltifatla söylədi belə:
«Nə gəlib peşəmə, qabarlı ələ?!
Bir əba bəsimdir – hər zaman geyim,
Nə gərək zər-xara, beş günlük geyim?
Bir lütə bağışla – xələti, tacı;
Burovuz xələtin deyiləm möhtacı».

## QİTƏ

Dişinlə didərək poladı əzmək,
Dəmir dırnağınla qayanı kəsmək,
Başınla od dolu kürəyə girmək,
Kirpiklə kürədə atəş süpürmək,
Yüz dəvə yüküylə bel bükə-bükə,
Dünyanı dolaşmaq tər tökə-tökə, –
Asandır Camiyə, inan buna sən,
Alçaq adamlardan minnət çəkməkdən.

## NİMA YUŞİC



XX əsr «yeni fars şeirinin atası» Nima Yuşic (1895-1960) zəngin bədii irsə sahib olmuşdur. Nima Yuşic 40-50-ci illər İran şeirində modernizmin aparıcı siması kimi yeni şeir hərəkatına (şer-e nou) başçılıq etmişdir. Görkəmli Azərbaycan şairi M.Şəhriyar ilə Nima Yuşic arasında yaradıcılıq əlaqələri olmuşdur.

## DUSTAQLAR

Yüz səksən dərəcə ağzını açmış
İyrənc əjdahaya bənzəyir zindan.

Elə ki, beş dəfə çalındı zəngi,
Dörd sərbaz göründü qapı ağzında.

Zülmətin, zillətin keşikçiləri
Fanar işığında girdi içəri.

Dustaqlar göründü yenə, dustaqlar,
Beton döşəmədə yalın ayaqlar.

Çoxu fikirlidir, qəzəbi qında,
Dirsəyi dizində, başı ovcunda.

Üzünü tük basmış, üst-başı cırıq,
Evindən xəbərsiz, susuz, ac, arıq.

Məhbusun görəsən nə imiş suçu?
Tükənib çoxunun qüvvəti, gücü.

Biri yava gülüb, ağzı yekədir,
Biri ac... tox üçün ac təhlükədir.

Biri ayağını düzgün atmayıb,
Biri ayıq, sayıq... beyni yatmayıb.

O biri büdrəyib mübarizədə,
Susmayıb ədalət məhkəməsində.

Tutub hamısını basıblar dama,
Layiq görülüblər qanlı edama.

Dörd sərbaz, dörd ölüm, dördqanlı cida,
Dörd canavarmıdır qapı ağzında?!

– Kimin növbəsidir? – bağırdı biri,
Açdı əlindəki cındır dəftəri.

Dustaqlar müxtəlif. Biri mərd, məğrur,
Birisi sərbazın əlindən tutur.

Birinin gözləri bağırır bar-bar,
Biri düşünür ki, ey pərvərdigar!

Sənin özün boyda kəramətin var.
Evdə acdı balam...
Kobud, acıqlı
Bir sərbaz qışqırdı: – Ey gözü bağlı!

Kərəm! Bəs bayıra dinməz-söyləməz,
Saçınla, başınla oynama əbəs.

Növbə sənindir!
İkinci sərbaz
Ondan da eybəcər, yekəpər, qanmaz...

Qışqırdı: – Vaxtındı, ey quldurbaşı!
Hərzə adamlara ölüm yaraşır.

Çırağı qaldırdı üçüncü sərbaz:
– Ey qaçmaq fikrinə düşən yaramaz!

Dördüncü ağzını açmamış hələ
Küncə qısılmışı sərt nəzərilə

Döydü, qamçıladı.
Kədər övladı –

O gənc sümük üstə çəkilmiş dəri,
Nə papağı vardı, nə də kəməri.

Didik paltarları qandan ləkəli,
Baş-gözü sarğılı, üzü kölgəli.

...Ancaq məhkəmədə boy atdı Kərəm.
Qeyzilə İranı oyatdı Kərəm.

İldırım sözləri, vüqarlı çiyni
Sıxdı hakimlərin cır ürəyini.

Onu dinlədikcə bərəldi gözlər,
Qırışdı sifətlər, tutuldu üzlər.

Biri qışqırdı ki: – Kəs səsini, sus!
Biri «Cani!» dedi, o biri «Yolsuz!».

Biri bağırdı ki, ağzın qurumsaq,
Bura məhkəmədir, aç gözünü, bax.

Hakim öyüd verdi: – Sözə qulaq as,
Qanun qarşısında dartışmaq olmaz.

Kərəmin nəfəsi şimşək, yanar dağ,
Səsindən qəsrlər titrədi zağ-zağ.

– Hakim! Azdır macal... ömür tez ötür,
Çəhrayı çeşməyi gözündən götür!

Məni görə bilsən, ər oğlu ərsən,
Düşmən yox, özünə qardaş bilərsən.

Məndən gözləməyin şərə baş əyəm,
Mənim bənzərim yox bu zəmanəyə.

Acam, yalavacam, möhtacam, lütəm,
Fəqət hamınızdan üstün qüdrətəm.

Mənim gücsüzlüyüm, sizin gücünüz...
Görün kim dürüstdü, kimlər nadürüst?

Mən yalqız... yaraqsız... yaralı... xəstə,
Fəqət dayanmışam buludlar üstə.

Asıb kəsdiyiniz, öldürdüyünüz
Yüz-yüz günahsızın ruhu, canıyam,

Gizlicə tökülən aşkar qanıyam,
Hələ alınmamış intiqamıyam.

Yalın ayağımın bir tozu belə
Safdır o ləkəli şahlar tacından.

Asın ən dəhşətli dar ağacından,
Öləndən sonra da diriyəm, sağam.

Yüz səksən dərəcə ağzını açmış
Əjdaha zindanı mən yıxacağam!

Heç bir diləkçəm yox burda heç kimdən,
Mədəd öz ruhumdan, öz mənliyimdən!

## NADİR NADİRPUR



Nadir Nadirpur müasir İran şeirinin tanınmış nümayəndəsidir. O, 1929-cu ildə anadan olmuşdur. İranda yeni fars şeirinin (şer-e nou) formalaşma və inkişafında böyük xidmətlər göstərmişdir. Yaradıcılığına Qərb poeziyasının təsiri yüksək olmuşdur. «Cam qızı», «Gözlər və əllər», «Üzüm şeiri» adlı kitablarında modernist ruhda yazılmış şeirlər üstünlük təşkil edir.

## ATA

***(Doğulmamış ölən bir körpənin nəğməsi)***

Bir gün səni bağrıma
basacam, şirin balam!
Mışıltına hey qulaq
asacam, şirin balam!
Bələyinə səpəcəm
göz yaşımı sevincdən,
Qığıltın oynadacaq
göz-qaşımı sevincdən.
Fərəhlə tərpədəcəm
beşiyini gecələr,
Lay-lay deyib çəkəcəm
keşiyini gecələr.
Əllərim oxşayacaq,
gəzəcək yanağında,
Gözümün qətrələri
əsəcək yanağında:
gözü yaşlı çöhrəni,
baxışı görmək üçün,
Gözündəki buludu,
yağışı görmək üçün.
Güldürəcəm: gülüşün
kədəri boğsun deyə,
baharın al günəşi
üzündə doğsun deyə.
Əllərinin oyunu
Bir tamaşa gözümdə,
Nur damarlı qolundan

Kaş qamaşa gözüm də.
Süd qoxusu duyduqca
necə də xoş olacam,
Aldığım bu nəşədən
bəlkə sərxoş olacam.
Gözümün aynasında
nurlanacaq nurlu Ay,
Şölə saçan çıraq tək
gur yanacaq nurlu Ay.
Gözlərində görəcəm
fələklərin rəngini,
Sübhün tavusundakı
lələklərin rəngini,
İsidəcək əlimi –
isti ocaq ürəyin,
Bir sərçə sinəsitək
uçunacaq ürəyin.
Oxşadıqca şadlıqdan
yanacaq canım mənim,
Barmağının ucunda
Coşacaq qanım mənim.
Hər nəvaziş – xumarlıq,
işıltı, duyğu sənə,
Məst edib layla çalar –
mışıltı, uyğu sənə.

Kirpiyinin kölgəsi
Gül yanağa düşəcək,
Ananın gur saçları
sola-sağa düşəcək.

Mənim kimi duracaq
keşiyində anan da,
sənə nağıl deyəcək
beşiyində anan da.
Qucağında ovudar
Ən şirin duyğu səni,
Laylasından məst edər
ən şirin uyğu səni.
Günlər ötüb ay olar,
aylar dönüb il olar,
Ananın əzabları
qəlbinə nisgil olar.
Aylar, illər ötüşər
sən yaşa dolanacan,
Ata dərdi bilməzsən
bir ata olanacan.

## ÜZÜM ŞEİRİ

Deyirsiniz
bal şəhdidir
Bu üzümün giləsindən
daman şirə?
Nə şirədir,
nə də baldır,
Göz yaşıdır
haman şirə.
Onu şirə
sanan kəslər
Nə avamdır, nə naşıdır!
O, ixtiyar

bir bağbanın
alın təri, göz yaşıdır.
Qoca bağban
yorğunudur –
bağ yolunun
Sübhə qədər
ağrısından yatmayıbdır
əl-qolunun
hər tənəyə
su verməyə uzanıbdır
neçə kərə beli onun.
Qatladığı barmaqlar tək
iki qatdır beli onun.
Gözlərinin işığını
bağışlayıb –
işıq saçan hər giləyə.
Ürəyinin al qanını
Hopdurubdur –
hər salxımda tər giləyə.
Deyirsiniz
bal şəhdidir
bu üzümün giləsindən
daman şirə?
Nə şirədir,
nə də baldır,
Qızıl qandır, –
haman şirə.
Ona qoca bir bağbanın
ürək qanı deməlisiz.
Bu hikməti

duymalısız
deməli, siz,
Bu hikməti duya-duya
hər salxıma
əl uzadıb,
hər giləni yeməlisiz.
Siz ey mənim
hər sözümün,
hər şeirimin öz sərrafı,
Yaxşı bilir söz sərrafı
İncə-zərif
kəlamlarım –
Gilələrin düzümüdür.
Şölə saçan
şeirlərim –
parlaq, nurlu salxımların
şirə dolu üzümüdür.
Onu şərab,
ya da ki bal
Sanan, məncə, bir naşıdır.
hər kəlamım –
ürək qanı,
hər bir sözüm – göz yaşıdır.
Şərab ətri gələrmi heç
Göz yaşlarım,
ürək qanım
hopan sözdən?
Siz şeirimin nəşəsindən
sərxoşsunuz,
xumarsınız.

Əbəs yerə
mey nəşəsi
umarsınız, –
ürəyimdən
qopan sözdən.
Ürəyimin al qanıdır
məst eləyib belə sizi.
hər sözümə,
hər şeirimə
hopan qanım
məst edəcək hələ sizi.
hər sözümü,
kəlamımı
dərdli könlün
fəryadı bil!
hər şeirimin həyəcanı
tələtümlü
nəşə nəhri,
qızıl qandan dalğalanan
dəryadı, bil!
Beçə balı sanmaq nədir?
hər giləsi – ürək qanı
olan üzüm
san sözümü,
Beçə balı sanmaq olmaz,
Söz bağbanı olan gündən
salxımdakı
gilə kimi doldurubdur
qəlbimdəki qan sözümü.
Dodağınız hər giləyə,

dişləriniz hər salxıma
asanlıqla toxunmasın,
Şeirim asan oxunmasın.
Zaman-zaman gəzəcəkdir
eldə şeirim.
Qanla dolu
piyalədir
əldə şeirim.

## QƏZƏB MAHNISI

Qoca dəmirçilər... Əllər çəkicli...
Günəş qarsalayır, – üzləri yanır.
Zülmətin şöləli ulduzları tək
İnqilab eşqiylə gözləri yanır.

* * *

Hər çəkic qəzəblə enir zindana,
Fəryad lərzə salır sağır gecəyə.
Aydan şadlıq nuru yağır gecəyə.

* * *

İldırım şaxıdır göy allahları,
Şimşək qılınclayır sakit düzləri.
Qisas alovuna bürüyür şəfəq,
Köləlik odundan yanan üzləri.

* * *

Dilsiz əsrlərin kini-qəzəbi
Əsri qisasamı de, səslər indi?
Şəhidlər od salıb neçə ürəyə,
Od-alov püskürür nəfəslər indi.

* * *

Qonub dodaqlara qəzəb mahnısı,
Ürəklər qorxuya bürünür daha.
Bu ağır gecənin astanasında
Simasız kölgələr sürünür daha.

Şəfəqlər – alaydır, günəş – sərkərdə,
Müjdələr yayılır qanlı səhərdən.
Qəzəb çınqıları yağır gözlərdən,
Fəryad baş götürüb qaçır şəhərdən.

Bu zülmət gecənin məhşər odunda
Ölümün heykəli kül olur yerdə,
Üfüqün qəlbində yanan tonqalda
Gecənin kölgəsi tül olur yerdə.

* * *

Köləlik zənciri parçalanıbdır, –
Külək zəfər marşı çalır düzlərdə.
Qoca dəmirçilər... əllər çəkicli...
Azadlıq günəşi gülür gözlərdə.

## FÜRUĞ FƏRRUXZAD

Füruğ Fərruxzad 1934-cü ildə Tehranda anadan olmuşdur. 33 illik ömrünün təxminən 10 ilini bədii yaradıcılığa həsr etmişdir. Qadın şairə kimi bir sıra ictimai-siyasi problemlərlə yanaşı, qadın azadlığı məsələlərinə daha çox münasibət bildirmişdir. «Əsir», «Divar», «Üsyan» və s. şeir kitabları çapdan çıxmışdır.

Füruğ Fərruxzad 1967-ci ildə avtomobil qəzası nəticəsində dünyasını dəyişmişdir.

## BACIMA

Bacım, qalx ayağa, azad ol daha,
Susma, tapdatma vicdanını sən.
Qalx, səadətinə axtar yol daha,
Cəllad kişilərin iç qanını sən.

* * *

Sən öz hüququnu gözlərinə sox, –
Aslan hünərini danan kəslərin.
Varına, puluna dikmə gözünü, –
Səni ev dustağı sanan kəslərin.

* * *

Söylə, haçanacan şəhvət əsiri, –
İşrət yatağına salacaq səni?!
Söylə, haçanacan bir kəniz kimi
Ağalar satacaq, alacaq səni?!

* * *

Söylə, haçanacan sən çörək üçün,
Siqə olacaqsan kaftar hacıya?!
Üstünə günülər alan qurumsaq
Mümkünmü halına yana, acıya?!

* * *

Nifrətə, qəzəbə çevrilsin səsin,
Uyma iniltiyə, fəryada daha.
Büllur qollarından zəncirləri at,
Gəmin yelkən açsın dəryada daha.

* * *

Uçur təməlindən zülmün evini,
Dönməsin sitəmdən qana ürəyin.
Dəyiş qanunları, azadlıq qazan,
Qoy azad döyünsün ana ürəyin.

## SƏNƏ YAZIRAM BU ŞEİRİ

Mən sənə yazıram bu şeiri, sənə,
Qızmar yay günündə, günəş batanda.
Talesiz ömrümün yarı yolunda
Sonsuz əzablarım sona çatanda.

* * *

Sonuncu laylamdır, son təranəmdir,
Beşiyin başında oxuyuram mən.
Gənclik səmasının kəhkəşanına
Bir ulduz çələngi toxuyuram mən.

* * *

Sərsəri kölgəmə yaxın düşməsin,
Qoy uzaq dolansın kölgən də sənin.
Tanrı şahid olub görüşümüzə,
Doğmanı yad edən ölkəndə sənin.

* * *

Bir zülmət otağın astanasında,
Qaşlarım fikirdən kaman qapıda.
Soyumuş, incəlmiş barmaqlarımı
Ümidim gəzdirir haman qapıda.

* * *

Danlaq yarasından şan-şandı sinəm,
Dözdüm tənəsinə yadın dünyada.
İstədim həyatda öz səsim olsun,
Əfsus ki, qadındım qadın, dünyada.

* * *

Oxusan, görərsən necə sökülüb
Söz üstə könlümün sarayı mənim.
Zamanın zülmünə üsyan səsidir
Qəlbimin fəryadı, harayı mənim.

* * *

Burda görən kimdir nurlu ulduzu,
Mələyin hüsnünü danandı hamı.
Burda məryəmgülü açan qönçəni
Bir səhra tikanı sanandı hamı.

* * *

Burda kəsib yolu, bəndi bərəni
Böhtan, riyarkarlıq, yalan divləri.
Doğramır şimşəklər – odlu qılınclar
Günəşi tilsimə salan divləri.

* * *

Yenə bulud kimi dolum-boşalım, –
Gözümdə şəbnəmlər gözə görünsün.
Yırtdım hicabları bir qadın kimi, –
Müqəddəs Məryəmlər gözə görünsün,

* * *

İsmət sahilindən uzaqlaşmışam,
Nəğmələr tufana dönüb sinəmdə.
Zindanda çırpınan əsirəm, əsir,
Qəzəbim alışıb, sönüb sinəmdə.

* * *

Bir zülmət otağın astanasında
Qaşlarım fikirdən kaman qapıda.
Soyumuş, incəlmiş barmaqlarımı.
Ümidim gəzdirir haman qapıda.

* * *

Zahidlər araya alıblar məni,
Gözümü dünyaya açandan bəri.
Elimiz, obamız, ay şirin balam,
Şeytan yuvasıdır haçandan bəri.

* * *

Bir gün qəmli-qəmli oxuyan zaman,
Demə yazıb hansı yazıq bu şeiri.
Şeirimdə duyarsan ana qəlbimi,
Deyərsən: öz anam yazıb bu şeiri.

# RZA BƏRAHƏNİ

## SÖZ

Mən daim qapalı ağızla hayqırıram,
fəqət  siz daim açıq qulaqlarla
dinləyirsiniz mənim hayqırtılarımı.
Qulaq və ağız arasında bütünləşir
mənim hayqırtılarım.

## 39-CU AĞAC

Ağaclar
Yüksək
şəhərin bütün qurşun adamlarından
yüksək
şəhərin butun qurşun divarlarından
yüksək

ağaclar
yüksək

və sən
meşənin bütün ağaclarından daha yüksək
yaşıllaşdın
məndə
və indi mən sənəm
mən bir ağacam
dünyanın bütün ağaclarından yüksək.

## KƏPƏNƏKLƏRƏ

Yaşıl sərvilərinizin saraylarından
keçərdi gecəm-gündüzüm mənim,
keçmişin və gələcəyi canından
keçmiş kəpənəkləri,
aylarımı göylərdən, mövsümlərdən
və sevdalı çardaqlardan çalan haramilər
indi təslim olmaqdadırlar,
budur, baxın! Mən gənc timsahların
sürüsüylə yan-yana üzməkdəyəm,
okean balıqlarının pullarının
fənəri görüş meydanındadır
yüz minlərcə köpək balığının
səmavi otlağında aləmin
qızıl su burulğanlarını  oynadıram,
və qızılbalıq nərdimanları gözlərimdən
daim gözəl yolçuları yeni kəşflərimin
qalaktikalarına gətirirlər,
səma yarasaları bitməyən zaman
qaranlığında dönməkdədilər
fəqət mən yeni bir göy yaratmışam
gənc günəşlərin eşqindən
bulud sahilindən ikiyə bölünmüş balıq keçən
sapsız bir Zülfüqar kimi
gözlərim görmüşdür, hamısını
görmüşdür,
aylarımı göylərdən, mövsümlərdən
və sevdalı çardaqlardan çalan haramilər
indi təslim olmaqdadırlar,

yaşıl sərvlərinizin saraylarından
keçərdi gecəm-gündüzüm mənim,
keçmişin və gələcəyin canından
keçmiş kəpənəkləri
insanların gözündən bir gün
o rum tanrısı kimi gizlənəcəyəm,
yaxud da vətəndaşım Şəms kimi
qorxulu, gizli və sırtıq
bir davada öləcəyəm
açıq gözlərlə durun durub
baxanların səfində:
gənc timsahların sürüsüylə yan-yana
üzməkdəyəm
gözlərim görmüş, hamısı görmüşdür.

## ƏHMƏD ŞAMLU İLƏ

Qaranlığın sahilində əllərini
çiyinlərə atmış iki kölgə—sənlə mənimki
səhnədə qalmışıq və salon boşdur,
və səhnə arxasından ağlağan uşaqlar boylanırlar
pərdə nə zaman əvvəlki vəziyyətinə düşəcək deyə,
iki kor müğənni əskidən ağac olan
bir banka yaxınlaşır,
və telli sazlar ilk saatlarında uyuyurlar
axşamın elə bu qədər.
Sənlə mən əllərimiz çiynimizdə,
sahilində qaranlığın
və pərdə nə zaman düşər əvvəlki
vəziyyətinə.

## SÖHRAB SİPEHRİ



Söhrab Sipehri 7 oktyabr 1928-ci ildə İsfahanda sənətkar ailəsində anadan olmuşdur. S.Sipehri müasir modernist fars şeirinin inkişafında böyük rol oynamışdır. O, rəssam kimi həm İranda, həm də ölkə hüdudlarından kənarda tanınmışdır. İlk şeirini 18 yaşında yazmışdır. Orta təhsilini başa vurduqdan sonra Tehranda texnikumda oxumuşdur. Bir müddət Kaşanda müəllim işləmişdir. Söhrab Sipehri 1948-ci ildə Tehran Universitetinin incəsənət fakültəsinə daxil olmuşdur. 1951-ci ildə «Rəngin ölümü» adlı ilk şeirlər kitabı çapdan çıxmışdır. 1953-cü ildə «Yuxuların həyatı», 1961-ci ildə isə «Günəşin qəlpələri» adlı işıq üzü görmüş kitabları şairə şöhrət qazandıra bilmişdir. 1961-ci ildə Tehranda onun rəsm əsərlərinin sərgisi keçirilmişdir. Və bu sərgi Sipehriyə bir modernist rəssam kimi marağı daha da artırmışdır. Əsərləri Fransa, ABŞ, Braziliya, İsveçrə və digər ölkələrdə sərgilənmişdir. 1962-ci ildə o, döv-

lət qulluğundan könüllü olaraq uzaqlaşmış və ömrünü bütünlüklə yaradıcılığa sərf etmişdir. 1968-ci ildə çap olunan «Yaşıl həcm» kitabı İranda rəğbətlə qarşılanmış və şairin poetik imkanlarının böyüklüyü bir daha təsdiqlənmişdir. Söhrab Sipehri sənəti müasir İran şeirində özünəməxsus fərdi üsluba malik yeni poetik sistemin nümunəsi hesab olunur. Bu sistem daxilində Sipehri şeirin assosiativ təsir gücünü artırmış və məzmunca səviyyəsini yüksəltmişdir.

Söhrab Sipehri 21 aprel 1981-ci ildə xərçəng xəstəliyindən vəfat etmiş və Kaşanın Ərdəhal kəndində – ata yurdunda dəfn olunmuşdur.

## RƏNGİN ÖLÜMÜ

Gecənin qaranlığında
səssizcə bir rəng ölüb.
Uzaqlardan gələn bir qara quş
məğlubiyyət gecəsinin damında
oturub oxuyur.
Qələbədən məstdir bu quş –
bu qəm vurğunu.

Bu rəngin ölümüylə
hər ahəngin ipi qırılıb.
Yalnız qorxusuz bir quşcuğaz
adi sükutun qulağından
fəryad sırğası asır.

Uzaqlardan gələn bir qara quş
məğlubiyyət gecəsinin damında oturub –
daş kimi, hərəkətsiz.
Beynindəki qarışıq surətlərin üzərində
sürüşür gözləri.
Qəribə bir yuxu incidir onu:
gecənin torpağından rəng gülləri boylanır.
Səhər yelinin ayağı
ətir yollarında burxulur.
Bu quş, bu qəm vurğunu
hər an hiylə işlədib
dimdiyilə bir şəkil çəkir.

Bağlar qırılıb,
yuxular pozulub.
Yerin röyaları
rəng güllərinin açması nağılını
yaddan çıxarıb.

Bu yoldan səssiz keçmək gərək:
bu zülmət gecənin qucağında bir rəng ölüb...

## QÜRUBA DOĞRU

Qürubun qırmızısı
çöküb daşların üstünə.
Dağ susur.
Çay çağlayır.
Düzənliyin ətəyində
göy rəng xırman bağlayır.

Kölgə kölgəyə qarışır.
Daş daşa bitişir.
Günün yorğun yolçusu yoldan keçir:
gözləri bir təbəssüm ardınca
bir kədər naxışı biçir.

Bayquş ucadan ulayır.
Quzğunlar ağır-ağır,
havadan enir bir-bir:
düzənlikdə qalmış leşin
gözlərini dimdikləyir,
onun alnından aşağı
iki göy çuxur baxır.

Qaranlıq çökür.
Düzənlik sakitləşir.
Günün rəngli nağılı
öz sonuna yetişir.

Budaqlar dalğın.
Daşlar solğun.
Çay ağlayır.
Bayquş ulayır.
Qürubun rənginə qəm qarışır.
Dodağımdan soyuq nağıl axır:
qürubun qəfəsi könlümü sıxır.

## NİLUFƏR

Yuxumun sərhədindən keçirdim,
bir nilufərin qara kölgəsi
bu viranəni büsbütün bürümüşdü.
Görən hansı dəli külək
bu nilufərin toxumunu
mənim yuxumun torpağına gətirdi?

Röyaların şüşə qapıları arxasında,
aynaların dibsiz bataqlığında,
özümün bir parçamı öldürdüyüm hər yerdə
bir nilufər bitmişdi.
Elə bil hər an içimə yeriyirdi
və mən
onun açmasının sədası altında
hər an özümü öldürürdüm.

Eyvanın damı uçulur,
nilufərin gövdəsi sütunlara sarılır.
Görən hansı dəli külək
bu nilufərin toxumunu
mənim yuxumun torpağına gətirdi?

Nilufər böyüdü,
Gövdəsi şəffaf röyamın dibindən boy atdı.
Mən yuxuda olanda
oyaqlıq seli özünü yetirdi.
Gözlərimi açıb yuxumun viranəsinə baxdım:
nilufər bütün həyatıma sarılmışdı.
Onun damarlarında axan mən idim,
vücudu məndə kök salmışdı,
büsbütün mən olmuşdu.
Görən hansı dəli külək
bu nilufərin toxumunu
mənim yuxumun torpağına gətirdi?!

## QÜRBƏT

Ay kəndin başı üstündədir,
kənd əhlisə yuxuda.
Bu Aylı gecədə qürbət kərpicini qoxlayıram.
Qonşu bağda çıraq yanır,
mənim çırağım sönüb.
Ay xiyar boşqabına, su kuzəsinin boğazına işıq salır.

Qurbağalar oxuyur.
Arabir bayquş da.

Dağ mənə yaxındır: ağcaqayınların, iydələrin arxasında.
Və düzənlik görünür.
Daşlar görünmür, çiçəklər görünmür.
Uzaqda kölgələr görünür – suyun tənhalığı kimi, Tanrının avazı kimi.

Gecə yarısı olmalıdır.
Odur Böyük Ayı bürcü: damdan iki qarış yuxarı.
Səma mavi deyil, gündüz mavi idi.

Yadımda olsun ki, sabah gedib Həsənin bağından alça və ərik alım.
Yadımda olsun ki, sabah sallaqxanada keçilərin şəklini çəkim.
Süpürgələrin, onların sudakı kölgəsinin şəklini.
Yadımda olsun ki, suya düşən kəpənəkləri tezcə sudan çıxarım.
Yadımda olsun ki, yerin qanununa zidd bir iş görməyim.
Yadımda olsun ki, sabah arx qırağında qətfəmi sabunotuyla yuyum.
Yadımda olsun ki, tənhayam.

Ay tənhalığın başı üstündədir.

## BALIQLARIN SİFARİŞİ

Getmişdim hovuz başına,
tənhalığımın əksini görəm bəlkə.
Hovuzda su yoxdu.
Balıqlar dedilər:
«Ağacların suçu yoxdu.

Yayın qızmar günortasında
suyun işıqlı oğlu ayağını yumaq üçün
oturdu hovuzun qırağında
və Günəşin qartalı gəldi,
çəkib apardı onu öz caynağında.

Cəhənnəmə ki, almadıq sudakı oksigeni,
Pulcuqlarımızdan ildırım keçdi yəni.
Amma o böyük nur,
o qırmız qərənfilin sudakı əksi
– əgər külək gəlib görsəydi, hay salardı hər ağaca –
bizim gözlərimizdi –
cənnəti təsdiqləyən baca.

Sən titrəyən bağda Tanrını görsən, çalış
ona söylə ki, hovuzu susuzdur balıqların».

Külək çinara baş çəkməyə gedirdi.
Mənsə Tanrıdan soraq tutmağa.

## SUYUN AYAQ SƏSİ
**(poema)**

*Anamın sükut dolu gecələrinə bağışlayıram!*

Kaşanlıyam.
Güzəranım pis deyil.
Bir tikə çörəyim, azca ağlım, iynənin ucu boyda
zövqüm var.
Ağac yarpağından yaxşı anam,
axar sudan yaxşı dostlarım var.

Və bir də çox yaxında olan Tanrım:
Bu şəbbular arasında, o uca şam ağacının altında,
suyun aydınlığı üzərində, otun qanunu üstündə.

Mən müsəlmanam.
Qibləm bir qızılgül.
Canamazım – bulaq, möhürüm – nur.
Səccadəm – çöl.
Mən dəstəmazı pəncərələrin titrəyişilə alıram.
Namazımda Ay axır, bütün rənglər axır.
Namazımın sonunda daş görünür:
Namazımın bütün zərrələri büllurlaşır.
Mən namazımı o zaman qılıram ki,
külək bir sərv ağacının başında azan vermiş olsun.
Mən namazımı otların təkbiri,
dalğaların iqaməsi ardınca qılıram.

Kəbəm su kənarında,
Kəbəm akasiyaların altındadır.
Kəbəm meh təki bağdan-bağa, şəhərdən-şəhərə gedir.

«Qara daş»ım bağçanın işığıdır.

Kaşanlıyam.
Peşəm rəssamlıq:
Arabir rəngdən bir qəfəs düzəldib sizə satıram ki,
onun içinə salınmış lalənin nəğməsindən
tənha ürəkləriniz təzələnsin.
Bu nə sözdür, bu nə söz.... Bilirəm,

şəkilim cansızdır.
Yaxşı bilirəm, mənim rəsmimdəki hovuz balıqsızdır.

Kaşanlıyam.
Bəlkə əslim-nəsəbim
Hindistanda bir ota, «İpək yurdu»nda bir saxsıya bağlanır.
Bəlkə əslim-nəsəbim
Buxara şəhərindəki bir fahişəyə çatır.

Atam qaranquşların iki qayıdışı, iki qar yağışı arxasında,
atam adamların Aylı gecələrdə iki yatışı arxasında,
atam zamanların arxasında ölüb.
Atam öləndə səma mavi idi.
Anam heç nə bilmədən yuxudan diksinib ayıldı, bacım gözəlləşdi.
Atam öləndə bütün polis nəfərləri şair idi.
Baqqal məndən soruşdu: necə batman qovun istəyirsən?
Mənsə ondan soruşdum: xoş könülün bir misqalı neçəyədir?

Atam şəkil çəkərdi,
tar düzəldər və çalardı,
yaxşı xətti vardı.

Bağımız bilik kölgəsi düşən tərəfdəydi.
Bağımız hisslərlə otların düyünləndiyi yerdi,
bağımız baxış, qəfəs və güzgünün təmas nöqtəsiydi.
Bağımız bəlkə də səadətin yaşıl dairəsinin bir qövsü idi.
O günlər Allahın kal meyvəsini yuxuda çeynəyərdim.

Suyu fəlsəfəsiz içərdim.
Tutu biliksiz yığardım.
Bir nar partladımı, istək fəvvarəsinin əli olardı.
Bir torağay oxudumu, ürək dinləmək zövqüylə yanardı.
Arabir tənhalıq üzünü pəncərəyə söykəyərdi.
Şövq gəlib qolunu hissin boynuna salardı.
Fikir oynayardı.
Həyat bayram yağışı, sığırçın dolu çinar kimi bir şeydi.
Həyat o vaxtlar bir nur və gəlincik sırasıydı,
bir qucaq azadlıqdı.
Həyat o vaxtlar musiqi hovuzuydu.

O uşaq barmaqlarının ucunda uzaqlaşdı yavaş-yavaş
iynəcələr küçəsindən.
Yükümü yığıb çıxdım yüngül xəyallar şəhərindən.
Ürəyim iynəcələrə soyuqluqla dolu.

Mən dünyaya qonaq getdim:
Mən kədər çölünə,
mən irfan bağına,
mən elmin çıraqban qəsrinə getdim.
Din pilləsindən yüksəyə getdim.
Şəkk küçəsinin sonunadək,
ehtiyacsızlığın sərin havasınadək,
məhəbbətin rütubətli gecəsinədək getdim.
Mən eşqin o başında bir kəsin görüşünə getdim.
Getdim, getdim qadınadək,
ləzzət çırağınadək,
istəyin sükutunadək,
tənhalığın gur səsinədək.

Yer üzündə çox şeylər gördüm:
Bir uşaq gördüm ki, Ayı iyləyirdi.
Qapısız bir qəfəs gördüm ki, onda işıq çırpınırdı.
Bir nərdivan gördüm ki, eşq onunla göyün damına
qalxırdı.
Mən qadın gördüm ki, nuru həvəngdəstədə döyürdü.
Günorta onların süfrəsində çörək vardı, göyərti vardı,
şehin sinisi vardı,
sevginin isti kasası vardı.

Mən dilənçi gördüm ki, qapı-qapı gəzib, qaranquş
nəğməsi istəyirdi,
bir qovun qabığı önündə namaz qılırdı bir
süpürgəçi – gördüm.

Bir quzu gördüm, çərpələng yeyirdi,
Bir ulaq gördüm ki, yoncanı başa düşürdü.
«Nəsihət» otlağında tox bir inək gördüm.

Bir şair gördüm ki, zanbağa «siz» deyə müraciət edirdi.

Mən kitab gördüm, bütün sözləri büllurdan.
Kağız gördüm, bahardan.
Muzey gördüm, yaşıllıqdan uzaq,
Məscid gördüm, sudan uzaq.
Bir fəqihin balışı yanında kuzə gördüm, sualla dolu.

Bir qatır gördüm, yükü «əsər»
Bir dəvə gördüm, yükü «hikmət və nəsihətlər»in
boş səbəti.

Bir arif gördüm ki, yükü «tənnəna-ha ya hu»

Mən qatar gördüm ki, işıq aparırdı,
Mən qatar gördüm ki, fiqh aparırdı və necə ağır gedirdi.
Mən qatar gördüm ki, siyasət aparırdı (və necə də boşdu).
Mən qatar gördüm ki, nilufər toxumu və bülbül nəğməsi aparırdı.
Təyyarə gördüm ki, minlərlə fut yüksəklikdə şüşəsindən yer görünürdü:
şanapipiyin darağı,
kəpənəyin qanadındakı xalı,
qurbağanın hovuzdakı əksi
və milçəyin təhnalıq küçəsindən keçməsi.
Bir çinardan yerə enən sərçənin işıqlı istəyi.
Günəşin yetkinləşməsi.
Və gəlinciyin səhərlə gözəl qucaqlaşması.

Mən pillələr gördüm: şəhvət istixanasına,
şərab zirzəmisinə gedən pillələr.
Qızılgülün solması qanununa,
həyatın riyazi dərkinə,
işraq damına,
təcəlla səkisinə gedən pillələr.

Anam aşağıda
stəkanları çayın xatirəsində yuyurdu.

Şəhər görünürdü:
Sement, dəmir və daşın həndəsi bitkisi.
Yüzlərlə avtobusun göyərçinsiz damı.

Gülsatan güllərini hərraca çıxartmışdı.
Bir şair iki yasəmən ağacı arasında yelləncək bağlayırdı.
Bir oğlan məktəbin divarına daş atırdı.
Bir uşaq ərik çəyirdəyini atasının solğun canamazına tüpürürdü.
Və bir keçi xəritədə «Xəzər»dən su içirdi.

Bir paltarın yaxası görünürdü: dözümsüz boyunbağı.

Bir arabanın təkəri atın yorulması həsrətindəydi,
At – arabaçının yatması həsrətində,
Arabaçı da ölüm həsrətində.

Sevgi görünürdü, dalğa görünürdü.
Qar görünürdü, dostluq görünürdü.
Söz görünürdü.
Su görünürdü və şeylərin suda əksi.
Qanın qızmarında hüceyrələrin sərin kölgəliyi.
Həyatın rütubətli tərəfi.
Bəşər xislətinin kədər şərqi.
Qadın küçəsində veyillənmə fəsli.
Fəsil küçəsində tənhalıq qoxusu.

Yayın əlində bir yelpik görünürdü.

Toxumun çiçəyə səfəri.
Bu evin sarmaşığının o evə səfəri.
Ayın hovuza səfəri.
Torpaqdan novruzgülünün fəvvarəsi.
Cavan meynənin divardan sallanışı.

Yuxu körpüsünə şehin yağışı.
Ölüm xəndəyindən sevincin uçuşu.
Sözün arxasından hadisənin sovuşu.

Bir bacanın nurun istəyi ilə döyüşü.
Bir pillənin Günəşin uzun ayağı ilə döyüşü.
Tənhalığın bir nəğməylə döyüşü.
Armudların bir zənbilin boşluğu ilə gözəl döyüşü.
Nar ilə dişin qanlı döyüşü.
«Nasist»lərin küsdümağacı ilə döyüşü.
Tutuquşu ilə bəlağətin döyüşü.
Alının möhrün soyuqluğu ilə döyüşü.

Məsciddəki kaşının səcdəyə hücumu.
Küləyin sabun köpüyünün meracına hücumu.
Kəpənək ləşkərinin «ziyanvericilərlə mübarizə» proqramına hücumu.
İynəcə dəstəsinin boruçəkən fəhlələrə hücumu.
Qamış qələmin qara alayının qurğuşun hərflərə hücumu.
Sözün şairin fikrinə hücumu.

Bir əsrin bir şeir tərəfindən işğalı.
Bir bağın bir sığırçın tərəfindən işğalı.
Bir küçənin iki salam tərəfindən işğalı.
Bir şəhərin üç-dörd qarğı atlı tərəfindən işğalı.
Bir bayramın iki gəlincik, bir top tərəfindən işğalı.

Günortadan sonra döşək üstündə bir şax-şaxın qətli.
Yuxu küçəsində bir nağılın qətli.
Nəğmənin göstərişiylə bir qüssənin qətli.

Neonun fərmanıyla Ayın qətli.
Dövlət tərəfindən bir söyüdün qətli.
Qarçiçəyi tərəfindən bir sevdalı şairin qətli.

Bütün yer üzü görünürdü:
Qayda-qanun Yunanıstan küçəsi ilə gedirdi.
Bayquş «Asma bağ»da ulayırdı.
Külək Xeybər gədiyində tarix samanının bir dərzini Şərqə qovurdu.
Sakit Nəgin gölü üzərində bir qayıq gül aparırdı.
Benaresdə hər küçənin başında bir əbədi çıraq yanırdı.

Adamları gördüm.
Şəhərləri gördüm.
Çölləri, dağları gördüm.
Suyu, torpağı gördüm.
İşığı, qaranlığı gördüm.
Bitkiləri işıqda və qaranlıqda gördüm.
Heyvanları işıqda və qaranlıqda gördüm.
İnsanları işıqda və qaranlıqda gördüm.

Kaşanlıyam, amma
mənim şəhərim Kaşan deyil.
Mənim şəhərim itib.
Mən səbrlə, qızğınlıqla
gecənin o biri tərəfində ev tikmişəm.

Mən bu evdə otun rütubətli tanınmazlığına yaxınam.
Mən bağçanın nəfəs səsini eşidirəm
və bir yarpaqdan süzülərkən, zülmətin səsini.

Və bir ağacın arxasından işığın öskürməsini,
hər daş yarığından suyun asqırmasını,
baharın tavanından qaranquşun dammasını.
Və tənhalıq pəncərəsinin açılıb-örtülməsinin saf səsini.
Və sevginin mübhəm şəkildə qabığını dəyişməsinin pak səsini,
qanadda uçmaq zövqünün yığılmaq,
ruhun müqavimətinin dağılmaq səsini.
Mən istəyin qədəm səsini eşidirəm
və damarda qanın qanuni addım səsini,
göyərçin quyusunun səhər çırpıntısını,
cümə gecəsinin ürək döyüntüsünü,
fikirdə qərənfilin axışını,
uzaqdan həqiqətin pak hayqırtısını.
Mən maddənin əsmək səsini eşidirəm
və şövq küçəsində imam başmağının səsini.
Və sevginin nəm göz qapaqları üzərində,
yetkinliyin qəmli musiqisi üzərində,
nar bağlarının nəğməsi üzərində yağışın səsini.
Və gecə vaxtı şadlıq şüşəsinin çiliklənmək,
gözəllik kağızının parça-parça olmaq,
qürbət kasasının havayla dolub-boşalmaq səsini.

Mən yerin başlanğıcına yaxınam.
Güllərin nəbzini tuturam.
Tanışam suyun nəm qismətiylə, ağacın yaşıl adətiylə.

Mənim ruhum əşyaların təzə tərəfində axır.
Mənim ruhum azyaşlıdır.
Mənim ruhumun bəzən şövqdən öskürəyi tutur.

Mənim ruhum bekardır:
Yağış damlalarını, kərpic yarıqlarını sayır.
Mənim ruhum bəzən yoldakı daş kimi gerçəkdir.

Mən görmədim ki, iki küknar bir-birinə düşmən olsun.
Mən görmədim ki, bir söyüd öz kölgəsini yerə satsın.
Qarağac öz budağını qarğaya havayı verir.
Harda bir yarpaq varsa, könlüm açılır.
Bir xaşxaş kolu məni varlıq selində yuyub.

Mən həşəratın qanadı tək səhərin çəkisini bilirəm.
Mən bir güldan kimi cücərməyin musiqisini dinləyirəm.
Mən meyvə dolu zənbil kimi çatmağa tələsirəm.
Mən bir meyxanə təki süstlüyün sərhədindəyəm.
Mən dəniz sahilindəki ev kimi hündür əbədi dalğalardan nigaranam.

İstədiyin qədər Günəş, istədiyin qədər bağlılıq, istədiyin qədər çoxalma.

Mən bir almaya sevinirəm
və bir çobanyastığını iyləməyə.
Mən bir güzgüyə, bir saf bağlılığa qane oluram.
Mən gülmürəm, əgər bir hava şarı partlayırsa.
Və gülmürəm, əgər bir fəlsəfə Ayı paralayırsa.
Mən bildirçin qanadının səsini tanıyıram,
dovdağın qarnındakı rəngləri, dağ keçisinin ayaq izlərini də.
Mən yaxşı bilirəm, ravənd harda bitir,
sığırçın nə vaxt gəlir, kəklik nə vaxt oxuyur,
tərlan nə vaxt ölür,

çölün yuxusundakı Ay,
arzu saplağındakı ölüm
və sevişməyin dişi altındakı həzz moruğu nədir.

Həyat xoş bir qaydadır.
Həyatın qanadı var – ölüm genişliyində,
uçuşu var – sevgi qədərində.
Həyat adət taxçasının küncündə sənin-mənim yadımız-
dan çıxası bir şey deyil.
Həyat dərən əlin cazibəsidir.
Həyat yayın turş ağzında qara əncirin nübarıdır.
Həyat həşəratın gözündə ağacın ölçüsüdür.
Həyat yarasanın qaranlıqdakı təcrübəsidir.
Həyat köçəri bir quşun qəriblik hissidir.
Həyat bir körpünün yuxusunda dolaşan qatar fitidir.
Həyat təyyarənin qapalı pəncərəsindən bir bağçanı gör-
məkdir.
Raketin fəzaya uçması xəbəri,
Ayın tənhalığına toxunmaq,
başqa planetlərdə gül iyləmək fikridir.

Həyat bir boşqabı yumaqdır.

Həyat yol qırağındakı arxdan onşahılıq tapmaqdır.
Həyat güzgünün «kvadrat»ıdır.
Həyat əbədiyyət «qüvvət»li güldür.
Həyat bizim ürəyimizin döyüntüsündə yerin
«vurma»sıdır.
Həyat nəfəslərin sadə və yeknəsəq «həndəsə»sidir.

Harda oluramsa olum,
səma mənimkidir.
Pəncərə, düşüncə, hava, sevgi, yer mənimkidir.
Nə əhəmiyyəti var
bəzən bitməsinin
qürbət göbələklərinin?!

Mən bilmirəm,
niyə deyirlər: at nəcib heyvandır, göyərçin gözəldir.
Və niyə heç kəsin qəfəsində kərkəs yoxdur.
Yonca çiçəyinin qırmızı lalədən nəyi əskikdir.
Gözləri yumaq gərək, başqa cür görmək gərək.
Sözləri yumaq gərək.
Söz gərək küləyin özü, söz gərək yağışın özü olsun.

Çətirləri yığmaq gərək,
Yağışın altına getmək gərək
Düşüncəni, xatirəni yağışın altına tutmaq gərək.
Bütün şəhər əhli ilə yağışın altına getmək gərək.
Dostu yağışın altında tapmaq gərək.
Sevgini yağışın altında aramaq gərək.
Yağışın altında qadınla yatmaq gərək.
Yağışın altında oynamaq gərək.
Yağışın altında nəsə yazmaq, danışmaq, nilufər
əkmək gərək.
Həyat dalbadal islanmaq,
Həyat «indi» hovuzunda çimməkdir.

Paltarımızı soyunaq:
Su bir addımlıqdadır.

İşığı dadaq.
Bir kəndin gecəsini, bir ceyranın yuxusunu
tərəzidə çəkək.
Leylək yuvasının istisini duyaq.
Çəmənliyin qanununu tapdalamayaq.
Üzümlükdə dadın düyününü açaq.
Və Ay çıxanda ağzımızı açaq.
Və deməyək ki, gecə pis bir şeydir.
Və deməyək ki, işıldaquş bağı görmür.

Və səbət gətirək,
bütün bu qırmızını, bütün bu yaşılı aparaq.

Səhərlər pendir-çörək yeyək.
Və hər sözün döngəsində bir fidan əkək.
Və iki hecanın arasına sükut toxumu səpək.
Və oxumayaq o kitabı ki, onda yel əsmir.
Və o kitabı ki, onda şehin qabığı nəm deyil.
Və o kitabı ki, onda hüceyrələr ölçüsüzdür.
Və istəməyək ki, milçək təbiətin barmağından uçsun.
Və istəməyək ki, pələng xilqət qapısından çıxıb getsin.
Və bilək ki, əgər soxulcan olmasaydı, həyatda nəsə çatışmazdı.
Və əgər tırtıl olmasaydı, ağacın qanununa zərbə dəyərdi.
Və əgər ölüm olmasaydı, əlimiz nəyisə axtarardı.
Və bilək ki, nur olmasaydı, uçuşun canlı məntiqi
başqalaşardı.
Və bilək ki, mərcandan qabaq, dənizlərin düşüncəsində
bir boşluq vardı.

Və soruşmayaq ki, hardayıq,
İyləyək xəstəxanadakı təzə petunyanı.

Və soruşmayaq ki, bəxt fəvvarəsi haradadır.
Və soruşmayaq ki, niyə həqiqətin ürəyi mavidir.
Və soruşmayaq ki, ata-babalarımızın necə mehi, necə gecəsi olub.
Arxada canlı fəza yoxdur.
Arxada quş oxumur.
Arxada külək əsmir.
Arxada küknarın yaşıl pəncərəsi bağlıdır.
Arxada bütün fırfıraları toz basıb.
Arxada tarixin yorğunluğu var.
Arxada dalğanın xatirəsi sahilə soyuq sükut sədəfi tökür.

Dəniz qırağına gedək.
Suya tor ataq
və sudan təravət tutaq.

Yerdən bir qum götürək,
olumun çəkisini hiss edək.

Qızdırmalı olanda, Aya acıqlanmayaq
(Mən görmüşəm ki, bəzən qızdırmalı olanda Ay aşağı enir,
göylərin tavanına əl çatır.
Görmüşəm ki, bülbül daha yaxşı oxuyur.
Bəzən ayağımda olan yara yerin zilini-bəmini mənə öyrədib.

Bəzən mənim xəstəlik yatağımda gülün həcmi
bir neçə dəfə böyüyüb,
narıncın diametri, çırağın şüası artıb.)
və ölümdən qorxmayaq
( Ölüm göyərçinin sonu deyil.
Ölüm bir sisəyin aşması deyil.
Ölüm akasiyanın zehnində axır.
Ölüm düşüncənin xoş ab-havasında yuva qurub.
Ölüm kənd gecəsinin mahiyyətində səhərdən danışır.
Ölüm üzüm salxımı ilə ağıza girir.
Ölüm birəbitdənin boğazında oxuyur.
Ölüm kəpənək qanadlarının gözəlliyinə cavabdehdir.
Ölüm bəzən reyhan dərir.
Ölüm bəzən araq içir.
Bəzən də bir kölgədə oturub bizə baxır.
Və hamımız bilirik ki, ləzzətin ciyərləri ölüm
oksigeni ilə doludur).

Qapını bağlamayaq taleyin səs çəpərlərinin
arxasından eşitdiyimiz
canlı sözünün üzünə.

Pərdəni götürək:
Qoy hisslər bir hava udsun.
Qoy yetkinlik istədiyi kolun dibində məskən salsın.
Qoy instinkt oynamağa başlasın.
Ayaqqabılarını çıxardıb fəsillərin ardınca
güllərin üstündən tullansın.
Qoy tənhalıq nəğmə oxusun.

Nəsə yazsın.
Küçəyə çıxsın.

Sadə olaq.
İstər bir bankın üstündə, istərsə bir ağacın altında, sadə olaq.

Qızılgülün «sirri»ni tapmaq bizim işimiz deyil,
bizim işimiz, görünür, budur ki,
qızılgülün «ovsun»unda üzək.
Biliyin arxasında düşərgə salaq.
Bir yarpağın cazibəsində əlimizi yuyub süfrəyə oturaq.
Səhərlər Günəş doğanda, doğulaq.
Həyəcanları uçuraq.
Fəzanı, rəngi, səsi, gülün pəncərəsini duymağın üzünə su vuraq.
Səmanı «varlığ»ın iki hecası arasında oturdaq.
Ciyərimizi əbədiyyətlə doldurub-boşaldaq.
Bilik yükünü qaranquşun çiynindən yerə qoyaq.
Adı geri alaq buluddan,
çinardan, ağcaqanaddan, yaydan.
Yağışın yaş ayaqları üstündə məhəbbət zirvəsinə yollanaq.
Qapımızı insanın, işığın, otun, həşəratın üzünə açaq.

Bizim işimiz, görünür, budur ki,
nilufər gülü ilə əsr arasında
həqiqətin səsi ardınca qaçaq.

## BƏDİİ MƏTNLƏRİN SEÇİLDİYİ ƏDƏBİYYATLAR


1. Aida İmanquliyeva. Məqalələr və tərcümələr. Bakı, «Bakı Çap Evi», 2010, 488 s.
2. Əbdürrəhman Cami. Bakı, «Azərnəşr», 1965, 219 s.
3. Əbdürrəhman Cami. Seçilmiş əsərləri. Bakı, «Öndər nəşriyyat», 2004, 320 s.
4. Əmir Xosvrov Dəhləvi. Şirin və Xosrov. Bakı, «Avrasya Press», 2006, 248 s.
5. Fəxri Gürgani. Vis və Ramin. Bakı, «Azərnəşr», 1974, 479 s.
6. Firdovsi. Şahnamə. 2 cilddə, I cild. Bakı, «Nurlar», 2005, 992 s.
7. Həbib Dərzinəvəsi. Ömər Xəyyamın rübailəri. Şimali Kipr Türk Cümhuriyyəti, Lefkoşa, 2007, 304 s.
8. Hafiz Şirazi. Seçilmiş şeirlər. Bakı, Azərnəşr, 1967, 249 s.
9. Xəlilov S. Şərq ruhunun Qərb həyatı (Aida İmanquliyevanın yaradıcılıq axtarışlarının izi ilə). Bakı, «Şərq-Qərb», 2009, 380 s.
10. Xəlil Rza Ulutürk. Dünyaya pəncərə. Bakı, «Çinar-çap», 2010, 1151 s.
11. İsti nəfəs (tacik ədəbiyyatından seçmələr). Bakı, «Yazıçı», 1984, 294 s.
12. İnci xəzinəsi. Bakı, «Gənclik», 1977, 239 s.

13. Kəlilə və Dimnə. Bakı, «Azərnəşr», 1982, 317 s.
14. Qabusnamə. Bakı, «Azərnəşr», 1989, 237 s.
15. Qədim Şərq ədəbiyyatı. Bakı, «Azərbaycan Ensiklopediyası» NPB, 1999, 584 s.
16. Mirzo Tursunzadə. Hindistan balladası. Bakı, Uşaqgəncnəşr, 1950, 43 s.
17. Nasir Xosrov. Səfərnamə. Bakı, «Elm», 1997, 178 s.
18. Ömər Xəyyam. Rübailər. Bakı, «Azərnəşr», 1984, 114 s.
19. Pamir çiçəkləri. Bakı, «Azərnəşr», 1964, 120 s.
20. Rabindranat Taqor. Seçilmiş əsərləri. Bakı, «Çaşıoğlu», 2006, 312 s.
21. Rabindranat Taqor. Seçilmiş əsərləri, 8 cilddə, VII c., Bakı, «Azərnəşr», 1965, 298 s.
22. Sədi Şirazi. Bustan. Bakı, «Azərnəşr», 1964, 253 s.
23. Sədi Şirazi. Gülüstan. Bakı, «Azərnəşr», 1987, 284 s.
24. Söhrab Sipehri. Suyun ayaq səsi. Bakı, «Mütərcim», 2010, 60 s.
25. Sevgi fəsli. Bakı, «Çinar-çap», 2010, 288 s.
26. Şemsettin Küzeci. Kərkük şairləri (İrak Türkmən şairləri). I c., Ankara, 2006, 624 s.
27. Şemsettin Küzeci. Kərkük şairləri (İrak Türkmən şairləri). II c., Ankara, 2007, 624 s.

# MÜNDƏRİCAT

**BİR NEÇƏ SÖZ**.....3

**QƏDİM ŞUMER ƏDƏBİYYATI**

**«Bilqamıs» dastanı** *(Tərcümə edən: İsmayıl Vəliyev)*.....*9*

**İRAN ƏDƏBİYYATI**

**RUDƏKİ** .....**49**
**Qocalığım, gəncliyim** *(Tərcümə edən: Xəlil Rza Ulutürk)* .....*51*
**Bahar** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*52*
**Dünya – mehmanxana, sənsə bir qonaq** *(Tərcümə edən: Abbasəli Sarovlu)*..*53*
**Gözəl yarım, Yusifə zillətdə, azadlıqda** *(Tərcümə edən: Abbasəli Sarovlu)*..*54*
**Sənsiz istəmirəm günəş görünsün** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*54*
**Qəza tək dadıma bir çatanım yox!** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*55*
**Ey ürək, həyatın döyünməkdədir** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*55*

**ƏBÜLQASIM FİRDOVSİ**.....**56**
**Şahnamə** *(Tərcümə edən: Mübariz Əlizadə)*.....*61*

**QABUSNAMƏ** *(Tərcümə edən: Rəhim Sultanov)*.....*171*

**NASİR XOSROV** .....**218**
**Səfərnamə** *(Tərcümə edən: Tahir Məhərrəmov)* .....*220*
**Qartal lələkli ox** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....*263*
**Kəndliyə sitayiş** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*263*
**Sənətkara sitayiş** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*264*
**Nəsihət** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....*265*
**Bilik** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....*265*
**Pislik və nəciblik** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*266*
**Allahla mübahisə** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....*267*
**Qılınc ol** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....*275*
**Məddah şairləri məzəmmət** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....*276*

**FƏXRİ GÜRGANİ** .....**277**
**Vis və Ramin** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....*280*

**SƏNAİ QƏZNƏVİ** .....**389**
**Gərək** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....*390*

**İnsanı ucaldar elmi, əməli** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....390
**Tapar zəhmət əhli xəzinə, qaş-daş** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....391
**Ölüm qorxusu** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....391
**Rübailər** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....393

**İMADİ** .....395
**Taleyim ki, bu yamyaşıl çəmənzara salıb məni**
*(Tərcümə edən: Abbasəli Sarovlu)* .....396
**Sanki bir mələk vardır bu lacivərd göylərdə**
*(Tərcümə edən: Abbasəli Sarovlu)* .....397

**ƏNVƏRİ ƏBİVƏRDİ** .....398
**Qənaət və comərdlik haqqında** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....399
**Zəmanədən şikayət** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....399
**Bir həkimi məzəmmət** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....400
**Həcv** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....400
**Nəsihət** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....400
**Öyüd** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....400
**Fələkdən şikayət** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....401
**Öz ləyaqətini qorumaq haqqında** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....402
**Qəzəl** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....403
**Hikmət və nəsihət** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....403
**Hikmət** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....404
**Qitələr** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....404
**Varlının xəsisliyi** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....405
**Heyhat** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....405
**Zəmanə əhlindən şikayət** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....405
**Giley** *(Tərcümə edən: Abbasəli Sarovlu)* .....406
**Rübailər** *(Tərcümə edən: Abbasəli Sarovlu)*.....406

**ÖMƏR XƏYYAM**.....407
**Rübailər** *(Tərcümə edən: Əkrəm Cəfər)*.....410
**Rübailər** *(Tərcümə edən: Həbib Dərzinəvəsi)*.....416

**SƏDİ ŞİRAZİ** .....418
**Bustan** *(Tərcümə edən: M.Seyidzadə)* .....422
**Gülüstan** *(Tərcümə edənlər: şeirlər - Məmmədağa Soltan, nəsr - Rəhim Sultanov və İsmayıl Şəms)* .....482

**HAFİZ ŞİRAZİ** *(Tərcümə edən: Əbülfəzl Hüseyni)*.....538
**Qəzəllər** *(Tərcümə edən: Əbülfəzl Hüseyni)* .....542

**Saqinamələr** *(Tərcümə edən: Əbülfəzl Hüseyni)* ..... *556*
**Məsnəvi** *(Tərcümə edən: Əbülfəzl Hüseyni)* ..... *561*
**Rübailər** *(Tərcümə edən: Əbülfəzl Hüseyni)* ..... *563*
**Qitə** *(Tərcümə edən: Əbülfəzl Hüseyni)* ..... *565*

**ƏBDÜRRƏHMAN CAMİ** ..... **566**
**Yusif və Züleyxa** *(Tərcümə edən: Mübariz Əlizadə)* ..... *569*
**Baharistan** *(Tərcümə edən: Rəhim Sultanov)* ..... *664*
**Biri könül açan, birindən zəhlə qaçan iki növ şeirin tərifi və xüsusiyyətləri** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *695*
**İsgəndərin əhalisi xoşbəxt həyat sürən bir ölkəyə yetişməsi** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *696*
**Qitə** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *700*

**NİMA YUŞİC** ..... **701**
**Dustaqlar** *(Tərcümə edən: Xəlil Rza Ulutürk)* ..... *702*

**NADİR NADİRPUR** ..... **707**
**Ata** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *708*
**Üzüm şeiri** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *710*
**Qəzəb mahnısı** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *714*

**FÜRUĞ FƏRRUXZAD** ..... **716**
**Bacıma** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *717*
**Sənə yazıram bu şeiri** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *718*

**RZA BƏRAHƏNİ** ..... **721**
**Söz** *(Tərcümə edən: Səlim Babullaoğlu)* ..... *721*
**39-cu ağac** *(Tərcümə edən: Səlim Babullaoğlu)* ..... *721*
**Kəpənəklərə** *(Tərcümə edən: Səlim Babullaoğlu)* ..... *722*
**Əhməd Şamlu ilə** *(Tərcümə edən: Səlim Babullaoğlu)* ..... *723*

**SÖHRAB SİPEHRİ** ..... **724**
**Rəngin ölümü** *(Tərcümə edən: Məsiağa Məhəmmədi)* ..... *726*
**Qüruba doğru** *(Tərcümə edən: Məsiağa Məhəmmədi)* ..... *727*
**Nilufər** *(Tərcümə edən: Məsiağa Məhəmmədi)* ..... *728*
**Qürbət** *(Tərcümə edən: Məsiağa Məhəmmədi)* ..... *729*
**Balıqların sifarişi** *(Tərcümə edən: Məsiağa Məhəmmədi)* ..... *730*
**Suyun ayaq səsi** *(poema) (Tərcümə edən: Məsiağa Məhəmmədi)* ..... *731*

**BƏDİİ MƏTNLƏRİN SEÇİLDİYİ ƏDƏBİYYATLAR** ..... **748**

# İKİNCİ CİLDİN MÜNDƏRİCATI

**BİR NEÇƏ SÖZ** ..... **3**

**HİND ƏDƏBİYYATI**

**Qədim Hind ədəbiyyatı nümunəsi** ..... **9**
Mahabharata və ya Bharata oğullarının böyük vuruşları haqqında dastan
*(Tərcümə edən: Natiq Səfərov; şeir parçalarını tərcümə edən Çingiz Əlioğlu)* ..... *9*

**MÖHTƏŞƏM ŞƏRQ ABİDƏSİ** ..... **42**
**KƏLİLƏ VƏ DİMNƏ** *(Tərcümə edən: Rəhim Sultanov)* ..... *44*

**ƏMİR XOSROV DƏHLƏVİ** ..... **198**
**Şirin və Xosrov** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *202*
**Qitələr** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *259*
**Rübailər** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *260*

**RABİNDRANAT TAQOR** ..... **264**
**Açılmış sirr** *(Tərcümə edənlər: Mehdi Mirkişiyev, Beydulla Musayev)* ..... *266*
**Çarəsiz bədbəxtlik** *(Tərcümə edənlər: Mehdi Mirkişiyev, Beydulla Musayev)* ... *275*
**Dəftər** *(Tərcümə edənlər: Mehdi Mirkişiyev, Beydulla Musayev)* ..... *279*
**Həyat** *(Tərcümə edən: Məmməd Rahim)* ..... *286*
**Mahnının nəfəsi** *(Tərcümə edəni: Rəhim Sultanov)* ..... *287*
**Niyə?** *(Tərcümə edən: Rəhim Sultanov)* ..... *287*
**Əllər** *(Tərcümə edən: Rəhim Sultanov)* ..... *288*
**Şübhə çulğalayırkən** *(Tərcümə edən: Rəhim Sultanov)* ..... *289*
**Ana Benqaliya** *(Tərcümə edən: Rəhim Sultanov)* ..... *290*
**Yelkənli qayıq** *(Tərcümə edən: Rəhim Sultanov)* ..... *291*

**MİSİR ƏDƏBİYYATI**

**Qədim poeziya nümunələri** ..... **295**
**Ölümün öyülməsi** *(Tərcümə edən: İsmayıl Vəliyev)* ..... *295*
**Nilin öyülməsi** *(Tərcümə edən: İsmayıl Vəliyev)* ..... *296*
**İlahəyə** *(Tərcümə edən: İsmayıl Vəliyev)* ..... *302*
**Səhər günəşinə** *(Tərcümə edən: İsmayıl Vəliyev)* ..... *302*

**Qədim nəsr nümunələri** ..... **303**
**Gəmi qəzasına uğramışın nağılı** *(Tərcümə edən: Elman Ağaoğlu)* ..... *303*
**Məhkum olunmuş şahzadə** *(Tərcümə edən: Elman Ağaoğlu)* ..... *310*

**FATİMƏ NAOOT** ..... **316**
**Kor** *(Tərcümə edən: Qəşəm Nəcəfzadə)* ..... *316*
**Kənd idiotu** *(Tərcümə edən: Qəşəm Nəcəfzadə)* ..... *317*

## LİVAN ƏDƏBİYYATI

**CÜBRAN XƏLİL CÜBRAN** ..... **321**
**Qırılmış qanadlar** *(Tərcümə edənlər: Gövhər Baxşəliyeva, Əfsanə Məmmədova)*. *323*
**Peyğəmbər** *(Tərcümə edən: Müşfiq Şükürov)* ..... *409*

**MİXAİL NUAYMƏ** ..... **461**
**«Qu-qu» saat** *(Tərcümə edən: Aida İmanquliyeva)* ..... *463*
**İnsan və quş***(Tərcümə edən: Aida İmanquliyeva)* ..... *470*
**Buz əriyəcək***(Tərcümə edən: Aida İmanquliyeva)* ..... *474*
**Ey dəniz** *(Tərcümə edən: Könül Bünyadzadə)* ..... *479*
**Qovğa** *(Tərcümə edən: Könül Bünyadzadə)* ..... *480*
**İnsanları görəndə** *(Tərcümə edən: Könül Bünyadzadə)* ..... *481*
**Yaxşılıq və pislik** *(Tərcümə edən: Könül Bünyadzadə)* ..... *482*

**ƏMİR ƏR-REYHANİ** ..... **484**
**Sufi nəğməsi** *(Tərcümə edən: Könül Bünyadzadə)* ..... *486*
**Uzaqların Allahı, bizi dinlə** *(Tərcümə edən: Könül Bünyadzadə)* ..... *486*
**Yağışın nəğməsi** *(Tərcümə edən: Könül Bünyadzadə)* ..... *487*
**Su və güllər** *(Tərcümə edən: Könül Bünyadzadə)* ..... *488*
**Mistiklərin nəğməsi** *(Tərcümə edən: Könül Bünyadzadə)* ..... *489*

**SÜHEYL İDRİS** ..... **494**
**Azadlıq** *(Tərcümə edən: Aida İmanquliyeva)* ..... *495*

**MİŞEL SÜLEYMAN** ..... **503**
Xalqın qüdrəti *(Tərcümə edən: Əliağa Kürçaylı)* ..... *504*
İşıq və duman arasında bir an *(Tərcümə edən: Nəbi Xəzri)* ..... *504*
Üsyankar hüzn *(Tərcümə edən: Əliağa Kürçaylı)* ..... *505*
Şəhid *(Tərcümə edən: Əliağa Kürçaylı)* ..... *506*
Cənnət quşu *(Tərcümə edən: Əliağa Kürçaylı)* ..... *507*

## İRAQ ƏDƏBİYYATI

**SAHİB CAMAL** ..... **511**
**Yusif** *(Tərcümə edən: Aida İmanquliyeva)* ..... *511*

**ƏBDÜL VAHAB ƏL-BAYATİ** ..... **520**
**Yağış** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *521*
**Küləklə kül** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *521*
**Bəsrə** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *522*

**ƏLİ ƏL-HİLLİ** ..... **524**
**Daşkəndə məktub** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *525*

**YUSİF ƏL-SAİĞ** ..... **526**
**Qan çiçəyi** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *527*
**Zəfər ətri** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *527*

**HƏSƏP ƏL-ŞEYX CƏFƏR** ..... **529**
**İtmiş vadi** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *530*

**SAMİ MEHDİ** ..... **531**
**Qaraltı** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *532*
**Gizliliklər** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *532*

**MƏHƏMMƏD ƏL-BƏDRİ** ..... **534**
**İşarələr** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *535*
**Şəhid** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *536*

**İRAQ-TÜRKMAN ƏDƏBİYYATI**

**ƏBDÜLLƏTİF BƏNDƏROĞLU** ..... **539**
**Öz dilim** ..... 541
**Qız qalası** ..... 541
**Üç damla yağış** ..... 543
**Düşüncədə yaşamaq** ..... 544
**Gur-gur baba** ..... 545

**NƏSRİN ƏRBİL** ..... **554**
**İki şehir** ..... 555
**Şey** ..... 555
**Dertli kuşlar** ..... 556
**Kerkük şehitlerine** ..... 556
**Sönmesin ocağımız** ..... 557

**SALAH NÖVRƏS** ..... **559**
**Dünya gözəli** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *560*
**Köşkümüz** *(Tərcümə edən: Əbdüllətif Bəndəroğlu)* ..... *560*

**MEHMET MEHDİ BAYAT** ..... **561**
**Kaytaz baba** ..... 562
**Karabağ şikestesi** ..... 565
**Ben nerdeyim vatan orada** ..... 466
**Gül hanım** ..... 568

**ƏLCƏZAİR ƏDƏBİYYATI**

**MƏHƏMMƏD DİB** ..... **571**
**Hasin dermek** *(Tərcümə edən: Aida İmanquliyeva)* ..... *571*

## İORDANİYA ƏDƏBİYYATI

**MACİD ZEYYİB ĞƏNƏMA** ..... **581**
**Növbəyə dayanmaq** *(Tərcümə edən: Aida İmanquliyeva)* ..... *581*
**Vətənin portreti** *(Tərcümə edən: Aida İmanquliyeva)* ..... *586*

## FƏLƏSTİN ƏDƏBİYYATI

**MUİN BSİSU, MAHMUD DƏRVİŞ** ..... **591**
**İsrailli əsgərə məktub** (poemadan parça) *(Tərcümə edən: Rafiq Yusifoğlu)* ... *591*

**MAHMUD DƏRVİŞ** ..... **596**
**Quşlar ölür Cəlildə** *(Tərcümə edən: Nəriman Qasımoğlu)* ..... *597*
**Şəxsi vəsiqə** *(Tərcümə edən: Nəriman Qasımoğlu)* ..... *599*
**İnsan haqqında** *(Tərcümə edən: Nəriman Qasımoğlu)* ..... *601*
**Uzaq şəhərdə qərib** *(Tərcümə edən: Nəriman Qasımoğlu)* ..... *602*

**ATEF ƏL-BUTRUS** ..... **604**
**Beyrutum mənim** *(Tərcümə edən: Qasım Qasımzadə)* ..... *604*

## TACİK ƏDƏBİYYATI

**ƏBÜLQASİM LAHUTİ** ..... **609**
**Hicazi yoldaşın ölümü haqqında** *(Tərcümə edəni: Əli Tudə)* ..... *610*
**Laylay** *(Tərcümə edən: Əli Tudə)* ..... *611*
**Azərbaycanın səsi** *(Tərcümə edəni: Əli Tudə)* ..... *613*
**Gördüm** *(Tərcümə edən: Cabir Novruz)* ..... *613*
**Dəli könlümü viranə etdin** *(Tərcümə edən: Cabir Novruz)* ..... *614*
**Sülhsevərlər marşı** *(Tərcümə edən: Cabir Novruz)* ..... *615*
**Dördlüklər** *(Tərcümə edən: Cabir Novruz)* ..... *617*

**SƏDRƏDDİN AYNİ** ..... **618**
**Nə vaxtacan?** *(Tərcümə edən: Cabir Novruz)* ..... *619*

**ƏBDÜCABBAR QƏHHARİ** ..... **620**
**Gül və Gülsatan** *(Tərcümə edən: Abbasəli Sarovlu)* ..... *621*

**MİRZƏ TURSUNZADƏ** ..... **623**
**Qanq** *(Tərcümə edən: Qasım Qasımzadə)* ..... *624*
**Tara – Çandri** *(Tərcümə edən: Qasım Qasımzadə)* ..... *627*
**Bombey bağları** *(Tərcümə edən: Qasım Qasımzadə)* ..... *631*
**Vətənə qayıdarkən** *(Tərcümə edən: Qasım Qasımzadə)* ..... *632*
**Daha nə istəyirsən?** *(Tərcümə edən: Əhəd Muxtar)* ..... *633*

**LAYİQ ŞİRƏLİ** ..... **634**
**Rudəki** *(Tərcümə edən: Əhəd Muxtar)* ..... *635*
**Çayın nəğməsi** *(Tərcümə edən: Məmmədağa Soltanov)* ..... *635*

**MİRSƏİD MİRŞƏKƏR** ..... **637**
**Sizinlə tanışam** *(Tərcümə edən: Əhəd Muxtar)* ..... *638*
**İlham mənbəyim** *(Tərcümə edən: Əhəd Muxtar)* ..... *639*

**BASİR RASO** ..... **640**
**Nəğmə** *(Tərcümə edən: Tofiq Nurəli)* ..... *640*
**Təzə əfsanə** *(Tərcümə edən: Tofiq Nurəli)* ..... *641*
**Adi sual** *(Tərcümə edən: Tofiq Nurəli)* ..... *642*

**GÜLRÜXSOR SƏFİYEVA** ..... **643**
**Aşiq deyiləmsə** *(Tərcümə edən: Əhəd Muxtar)* ..... *643*

## PAKİSTAN ƏDƏBİYYATI

**MƏHƏMMƏD İQBAL** ..... **647**
**Balasına şahinin öyüdü** *(Tərcümə edən: Xəlil Rza Ulutürk)* ..... *647*
**Hindistan himni** *(Tərcümə edən: Xəlil Rza Ulutürk)* ..... *649*
**Tanrı və insan** *(Tərcümə edən: Xəlil Rza Ulutürk)* ..... *650*
**Məhəbbət və ölüm** *(Tərcümə edən: Xəlil Rza Ulutürk)* ..... *651*
**Şikayət** *(Tərcümə edən: Xəlil Rza Ulutürk)* ..... *653*

**FAİZ ƏHMƏD FAİZ** ..... **655**
**Dua** *(Tərcümə edən: Çingiz Əlioğlu)* ..... *656*
**İki səs** *(Tərcümə edən: Çingiz Əlioğlu)* ..... *657*
**Bu zincire vuruluş, bu dar ağacı anı** *(Tərcümə edən: Halil Köksal)* ..... *659*
**Hapishanede bir akşam üstü** *(Tərcümə edən: Halil Köksal)* ..... *660*
**İki cihanda da yitiriyor aşkını** *(Tərcümə edən: Toğrul Asi Balkar)* ..... *661*
**Konuş** *(Tərcümə edən: Toğrul Asi Balkar)* ..... *661*
**Rübai** *(Tərcümə edən: Toğrul Asi Balkar)* ..... *662*

## ƏFQAN ƏDƏBİYYATI

**MİR ƏBDÜLQADİR ƏBHƏR** ..... **665**
**Bir yaz gecəsi** *(Tərcümə edən: Məmmədağa Sultanov)* ..... *665*
**Rübailər** *(Tərcümə edən: Məmmədağa Sultanov)* ..... *665*

**MUCAVƏR ƏHMƏD ZİYAR** ..... **668**
**İnqilab beşiyi** *(Tərcümə edən: Seyran Səxavət)* ..... *668*

**SÜLEYMAN LAYİQ** ..... **670**
**Bahar gəlir** *(Tərcümə edən: Balaş Azəroğlu)* ..... *670*
**Yelkən** *(Tərcümə edən: Balaş Azəroğlu)* ..... *671*

**ABDULLA BƏXTANİ XİDMƏTKAR** ..... **673**
**Məhəbbət dili** *(Tərcümə edən: Şahin Fazil)* ..... *673*

**BƏDİİ MƏTNLƏRİN SEÇİLDİYİ ƏDƏBİYYATLAR** ..... **674**

**Elman Hilal oğlu Quliyev**

# ŞƏRQ XALQLARI ƏDƏBİYYATI

**(müntəxəbat)**

***2 cilddə***

***1-ci cild***

Nəşriyyat direktoru
*Müşfiq Məmmədov*

Texniki redaktoru
*Hans Klos*

Çapa məsul
*Gündüz İsmayılov*

*Çapa imzalanmış 20.06.2011,*
*formatı 70x100 , fiziki ç.v 95,*
*ofset kağızı №1, tayms qarnituru,*
*sifariş K121. Sayı 500*